HƏYAT DƏRSLİYİ

Bu kitabın məziyyətləri haqqında danışmazdan əvvəl onun müəllifi barədə bir neçə söz demək istəyirəm. Əlinə qələm almağa, yazmağa, kimə isə öyüd-nəsihət verməyə hamının hüquqi cəhətdən ixtiyarı var. Ancaq mənəvi cəhətdən yalnız o şəxsin belə işlərə girişməyə haqqı çatar ki, özü başqalarına təlqin etmək istədiyi nəcib keyfiyyətlərin daşıyıcısı olsun. Fikri, sözü və əməli bir-birinə uyğun gəlsin, müdrikliyi, ağıllı və kamallı olması, əxlaqının və qəlbinin təmizliyi etibarilə yüksəkdə dursun. “Mayaklar”, “Yazım-yazmayım”, “Çinarlı”, “Həmin adam”, “Dərd”, “Telepat” və s. əsərlərin, həmçinin ayrı-ayrı illərin aktual məsələlərinə həsr edilmiş yüzlərlə hekayə, oçerk, felyeton və publisist məqalələrin müəllifi Əli İldırımoğlu məhz bu cür - qələm işlətməyə mənəvi haqq qazanmış şəxsiyyətlərdəndir. O, həyatda rast gəldiyi, yaxud görüb-eşidib təsirləndiyi çoxlu hadisə və əhvalatlar içərisində lazım olanı tez və düzgün seçməyi, dərk etdiyini yadda saxlayıb istənilən vaxt təxəyyülündə canlandırmağı, dilə gətirməyi, təhlildən keçirib ümumiləşdirməyi, kənar təsirlərə uymadan həqiqəti olduğu kimi söyləməyi, fikrini sadə, obrazlı, duzlu dillə ürəyəyatan şəkildə təqdim etməyi bacaran qüdrətli jurnalist və gözəl bir sənətkardır.

Əli İldırımoğlu özünün ədəbiyyata gətirdiyi müsbət obrazların - rəftar və davranışda təmkinini saxlayan, ələm, kədər və ağır günlərdə heç vaxt sarsılmayan, bayağı şöhrətə aludə olma-

yan, ədalət uğrunda mübarizə aparmaqdan yorulmayan, sevimli ədəbi qəhrəmanlarının real prototipi, canlı nümunəsidir.

On beş yaşından əmək fəaliyyətinə başlayıb, uzun müddət respublikanın ən nüfuzlu qəzetinin xüsusi müxbiri olan Əli İldırımoğlu illər keçdikcə yaradıcı şəkildə düşünə-düşünə, şahidi olduqlarını, başına gələnləri yaddaşına həkk edə-edə elə bir məqama çatdı ki, artıq onun gördükləri, bildikləri qəzet məqalələrinə sığmadı. Əli müəllimin qəlbini rahat buraxmayan hadisə və əhvalatlar hekayə, povest və roman mövzularına çevrildi; tanış insanların səciyyəvi xüsusiyyətləri əsasında, xarakterlər, ölməz bədii obrazlar yarandı... Zaman ötdükcə səriştəli jurnalist, cəsarətli müxbir Əli İldırımoğlu daha da püxtələşib jurnalist-yazıçı, nasir Əli İldırımoğluna çevrildi. Onun qələmindən çıxan müxtəlif janrlı əsərlər isə oxucular üçün həyat dərsliyi rolunu oynamağa başladı. Belə əsərlərdən biri də iri həcmli "Zorən jurnalist" romanıdır. Əli müəllimin ömrünə hopmuş gerçəkliklərin təcəssümü olan bu romanı onun mübarizələrlə dolu həyatının əsas konturlarını cızan avtobioqrafik səpkili əsər də adlandırmaq olar. Bir də axı avtobioqrafik səpkidə olmayan əsər varmı? Hansı dəyərli bədii əsərdə müəllif ömrünün müəyyən anlarını, məqamlarını əks etdirmir? "Zorən jurnalist" romanının sətirləri arasından da Əli İldırımoğlunun əzəmətli, dözülməz, yenilməz, mübariz jurnalist-yazıçı obrazı açıq-aydın sezilir.

Romanın məzmunu ilə yaxından tanış olmağı, əsərdəki ibrət götürülməli şeylərdən bəhrələnməyi və ya nifrət ediləsi şeylərdən uzaq olmağı oxucuların öz öhdəsinə buraxaraq ümumi şəkildə deyək ki "Zorən jurnalist", eyni zamanda yaxın keçmişin ictimai kolliziyaları - toqquşmaları içərisində çabalayan insanların mübarizə tarixidir. Romanda epik vüsət və bədii təmkinlə

qələmə alınmış müxtəlif amallı insanlar təcrübəli nasir qələminin ləngərində bütün əlvanlığı ilə canlanırlar. Dünyaya ümumbəşəri və mütərəqqi milli əxlaq normaları mövqeyindən baxan yazıçı qələmə aldığı hadisələrə və yaratdığı obrazlara da məhz həmin normalar çərçivəsində yanaşır. Bu insanlar nə dərəcədə tipikdirlərsə, yaşadıqları zamanın əhval-ruhiyyəsini nə qədər dolğun əks etdirirlərsə, bir o qədər fərdidirlər. Son dərəcə güclü xarakterə malik bu adamlar əslində dövrün rəmzidirlər. Yazıçı öz qəhrəmanlarına o qədər bədii həssaslıqla yanaşır ki, təbii cizgilərlə səciyyəvi cəhətlərin (yaradıcı ştrixlərin) qovuşuğunda kamil qalereya yaranır. Qəhrəmanlara yazıçı münasibəti tendensiyadan da (yazıçının şəxsi qayəsindən də) xali deyil. Amma bu tendensiya bədii hökmə, qəti əmrə, yəni diktata çevrilmir. Əksinə, bədii niyyətin və yazıçı mövqeyinin daha da qabardılmasına kömək edir. Xüsusən də bu qayə yazıçının həyatın alt qatlarına nüfuzunu, sərf-nəzərini və obraz seçimində həssaslığını şərtləndirir. Bütün bunların nəticəsində isə bədii atribut kimi Əli İldırımoğluna məxsus üslub və forma axtarışları özünü büruzə verir. Yazıçı öz qəhrəmanlarının hər birini özünəməxsus hərəkətlərdə, inkişafda, mübarizədə və əxlaqi biçimdə təqdim edir. Bu artıq həyat həqiqətləri ilə yazıçının daxili aləminin qaynayıb qovuşmasından irəli gələn nəticədir. Başqa sözlə, obrazlar, təsvir olunan həyat həqiqətləri realdır, təbiidir. Lakin yazıçı dünyasının daxili işığı ilə daha da nurlanmış reallıqdır. Əli İldırımoğlunun özünəməxsus bədii monopoliyasında olan yaradıcılıq dünyası, bax budur.

Yazıçının qəhrəmanları demək olar ki, bütün ictimai təbəqələri və cəmiyyətin ayrı-ayrı rütbələrini əks etdirən müxtəlif sosial məzmunlu insanlardır. Onların bir qrupu yenilik uğrunda

vuruşan gənclərdir, ziyalılardır; bir qrupu əl-ayağa dolaşan, şəxsi heysiyyətinin, izzəti-nəfsinin quluna çevrilmiş antipodlardır; əksəriyyəti isə xalq gücünü, iradəsini və müdrikliyini öz simasında yaşadan sadə, zəhmətkeş adamlardır. Bu sosial zənginlik xarakter zənginliyinə, obrazlı desək polifonik bədii substansiyaya gətirib çıxarır. Bədii təhlil və tərkibin işığında hər şeyin özü kimi göründüyü bu bədii dünya oxucunu həyatın mexaniki proyeksiyası kimi deyil, canlı, real mənzərəsi kimi cəlb edir.

Bəhs etdiyi dövrün yaxşı və pis cəhətlərinin, xeyir və şər adlanan mənəvi qüvvələrinin mübarizəsindən yaranan "Zorən jurnalist" əsəri ənənəvi, klassik, sakit, təmkinli və ləngərli bədii üslubda qələmə alınıb. Bu üslub məcrasından çıxmadan baş alıb gedən böyük bir çayı xatırladır. Dinamika, gərgin və həyəcanlı məntiq bu epik-psixoloji əsərdə daha dərindədir. Hadisələrin mahiyyətində, qəhrəmanların hiss və idrak imkanlarında, hətta sadə, obrazlı, başdan-ayağa xalq məcazları ilə mayalanmış bədii dilin daxilində görünməyən qatlarında, fəhmlə qavranılan əks-sədasındadır. Klassik üslub və təhkiyə, yazıçı niyyətinin açıqlanması, bədii niyyətin aşkarlanması naminə hadisələrin baş qəhrəmanın obrazına müncər edilməsi qarşıya qoyulan məqsədin həyata keçirilməsinə böyük kömək göstərir. Baş qəhrəman - rayon qəzetinin redaktoru Nazim İlhamın dolğun obrazı hadisələrə məhz onun baxışı işığında yanaşılması klassik nəsrin imkanları yönümündən məqbuldur və romanın uğurunu şərtləndirən məziyyətlərdən - bədii dəyərlərdəndir.

Romanda cərəyan edən hadisələr geniş, süjet xətti mürəkkəb olsa da qeyd etdiyimiz kimi hər şey son anda məntiqi tellərlə baş qəhrəmana bağlanır. Nazim İlhamın kənddə keçmiş uşaqlıq illəri də, tələbəlik dövrü, kənd məktəbində müəllimliyi, rayon

qəzetində jurnalistliyi, redaktorluğu, ən nəhayət respublikanın mərkəzi qəzetlərindən birinin xüsusi müxbiri kimi fəaliyyəti də bu süjet müxtəlifliyində hadisələrin gərgin və rəngarəng axarında aşkarlanır. Hələ uşaqlıqdan diribaş, mübariz, haqsızlıqla barışmayan Nazim böyüdükcə özü ilə birgə daxilindəki mənəvi dəyərləri də püxtələşdirdi. Atası Allahverən kişiyə, qoca nənəsi Fatmaya olan ehtiram, hörmət və məhəbbət "Allah sənin salamını da kəssin, kəlamını da" - deyə atasının yamanladığı oğru qatırçı kimilərə nifrət gələcəkdə ünsiyyətdə, münasibətdə olduğu müxtəlif adamlara yanaşma tərzini formalaşdırır.

Nazim İlham dəyanəti, mərdliyi, mübarizliyi, hər bir vəziyyətdə özünə, mənliyinə, şəxsiyyətinə sədaqəti ilə bütöv bir xarakter kimi yadda qalır. O, Bakıya ali təhsil dalınca gedir. Necə deyərlər, oxu daşa dəysə də ruhdan düşmür, xəbərsiz-ətərsiz Qarabağ İnstitutuna üz tutur. Adi bir təsadüf - rektorun Allahverən kişini (Nazimin atasını) tanıması - onun taleyində rol oynayır. Buna təsadüf də demək olmaz. Əslində bu, Allahverən kişinin bir tikə halal çörəyinin ovsanata düşməsidir.

"Zorən jurnalist" romanında hadisələrin başlıca düyün nöqtəsi, sosial ziddiyyətlər və paradokslar əsasən Nazim İlhamın rayon qəzeti redaksiyasında məsul katib kimi işə başlaması ilə üzə çıxır. Bundan əvvəlki hadisələr kiçik bir dağ kəndində zəhmətkeş bir ailənin təsviri, evin ağzıdualı, oruclu-namazlı mömin ağsaqqalları, ağbirçəkləri, kəndin idillik mənzərəsi, bütün bu hadisələr qoynunda boy atıb formalaşan, təmizlik və saflıq məktəbi keçən bir gəncin gələcəyi üçün ilkin zəmanətlər idi.

Nazimin həyatında mühüm rol oynayan və oxucunun yaddaşında qalan əsas obrazlardan biri Kamal Qafarzadədir. O, həm insan, həm də rəhbər kimi obyektivliyi, alicənablığı, qayğıkeş-

liyi ilə seçilir. Qafarzadənin Nazim İlhama hələ kənd məktəbindəki ilk görüşündən sonra mehri-məhəbbəti, bu gəncə göstərdiyi ata qayğısı heç də romantik yazıçı təxəyyülünün məhsulu deyil, həyatın real məntiqidir. Dünya yaxşı adamlardan xali deyil. Uzaq və yaxın keçmişimizdə belə diqqətcil, qayğıkeş rəhbərlərlə az rastlaşmamışıq. Nazimin komsomol işindən imtina etməsindən incikli olsa da, inadından dönməyən raykom katibi axır ki, onun redaksiyada məsul katib vəzifəsinə irəli çəkilməsinə nail olur. Beləliklə də, Nazimin bir insan, jurnalist və ictimai xadim kimi formalaşmasının bünövrəsi qoyulur.

Məlum olduğu kimi ədəbiyyat bəşəri müqəddəsliyin apostolu, daimi müdafiəçisi və himayəçisidir; real həyatın bədii inikasıdır, obyektiv gerçəkliyin, insan talelərinin idrak vasitəsidir. Bütün bu ümumi modullar, formulalar hər bir yazıçı qələmində fərdi cizgilərlə, özünəməxsus boyalarla, üslub və formalarla aşkarlanır. Elə ədəbi nümunələr var ki, hadisələr xarakteri doğurur, yəni yazıçı öz qəhrəmanına hadisələrin fonunda yanaşır və onun obrazına bu hadisələrdən ştrixlər əlavə edir; başqa sözlə, qəhrəmanlar hadisələrin açılmasına xidmət edir. Haqqında danışdığımız romanda isə hadisələrə qəhrəmanların prizmasından yanaşılır. Qəhrəman daha öndədir, ilkindir və baş verən hər bir hadisə qəhrəmanın cizgilərinin tamamlanmasına xidmət edir. Bir yazıçı kimi Əli İldırımoğlu üçün öncə obraz var, qəhrəman var, sonra hadisə. Reallığa bu yanaşma metodu ona bir-birindən bitkin, xaraktercə zəngin və məzmunlu obrazlar yaratmaqda kömək edir. Onları sosial məzmununa görə qruplaşdırmaq da olar: bir tərəfdə partiya, sovet və təsərrüfat işində çalışan rəhbərlər - Qafarzadə, Cavadov, Nəsrullayev, Qeysərzadə, Salamov, Vəkilov, Səmədzadə, İsmayılzadə və başqaları,

digər tərəfdə Allahverən kişi, Fatma arvad, Səriyyə, Əzizağa Aydınbəyov, Tamam, Bəsirə, Rəziyyə, Mənzər, Təhmiraz Tahirov, Nemət Rəcəbli və başqaları. İlk baxışdan hər biri ayrı-ayrılıqda öz ömrünü yaşayan bu adamlar, müxtəlif mənəviyyatın və sosial əxlaqın daşıyıcıları kimi, daxili bir mübarizə yolundadırlar. Bir-birini inkar etmək əslində cəmiyyət katarsizminin bünövrəsidir. Hər şey bu inkardan başlayır. Sosial bəlaları və cəmiyyəti qurd kimi didən əxlaqsızlıqları, mənəviyyatsızlıqları aşkarlayan məhz bu yazıçı fəhmi romanda ən əlverişli bədii vasitə kimi təzahür edir.

"Zorən jurnalist"in sosial mündəricəsini sərf-nəzər etsək, bədii axtarışların mərkəzinə ədalət axtarışı postulatını qoya bilərik. Bütün hissi, məntiqi məqamlar, bədii forma və eksperimentlər, canlı səhnələr və dialoqlar bu bəşəri məqsədə xidmət edir. Biz müəllifin özü kimi Nazim İlhamı da həmişə ədalətsizliyə qarşı mübarizədə görürük. Redaksiyada işə başlayan gündən o, öz qələmilə haqq-ədalətin himayəçisinə çevrilir, neçə-neçə haqlını haqsızdan qoruyur, son anda özünün pozulmuş hüquqlarının müdafiəsinə qalxır.

Simasını, ləyaqət və mənəviyyatını itirmiş, hiyləgər təbiəti, ikiüzlü xarakteri və riyakar hərəkətlərilə dözülməzlik şəraiti yaratmış rayon başçısı Nadir Nəsrullayev müxtəlif fitnə-fəsadla ictimaiyyətə çaxnaşma salır, adamları bir-birinə vurur, vəzifə ömrünü uzatmaqdan ötrü dəridən-qabıqdan çıxır. Ləyaqətli adamları ləkələmək və sıradan çıxarmaq üçün böhtan və iftiralardan çəkinmir, yeri gəldikdə şantaja əl atır. Rayonun seçilib-sayılan ziyalısı, qəzetin redaktoru Nazim İlham onun üçün daimi qorxu mənbəyidir, potensial rəqibdir. Odur ki, gənc redaktoru da zəhərli toruna salmaq üçün rayonda heç kimi saymayan

harınlamış kolxoz sədri Eybalı Salamovla onu üz-üzə qoyur. Salamovun fəaliyyəti barədə felyetonun dərci qaranlıq səmada çaxan şimşək təsiri bağışlayır. Adi rayon qəzeti səhifəsindən başlanan konflikt respublika rəhbərliyinə qədər gedib çıxır və yazıçı incə bir bədii ustalıqla bu ədalət axtarışı yollarında öz qəhrəmanlarını da təqdim etməyə başlayır. Oxucu, Vəkilovun kosmopolitizmini, Mərkəzi Komitə katibi Dadaşzadənin riyakarlığını, Qeysərzadə və Nadir Nəsrullayev kimi prinsipsiz partiya işçilərinin iyrəncliyini, eləcə də Əzizağa Aydınbəyovun, Bəsirənin və başqa sadə insanların mənəvi ucalığını məhz bu aynada açıq-aydın şəkildə görür. Konflikt gərginləşdikcə kulminasiyaya yaxınlaşır. Süleyman Cavadovun simasında yazıçı ədalətin yeni bir himayəçisini təqdim edir. Onun saflığı, təmizliyi, obyektivliyi oxucu üçün heç də gözlənilməz olmur. Çünki Cavadovun şəxsiyyəti, xarakter əlamətləri yazıçı tərəfindən canlı həyati epizodlarla, söhbət və dialoqlarla oxucuya romanın ilk sətirlərindən təlqin edilir.

Mərkəzi Komitədə raykomun büro qərarının ləğv edilməsilə Nazim İlhama bəraət verildikdən sonra roman yeni inkişaf mərhələsinə keçir. Nazim İlham artıq mərkəzi qəzetin xüsusi müxbiri kimi böyük bir vilayətdə fəaliyyətə başlamışdır. İndi o özü ədalətin keşiyindədir. Haqqı pozulmuş vətəndaşların müdafiəsindədir. Ədib bir satirik hekayədə Vilayət Partiya Komitəsinin birinci katibi Şirxan İsmayılzadənin portretini ən incə ştrixlərlə işləyərək onun maskasını yırtır. Bundan qorxuqarışıq bir nifrət hissi keçirən Şirxan İsmayılzadə Nazim İlhama zərbə vurmaq üçün fürsət axtarır. Münasibətlərin ciddi toqquşma həddinə çatması artıq karamel fabrikinin direktoru, xalq deputatı, əmək qəhrəmanı Ziyad Kərimlinin Təhmiraz Tahirov üçün qurduğu

səhnə ilə başlayır. Bütün təzyiqlərə, təqiblərə qorxu və hədələrə baxmayaraq Nazim İlham bu məsələyə dərindən nüfuz edib nahaq yerə qazamatda əzab çəkən bir dəstə adamın taleyinə işıq salır. Burada da ədalətin qələbəsi oxucu üçün gözlənilməz olmur. Bədii detallar, hadisələrə yanaşma tərzi, obyektiv reallığın fundamental təqdimi, jurnalistin üzləşdiyi maneələrin və ondan çıxış yollarının inandırıcı təsviri oxucuda şübhə yeri qoymur. Ziyad Kərimlinin və general Nifaq Zamanoviç kimi iyrənc adamların son anda öz əxlaqsızlıqlarının qurbanı olması da sosial ədalətin təntənəsi kimi səslənir.

Müəllif ədalət hissini təlqin etməklə oxucuya belə bir bəşəri idealı aşılayır: ədalət həyatın özündədir, namuslu insanların qəlbində, mənəviyyatında, əməlindədir; onun qələbəsi uğrunda vuruşmaq gərəkdir.

Yuxarıda dediyimiz kimi əsərin bədii arxitektonikası elədir ki, hadisələr daha çox baş qəhrəman Nazim İlhamın obrazının dolğunlaşmasına xidmət edir. Məsələn, Nazimin kənd adamları ilə (Xıdıralı, Qaraş və Mənzərlə) rayon mərkəzinə gedib qayıtması, yolda qaçağa rast gəlmələri, qaçağın mərdliyi, Nazimin Rəziyyə ilə platonik məhəbbət səhnələri. Süleyman Cavadovun Nazimi evinə dəvət etməsi, həyat yoldaşı, Rəziyyənin bacısı Mərqufə ilə tanışlığı, Rəziyyə ilə burada görüşə bilmək ehtimalı və s. - bütün bunlar oxucuda mətləbdənkənar hissələr (adi bir süjet) təsiri bağışlaya bilər. Lakin əslində çox möhkəm süjet xətti olan romanı bu hissələrsiz təsəvvür etmək mümkün deyil. Çünki bunlarsız Nazim obrazı yarımçıq qalardı, tam olmazdı. İlk baxışda əsərin süjet xəttilə o qədər də sıx bağlı görünməyən həmin detallar Nazim İlhamda cəmləşən mərdliyin, mübariz-

liyin, dönməzliyin, alicənablığın mərhələlərini güzgü kimi əks etdirir və buna görə də təbiidir və yerindədir.

Jurnalistika sahəsinə gözlənilməz təsadüf üzündən düşmüş inadkar bir gəncin mənəvi axtarışlarına həsr olunmuş "Zorən jurnalist" əsərində iki sosial məqam - kənd həyatı (öz idilliyası ilə), bir də jurnalistika aləmi, jurnalist həyatı (bütün dolğunluğu ilə) qələmə alınmışdır. Burada Allahverən, Fatma qarı, Tamam, Bəsirə, Mənzər, Əzizağa Aydınbəyov kimi adamlarla yanaşı Nadir Nəsrullayevlər, Qeysərzadələr, Eybalı Salamovlar da vardır. Jurnalist dünyası Xaspolad Həsənoğlu, Şadər Hacızadə kimi redaktorlarla bahəm Mollazadə kimi simasız, riyakar redaktorlardan, Saleh Qənizadə sayağı işbaz müxbirlərdən də xali deyildir.

Romanın dili xüsusi qeydə layiqdir. Məlum həqiqətdir ki, dil fikrin qabığından daha çox mayasıdır, mahiyyətidir, çox böyük ideya və xalq hikməti xəzinəsidir. Əli İldırımoğlunun bədii dili, leksik xəzinəsi öz yükünü məhz canlı xalq dilinin qaynaqlarından, ən incə ifadə vasitələrindən tutmuşdur. Xalq ruhundan süzülüb gələn bu dil ədibin dəst-xəttində müasir intellektual məntiqi-linqvistik ştrixlərlə daha da zənginləşərək yeni bədii-leksik fakt kimi meydana çıxmışdır.

Romandakı obrazların, xarakter proyeksiyası məhz belə bir dilin işığında çəkilmişdir. Hər obrazın dili onun birbaşa daxili aləmindən, sosial mənşəyindən, işindən-peşəsindən soraq verir. Bir sözlə, Əli İldırımoğlu ecazkar bədii dilin köməyilə kamil bir rəssam kimi unudulmaz obrazlar silsiləsi yaratmağa nail olmuşdur. Onun əsərlərində partiya işçisinin öz üslubu linqvistik tərzi, jurnalistin öz leksik imkanları, kənd adamlarının isə idiom və məcazlarla dolu danışıq tərzi vardır. Müəllifin dili bu polifoniyada öz biçimində boy göstərir. "Dağdan aşmış gün kimiyəm", "Elə bil uşaq üzü əlləyir", "Yas düşəndə hərə öz dərdinə ağlayır", "Yuxa qulağı sulama", "Ərim ər olsun, kol dibi evim" və s. Roman başdan-başa belə obrazlı, məntiqli ifadələrlə doludur.

Əlbəttə "Zorən jurnalist" romanının məziyyətləri haqqında daha geniş şəkildə danışmaq olar. Çünki həqiqətən belə məziyyətlər çoxdur. Ancaq bizim qənaətimizə görə, elə bu deyilənlərdən də aydın olur ki, "Zorən jurnalist" həm epik vüsəti, həm ideya saflığı, həm də bədii dəyəri ilə müəllifin növbəti ədəbi uğurudur və müasir nəsrimizdə özünəməxsus dəyərli yer tutmağa layiqli əsərdir. Böyük bir dövrün sosial mənzərəsini, xarakterlərin ehtiraslı mübarizəsini özündə əks etdirən roman çağdaş narahat dünyamızın ovqatı üstündə köklendiyindən ayıq-sayıq oxucu həyati amal və ideal uğrunda mücadilə yollarını onun sətirləri arasında asanlıqla tapa biləcək və milli mənəviyyatının formalaşmasında, ruhunun oyanışında bu kitabı mötəbər mənbə kimi sevəcək. Əsər gərgin və ibrətamiz hadisələrin, bitkin xarakterlərin, maraqlı əhvalatların fonunda oxucusuna belə bir həqiqəti aşıladır ki, həqiqətlər "gec gəlir, ancaq güc gəlir". Elə əsərin mühüm ictimai, tarixi, ədəbi-bədii və tərbiyəvi pedaqoji dəyəri, həyat dərsliyi rolunu oynaması da öncə bu "güc gəlməsində" və yuxarıda sadaladığımız digər məziyyətlərindədir.

Əliheydər HƏŞİMOV
pedaqoji elmlər doktoru, professor

Saxtalıq hökm edir qəlbə, ağla, kamala,
Bəkarət təhqir olub düşür dərdə, zavala.
Qüdrət qüdrətsizliyə əsirdir, səcdə qılır,
Düzlük, mərdlik, doğruluq bir axmaqlıq sayılır.

Vilyam Şekspir

Allahverən kişinin fikri haçalanmışdı. Demisini sakit-sakit tüstülədib, aranı dağa daşıyırdı, dağı arana. Ha götür-qoy eləyirdi, bir mətləbə gələ bilmirdi. Gah düşünürdü ki, Nazim elmin dalınca getsə yaxşıdı. Oxuyub bir tərəfə çıxar, sabah beş kişinin biri olar. Nəslimizə, nəcabətimizə ucalıq gətirər. Bir tərəfdən də eyninə qaraltı gəlirdi ki, gözümün ağı-qarası bircə odur. Dünyanın bu qarış-quruş vaxtı kənddən qırağa çıxsa, başına qəzavü-qədər gələr. Mən də ki, dağdan aşmış gün kimiyəm, bu gün varam, sabah yox. Yurdu kor qoymaq olmaz. Bir tüstü çıxaranım lazımdı.

Allahverəni qayğı götürmüşdü. Nazimdən başqa da oğul züryəti olmadığından, dağ boyda kişi onun üstündə payız yarpağı kimi əsirdi. Nazimin fikri-zikri o idi ki, necə olursa-olsun, ali məktəbə getsin. Evdəkilər də onun sözünü deyirdilər. Hamı bilirdi ki, Nazim haracan desən zehinli uşaqdı. Birincidən tutmuş onuncuyacan "beş"lə oxumuşdu. Ona attestat verilində məktəbin direktoru hamının içində demişdi ki, Nazimin üstündə göz olsa, ondan gələcəkdə bir şey çıxar. Evin ağbirçəyi, namazından, orucundan qalmayan Fatma nənə də bir dəfə bu işə qarışdı. Allahverənin erməni-müsəlman davasında həlak olmuş

böyük qardaşı Əmralının arvadı Fatmanın buçağacan bir sözü iki olmamışdı. Bir axşam süfrə başına yığışanda yaşmağını aşağı salıb, Nazimi sinəsinə sıxaraq:

- Allahverən, - bu uşağın oxumasına nəhs gətirmə, - dedi. - Düzdür, madardı, gözümüzün qabağında olsa yaxşıdı! Ancaq balıq dəryada böyüyər, ev buzovundan öküz olmaz! Allaha pənah de, apar yola sal, getsin, uşağın həvəsini gözündə qoyma.

Fatma Nazimi iki oğlundan çox istəyirdi. Çünki Nazim dünyadan nakam getmiş anasının üzünü də görməmişdi. Onu Fatma nənə əlində-ovcunda böyüdüb, ərsəyə yetirmişdi.

Allahverən Fatmanın sözünü çevirmədi. İpçin nallatdığı Qəmər atı səhər tezdən qaşovluyub, tumarladı. Və yer zımrıq olduğundan atın quyruğunu səliqə ilə düydü. Qapıdan çıxanda evin ağbirçəyi onlara xeyir-dua verib, arxalarınca bir parç su atdı. Ata-oğul, bir də ki, yelqanadlı Qəmər at düşdülər yolun ağına.

Allahverən əlik ayağından gödək sapı olan, toxunma şallağını havada tovladıqca, Qəmər at boynunu gərib, dağın sinəsindəki dolaylarda kəklik kimi səkirdi. Baş-başa verən çılpaq qayalar, əks tərəfdəki meşələr, dərənin dibində hay-harayla baş alıb gedən dağ çayı, Qəmər atın yorğa yerişi onu təbə gətirirdi. Allahverən ötən günlərini yada salıb, papağının dalını qaldırdı. Və pəsdən bir-iki kəlmə dedi:

Araz qırağında xırda adalar,
Ondan su götürər mələkzadalar.
Sizə fəda olum, imamzadalar,
Mən öz mətləbimi sizdən istərəm.

Atın tərkində sakitcə oturan Nazim cınqırını çəkmədən, bu nisgilli sözləri altdan-altdan yığışdırıb, sinəsindəki dəftərə

yazırdı. Onun ilıq nəfəsi atasının tər qoxusu gələn enli kürəyinə toxunduqca, Allahverən arxasında bu məğrur dağların qürurunu duyurdu. O, atın cilovunu yığaraq:

- Oğul, bu yerlərə Əzədin dərəsi deyərlər. Bizim Çiçəkli kəndinin ab-havası harda var?! Di gəl ki, əl-ayaqdan çox uzaqdı. İşıq çəkilmir, telefonu yox, maşın işləmir, dəmir yolundan da aralı. Bircə bunlar olmasa, ömür-gün sürməli yerdir. Son vaxtlar da axmaq bir dəb düşüb, ayağı yer tutan şəhərə qaçır. Ancaq nahaq yerə! Günümə bir qızıl versələr, şəhərdə qalmaram. Demirəm ey, şəhər pisdir! Daş, düşdüyü yerdə ağır olar. Gözümüzü açandan bu yerlərdə pərvəriş eləmişik. Təzədən durub şəhərə köç eləmək ağılsız işdi. Bir də ki, elə götürək bizim bu Çiçəkli camaatını. Qocalı-cavanlı hamısının canı buz baltası kimidi. Həkim tanımır, dava-dərman nə olduğunu bilmirlər. Çoxu da yüzdən o tərəfə yaşayır. Balam, daha adama nə lazımdı?! Can sağlığından əziz nə var?!

Əyri-üyrü döngələri olan sərt enişlər başlananda Allahverən yəhərdən aşırılıb, atın yedəyini Nazimə verdi. Allahverən atcıl adam idi. Bilirdi ki, belə enişlərdə atı bərkə salsa, qolları alınar. İrəlidəki su dəyirmanına çatar-çatmaz, qabağında un yüklü qatır olan orta yaşlı bir nəfərlə rastlaşdılar. Qatır sahibi səsinin yoğun yerinə salıb, suçlu-suçlu:

- Allahverən kişi, salammələyküm! - dedi.

Allahverən dolu və qırmızı sifəti, lopa bığı olan bu özündən müştəbeh qatırçının yör-yöndəminə tərs nəzər salaraq:

- Allah sənin salamını da kəssin, kalamını da! - deyib, tüpürdü və üzünü o tərəfə döndərdi.

Qatırçı rəng verib, rəng aldı. Və xəcalətindən başını aşağı salıb, lal-dinməz yoluna davam etdi. Salam-kalam bununla da bitdi. Nə Allahverən kişi artıq-əskik kəlmə kəsdi, nə də ki, qatırçı.

Darısqal yola ağır sükut çökdü. Bu dəyintili söz-söhbət Nazimə də sirayət elədi. Allahverənin birdən-birə qatırçıya bu cür sərt və ağır cavab qaytarması onun qəlbindən daş kimi asıldı. Xəcalətindən başını aşağı dikib, öz-özünə: kaş bu qatırçı ilə rastlaşmayaydıq. Atam nahaq yerə onun qəlbinə dəydi - deyə düşündü. Nazim daxili incikliyini büruzə verərək:

- Ata, - dedi. - O kişi ədəb-ərkanla salam verdi. Sən isə...

Allahverənin hirsi hələ də soyumamışdı. Odur ki, xeyli susub, Nazimin sualını cavabsız qoydu. Nazim də atasının qırımını görüb, sözü çevirmədi. Onlar taxta körpüdən addayıb, irəlidəki düzə çıxdılar. Birdən Allahverən oğluna tərəf dönüb, kin-küdurətlə:

- Sən də birini bilirsən, birini yox!! Yəni deyirsən dədən o qədər qanacaqsızdı?! Bu köpək oğlunu hələ sən yaxşı tanımırsan! Çayın o tərəfindəki kənddəndi! Kövşənlərimiz də qarışıqdı! Sürü örüşə gedir, qoyun-quzumuz naxırçının qabağında yoxa çıxır! Günün günorta çağı balalı inəyimizi gönnədilər, gördüm deyən olmadı! Keçən ay dəvəçinin kənddə neft satdığı günün axşamı başımı yastığa qoyub təzəcə huşa getmişdim, qulağıma hənirti gəldi. Ayıldım ki, it zəncirdə özünü yeyib-tökür. Tələsik pencəyimi çiynimə salıb, dəhlizə çıxdım. Onda gördüm, tövlə tərəfdən yekəpər bir adam çəpərdən tullanıb götürüldü. Əliyalın düşdüm dalına. Çathaçatda qayıdıb qaraltıma dalbadal iki güllə atdı. Yaxşı ki, tutmadı. Təpəni aşanda, o saat tanıdım. Bax, bu quldur itoğluydu. Özündən başqa da iki dələduz qardaşı var, üçü də ayaqları yer tutandan qurşanıblar oğurluğa. Bu ətraf kənd-kəsəkdə nə ki, oğurluq olur, hamısında bu dəyyusların barmaqları var! Gözdən tük qapırlar! Xəmirləri haramla yoğrulub. İndi də elə bil uşaq üzü əlləyir! Deyir ki, Allahverən, salammələyküm!!! Sənin salamın başına dəysin! Neçə ildir dadanıb bizim bu kəndə! Sən hələ uşaqsan,

heylə şeyləri başa düşə bilməzsən! Onunku salam vermək deyildi, ağzımı yoxlayırdı ki, bilsin, görsün, həmin gecə onu tanımışam, ya yox. Mən də üstüörtülü başa saldım ki, axmaq özünsən! O da hesabını apardı.

Nazim atasının qatırçıya o cür ağır cavab verməsinin səbəbini biləndən sonra, bayaqdan bəri qəlbini sıxan əzabdan xilas oldu. Özündə rahatlıq, yüngüllük hiss etdi.

Yol meşədən keçib açıqlığa çıxanda, ağ və sarı təpələrin arasındakı bağlı-bağatlı rayon mərkəzi göründü. Allahverən rayon mərkəzi ilə üzbəüz olan on-on beş evli kəndi göstərərək:

- O vaxt bizim Çiçəklidə Fərhad adlı bir müəllim işləyirdi, - dedi, - bax, ordandır. Onda sən hələ anadan olmamışdın. Özü də hesab müəllimiydi. Siftə gələndə qalmağa yer tapmırdı. Gördüm irəli duran yoxdur, gətirdim evə. Beş-on gün qaldı bizdə. Sonra da qardaşım uşaqları üçün tikdirdiyim o təzə otağı verdim ona. Dedim qərib adamdı, Allaha da xoş gedər, çöldə qalmasın. Arvad-uşağını da yığışdırıb gətirdi. Düz üç il qonşuluq eləmişik. Bir dəfə sözarası mənə ev kirayəsi eşitdirdi. Heylə deyəndə üzümü bozartdım. Dedim ki, Fərhad müəllim, ayıb deyil, heylə söz danışırsan?! Yəni Allahverən o günə qalıbdı ki, qərib qonaq olmağın o tərəfə qalsın, müəllimdən ev kirayəsi təmənnası olsun? Bu sözü burda dedin, bir də dilinə gətirmə, bük qoy palazın altına. Yoxsa sənnən haqq-salamı kəsərəm.

Kişi dediyinə də peşman oldu. O haqq dünyadadır, biz nahaq. İnsafən, müəllim kimi də, insan kimi də qənimət adamıdı. Vəliyəddin adlı da özündən xırda, diribaş qardaşı vardı. Hərdən Fərhad müəllimə baş çəkməyə gəlirdi. Həmişə də qayıdanbaş atla yola salırdım. Eşitdiyimə görə, həmin o Vəliyəddin indi adlı-sanlı adam olub. Gedib-gələnlərin deməsindən belə çıxır ki, Qarabağ tərəfdə təzə müəllim institutu açılıb. Vəliyəddin də onun böyüyüdü.

Allahverən xəyallandı. O, Qəmər atın üstündə yırğalanaraq:

- Dünyanın işinə bax ey, gör o vaxtdan neçə il keçib! - dedi. Fərhad müəllim çoxdan rəhmətə gedib. Vəliyəddin də indi məni görsə tanıya, ya tanımaya! Yox, yadında olmaram! Amma səsi-sədası yaxşı gəlir. Necə olsa, el-oba adamıdı. Deyilənlərə görə, bu tərəfin camaatına çox köməyi dəyir. Elə qardaşı Fərhad da karagələn adamıdı. Bizdə müəllim işləyəndə bütün kənd başına and içirdi. İndinin özündə də Çiçəkli camaatı hər adı çəkiləndə ona rəhmət oxuyur.

Günün duran vaxtı onlar rayon mərkəzinə çatdılar. İsti meh, ara-barəsində hacıleyləklər dolaşan çəltik zəmilərini sakit-sakit dalğalandırırdı. Çayın sahillərindəki bülövlənmiş daşlardan, qoru sönməmiş təndirin ağzı kimi od qalxırdı. Qəmər atın yançaqlarını tər basmışdı. Dağ havasına öyrəşmiş ata-oğul aranın istisinə tablaşa bilmirdilər. Allahverən cilovu təkqanad eləyib, atın başını sola döndərdi. Və alt yolu ilə birbaşa şəhərin qurtaracağındakı avtobus dayanacağına tərəf dolaylandılar.

Qatar ayağına getmək üçün, səbirsizliklə maşın gözləyənlərin arasından bir nəfər təklənib onlara tərəf səmtiyərək:

- Allahverən kişi, yayın bu cırhacırında xeyir ola? Atı da yaman tərlətmisən ha, - dedi.

Allahverən ona məhrəm olan yaşlı həkimi görəndə eyni açıldı:

- Şərə lənət, həkim, xeyirdir, - dedi. Səni qırağdan görəndə öz-özümə dedim ki, adamın işini gərək Allah rast gətirə. Bizim bu Nazim imtahana gedir. Gətirmişəm yola salım. Kənd uşağıdı, dayna. Birdən-ikiyə şəhər-zad görmüyüb. Elə dünəndən məni qara qayğı götürüb ki, təkbaşına hara buraxım! Tanışdan-bilişdən şəhərə gedən olsaydı, bu uşağı da qoşardım. Yaxşı oldu ki, ürcahıma sən çıxdın.

Həkim ifallı adam idi. Və Allahverənlə də köhnədən haqq-salamı vardı. Neçə dəfə onun qonağı olmuşdu. Həkim qolunu Nazimin çəlimsiz boynuna salaraq:

- Allahverən, arxayın ol, - dedi. Nazim də mənim balalarımın biri. Hesab elə ki, Bakıya özün gedirsən. Sən də göydən od tökülür, burda ləngimə, dəmir yoluna maşın tez düşə, gec düşə, onu bilmək olmaz.

Allahverən oğlunun alnından öpüb, ona bir-iki kəlmə də söz dedi:

- Gedirsən, yaxşı yol! Qatara-zada minəndə sərvaxt ol. Ağlın kəndə getməsin. Bakı dolaşıq yerdi. Tək-tənha ora-bura çovuma. Bir də ki, baş tutsa, müəllimliyə, həkimliyə gir ki, gəlib bu kənddə-kəsəkdə işləyəsən. Gözüm də üstündə olar.

Allahverən geri dönüb, oğlunu dübarə həkimə tapşırdı. Və yarı arxayın kəndə qayıtdı.

Qəmər at üzü dağlara tərəf qanad açmışdı. Allahverənin isə ürəyi avtobus dayanacağında, ciyərparasının yanında qalmışdı.

* * *

Haylı-küylü şəhərə varid olan gənc Nazim elə bil nağıllarda eşitdiyi möcüzələr aləminə düşmüşdü. O, həkimin köməyi ilə, ata tərəfdən qohumluğu çatan Fəttahın, Bakının dağlı məhəlləsində kirayə tutduğu bir otaqlı mənzilini çətinliklə tapdı. Fəttah suvaqsız divarları və taxtadan düzəldilmiş yöndəmsiz aynabəndi olan bu evdə beş ildən çox idi ki, tək-tənha yaşayırdı. O, bu gün səhər-səhər Nazimi görəndə elə sevindi ki! Nazim sanki doğma Çiçəklinin xoş ab-havasını da gətirmişdi. O, kəndin əzvayışından danışdıqca Fəttah tənha həyat sürdüyü darısqal və yoxsul komasını bir anlığa unutmuşdu. Xəyalən o illərə qayıdır, həsrətli baxışları ilə Çiçəklinin axar-baxarını seyr edir, Həsənalı gölünü, Balaban təpəni, Ağca

yazını. Qiblə daşını, Gəlin kahasını, Yazı bulağını gözünün qabağına gətirir, qarğı tütəyiylə baş-başa verən qayaların lal sükutunu pozur və qəhərlənirdi...

Yaşda Nazimdən xeyli böyük olan Fəttah sənət məktəbini bitirəndən sonra Qaradağdakı zavodların birində çilingər işləyir. Həm də Neft-kimya institutunda təhsilini qiyabi yolla davam etdirirdi. Hündür boyu, sakit davranışı, məntiqli danışığı olan Fəttah ədəbiyyata dərin maraq göstərir, hərdən şer də yazırdı. Danışığında, yaşadığı cəmiyyətdəki qayda-qanunlara qarşı daxili bir narazılıq hiss olunurdu.

...Nazim gələndən bəri Fəttah işini-gücünü atıb ona yol göstərir, şəhərdə bələdçilik eləyirdi. İmtahan günləri intizar çəkən valideynlər kimi, o da səhərdən-axşamacan universitetin qabağında ayaq üstə dayanıb, Nazimin məktəbdən nə vaxt və necə çıxacağını gözləyirdi. İmtahan müddətində Nazimə az-çox bələd olanlar, onu uzaqdan barmaqla göstərib öz aralarında danışırdılar ki, hazırcavab oğlandı. Yoldaşlarına da bacardığı qədər kömək eləyir. Çoxu onun hesabına qiymət alırdı. Özü də ki, hansı bileti çəkirdi, fikirləşib-eləmədən bütün suallara bülbül kimi cavab verirdi. Nazimin biliyinə müəllimlər də məəttəl qalmışdılar. Bəziləri qibtə ilə deyirdilər ki, dılğır bir kənddən çıxasan, bu cür kəllən ola!

Axırıncı imtahan xarici dildən idi. Burada, imtahan komissiyasının üzvlərindən başqa, prorektor da iştirak etdiyindən sinifdə gərginlik yaranmışdı. Tələbələr ürəklərində Allaha yalvarırdılar ki, prorektor buradan tez çıxıb getsin. Prorektor isə yerindən tərpənmək bilmirdi. O, gah komissiya üzvlərinin qarşısındakı siyahını nəzərdən keçirir, gah da müəllimlərlə öz arasında nə isə pıçıldaşırdı. Qabaq cərgədə oturmuş və əynində bahalı kostyum olan, sir-sifətindən

ərköyünlük yağan Sərvər adlı boylu-buxunlu oğlan həmişə Nazimə qibtə ilə deyirdi:

- Kaş səndəki biliyin onca faizi məndə olaydı!

Sərvər çəkdiyi biletin üzərində xeyli düşünüb, gözünü döydükdən sonra duruxa-duruxa qabağa çıxdı. Ağzını açmamış müəllimlər ona mətləbə dəxli olmayan bir-iki yüngül sual verdilər. Prorektor yerində qurcalanaraq:

- Oxuyan tələbəyə oxşayır, - dedi və içini arıtladı.

Komissiyanın sədri üzünü Sərvərə tutaraq:

- Kifayətdir, bileti qoy get, - dedi.

Sərvər komissiya üzvlərinə:

- Sağ olun, - deyib, prorektorun məmnun baxışlarının müşayiəti ilə irişə-irişə imtahan otağını tərk etdi.

Növbə Nazimə çatdı. O, əvvəlki imtahanların hamısından dörd və beş qiymət almışdı. İndi ona bir "üç" də kifayət idi. Nazim biletdəki sualların birini danışıb qurtarmamış, bir tərəfdən qəliz suallar yağdırırdılar... Prorektor öz-özünə mızıldandı:

- Bu hardan gəlib çıxıb bura?!

Nazimi nə qədər çaşdırmaq istəsələr də, o, özünü itirmədi.

Prorektor:

- Görünür, bu cavan oğlan bizə sübut eləmək istəyir ki, elm dəryasıdır. - hi... hi... - istehza ilə güldü.

Komissiya üzvləri prorektorun məramını hiss edib, bir vəchlə Nazimi karıxdırmağa çalışırdılar. Ortadakı müəllim dodağını əyərək:

- Sözü çox uzadırsan ey! - dedi. Suallara konkret cavab verə bilmirsən!

Başqa bir müəllim:

- Nu, xoroşo, vaxtımızı çox alma. Etiraf et ki, imtahana yaxşı hazırlaşmamısan!

...Nazim qəbul olunanların siyahısında öz adını görməyəndə sarsıldı. Onun kürəyinin arası sancdı. Elə bil ürəyindən isti bir şey qopub ayağının altına düşdü. Yazısının üzünü köçürən və çətin sualların cavabını Nazimdən öyrənən abituriyentlər isə qəbul olunmaları münasibəti ilə bir-birini təbrik edir, sevindiklərindən atılıb-düşürdülər. Nazim bu işləklərə quruyub qalmışdı. Nazimin inam gətirib ibadətgahlar qədər müqəddəs sandığı bu elm ocağı bir andaca onun gözündən düşdü. O, inana bilmirdi ki, ona yalvarıb boğaz çəkən uşaqların adı, qəbul olunanların, öz adı isə imtahan verə bilməyib kəsilən uşaqların siyahısındadır.

Fəttah muradına yetən bəxti yeyinlərin və arzusu gözündə qalan bəxtikəmlərin arasından keçib, ehmalca Nazimin qolundan yapışdı və onu kənara çəkərək:

- Kefini pozma, canın sağ olsun! - deyə - ona ürək-dirək verdi. Belə şeylər olar. Sən qocalmamısan, məktəb də yerindən tərpənmir! Bu il olmasın, gələn il olsun! Burda durma, gedək evə...

Xəzərin küləyi yay günəşinin yandırıb-yaxdığı asfalt küçələrin kəsif havasını dağıdır və şəhərin yuxarı tərəfindəki dağlı məhəlləsinə xoş sərinlik yayırdı. Fəttah üzü dənizə baxan balaca aynabənddə iki köhnə stul qoydu. Nazimin fikrini bu gün düçar olduğu uğursuzluqdan yayındırmaq üçün ordan-burdan söz saldı. Və son vaxtlar yazdığı şerləri oxumağa başladı. Xiffətdən Nazimin arıq, solğun sifəti getdikcə avazıyırdı. Fəttah həmsöhbətini dilə tutaraq:

- Bir söz soruşsam, xatirinə dəyməz ki?!

- Xeyr.

- Onda mənə de görüm, səni hüquq fakültəsinə girməyə sövq eliyən nədir?

- Prokuror, məhkəmə, ya da ki, nəçənnik milisyə olmaq istəyirdim.

Fəttah təəssüflə başını buladı:

- Mən hüquq elminin yox, ona maddi məqsədlər zəminində sahib olmaq istəyənlərin çirkin niyyətlərinin əleyhinəyəm - dedi. - Etiraf etməsən də, cavabından o nəticə çıxır ki, bu arzu sənin şöhrətpərəstliyindən, var-dövlət toplamaq, cah-calal içində yaşamaq amalından irəli gəlir. Ancaq unutma ki, baş verən faciələr, bütün fitnə-fəsadlar, peşmançılıqlar ən çox harın həyat tərzi sürmək ehtirasından törəyir. Lazım olduğundan artıq sərvət əldə etmək hərisliyi mütləq bədbəxtçilik doğurur. Bu mənada hüquq fakültəsinə daxil ola bilməməyinə qətiyyən təəssüflənməzdim. Bəziləri güman edirlər ki, yalnız varlılar həyatda şan-şöhrət sahibi olurlar. Axmaq fikirdir. Mən isə əksini düşünürəm. Uatt, Franklin, Faradey, Qaliley, Kepler... kimi dahilər yoxsul ailələrdən çıxıblar. Kübar həyata can atmağınız məni əsla açmır... Bir də ki, o cür yolun yolçularının qazandığı hörmətlə, şöhrət də sabun köpüyü kimi bir şeydir.

Nazim gülümsündü:

- Dediklərinə mən də şərikəm. Ancaq məqsədim tamamilə bambaşqadır. Əslində tarixçi olmaq istəyirdim. Fikrim yolda dəyişildi. Atam qatırçı ilə sözləşəndə.

- Nə qatırçı?! - Fəttah təəccüblə soruşdu.

...Nazim atası Allahverənin qatırçı barədə dediklərini olduğu kimi danışıb qurtardıqdan sonra:

- Atama sitəmlər eləyən, bax həmin qatırçını tutmaq, oğrulardan kəndimizin hayıfını almaq məqsədilə prokuror və nəçənnik olmaq istəyirdim. O da belə oldu, baş tutmadı. - Nazim çiyinlərini çəkdi.

Nazim "baş tutmadı" sözünü elə yazıq-yazıq dedi ki, sonra dərindən ah çəkdi.

Fəttah əvvəlcə güldü. Sonra ciddiləşdi:

- Səni başa düşdüm. Belə de də... Bunu əvvəlcədən desəydin, qətiyyən qoymazdım sənədlərini hüquq fakültəsinə verəsən...

- Nə üçün?!

- Ona görə ki, hələ cavansan, çox şeydən xəbərin yoxdur. Əvvəla, indiki zəmanədə ali məktəblərə biliklə girmək müşkül məsələdir. Hüquq fakültəsinin qapılarını açmaq isə, hər adama müyəssər olmur. Bunun üçün ya yüksək vəzifəli arxan, ya da ki, külli miqdarda pulun olmalıdır. Allahverən əmi də ki, kəndçi babadır, səhərdən-axşamacan iynə ilə gor qazır. Onun bir heylə mağduru hardadır?!

Külək qapını bərkdən çırpdı. Fəttah Nazimdən qabaq ayağa qalxıb pəncərələrin birini bağladı və yenə də sözünə davam etdi:

- Onu da bilməlisən ki, bizim ölkədə dəridən-dırnaqdan çıxıb, inzibati orqanlarda işləmək üçün can atanlar qarşılarına heç də onu məqsəd qoymurlar ki, cinayətin kökü kəsilsin. Çünki onların çörək ağacı cinayət və cinayətkarlardır. Bu mənhus ağacın barından bəhrələnənlər fəxrlə öyünüb özlərini xoşbəxtlərin xoşbəxti sayırlar. Lakin onun axır aqibətindəki fəlakətləri ağıllarına belə gətirmirlər. Yalnız əlin qabarı, gözün qarası, əqlin hikməti ilə əldə edilən nemətlərə qane olanlar ucalığın zirvəsinə yüksəlməyə qadirdirlər. Nazim, bu sözlərə görə ürəyində məni qınaya da bilərsən. Onu da bil ki, həyat yolunun başlanğıcında üzləşdiyin uğursuzluq, mənim onsuz da çox olan dərdimi bir az da artırdı. Gündüzlər müxtəlif xarakterli adamlarla üzləşirəm, gecələr kitablarla əlləşirəm. Oxuduqlarımla gördüklərimin arasındakı uçurumun dərinlikləri məni dəhşətə gətirir. Bu gün, o qapısından məyus qayıtdığın ali binaya, prokuror və ya milis işçisi olmaq arzusu ilə daxil ola bilməməyin, bəlkə də Çiçəklinin paklığında ərsəyə çatan

məsum bir gəncin, bu uçurumdan xilas olması üçün ulu göylərdən gələn ilahi hökmünün sənə bəxş etdiyi əzəli və əbədi xoşbəxtlikdir.

Nazim çənəsini ovcuna alıb, dəryada gəmisi batıbmış kimi mat-məəttəl bayaqdan bəri onu dilə tutan Fəttahın üzünə baxırdı. Qulağı onda olsa da, fikri dağda, daşdaydı. Düşünürdü ki, kəndə nə üzlə qayıtsın?! Eşidib-bilən onun barəsində nə deyəcək?! Ölsəydim, bundan yaxşıydı! El içində atamın başını aşağı elədim...

Yas düşəndə hərə öz dərdini ağlayır. Görünür, Fəttahın da başqa bir yaralı yeri var idi. O, sinəsini boşaldandan sonra ayağa qalxıb, əlini müsahibinin çiyninə qoydu və onu ərklə silkələyib xəyaldan ayıraraq:

- Dostum, bax, belə-belə işlər! Başa düşdün də nə demək istəyirəm?! Ona görə də hər xırda şeyi ürəyinə salıb, özünə dərd eləməyin faydası yoxdur. Bəlkə də xeyir bundadır - dedi.

Axşam sərinində həmkəndlilər qoşalaşıb şəhərə çıxdılar, xeyli gəzib dolaşdıqdan sonra yorğun-arğın evə qayıtdılar. Səhər Fəttah işə getdi. Nazim isə imtahan sənədlərini geri alıb qayıtdıqdan sonra kubinka bazarına yollandı. Sırtıq satıcılar xam müştəri görən kimi qır-saqqız olub yapışırdılar yaxasından. Əlində asılqana keçirilmiş kostyum olan cavan bir oğlan onun qabağını kəsib, matahını tərifləməyə başladı. Nazim:

- Mənə təkcə şalvar lazımdır, - deyib, kostum alverçisindən birtəhər sovuşdu.

Bu dəfə qolunun üstündə bir neçə şalvar olan zəbərdəst bir rus, sərxoş vəziyyətdə ləngər vura-vura Nazimin yaxasına cənbər oldu. Onun ağzından araq və duza qoyulmuş sarımsaq qoxusu gəlirdi. Hiss olunurdu ki, möhkəmcə vurub. Nazim sərxoş adamla alver eləməkdən yan keçmək istədi. O isə əl

çəkmədi. Axırda Nazim üzə düşüb öz ölçüsünə uyğun gələn şalvarların birini seçib soruşdu:

- Neçəyədir?

- İki min! Başqalarına baxma, mən ucuz satıram! Arvadımı xəstəxanaya aparmalıyam, ona görə tələsirəm! Dəyər-dəyməzinə verib getmək istəyirəm.

- Aşağı düşməzsən? - Nazim soruşdu.

Alverçi:

- Xeyr, bir qəpik də! Get, bütün şəhəri gəz! Belə mal tapa bilməzsən! Əlim dara düşdüyü üçün ucuz verirəm, elə bil çölə atıram!

Nazim ömründə yalan danışmamışdı. Ona görə rusa inandı. Və həm də öz-özünə fikirləşdi ki, iki min deyirsə, deməli, keyfiyyətli maldır, almağa dəyər. Ancaq heç olmasa insafa gəlib yüzcə manat ensəydi...

Bu heyndə qarnının piyi belindəki kəmərin üstünə qatlanan və yarıaçıq sinəsinə ürək, xəncər şəkilləri həkk edilən orta yaşlı azərbaycanlı onların alverinə müdaxilə etdi:

- Alə, sizə nə lazımdır, qədeş? - Nazimdən soruşdu.

- Şalvar.

Azərbaycanlı qaş-gözlə kefli rusu göstərərək:

- Niyə almırsan? Əntiqə də şalvardır, yüz faiz də yundur!

- Axı, baha deyir.

- Qələt eləyir! Sən özümüzünküsən, yarıbayarı aşağı endirərəm! Görmürsən, özünü, sözünü bilmir! Onu aldatmağa nə var ki?

Nazim bilmədi nə desin. Azərbaycanlı ağzını Nazimin qulağına tutaraq:

- Min çıxart, sonrasıynan işin yoxdu!

Nazim üzünü əks tərəfə çevirib, cibindən deyilən qədər pul

çıxartdı və azərbaycanlının ovcuna qoydu. Azərbaycanlı pulu zornan rusun cibinə dürtərək:

- Sarsaqlama dəə! Al! Zəhərin olsun! İki mindir! - deyib, sonra Nazimə göz vurdu ki, aradan çıx.

Nazim qoltuğunda bükülü şalvar, bazardan çıxhaçıxda həmin azərbaycanlı yenidən peyda oldu:

- Qədeş, gəl kişi kimi danışaq! Rusu aldatdım, min manat irəli düşdün, insafın olsun, heç olmasa beş yüzünü bəri ötür.

Nazim etiraz etmədən əlini cibinə saldı...

Şalvar elə bil Nazimə göydəndüşmə oldu. İki minə dəyən şalvarı min beş yüzə almaq... Yüz faiz də yun! "Bu gün mənimki gətirib", - deyə öz-özünə düşündü.

Fəttah Nazimin kəndə yola düşəcəyini nəzərə alaraq səhər-səhər işə baş çəkib, tez də evə qayıtmışdı. Nazim kubinka bazarında başına gələnləri fəxrlə ona danışdı və şalvarı ona göstərdi. Fəttah başını bulayaraq:

- Sağlıqla geyəsən, - dedi. Ancaq çox baha almısan, səni aldadıblar. Bu cür şalvarlar artellərdə üç yüzə doludur. O rusla azərbaycanlı əlbirmiş. Səni xamlayıblar... Gərək bazara mənsiz çıxmayaydın. Kəndə ağlın getməsin, bura şəhər yeridir. O qədər dələduz, fırıldaqçı var ki... Elə bilirsən, bir nəfər qatırçını tutmaqla dünya düzələcək? Ay-hay!

Nazimin dilxorçuluğu daha da artdı. Həvəslə aldığı təzə şalvar onun gözündən düşdü. Ancaq iş-işdən keçmişdi...

* * *

İlin-günün bu vaxtlarında şəhərə gediş-gəliş çoxaldığından, Bakı dəmiryol vağzalındakı bilet kassalarına yaxın düşmək mümkün deyildi. Ona görə də onlar məcbur olub avtobusa əyləşdilər və Lökbatana getdilər. Fəttah Buta dəmiryol

stansiyasında tanışlıqla Nazim üçün ümumi vaqona bir bilet tapdı.

Bakı-Yerevan qatarının gəlməsinə hələ çox qalırdı. Vaxtı öldürmək üçün Fəttah Nazimi yanına alıb işlədiyi sexə apardı. Və çilingər yoldaşları ilə tanış etdi. Nazimin heyrətli baxışları uğultusundan qulaq tutulan nəhəng dəzgahlarda qalmışdı. Hərə öz işi ilə məşğul idi. Şapkasının uzun dimdiyini geri çevirən və üzünü tük basmış bir nəfər başını aşağı salıb nazik əl mişarı ilə dəmir kəsirdi. Nazimi təəccüb götürdü. O, mişarla ağac kəsildiyini çox görmüşdü, ancaq dəmirin mişarla kəsildiyini ağlına belə gətirməzdi. Odur ki, irəli yeriyib, ustanın kənara qoyduğu dəmirkəsən mişarı götürəndə, barmaqları pörşələndi. Və instinkt olaraq isti mişarı yerə tullayıb, yanan əlini ağzına təpdi. Onun bu hərəkətlərinə kənardan göz qoyanlar pıqqıldayıb gülüşdülər. Nazim pərt oldu. Və qulaqlarının dibinəcən qızardı. Fəttah onu vəziyyətdən çıxarmaq üçün:

- Eybi yoxdur, belə iş çox olur, - deyib, divardan asılmış balaca aptek qutusundan sakitləşdirici dərman çıxardıb Nazimin suluq atmış barmaqlarına sürtdü.

* * *

...Neft tullantılarının orda-burda əmələ gətirdiyi gölməçələr istidən buxarlanıb çılpaq təpələrin arasına qısılan qədim qəsəbənin kəsif havasını daha da ağırlaşdırırdı. Yaxınlıqdakı dəmiryol relslərinin üzərindən sağa-sola şütüyüb keçən ağır parovozların yeknəsəq səs-küyü adamların əsəblərini tarıma çəkirdi. Nazimin gözlədiyi vaxt gəlib çatdı. O, qatara əyləşdi, vaqonun perronundan dostuna əl eləyib, bu qarmaqarışıq aləmdən uzaqlaşdıqca özündə xoşhallıq, yüngüllük duyurdu. Fəttah gözdən itəndən sonra Nazim əlində çamadan vaqona daxil oldu. Yerlərin tutulması bir yana, heç ara-bərədə ayaq

üstündə dayananları yarıb yerimək mümkün olmurdu. Nazim birtəhər irəliləyib, bilet aldığı on yeddinci yeri tapdı. Həmin yerdə yaşlı bir kişi oturmuşdu. Nazim ondan soruşdu:

- Əmi, sizinki neçənci yerdir?

- On yeddinci, - yaşlı sərnişin cavab verdi.

Nazim quruyub qaldı. Və:

- Ola bilməz! - narazı halda öz-özünə mızıldandı. - Axı, mənim biletim də on yeddinci yerədi!

Yaşlı sərnişin:

- Yəqin səhv eləyiblər, oğul, eyni yerə iki bilet satılıb. Eybi yoxdur, dəmir yolunda belə şeylər çox olur. Ondan keçib. Yerimizin darlığına baxma, təki ürək geniş olsun. Otur yanımda. Ata-bala kimi gedərik. Onsuz da dörd stansiyadan sonra düşməliyəm. Sən rahat gedərsən. Yaşlı sərnişin bu sözü deyib geri çəkiləndə Nazim hiss etdi ki, onun qıçının biri dizdən aşağı yoxdur. Nazimin ürəyi ağrıdı.

Artıq qaranlıq düşmüşdü. Vaqonun pəncərələrindən baxanda heç yan görünmürdü. Hərdən gecənin dərinliyində ulduz karvanı kimi sayrışan işıqlar dəmiryolundan aralıdakı kəndlərin yerini bildirirdi. Onların getdiyi vaqonda boş yer olmamasına baxmayaraq, irəlidəki stansiyalarda yenə də dalında şələ, əlində bağlama olan müxtəlif yaşlı adamlar dəstə-dəstə içəri dürtülürdülər. Nazimdən neçə yaş böyük olan cantaraq oğlan kəndirlə sarınmış ağır yeşiyi yerə qoyub, tövşüyə-tövşüyə əl-qolunu nümayişkaranə yellədi və:

- Durun! Durun! - dedi. - On yeddinci yer mənimdir! Əl-ayağım dəyməmiş yerimi boşaldın, on yeddinci bilet məndədi!!

Əyləşənlər bir-birinin üzünə baxdılar. Nazim sakitcə ayağa qalxıb:

- Buyurun, əyləşin, - dedi.

Cantaraq oğlan yaşlı kişinin üstünə xoruzlandı:

- Sən də! Sən də! - dedi. Nə gözlərini bərəldirsən, yerimi boşalt! Yəni deyirsən ayrı cür danışaq?! On yeddinci yer mənimdi!

Şikəst sərnişin çətinliklə özünü düzəldib dikəlmək istəyəndə sürüşüb yıxıldı. Nazim onu qaldırıb, yerində oturtdu. Və üzünü cantaraq sərnişinə tutaraq:

- Üçümüzün də bileti bu yerədir, səhv olub, - dedi. Əlac nədir, birtəhər keçinməliyik. Ancaq bu kişi ilə işin olmasın... Biz ayaq üstə də gedə bilərik, o bizdən ağsaqqaldı.

Cantaraq oğlan Nazimin sözünü ağzında qoydu:

- Bura bax, ə, malçişka! Yuxa qulağı sulama! Mənə dəxli yoxdur! Sən də, o da əl-ayağım dəyməmiş burdan sürüşün! Qanunla on yeddinci yerdə mən getməliyəm!

Cantaraq oğlanın ağzından dava iyi gəlirdi. Onu şaqqalasan iki Nazim çıxardı. Ancaq belə məqamda Nazim də qabağından yeyən deyildi. Dirədöymə, çilink-ağac, aşıq-aşıq oynamaqdan, meyvə ağaclarının budaqlarında gəzməkdən bədəni qayış kimiydi. Çayda, göldə çimib özünü günə verməkdən yayda neçə dəfə ilan kimi qabıq qoyurdu. Çəlimsiz görünməsinə baxmayaraq mənəm-mənəm deyənlərin çoxuna döv gəlirdi. Cantaraq oğlan şikəst kişiyə əl atmaq istəyəndə, Nazim onun qolunu burub, geri itələdi və:

- Ona toxunma! - dedi. Atan yerində kişidir, ədəbin olsun! Sənin kimilərin yolunda canını qoyub!

Cantaraq oğlan yumruğunu qaldırmaq istəyəndə Nazim onun boynunu qoltuğuna keçirib bir göz qırpımında kürəyini yerə gətirdi. Qarnına bir-iki diz vurub, ağzını-burnunu əzişdirdi. Nazimin bu hərəkəti sərnişinlərin ürəyindən tikan çıxartdı. Cantaraq oğlan əlini ağzına tutub qışqıra-qışqıra Nazimə hədə-qorxu gəldi:

- Dayan! - dedi. - Dayan! Bu saat sənə göstərərəm, - deyə-deyə adamların arasından keçib qonşu vaqona addadı.

Aydın məsələydi ki, o, hayıfını almaq üçün başına dəstə toplamağa, ya da ki, Nazimin yaxasını milisə verməyə gedirdi. Yaşlı sərnişin ayıq adam idi. O, vəziyyəti başa düşüb, Nazimin buradan uzaqlaşmasını təkid etdi...

Nazim çamadanını da götürüb, qatar gedə-gedə tambura keçdi və şüşəsi sınmış pəncərədən keçib, dəmir pilləkənlə vaqonun üstünə dırmaşdı. Vaqonların üstündə çoxlu adam var idi. Nazim tövşüyə-tövşüyə bir kənara çəkilib, çamadanına dirsəkləndi. Ucu-bucağı görünməyən qatar bir neçə işığın izinə düşüb, Mil-Muğan düzlərinə çökən qaranlığın dərinliklərinə hücum çəkirdi. Parovozdan qalxan acı daş kömür tüstüsünün xoşagəlməz qoxusu sərnişinlərdə ikrah doğururdu. Nazim ac-susuz, başını taxta çamadanın üstünə qoyub mürgülədiyi yerdə kimsə onu dümsüklədi:

- Ə, əmoğlu, əmoğlu!

Nazim səksənib ayıldı. Tanımadığı adam əlindəki dürtməyi ona tərəf uzadaraq:

- Al, lavaşdı, arasında da qaynanmış yumurta var. Yəqin acsan, ye, ürəyində qut olsun.

Nazim "yəqin Allah adamıdı" - düşündü və - sağ olun, - deyib, onun əlindəki dürməyi aldı və iştahla yeməyə başladı. Və təzəcə yuxuya getmişdi ki, elə bil vaqonun üstünə su çiləndi. Yaxınlıqdakı adamlar bir-birinə dəydi. Bir nəfər şalvarının qabağını açaraq, vaqonun qırağında dayanıb üzünü o tərəfə çevirmişdi... Qatarın küləyi ətrafa nə isə çırtdadırdı. Vaqonun üstünə sərələnən biletli və biletsiz sərnişinlər duyuq düşüb, hay-küy qaldırdılar. Kimsə onu arxadan necə vurdusa, ədəbsizlik edən həmin adam müvazinətini itirib, vəhşi bağırtı ilə kəlləmayallaq oldu. Və bəlkə də gecənin qara kəfəninə

büründü... Qatar isə içərisində və çölündə baş verən bütün bu əhvalatların fərqinə varmadan fit çala-çala dəmir relslər üzərində şütüyərək, mənzil ayağına tələsirdi. Ümumi vaqonun üstündəki gen-bol, lakin narahat "çarpayı"da uzanan Nazim qarmaqarışıq yuxular görürdü. Onun qulağına belə bir səs gəldi:

- Mincivan! Mincivan!

Nazim yuxudan hövlnak qalxıb gözlərini ovuşdura-ovuşdura ətrafa boylandı. Artıq gün çıxmışdı. Qatar onun bilet aldığı Həkəri stansiyasından keçib Mincivanda dayanmışdı. Nazim dilxor oldu. O, tələsik vaqonun üstündən aşağı endi. Və öz-özünə azaylandı: "Bu nə işdi düşdüm, indi mən hara gedim, necə gedim?! Avtobus yox, bizim tərəflərə də hələm-hələm maşın işləmir. "O, əynində dəmiryolçu paltarı olan və boğazının əti sallanan bir nəfərə yaxınlaşıb soruşdu:

- Əmi, dəmir yolla burdan Həkəri stansiyasına neçə kilometrdir?!

Qaşqabağından yorğunluq yağan dəmiryolçu sanki həyatından bezmişdi. O, cavab verməyə can çəkirmiş kimi əvvəlcə əyilib qatarın çarxlarını yoxladı, sonra Nazimə tərəf baxmadan:

- Nə bilim! - dedi. - Ölçməmişəm ki, gərək ki, iyirmi kilometr ola, ya olmaya.

Nazim ondan bu cavabı alan kimi, vaxt itirmədən yola düşdü. O, əlində çamadan gah relslərin arasınca, gah da dəmiryolun kənarı ilə yorturdu. Araz boyu qıvrılıb gedən dəmiryol sərhəd zolağına yaxın olduğu üçün bu yerlərə quş da səkə bilməzdi. Ona görə də lalıxlamış böyürtkən salxımlarının dəji pozulmamışdı. Nazim aclığını, susuzluğunu söndürmək üçün hərdən çamadanı yerə qoyub yetişib lalıxlanmış böyürtkəndən ovuc-ovuc yığaraq tələsik ağzına təpirdi. Ancaq qəflətən peyda

olub ona cuman təlim görmüş boynu zəncirli ovçarkalar Nazimin "nahar yeməyi"ni burnundan gətirirdi...

İrəlidəki döngədə, əllərində avtomat silah olan sarıkürən və qıyıqgöz sərhədçilər Nazimin sənədlərinə baxıb sorğu-suala tutandan sonra, onu qabaqlarına qatıb yaxınlıqdakı gözətçi məntəqəsinə apardılar. Hündür boyu, çəlimsiz bədəni və gümrah baxışları olan baş leytenant tut və ərik ağaclarının kölgəsindəki uzun skamyanın üstündə əyləşib, başıaşağı qəzet oxuyurdu. Qıyıqgöz serjant ona yaxınlaşıb nə isə dedi. Komandir əlindəki qəzeti kənara qoyub, aralıda məlul-müşkül dayanan Nazimə şübhəli nəzər saldı və:

- Yaxın gəl! - dedi.

Nazim bir neçə addım irəli yeridi. Baş leytenant onu diqqətlə süzərək:

- Burnunu nə soxmusan buralara?! Bilmirsən qadağandır?! - soyuqqanlıqla dilləndi və üzünü serjanta tutaraq:

- Çamadanına da əməlli baxın! Beləsindən nə desən çıxar! - dedi.

Nazim udquna-udquna:

- Yol... Yoldaş komandir, vallah Bakıya imtahana getmişdim, - dedi. - İndi evə qayıdıram.

- Evə gedirsənsə bəs dəmiryolun qırağında nə vurnuxursan?

- Həkəri stansiyasında düşməliydim, yatıb qalmışam. İndi Həkəriyə qayıdıram.

- Onda piyada yolunu qoyub, niyə dəmir relsləri ölçürsən?! Sən bunun tülkülüyünə bir bax! - Baş leytenant daha da hirsləndi.

- Yoldaş komandir, buralara nabələdəm, heç yeri tanımıram. Ona görə...

Baş leytenant serjanta:

- Söhbəti uzatmayaq! - dedi. - Onun şirin dilinə aldanmaq

olmaz! Əməlli-başlı yoxlayın! Sonra gedib bir xata çıxardar. İndi gəl cavab ver!

Serjant hərbi qaydada təzim edib, əlində Nazimin pasportu və başqa sənədləri xüsusi otağa keçdi. O, telefonla Nazimin kimliyini dəqiqləşdirdikdən sonra, içəridən çıxıb komandirin qulağına nə isə dedi.

Komandir:

- Yaxşı, onda niyə gətirmisiniz?! Oyun oynayırsınız?! Aparın yola salın getsin. Başa salın ki, bir də belə qələt eləməsin!

Elə bil ilan ağzından qurbağa qurtardı. Nazim sərhəd zolağından kənar olan torpaq yola çıxıb, serjantın göstərdiyi istiqamətlə, arxasına baxmadan Həkəri stansiyasına tərəf götürüldü. Tikanlı məftillərlə bəndə salınmış Araz sahillərində baş verən bu cür əcaib əhvalatların şahidi olduqca, qəzəblənib məcrasından çıxır, dili, dini bir insanların arasında sərhəd olmaq dərdini içinə salıb burulur, qıvrılır və günahını Xəzərin maviliklərində yuyub durulmaq üçün gündoğan tərəfə baş alıb gedirdi.

* * *

Həkərinin nizamsız tikilmiş və əksəriyyətinin üstü qamış, torpaqla örtülən bir və ikimərtəbəli evləri görünürdü. Stansiyanın yaxınlığından keçən şəl basmış su arxının qıraqlarında çoxlu ulaq hörüklənmişdi. Nazim Çiçəkli kəndindən bura hazırlıq taxılı gətirən at-eşşəyi görəndə elə bil bütün dünyanı ona bağışladılar. Bu ulaqlarla getdiyi yollar, aşdığı dağlar, dərələr, doğma kəndinin bir-birinin xeyir-şərinə yarayan mehriban adamları gəlib durdu gözlərinin qabağında. O, qəbul məntəqəsinə tərəf hərləndi. İri tərəzinin üstündəki buğda dolu kisələri çiyninə alıb, hıqqana-hıqqana taxıl anbarına tərəf gedənlərin hamısı Nazimə doğma olan həmkəndliləri idi. Nazim

elə bil kənddən on il bundan qabaq ayrılmışdı. Onları görəndə ürəyi atlandı. Qolunun birini cəbhədə qoyan cavan anbardar onu görəndə sevincək:

- Ə, nə yaxşı gəlib çıxdın, Nazim! - dedi. - Neçə gündü Allahverən kişinin dilindən düşmürsən, sənsiz yaman darıxır.

Nazim ürəyində Allaha yalvarırdı ki, ondan ali məktəbə girib-girmədiyini soruşan olmasın. Ona görə də bəzi suallardan yan keçirdi.

Taxıl təhvil verilib qurtardıqdan sonra hərə atdan-qatırdan birinə minib, torpaq yolla tozhatozla Çiçəkliyə doğru yollandılar.

Yol boyu hamı deyib-gülürdü. Bircə Nazim səsini içinə salmışdı. Bir kəlmə dinib-danışmırdı. Yalnız onu fikirləşirdi ki, sabah camaatın qabağına nə üzlə çıxsın. Eşidib-bilən deyəcək ki, fərsiz oğulun vayına oturum. Allahverənin gədəsi imtahandan üzüqara qayıtdı. Atasının qürrələndiyi bircə o idi, o da belə gətirdi. Bu üzücü fikir Nazimi tərk etmirdi.

Onlar heç yerdə ləngimədən günortadan axşamacan yol getdilər. Rayon mərkəzinə yaxınlaşanda artıq qaranlıq çökmüşdü. Daşıqçılar şəhərə dönmədən, birbaşa kəndə yollandılar. Bu adamlar yorğunluğun, yuxusuzluğun nə olduğunu bilmirdilər. Mindikləri ulaqları düzən yerlərdə dördnala çapıb, bəhsə-bəhslə bir-birini ötür, hərə bildiyindən danışır, xoş əhval-ruhiyyə ilə, acı bağırsaq kimi uzanıb gedən dağ cığırlarını arxada qoyurdular. Axırıncı gədiyi aşanda, dan yeri təzəcə qızarırdı. Kəndin xırmanları, ehramlar kimi ucalan dərz tayaları, yastı-yastı saman təpələri göründü. Heyvan sahibləri mal-qarasını qabağına qatıb naxıra qoşmağa tələsirdilər. Allahverən səhər-səhər bir gözündə su dolu bardaq, bir gözündə ağartı və çörək bağlaması olan toxunma xurcunu Qəmər atın tərkinə bağlayıb, kərəntisini götürdüyü yerdə Nazim

qəfil yolağadan içəri girdi. Allahverən Nazimi görəndə adəti üzrə daxili istəyini büruzə verərək, gözlərini geniş açıb dodaqlarını bir-birinə sıxdı. Və irəli yeriyib oğlunu bağrına basdı. İri qabarlı əllərini onun saçında gəzdirdi. Və sonra geri çəkilib, Nazimi həsrətli baxışlarıyla süzərək:

- Ə, bala, maa niyə xəbər eləməmisən?! Atnan gəlib rayondan gətirərdim. Bəs bu səhər-səhər hardan belə?!

- Stansiyada hazırlığa taxıl gətirənlərlə rastlaşdım. Elə onlarla bir yerdə...

Səsə Fatma nənə içəridən çıxıb sevincək:

- Allaha şükür, bala, Allaha şükür! - dedi. Hər namaz qılanda üzümü göyə tutmuşam ki, sağ-salamat qayıdıb gələsən. İmamzadəyə nəzir-niyaz da demişəm. Elə gün olmaz ki, yetim sevindirməyim.

Allahverən:

- Hələ bir de görüm o getdiyin məsələ nə oldu? Qəbul ola bildin? - soruşdu.

Elə bil Nazimin ürəyinə neştər sancıldı. O, nə hə deyə bildi, nə də ki, yox. Başını aşağı dikdi, yorğunluqdan, yuxusuzluqdan avazımış sifətində yaş damcıları gilələndi. Allahverən kişi başa düşdü ki, iş nə yerdədir. Odur ki, dərinə getmədi. Oğlunun bikefliyi ona sirayət etsə də, özünü o yerə qoymadı. Nazimə toxtaqlıq verməyə başladı:

- Oğul, əslinə baxsan, bu il məktəbə getməyin heç ürəyimdən deyildi. Düzdü e, ali savad lazımdı, ancaq qaçhaqaç deyil ha. Bu il yan-yörəmdə hərlənərsən, bir az da dincəlib ətə-qana dolarsan. Sonra yenə sən ol, məktəb olsun. Bir də ki, dünyada adamın başına nə iş gəlir, hamısı Allahın qismətidi. Ona inanmayan kafirdi! Bəlkə xeyir bundadı! Ona görə də ürəyini-zadını sıxıb-eləmə! Canın sağ olsun! Bir də ki, ay oğul, innən sonra saa nə ev tikmək lazımdı, nə də ki, mal-dövlət

yığmaq. Allahın köməyi ilə vaxtında nə lazımdı eləmişəm. Bu evdə də gözümün ağı-qarası bircə sənsən. Bərkə qalsa, heç ali məktəb də lazım deyil. Elə oxuduğun bəsdi. Kənddə bir oturaq iş taparıq, başını girləyərsən. Mənim də ömrümə nə qalıb?!

Allahverənin oğluna toxtaqlıq verməsinə baxmayaraq, Nazim uğursuz get-gəlin ona verdiyi əzabdan xilas ola bilmirdi. Baxışları sanki yerə mismarlanmışdı. Başını qaldırıb atasının üzünə baxmağa cəsarət eləmirdi. Həyət-bacada da özünə qarşı bir soyuqluq duyurdu.

Nazimin ali məktəbdən əliboş qayıtması bütün kəndə yayılmışdı. Ona görə də xəcalətindən küçəyə də çıxmırdı. Allahverən camaatın ağzını yummaq üçün üzdə başqa cür danışsa da, bu məsələ ona bərk əsər eləmişdi. Fatma nənənin özü də elə bil yasa batmışdı. Evdə Nazimin üzünə söz deməsələr də, o hər şeyi başa düşür və Allah bilir içində nələr çəkirdi. Bir dəfə də atı suvarmağa aparanda, bulaq başına toplaşan arvadlardan kimsə ağzından belə bir söz qaçırtdı:

- Bıy, az, bir vaxt hamı Allahverənin gədəsini tərifləyirdi. Bəs onda nə təhər oldu ki, kağız-kuğuzunu qoltuğuna verib, üzüqara qız kimi evə qaytardılar?!

Nazim bu tikanlı, tənəli sözü eşidəndə rəng verib, rəng aldı. Elə günə düşdü ki, yer yarılsaydı, yerə girərdi. Bir-iki dəfə də çayda çimmək adınan səhər evdən çıxıb, axşam qayıtdı. Nazimə elə gəlirdi ki, Çiçəkliyə əksiklik gətirib və çimdiyi göllər də, altından vurub üstündən çıxdığı bağlar da, ətəklərindən göbələk, mərövcə yığdığı dağlar da ondan üz döndəriblər.

Nazim xəcalət yükünün altından çıxmaq üçün cürbəcür yollar fikirləşirdi. Artıq sentyabrın onu idi. Bütün məktəblərdə dərslər başlanmışdı. İş-işdən keçəndən sonra neynəmək olar?! Hardansa Nazimin ağlına gəldi ki, Fərhad adlı müəllimin iyirmi

il bundan qabaq evlərinə bitişik otaqda yaşadığı barədə atasının çox söhbəti olub. Onu Bakıya yola salanda da elə hey ondan danışırdı. Kəndlərini də ona göstərdi. İndi onun qardaşı Vəliyəddin müəllim Qarabağda institut direktorudur. Ora getsə, necə?! Yox! Girəvəni əldən vermişəm. Artıq gecdir.

O, bir neçə gün ümidsizliyə qapıldı. Sonra yenə də əvvəlki fikrinin üstünə gəldi. - "Nə itirirəm, gedərəm, tutar qatıq, tutmaz ayran. Necə olsa, çörək itməz... Bu barədə atama bir söz deyimmi?! Yox! Bilsə, razı olmaz. Atamın xasiyyətinə bələdəm. Deyəcək ki, əvvəla, məktəbin vaxtı keçib, ikincisi də neçə ildi nə biz Fərhad müəllimin qohum-əqrəbasını itirib-axtarırıq, nə də ki, onlar bizi. Yadlaşmışıq, çıxıb gedib".

Allahverən, atla bir neçə saatlıq yolu olan, Meşəli kəndinə hazırlaşırdı. Ötən ildən orda on-on beş palıd ağacı kəsdirib, qurumaq üçün dostunun həyətində peyinə basdırmışdı. Meşəli kəndinin adamları deyir ki, peyində quruyan ağacın misli yoxdur. Mili, taxtası ömründə nə çürüyər, nə də ki, bircə yerindən çat verər. Allahverən sübh tezdən Qəmər atı alıxlayıb, taxta çəkdirmək üçün iki-üç günlüyə Meşəli kəndinə tərəf yollandı.

Nazim xeyli tərəddüddən sonra axır ki, Qarabağdakı instituta getmək fikrinin üstündə dayandı. Atasının başqa yerə getməsindən istifadə edib, gizlincə evdən çıxdı. Hara getdiyini bircə gözəl rəssam və həmişə ondan şəkil çəkməyi öyrəndiyi yaxın dostu, sirdaşı Əhliyətə demişdi. O, kağız-kuğuzunu düzəldib, qıs-qıvraq geyinib, iti addımlarla yuxarıdakı dağlara dikələn piyada yolu ilə Zabıx dərəsinə aşdı. Axşam sərini Qarabağa gedən maşın yoluna çıxdı. O, qan-tər içində dikdə dayanıb uzaq döngələri vərəvurd eləyirdi. Gözünə maşın qaraltısı sataşan kimi, tez yolun qırağına enib, əl qaldırırdı. Kim idi onu saya salan?! Avtomaşınlar Nazimin yanından vıyıltı ilə

ötüb, üst-başını benzin qoxusu gələn toza batırırdılar. Bu gün dilinin altından su da keçməmişdi. Ancaq aclığı yadına da düşmürdü. Gün batana yaxın hiss etdi ki, ürəyi üzülür. Çamadanından bir yuxa çıxardıb, yavanca dürməklədi. Hava tutulurdu, ətrafa dumanla birlikdə qaranlıq çökürdü. Göydən tək-tək yağış da düşürdü. Nazim yolun qırağındakı yastı daşın altını gözaltı elədi və öz-özünə düşündü: "Yağsa, daldalanmağa yerim var. Bəd ayaqda gecəni də burda qalaram". Uzaqdan uğultu səsi gəldi. Yuxarıdakı dolaylardan ona doğru bir cüt işıq irəliləyirdi. Nazim Allahını çağırıb təpədən aşağı endi və bu dəfə lap yolun ortasında dayanıb əl qaldırdı. Yük maşını onun bir neçə addımlığında dayandı. Sürücünün yanındakı boynu qalstuklu, qolsuz ağ köynək geyinən, üz-gözündən nur yağan ağ saçlı kişi başını kabinədən çıxararaq:

- Oğul, belə hara gedirsən? - soruşdu.
- Qarabağa, instituta, özüm də oralara nabələdəm.
- Şey-meyin çoxdur?
- Xeyir, yüngülcə bir çamadanım var.
- Yaxşı, gəl, otur.

Nazim cəld çamadanını götürüb maşının üstünə qalxdı. Kuzada, kövşən ətri gələn göy otla örtülmüş bir neçə üzüm dolu səbətdən başqa heç nə yox idi. Maşın dərəyə enənə qədər o, ayaq üstündə dayandı. Sonra dizləri ağrıdığından, çamadanının üstündə oturub, qıraqdakı səbətə söykəndi. Nazimin gözlərindən yuxu tökülürdü. Ancaq bir balaca mürgüləyən kimi maşın çala-çuxur yolda atılıb-düşür və onu səksəndirib yuxusuna haram qatırdı.

Göyün üzünü örtən qara buludlar aşağı endikcə gecənin zülmətini daha da artırırdı. Maşının fənərləri duman çökmüş torpaq yolu güclə işıqlandırırdı. Sürücü irəlini yaxşı görə bilmədiyi üçün əsəbiləşib, sürəti tez-tez artırıb-azaldır və sükanı

ehtiyatla sağa-sola bururdu. Dağa dikəldikcə, döngələr, dolaylar artır, yoxuş yolda hərəkət çətinləşirdi. Maşının motoru gücə düşdüyündən canlı məxluq kimi zarıyıb, gecənin dərinliyinə yorğun və tükürpərdici uğultu yayırdı. Yağış şiddətlənəndə sürücü kabinənin şüşəsini aşağı endirib, Nazimi səslədi:

- Orda köhnə pencək var, götür istifadə elə! Yağış səni əldən saldı.

Nazim səbətlərin arasını ələk-vələk eləyib sürücünün benzin qoxusu gələn nimdaş pencəyini tapdı və çətir kimi başına tutdu. Dağları o üzə aşanda yağış bir az səngidi. Nazim alt köynəyinə qədər islanıb cumculuq olmuşdu. Asfalt yola çıxanda sürücü maşının qazını artırdı. İrəlidəki bağ-bağatlı düzlər güclə görünürdü. Maşın şəhərə daxil olub bir qədər irəlilədikdən sonra yolun soluna çıxıb dayandı. Kabinədəkilər olan söhbətdən bilirdilər ki, birdən-ikiyə çölçülük görməyən gənc sərnişin bura ilk dəfədir qədəm basır və heç yeri tanımır. Ona görə də onlar daş hasara alınmış üçmərtəbəli binanı işarə edərək:

- İnstitut, bax, oradır! - dedilər. - İstəsən, düşə bilərsən. Ancaq səni şəhər mehmanxanasına da apara bilərik. İndi özün bil.

Nazim ona qayğı göstərən yad adamlara dil-ağız edib, maşından uzaqlaşdı.

Şəhərin mazutla işləyən yalnız bir elektrik stansiyası vardı. O da qayda üzrə gecə saat birəcən işıq verirdi. Onlar isə bura çatanda gecə saat üçdən keçmişdi. Və hər yan zülmət içindəydi. Nazim əlini hasara sürtə-sürtə giriş qapısını birtəhər tapdı. Lakin nə qədər güc verdisə, arxadan bağlanmış iri və ağır darvazanı aça bilmədi. Bir-iki dəfə:

- Gözətçi! Gözətçi! - çağırdı. Onun kal və yorğun səsinə hay verən olmadı. Əlacsız qalıb hasarın çöl tərəfindəki armud ağacının dibində, yastı daşın üstündə oturdu. Onun saatı yox idi.

Xoruzların banlamasından bilinirdi ki, səhərə az qalır. Kürəyini ağacın qartımış yoğun gövdəsinə söykəyib qarmaqarışıq fikirlərin burulğanında mürgülədi. Yuxuda ayağına ilıq nəfəs toxundu və şıqqıltı eşitdi. Nazimə elə gəldi ki, yuxu görür. Qurcalanıb gözünü açanda vahimələndi. Zəncirdən açılmış bədheybət it çamadandakı çörəyin iyini alıb onun həndəvərində vurnuxurdu. Nazim ayağa qalxanda it götürüldü. Daha sübhə qədər gözünü yummadı. Əynindəki kostyumu sıxmalı idi, yağış canına işləmişdi. Ona görə də yaş paltarın içində əsim-əsim əsirdi. O, cürbəcür idman hərəkətləri etməyə başladı ki, bədəni bir az qızışsın.

Sübhün şəfəqləri söküldükcə, şəhərin qaranlıq və nəm örpəyi hiss olunmadan çəkilirdi və yüzünü yola salmış armud ağacının dibində, sürtülüb bülövlənmiş daş mütəkkənin üstündə axşamı səhər eləyən Nazim də narahat gecənin qərəmətindən xilas olurdu. Lakin onun ümid işığı öləziyən şamın şöləsi kimi titrəyirdi. Və bu işartının sönəcəyi təqdirdə kəndə nə üzlə qayıdacağını fikirləşəndə, parlaq yay səhəri də ona bayaqkı zülmət kimi görünürdü.

* * *

Erkən yuxudan qalxan tələbələrin hay-küyü sübhün sükutunu pozdu. Ərzaq maşınları taybatay açılan məktəb darvazasından çıxıb şəhərə doğru şütüyürdü. Nazim institutun həyətinə daxil olanda çiynindən əl-üz dəsmalı sallanan və əlində sabunqabı olan tələbələrlə qabaqlaşdı. Onlar institut binasından yüz əlli, iki yüz metr aralıdakı su kranında əl-üzlərini yumağa gedirdilər. Nazimi tanıyan bir nəfər yoldaşlarından aralandı və elli kimi ondan hal-əhval tutub, çamadanını əlindən aldı və:

- Nazim, bu vaxt sən hara, bura hara? - deyə soruşdu.

- Düzü, heç özüm də bilmirəm, - Nazim naümid dilləndi.

Onu tanıyan və tanımayan yerliləri duyuq düşüb, bir göz qırpımında Nazimi dövrəyə aldılar. Və onu institut binasının birinci mərtəbəsində yerləşən yataqxanalarına apardılar. Əynindəki yaş paltarı qurutmaq üçün ona dəyişək verdilər. Qabağına nəlbəkisiz, qalın stəkanda, bulanıq suya bənzəyən çay qoydular. Nazim bura nə məqsədlə gəldiyini deyəndə onu dövrəyə alanların üstünə elə bil su ələndi:

- Ağılsız iş tutmusan.

- İndiyəcən harda yatmışdın?!

- İş-işdən keçəndən sonra ayılmısan?!

- Bu fikri hansı başıyox ağlına salıb?!

Hərə bir nəhs gətirdi. Üzünü yana çevirib ona rişxəndlə gülənlər də oldu. Bu məzəmmətli sözlərdən sonra Nazim daha da ümidsizləşdi və:

- Ondan keçib, - dedi. - Düz, qeyri-düz, gəlmişəm. Rektorun kabineti haradadır? Xahiş edirəm, biriniz mənə göstərin.

...İnstitut rektorunun gözləmə otağındakı xoşsifət qadın Nazimi görən kimi makinada yazdığı kağızdan diqqətini ayıraraq:

- Nə sözünüz var, qardaş? - soruşdu.

- Rektorla görüşmək istəyirəm.

Qapıçı qadının rektorun otağına girməyi ilə, çıxmağı bir dəqiqə çəkmədi:

- Buyurun, keçin içəri, - dedi.

Rektorun qaşqabağından zəhm yağırdı. Onun yumşaq, şabalıdı saçı yana daranmışdı. Əynində göy sətin parçadan tikilmiş pencəyi və ağ parusin şalvarı vardı. O, Nazimi görən kimi:

- Eşidirəm Sizi, - dedi.

Nazim çəkinə-çəkinə:

- Müəllim, oxumaq istəyirəm, - dedi. - Gəldim ki, görüm nə məsləhət... - utandığından fikrini tamamlaya bilmədi.

Rektor onun sözünü yarımçıq kəsib əlini qulağının ardına tutdu və qəddini Nazimə tərəf əyərək:

- Eşidə bilmədim, bir az bərkdən danış, görüm nə demək istəyirsən?! - soruşdu.

- Müəllim, oxumağa gəl...

- Nə?! Oxumağa?!

- Bəli.

Rektor təəssüflə başını buladı və baxışlarına sərt ifadə verərək:

- Siz dəlisiniz, yoxsa...

- ...

- İncisən də deməyə məcburam ki, sən normal adama oxşamırsan.

- ...

- Ay oğul! Bura kolxoz bazarı deyil, institutdur! Ali məktəbə qəbul olunmağın qayda-qanunu var! Bu barədə qəzetlərdə elan vermişik. Gərək vaxtında sənədlərini təqdim edəsən, imtahan verəsən, sonra. Bu gün sentyabrın iyirmisidi, gəlmisən ki, oxumaq istəyirəm!

Nazim dillənmədi. Onun lal baxışları rektorun sifətində donub qalmışdı.

Rektor qaşlarını çatıb maraqla soruşdu:

- Hansı rayondansan?

- Çayqovuşan rayonundan.

- Hansı kənddənsən?

- Çiçəklidənəm, müəllim.

Rektor nəyisə xatırlamağa çalışırmış kimi gözlərini qıydı:

- Da, da! Çiçəkli! Çiçəkli! - O, bir qədər duruxdu, sonra yenə soruşdu:

- Orda bir Allahverən kişi var, özü də çox çörəkli adamdı, dururmu?

- Durur, müəllim, elə mən onun oğluyam.

Rektorun baxışları mülayimləşdi. Alnındakı qırışlar açıldı, mərhəmətlə:

- Əyləş, oğul, - dedi, - əyləş! - Oturmaq üçün ona yer göstərdi. Sonra tədris işləri üzrə müavinini yanına çağırıb dedi:

- Bu cavan oğlan respublikanın ucqar rayonundandır. Çayqovuşandan oxumağa gələn az olur. Bizdə imtahan verib, qəbul olunanların bir neçəsi gəlməyib. Məncə, bu cavan oğlanı müstəsna hal kimi boş yerlərin birinə qəbul etmək olar. Özü də danışıqları xoşuma gəldi. Diribaş oğlana oxşayır. Bizə elə beləsi lazımdır. Mənim adımdan yoldaşlara de... sənədlərini hazırlayın, özü hansı fakültəni istəsə, günü sabahdan qoyun oxusun...

Bu söhbət həftənin dördüncü günü olmuşdu. Nazim beşinci gündən tarix fakültəsinin tələbəsi kimi dərsə başladı.

* * *

Bazar günü hərə bir tərəfə çəkilib getmişdi. İnstitutun binasında tək-tük adam gözə dəyirdi. Nazim yataqxananın dəhlizində tənha oturub indiyə kimi keçirilən dərsləri öyrənmək üçün gözünü kitabdan çəkmirdi. Məktəbin təsərrüfat müdiri böyürdən çıxaraq:

- Cavan oğlan, adın nədir? - soruşdu.

- Nazim.

- Üz-gözündən qoçaq oğlana oxşayırsan. O ağ binanı görürsən?! - Təsərrüfat müdiri əli ilə yarım verst aralıdakı hərbi xəstəxananı göstərdi. - Qospitaldan yuxarıdakı açıqlıqda, üzü o tərəfə otlayan at bizim məktəbindir, - dedi. - Çər dəymiş

hörüyünü qırıb gedib. Əkinlərə girməmiş tez o atı qabağına qat gətir.

Nazim:

- Baş üstə, - deyib ayağa qalxdı. Səliqə ilə daş döşənmiş küçənin qurtaracağındakı hərbi xəstəxanaya tərəf dönüb yuxarıdakı taxıl, noxud, kartof əkini sahələrinin arasından keçdi. Göy otluğa tərəf dolaylandı. Səllimə yeyib səmirmiş və uzun, cod quyruğu ilə yan çatlarını döyəcləyib sakit-sakit otlayan at ona tərəf irəliləyən yad adamı görəndə hürküb, üzü aşağı götürüldü. Nazim atla rəftar etməyin yol-yolağasını yaxşı bilirdi. O, yaxınlıqdakı kartof əkininin ortasında atı yalmanladı... Belindəki ensiz uzun qayışını açıb, atın başına salmaq istəyəndə, hər birinin üstündə iyirmi nəfərə qədər dustaq olan üç yük maşını gəlib əkin yerinin kənarında dayandı. Onların başının üstünü kəsdirən altı nəfər əli silahlı polis nəzarətçisinin üçü qabağa keçdi. İrəlidəki maşının kabinəsindən düşən dolu bədənli rəis iddialı baxışlarıyla Nazimə tərs nəzər salaraq:

- Ə, həyasız oğlu, bu əkinləri nə qədər otarmaq olar?! - dedi. - Heç səndə abır-həya yoxdur?! Adamı nə qədər priduprijdat eləyərlər?

Dəstə rəisinin yanında dayanan kiçik serjant onu daha da qızışdıraraq:

- Nəçənnik, bu birinci dəfə deyil! - dedi. - Vicdan haqqı onu azı on kərə bu əkinləri otardığı yerdə görmüşəm. Hər dəfə də istəmişəm tutum gətirim idarəyə, yaxa verməyib aralıdan məni görən kimi sivişib aradan çıxıb...

Dəstə rəisi yeriyib solaxay əliylə ona bir sillə endirdi. Nazim başını yana əydi. Sillə boşa çıxdı. İkinci dəfə əlini qaldırmaq istəyəndə Nazimin baxışlarında amansız qəzəb alovlandı. Rəis Nazimin qırımından hiss etdi ki, ona bir də toxunsa, cavabını alacaq. Ona görə də üzünü yanındakı nəzarətçiyə tutaraq:

- Atı çəkin, qıraqda bağlayın! Özünü də dustaqlarla alaq elətdirin! Onnan sonra hesablaşarıq, aparıb orada dərsini verərik, ağlı başına gələr. Bilər ki, gündə, günaşırı bu əkinləri otarmaq nə deməkdir!

Nəzarətçi:

- Baş üstə! - deyib, rütbəcə özündən böyük olan dəstə rəisinin göstərişini fəxrlə yerinə yetirdi...

Nazim qəddini əyib kartof əkinlərini yabanı otlardan təmizləyir və azadlığını itirmiş müxtəlif yaşlı adamlara oğrun-oğrun nəzər salıb, onların halına acıyırdı. Həm də öz-özünə düşünürdü: "İlahi, burada mənim günahım nədir? Mərdimazar oğlu təsərrüfat müdiri durduğum yerdə məni xataya saldı. İndi neyləyim? Əlim hara çatır?!"

Nazim bu az müddətdə başına gələnləri saf-çürük elədikcə, oxuyub-öyrəndiklərinin əksinə olan həyat qanunlarına qarşı onun qəlbində yaranan nifrət hissi getdikcə güclənirdi. O, iki dəfə ayağa qalxdı ki, vəziyyəti olduğu kimi nəçənniyə açıb danışsın. Ancaq əli silahlı nəzarətçilər həqarətli sözlərlə ona ağzını açmağa imkan vermədilər. Bayaqdan bəri sərbəst gəzib-dolanan at da artıq azad deyildi. Kənardakı alça koluna bağlanmışdı. Nazim özündən betər atın halına yanırdı.

Günortaya yaxın, gözləri çuxura düşmüş və boğazı armud saplağı kimi nazilən yaşlı dustaq qışqırıb, əlinə keçən iri daşı bir neçə dəfə gücü gəldikcə gicgahına vurdu. Onu qan götürdü və başını təzəcə çiçəkləyən kartof kollarının arasına soxub xırıldamağa başladı. Dustaqların arasına çaxnaşma düşdü. Başqa bir dustaq bu qarışıqlıqdan istifadə edib, üzü aşağı götürüldü. Nəzarətçilər əvvəlcə:

- Dayan! Dayan! - deyib qışqırdılar və sonra havaya bir neçə xəbərdarlıq gülləsi atdılar. Ancaq faydası olmadı. Dustaq əyilə-əyilə daş qalağının arxa tərəfinə aşıb gözdən itdi. Nəzarətçilər

bir-birinə dəydilər. Və tüfəngin ağzına patron verib hər ehtimala qarşı atəşə hazır vəziyyətdə dayandılar. Çox çəkmədi baş vermiş əhvalatla əlaqədar rayon prokuroru və milis şöbəsinin əməkdaşları özlərini hadisə yerinə çatdırdılar. Nəzarət dəstəsinin rəisi sarısını udmuşdu. Özünə xəsarət yetirən və qaçıb aradan çıxan dustaqlarla əlaqədar sorğu-sual başlandı. Bu heyndə prokurorun gözü kənarda dayanıb maddım-maddım onlara baxan Nazimə sataşdı və soruşdu:

- Cavan oğlan kimdir?!

- Bu atın sahibidir, yoldaş prokuror. Bizim bu əkinlərdə isdahat qoymuyub. Ona görə saxlamışıq, - dəstə rəisi məlumat verdi. Prokuror başını buladı:

- Nahaq yerə saxlamısınız! Özünüzdən gündə bir hoqqa çıxarmayın! Buraxın getsin!

...Nazim kola bağlanmış atı açıb onlardan aralandı. O, məhkumluqla sərbəstlik arasındakı məsafənin nə qədər qısa olduğunu düşündükcə sanki qəflət yuxusundan ayılıb, bu azad dəqiqələrin misilsiz bir xoşbəxtlik olduğunu indi-indi anlayıb, dərk eləyirdi.

Məktəbin həyətinə çatanda onu gözləyən təsərrüfat müdiri qaşqabağını sallayaraq:

- Dərsləri də belə oxusan, vay səni göndərənin halına! - dedi. - Yaxşı deyiblər ki, haca gedən gəldi, saca gedən gəlmədi. Səhərdən at dalınca göndərmişəm, gedib harda veyillənibsə, gün əyiləndə gəlib çıxır! Utanım yerinə!

Nazim istədi başına nə oyun gəldiyini danışsın. Təsərrüfat müdiri əlinin dalı ilə ona etirazını bildirib, imkan vermədi:

- Mənə izahat-zad lazım deyil, - dedi və incik üzünü əks tərəfə çevirdi.

Nazimin dilxorçuluğu daha da artdı, o birbaşa yataq otağına getdi. Ensiz, alçaq və cırıltısı adamı zinhara gətirən dəmir

çarpayısının üstünə sarıldı. Milis işçilərinin onun başına gətirdiyi oyun, üstəlik də təsərrüfat müdirinin məsələnin nə yerdə olduğunu bilmədən onu danlaması Nazimi hövsələdən çıxartmışdı. Çarpayısında nə qədər o tərəf bu tərəfə aşıb qurcalandısa, özünə gələ bilmədi. Yataq yoldaşlarının zarafatla dediyi atmacalı sözlərdən güclə təbəssümlənsə də eyni açılmadı. Milis işçilərinə, təsərrüfat müdirinə qarşı daxili nifrəti getdikcə dərinləşirdi.

...Ona yad olan təzadlı şəhərdə tez-tez üzləşdiyi ilk çətinliklər arxada qalırdı. Nazim günbəgün institut mühitinə isinişirdi. Müəllim və tələbələrlə onun arasında yaranmaqda olan ünsiyyət telləri günbəgün bərkiyirdi. Ancaq yol uzaq, gediş-gəliş çətin olduğu üçün atasının ona əli çatmırdı. Ona görə də maddi çətinliklərdən əziyyət çəkirdi. Əynindəki yeganə kostyumun qolları didilmişdi. Geyməyə qış paltarı yox idi. Evdən gətirdiyi qəpik-quruşu da qurtarmışdı. Məktəbin verdiyi təqaüdün ümidinə idi. Buna baxmayaraq, heç vaxt özünü sındırmırdı. Onun aclığını, toxluğunu bilən yox idi. Cibi dolu, kefi kök tələbələr kimi gündə, günaşırı şəhər-bazara da çıxırdı. Günü sinif otağındakı skamyaların arxasında, bir də ki, məktəbin ikinci mərtəbəsində yerləşən institut kitabxanasında keçirdi. Kitabxanaçı qız Rəziyyə bu az vaxtda onu institutda ən çox mütaliə eləyən fəal oxucu, həm də heç kəsə qaynayıb-qarışmayan, sakit təbiətli, təmkinli, təvazökar oğlan kimi tanıyırdı. Nazimin burda tez-tez görünməsinin çətin başa düşülən başqa bir sirri də vardı. Firavan həyat sürən və gündə bir modalı kostyum geyinən şəhər uşaqları ilə müqayisədə, əynində köhnə paltar, ayağında yamaqlı çəkmə olan və avazımış qansız sifətindən kasıblıq yağan Nazim məktəbdə o qədər də nəzərə çarpmırdı. Çoxları onu kənddən gəlmiş avam tələbə sayıb, adam yerinə qoymurdu. Nazim ona olan bu münasibəti

özü də başa düşür və çox vaxt kənar gəzib-dolanırdı. Yalnız Rəziyyənin rəftarında özünə qarşı incə bir ehtiram, mərhəmət duyurdu. Bunun səbəbini isə Nazim öz-özlüyündə sakit və çalışqan tələbə, fəal oxucu olması ilə izah edirdi. Yoxsa Rəziyyənin kənddən gəlmiş sarı sısqa gədədən ötrü gözü uçurdu?!

Nazim tələbə yoldaşlarından eşitmişdi ki, Rəziyyə varlı-hallı ailədəndir. Onun atası görkəmli alimdir. Qardaşlarının üçü də hardasa yüksək vəzifədədi. Bacısının əri yuxarılarda işləyir. Nazimin ona olan gizli rəğbətinə səbəb, heç də Rəziyyənin arxalı yerdən olması və qənirsiz gözəlliyi yox, nəcib xasiyyəti, nəzakətli davranışı idi. Nazim maddi çətinliklərin məngənəsində sıxılmasına və ya sakit-sakit gəzib-dolanmasına baxmayaraq, onun da özünəməxsus romantik dünyası vardı. O, təbiətin hər bir gözəlliyinə məftunluqla baxmaqdan zövq alırdı. Lakin mələk timsallı bu qız Nazim üçün əlçatmaz idi. Ona yalnız qərib gecənin ulduzlu səmasını seyr etdiyi kimi, kənardan-kənara, özü də heç kəsə hiss etdirmədən baxırdı. Bu da onun üçün bir təsəlli idi. Rəziyyənin mənəvi paklığı, xarici gözəlliyini daha da ziynətləndirirdi. İnstitutda bir nəfər tapılmazdı ki, haqq-nahaq çənəsini boş qoyub onun barəsində artıq-əskik danışsın. Nazim bu saf və cazibədar qıza ilahinin yaratdığı gözəllik kimi baxırdı. Lakin hər dəfə Rəziyyədən kitab istəyəndə, onun məğrurluğu, bu ilahi gözəlliyin qarşısında heç də təslim olmurdu. Rəziyyənin oynaq qara gözləri, Nazimin ifadəsiz, bir qədər də qətiyyətli baxışları ilə rastlaşanda onun qəlbində bu kasıb geyimli, çəlimsiz oğlana qarşı dumanlı bir məhəbbət hissi baş qaldırırdı. Nazim də, Rəziyyə də bir oxucu və bir kitabxanaçı kimi daxili hisslərini rəsmi sual-cavabla pərdələməyə çalışsalar da, onların hərəkətlərində bir-birinə qarşı sözlə çətin izah olunan həzin ehtiram seçilirdi.

Nazim həmişə olduğu kimi, yenə də aldığı kitabı qoltuğuna vurub arxa cərgədəki stullardan birində əyləşdi. Kitabdan başqa heç nəyə fikir vermirmiş kimi başını aşağı dikmişdi. Ancaq özündən asılı olmayaraq onun fikri-zikri Rəziyyənin nəzakətli davranışında, həzin danışığında, qarmonu yubkasının ayağına qədər uzanan qara hörüklü qulac saçındaydı... Rəziyyə üzünü əks tərəfə çevirəndə hiss olunmadan gözucu ona nəzər salırdı. Son modada geyinib-kecinmiş boylu-buxunlu cavan oğlanlar kitab almaq bəhanəsilə Rəziyyəni dilə tutub, arada ona söz atır və şit hərəkətlər edirdilər. Rəziyyənin isə o cür özündən müştəbeh oğlanlardan heç vəchlə xoşlanmadığı aydınca hiss olunurdu. Kostyumu baha, özü ucuz oğlanlar onda daxilən ikrah doğururdu. Nazim sevgi macərasından çox uzaq olsa da, Rəziyyəyə qarşı onda belə bir məhəbbətin necə yarandığından özü də baş aça bilmirdi. Onun süni boyalarla özünü gözəl göstərməyə cəhd edən qızlardan əsla xoşu gəlmirdi. Bir dəfə rəssam dostu Əhliyyətdən eşitmişdi ki, qadın ədəbini artırırsa, ailəsini düşünür, bəzəyini artırırsa başqasını. Və yalnız gözəl görünməyə cəhd edən qadının həyatından bədbəxt, işgəncəli bir həyat yoxdur. Rəssam dostunun bu sözü o vaxt Nazimin qulağında qalmışdı. Rəziyyə isə ilahinin ona səxavətlə bəxş etdiyi gözəllik payına heç nə əlavə etməmişdi. Əlbəttə, Tanrının verdiyinə qane olmaq ədəbin gözəlliyidir. İnsana xas olan gözəlliyin bütün nişanələri institutda hamının həsəd apardığı bu qızda cəmləşmişdi. Rəziyyənin ədalarında isə, onun nəyə qadir olduğu əsla nəzərə çarpmırdı. O, özünü bütün qızlardan sadə aparır, aşağı tuturdu. Bəzən gözəllik namusa qənim kəsilir və onu çirkab bataqlığına sürükləyir. Rəziyyənin isə mənəvi saflığı xarici görünüşündən qat-qat üstün olduğu üçün o, gözəlliyin zirvəsinə yüksəlməyə layiq idi. Qadına xas olan bu ülvi keyfiyyətlər Nazimin özü də hiss etmədən, onun qəlbini fəth

etmişdi. Və Nazim, özündən asılı olmayaraq, bir-birini tamamlayan bu nadir gözəlliyin sehrinə düşmüşdü və ondan xilas ola bilmirdi. Onlar söz-söhbətlərində bir-birlərinə olan gizli ehtiram və ülvi məhəbbətlərini açıq-saçıq büruzə vermirdilər. Bu sirr Nazimin və Rəziyyənin hərdən rastlaşan lal baxışlarında sezilirdi. Bir də ki, hərtərəfli yarımış xoşbəxt şəhər qızıynan, sevgi dünyasının ənginliklərinə baş vurmaq üçün hələ qanadı bərkiməyən Çiçəkli qartalının xəfif təbəssümlərində.

Bir dəfə Nazim ağ vərəqədə yaşıl və qırmızı karandaşla gül şəkli çəkdi. Təzəcə qanad açıb pərvazlanmaq istəyən bülbül bu gülün al rənginə kənardan riqqətlə, həm də ümidsiz baxırdı. Rəziyyə onun qarşısındakı şəklə gözucu nəzər salaraq incə eyhamla:

- Miskin təsir bağışlayır, - dilləndi və bu kəlmədən sonra onun zərif yanaqlarına xəfif qızartı çökdü.

Bu sözdən sonra Nazim də özünü itirən kimi oldu və səsi titrəyə-titrəyə:

- Al qönçələrin altında nazik tikanlar da olur, - dedi. - Ona görə də bülbül ona yaxın düşməyə cəsarət etmir.

Bu ilk və qısa sual-cavabdan sonra elə bil hər ikisinin nitqi qurudu. Rəziyyə üzünü əks tərəfə çevirib kitab rəflərinə tərəf yönəldi. Nazim fikirləşmədən ona verdiyi belə bir cavabdan, Rəziyyənin inciyə biləcəyini güman edib sarsıldı və düşdüyü vəziyyətdən xilas olmaq üçün qarşısındakı kitabları yığışdırıb Rəziyyə tərəfə baxmadan qapıdan çıxdı. O, bir neçə gün kitabxanaya tərəf üzükmədi. Bu üzücü fasilədən sonra Nazim yenə də kitabxanaya daxil oldu. Rəziyyə onu görəndə elə bil arasında dolaşdığı kitab rəflərinə sübhün şəfəqləri yayıldı. Nazim başını yuxarı qaldırmadan təzə bir kitab alıb yenə də arxa cərgədə, pəncərəyə yaxın olan və həmişə öyrəşdiyi stolun arxasına keçdi. O, əlini üzünə tutub pəncərədən şəhərin

görünən yerlərini ötəri seyr etdi. Bir qədər xəyallandı. Sonra qarşısına kağız qoyub müharibədə şikəst olan və yaş fərqinə baxmayaraq sirdaşlıq etdiyi, emalatxanasında şəkil çəkməyi öyrəndiyi rəssam dostu Əhliyyətə məktub yazıb, fikrini onunla bölüşmək qərarına gəldi. Yenə xəyallandı. Bilmədi nədən və necə başlasın, fikrini məktub vasitəsilə rəssam dostuna necə izah etsin?! Çünki ömründə birinci dəfəydi ki, belə bir sevdaya tuş olurdu. Xeyli baş sındırdıqdan sonra axır ki, mübarək qələmini işə saldı: "Hörmətli Əhliyyət. Bu elə incə məsələdir ki, keçirdiyim hissləri məktub vasitəsilə izah etmək mənimçün çətindir. Ancaq burada ürək qızdırdığım adam olmadığı üçün uzaqdan-uzağa Sizə üz tutmağa məcburam. Yəqin ilk sətirləri oxuyanda güləcəksən. Məni qınaya da bilərsən. Buna haqqın da var. Ancaq məsələdən hali olsaydın, təqsirimdən keçərdin. Heç özüm də bilmədim bu nə işdir. Axı sevib-sevilmək, eşqə düşmək vaxtım deyil. Hələ institutu bitirməmişəm. Atamın karına gəlməmişəm. Ailə həyatı qurmaq üçün özümə gün-güzəran düzəltməmişəm. Bütün bunları dərk edirəm. Ancaq sən demə insanı sehrləyən elə ecazkar qüvvələr vardır ki, onun qarşısında aciz olursan. Bunu kitabxanaçı qız Rəziyyə ilə tanış olandan sonra hiss etmişəm. Bu əsmər bənizli qızın xarici gözəlliyini kiçik bir məktubla təsvir etmək mümkün deyil. Lakin məni ən çox məftun eləyən onun son dərəcə həzin, zərif, sadə, namuslu bir qız olmasıdır. Evlənmək istəyən hər bir şəxs xoşbəxt olmaq üçün Rəziyyə kimisi ilə ailə həyatı qurmaq istərdi. Onun kölgəsincə sürünənlər çoxdur. Və hamısı da imkanlı, hərtərəfli təmin olunmuş oğlanlardır. Lakin heç kəs cəsarət edib Rəziyyəyə yaxın düşə bilmir. Rəziyyənin institutda o qədər də tanınmayan kasıb oğlana meyl göstərməsi məni lap çaşdırır. Başa düşə bilmirəm, o mənim nəyimə bənd olub?! Yalnız mənimlə üz-üzə olanda qaşqabağı açılır. Baxışlarında çılğın bir

məhəbbət ifadəsi cilvələnir. Əlbəttə, belə bir əlçatmaz gözəllə həyat qursaydım, özümü xoşbəxtlərin xoşbəxti hesab edərdim. Dünyada zahiri gözəlliyi, daxili gözəlliyini tamamlayan ikinci belə bir qız təsəvvür etmirəm. Heç oxuduğum kitablarda, Fatma qocamın nağıllarında da bu cür qız nə eşitmişəm, nə də görmüşəm. Düzdü, bizim aramızda açıq-saçıq söhbət olmayıb, lakin inanıram ki, o da mənim barəmdə eyni fikirdədir. Məni ən çox düşündürən odur ki, şəhər mühitində, özü də imkanlı ailədə böyümüş bir qız kəndi bəyənərmi?! Hisli qara buxarının qabağına sərilmiş keçə döşəmənin üstündə əyləşərmi? Fatma qocamın bayatısında çözələnən cəhrə səsi ona xoş gələrmi?! Rəziyyəyə necə izah edim ki, otuz-qırx evli balaca kəndimizdən, o alçaq daxmamızdan ötrü burnumun ucu göynəyir. Bəzən də düşünürəm ki, Rəziyyə kəndimizin adət-ənənələrini görsə əlini əlinə vurub mənə rişxəndlə gülməzmi?! Yoox! Səhv edirəm! O heç də yüngül təbiətli qız deyil. Bunu üzə vurmaz. Lakin ürəyində ayrı cür düşünə bilər. Tutaq ki, məndən ötrü hər cür əzab-əziyyəti qəbul etdi. Kəndimizdə belə bir söz var - ərim ər olsun, kol dibi evim. İnanıram ki, Rəziyyə mənə görə kənd həyatının çətinliklərinə dözər. Lakin ona da mənim vicdanım yol verməz. Razı olmaram ki, arzularım Rəziyyənin bədbəxtliyi üzərində çiçəklənsin. Onu həmişə gözəl, xoşbəxt, firavan görmək istəyirəm. Onunla həyat qura bilməsəm də istəyirəm qəlbimdə belə bir qızın varlığı yaşasın. Bu da mənə həyat təsəllisi olardı. Eh, Əhliyyət "Əhliyyət!" Kaş yanında olub, sənlə bu barədə dərdləşəydim. Sevgi necə də acı, necə də şirin olurmuş! Hansı kitabdasa oxumuşdum ki, sevginin cəzasından böyük dərd, ona xidmət etmək nəşəsindən yüksək xoşbəxtlik yoxdur. Bu sözün nə demək olduğunu indi-indi dərk edirəm..."

Kitabxananın qapısı açıldı. İnstitutun dekanı içəri daxil oldu.

Hamı ayağa qalxdı. Dekan onlara göz gəzdirib, üç nəfərə, o cümlədən də Nazimə işarə edərək:

- Bir iş üçün lazımsınız, - dedi. - Arxamca gəlin.

Onların üçü də dekanın ardınca harasa getdilər.

* * *

İş vaxtı qurtardığından oxucular iki bir, üç bir kitabxananı tərk edirdilər. İçəridə yalnız Rəziyyə qalmışdı. O, yır-yığış eləyib kitabxanadan çıxmaq istəyəndə gözü bayaq Nazimin əyləşdiyi stolun üstündəki kitablara sataşdı. Nazim rəssam dostu Əhliyyətə yazdığı yarımçıq məktubu yaddan çıxartmışdı. Rəziyyə başqasının yazdığı məktubu heç vaxt oxuyan deyildi. Lakin məktubda öz adını görəndə onda maraq oyandı. Nazimin yazdığını diqqətlə oxuyub qurtardıqdan sonra başını buladı. Və bir balaca gülümsədi. Sonra mütəəssir oldu. Sanki bütün kitabxana başına hərləndi. O, ayaqüstə xeyli hərəkətsiz qaldı. Elə bil məktubdakı sözlərin sehrindən qurtarıb, üzərində Nazimin kitabları olan stoldan aralaşa bilmirdi. Başında dumanlanan qarışıq fikirlərdən uzaqlaşmaq üçün birtəhər kitabxananın qapısını bağladı, dəhlizdə onu gözləyən rəfiqələrilə şəhərə tərəf yollandı.

Nazim dekanın tapşırığı üzrə tələbə həmkarları ilə şəhərə iş dalınca getmişdi. O, qayıdanda artıq kitabxana bağlanmışdı. Nazim məktubunun ələ keçə biləcəyindən və məktəbdə rüsvay olacağından ehtiyat edirdi. Sabaha kimi onun gözlərinə yuxu getmədi. Sübh tezdən geyinib-kecinib Rəziyyədən qabaq kitabxananın qapısını kəsdirdi. Rəziyyə səhər-səhər onunla rastlaşanda təbəssümlü baxışları ilə Nazimi süzərək:

- Xeyir ola?! Bu vaxtı səndən nə əcəb?! - incə bir nəvazişlə soruşdu.

- Dünən şəhərdən gec qayıtdım, kitablarım burda qalıb, - Nazim suçlu-suçlu cavab verdi.

Rəziyyə heç nədən xəbəri yoxmuş kimi, xarakterinə xas olan nəzakətlə:

- Ola bilməz, kitabın qalsaydı, görərdim, - dedi.

Bu cavab Nazimin qəlbinə yüngüllük gətirdi. “Deməli, Rəziyyə məktubu görməyib” - öz-özünə düşündü.

Rəziyyə balaca əl sumkasından açar çıxarıb, qapını açdı. Nazim məktub və kitabları necə qoymuşdusa, eləcə də yerindəydi. Onun ürəyi üstünə gəldi. - “Yaxşı ki, məktub ələ keçməyib. Yoxsa rüsvay olardım”, - fikirləşdi. Sonra Rəziyyənin oğrun baxışlarının müşayiətilə içəridən çıxıb dərs keçilən otağa tərəf yönəldi.

* * *

Bazar ertəsi iş vaxtının axırına yaxın kitabxanada bir izdiham vardı. Burada institut üzrə rəsm əsərlərinin müsabiqəsi keçirilirdi. Hamı Nizami Gəncəvinin təzəcə çəkilmiş və qapı girəcəyinin sol tərəfində divardan asılmış şəklinin qarşısına toplaşmışdı. Müəllim və tələbələr üçüncü kursda oxuyan Fəxrəddin adlı tələbənin çəkdiyi şəklə həsədlə baxırdılar. Fəxrəddinin bu cür əl qabiliyyəti buraya toplaşanlar arasında qibtə doğurmuşdu. Rəziyyə də bir kənarda dayanıb şəklə maraqla baxırdı. Nazim irəli yeriyib şəklə diqqətlə nəzər saldıqdan sonra, özündən asılı olmayaraq dodağı pıçıldadı:

- Pis çəkilməyib, babatdı, - dedi.

Onun yanında dayanan hündürboylu, qırmızıpeysər oğlan bu sözü eşidəndə, bir addım geri çəkilib Nazimə tərs-tərs baxaraq:

- Nə?!! Deyirsən pis çəkilməyib, babatdı?! Ha... ha... - şaqqanaq çəkib güldü. Hünərin var, buyur, birini də sən çək! İki

şahını bəyənməyən, ortalığa abbası qoyar! Sən öləsən, bir bunun yekə-yekə qırıldatmağına bax ee!!

Şəklin qarşısına toplaşanların diqqəti bu söz-söhbətə yönəldi. Başqa birisi kinayə ilə:

- Kənd uşağıdı də, nə qanır, ona bənd olmayın, - deyib, Nazimə lağ-luğaz elədi.

Hamı gülüşdü. Nazim rəng verib, rəng aldı. Rəziyyənin belə bir mənzərənin şahidi olması onu sarsıtdı. Nazim heç vaxt istəməzdi ki, Rəziyyənin gözü qarşısında bu cür gülüş hədəfinə çevrilsin. Rəziyyənin də ovqatı təlx oldu. Və Nazimin tənklənib belə bir vəziyyətə düşməsini görməmək üçün kitab rəflərinin arxasına keçdi. Nazim ona ünvanlanan sözlərin birinə də cavab vermədən kitabxananı tərk etdi. Həmin gün özünə gələ bilmədi. Ha çalışırdı, şəklə həsədlə baxanların ona dediyi həqarətli sözlərin, istehzalı gülüşlərin təsirindən xilas olmurdu. Onun bu hala düşməsini Rəziyyə görməsəydi, nə dərdiydi!!

Nazim o gündən kitabxanaya ayaq basmadı. Ancaq fikri-zikri Rəziyyənin yanındaydı. Nazim bir çıxış yolu axtarırdı. O, axşamçağı çarpayısının altındakı çamadanını yoxladı ki, görsün şəkil çəkmək üçün nəyi var. Çamadanın küncündən işlənmiş üç fırça çıxdı. Onu da rəssam dostu Əhliyyət bağışlamışdı... Nazim bu fırçalarla neçə-neçə şəkillər çəkmişdi. İnstituta gələndən daha bu işə baş qoşmurdu. Fikirləşirdi ki, iki tərəfə baxan kəc qalar. Həm də ki, şəkil çəkmək ağırdı. Bu işə qurşansam, dərsləri çatdırmaram. Atıb-unutduğu fırçalar indi ona gərək olmuşdu. Nazim kitabxanada ona rişxəndlə söz atan boşboğazlara növbəti müsabiqədə sübut etmək istəyirdi ki, görsünlər papaq altında necə oğlanlar var. Ancaq təkcə fırça ilə iş bitmirdi. Şəkil üçün kətan parça, yağlı boya lazım idi. Müharibənin törətdiyi yoxsulluq, qıtlıq bəlasından xilas olmayan bir şəhərdə bunları tapmaq məgər asan məsələ idi?!

Dükanlarda ağ kağız, su ilə işlənən rənglər də qəhətə çıxmışdı. Bəs nə etməli?! Nazim özünü oda-közə vurub, bir kvadratmetr həcmində təzə xəritə tapdı. Xəritənin arxası sulu boya ilə şəkil çəkmək üçün münasib idi. Bəs rəng məsələsi?! Nazim şəhərin bütün dükanlarını bir-birinə vurdu. Ancaq əziyyəti özünə qaldı, heç yerdə rəng tapılmadı. O, məcburiyyət qarşısında qalıb, boyaqçılara boyun əyməli oldu. Əvvəlcə məktəbin yaxınlığındakı boyaqçı dükanına döndü. Başında gümüşü papaq olan və qabaq tərəfdə iki qızıl dişi parıldayan otuz-qırx yaşlı cantaraq boyaqçı yun kələfləri iri mis qazandan suyu süzülə-süzülə çıxarıb, qurutmaq üçün dükanın qabağında düzəldilmiş xüsusi qarmaqlardan asırdı. Nazim ona yaxınlaşıb salam verdi. Boyaqçı əlindəki yaşıl rəngə çalan kələfdən diqqətini ayırmadan dilucu onun salamını aldı və soruşdu:

- Sizə nə lazımdır?

- Mümkün olsa, üç-dörd rəng cövhər, hərəsindən yarım çay qaşığı. Pulunu da verirəm.

Boyaqçı onu başından eləmək üçün:

- İpin varsa, gözüm üstə, - dedi. - Buyur, gətir. Hansı rəngə desən, boyayarıq. Özü də ürəyin istəyən kimi. Ancaq cövhərə söz verə bilmərəm. Elə özümüz də cövhər axtarırıq. Bunu da ordan-burdan birtəhər...

Nazim naümid geri döndü. Bu dəfə mərkəzi küçənin qurtaracağındakı boyaqxanaya üz tutdu. Yaşlı boyaqçı əynində nimdaş kostyum olan cavan şagirdinə tapşırıq verib, onu hara isə iş dalınca göndərdi. Nazim boyaqçıya salam verdikdən sonra:

- Əmi, sizə bir işim düşüb, - utana-utana ona müraciət etdi.

- Buyurun, oğlum, eşidirəm.

- Rəng üçün şəhərin bütün dükan-bazarlarını ələk-vələk eləmişəm, tapa bilmirəm. Bəlkə siz mənə bir yaxşılıq edəsiniz. Üç-dörd cürə cövhər lazımdır. Hərəsindən bir çay qaşığı, lap

yarım çay qaşığı da olsa bəs eləyər, müftə demirəm, pulunu verirəm.

- Oğul, varın verən utanmaz. Amma elə şeydən ötrü ağız açırsan ki, vallah-billah gümanım gəlməz. Nəyə desən and içərəm, bizdə bir çimdik də tapılmaz. Olsa, cövhərin mahiyyəti nədir ki?! Dünyasında müzayiq eləmərəm. Ağlına ayrı şey gəlməsin. Bizim boyaqxanada cövhər işlənmir. İpi dədə-baba qaydasında boyayırıq. Qaratikan, gəvən kökü, mal sidiyi, tut qabı, nə bilim, boyaq otu, qarağac qabığı, nar gazalı... hökumət cövhərinən boyanan ipin gəbəsindən, kilimindən, cecimindən, palazından bir şey çıxmaz! Suya düşdü, günün qabağında qaldı, at getsin, bozarır. Amma bizim boyağımız ömürlükdür. Tikə-tikə olunca, nə saralar, nə solar.

Nazimin əli burdan da üzüldü. O, hərlənib-fırlanıb mərkəzi bazarın girəcəyindəki boyaqçı sexinə daxil oldu. Sifətinə qırışlar düşmüş, arıq, yaşlı boyaqçı üzərində bir parça yunlu qoyun dərisi olan əldəqayırma stuldan qalxıb:

- Eşidirəm, oğul, - dedi. - Bəlkə bir sözün var?

- Əmi, mənə cövhər lazımdır, pulum da var, tapa bilmirəm, bəlkə...

- Hansı rəngdən istəyirsən?

- Sumağı, qara, narıncı, yaşıl, açıq qırmızı, göy... hərəsindən mümkünsə bir, olmasa, yarım çay qaşığı.

Yaşlı boyaqçı heç bir söz demədən əks tərəfə yönəldi və saralmış məktəbli dəftərindən beş-altı ağ vərəq çıxarıb dürmək kimi bükdü və qəddini əyərək, hər kağızın arasına bir çay qaşığından da artıq cövhər tökdü.

Nazim özündən asılı olmayaraq:

- Əmi, deyəsən çox oldu, xahiş edirəm, on manatlıq elə, pulum çatmaz, - dedi.

Qoca boyaqçı onun sözlərinə məhəl qoymadan, öz bildiyi

kimi səkkiz cürə cövhər büküb, dinməzcə Nazimə uzatdı. Nazim əlini cibinə salmaq istəyəndə, boyaqçı ona:

- Pul-zad lazım deyil, oğul, - dedi. - Verdiyimi ovsanatdan çıxartma. Görürəm, tələbəsən. Haçan cövhər lazım olsa, gələrsən yanıma. Başqa ehtiyacın da olsa, de. Utanıb-çəkinmə. Utananın oğlu olmaz.

* * *

Neçə gün idi ki, Nazimin gözlərinə yuxu getmirdi. O, gecəni gündüzə qatıb gah növbəti müsabiqədə iştirak etmək üçün Nizami Gəncəvinin şəkli üzərində işləyir, gah da gündəlik dərslərinə hazırlaşırdı... Nəhayət, müsabiqə günü tamamladığı şəkli götürüb birbaşa kitabxanaya apardı. O, çəkdiyi şəkli kitabxananın görkəmli yerindən asanda müsabiqəyə baş çəkməyə gələn institutun rektoru Vəliyəddin Məhərrəmli ilə rəssamlıq texnikumunun direktoru Xasaybəyli içəri daxil oldular. Onların hər ikisi institut tələbələrinin divar boyu asılmış rəsm əsərləri ilə maraqlanırdılar. Texnikumun direktoru, məşhur rəssam Xasaybəyli Nizaminin Fəxrəddin və Nazim tərəfindən çəkilmiş rəsmlərini diqqətlə nəzərdən keçirdikdən sonra, üzünü rektora tutaraq:

- Fəxrəddin də pis çəkməyib, babatdır, oxşada bilib. Ancaq Nazimin çəkdiyi şəklə söz yoxdur, peşəkar sənət əsəridir, - dedi və - o burdadırmı? - soruşdu.

Rektor kənarda dayanan sadə geyimli çəlimsiz oğlanı göstərərək:

- İgidin adını eşit, özünü görmə! Həmin şəklin müəllifi, bax, bu kürdüstanlı balasıdır, - dedi və əlavə etdi: - Onun nəslinə-nəcabətinə yaxşı bələdəm. Ot kökü üstə bitər. Atası Allahverən karlı kişidir, çörəyinin də düşmənidi. O tərəflərdə böyük

hörməti var. Ancaq bu gözəl oğlanda belə bir əl qabiliyyəti olduğunu heç vaxt təsəvvür etməzdim.

Rektor əlini fəxrlə Nazimin çiyninə qoyub silkələndi:

- Afərin, - dedi və onun belə bir istedad sahibi olmasından məmnun qaldığını bildirdi. - Allahverən kişinin çörəyi sənə halaldı - əlavə etdi.

Xasaybəyli irəli yeriyərək:

- Yaxşı, bu cür ki, əl qabiliyyətin var, bəs onda nə üçün burda vaxt itirirsən? Əsl rəssamsan ki!

Nazim burda qeyri-adi bir iş görməyibmiş kimi təmkinini pozmadı, ifadəsiz baxışlarını kitab rəflərinə zilləmişdi. Və institutun rektoru ilə Xasaybəylinin onun barəsində dediklərinə cavab olaraq hərdən yüngülcə başını tərpədirdi.

Təzə çəkilmiş şəklin sorağıynan kitabxanaya axışıb gələnlər Nazimin rəsm əsərinin qarşısında donub qalmışdılar. Onların arasında bir neçə gün bundan qabaq Nazimə rişxəndlə gülənlər də vardı. Həmin o modalı kostyum geyinən, qırmızı peysər oğlanın peşman baxışlarında şəklin müəllifinə qarşı üzrxahlıq və qibtə ifadəsi hiss olunurdu. Nazimin qətiyyətli görkəmi, kənarda dayanıb bu mənzərəni heyranlıqla seyr edən Rəziyyəyə qalib sərkərdə təsiri bağışlayır və kitabxanaçı qız sanki gizli məhəbbət bəslədiyi oğlanın istedadı ilə fəxr edirdi. O qədər də nəzərə çarpmayan adi bir tələbənin birdən-birə ortaya çıxıb, bu cür şəkil çəkməsi, rektorun və Xasaybəylinin onun barəsində dedikləri institutda dildən-dilə düşmüşdü. Dünənəcən Nazimə yuxarıdan-aşağıya baxıb onu saya saymayanlar indi ucqar dağ kəndindən gəlmiş bu çayqovuşanlı balasının qeyri-adi istedadına həsəd aparırdılar. Nazimin davranışı, tələbə həmkarları ilə münasibəti isə əvvəlki kimi idi. Onun ədasız hərəkətlərində heç bir lovğalıq hiss olunmurdu. Əksinə, özünü həmişəkindən aşağı tuturdu.

* * *

Nazim rəssam dostu Əhliyyətə yazdığı məktubu sonradan tamamlayıb axırına nöqtə qoysa da, hələ göndərməmişdi. O, neçə gün idi bu barədə tərəddüd keçirirdi. Və qəti qərara gələ bilmirdi. Fikirləşirdi ki, məktubu göndərsəm, ələ keçə bilər. Çiçəkli camaatının içində lağ yeri olaram. Deyərlər ki, bərəkallah, Allahverənin oğluna! İnstitutu qurtarıb dədəsini yarıtdı, indi də qalıb dambadurumla toy vurdurub evlənməyi. Balam, dünən bir, bu gün iki! Gədə nə tez arvad eşqinə düşdü?! Bu söz-söhbət atamın qulağına çatsa, kişi el içində xar olar. Bunu da özünə bir dərd eləyər. Ürəyində deyər ki, gözümün ağı-qarası bir oğlum var, o da belə səfeh çıxdı. Hələ əyninə şalvar ala bilmir, indidən arvad eşqinə düşüb. Özü də Allah bilir, istədiyi qız hansı yuvanın quşudur...

Əslinə qalsa, bu məsələdə Nazimin qabağını kəsən ən çox atası idi. Anasını vaxtsız itirdiyindən hər iki valideyninə olan məhəbbət payını atasına bağlamışdı. Allahverən həm ata idi, həm ana. Nazimin nəzərində dünya rəncbər atasının iri şana barmaqlarındakı qabarların üzərində bərqərarıdı.

Allahverən yeri düşəndə Nazimə deyirdi ki, oğul, xoş sədan gələndə gümrahlaşıram. Naqis bir hərəkətin qulağıma gəlib çatanda belim əyilir, başımı qaldırıb camaatın üzünə baxa bilmirəm.

Nazim indi iki yolun ayrıcında qalmışdı. Onun gənclik dünyasında saf və dərin məhəbbət bəslədiyi iki müqəddəs məxluq üz-üzə dayanmışdı. Ata və gözəllik mücəssəməsi olan Rəziyyə. Nə atasına olan ehtiramına xilaf çıxa bilirdi, nə də ki, Rəziyyəyə bəslədiyi və hələ faş olmamış saf məhəbbətinə. Nazim: - bəlkə hissiyata qapılmışam, - deyə öz-özünə düşündü. Bir axşam gecədən xeyli keçməsinə baxmayaraq, yataqxanadan

çıxıb institut binasını əhatə edən meyvə ağaclarının arasında sakit-sakit gəzinməyə başladı. Bir parça buludu olmayan təmiz səmanın ənginliklərində ulduzlar sevinclə sayrışırdı. Nazim adəti üzrə tut ağacının gövdəsinə dirsəklənib riqqətlə səmanın seyrinə daldı və xəyallandı. Bədirlənmiş ayın aynasında sanki dünyaya göz açdığı Çiçəklini və onun əsrarəngiz dağlarını, düzlərini gördü. Çiçəklidəki doğmalarına qovuşdu. Qeybdən onun qulağına Nazimə əziz olan bir cingilti gəldi. Bu, Allahverənin Yazı düzündəki çiçəkli otları lay-lay biçib, yerə sərən kərəntisinin səsi idi. Nazim kövşən ətri duydu. Atasının sərin qalsın deyə kol dibində gizlətdiyi cürdəyi başına qaldırıb doyunca içdiyinə baxdı. Qəddini əyərək ayağının birini irəli, birini geri qoyub on nömür kərəntisi ilə biçənəklərə meydan oxuyan atasına yaxınlaşdı, onun ağ köynəyinə hopan duzlu tərinin Nazimə xoş olan rayihəsini duydu, sanki ömrünün ən xoş anlarını yaşadı. Ağacdan qəfil qalxan quş onu fikir dünyasından ayırdı. Bayaqdan ona elə gəlirdi ki, doğma diyarın saf və sakit qoynuna sığınıb. Təəssüf ki, bu ötəri bir xəyal idi. O, mer-meyvəsi sovulmuş və yarpaqları saralıb-tökülməkdə olan bağ-bağatda qarmaqarışıq fikirlərin dolaşıq düyünləri ilə əlləşirdi.

...Nazim rəssam dostu Əhliyyətə yazdığı məktubu cırdı və sonra da yandırdı. O, öz-özünə: - yox, atamı heç kimin ayağına verə bilmərəm. Nə çoxdu qız, ata isə... Elə iş tuta bilmərəm, ki, camaat məni daş-qalaq eləsin. Hələ qabaqda institut var, oxuyub qurtararam, zəhmətə qatlaşaram, ailəyə qazanc gətirərəm, atamın borcundan çıxaram... Evlənmək həyat zərurəti olsa da, sorakı işdir. Hər şeyin öz vaxtı var. Ailə həyatı qurmaq üçün gərək yüz ölçüb, bir biçəsən. Düzdür, ailə səadətimin açarını Rəziyyədə görürəm. Bəs o necə?! Axı, məhəbbət qarşılıqlı olmalıdır. Bu barədə hələ onunla kəlmə kəsməmişəm. Bəlkə Rəziyyənin niyyəti bambaşqadır?! Qeyrisinə dil verib? Mənə

görə şəhəri atıb kəndi qəbul edərmi? Və yaxud qarşıma şərt qoyar ki, şəhərdə qal. Hər halda bu müəmmaları aydınlaşdırıb sözü dağ eləməliyəm. Ancaq inanmıram ki, Rəziyyə ağıl-kamalda olan bir qız məni öz iradəsinə tabe etmək fikrinə düşsün. Ona görə atamı atıb, şəhərə gəlməyimi rəva bilsin. Nəyinsə naminə atasını tapdalayan bir oğlan qızıl parçası olsa da, Rəziyyə qəlbində ona yer verməz, əksinə, nifrət eləyər. Mənim Rəziyyəm belə bir qızdır. Elə məni də Rəziyyəyə bağlayan onun bu cür dərrakə sahibi olmasıdır. El arasında bəzən deyirlər: - gözəlin ağlı topuğundadır. Ağır təbiətli bir qızın nəcib hərəkətləri heç kəsə əsas vermirdi ki, onun barəsində belə bir ucuz fikrə düşsün.

Nazim rəssam dostuna göndərmək istədiyi məktubu cırıb tullasa da, Rəziyyəyə olan sevgisinin odunu söndürməkdə aciz idi. Və ürəyini Rəziyyəyə açmaq üçün bir fürsət axtarırdı.

Şəhərdə keçirilən mühüm bir tədbirlə əlaqədar olaraq müəllim və tələbələrin hamısı bu işə səfərbər olunmuşdu. Nazim isə məktəbdə növbətçi qalmışdı. İnstitutda darıxdırıcı bir sakitlik vardı. Həyət-bacada tək-tük adam gözə dəyirdi. Bu gün sinif otaqları kimi, kitabxana da boş idi. Təkcə Rəziyyə içəridə tənha bir küncə çəkilib nə isə yazıb-pozurdu. Nazim qapını açıb içəri daxil oldu. Rəziyyə onu görəndə əvvəlcə diksindi. Sonra baxışları sübhün günəşi kimi şəfəqləndi. Qarşısındakı kağızları unudub, ehtiramla ayağa qalxdı. Nazim çoxdan bəri qəlbində qövr eləyən gizli bir sirri Rəziyyəyə bəyan etmək istəyirdi. Ancaq qorxudanmı, sevincdənmi onun həyəcanlı səsində bir titrəyiş vardı. Deyəcəyi sözün qarşısında nəvazişlə dayanan bu məsum baxışlı qız tərəfindən necə qarşılanacağını bilmədiyindən ürəyini açmağa cəsarət etmirdi. Bunu Rəziyyə də hiss etdiyindən qızın ürəyi qızılquşun caynağına keçən dağ kəkliyinin ürəyi kimi çırpınırdı. Nazim qızara-qızara:

- Rəziyyə... - onun nitqi qurudu, dili dolaşa-dolaşa - Sizinlə nə isə danışmaq istəyirəm, - dedi. Ancaq bilmirəm necə deyim... Sizinlə bu barədə danışmaq mənə olduqca çətindir. Elə bil nə isə yuxu görürəm. Ağlıma gəlməzdi ki, bütün varlığımı fəth eləyən bir qızla üz-üzə dayanıb, qəlbimdən keçənləri ona izah etmək üçün özümdə cəsarət tapa bilərəm.

Rəziyyə gözlərini yerə dikdi, sonra başını qaldırıb, Nazimə baxmaq istədi, ancaq bacarmadı. Həyəcanını boğmaq üçün bir qədər susdu.

- Elə mən də Sizin barənizdə düşünürəm, - xeyli sükutdan sonra dilləndi. - Sizi başa düşürəm, Nazim! Qəlbinizi bəlkə də ilk dəfə sevdiyiniz bir qıza açmağın Sizin üçün asan olmadığını üz-gözünüzdən oxuyuram. Mənə elə gəlir ki, bu sözləri deməkdə heç də yanılmıram. Unutmayın ki, bünövrəsi məhəbbətlə qoyulmuş binanın hisli buxarası da ətir saçır. Və Fatma nənənin həzin bayatısında çözələnən cəhrə səsini, sevilməyə layiq olan bir oğlanı boya-başa çatdıran komanın xoşbəxtlik himni kimi dinləyirdim. O fikrinizə də şərikəm ki, atasının haqq-sayını itirən oğul, kişi adını daşımağa layiq deyil. O cür adamlar sevgisinə də sadiq ola bilməz.

Rəziyyə bu sözü deyəndə üzündəki məlahətdən əsər-əlamət qalmadı. Onun eyhamlı sözləri elə bil Nazimi ayıltdı. “Hisli buxarı, Fatma nənə” kəlmələrindən başa düşdü ki, Rəziyyənin onun rəssam dostu Əhliyyətə yazdığı və tələsdiyindən kitabxanada qoyub getdiyi məktubdan xəbəri var. Ancaq nəzakət xatirinə bunu Rəziyyənin üzünə vurmadı. Və bir anlığa dərin sükuta daldıqdan sonra:

- Haqlısınız, Rəziyyə, - dedi. - Sizə olan ilk və çılğın məhəbbətim, çoxdan bəri bildirmək istədiyim, lakin cəsarət etmədiyim bir sözü deməyə imkan vermir.

Rəziyyə elə bil həmişəki həlim xasiyyətli qız deyildi. Sanki

indi onun əlinə, Nazimin nədəsə ittiham etmək məqamı düşmüşdü. Və sifəti getdikcə ciddiləşirdi. Onun məğrur baxışları sanki Nazimi təqib edirdi. O həlim bir istehza ilə dedi:

- Sizi sevirəm!! Döyünən qəlbin təntənəli ifadəsi!! Oğlanların qızlara bundan başqa ilk sözləri nə ola bilər?! Qızları tovlayıb müvəqqəti əylənmək niyyətində olan çılğın ehtirasın nadan əsirləri də və ya dəlicəsinə sevib əbədi həyat qurmaq istəyənlər də siftə-siftə eyni cürə dil tökürlər. Ancaq qadınların xarici görkəmi yelbeyin kişilərin başını asanlıqla dumanlandırır. Onlar anlaya bilmirlər ki, çox vaxt ən çirkin niyyətlər gözəl sifətlərin arxasında gizlənir və xarici gözəlliyin müvəqqəti, mənəvi gözəlliyin əbədi olduğunu əsla dərk etmirlər.

Nazim Rəziyyənin işlətdiyi müəmmalı sözlərin təsirindən, zülmət gecədə Çiçəkli dağlarının qorxunc keçidlərində üzləşdiyi təhlükə anında keçirdiyi həyəcanlı dəqiqələri yaşadı. Onun bədəninə əzabverici gizilti yayıldı. İnana bilmirdi ki, qarşısında dayanan onun gənclik dünyasında ilk dəfə olaraq məhəbbət işığı saçan Rəziyyədir. Və inana bilmirdi ki, Rəziyyə onunla birdən-birə bu cür sərt danışar. İstədi Rəziyyənin sözünü kəsib, söhbəti başqa məcraya yönəltsin. Rəziyyə gülümsünüb etiraz mənasında əlinin incə hərəkəti ilə:

- Rica edirəm, əzab çəkdiyiniz müqəddəs eşqin xatirinə məni bağışlayasınız, - dedi. - Hesab edin ki, bu sözləri dərdimə şərik olmağa qüdrəti çatan, mərd və qəlbimdə səcdə qıldığım əqidəli bir oğlana deyirəm. Ona görə də məni axıra qədər dinləməsəniz, çıxardığınız nəticə yanlış olar. Mənə vermək istədiyiniz cavablar üçün peşmançılıq çəkərsiniz. Və sonradan üzr istəməyinizin faydası olmaz.

Nazimin çaşqın baxışları onun incə qamətində qalmışdı. Rəziyyə danışdıqca həyəcanlanırdı:

- Eyni dərəcədə yaşadığımız zəmanənin qızlarına nifrət

edirəm, - dedi. - Onların çoxu bəlkə də əksəriyyəti vüsala qovuşduğu andan öz ərlərini doğma ata-analarından soyudub, yadlaşdırmaq kimi mənhus məqsədə qulluq edirlər. Bunun üçün min cür hiyləyə, fitnə-fəsada əl atırlar. Ərlərini ram edib, məqsədlərinə nail olduqları təqdirdə, ailədə tutduqları məkrli, həm də hökmran mövqeləri ilə sanki öyünürlər. Kişilər isə boy-buxunlarına, qara qaş-gözlərinə bənd olduqları o cür ifritə qızların müti quluna çevrildiklərindən usanmırlar. Gözəllik fenomenini abır, ismət, həssaslıq, həzinlik, insani nəzakətdən... ibarət olduğunu başa düşmək fəhmindən xali olan bədbəxt oğlanlar kənarda baxanların gözündə çox miskin göründüklərini anlayıb, bunun necə bir fəlakət olduğunu ağıllarına belə gətirmirlər.

Rəziyyənin füsunkar baxışlarında acı istehza dolaşdı:

- O cür kişilər namusdan, qeyrətdən daha çox dəm vururlar. Ancaq qadın xarakteri, kamil kişi cəsarəti ilə cilalandığı təqdirdə nəcibləşə bilər. Kişilər qeyrətsizləşdikcə, qadınlar necə də azğınlaşarmış, ilahi! Bunu düşündükcə dəhşətə gəlirəm.

Rəziyyə birdən susdu. Nazimə mərhəmət və məhəbbətlə nəzər saldı:

- Siz Allah, inciməyin, - dedi. - Vallah, nə danışdığımı heç özüm də bilmirəm. Bəlkə başım xarab olub?! Yoxsa öz-özümə sayıqlayıram?! Sizin qarşınızda bu cür açıq-saçıq danışdığım üçün gərək məni bağışlayasınız. Sizdən min dəfə üzr istəyirəm. Yeganə adamsınız ki, kiçik bir incikliyiniz mənə sağalmaz bir dərd ola bilər. Niyəsini özüm də bilmədən ilk dəfədir ki, qəlbimi didib-parçalayan gizli bir dərdi sizə açmaq istəyirəm. Güman ki, hamı məni bir çox mənada Allah-Taalanın hər tərəfdən yarımış bəxtəvəri hesab edir. Bəlkə də çoxlarının qəlbində qibtə doğururam. Mənə həsəd aparanlar da az deyil. Ancaq bilmirlər ki, dünyanın ən bədbəxt bəndəsiyəm.

Rəziyyə kövrəldi, yazıqlaşdı. Onun uzun kirpiklərinin altından iki damla yaş qopub, zərif və boyasız yanaqlarında büllurlaşdı. O, özünü ələ alaraq titrək bir səslə:

- Nazim, - dedi. - Dərd yükünüzü daha da artırmamaq üçün sirrimi sizə açmaq istəməzdim. Onda bir müddət, bəlkə də bir neçə il vüsala çatmaq arzusu ilə yaşayardınız. Bu mənim üçün də təsəlli olardı. Bilirəm ki, bugünkü görüşümüzdən sonra arzularınız puça çıxacaq, sonra nələr çəkəcəyinizi təsəvvür etdikcə dəhşətə gəlirəm. Axı, niyə belə olsun?! Burada sizin günahınız nədir? Bircə təqsiriniz var ki, taleyinizin acı hökmü ilə mənə tuş olmusunuz. Məni məndən alsanız da, nə özünüzü xoşbəxt edə bilərsiniz, nə də ki, çoxlarının bəxtəvərlik verdiyi bədbəxt bir qızı.

Rəziyyənin bənizi ağardı. Onun kədərli, düşüncəli gözləri doldu:

- Nazim, heç vaxt unutmayacağım insan kimi qəlbimin açılmamış kitabını ilk dəfə sizin qarşınızda vərəqləyirəm, - dedi. - Biz üç qardaş, iki bacıyıq. Atamın əzab-əziyyəti ilə hamısı ərsəyə yetib. Hamısının yaxşı vəzifəsi, dolu ev-eşikləri, dost-tanışları var. Allah ta artıq eləsin. Yurdda ata-anamın ümid çırağını yandıran yeganə övlad mənəm.

Rəziyyə kədərli ah çəkdi və sözünə davam etdi:

- Heç yadımdan çıxmır. Bir qış gecəsi... - onu qəhər boğdu. - Bir qış gecəsi gözlərimi açanda gördüm ki, saat üçdən keçib. Atam çarpayısında yoxudu. Onun hənirtisi iş otağından gəlirdi. Daha yata bilmədim. Atam yazı masasının arxasından qalxıb ayağının ucunda yataq otağımızın qapısını ehmalca açdı. Mışıl-mışıl yatdığımızı riqqətlə seyr etdikdən sonra onun dodaqlarından xəfif pıçıltı qopdu:

- Mən ayıq qalmasam, onlar rahat yatmaz, - deyib yenidən iş otağına döndü. Bir dəfə də... Ortancıl qardaşım ali məktəbə

daxil olanda axırıncı imtahandan qeyri-məqbul qiymət aldığına görə atam neçə gün əsəbi sarsıntı keçirdi, fikirdən xəstəlik tapdı. Onun əsəbləri pozulmuşdu. Moskvadan belə, o həkim qalmadı ki, aparmasınlar. On ilə yaxın səhhəti düzəlmədi. Çoxlu dava-dərmandan, sanatoriya müalicələrindən sonra, nəhayət, birtəhər özünə gələ bildi. Çətnliklə fizikadan doktorluq dissertasiyasını müdafiə etdi. İki il bundan qabaq atamın başına yenə bədbəxt hadisə gəldi. Laboratoriyada birgə təcrübə apararkən aspirantının səhvi üzündən partlayış baş verdi. Atamın əlləri, üz-gözü yandı. Həkimlər onu ölümün əlindən güclə aldılar. Lakin görmə qabiliyyəti bərpa olunmadı. Atam ömürlük dünya işığına həsrət qaldı... Məndən böyük bacım Mərqufənin əri Süleyman Cavadov Moskvada ali partiya məktəbində oxuduğu üçün ata-anama hər dəqiqə əli çatmır. Qardaşlarım isə...

Rəziyyə sözünə ara verib, kinayə ilə:

- Necə olsa, qardaşlarımdır, bir atanın belindən gəlmişik, bir ananın qarnından çıxmışıq! Sağ olsunlar, atamın sayəsində yüklərini təpəyə yığıblar! Daha atanı neynirlər?! Hərəsinin arvad-uşağı, ev-eşiyi... Qardaşlarım, necə deyərlər, xala xətrin qalmasın, ayda-ildə bir atama baş çəkirlər. O da necə?! Elə bil od almağa gəlirlər! Nə deyim, vallah, ürək süfrə deyil ha, açasan! İndi arvadlar ata-anadan matah olub! Hələ atamla birlikdə yaşayanda gəlinlərin qayınataya, qayınanaya etinasız münasibəti mənə dərd olurdu. Qardaşlarım ata-anası ilə xoş rəftar eləyəndə elə bil gəlinlərin başına göydən ağır daş düşürdü. Qardaşlarımın ata-anası ilə bir balaca cod rəftarı, gəlinlər də ərlərinə qarşı xoşhallıq, istək yaratdığının şahidi olduqca bütün gəlinlərə nifrət edirdim. Ona görə də "gəlin" adı daşımaqdan biryolluq imtina etmişəm. İstəmirəm adım gəlin çəkilsin. Çünki bu barədə, mənim özüm də özümə zamin deyiləm. Bəlkə ərə getsəydim, onlardan da insafsız, mürvətsiz, ədəbsiz, sırtıq bir

gəlin olardım. Hər halda gözümün işığı olsalar da, ata-ananı şirin busələrə fəda eləyən oğlanlara nifrətim var. Gizlətmirəm, etiraf etməliyəm ki, qardaşlarıma qarşı ikrah hissim, onlara olan bacı istəyindən qat-qat güclüdür. Qocalıb əldən düşmüş ata-ana naxələf övladlarının hənirtisini eşidəndə necə də fərəhlənirlər, sevinirlər, ilahi?! Ancaq bu xoş anlar çox qısa çəkir. Qardaşlarımın mayıf atamla, ağbirçək anamı yoluxmağa gəldikləri dəqiqələr ərsəyə çatmış övladlar üçün necə də darıxdırıcı olarmış, ilahi?! Bunları təsəvvür etdikcə gen dünya mənə dar gəlir. Elə bil havam çatmır, boğuluram. Axı, niyə belə olsun, ey Ulu Tanrı?!

Birdən, sizdə elə bir təsəvvür yaranar ki, mən ər-arvad istəyinin əleyhinəyəm, əsla! Oxumadığım kitab qalmayıb. Yaxşı bilirəm ki, hər bir kişinin qadına qarşı nəzakəti, onun bütün insani keyfiyyətlərinin yarısına bərabər olmalıdır. Qardaşlarımla qardaşım arvadlarının mehribançılığı ilə fəxr edərdim. Ailənin ilk uğuru ər-arvad arasındakı qarşılıqlı məhəbbətdən başlanır. Bunları dərk etmək ədəbindən heç də xali deyiləm. Əks təqdirdə mən yelbeyin bir qız olardım. Lakin qayınatanı, qayınananı onlara düşən ehtiram, məhəbbət payından məhrum etmək niyyəti, rəzil gəlinlərin naqisliyindən irəli gələn qeyri-insani keyfiyyətdir. Bu iyrəncliyin şahidi olduqca dəhşətə gəlirəm. Və xislətli gəlinlərə qarşı amansız nifrətimi gizlədə bilmirəm.

Birdən Rəziyyənin nəfəsi tıncıxdı, onun ürkək baxışları qürub edən günəşin vida şəfəqləri kimi işıqlandı və çöhrəsində çaşqın bir təbəssüm dolaşdı:

- Elə bil sayıqlayıram axı?! Heç özüm də bilmirəm nə danışıram. Nə isə... Sizinlə üzbəüz dayandığıma görə həyəcanlanıram. Bəlkə də düz demirəm?! Həyat təcrübəm kifayət qədər olmadığı üçün belə axmaqlayıram?! Ancaq məni

hissiyata qapılmaqda qınasanız da, deməliyəm ki, öz dünyam, arzularım var. Bu sözlərə görə məni xəyalpərvər bir qız hesab etsəniz də, qəlbimdən keçənləri sizdən gizlətmək iqtidarında deyiləm. Elə bir adamla ailə qurmaq istərdim ki, onun kişiliyini başındakı papaq, əynindəki şalvar yox, xarakterindəki əyilməzlik, dəyanət, qürur təsdiq etsin. Elə bir ər ki, hənirtisi gələndə ayağa qalxım, həddimi bilim. Onun qətiyyəti qarşısında hədyan danışmağa cürətim çatmasın.

Nazim diksinən kimi oldu. Və özünü saxlaya bilmədi:

- O şəxs kimdir?! Rəziyyə, bəlkə bu barədə sizə köməyim dəyə bilər?

Rəziyyənin kirpikləri yuxarı qalxdı və onun bahar buludu tək doluxsunmuş gözləri Nazimin mükəddər baxışları ilə rastlaşdı:

- Tapdığım, lakin itirəcəyim o mərd insan sizsiniz, Nazim! - dedi. - Əlbəttə, qızın sevdiyi oğlana birdən-birə belə deməsi bəlkə də yüngüllükdür. Bunu başa düşürəm. Ancaq sizi dumanlı bir məsələdən agah etmək üçün bunu açıq-saçıq deməyə məcburam. Mənim aləmimdə bir parça yavan çörəyə qane olan cürətli ər, məşuqəsini ləl-cəvahiratlara qərq edən qadın xislətli kişilərdən min dəfə ucada dayanmağa layiqdir. Bu cür fikir yürütmək mənim üçün hələ tez olsa da, başa düşdüyüm odur ki, qadın müqəddəsliyinin təminatçısı comərdlərdir. Həyat məni ürəyimə yatan belə bir məxluqla üzləşdirmişdi. Lakin taleyin hökmü bu arzunun qarşısına bir sədd çəkdi.

- Rəziyyə kimi bir qızın məni sevməsindən böyük xoşbəxtlik nə ola bilər?! - Nazim düşündü. - Sizdən bu cür sözlər eşitmək mənim üçün nə qədər xoşdur...

- Əlbəttə, vüsala çatmaq böyük səadətdir, - Rəziyyə dilləndi. - Təəssüf ki, arzumuzca olan bir xoşbəxtliyə qovuşmaq bizə qismət deyil.

- Bu nə sözdür, Rəziyyə, nə danışırsınız?! - Nazimin halı dəyişdi.

- İndi həyatımın mənasını yalnız atamla, əldən düşmüş anama xidmət etməkdə görürəm. Məgər bu, kişilərin əlində əyləncə olmaqdan pisdir? Bəlkə səhv edirəm?! Məni fanatik bir qız da hesab edə bilərsiniz, eləmi?! Qoy kim necə başa düşürsə-düşsün! Bunun, qəbul etdiyim qərarın dəyişə biləcəyi üçün heç bir əhəmiyyəti yoxdur. İndi məni hədələyən qətiyyətimdən dönmək qorxusudur. Bu isə dəhşət olardı! İnsan xoş əməllərinə görə özü-özündən həzz almağı və qəbahətləri üçün xəcalət çəkməyi bacarmalıdır. Mən qadınlıq arzularımdan birdəfəlik əl çəkib ömrümün axırına qədər ata-anamın qulluğunda durmağı artıq qət etmişəm. Qadın-kişi münasibətində elə cəhətlər var ki, bu, şüursuz heyvanat aləmində də mövcuddur. Qarşıma qoyduğum məqsəd isə yalnız insanlığa xas olan ülvi keyfiyyətdir. Övlad ehtiramına möhtac olan mayıf və ahıl atam indi hənirtimi gözləyir. Qapını açıb içəri daxil olanda, onun yanmış sifətindəki sevincin niskilli işığını təsəvvür etmək çətindir. Ötəri ehtiraslar, şirin busələr xatirinə bu ümid sevincini onların əlindən ala bilmərəm. Övlad həsrətli valideyn sevincini! Qardaşlarım özlərini fəda etdikləri yad qızların müti quluna çevrildikləri təqdirdə, mənim bundan başqa çarəm yoxdur, Nazim! Bütün bunları deməkdə bir məqsədim odur ki, mənə qarşı daha başqa fikirdə olmayasınız. Səfeh sözlərim üçün gərək məni bağışlayasınız. Bu barədə sizdən dönə-dönə üzr istəyirəm. Ata-anamı Moskvada oxuyan yeznəmin yanına aparmalıyam. Bir müddət daha doğrusu, Süleyman məktəbi bitirənə qədər orada qalmalıyıq. Sonra hara gedəcəyimizi heç özüm də bilmirəm. Sidq-ürəkdən onu da deməliyəm ki, arzusunda olduğum sizin kimi bir oğlana qovuşa bilməsəm də, həyatda onun həsrətilə yaşamaq da mənim üçün bir təsəllidir. Sizə söz

verirəm ki, ömrümün sonuna qədər yalnız və yalnız bu təsəlli ilə yaşayacağam. Mənimlə mübahisə də edə bilərsiniz. Lakin əhəmiyyəti yoxdur. Qoy aramızda olan məhəbbətin hələ heç kimə məlum olmayan qırılmaz telləri toxunulmaz qalsın. Heç vaxt incəlib üzülməsin.

Nazim Rəziyyənin gözlənilməz, ağlagəlməz sözlərini dinlədikcə çoxdan bəri ona bəslədiyi arzular birdən-birə puça çıxdı. Ona elə gəldi ki, üzərində qərar tutduğu yer ayağının altından qaçdı və dibi görünməyən bir boşluğa düşdü. Nazimin mütəəssir baxışları hələ də Rəziyyənin titrək dodaqlarında donub qalmışdı. O, Rəziyyənin sözlərinin müqabilində nə demək istədiyini özü də bilmirdi. Birdən:

- Rəzi!.. Rəzi!.. Rəziyyə! - demək istədi, lakin sözünün rabitəsi pozuldu, fikrini tamamlaya bilmədi.

Rəziyyə onun bu hala düşməsində təqsirkarmış kimi üzünü əks tərəfə çevirib, kitab rəflərinin arasına keçdi. Nazimin qulağına boğuq hönkürtü səsi gəldi. Onun kövrək qəlbi bu ahu baxışlı qızın uzun kirpiklərindən süzülən göz yaşlarına tab gətirmədi. Nazim sakitcə kitabxananı tərk etdi.

* * *

...Artıq ətrafa qaranlıq çökmüşdü. İnstitutun həyətindəki mazutla işləyən kiçik elektrik stansiyası həyət-bacanı güclə işıqlandırırdı. Nazim Rəziyyə ilə olan söhbətin üzücü təsirindən qurtarmamışdı. Sübhə kimi gözlərinə yuxu getmədi. Səhər kitabxanaya gələndə qapını bağlı gördü. Üç gündən sonra kitabxana açıldı. Rəziyyənin yerində tanımadığı yad bir qadın əyləşmişdi. Nazim ondan Rəziyyəni soruşdu. Təzə kitabxanaçı əzilə-əzilə:

- Nə bilim, vallah, burdan çıxıb! Babalı deyənlərin boynuna, eşitdiyimə görə, şəhərdən də harasa biryolluq köçüblər.

Bu cavab onun başına endirilən iti qılıncdan betər oldu. Az qaldı ki, gicəllənib yıxılsın. Birtəhər keçib, həmişəki stulda əyləşdi. Başını əllərinin arasına alıb, gözlərini yumdu. Ona elə gəlirdi ki, Rəziyyə yenə kitab rəflərinin arasında dolaşır. Bəlkə də bir küncdə dayanıb Nazimin bugünkü halına acıyır. Nazim birdən başını qaldırıb gözlərini açdı. Rəziyyəsiz kitabxana onu darıxdırıcı məhbəs kimi sıxırdı. Nazimə elə gəlirdi ki, qəfəsələr, səliqə ilə düzülmüş stol və stullar, geniş pəncərələr, divar boyu asılmış şəkillər Rəziyyəsiz qəribsəyir. Rəziyyənin xəfif təbəssümləri ilə işıqlanan kitablar da sanki dilə gəlir, Nazimə, Rəziyyədən nə xəbər? sualını verib, ondan cavab gözləyirdilər. Nazim bu sualların qarşısında aciz qaldığını etiraf edirmiş kimi başını aşağı dikdi və kitabxananı necə tərk etdiyini özü də bilmədi.

Nazim bir neçə dəfə axşamlar şəhərə çıxıb itkin məhəbbətini axtarırmış kimi Rəziyyənin yaşadığı binanın həndəvərində dolandı. Ətraf evlərdə şən musiqi sədaları, ziyafətə toplaşanların gülüş səsləri eşidilirdi. Bircə Rəziyyəgilin yaşadığı mənzilin işıqları yanmırdı. Rəziyyənin hərdən başını çıxardıb əks tərəfdəki şəhər parkına boylandığı pəncərə də elə bil lal sükuta dalmışdı.

Gecə yarı olardı. Nazim tələbə yataqxanasındakı yöndəmsiz dəmir çarpayısına uzanıb, pambıq yorğanının altında yuxuya getmişdi. Şirin röyada Rəziyyə onu kitabxananın bir küncünə çəkib, uzun hörüklü saçlarının ucunu incə barmaqlarının arasında bura-bura:

- Nazim, məni bağışla, - dedi. - Evdə yoxdum, yoxsa pəncərədən əl eləyərdim. Aşağı enib həmişəki kimi üzbəüz dayanıb dərdləşərdik. Əyilməzliyinizə, dəyanətinizə qibtə edərdim. Lakin evimizin qabağında o cür pərişan görünəndə elə bil ürəyimin başına od düşdü. Atamdan-anamdan xəlvət o ki var,

ağladım. Unutma ki, hara getdiyini, nə düşündüyünü görürəm və duyuram. Mənsiz keçən günlərinizin sizin üçün bu qədər darıxdırıcı, qəlbsıxıcı olduğunu təsəvvür edə bilməzdim. Mənə qəti inamınız varsa, əmin ola bilərsiniz ki, bir-birimizə əlimiz çatmasa da, həyatda könül verdiyim və verəcəyim yeganə oğlan sizsiniz. Lakin heç də elə bilməyin ki, qarşınızda bəyan etdiyim qərardan dönə bilərəm. Əsla! Bunu ağlınıza belə gətirməyin. Onda özümü öz nifrətimə məhkum etmiş olaram. İstəyirəm ki, qəlbimdə əbədi yaşayacağınıza inanasınız...

Nazim nə qədər çalışdı ki, ona tərəf sürünsün bacarmadı. Elə bil dizləri taqətdən düşmüşdü, ayaqları qıc olmuşdu. Yerindən tərpənə bilmədi. Rəziyyə ilə ikicə kəlmə danışmaq istədi. Ancaq nitqi tutuldu. Birdən boğuq bir səs çıxardıb, hövlnak yuxudan oyandı. Onu qan-tər basmışdı. Gözlərini açmağa peşman oldu. İndicə ona üzrxahlıq eləyən Rəziyyə qeybə çəkilmişdi.

Nazim həmişə deyirdi ki, kaş nə təbiətin gözəlliyini qara pərdəsi ilə örtən zülmət gecə ola, nə də ki, insanı bu işıqlı dünyadan ayıran yuxu. İndi isə səhərin açılmasını, şirin röyalardan ayrılmasını istəmirdi. Ona Rəziyyənin xəfif pıçıltısını dinlədiyi zülmət gecələr onsuz açılan parlaq gündüzdən çox-çox əziz idi.

* * *

...Gündəlik dərslər, ağır imtahanlar, maddi çətinliklər, keşməkeşli tələbə həyatının ağır məşəqqətləri Nazimin diqqətini Rəziyyəsiz keçən günlərin mənəvi sıxıntısından getdikcə uzaqlaşdırırdı. Rəziyyə də, ta ilk günlərdə olduğu kimi, gecələr Nazimi röyalar aləmində arayıb-axtarıb, onun getdikcə sönməkdə olan məhəbbət işığını alovlandırmaq, bununla da nə özünü, nə də ki, həsrətində olduğu oğlanı bu yandırıcı oda qərq

etmək istəmirdi. Lakin bu saf və qarşılıqlı məhəbbət həm Nazimin, həm də Rəziyyənin qəlbində əbədi bir yuva salmışdı...

* * *

Nazim institutu bitirib kəndə qayıdanda qohum-əqraba, qonum-qonşu yığışıb Allahverənə gözaydınlığı verdilər. Allahverən heç vaxt ürəyindəki istəyi üzdə bildirib, oğul-uşağın o üzündən-bu üzündən öpüb onunla şit rəftar eləməyi xoşlamazdı. Söz düşəndə deyirdi ki, uşağa çox örüş-erkən verib, onu şitəndirsən, pozulub gedər, axırı zay olar. İndi birinci dəfəydi ki, oğluna əl verdikdən sonra yüngülcə gülümsündü və həsrətli baxışları ilə onu süzüb, sinəsinə sıxdı. İkilikdə olanda Allahverən dedi ki, oğul, Allaha şükür, elə öz fərasətinlə ki, məktəb qurtarmısan, böyük işdir. Vəliyyəddin müəllim də sağ olsun! Yaxşılıq yerdə qalmayıb. Elə bu da bir nigarançılıq idi, yaxşı qurtardıq. Ta yekə kişi olmusan, indən sonra elə tərpən ki, hamı bəh-bəh desin. Harda işləsən, əvvəl ad-sanını gözlə, qarnını, cibini güdmə. Elə elə ki, Allahverənlər nəslinə əskiklik gəlməsin. Müəllimlik də ki, salamat peşədi. Maarif hara göndərsə, get, qismət ilahiynəndi! Çalış hamıynan yaxşı ol, mehriban dolan. Onnan-bunnan çəkişməyin axırı yoxdur. Xoşbəxt o kəsdir ki, dostu çox ola. Adama xasiyyətinə görə sayıb qiymət verirlər...

Bu sözləri deyəndə Allahverən oğluna tərəf baxmırdı. Nazim də başını aşağı dikmişdi. Atasının dediklərini yığışdırırdı. Nazimin çalışdığı o idi ki, o öz kəndlərindəki orta məktəbə təyinat alsın, atasına əl tutsun. Həm də iki yerdə ocaq qalanmasın. Ancaq iş düzəldiyi yerdə araya mərdimazar düşdü. Nazimin məsələsi pozuldu. Onun təyinatını uzaq bir dağ kəndinə verdilər. Çiçəklidən ora bir günortalıq piyada yolu olardı.

* * *

...Nazim ilk günlər qalmağa mənzil tapmadı. Məktəb otaqlarının birində daldalandı. Məktəbin xidmətçisi Tamam arvad onun oturuşuna-duruşuna bələd olandan sonra qardaşının sahibsiz evini ona verdi. Sahibsiz deyəndə, Tamamın qardaşı təzəcə ərsəyə çatıb, nə zillətnən ev tikdirib, özünə gün-güzəran düzəltmişdi. Ancaq ağzı aşa çatanda, başı daşa çatmışdı. Toy tədarükü gördüyü yerdə fələk işini əymişdi. Onu müharibəyə aparmışdılar. Toy çamadanları o gündən bu günədək ağzı bağlı qalmışdı.

Müharibə sovuşdu. Gedənlərin çoxu qayıtdı. Tamamın qardaşından xəbər-ətər olmadı. Evin pərgarını pozmağa Tamamın əli gəlmirdi. Nə divardan asılmış və yerə sərilmiş xalı-xalçanı yır-yığış eləyə bilir, nə də ki, pəncərələrin pərdəsinə əl vururdu. Hərdən qapını açıb gəbə-kilimləri, yorğan-döşəyi... nə bilim, xırım-xırda pal-paltarı günə verir, yenə də yun çubuğu ilə çırpıb, səliqəylə hərəsini öz yerinə yığırdı. Sonra da otağın qapısını kilidləyib, açarını uşaq-muşağın əli dəyməyən xəlvət bir yerdə gizləyirdi. Qardaşından sonra bu otağa ayaq basan olmamışdı. Tamam evin açarını Nazimə uzadanda:

- Elə sən də ol mənim itkin düşən qardaşım, - dedi. - Əgər beş-altı kəndi basa-basa gedib evinizdən bura bircə çürük çöp gətirsən, qəlbimə dəyər. Qurulu evdi, içində də hər şeyi var. Yatmağa-durmağa pal-paltarı, nə qədər desən qab-qacağı. Neçə il istəyirsən, halallıqla yaşa. Mənim belə tirimə, təpimə baxma, oğul, süpürgəçi olsam da, qəlbim genişdir. Bəxtəvər günlərimiz vardı. Atam bu kənddə beş adamın biriydi. Şura hökuməti gələndə qulaq eləyib ilim-ilim itirdilər. Anamızı da Allah əlimdən aldı. Yurdda bircə bacı və bir qardaş qaldıq. Utanmazlıq da eləyirəm, qismətimə bir halal südəmmişi çıxmışdı. Əlimiz

təzə-təzə çörəyə çatırdı ki, onu qardaşımın dalınca qanlı meydana göndərdilər. Başlarına nə iş gəldisə, bilən olmadı. İkisi də elə bil batarğana düşdü. Qardaşımın koması, bax, beləcə kor qaldı, mən də ki... İndi bir bölük yetimnən qalmışam bu uçuq damın altında. Yenə sağ olsun dirixtırımızı. Haracan desən, yaxşı insandır. Adımı süpürgəçiliyə yazıb. Bir az da kolxozdan çax-çux eləyib, yetimləri birtəhər dolandırıram.

Tamam yaşmağını yuxarı çəkərək:

- O yanımda hərlənən totuq-motuq qız mənimkidir. Bəsrəni deyirəm. Uşaqların elə böyüyü odur. Zehni də yaxşıdır. Amma qız külfəti ağır şeydir. Elə yaxşı deyiblər ki, qız yükü, duz yükü! Dolandırmaq çətindi.

Nazim bu kənddə işlədiyi üç il müddətində itkin düşmüş əsgərin evində qaldı. Kölgəsini də Tamamın uşaqlarının üstündən əskik eləmədi. Nazim cavan olmasına baxmayaraq, az vaxt içərisində kənddə yaxşı hörmət qazanmışdı. Hamı onun başına and içirdi. Ərizə, məktub yazdırmaq, uşağını yuxarılara oxumağa göndərmək istəyənlər Nazimin üstünə gəlirdi. Kənd Sovetində, kolxozda, məktəbdən rayona göndərilən iclas protokollarını, məktubların savadlı olması üçün Nazimə üz tuturdular. Deputat seçkilərində ağır işlər onun çiyninə düşürdü. Seçici siyahıları Nazim müəllimin əlindən çıxırdı. Kəndin xeyir-şəri Nazimsiz keçinmirdi. Valideynlər dərd-sərlərini Nazimə deyirdilər. İstər kənddə, istərsə də rayon mərkəzində gənclərin, tələbələrin təlim-tərbiyəsi ilə bağlı yığıncaqlarda beş nəfər üzdə olan maarif işçisi söz deyəndə, onun biri Nazim olurdu.

Allahverənin hardansa qulağına çatmışdı ki, Nazim evlənmək fikrinə düşüb. Kişi çox sevindi. Əvvəlcə bunu üzə vurmadı. Ancaq əl altdan öyrəndi ki, qız varlı-hallı yerdən olsa da, atası zatıqırıq adamdı. Anası da ki, dilə qalanda, yüzünə dov gələr. Allahverən bir gün girəvəyə salıb, oğluna:

- Nazim, - dedi, - anan sağ olsaydı, bu sözü açmazdım. Sənnən o danışardı. İndi atan da mənəm, anan da. Bu ailə məsələsi elə bir işdir ki, gərək dərindən fikirləşəsən, tələsməyəsən. Tələsmək deyəndə, əslinə qalsa, elə vaxtındır, bir-iki il də gecikmisən. Atalar deyib ki, tez evlənənlə tez ayılan peşman olmaz. Sözüm ondadır ki, külü küllükdən götürərlər. Aparıb sümüyümüzü it sümüyünə calaya bilmərik. Nəbadə vid-fason axtarasan. İllaf it olsun, yönlü yerdən olsun! O da düzdür ki, könül sevən göyçək olar. Buna sözüm yox! Ancaq gərək bizi də mülahizə eliyəsən. Bu, ailə məsələsidir. Dana-buzov alveri deyil ki, bu gün alasan, sabah da bəyənmədin, bazara çıxarıb satasan. Ailə qurmaq da ev tikmək kimi bir şeydir. Gərək bünövrəsini elə qoyasan ki, sabah uçmasın. Bu sözləri saa deməkdə məqsədim odur ki, papağını qoy qabağına, yaxşı-yaxşı fikirləş. Sonrakı peşmançılıq fayda verməz.

Nazim başını aşağı dikib, dinməz-söyləməz atasına qulaq asırdı. Utandığından sifəti bir balaca pörtmüşdü. Ata danışdıqca, oğul hesabını götürürdü.

Allahverənin qardaşı arvadı Fatma da ucundan-qulağından eşitmişdi ki, Nazimin evlənmək meyli var. Bir gözəl-göyçək həkim qızı da gözaltı eləyib. Amma Allahverən bu işə qol qoymaq istəmir. Ona görə də Fatma da bu barədə öz sözünü dedi:

- Allahverənin ağzını bir balaca aramışam. Səndən nə gizlədim, ay oğul, bəlkə o açıq demir. Düzü odur ki, o istədiyin qızdan ağlı bir şey kəsmir. Noolsun gözəldi! Gözəlin üzündə plov yemirlər ha. Məsəl var ki, ağ ayranı itə tökərlər, qara kişmişi cibə. Əsas ağlı-kamalı olsun. Kişi qız tərəfdən nə eşidibsə, deyir yüz il bir qazanda qaynasaq da, onnarınan qarışa bilmərik. Sözündən belə çıxdı ki, bizim qonşu kənddə Məşədi Umudun Səriyyə adlı oxumuş bir qızı var. Elə layiqli də uşaqdı.

Saa da bab gələr. Mən də ələaltdan rəmt atmışam, qızın üz-gözündən nur yağır. Adamla danışanda sarı yağ kimi əriyir. Bizim ocağa da elə o cür abır-həyalı, başıaşağı, əsli-nəcabəti olan gəlin lazımdır. Ay oğul, görə-görə gəlmişik. Arvad dağıtmayan evi fələk də dağıtmaz. İndi görməzə-bilməzə qancıq südü əmənin birinin bazburutuna aldandın, gətirdin, sabah da nə dədaan yolunu saxladı, nə də mənim! Birini də doğub qucağına alandan sonra indi sən gəl ölünü qoy, dirini ağla. Görüm beləsiynən necə müdarə eləyirsən. Yediyimiz-içdiyimiz olacaq irin-qan!

Nazim Fatma nənəni qucaqlayıb, gülə-gülə:

- Ay nənə, dünən atam, bu gün də sən, - dedi. - Axı, bu, nə böyük problemdir? Hamısı öz əlimizdə deyil? Mənim bir qibləm varsa, o da sizsiniz! Nə dediniz ki, baxmadım?! İndidən əl-ayağa düşmüsünüz! O ki qaldı o qıza, qızıl parçası da olsa, siz narazılıq etdiyinizə görə bu gündən üstündən qələm çəkdim. O Məşədi Umudun qızını deyirsiniz... Nazim mızıldandı və əlavə etdi: - Onu müəllimlər müşavirəsində-zadda bir-iki dəfə görmüşəm. Kənardan pis təsir bağışlamır. Ancaq birdən-birə nə deyim?! Bəlkə onun başqa bir istəklisi var? Mənnən onunku tutarmı?!

Fatma nənə:

- Bıy, ağrın ürəyimə! Demirik ki, hökmən o olsun. Biz belə məsləhət görürük. Sən də, Allaha şükür, oxumuş adamsan, hamıya dərs verirsən. Öyrən, bax, gör, yaxınlaş, söhbət elə, ürəyinə yatar, saa - hə, - deyər, Allah xeyir versin! Xoşuna gəlməsə, kimdi zor eləyən. Heç biz də razı olmarıq ki, xoşhaxoşluqla düzəlməyən işin dalına düşəsən.

...Allahverən həm Nazimin, həm də qız evinin fikrini öyrənib biləndən sonra, kənddə sayılıb-seçilən beş ağsaqqal, ağbirçək də götürüb Məşədi Umudun evinə elçi getdi. Məşədi Umud qapısına elçi gələcəyini bilirdi. Bir gün əvvəl oğlan

tərəfdən duyuqçu gəlib, məsələni ona çatdırmışdı. Məşədi Umud el-obanın köhnə qayda-qanununa xilaf çıxıb qonaqlara bir toyun xərci hazırlıq görmüşdü. Bunun üstündə də Məşədi Umudun böyük qardaşı İsbəndiyar bir az narazı qalmışdı. Demişdi ki, qardaş, elin adətini pozursan. Qız qapısı şah qapısıdı. Gözümüzü açandan görmüşük ki, gələn elçiyə birinci dəfə çay, çörək verməzlər. Qoy iki-üç dəfə sürünsünlər. Sözümüz tutar, onlara "hə" deyərik. Ondan sonra bir erkək yox e, illaf beşini kəs, dillənsəm kişi deyiləm. Harda görünüb ki, elçi gələn kimi süfrə açasan. Qıraqdan eşidib-bilənlər deməzmi ki, Məşədi Umud qızından bezib. Elçilər söz açmamış razılıq verib, başından elədi.

Məşədi Umudun İsbəndiyara cavabı bu olmuşdu ki, böyük qardaşsan, dediyin mənə qanundu. Ancaq qardaş, mənə nə deyirsən, de, o, bekara adətdi. Birinci dəfə olmasın, neçənci dəfə olur-olsun, qonağa süfrə açarlar. Qızı verərsən, verməzsən, o, sonrakı işdi. Bir də ki, elin yaxşı adətin götürərlər. Bəziləri elə bil qızı satlığa qoyur, toydan da nəf umurlar, yəni o da bir adətdi?!

İsbəndiyar gördü ki, xırda qardaş olsa da haqlıdı, ta sözü çevirmədi...

Elçilər gəldi... Məşədi Umudla Allahverən söhbəti hərləyib-fırlayıb, gətirdilər qızla-oğlanın üstünə... Məşədi Umud əlini bığında gəzdirərək:

- Allahverən, mən sənin nəslinə-nəcabətinə yaxşı bələdəm, sən də mənim. Ta bundan sonra get, sonra gəl, çək-çevirə sal... Belə şeylərdən xoşum gəlmir. Gəlmisən, gözün üstə yerin var. Bir qız da bir oğlanındı...

Məşədi Umud qabaqcadan böyük qardaşı İsbəndiyarla sözləşib, bu barədə razılığa gəlmişdilər. İsbəndiyar ağır-ağır dilləndi:

- Allah xeyir versin, xoşbəxt olsunlar!!

Stəkanlara qənd salındı...

* * *

...Səriyyə ağır, ağayana, yüz sözün birini danışan, dindirməsən dillənməyən yaxşı bir gəlin çıxmışdı. Allahverən kişi də, Fatma da ondan yerdən göyəcən razıydılar. Bu evdə Səriyyənin nə vaxt yatıb, nə vaxt durduğunu bilən olmazdı. Böyük-kiçik yanında heç vaxt ərinə səmtiməzdi. Allahverənin dilindən çıxan söz Səriyyə üçün qanun idi. Fatma nənə deyirdi ki, insanın gərək əsli-kökü olsun. Məşədi Umudun ocağından çıxan züryət başqa cür ola da bilməz. Hələ bircə dəfə görən olmamışdı ki, Səriyyə qayınatasının gözü qabağında uşağın üzündən öpsün və ya qucağına götürüb şit-şit əzizləsin. Nazim də ailə həyatından razıydı. Lakin onun qəlbinin dərinliklərində ilk dəfə salınmış bir məhəbbət yuvası vardı. O, Rəziyyənin dağılmamış yuvası idi.

Nazimin iş yerini onun razılığını, narazılığını nəzərə almadan maarifin təyinatıynan iki ildən, üç ildən bir dəyişdirirdilər. Onu beş yüz nəfərdən artıq şagirdi, əlli nəfərə yaxın müəllimi olan orta məktəbə direktorun tədris işləri üzrə müavini qoydular. Burada ondan təcrübəli, stajlı və vaxtilə Nazimə dərs deyən müəllimlər vardı. Ona görə də Nazimin onların başının üstündə durub dərslərin gedişinə nəzarət eləməsi əvvəl-əvvəl bəzilərinə çətin gəlirdi. Ancaq Nazimin qabiliyyətinə bələd olandan sonra ona xor baxanlar fas-fağarat oturdular öz yerlərində. Müəllimli-tələbəli kimin nə həddi vardı Nazimin sözünü qulaqardı eləsin?! Onun bu nüfuzu Nazimin vəzifəsi, tələbkarlığı və ya işdə özünü sərt göstərməsi yox, hərtərəfli biliyi, dərin kamalı, hər kəslə öz dilində danışmaq məharəti idi. Bir xoşbəxtliyi də o idi ki,

Məşədi Umuddan öyüd götürmüş Səriyyə müəllimə kimi sadə, səmimi ömür-gün yoldaşı var idi.

Bir gün məktəbə xəbər çatdı ki, raykomun birinci katibi Kamal Qafarzadə kəndə gəlir. Rayon əhli Qafarzadənin xasiyyətinə az-çox bələd idi. Bilirdilər ki, kəndə ayaq basanda, birinci məktəbdən başlayır. Hündür boyu, arıq sifəti, nazik bədəni, aydın və nüfuzedici baxışları olan raykom katibi hər yerdə deyirdi ki, məktəb cəmiyyətin çeşməsidir. Həyatın qurucuları, ilk növbədə, burada formalaşır. Onun saflığına, duruluğuna gündəlik göz qoymasaq, cəmiyyət korlanar. Onda nə iqtisadiyyatda uğur taparıq, nə də ki, siyasətdə. Qafarzadə maşından düşəndə əvvəlcə internat uşaqlarının əzvayışı ilə tanış oldu. Əlli-altmış nəfərlik bu internat müharibənin ağır illərində, valideynlərini itirmiş kimsəsiz uşaqlar üçün yaradılmışdır. İneternatda himayə olunanlar kənddən-kəsəkdən gəlmiş əlsiz-ayaqsızlar idi.

Qafarzadə tez-tez ayaq saxlayıb birmərtəbəli məktəb binasının uzun dəhlizi boyunca, divardan asılmış müxtəlif diaqramlara, şəkillərə, cədvəllərə heyranlıqla baxır və hərdən dərin maraqla soruşurdu:

- Bu səliqə-sahman kimin işidir?

- Nazim müəllimin, - cavab verirdilər.

Qafarzadə səkkizinci sinif yerləşən otağın qapısını açıb, dərsin şirin yerində içəri daxil oldu. Və onu müşayiət edən məktəb rəhbərlərilə birlikdə boş skamyaların birində əyləşdi. Ovurdu-ovurdundan keçən sısqa bir şagird yazı lövhəsinin qabağında quruyub qalmışdı. Onun həll etdiyi misalın cavabı düz gəlmirdi. Müəllimin köməkçi sualları yerli-yersiz iradları da fayda vermirdi. Sinifdə qəflətən peyda olan nüfuzlu şəxslərin zəhmi şagirdləri daha da çaşdırmışdı. Onlar bildiklərini də unut-

muşdular. Qafarzadə gözlənilmədən fənn müəlliminə üzünü tutaraq:

- Bəlkə icazə verəsiniz, misalın həll edilməsində bu qəşəng oğlana kömək edim? İkimiz birləşib cavab taparıq.

Müəllimli-şagirdli sinif otağındakıların hamısının təəccüblü baxışları Kamal Qafarzadəyə yönəldi. Riyaziyyat müəllimi gördü ki, Qafarzadənin sözü ciddidir, ona etiraz etməmək mənasında yüngülcə gülümsündü. Birinci katib yazı lövhəsinin qabağına keçib şagirdən soruşdu:

- Adın nədir?

- Vüqar.

Qafarzadə:

- Özün də elə vüqarlı oğlana oxşayırsan. Gəl misalı birlikdə həll edək, - deyib çirkli əski ilə yazı taxtasını sildi. Sonra fındıqdan bir az böyük olan ağ, yumru təbaşiri götürüb, məsələnin həllinə başladı. Yazı taxtasının bir üzü doldu. Katib qara taxtanı o biri üzünə çevirdi və axırda, əyləşənlərə tərəf dönərək:

- Hə, indi baxın görün cavab düzdür, ya yox?! - soruşdu.

Şagirdlər tələm-tələsik kitaba baxıb, hamısı bir ağızdan:

- Hə, müəllim, düzdür! - sevinclə cavab verdilər.

Katib təbaşir tozuna bulaşmış əllərini silə-silə şagirdlərə xoş nəzər salaraq:

- Müəllim mən yox, odur, - gülə-gülə riyaziyyat müəllimini göstərdi. Və Vüqarla birlikdə yazı taxtasını tərk edib, bayaqkı yerində oturdu.

Katib fəlsəfə elmləri namizədi idi. Ancaq onun riyaziyyatı bu cür bilməsini heç kəs ağlına gətirməzdi. O, ayrı-ayrı siniflərdə oldu, şagirdlərlə sual-cavablar apardı. Məktəbin həmin günə təyin olunmuş pedaqoji şurasında iştirak etdi. Nazimin təlim-tərbiyənin təşkili barədəki çıxışını dinlədikcə ona, hər

kəlməsi pedaqoji elmin incəliklərindən xəbər verən bu gənc oğlana qarşı rəğbət yarandığı aydınca hiss olunurdu.

Qafarzadə müəllimlərlə xudahafizləşəndə Nazimin əlini bərk-bərk sıxaraq:

- Çıxışından xoşum gəldi! - dedi. Gələcəkli oğlana oxşayırsan. Haqqında eşitmişəm. Yoldaşlar da sənin barəndə mənə bəzi sözlər deyiblər. Bundan qabaqkı məktəblərdə də necə işlədiyindən az-çox xəbərim var, afərin! Qoy bu sirri də açım ki, rayon partiya komitəsi, gələcək üçün sənə öz ehtiyat kadrosu kimi baxır...

Raykom katibinin bu sözündən heç iki ay keçməmişdi ki, Nazimi rayon maarif şöbəsinə inspektor apardılar. Müəllimlikdə necə idisə, inspektorluqda da o cür yaxşı işlədi, rayonda xətir-hörmət qazandı. İkinci il onu partiya komitəsinə dəvət etdilər. Kamal Qafarzadə Nazimlə təkbətək söhbət edərkən:

- Necə baxırsan, - dedi. - Maarif sahəsində işlədiyin bəs deyil?! Belə bir rəyə gəlmişik ki, səndən komsomol sahəsində istifadə edək. Kakraz rayon komsomol komitəsində ikinci katib yeri boşdur. Hələlik gənclərlə işləyərsən, sonrasına baxarıq. Yaxşı işləyib özünü doğrultsan, ordan irəli gedərsən. Hər şey sənin özündən asılıdır. Əminəm ki, bu işin də öhdəsindən gələ bilərsən. İş təcrübən, qabiliyyətin mənə bunu deməyə əsas verir.

Bu, Nazim üçün gözlənilməz təklif idi. Odur ki, bilmədi nə cavab versin. Rayon başçısının nüfuzu qarşısında bir qədər susduqdan sonra:

- Yoldaş Qafarzadə, - dedi. - Mənə göstərdiyiniz yüksək etimad üçün sağ olun. Bu barədə sizə minnətdaram. Ancaq birdən-birə cavab verməyə çətinlik çəkirəm. Çünki belə bir söhbətə hazır deyiləm. Əgər mümkündürsə, sabaha qədər möhlət verin, fikirləşim.

Katib gülümsündü:

- Buyur, etiraz etmirəm.

...Onlar yenidən bu məsələnin üstünə qayıtdılar. Ancaq bu dəfəki söhbət bir qədər gərgin keçdi. Nazimin katibə axır sözü bu oldu:

- Dünəndən bəri çox ölçüb-biçmişəm. Sizin təklifinizlə razılaşmağa çətinlik çəkirəm.

- Nə üçün!

- Mənə inanıb etimad göstərdiyinizi başa düşürəm. Lakin Sizin qarşınızda bu cür danışmaq mənim üçün çətin olsa da, deməyə məcburam ki, heç vaxt yüksək vəzifədən imtina edən görməmişəm. Hamı məmnuniyyətlə gedir. Lakin yarıdırmı? Bax məsələnin əsl mahiyyəti də bundadır. Odur ki, layiq olmadığı vəzifəni həvəslə qəbul edənlər mənə çox qəribə görünürlər.

Katib onu diqqətlə dinləyirdi. İnspektor ara vermədən danışırdı:

- Yoldaş Qafarzadə, ola bilsin ki, maarif sahəsində bəzi uğurlarım olub. Lakin komsomol işi sahəsində ümidinizi arzuolunan səviyyədə doğrulda biləcəyimə az əminəm. İstəməzdim ki, axırda mən xəcalətli olam, siz isə peşmançılıq çəkəsiniz.

Cavab katibi açmadı. O, qaşqabağını salladı. Nazim isə mövqeyində qəti dayanaraq:

- Gənclər gələcəyimizin ümid şamıdır, - dedi. - Onlarla iş aparmaq böyük məsuliyyət tələb edir. Yüksək vəzifə, şan-şöhrət, yumşaq kreslo, rahat kabinet xatirinə belə bir ağırlığı boynuma götürsəm, bu, mənim tərəfimdən ağılsızlıq, Sizə qarşı bəlkə də bir hörmətsizlik olardı. İnciməsəydiniz, onu da əlavə edərdim ki, bu işdən boyun qaçırmasam, siz razı qalardınız, mən isə yeni vəzifənin imtiyazlarından gen-bol faydalanardım. Ancaq bu, mənim tərəfimdən qeyri-səmimi bir addım olardı.

Qafarzadə onu bərkə çəkib təkid etməkdən vaz keçdi. Və söhbəti qısaca olaraq ikicə kəlmə ilə yekunlaşdırdı:

- Yaxşı, gedə bilərsən, - dedi. - Ancaq unutma ki, inadkarlıq heç də yaxşı keyfiyyət deyil. Görünür, zənnimdə yanılmışam.

Nazim:

- Xahiş edirəm, sözlərimin səmimiliyinə şübhə etməyəsiniz. Və istəməzdim ki, etirafla inadkarlığı qarışdırasınız, - deyib Qafarzadənin kabinetini tərk etdi.

Nazim üz-gözü öyrəşdiyi doğma kollektivdən, sevdiyi peşəsindən ayrılmaq istəmirdi. Rayon başçısının ondan narazı qalması isə Nazimdə o qədər də böyük narahatlıq yaratmadı. Lakin onun Kamal Qafarzadənin təklifindən imtina etməsi Nazimə heç də ucuz başa gəlmədi. Raykomun büro iclasında namizədlikdən partiya üzvlüyünə keçməsi müzakirə olunarkən, Qafarzadə əyləşənlərə üzünü tutaraq, ortalığa belə bir sual atdı:

- Sizcə, komsomol katibliyi necə vəzifədir?!

Katibin sağ tərəfində əyləşən rayon icraiyyə komitəsinin sədri yaxasını düzəldib, komandirinin qarşısında təzim edən sıravi əsgər kimi yerindən dikəlib:

- Komsomol katibliyi şərəfli vəzifədir, yoldaş Qafarzadə! - cavab verdi.

Katib:

- Ancaq bizim bu hörmətli Nazim müəllim həmin şərəfli vəzifəni bəyənmir. İndi siz deyin, komsomolu bəyənməyən şəxsdən kommunist olar?! - deyə soruşdu.

Büro üzvləri:

- Olmaz, yoldaş Qafarzadə! - bir ağızdan dilləndilər.

- Onda, Nazim müəllimin namizədlikdən üzvlüyə keçməsi barədə ilk təşkilatın qərarı ləğv olunsun. Ona bir il də möhlət verək. Özünü doğrultsa, baxarıq. Katib bununla da müzakirəyə yekun vurdu...

Nazim yaxşı başa düşürdü ki, dillənmək yeri deyil. Bir kəlmə alt-üst danışsaydı, o dəqiqə partiyadan çıxardıb atardılar bayıra. İndiki zəmanədə partiyadan xaric olmaq, balığı sudan çıxartmaq kimi bir şeydir. Ondan sonra kimdi Nazimin üzünə baxan? Heç inspektor da qalıb işləyə bilməzdi. Dalından dəyib göndərərdilər ucqar kəndlərin birinə və deyərdilər get, orda sıravi müəllim işlə, ağlın gəlsin başına. Onda partiyadan qovulmuş adam kimi heç kənddə də hörməti olmazdı. Ona görə də Nazim büro iclasında ağzını açıb danışmadı.

Partiya işi geri qaytarılandan sonra bir müddət Nazimin əli işə yatmadı. Çox vaxt heç kabinetdən də kənara çıxmırdı. Kimlə də rastlaşırdı, ondan soruşurdular:

- Nazim müəllim, eşitdiyimizə görə, bürodan keçməmisən, partiya işin pozulub, bu nə məsələdir?!

Nazim onun əsəblərini yerindən oynadan bu cür suallardan qaçırdı. Bir aydan sonra növbəti məzuniyyətə çıxdı. Səriyyəni də götürüb kəndlərinə getdi. Nazimin başına gələn əhvalatlardan Allahverən kişinin də xəbəri vardı. Ancaq Nazimlə söz-söhbətdə bu məsələnin üstünə gəlmirdi. Soruşmurdu ki, oğul, nə üstündə səni partiyaya qoymadılar. Nəyə görə bir il də möhlət verib dedilər ki, hələ gözlə. Əksinə, bəzən sözü uzaqdan hərləyib - gətirib deyirdi:

- Partiya havayı şeydir. Bax, mən partiyaçı deyiləm, ölürəm? Odey, heç uzağa getmə, elə götür bizim kəndi. Neçəsini tanıyıram, cibində partbileti ola-ola bu gündən səhərə yeməyə çörəyi yoxdur. Çoxu maa möhtacdır. Yuxarı məhlədə Sübhanverdinin nəyi vardı, iynədən sapacan satıb-sovub yedirtdi partkoma ki, firqəçi olsun. Partkom onu süng eləyəndən sonra güc-bəla ilə bir bilet aldı. İndi Sübhanverdini it yerinə də qoyan yoxdu. Acından günorta durur. Allahın o bağ qarovulçuluğu nədi, onu da vermirlər.

Allahverən belə-belə sözlərlə arada giliz vururdu ki, oğlu o məsələni ürəyinə salıb özünə dərd eləməsin.

Bütün bu söz-söhbətlərdən on aydan çox keçmişdi. Hər şey unudulmuşdu. Nazim də öz işində-gücündəydi. At belində kəndbəkənd dolaşıb məktəblərdə yoxlama işləri aparır, tədrisin təşkilini araşdırır, yeri düşdükcə, iradlarını bildirirdi. İnspektorun yoxlama kitablarını qarşısına qoyub, yazılı qaydada metodiki göstərişlər verirdi. Nazim məktəb işini dərindən bildiyinə və bir qədər tələbkar olduğuna görə müəllimlər ondan çəkinirdilər. Adı gələndə məktəb rəhbərləri özlərini ağıllı-başlı yığışdırırdılar. Bilirdilər ki, ondan tük yayındırmaq olmaz. Nazimin də əlləşib-vuruşduğu o idi ki, məktəblərdə iş yaxşı getsin. Tələbələr bilik cəhətdən şikəst olmasın.

Nazim Çayqovuşanın ucqar bir məktəbində yoxlama aparırdı. Axşam tərəfi telefonla xəbər verdilər ki, onu raykomdan axtarırlar. Və sabah birinci katibin yanında olmalıdır. Nazim bunu eşidəndə dalağı sancdı. Fikirləşdi ki, burada nə isə var. Yəqin Qafarzadə yenə ona bir it qatığı buyuracaqdır. Yoxsa onu bu cür əlimyandıda axtarıb, tələm-tələsik çağırmazdılar.

Nazim atlanıb geri qayıtmaq istədi. Ancaq kəndin ağsaqqal qarasaqqalı məsləhət görmədi. Dedilər ki, artıq tüfəng qarovuldan düşüb, bivədə yola çıxmazlar. Yenə kəndin düz-əməlli yolu olsaydı, ayrı məsələ. Gərək neçə-neçə dağ-dərə, yal-yamac, meşə keçəsən. Gecələr də qurd-quşun əlindən tərpənmək olmur. Nazim gecə yol getməkdən, qurddan-quşdan qorxub-qamaşan deyildi. Onun əsas qabağını kəsən atın qarayalın olmasıydı. Gələndə atın iki nalı düşmüşdü. Məktəbin direktoru nalbəndə adam göndərmişdi ki, gecəni qalıb, atı nallatsın. Dan yeri ağaranda durub tərpənər. Səmənd atın ayağının altında burdan rayona nə yoldu?! İkicə dəfə ayağını tərpətsə, idarənin qabağındadır. Səmənd atın da bir pis xasiyyəti

o idi ki, öyrəşmədiyi adamı səmt buraxmırdı. Yad adam görəndə xamlıq eləyirdi. Ona görə də Nazim özü atla birlikdə dəmirçixanaya getməli oldu. Nalbənd ata baxanda, onun çuxura düşmüş gözləri güldü:

- Saz atdı, - dedi. - Bütün nişanələri yerbəyerindədir. Yaxşı da saxlamısan. Həə, yaxşı da deyiblər ki, at saxlayan atlı olar, don saxlayan donlu. - Əlavə etdi: - Amma bu yerin cinsinə oxşamır. Yəqin kənardan almısan.

- Bəli, gəlmə atdır, - Nazim təsdiq etdi.

- Yaxşı, de görüm ipçin nallayım, yoxsa elə təkcə dal ayaqlarını? - nalbənd soruşdu.

- İpçin nallasan yaxşıdır, - Nazim cavab verdi.

Nalbənd bir də soruşdu:

- Rus nalı da var. Ancaq məsləhət görmürəm. Çünki Urisetin düzlərinə baxma, itə atmağa bir kəsək də yoxdur. Rus nalı bizim bu daşaxor yollarda əl verməz. Amma atın sahibi özünsən, deyirəm, hökumət atı olduğundan bəlkə rus nalı?..

Nazim gülümsündü:

- Usta bilən yaxşıdır.

Nazim irəli keçib atın yalmanından yapışdı. Nalbənd atın quyruğunu dal ayağına dolayıb dırnaqlarını yolduqca:

- Hə, deyəsən, sağ ayağı haçansa mıxa düşüb, yonanda qorxudur. Yəqin xam adam əlinə salmısan. İndi əli çəkic tutan deyir, mən də ustayam. Vallah, a kişilər, əlli ildi bu işə baxıram, yenə də əlimə çəkic götürəndə bədənim əsir. Ömrümdə bircə kərə Hacı Qaraşın qatırını nallayanda mıx mayadan keçib. Onda kişinin qatırı düz bir ay yemsidi. O, maa bir dərs oldu. Odu-budu öküz olsun, qatır olsun, nallayanda yerini yüz dəfə yoxlayıram... Nalbənd danışa-danışa işini qurtarıb, qəddini düzəltdi. Nazim irəli yeriyib, pul vermək istədi. Nalbənd alnında puçurlanan təri silib:

- Oğul, - dedi. - Qonum-qonşu kəndlər də bura gəlirlər. Gündə neçə at, qatır, eşşək, öküz nallayıram. Yəni deyirsən bir qonağı yola vermək olmaz? Hamıdan pul almazlar ki?! Xətrimə dəyirsən...

Nazim axşam müəllimlərə sözünü deyib, onlarla xudahafisləşdi. Səhər itnən-qurd seçilməmiş atlanıb üz qoydu rayona. Həmişə Nazimin ağlına gələn başına gələrdi. Ürəyinə dammışdı ki, yenə onu hansı vəzifəyəsə göndərəcəklər. Yoxsa maarif müdiri qabaqda dura-dura birinci katibin inspektorla nə işi ola bilər?

Nazimi inspektorluğa bağlayan həm də səmənd ata öyrəşməsi idi. At təlim görmüşdü. Müharibənin odundan-alovundan çıxmışdı, insan kimi dil bilirdi. O vaxt maşın nə gəzirdi? Rayonda cəmi-cümlətanı iki "Villis" maşını vardı. Onun da biri ispalkomundu, biri də raykomun. Tək-tük təsərrüfat idarəsində sınıq-salxaq yük maşını vardı. Kəndlərə çıxmaq üçün əsas nəqliyyat vasitəsi at idi. Ona görə də müharibədən tərxis olunmuş atlar idarə və müəssisələrə paylanmışdı. Rayon maarif şöbəsinin də payına həmin səmənd at düşmüşdü. Səmənd atın qaçarağına güllə də çatmazdı. Rayonda az at tapılırdı ki, onnan ayaqlaşa bilsin. Nazim kənd-kəsəkdən keçəndə birdən üstünə on-on beş it düşürdü. Ancaq biri də səmənd ata yaxın gələ bilmirdi. At qulağını qırpıb onların üstünə necə cumurdusa, o boyda zorba itlər qorxusundan quyruqlarını qısıb, zingildəyə-zingildəyə hərəsi bir tərəfə qaçırdı.

Düzə çıxanda Nazim səmənd atın başını buraxdı. At dördnala qalxıb torpaq yola dəyirmi naxışlar sala-sala bir göz qırpımında seyrək palıd meşələrini arxada qoydu. Gəvən kolları ilə örtülmüş alçaq təpələri aşanda irəlidə ayğırın tortop eləyib ağzıbirə yığdığı at ilxısı göründü. Nazim atın başını sola

döndərdi və ilxıdan uzaq olmaq üçün yolunu dəyişib başqa bir cığırnan getməli oldu. Çünki bir dəfə başına gəlmişdi. Yaxşı bilirdi ki, ayğırın gözünə sataşan kimi altındakı ata hücum çəkəcək. Səmənd at nə qədər təpərli olsa da, gecə-gündüz səllimə yeyib səmriyən ayğırla çətin döşləşər. Nazim başqa bir yolla aşağıdakı dərənin boğazından dolaylanıb dibindən su axan palıd ağacının kölgə saldığı yaşıllıqda bənd aldı. Tərkə bağladığı arpa-saman dolu torbanı açıb, səmənd atın başına keçirdi. At xımır-xımır torbanı yarıdan keçirəndən sonra fınxırıb dırnağı ilə yeri döyəcləməyə başladı. Bu, atın doymasına və torbadan xilas olmaq istəməsinə işarə idi. Nazim torbanı çıxardıb atı suyun qırağına endirdi. At dodağını bulağın daş çömçəsinə dirəyib, sərin sudan doyunca içdi. Başını qaldıranda sahibindən razı qalıbmış kimi qulabını qırpıb, ağzını geniş açdı. Cilovun dəmiri sürtmüş, cəngindən, yediyi arpa-samanın qırıntıları töküldü. Boynunu irəli uzadıb var gücü ilə silkələnəndə belindəki təzə yəhərin, bir də ki, yançaqlarından axan tərin Nazimə xoş olan qoxusu bulağın ətrafındakı otların rayihəsinə qarışdı. Həmin anda Nazimin xəyalı dolandı, səmənd atdan ayrı düşəcəyini təsəvvür edib kövrək hisslər keçirdi. O, ata niskilli nəzər saldı. At sahibinin qəlbindən keçənləri sanki duyurdu. Odur ki, boynunu irəli uzadıb, başını Nazimə yaxınlaşdırdı. Kırıldayanda burnunun pərləri titrədi və onun arpa-saman qoxusu gələn ilıq nəfəsi sahibinin nigarançılıq ifadə edən sifətinə toxundu. Nazim xəyallandı, yadına yenə gözünün ilk ovu olan o qız düşdü.

- Rəziyyə, mən, bir də səmənd at... Üçümüz də qocaman palıdın altında, bu kölgədə, bu bulağın üstündə birgə olsaydıq... - Nazimin dodaqları bulağın çömçəsindən süzülən saf su kimi pıçıldadı. Sonra o, fikirli-fikirli dərin ah çəkib, səmənd atın belinə aşırıldı və yola düzəldi. Səmənd at sahibinin könlünü alırmış kimi yorğaya qalxıb, onu yüyrük kimi yırğalayırdı.

Nazimin isə fikri-zikri başqa idi. Düşünürdü ki, yəqin Qafarzadə yenə yağlı əlini onun başına çəkmək istəyir.

...Kamal Qafarzadə gözündə eynək, başını aşağı salıb nə isə yazırdı. Nazim içəri girəndə eynəyini kənara qoyub, qəddini düzəltdi və Nazimə oturmaq üçün yer göstərəndən sonra soruşdu:

- Əvvəlcə mənə de görüm, ağıllanmısan, ya yox?

Nazim dillənmədi. Katib ayağa qalxdı və kabinetin nazik ağ ipəkdən pərdəsi olan iri pəncərələri qarşısında sakit-sakit addımlayaraq:

- Bilirsən, Nazim, - dedi. - Açığı, sənə hörmətim var, həm də inamım! Xatirini də istəyirəm. Görürəm qoçaq, işgüzar, əqidəli oğlansan. Odur ki, səni itirmək istəmirik. Məqsədim odur ki, səndən mühüm bir sahədə istifadə edək, gələcəyin olsun.

Katib stolun arxasına keçib, sözünə davam etdi:

- Sənlə ata-oğul kimi danışıram, - dedi. - Öz aramızda qalsın, keçən dəfə də yaxşı hərəkət etmədin. Komsomol pis sahə deyil. O ki qaldı sən deyirsən komsomol işinə bələd deyiləm, bu səhv fikirdir. İnsan həyatda hər şeyə qadirdir. Pedaqoqlardan birinin dediyi kimi, təbiət yaratdığı bədən üçün lazım olan əqidə və davranışı fitri olaraq yetirmir. Bunlar ictimai həyatın inkişaf prosesində qazanılır və şahidi olduğum hadisələr mənə bunu deməyə əsas verir ki, insan yalnız yüksək məsuliyyət hissinə malik olduğu təqdirdə istədiyinə nail ola bilər. Məndə qəti inam var ki, qabiliyyətli, dərin məsuliyyət hissi olan müəllimə, tibbi sahədə cərrahlıq tapşırılsa, o özünü oda-közə vurub, az bir müddətdə uğurlu cərrahiyyə əməliyyatları aparmağa müvəffəq ola bilər. Səndə, bax, belə bir məharət olduğunu yəqin etmişəm. Bir neçə vərəqdən ibarət olan diplom, təhsilin dərəcəsini təsdiq edən rəsmi sənəddir. Bizə

diplomlular yox, dərrakə sahibləri lazımdır. Bax, elə götürək öz rayonumuzu. Neçə alim deyirsən, sənin üçün sayım. Elmi dərəcəsinə, alimliyinə aldanıb idarə rəhbəri, təsərrüfat başçısı qoymuşuq, gözündən batırıb. Ancaq elə adam var ki, adını güclə yazır. Di gəl ki, quru daş üstünə qoy, cənnət yaratsın.

Katibin baxışları qayğılı ifadə aldı:

- Ölkəmizdə baş alıb gedən bütün bu siyasi, iqtisadi uğursuzluqlar ağıl böhranının mütləq nəticəsidir, - dedi. - İntellekt ehtiyatı tükəndiyi təqdirdə, cəmiyyətdə sabitlik, tərəqqi ummaq çətindir. Kənddə də, rayonda da, respublikada da, böyük-böyük dövlətlərdə də tərəqqi ağıl ehtiyatından asılıdır. Bəzən deyirlər ki, hansı dövlətin qızılı çoxdursa, sözü də ötkəmdi. Boş sözdü! Ağıl, zəka, dərrakə kasadlığına məruz qalan bir ölkə, külli qızıla malik olsa belə, mütləq iflasa uğramalıdır. Elə rayon da dövlətin kiçik bir formasıdır. Ona görə də çalışırıq ki, şölələnib işıq saçacağına ümidimiz olan qığılcımları arayıb-axtaraq...

Nazim daxilən katibin dediklərini məlum həqiqət kimi qəbul etsə də, ona münasibətini bildirmirdi. Gözləyirdi ki, katib əsl mətləbə keçib, onu bura nə üçün çağırdığını açıqlasın. Katib də sözünü hərləyib-fırlayıb axırda gətirdi Nazimin üstünə. Qarşıdakı rayon qəzetini götürüb düzəlişlər etdiyi məqalələri, altından cızıq çəkdiyi dolaşıq cümlələri Nazimə göstərərək:

- Belə də qəzet olar?! - qeyzlə soruşdu. - Başdan-ayağa yanlış fikirlər, dolaşıq cümlələr! Camaat bunu oxuyanda nə deyər?!

Katib bu müşkül məsələni yoluna qoymaqda çətinlik çəkirmiş kimi:

- Redaktor pis yoldaş deyil, insafçünə, qələmi də var, - dedi. - Lakin təkdir. Gərək kömək eləyək. Son iki ildə üç məsul katib dəyişmişik. Heç biri də yarıtmayıb. İndi bir fərli adam axtarırıq, tapa bilmirik. Çox götür-qoydan sonra sənin üzərində

dayanmışıq, başqa çarəmiz yoxdur. Redaktor da oxumaq istəyir, dirənib ki, partiya məktəbinə gedirəm. Onun qabağını kəsə bilmərik. Ancaq redaktoru kim əvəz edə biləcək?! Qısası, səni rayon qəzetinə məsul katib götürməliyik. Düzdür, ilk günlər çətinlik ola bilər. Lakin əminəm ki, öhdəsindən gələrsən. Bir çox görkəmli yazıçıların, jurnalistlərin əvvəli müəllim olub...

Nazim gördü ki, artıq o tərəfə yol yoxdur. Bu dəfə də katibin sözünü yerə vursa, gərək partiya biletindən əlini üzsün. Namizədlik müddətinin qurtarmasına da cəmi ay yarım qalmışdı. Bu qəzet məsələsi heç ürəyindən olmadı. Ancaq nə etməli?! İndi də yox desə, lap ağ olardı. Nazim içəridən qırıla-qırıla qalmışdı. Axır ki, əlacsız qalıb katibin təklifi ilə razılaşdığını bildirdi.

Nazim bilmirdi bu dərdi kimə desin. Fikirləşirdi ki, mən hara, qəzet hara?! Üzdə olan, sözü keçən, karlı arxası da yoxdu ki, sinəsini irəli verib, Qafarzadə ilə qabaqlaşsın və birinci katibə desin ki, Nazim müəllim adamdır, onu bitməz işə vadar edib, sonra adını yarıtmaz qoymayın. Ondan əl götürün, qoy öz sənətinin dalınca getsin. Nazimin belə bir güvənc yeri yox idi. Onun arxasında göydə Allah idi, aşağıda isə rəncbər atası. Allahverən kişinin də əlindən kərənti götürüb od çalmaqdan, zəmi biçməkdən, dəhnə bağlamaqdan, səhərdən-axşamacan kotan dalınca sürünüb yer şumlamaqdan, döşlük bağlayıb taxıl səpməkdən başqa nə gəlir?! Buna baxmayaraq, Nazim çətinə düşəndə yenə də atasının yanına qaçırdı. Bərk ayaqda dədə-bala qabaq-qənşər oturub məsləhət-məşvərət eləyirdilər. Allahverən nə cızıq çəksəydi, Nazim də onnan gedirdi. Oğul atanın tökdüyü tədbirlərdən boyun qaçıranda həmişə ziyan çəkirdi. Ona görə də Nazim qəzet işi ortalığa atılan günün səhərisi özünü atasına yetirdi. Əhvalatı ona kökündən danışdı. Allahverən öz əkdiyi qara tənbəkinin ovuntusunu qədimdənqalma köhnə demisinə

doldurub üstünə də qor qoydu. Deminin acı tüstüsünü sinəsinə çəkərək:

- Oğul, o dediyin Qafarzadəni dərindən tanımasam da uzaqdan-uzağa sədası qulağıma çatıb. Bir-iki dəfə də sənin dilindən eşitmişəm. İki kərə də kəndə gələndə görmüşəm. Danışığından-zadından ağlı başında olan adama oxşuyur. Başqa katiblər də görmüşəm! Bundan qabaq bir dəmdəməkisi vardı, sözünün dalıynan-qabağı bilinmirdi, yaldan-yamacdan danışırdı. İndiki katib bu axırıncı dəfə də bizi yığıb iclas eləyəndə özünü çox ağır, ağayana aparırdı. Sözündən-sovundan gördüm ki, elə o vəzifəyə layiqdir.

Allahverən deminin uzun çubuğunu sümürə-sümürə:

- Ağlım kəsmir ki, o cür mötəbər adamın əlindən mərdimazarlıq gəlsin. Bəlkə bu məsələdə səhvim var?! Yəqin qəzet işi, bu indiki vəzifədən üstündü. O məktəbdə-zadda da işləyəndə adın yaxşılığa çıxıb. Görür ki, diribaş oğlansan, deyir, qoy gedib bir az qəzetdə işləsin. Həm vəzifən böyüsün, həm də qəzet yaxşılaşsın. Ta mən burda ayrı bir niyyət görmürəm. Nə çoxdu sənin kimi müəllim. Onların içində səni deyirsə, sağ olsun! Bu cür xətir-hörmətin qabağında o boyda kişinin sözünü iki eləsən, sənə yaxşı deməzlər! Bəlkə elə səni sınağa çəkir?! Nəhs gətirmə! Deyir - get! Qismət ilahiynəndi.

Nazim bilmirdi atasına necə izah etsin ki, məktəb işi başqadır, qəzet işi başqa. Ona görə üzünü atasına tutaraq:

- Mənə desələr ki, əhəng quyusunda tağ vur və ya dəhrənin, baltanın ağzını suvar, adicə kərəntinin yelini al, onda razı olum? - soruşdu.

- Yoox, onlar sənin xörəyin deyil! - Allahverən razılaşmadı.

Nazim:

- Ata, bu qəzet işi də, bax, ona bənzəyir. Mən girən kol deyil. Gedib özümü biabır eləyə bilmərəm.

Allahverən gördü ki, yox, Nazimin bu işə meyli yoxdu. Daha bərkini tutmaq istəmədi. Bir qədər sükuta daldı. Əlindəki qəlyanın tüstüsü söndü. Qəddi əyilən kimi oldu. Gözləri qıyıldı, sifəti kölgələndi. O, məsələni içərisində saf-çürük eləyəndən sonra:

- Oğul, - dedi. - Qafarzadə də balaca adam deyil! Necə olsa, rayonumuzun böyüyüdü. Əlinin üstündə əl yoxdur. Onnan daşa-tərəziyə girmə! Dediyinə durmasan, bu işin axır-aqibəti yaxşı qurtarmaz! Sonra başın ağrı çəkər! İndicə ağlıma bir fikir gəlib! Gəl bunu da eləyək, görək nə çıxır! Allaha təvəkkül, tutar qatıq, tutmaz ayran. Ondan sonra sən neyniyəsən, mən neynim. Səni ki, o qəzet idarəsinə göndərmək istəyirlər ha, onun böyüyünün adı nədi?

- Zahid, Zahid Məmmədov, - Nazim cavab verdi.

Allahverən:

- Bizim kirvə Nəzərin yeznəsi Fərəməzlə o sən deyən Zahid Məmmədovun arvad tərəfdən bir balaca qohumluqları var. Nəzər də ki, xeyrə-şərə yarıyan adamdı, bu çağacan bir sözümü iki eləməyib. Bir az da sov-sovqat düzəldim, Nəzəri də yez-nəsinə qoşum, göndərim o qəzetin böyüyünün yanına. Qoy o özü bu işə əncam çəksin. Pozulsa, ta sənlik olmasın. Balam, idarənin böyüyü yəni o Məmmədov deyil? Bərkə-bərkə qalsa, deyər ki, mən heç o Nazimi istəmirəm! Müəllim hara, qəzet hara?!

...Allahverən həmişə deyərdi ki, birinə pay göndərəndə elə elə ki, adına layiq olsun. Odur ki, tələm-tələsik qız-gəlini yığıb, yaxşıca bir sacarası, xeyli də əyirdək bişirtdirdi. Qapısındakı arı pətəyindən də dolu bir şan çıxardıb, ayrıca bükdürdü. Kirvə Nəzərlə onun yeznəsi Fərəməzi paylı-pürüşlü göndərdi redaktorun evinə.

Nəzərlə Fərəməzin gedib-qayıtması bir gün yarım çəkdi.

Allahverənin gözü yolda qalmışdı, qulağı səsdə. Nazim də bərk narahat idi...

Gedənlər əliboş qayıtdılar. Nəzər dedi ki, kirvə! Yeznəm də mən də redaktora çox üz vurduq, əməl yemədi! And-aman elədi ki, bu iş mənlik deyil. İnsafçünə redaktorun arvadı da bizim tə-rəfimizdən bu məsələyə dil buladı. Məmmədov yox deyib dur-du. Dedi ki, Nəzər ordan bura durub gəlmisən, gözüm üstə yerin var. İllah spiçka götür bu evi odda, dillənsəm, kişi deyiləm! An-caq raykomun işinə qarışa bilmərəm. Qafarzadə də elə xasiy-yətin sahibidir ki, onun sözünün qabağında söz demək çətindir!

Allahverən səhərisi oğlunu rayona yola saldı. Ona axır sözü də bu oldu:

- Oğul, hər şey alın yazısıdır. Allahın əmrindən çıxmaq olmaz! Qəzetdə işləyənlər də sənnən qaşı-qara, gözüqara deyil ha! Heç kim də anasının qarnında qəzetçi olmayıb. Katibnən cəhl vurma, Allaha təvəkkül de, get!

* * *

...İndi Nazimin həyat tarixçəsində yeni səhifə açılmışdı. Daha hər gün təmasda olduğu müəllim həmkarları, maarif işçiləri ilə tez-tez üzləşmirdi. Köhnə idarə də, səmənd at da getdikcə yadlaşırdı. Redaksiyada kabinetlərin hansını açırsan, yığın-yığın qəzet bağlamaları, yazı makinalarının yeknəsəq səsi, dönə-dönə yazılıb-pozulan məktublar... Stolların üstündə təzəcə sərlövhəsi qoyulan və ya tamamlanıb mətbəə üçün hazırlanan müxtəlif məzmunlu məqalələr... Binanı titrədən çap maşınları, əynində qara, nimdaş xalat olan mürəttiblər... Nazim çaş qalmışdı. Hələlik işin çəmini tapa bilmirdi. Bilmirdi ki, nədən başlasın. Hələlik redaktor barmağını hara tutsa, ora gedirdi. Mətbəə işçiləri təzə məsul katibin naşı olduğunu nəzərə alıb ondan heç nə soruşmurdular. Dalda-bucaqda Nazimə dodaq

büzüb, lağ eləyənlər də olurdu. Bircə mətbəənin müdiri Əzizağa Aydınbəyov danışanların ağzından vurub deyirdi:

- Ayıbdı! Hər gələnə bir qulp qoymayın! Nazim siz görənlərdən deyil! Hələ təzədir! Qoy bir az idarəyə isinişsin, onda görərsiniz bu tənbəl-tünbəllərə necə ot yoldurur.

Əvvəllər olduğu kimi, hələlik idarənin bütün ağırlığı redaktorun boynundaydı. Bunu Nazim də hiss eləyirdi və başqasına yük olmaq ona əzab verirdi.

Gur saçı, aydın baxışları, hündür boyu olan və yaşı qırxa yaxınlaşan Zahid Məmmədovun, sən deyən qələmi olmasa da, təşkilatçılığına söz yox idi. Bir xasiyyəti də varıydı ki, kənarda süpürgəçidən tutmuş şöbə müdirinə kimi bütün işçiləriylə yağ-bal kimi idi. Ancaq işdə üzünü görmə! Kimin nə həddi vardı, ayağını bir balaca əyri qoysun. Nazimlə də, bu idarəyə gələn gündən bir oturub-dururdular. Redaktor məsul katiblərin heç biri ilə Nazim qədər yaxınlıq eləməmişdi.

Nazim rayonda gedən tikinti işlərinə dair iri həcmli tənqidi məqalə hazırladı. Bu, onun bismillah elədiyi ilk məqalə idi. Nazim şəstlə redaktorun kabinetinə daxil olub, yazdığı məqaləni Zahid Məmmədovun qarşısına qoydu və:

- Siz də bir göz gəzdirin. Bəlkə düzəlişə ehtiyacı oldu - deyib, kənar stulların birində əyləşdi.

Redaktor məsul katibin öz təşəbbüsü ilə, çoxdan bəri toxunulmayan bir sahəni qələmə almasından xoşhal oldu. O, məqaləni qarşısına qoyub diqqətlə oxumağa başladı. Nazim öz-özlüyündə ondan - yaxşı yazmısan! Malades! Xoşum gəldi! - kimi tərifli sözlər gözləyirdi. Redaktor məqaləni oxuyub qurtarandan sonra ağır-ağır başını qaldırıb narazı halda:

- Bu nədi yazmısan?! - soruşdu.

Elə bil Nazimin bədənindən isti bir cərəyan keçdi. Dillənə bilmədi.

Redaktor:

- Qəzetin dili sadə, səlist, xalq dilidir! Və oxucu üçün hər bir cümləsi anlaşıqlı olmalıdır. Siz isə burada Amerika açmısınız! Bu uzun-uzadı, çoxmərtəbəli cümlələr nədi! Məqalənin dili ağırdır! Heç gözləməzdim! - deyib, qarşısındakı məqaləni murdar əski kimi Nazimə tərəf itələdi:

- Aparın, təzədən işləyin! Bu vəziyyətdə onu qəzet səhifəsinə çıxartmaq olmaz! - əlavə edib üzünü başqa səmtə çevirdi.

Nazim məqaləni götürüb suyu süzülmüş halda içəridən çıxdı və yan tərəfdəki balaca kabinetinə keçib qapını da arxadan bağladı. Çənəsini ovcuna alıb fikrə getdi. “Bu nə işdi düşdüm?! Məqalə yaxşı çıxmayıb, öz yerində! Bəs mənnən çiyin-çiyinə oturub-duran redaktorun sifəti niyə birdən-birə o cür dəyişsin?” - öz-özünə düşündü. Nazim ömründə bu cür tənəli söz eşitməmişdi. Hirsindən özünü saxlaya bilmədi. Uşaq kimi qəhərləndi. Ürəyini boşaldandan sonra arxa pəncərəni açıb, özünü havaya verdi. Stolun üstündəki qrafindən bir ovuc su töküb üzünə vurdu ki, gözünün nəmi hiss olunmasın.

İşin axırında redaktor məsul katibin qapısını açıb:

- Gedək, - dedi.

Zahid Məmmədov özünü elə göstərdi ki, sanki bayaq Nazimin keyfinə soğan doğrayan o deyilmiş. Onlar idarənin yaxınlığındakı köhnə bağı yarıya bölən iri su arxının üstündə səliqə ilə düzəldilmiş çayxananın qabağında əyləşib, ordan-burdan söhbət saldılar. Heç biri Nazimin ilk məqaləsi ilə əlaqədar olan bayaqkı incikli söhbətin üstünə gəlmədi. Ayağa qalxanda içdikləri çayın pulunu redaktor özü verdi.

Ayrılanda Zahid Məmmədov:

- Nazim, - dedi. - Rayona beş “Spidola” priyomniki gəlib. Tapşırıblar ki, rəhbər işçilərə satılsın. Mənə dedilər, götür-

mədim, ehtiyacım da yoxdur. Birini sənə saxlatmışam. Sabah gedib alarsan. Adını yazdırmışam. Zavmaq özü bilir. Pulun çatmasa, məndə var...

Həmin gecə Nazimin gözünə yuxu getmədi. Evə apardığı qəzet bağlamalarını vərəqləyib, müxtəlif sahələrdən olan irili-xırdalı məqalələri diqqətlə, həm də dönə-dönə oxumağa başladı. Tikintiyə dair məqalələri təkrar-təkrar nəzərdən keçirdi. Sonra redaktorun geri qaytardığı məqaləni alt-üst tamam yenidən işlədi. Artıq gecə yarıdan keçmişdi. Səriyyənin məzəmmətindən sonra çarpayısına uzanıb bir balaca gözlərinin acısını aldı.

Səhər iş vaxtı başlanmamış redaksiyada oldu. Ancaq məqaləni redaktora özü vermədi. Şöbə müdiri ilə göndərdi. Bir-iki saatdan sonra şöbə müdiri məsul katibə yanaşaraq:

- Yaman yazmısan! - dedi. - Redaktor oxudu, sabahkı nömrə üçün mətbəəyə göndərdi. Dedi ki, yaxşı məqalədi.

...Nazim qəzetdə dərc olunan məqaləsinin altında mübarək imzasını görəndə elə bil dünyaya göz açan ilk övladına baxıb sevinirdi...

...Onun gecəsi-gündüzü yox idi. Bir tərəfdən qəzet və jurnallarda gedən məqalələrin yazı üslubunu öyrənir, digər tərəfdən qələmini sınağa çəkib, tez-tez çıxışlar eləyirdi. Yazıları getdikcə rayona səs salırdı. Lakin ona etiraz edən və ya kin-küdurətini bildirənlər də az olmurdu:

- Filankəsin ad-familiyası düz yazılmayıb.

- O kənddə belə adam yoxdur.

- Faktlar təhrif olunub.

- O məqalə qərəzli yazılıb. Bunun əvəzini çıxmasam, kişi deyiləm...

O yerli-yersiz hücumlar qələmi təzəcə püxtələşən gənc jurnalisti sarsıdıb təbdən çıxardır, həm də növbəti məqalə

yazarkən onu hər bir fakt üzərində ciddi düşünməyə vadar eləyirdi. Bir dəfə Kamal Qafarzadə Nazimlə qarşılaşanda yarıciddi, yarızarafat:

- Qələmin bərk hücumdadı, redaktorun kölgədə qalıb. Malades! Ancaq yazılarında bir qədər ehtiyatlı ol. Çalış səhvlər getməsin. Tənqid eləməkdən də çəkinmə. Bilirəm, bəzən sənə qarşı hücumlar da olur. Lakin ruhdan düşmək lazım deyil. Bizə nöqsanları görən və onu qamçılamaq cəsarəti olan jurnalist lazımdır. Ona-buna yarınan, dəymə mənə, dəyməyim sənə mülahizəsi ilə birtəhər baş girləyənlər yox. Bir də ki, məndən soruşsalar ki, jurnalist sözünün mənası nədir? Fikirləşmədən deyərdim ki, iti qələm, cəsarət, mübarizlik! Bir də ki, şəxsi hisslərin əsiri olmamaq... və obyektivlik!

Nazim başının hərəkəti ilə birinci katibin dedikləri ilə razılaşdığını bildirdi və onun bəzi sözlərindən öz payını götürdü.

Redaktor artıq idarənin ştampını, möhürünü bütün ixtiyaratını məsul katibə vermişdi. Zahid Məmmədov bunun səbəbini Nazimə belə izah etdi:

- Mənimki bu gün-sabahlıqdı. Partiya məktəbinə getməliyəm. Qəbul kağızı da gəlib. Əvvəl-axır bu idarənin sahibi sənsən. Bir sirr də açım ki, o vaxt məsul katib gəlməyinin bir səbəbi də elə mən özüm olmuşam. Kamal Qafarzadə ilk dəfə sənin adını çəkəndə dedim düz tapmısan. Qafarzadə də ki, insan sərrafıdı. Bilir ki, kim nəyə qadirdi.

* * *

...Nazim redaktor keçəndən sonra İlham adını özünə təxəllüs seçmişdi. Bu imza indi respublikanın nüfuzlu qəzetlərinin səhifələrində tez-tez nəzərə çarpırdı. Onun səhiyyə xidmətinin vəziyyətinə dair tənqidi məqalələrinin birində birinci katibin həkim işləyən bacısının xəstədən hədiyyə qəbul etdiyi

hallandırılmışdı. Nazim İlham həkimin kimliyini sonradan bilmişdi və bərk peşmançılıq keçirirdi. O, "yol verdiyi xəta"nın əvəzində Qafarzadədən nə isə bir qulaqburması gözləyir və son günlər onunla üzləşməkdən ehtiyat edirdi. Bir gün kabinetində oturub, qəzetin maketini hazırladığı yerdə telefon zəng çaldı. Nazim dəstəyi qaldırdı. Danışan birinci katib idi:

- O tibb xidməti barədə yazdığın məqaləni diqqətlə oxudum, - dedi. - Çox xoşuma gəldi. Səhiyyəni düşdüyü bataqlıqdan, bax, bu cür kəsərli yazıların köməyilə çıxara bilərik...

Nazim çaş qalmışdı. - Qafarzadə niyə yol verdiyim xətanı üzümə vurmadı?! Əksinə, bacısının adı pisliyə çəkilən məqaləni tərifləndi. Qəribə adamdı - öz-özünə düşündü - başqası olsaydı, bəlkə də ayrı cür hərəkət edərdi.

Nazim İlhamın redaktor işlədiyi heç iki il olmazdı, Kamal Qafarzadəni yuxarı apardılar. Partiya işindən uzaqlaşıb, elmi işinin arxasınca getmək onun çoxdankı arzusuydu. Bu haqda yuxarılara neçə dəfə ərizə yazmışdı. Qafarzadənin direktorluq işi də xeyli vaxtdı yatıb qalmışdı. Müdafiə üçün işdən macal tapmırdı. İndi elmi instituta direktor müavini getməsi onun əl-qolunu açmışdı...

Kamal Qafarzadənin yerinə katib seçilən Nadir Nəsrullayev əvvəllər rayon kənd təsərrüfatı şöbəsində zootexnik işləyirdi. İki il olardı həmin şöbəyə müdir qoymuşdular. Köhnə binada neçə il Nazimlə qonşuluq etmişdi. Nadir Nəsrullayev yaşca Nazimdən böyük olmasına baxmayaraq, həmişə ona kiçiklik eləyirdi. Görəndə qabağına yüyürürdü. Bərkə düşəndə Nazimin qoltuğuna qısılırdı. Kamal Qafarzadənin, nə sirr idisə, o vaxt Nadir Nəsrullayevi görən gözü yox idi. Neçə dəfə istəmişdi məsələsini qoyub mitilini atsın bayıra. Ancaq arvadının yuxarıda işləyən qohumu Qafarzadəni üzdən-gözdən salıb qoymurdu. Nazim İlham da dəfələrlə onun qanının arasına girmişdi...

Nadir Nəsrullayev ata minən kimi başladı köhnə katibin adamlarını bir-bir dənləməyə. Özünə bab bildiyi adamları da yavaş-yavaş yığdı başına. Təzə katib işə götürdüklərinin ağlını-dərrakəsini, iş bacarığını nəzərə almırdı. Yalnız özündən aşağı, qoluna qolay kadrları, bir də ki, özü şəhərdən olduğu üçün yerlilərini irəli çəkirdi. Son vaxtlar Nazimi də burunlayırdı. Nadir Xələfoviç elə bil həmişəki adam deyildi. Özünü elə aparırdı ki, sanki başqa bir planetdən gəlib. Vəzifə başına keçəndən yerişi-duruşu tamam dəyişilmişdi. Dünənəcən çiyin-çiyinə gəzib-dolaşdığı adamların salamını da güclə alırdı. Süfrəsinin artığı ilə böyüdüyü dayısı Rafiq üç dəfə onun qəbuluna gəlmişdi, yaxın buraxmamışdı. Sözü də bu olmuşdu ki:

- Noolsun ki, dayımdı, mənim vaxtım yoxdur. Getsin ikinci katibin yanına.

Nadir Nəsrullayev yeriyəndə əlini arxasına qoyub təsbeh çevirir, sağına-soluna baxmır, özünü sərt və ciddi göstərməyə çalışırdı. Gündə-günaşırı da təzə kostyum geyinib, son dəblə qalstuk bağlayırdı. Yaxından tanıyanlar deyirdi ki, bu vəzifəyə keçəndən bəri tez-tez sifətini massaj elətdirir, saçlarını rənglətdirir. Həmişə çəkdiyi "Kazbek", "Stoliçnıy", "BT" siqaretlərini indi yaxın qoymurdu. Çəkdiyi, yoğun və acı tüstüsü olan "Kuba" siqarı idi.

Nazim hər dəfə onun yanına girib-çıxanda bir sutka özünə gələ bilmirdi. Köhnə kadrlardan üç-dörd nəfər qalmışdı, onun biri də Nazim idi. Təhsilli, təcrübəli, görüb-götürmüş idarə başçılarının çoxunun dalından dəymişdi. Nazim onun bu siyasəti ilə barışmırdı. Yeri gəldikcə, məqalələrində bu məsələlərə dolayı yolla olsa da, toxunurdu. Onda da Nadir Nəsrullayev cin atına minirdi. Nazimin üzünə qırmızıca deyirdi:

- Köhnələrin adamı olduğun üçün bizim siyasətimizi bəyənmirsən. Tutduğumuz yeni kursun əleyhinə işləyirsən.

Nazim hələləik onun sözlərini yeyirdi. Ölçüb-biçirdi ki, necə olsa, qəzet raykomun orqanıdır. Gəmidə oturub gəmiçiynən qoz-qoz oynamaq olmaz. Hələlik dözüm görək axırı hara çıxır...

İstirahət günü olmasına baxmayaraq, Nazim İlham evində pəncərənin qabağındakı yazı masasının arxasına keçib, əlində qələm, qarşısında kağız, qəddini əyib, gözlərini qıymışdı. Həyat yoldaşı Səriyyə xanım üçüncü dəfəydi onun çayını dəyişirdi. Nazim İlham isə fikir dünyasına qapıldığı üçün gözünün qabağında çay dolu stəkan-nəlbəkini unutmuşdu. Belə xasiyyətinin üstündə Səriyyə xanımla Nazim İlhamın arasında hərdən giley-güzar olurdu. Səriyyə xanım deyinirdi ki, ay pir olmuş, çayı dəmlədirsən, amma içmirsən, mənciyəzi xuduru yerə əziyyətə salırsan. Azaylanırdı ki, bilmirəm bu nə adətdi səndə?! Çayını isti-isti iç! Sonra nə yazırsan-yaz! Kağız-qələmin qaçmır ha! Nazim İlham isə elə bil bu deyilənləri eşitmirdi. Eşitmirdi deyəndə, qulağı Səriyyə xanımın bu cür giley-güzarına öyrəşmişdi. Əslinə qalsa, heç Nazim İlhamı da qınamalı deyil. Elə ki, təbi gəldi, başındakı cümlələri qarşısındakı ağ kağıza köçürmək üçün qələmi yazıb yetirə bilmirdi. Ona görə də məcbur olub kəlmələrin baş və axır hərflərini tələm-tələsik cızma-qara eləyib keçirdi. Sonra da başlayırdı iki və üç hərfdən ibarət olan sözləri təzədən bir-birinə calayıb düzəltməyə. Bunun üçün o, nə qədər əziyyət çəkirdi, bir Allah bilirdi. Yazdıqları o qədər qarmaqarışıq olurdu ki, ondan özcüyəzi belə çətin baş açırdı. Amma indi gəl, sən onun arxayınçılıqla qələmə aldığı yazılarına bax dəə... Tələsiklik olmayanda xətti qibtə ediləcək dərəcədə aydın və rəvan oxunurdu. Sakitlikdə hərfləri kağıza muncuq kimi düzürdü.

Nazim əlini boğazına qızılı xətt çəkilmiş boğmalı stəkana vurdu. Çayı soyuyub, buza dönmüşdü. Bu dəfə istəməyə üzü gəlmədi. Fikirləşdi ki, Səriyyə də yazıqdı, axı, o da körpələrin

əlində qalıb. Tifillərə cavab versin, yoxsa mənə dəqiqədə bir çay dəmləsin?! Qohum-əqrəbasından bir kara gələn köməkçisi də yoxdu ki, biş-düşdə ona əl uzatsın və ya ağlayan uşağın bircəciyinin qolundan yapışsın. O barədə heç kəsdən yarımayıb. Elə hamısı ondan çəkməyi qənimət bilir. Gözləri Səriyyənin əlindədi. Nazim İlham fikir-fikirli səhərdən bəri üzüquyulu qapıldığı yazı masasının arxasından qalxıb, ikimərtəbəli binadakı mənzilinin dəhlizinə çıxdı. Bu onun çoxdankı adətiydi. Yorulub əldən düşəndə, qələmi yoxuşa dirənəndə bu dəhlizdən halal torpağa və onun allahsevər adamlarına həyan olan dağların əzəmətinə üz tuturdu. Sonra da qayıdıb divanın üstündə oturub, maqnitafonu işə salır, Üzeyirin, Fikrətin musiqilərini dinləyirdi. Bir də ki, aşıqların sazından, avazından ötrü sinoy gedirdi. Nazim İlham bununla da elə bil başqalaşırdı, təzələnirdi, durulurdu, təzədən özünə gəlirdi. Nazim İlham fikrini cəmləşdirib yenidən qələmə sarılmaq istəyəndə stolun üstündəki ağ, yastı-yapalaq telefonun cingiltisi onu xəyalının enişli-yoxuşlu cığırlarında sorağına çıxdığı söz dünyasından ayırdı və dəstəyi qaldırdı. Katib köməkçisinin səsiydi:

- Nadir Xələfoviç kabinetində sizi gözləyir, - dedi.

Nazimin ovqatı təlx oldu. O, dəstəyi yerə qoyub, dilxorçuluqla başını buladı.

- İstirahət günü də qoymurlar oturaq, görəsən yenə nə olub - öz-özünə deyindi.

Səriyyə onun dilxorçuluğunu hiss edib, şirin bir təbəssümlə:

- Yenə hardan soyuq külək əsdi?! Ayın-şayın oturduğun yerdə qaşqabağın sallandı?!

Nazim İlham iş paltarını geyinə-geyinə:

- Nəsrullayevin köməkçisidir, - dedi. - Katib məni gözləyir.

- Gözləyir, get! Ta ondan ötrü niyə keyfini pozursan?! Qorxursan səni tutub saxlasın? - Səriyyə zarafata saldı. - Rayonun

böyüyüdü, yəqin vacib iş-zad var, çağırır! Səhərdən yapışmısan yazı stoluna. Çıx şəhərə, səni bir hava vursun. Dost-tanışlarınla da görüş, eynin açılsın...

Nazim İlhamın yorğun və qayğılı baxışları güclə təbəssümləndi:

- Elə adamlar var ki, onun üzünü görməkdənsə, görməmək yaxşıdır, - dedi. - Sən də birini bilirsən, birini yox. Qabaqlar bir qayda olaraq yuxarı vəzifələrə tarixi, fəlsəfəni bilənlər, ictimai elmlərdən başı çıxanlar irəli çəkilirdi. Cəmiyyət qanunlarını, insanı, insanlığı qananlar. Onlarla dil tapmaq asandı, səni başa düşürdülər. Qəzetə, qəzetçiyə qiymət qoyan varıdı. İndi Xruşşov dəb salıb ki, rəhbər işçilər mütəxəssis olmalıdır. Onun sözündən sonra ağına-bozuna baxmadan rayonları aqronomlara, zootexniklərə tapşırırlar. Bizim Nadir Nəsrullayev də heyvandarlığın bilicilərindəndir. İnsanlığın da bilicisi olsaydı, nə dərd idi... Sözünün nə əvvəli var, nə axırı. Danışanda adamın ayağı yerə yapışır. İndi sən gəl beləsiynən dil tap, necə tapırsan?! Mətbuatın nə olduğunu bilmir, amma di gəl onun qəzetin necə çıxması barədə verdiyi dərsə bax dəə! Qalırsan qırıla-qırıla. Razılaşmayanda da olursan pis kişi. Deyirlər redaktor katibi saya saymır.

Səriyyə onun çənəsinin altına girib boynundakı qalstukunu düzəldə-düzəldə:

- Sən Allah, bəsdi? - dedi. - Son vaxtlar yaman vasvası olmusan! Saa elə gəlir! Heç Nəsrullayevdən yaxşısı yoxdur.

Nazim İlham ikrahla başını buladı:

- Bilmədiyin şeylər çoxdur, - dedi.

Səriyyə:

- Çox kinlisən! - dedi. - Bir nöqsanın da odur ki, bağışlamağı bacarmırsan.

- Doğrudan?! - Nazim İlham ehtiramlı baxışlarıyla ona nəzər saldı.

- Bəli, - Səriyyə ona cavab verdi. - O vaxt qonşu olanda Nadir qardaş bir-iki dəfə bizə gəlib. Özün dəvət eləmişdin. Çiriş kətəsi yeməyə. Özünü uşaq kimi aparırdı. Onda gördüm ki, necə sadə adamdır. Bizim bu Rasimi qucağına alıb üzündən öpdü. - Səriyyə altı yaşlı oğlunu göstərdi. Cibindən də on manat pul çıxardıb Rasimə uzatdı. Dedi ki, özünə dəftər-qələm alarsan. Məktəbə getmək vaxtın yaxınlaşır. Sonra da zarafatla Rasimə sataşdı ki, atan yaman xəsisdi, sənə dəftər-qələm almaq istəmir. Kətədən də xoşu gəldi. Dedi ki, ömrümdə birinci dəfədi çiriş kətəsi yeyirəm.

Nazim İlham geri çəkilib, bir siqaret çıxardıb yandırdı və papirosun tüstüsünü yan tərəfə pülüyərək:

- Çox sadəlövhsən, - dedi. - Süfrəmizin başında əyləşənlərin sadəliyinə, alicənablığına həsəd apardığım halda, onların vəzifə stolunun arxasında düşdükləri sifətlərinə nifrət eləmişəm! İnsanlar həyatda bir-biri ilə yemək-içmək məclislərində olduğu kimi davranıb, rəftar edə bilsəydilər, cəmiyyət ürəklərə qənim kəsilən nifrət, qəzəb, xəyanət, paxıllıq yükündən xilas olardı.

Səriyyə həyat yoldaşının yaraşıqlı qamətini riqqətlə süzüb nəvazişlə qaşlarını çatdı:

- Elə köhnə xasiyyətindir, - dedi. - Sənə adam bəyəndirmək çətindir. Nə təhər oldu, Nadir Nəsrullayev hamıya yaxşıdı, elə bircə sənciyəzin gözündə pisdir?!

Nazim İlham söhbəti ağırlaşdırmaq istəmədi və zarafata salıb söhbəti dəyişdi:

- Səhvin var, Səriyyə, - dedi.

- Nədə?

- Öz dilindən çıxdı ki, mənə adam bəyəndirmək çətindir. Bəs onda necə olub ki, səni bəyənmişəm?!

Səriyyə nəvazişlə güldü və əlini Nazimin sinəsinə vuraraq:

- Yaxşı, yaxşı, sən Allah! - dedi. - Qoysalar, çox söz danışarsan! Get, səni gözləyirlər.

Nazim İlham əyilib Rasimin üzündən öpdü. Sonra da balaca Fəryazı başından yuxarı qaldırıb, yenə yerə qoydu. Rasimə tərəf dönüb onu barmağı ilə hədələdi və:

- Fəryaz səndən balacadı. Onnan işin olmasın, adam qardaşını döyməz - bunu deyib gülə-gülə qapıdan çıxdı.

İstirahət günü olmasına baxmayaraq raykomun binasında adamlar qaynaşırdı. Kabinetlərdəki telefon danışıqları idarəni başına götürmüşdü. İdarələrə, yaxın-uzaq kəndlərə cürbəcür tapşırıqlar verilir, yerlərdən məlumatlar alınırdı. Hövsələsini cilovlaya bilməyən bəzi işçilər telefonda ana-bacı söyüşünə qalxırdılar. Nadir Nəsrullayevin əyləşdiyi kabinetin gözləmə otağındakı növbətçi tez-tez cingildəyən telefonların dəstəyini qaldırıb birinci katiblə danışmaq istəyənlərə:

- Zatindi, - burada yoxdur - təsərrüfatlara çıxıb - yanında qonaq var - Bakı ilə danışır... cavablarını verib, hərəni bir cür başdan eləyirdi.

Nadir Nəsrullayev yalnız özünə lazım olan adamları qəbul edir, onların telefon zənglərinə cavab verirdi. Nazim İlham içəri daxil olanda Nadir Xələfoviç ona dilucu:

- Əyləşin, - dedi və redaktora kənar stulların birində yer göstərdi. Nazim İlham sakitcə əyləşib, üzünü Nadir Xələfoviçə tutaraq:

- Eşidirəm, - dedi.

Nadir Xələfoviç başını aşağı salıb nə isə fikirləşdi və Nazim İlhamın üzünə baxmadan:

- Sluşi, bu nədi!! Raykomla məsləhətləşmirsən! Ağına-bozuna baxmadan ağlına nə gəldi yazırsan! Məgər sən bilmirsən ki, MTS-in direktoru raykomun büro üzvüdür?! Başa düşmürsən

ki, mədəniyyət şöbə müdirinin atası köhnə inqilabçıdır?! Götürüb onlardan felyeton yazırsan! Sonra rayonun daxili sirrini aləmə car çəkirsən! Öz qəzetində onu-bunu biabır elədiyin bəs deyil, mərkəzi qəzetlərə də ayaq açmısan! Yazırsan ki, taxılçılığa fikir verilmir, ticarət batır, kəndlərin dərdinə qalan yoxdur!.. Özü də bu seçkiqabağı! Yatanları da oyadırsan! Yuxarıda oturanlar o məqalələri oxuyanda bizim barəmizdə nə düşünərlər?! Deməzlərmi ki, rayonun başçıları hara baxır?!..

Raykomun katibi ayağa qalxıb stolunun üstündəki, üzərinə qara hərflərlə "Ən məxfi" yazılmış tünd qırmızı rəngli və nazik cildli məktubu dəmir seyfə qoya-qoya:

- Görünür, partiya səni irəli çəkməkdə səhv eləyib! Eybi yoxdur! Biz bu səhvi düzəldərik! - deyib hikkə ilə seyfin qapısını çırpdı.

- Xitabət kürsülərindən gur səslə: "tənqid nöqsanların aynasıdır! Tənqid olmayan yerdə kif və durğunluq hökm sürər! Tənqid partiyanın hərəkətverici qüvvəsidir!" - deyən mötəbər bir şəxsin bu gün belə danışması mənim üçün anlaşılmazdır. - Nazim İlham ona sərt cavab verdi.

- O boyda qəzetin redaktoru rəhbərliyin nəbzini tuta bilmirsə, düşündüyü kimi danışırsa, iclaslarda rəsmiyyət xatirinə deyilənləri həqiqət kimi qəbul edirsə, bu da mənim üçün anlaşılmazdır. Və rayonun rəhbəri kimi haqqım var deyəm ki, siyasi səviyyəniz aşağıdır. Yaradıcı kollektivin başçısı, həm də bir kommunist kimi yetişməmisiniz, kalsınız və partiyanın xəttini başa düşməkdən çox-çox uzaqsınız, - deyə katib onun etirazını həqarətlə qarşıladı.

Nazim İlham da söz altında qalmadı. Ona belə bir cavab qaytardı:

- Bunu ciddi desəniz də mən zarafat kimi başa düşürəm və inciməsəydiniz deyərdim ki, Siz partiya yox, onun milyonlarla

üzvlərindən birisiniz. Və rayon miqyaslı təşkilatına da müəyyən müddət başçılıq edirsiniz. Bu cür danışığınız isə məndə istehza doğurur və qarşımdakı mötəbər yoldaşı gözümdə çox cılızlaşdırır.

Katib təbdən çıxdı:

- Yol-daş re-dak-tor! - sən hələ çox cavansan! Ötkəm-ötkəm danışma! Bu sənə çox baha başa gələr! Birdəfəlik bilməlisən ki, bu rayonun partiyası da, raykomu da, bürosu da, plenumu da, birinci katibi də mənəm!! Aydındır?! Mən Nadir Nəsrullayev! - o, sinəsinə döydü.

Bu sadaladıqlarınızdan əlavə, mənə bir şey də gün kimi aydındır - Nazim İlham cavab verdi.

- Nə?

- Döşünə döyüb, mənəm-mənəm deyib, Allahlıq iddiasında olanların axır-aqibəti!

- Yəni o qədər uzaqgörənsən?!

- Yoox! O iddiada deyiləm, lakin özünü idarə etməyi bacarmayan bir şəxsə, böyük rayonun idarəçiliyi tapşırılırsa, bu, on minlərlə adamın düçar olduğu bədbəxtçilikdir. Və bəlkə də zavallı millətimizin üzləşdiyi ilahi qəzəbidir. Bunu bilmək üçün filosof olmaq lazım deyil.

Katib ayağa qalxdı və əl-qolunu ölçə-ölçə:

- Deyəsən ağın çıxartdın! - dedi. - Axı, bir de görüm, sən kimsən? Kim? Adi bir re-dak-tor!.. Cız-ma-qa-ra-çı! Padumayeş! Məni-o, əlini sinəsinə qoydu - bütün respublika tanıyır. Bu rayonu da sənə yox, mənə tapşırıblar!

- Siz nahaq yerə özünüzü yaradıcı adamlarla müqayisə edirsiniz, - Nazim sakitcə dilləndi.

- Bu nə sözdü, - katib ittihamedici baxışları ilə onu təqib etdi.

Redaktor:

- Bilməyiniz pis olmazdı ki, belə bir müqayisə Sizin xeyrinizə deyil, - dedi.

- Niyə?! - Nadir Xələfoviç iynə saplayırmış kimi gözlərini qıyıb düz onun gözünün içinə baxdı.

Redaktor:

- Ona görə ki, Sizi saydıran tutduğunuz vəzifə, əyləşdiyiniz kabinet, mindiyiniz maşın, malik olduğunuz müvəqqəti səlahiyyət, bir də ki... o daha nə demək istəyirdisə, özünü güclə saxladı. - Yazıçı əhlini tanıdan, şöhrətləndirən isə adicə qələmidir. Sizin təbirinizcə, onun qiyməti bazar-dükanda çox ucuzdu, kəsb etdiyi məna isə... bunu dərk edə bilsəydiniz, nə dərd idi. Onda mənimlə bu cür danışmazdınız.

Katib nə demək istəyirdisə, redaktor ona aman vermədi:

- Baş vurduğum kəndlərdə adi fəhlələrə, naxırçılara belə saatlarla qulaq asıram. Onların söz-söhbətinə mənəvi ehtiyac duyuram. Yazılarım o cür xalq müdriklərinin ağıllı kəlamları ilə mayalanır. Sizinlə tanış olduğum bu neçə il müddətində ibrətamiz, yadda qalan bir söz-söhbətinizi eşitməmişəm. Bəzən iddialı, bəzən həlim danışıqlarınız isə başdan-ayağa hiylə, yalan, riyadır. Və bununla da elə başa düşürsünüz ki, ağıl dəryasısınız, hamıdan çox bilirsiniz. Lakin bu küllü-ixtiyar vəzifənin başgicəlləndirici təsirindən xilas ola bilsəydiniz, anlayardınız ki, dərin siyasət kimi başa düşdüyünüz bu cür oyanbazlıq elin gözündə sizi gülünc göstərir, çox gülünc!

Katib ha çalışdı ki, onun sözünü yarımçıq kəssin, mümkün olmadı. Redaktor daha da qəzəbləndi:

- Tutduğu yüksək vəzifəyə layiq olmayanları görəndə qəlbimdə cürbəcür şübhələr baş qaldırır. Düşünürəm ki, bəlkə bu da bir təxribatdır! Bəlkə gecə-gündüz ayağımızın altını qazan düşmən kəşfiyyatı bədxah əməlləri ilə sizin kimi bivec nadanları hakimiyyət başına gətirir ki, xalq öz partiyasına, hökumətinə

nifrət etsin. Şəhər və kəndlərimiz viranəliyə çevrilsin. İnsanlar səfarətə düçar olsunlar...

Raykom katibi söhbətin başqa şəkil ala biləcəyindən ehtiyat edib, tez ayağa qalxdı və kabinetin girəcəyəinə tərəf yönəlib qapını bərkdən çəkib bağladı. Qayıdıb stolunda əyləşdi və təslim olduğunu etiraf edirmiş kimi yumşaq, yalvarıcı tərzdə:

- Nazim, bəsdi! Bəsdi! Xahiş edirəm! Bu söz-söhbəti qurtaraq, - deyib, ağarmış çöhrəsinə mülayim ifadə verdi. - Əşşi, sən lap məndən də betər əsəbiymişsən! Xata olmadı ki, dilimizdən bir söz çıxdı...

Katib peşman-peşman başını bulayaraq:

- Bizdə hövsələ-zad qalmayıb ha, - dedi və zəngin düyməsini basdı.

Katibə qız arxa qapıdan içəri daxil oldu. Katib ona:

- Hərəmizə bir stəkan yaxşı çay, - deyib, ayağa qalxdı. Və hərlənib redaktorla qabaq-qənşər əyləşdi. Nə demək istəyirdisə, katibə qız tez qayıdıb əlində çay dəstgahı içəri daxil oldu. Katibin sözü ağzında qaldı. Qız çayları süzüb, qapıdan çıxanda, katibin ona sözü bu oldu:

- Zəng çalsalar, özün cavab ver, mənə calaşdırma. Gələnlərə də de ki, zanitdi. İçəridə məruzə yazırlar.

Katibə:

- Aydındır, - deyib, onun qarşısında ədəb-ərkanla baş əydi və içəridən çıxanda qapını arxasınca örtdü.

Kabinetdə bir Nadir Xələfoviç qaldı, bir də Nazim İlham. Birinci katib ona:

- Əvvəla, vəzifəni qoyaq bir qırağa, - dedi. - Mən yaşca səndən böyük olaram. Tutaq ki, düz, əyri, ərklə bir söz dedim, sənə yaraşarmı ki, üzümə bu cür ağ olasan?!

Nazim İlham nə demək istəyirdisə, katib əlini qaldırıb ovcunu ona tərəf tutaraq:

- Xahiş edirəm, imkan ver, sözümü ağıracan deyib qurtarım, sonra yenə nə danışarsan və necə danışarsan, onu özün bilərsən, - deyib, sözünə davam etdi:

- İndi gəl katib-redaktor kimi yox, köhnə qonşu kimi danışaq, əgər qəlbimdə sənə qarşı bir damcı kin-küdurət varsa, vicdanım mənə qənim olsun! Özün bilirsən ki, xatirini qardaşım qədər istəyirəm. Atanı da yaxşı tanıyıram. Ona böyük hörmətim var. Ağır, ağsaqqal kişidir. Hamının xeyrinə-şərinə yarayır. O gedən yerdə qan bağlanar. Səriyyə bacı da ki, anam-bacım olsun, yoldaşın olduğuna görə demirəm, layiqli qadındır. Qonşuluqda neçə dəfə qabağıma çay-çörək qoyub. Mən də ki, özün bilirsən, yediyim çörəyi heç vaxt basmaram. Nəslimizdə, nəcabətimizdə də mərdimazarçılıq olmayıb. İndiyəcən sənə bu sirri açmamışam, ancaq yeri gəlib, deməliyəm. Əgər düzünü bilmək istəyirsənsə, sənin barəndə tamam başqa fikirdəyəm. Hələ bir ay bundan qabaq Mərkəzi Komitə ehtiyat kadrları istəyəndə sənin namizədliyini ikinci katibliyə vermişəm. Bu yaxınlarda da yuxarıda axırıncı söhbətimiz olub ki, üzümüzə gələn konfransda səni ikinci katib seçək...

Bütün bu deyilənlərə baxmayaraq, Nazim İlham hələ də özünə gələ bilməmişdi. Necə hirslənmişdisə, çırtma vursan, qanı çıxmazdı. Katib ayağa qalxıb onu yumşaltmaq üçün, zorla özünə tərəf çəkdi və boynunu qucaqlayıb üzünü üzünə söykədi.

- Bessovestnıy, - dedi. - Mən sənə arxalanıram, sən də lap xarab olub getmisən!

Redaktorun yenə qaşqabağı açılmadı. Katib təmkinlə:

- Hələ cavansan, - dedi. - Çox şeyi bilmirsən. Bizim adamlar qazdan ayıqdır, bilirlər ki, yuxarılarda ikinci katibin halvasını çalmışam. Onunku uzağı konfransa qədərdir. İndi heç bilirsən, onun yerinə nə qədər papaq sulayan var?! Hərdənbir səni danlayıram ki, qoy münasibətimizi bilməsinlər. Belə

məsələlərdə gərək siyasət işlədəsən. Yaxınlığımızı bilsələr və hiss etsələr ki, səni ikinci katib qoymaq fikrindəyəm, qurtardı getdi! Başlayacaqlar ora-bura yazmağa. Sən də ki, sağ olmuş, sataşmadığın adam qalmayıb. Qanını içməyə hazırdırlar. Elə bilirsən havayı yerə deyirəm ki, ondan-bundan az yaz?! Yeganə məqsədim səni qorumaqdır. İstəmirəm düşmən qazanasan. Yüz dost azdır, bir düşmən çox. Bir də ki, ay canım, nəyinə lazımdır MTS direktorundan felyeton yazasan?! Onun da it ilxısı, köpək sürüsü kimi qohum-əqrəbası var. Niyə öz əlinlə özünə quyu qazıb, perspektivini korluyursan?! Savadlı oğlansan, böyük də gələcəyin var. Kim ömrünün axırına qədər bu rayonda birinci katib işləyib?! Heç kim! Sabah yerimə hazır kadrosan. Nə üçün sənin kimi qoçaq, qələmli, cəsarətli oğlan dura-dura, tanımadığımız, bilmədiyimiz başqa yerdən azıb-təzənin birini gətirib bu rayona birinci katib qoysunlar? Gündə bir felyeton yazmaqla deyil e, mənim əzizim! Bax, gərək bu dediklərimi də düşünüb nəzərə alasan. Sənin çox şeydən xəbərin yoxdur. Mən də, qarın süfrə deyil ki, açıb-töküm. Təkcə özümü fikirləşmirəm. Sənin gələcəyin haqda da düşünməliyəm. Bütün bunların hamısını sənin üçün deyirəm, mənə nə var! Buğda yeyib cənnətdən çıxmışam. Neçə ildi rəhbər işdə çalışıram. O kef qalmayıb ki, çəkməyim. Səndən nə gizlədim, aldığımı almışam, verdiyimi vermişəm. Ölənəcən də yeməyimə, geyinməyimə çatar. Sənə bir gün ağlamaq istəyirəm. İki ildi bir kostyumun içindəsən. Hər şeyi atıb, qurşanmısan yazı-pozuya. Pir olmuş, yazdıqların da tənqid! Sənin nəyinə lazımdır, canım?! Guya bu dünyanı sən düzəldəcəksən? Əgər bütün işlər yazmaqla düzəlsəydi... Onu da bil ki, el üçün ağlayanın gözləri kor olar. Bax, gör, hamı necə, səndə o cür! Özünə bir gün - dirrik ağla! Bu gün-sabah qızın irili ərə gedəcək, oğlun evlənəcək. Barı bir onları düşün. Səriyyə xanım beş-on saat dərs deməklə, sən də

gözünün qarasıynan cızma-qara eləyib, əlli-altmış manat qonorar almaqla ev-eşik sahibi ola bilməzsən! İkilikdə deyirəm, bu söz-söhbət də öz aramızda qalmalıdır. Katiblik belədi də, qaz vur, qazan dolsun. Bəli, bəli! İndiki zəmanədə bir vəzifəyə adam qoyub çıxarmağa, bir də tutub-buraxmağa ixtiyarı olanların keyfidir! Yazı-pozuya kim nə verir?! Çox adam heç qəzet də oxumur. Elə biri mənim özüm. İş-gücdən başım açılır ki... Ayda-ildə bir dəfə, o da qurultay-zad olanda... qəzetə baxıram.

Katib ayağa qalxıb nəfəsini dərdi və kabinetində gəzinə-gəzinə:

- Nazim, bütün bunları sənin xeyrinə deyirəm, - o, əlləri cibində boynunu yana əyib, çiyinlərini çəkdi - indi özün bil! - dedi.

Redaktor sükuta dalmışdı. Katibin dediklərini nə təqdir edirdi, nə də ki, ona etirazını bildirirdi. Tilsimlənibmiş kimi onun ifadəsiz baxışları məchul bir nöqtəyə dikilmişdi. Başını qaldırıb katibin gözünün içinə baxmaq istədi. Lakin bacarmadı. Sanki kabinetə qaranlıq çökmüşdü. Katib onun gözlərinə aydın gecədə arxasınca sürünən kölgə kimi görünürdü. Əllərini qarşıdakı stola dirəyib, ağır-ağır ayağa qalxdı və soyuqqanlıqla:

- Gedə bilərəm?! - kefsiz soruşdu.

Katib irəli yeriyib, onu bir də qucaqladı və:

- Yaxşı oğlansan, kaş bu tərsliyin olmaya, - dedi. - Sənə heyfim gəlir. Amma nə olursan-ol, səndən əl çəkdi yoxdu! Qoy bu konfransı sovaq, ikinci katibin stolunda əyləş, sonra bilirəm, səninlə necə rəftar eləmək lazımdı.

Katib onu buraxıb qollarını yanına saldı və:

- Yaxşı, gedirsən, get, konfrans qurtaran kimi Səriyyə xanıma yaxşı bir plov bişirtdirib məni də çağırarsan. Təzə vəzifəni yuyarıq, sonra da bacımla birləşib dərsini verərik. Bəlkə onda bir az ağlın başına gəldi...

Daşdan səs çıxdı, Nazim İlhamdan yox. Katib onun əlini bərk-bərk sıxıb, yenə də üzünü üzünə söykədi və xoş əhval-ruhiyyə ilə:

- Vic-dan-sız! - dedi. - Biz qardaşıq! Səni özbaşına qoysam, çox hoqqalardan çıxarsan! Ancaq bircə onu görməzsən! Nə qədər ki, mənə tabesən, əl çəkən deyiləm! Gərək səni ağıllandırıb, adam eləyim! Başqa çarəm yoxdur! Səriyyə xanımın çörəyini kəsmişəm, arada da o boyda dağdan ağır kişi var. Onlardan keçə bilmərəm. Di xudahafiz! Allahverən kişiyə də, bacıya da məndən çox-çox salam de! Bu cavanlığını da yerə qoy, ağlını başına cəm elə.

Nazim İlham üzünü əks tərəfə çevirib, ümumi qapıya tərəf getdi.

Katib:

- Oranı bağlamışam, - dedi. - Arxa qapıdan çıx. Elə arxadan çıxmaq yaxşıdır. Qoy görüb-eliyən olmasın. Adamlar söz axtarırlar.

Bir neçə saatdan sonra raykomun ikinci katibi Qəribzadə birinci katibin kabinetinə daxil oldu. Onlar növbəti büronun gündəliyinə daxil olan məsələləri nəzərdən keçirib, qurtardıqdan sonra şəxsi söhbətə başladılar.

Qəribzadə:

- İki dəfə qapını itələdim, açılmadı. Qız dedi ki, içəridə redaktorla məşğuldur. Katibin də qanı bir az qara kimidir. Nə məsələydi, xeyr ola?! - soruşdu.

Birinci katib:

- Niçevo, belə şeylər olar, - dedi. - Nazim İlhamdı dəə! Sən ki, onu məndən yaxşı tanıyırsan! Bilmirsən nə yuvanın quşudur? Gündə bir məqalə yazıb, rayonu dilə-dişə saldığı bəs deyil, indi məndən yekə vəzifə umur.

Qəribzadə:

- Hansı vəzifəni?

Birinci katib bir papiros çıxardıb yandırdı, arxasını əyləşdiyi stola söykəyib, qıçını qıçının üstünə aşırdı və dodağındakı papirosun tüstüsünü başından yuxarı püləyərək:

- İştahası çox böyükdür, - dedi. - Ac toyuq yuxusunda darı görən kimi, bunun da könlündən katiblik keçir. Belə çıxır ki, ya mən stolumu ona təhvil verməliyəm, ya da ki, sən. İkimizdən birimiz şələ-şüləmizi yığışdırıb getməliyik. Nazim İlham da gəlib əyləşməlidi yerimizdə...

- Bəs Siz ona nə cavab verdiniz?! - Qəribzadənin əhvalı korlandı.

- Hi... hi... - katib güldü və - xasiyyətimə bələd deyilsən - əlavə etdi - əlinə yekə bir zurna verdim, çala-çala getdi. Allah vurmuşdu onu, heyləsinin yüzünü çaya susuz aparıb, susuz gətirrəm.

Birinci katib sifətini turşudub Qəribzadənin üstünə cojudu və:

- Günahların çoxu səndədir, - dedi. - Onun sahəsinə baxan katib kimi redaktorun ipini çox buraxmısan. İndi də yığa bilmirik. Başlayıb biznən qoz-qoz oynamağa. Bayaq gördüm ki, başından yekə qələtlər qırmaq istəyir, ağzının üstünə vurub oturtdum yerinə. Dediklərinə də it kimi peşman oldu. Büronu çağırıb dalından dəymək istəyirdim. Qabağımda diz çökdü. Yüz dəfə üzr istədi. Dönə-dönə dedi, qələt eləmişəm. Ona dedim ki, sənə bir saat vaxt verirəm, rayondan çıxmasan, səni milisin qabağına qataram. Belə deyəndə, gədə öldü, qabağımda sapsarı saraldı. Prosto, ona yazığım gəldi. Dedim get! Bir də arının yuvasına çöp uzatma. Qulağıma maleyşi bir siqnal çatsa, elə həmin gün redaksiyanın qapılarını mismarlayıb, səni bu rayondan ilim-ilim itirəcəyəm.

Birinci katibin bu cür ötkəm danışığı Qəribzadəyə ləzzət elədi. Və dərin maraqla soruşdu:

- Bəs onda redaktor nə dedi?!

Birinci katib dodağını yana əyərək:

- Nə deyəcək?! Söz tapdı ki desin! Dili-dodağı təpimişdi. Dizləri əsə-əsə yalvarırdı ki, qanmamışam, başa düşməmişəm, bu, axırıncı dəfə olar. Konfrans qabağı olduğu üçün dərinə getmək istəmədim. Dedim, qoy hələlik başını girləsin, sonra baxarıq.

Birinci katib əlini əlinə vurub, qəşş etdi və:

- Sən bir bundakı həyasızlığa bax, - dedi. - Qırmızı-qırmızı dirənib ki, gərək Qəribzadəni çıxardıb, məni onun yerinə qoyasan. Mən də bilirsən ona nə cavab verdim?!

- Nə cavab verdin? - Qəribzadə tez soruşdu.

- Birinci katib baş barmağını şəhadət barmağı ilə orta barmağın arasına keçirib, Qəribzadəyə uzadaraq:

- Redaktora dedim bu de, ala! Qəribzadəni sənin kimisinin yüzünə dəyişmərəm. Ağılda da, kamalda da, mədəniyyətdə də, savadda da səni cibinə qoyar. Camaat arasında hörməti sənindən min dəfə çoxdur. Başıma at təpib ki, o cür kadronu əldən buraxım?! Lap düzünü bilmək istəyirsənsə, bu aparatda Qəribzadə mənim sağ əlimdi.

Qəribzadə bu sözləri eşidəndə qəddini əyib, daha da mütiləşdi və əllərini ovuşdura-ovuşdura itaətkar görkəm alaraq:

- Çox sağ olun! Ömrüm boyu sizə minnətdaram, - dedi. Mənə bu çörəyi Siz vermisiniz.

Birinci katib:

- Nu, xoroşo! Get işinlə məşğul ol! - dedi. - Bunları deməkdə məqsədim odur ki, işini biləsən. Dostunu-düşmənini tanıyasan! Son vaxtlar sənin barəndə də qulağıma yaxşı səda gəlmir. Qoşulmusan ona. Küçəynən gedəndə də az qalırsan redaktorla

qol-boyun olasınız. Ancaq söhbətimiz bu kabinetdən kənara çıxmamalıdır. Redaktor barədə də raykomun mneniyasını bil, lakin heç kəsə bildirmə. Ancaq yeri düşəndə müəyyən yoldaşları başa sal ki, onunku bu gün-sabahlıqdır, konfransda məsələsi həll olunacaq...

- Baş üstə! - Qəribzadə onun qarşısında, əhf edilmiş müttəhimin hakimə olan minnətdarlığını xatırlayan yalvarıcı görkəm aldı və Nadir Xələfoviçə dönə-dönə razılığını bildirib, xoşhallıqla kabinetdən çıxdı.

* * *

...Redaksiyanın işi günbəgün çətinləşirdi. Redaktor da təklənmişdi. Raykomun Nazim İlhama münasibətini görüb hamı qəzet işçilərinin üstünə ayaq almışdı. Nazim İlham bu işlərin mayasını və ona hardan xətər toxunduğunu yaxşı bilirdi. Lakin hələlik açıb-ağartmaq istəmirdi. Əlləşib-vuruşub qəzeti birtəhər yola verirdi.

Şəhərə heç yerdən elektrik xətti gəlmirdi. Gecələr su ilə işləyən kiçik elektrik stansiyası gupbagup salıb, yalnız rayon mərkəzindəki elektrik lampalarını birtəhər közərdirdi. Mətbəədəki çap maşınının da yeganə enerji mənbəyi bu su-elektrik stansiyası idi. Gündüzlər, stansiyanı işlədən kanalın suyunu dəhnədən sovub yaxınlıqdakı dirriklərə verirdilər. Axşamlar da mərkəzdən qonaq olanda raykomdan çap maşınını işlətməyə icazə vermirdilər. Deyirdilər ki, işıqları zəiflədir. Belə olanda da qəzet vaxtında çapdan çıxmırdı. Bunun da günahını yoğurub-yapırdılar redaktorun üstünə. Qəzet Mərkəzi Komitəyə, abunəçilərə təzə-təzə çatdırılmayanda raykomun işçiləri hay-küy qaldırırdılar ki, redaksiya sahibsizdi, işçiləri yaxşı işləmir. Redaktoru da sayan yoxdur...

Nazim İlham qalmışdı odla suyun arasında. Bilmirdi başına

nə çarə qılsın. Döşəməsinin taxtaları çürüyüb-tökülən köhnə kabinetində oturub dərin-dərin xəyallara dalmışdı. Düşünürdü ki, birinci katibin mənnən üzbəüz olanda, o cür mehriban, səmimi dil tökməsi hara, dalda-bucaqda ətrafındakıları qızışdırıb bu cür üstümə qaldırması hara! Redaktor sözünü deyib, ürəyini boşaltmaq üçün bir girəvə axtarırdı. Neçə dəfə onunla üzbəüz olmağa can atmışdı. Lakin birinci katib hər dəfə bir bəhanə gətirib quyruq ələ vermirdi.

Nəhayət, Nazim telefonda al dillə katib köməkçisini yola gətirib onu Nadir Nəsrullayevlə calaşdırmağı xahiş etdi. Köməkçi bu işin ona baha başa gələcəyini bilsə də bu dəfə Nazimin sözünü sındırmadı. Onların telefonlarını calaşdırdı. Nazim redaksiyanın dərd-sərini demək üçün ona ağız açmaq istəyəndə, katib zarafata salaraq:

- Nazim! Mənim əzizim! Hərənin öz sahəsi var. Mətbuata Qədirzadə baxır. Bu cür xırda məsələləri onunla həll et. Mənim də yüz cür dərdim-odum var. Bilirsən ki, konfrans yaxınlaşır. Sekadan gündə bir tapşırıq verirlər. Nə bilim, bu dokumenti ver, o dokumenti göndər... Elə mən özüm də başımı itirmişəm. Sənin katiblik məsələn də bir az öskürəklidi. Sağ olmuş, sözə baxırsan ki, onu-bunu sancıb özünə o qədər düşmən qazanmısan ki... İndi çoxunun da qulağı çalıb ki, səni katib qoymaq istəyirik, başlayıblar orda-burda haqqında şayiələr yaymağa. Axı, bu sirr ikimizin arasında olub. Onu haradan biliblər?! Vallah, başım çıxmır! Yəqin haradasa ağzından qaçırtmısan. Ya da ki, evdə arvad-uşağa demisən. Qadınları da bilirsən də, hulqumları yoxdu ha. İndi qoy görən neyləyə bilirik. Bu Qəribzadə də bir tərəfdən qəmiş olub. Nə isə, telefon söhbəti deyil. Başım açılanda görüşüb, söhbət eləyərik. O ki qaldı qəzetə, mejduproçim, son günlər pis çıxmır. Deyəsən bir az düzəltmisən. Qəzetin üç gün gec, üç gün tez çap olunmasına gəldikdə, bu barədə narahat

olmağa dəyməz, onun mətləbə dəxli yoxdur. Tüstüsü düz çıxsın. Öz aramızda qalsın, ay pir olmuş, bu basa-basda kimdi e, qəzet oxuyan. Vallah, bəzən elə olur ki, on günlərlə əlimə qəzet almıram. Bir də ki, başqaları qoy nə qələt eləyir-eləsin, mən ki, qəzetdən razıyam. Nə qədər ki, qabaqda dağ kimi dayanmışam, dünyanı vecinə alma! Papağının dalını qaldır, keyf elə! İndi başa düşdün də, nə demək istəyirəm! Di sağ ol! Öpürəm... Can sağlığı... Ha... ha... ha...

Nazim İlham ha çalışdı ki, telefonla olsa da ona bir-iki kəlmə söz desin, katib macal vermədi və ağzından söz qurtaran kimi dəstəyi yerə qoydu. Du... du... du...

Nazim İlham rayon rəhbərinin bu cür gəlişi gözəl sözlərində səmimiyyət işartısı görmürdü. Bu partiya siyasətçisinin, redaktoru qurduğu tələyə salmaq üçün işlətdiyi növbəti hiylədən başqa bir şey deyildi. Qəzetin vaxtında çıxmaması, oxucuların bu barədəki giley-güzarı, bir tərəfdən də raykom katiblərinin bunu əllərində dəstavuz eləməsi Nazim İlhamı getdikcə bezikdirirdi. O belə məqamlarda fikrini dağıtmaq və ya üzləşdiyi çətinlikləri yoluna qoymaq üçün ürək qızdırdığı adamlarla görüşüb və ya işçiləri başına yığıb, onlarla dərdləşirdi...

Redaktor kabinetindən çıxıb mətbəəyə keçdi. Redaksiya ilə mətbəə ikimərtəbəli binanın birinci mərtəbəsində yerləşirdi. Redaktorun kabineti mətbəə ilə üz-üzə idi. Mürəttiblər tökmə şriftlərlə dolu olan kassaların qabağında əyləşib, dinməz-söyləməz qarşılarındakı makina yazısının mətninə baxır, əyilib metal hərfləri bir-bir götürür və zərgər dəqiqliyi ilə əllərindəki versetkalara düzürdülər. Redaktor içəri daxil olanda hamı ayağa qalxdı. Nazim İlham onlara:

- Əlləriniz var olsun, yorulmayasınız, - deyib, - durmayın, əyləşin, - ehtiram göstərdi.

Mürəttiblər yerbəyer oturub işlərinə davam etdilər. Mət-

bəənin müdiri Əzizağa Aydınbəyovun çap maşınının arxasından hənirtisi gəldi:

- Nazim müəllim, əşşi, gör burda nə aləm açmışam! Bircə ölümə çarə yoxdur! - dedi. - Allahın köməyi ilə işlər düzəlir.

Əzizağa Aydınbəyov mətbəənin bünövrəsi qoyulandan burada can çürüdürdü. Orta boylu, çəlimsiz bədəni, oynaq gözləri, küləş sifəti olan mətbəə müdiri qara rəngə bulaşmış əlinin arxası ilə alnında puçurlanan təri silib Nazim İlhama yaxınlaşdı:

- İndicə işə salırıq, - dedi. - Arxayın olun. Elektrik stansiyası qoy raykomun otaqlarını işıqlandırsın... Biz birtəhər çulumuzu sudan çıxardarıq.

Əzizağa Aydınbəyov elektrik mühərriki ilə çap maşınını birləşdirən qayışı açıb bir kənara qoymuşdu. Maşının çarxını bir müsibətlə deşib, oraya dəhrə sapından bir az nazik və yarım metr uzunluğunda dəmir keçirmişdi. Heç vaxt zarafatından qalmayan mətbəə müdiri gülə-gülə:

- Bax indi oldu nənəmin cəhrəsi. Qulpundan tut, keyfin istədiyi qədər bula. Gündə də iki qəzet çıxart, - deyib, çarxın qulpundan yapışıb, var gücü ilə özünə tərəf çəkdi. Və bir neçə dəfə hərlədi. Çap maşını taqqatuqla hərəkətə gəldi. Nazim İlhamın mətbəə müdirinə qarşı minnətdarlıq ifadə edən baxışları duruldu və təəccüblə başını bulayaraq:

- Halal olsun, Əzizağa! Tay sənə sözüm yoxdur, - deyib, zarafatyana əlavə etdi:

- Əsl yenilikçini, səmərələşdiricini burda qoyub, gedib başqalarından yazırıq.

Mürəttiblər gülüşdülər. Əzizağa Aydınbəyov özünəməxsus ustalıqla naboru nizamlayıb, şaybaları dönə-dönə bərkitdi. Çapçılar yerlərini tutdular. Əvvəlcə Əzizağa ayağının birini irəli qoyub sağ əli ilə təzə düzəltdiyi dəmir qulpdan möhkəmcə

yapışdı və çarxı var gücü ilə fırlatmağa başladı. Maşın işə düşdü. Qəzet çap olunmağa başladı. Nazim İlham mətbəə müdirinin təngnəfəs olduğunu görüb, qulpu zorla onun əlindən aldı. Baş mürəttib tez irəli yeriyib redaktoru əvəz etdi. Qəzet çapdan çıxdıqca işçilər həvəslənirdilər. Elə bil Nazim İlhamın üstündən ağır yük götürüldü. O, özündə qəribə bir yüngüllük, xoş əhval-ruhiyyə hiss edirdi. Baş tərəfdə, əlindəki versetkaya tökmə hərf yığan və bu söz-söhbətlərə qarışmayan iyirmi yaşlı Bəsirə ayağa qalxıb, çarxı hərləmək üçün maşına yaxınlaşdı. Əzizağa Aydınbəyov qəddini ona tərəf əyib zarafatyana:

- Qızım, sənə çarx fırlatmaq olmaz, - dedi.

Bəsirə cəsarətlə:

- Niyə, Sizlə bərabər maaş almaq olar, amma çarx fırlatmaq yox, - hansınızdan əskiyəm, - cavab verib irəli yeridi.

Əzizağa keyfi durulduğundan övladını əzizləyirmiş kimi mürəttib qızla məzələnməyə başladı:

- Çarxı hərləyə bilərsən, buna şəkk-şübhəm yoxdur, ancaq hünər odur ki, şirinliklə şirniyyatı bir-birindən ayırd eləyə biləsən, - deyib güldü.

Nazim İlhamdan başqa mətbəə işçilərinin hamısı için-için gülüşdü. Bəsirə şirinlik və şirniyyat sözünü eşidəndə elə bil onun yaralı yerinə toxundular. Qızın yanaqlarına xəfif qızartı çökdü. O, pərt oldu:

- Sizin üzünüzdə su qalmayıb, - dedi. - Barı Nazim müəllimdən utanın. Bir sözüdü, oldu, qurtardı-getdi. Təzədən onu burada məsqəriyə qoymağın heç yeridi?! Ayıbdı, bunu bir toyda deyirsiniz, bir yasda! Siz Allah, buraxın bu şit zarafatı. Əzizağa əmi də ki, illaf, ağın çıxardıb!

- Bu tarixi sözdü, qızım! - Əzizağa ərklə əlavə etdi. - Əgər nizamnaməni diqqətlə oxusaydın, şirinlik sözünün mənasını bilərdin. Düzdü, onu nə Lenin yazıb, nə də ki, Stalin! Heç Marks

babamızın da xəbəri yoxdur. Bax, bizim bu raykomun - başımızın ağalarının yazılmamış əlavəsidir.

Bu dəfə Bəsirənin də dodağı bir balaca qaçdı. Və Əzizağanın zarafatcıl xasiyyətinə bələd olduğu üçün onunla söz güləşdirməkdən vaz keçdi. Hirsini soyutmaq üçün irəli yeriyib, hikkəli-hikkəli çarxın qulpunu iş yoldaşının əlindən aldı. Birnəfəsə çarxı necə fırlatdısa, çapçılar şən əhval-ruhiyyə ilə qışqırdılar:

- Əhsən! Əhsən! Sən ələsən, heç mator da maşını belə işlətmirdi.

Bəsirə nəfəsi kəsilənə qədər çarxı fırladıb, sonra tövşüyə-tövşüyə geri çəkildi. O, qəhərlənən kimi oldu. Yanağında muncuqlanan yaş damcısını Nazim İlhamdan gizlətmək üçün üzünü yana çevirdi və öz kassasına tərəf yönəldi...

Necə olsa, qadın qəlbidi. Əzizağa Aydınbəyovun atmacası onun xətrinə dəymişdi. İşçilər də bunu hiss edib, güldüklərinə peşman oldular və susdular.

Çap maşını taqqatuqla işləyir, cürbəcür şəkil və məqalələrin əks olunduğu qəzetlər bir-birinin üstünə qalanırdı. Nazim İlham mətbəə işçilərinin şıltaqlığına guya məhəl qoymurmuş kimi, pəncərənin qabağına çəkilib çap maşınından çıxan yeni qəzetlərin tərtibatını nəzərdən keçirirdi. Əslində, Əzizağa Aydınbəyovun zarafata salıb dediyi şirinlik və şirniyyat kəlmələri və Bəsirənin bu sözdən sarsılması onun diqqətindən yayınmamışdı. Ancaq Nazim İlham işçilərlə öz arasında olan pərdəni götürməmək üçün bu barədə nə Əzizağadan, nə də ki Bəsirədən bir kəlmə də olsun söz soruşmamışdı. O, diqqətini əlindəki təzə qəzetdən ayırıb, çarxın qulpunu mətbəə işçilərinin əlindən zorla aldı. Və bir-iki dəfə fırlatdıqdan sonra:

- Yaxşı, siz işinizdə olun, haçan da yorulsanız, utanıb-çəkinməyin, mənə xəbər eliyin gəlim, - deyib, öz kabinetinə

keçdi və bir neçə dəqiqədən sonra Əzizağa Aydınbəyovu yanına çağırdı. Bayaqkı söhbətdən hali olmaq üçün Əzizağanı dilə tutmağa başladı...

Mətbəə müdiri redaktorun onu nədən ötrü çağırdığını başa düşdü və:

- Nazim müəllim, ağlınıza ayrı şey gəlməsin, - dedi. - İşçiləri şənləndirmək üçün o şirinlik və şirin sözünü elə-belə ağzımdan qaçırtdım. Burada başqa bir məna yoxdur. Bəsirədə ki, öz uşağımızdır. Gözümüz də həmişə üstündədir. Siz onun qolundan tutub bura gətirən gündən Bəsirəyə demişəm ki, qızım, beş balam var, sən də ol altıncısı. Biz ata-balayıq...

Əzizağa çox dil tökdü. Ancaq gördü yox e, redaktorun fikrini bu məsələdən yayındırmaq çətindir. Ona görə də məcbur olub, sirrin üstünü açdı:

- Nazim müəllim, - dedi. - Məgər sizin dərdiniz azdı ki, birini də biz üstünə qoyaq! İşçilərə bildirməsəniz də, hamısı başa düşür ki, sizi onsuz da hər tərəfdən sıxışdırırlar. İş o yerə çatıb ki, işçiləri də sizin üstünüzə qaldırmaq istəyirlər. O biri tərəfdən də stansiyadan işıq vermirlər ki, iş pozulsun. Qəzeti orda-burda müzakirəyə qoyurlar. Haqqınızda cürbəcür şayiələr yayırlar. Burda kimlərin barmağı var, onu siz də bilirsiniz, biz də. Hamısının da başında duran raykomdur. Bütün bunların əsas mayası Qəribzadədir. Bir də ki, əslinə baxsan, Qəribzadə kimdir? Heç kim! O da birincinin çaldığı ilə oynayır. Birinci də ingilis siyasəti yeridir. Dovşana qaç deyir, tazıya tut. Özünü üzdə sizə yaxın göstərir, dalda Qəribzadəni üstünüzə fitləyir. Burada başqa bir səbəb axtarmaq lazım deyil. Açıq-aydın sizi gözləri götürmür. Bunları bizdən gizlətməyinizə baxmayın, hər şeydən xəbərimiz var. Bizim də əlləşib-vuruşduğumuz odur ki, qəzet vaxtında, tərtəmiz çıxsın. Biz heç e, bizə nə var ki sizin üzünüzə söz gəlməsin. O ki, qaldı bayaq dilim dinc durmadı, Bəsirəyə

bir-iki söz atdım, onu heç soruşmasanız yaxşıdır. Deyib qanınızı qaraltmaq istəmirəm.

Nazim İlham mətbəə müdirindən əl çəkmədi. Yenə sözü hərləyib-fırlayıb şirinlik, şirni, nizamnamə, Lenin, Stalin, raykom sözlərinin üstünə gətirdi. Bu sözlərin nə məna verdiyini bilmək üçün Əzizağanı xeyli sual-cavaba tutdu və axır ki, onun boş damarını tapıb yumşaltdı. Mətbəə müdiri gördü ki, yox, açıq deməsə, redaktorun ürəyində qaraltı qalacaq və Nazim İlham ondan şübhələnəcək. Ona görə də məsələni olduğu kimi açıb danışmağa məcbur oldu.

* * *

Bəsirə xeyli vaxtıdı mətbəədə mürəttib işləyirdi. O, bu idarəyə qəribə bir təsadüf nəticəsində gəlib çıxmışdı. Məsələ də belə olmuşdu. Qışın oğlan çağıydı. Şaxta adamın iliyinə işləyirdi. Nazim İlham günorta fasiləsindən sonra evdən idarəyə qayıdırdı. Şəhərin mərkəzi küçəsindən keçəndə, gözünə ona tanış olan iki zənən xeylağı sataşdı. Ana-bala Nazim İlhama şübhəli-şübhəli baxıb, utandıqlarından ona görünməmək üçün bir-birinə qısıldı. Və irəlidəki döngəyə tərəf burulmaq istədilər. Nazim İlham o dəqiqə onları tanıdı. Vaxtilə onların kəndində müəllim işləmişdi və Bəsirəgildə, daha doğrusu Bəsirənin itkin düşmüş dayısı evində qalmışdı. Ona görə də addımlarını bir qədər yeyinlədi, arxadan onları səslədi:

- Bəsirə! Tamam bacı!

Bəsirə köhnə müəlliminin hənirtisini eşidəndə ayaq saxladı. Anası da ona baxdı. Hər ikisi yolun ortasında quruyub qaldılar. Nə Tamam, nə də ki, onun qızı Bəsirə istəmirdilər ki, Nazim müəllim onları bu kökdə görsün. Tamamın başındakı ağ cunanın qıraqları süzülmüşdü. Ayağındakı yamaqlı qaloşun deşilmiş ucundan barmaqları görünürdü. Əynindəki beş taxtalı nimdaş

tumana neçə yerdən yamaq vurulmuşdu. Bəsirənin geydiyi paltar bir qədər təzə olsa da, əyninə yatmırdı. Və bir az da ona iri gəlirdi. Aydın məsələ idi ki, özününkü deyildi. Şəhərə gəldiyi üçün kimdənsə bir-iki günlüyə əmanət alıb. Qız yatalaqdan duran xəstə kimi əriyib çöpə dönmüşdü. Burnunu tutsan canı çıxardı. Nazim onlara yaxınlaşıb hər ikisindən hal-əhval tutdu və:

- Tamam bacı, qışın bu soyuğunda sizdən nə əcəb? Bir belə yolu gəlməkdə xeyirdimi?! Bir hadisə-zad olmuyub ki? - soruşdu. - Bəlkə köməyə-zada ehtiyacın var? - əlavə etdi.

Tamam xəcalət çəkə-çəkə yaşmağını bir balaca aşağı salıb:

- Nə deyim, vallah, gəlmişik dənə, bizlərdə bir söz var: öküz əyməsə, daş qəribçiliyə düşməz. Bizimki də belə gətirib...

Tamam daha sözünün dalını gətirmədi, başını aşağı dikdi. Nazim İlham hiss etdi ki, onun nə isə deməyə sözü var, ancaq utanır. Ona görə də Tamama ürək-dirək verdi:

- Tamam bacı, xahiş edirəm utanıb-çəkinməyin. Nə sözünüz var, deyin. Özgə deyiləm, mən də sizin qardaşınız. Yaxşı, yadından çıxıb, kəndinizdə müəllim işləyəndə neçə il sizdə qaldım, qardaşının evini mənə verdin... Elə bilirsən onları unutmuşam?! Bəsirə də ki, onda yaxşı oxuyurdu, həmişə də dərslərindən beş alırdı. Amma indi gözümə birtəhər görünür. Yaman sınıxıb, xəstə-zad olmuyub?!

Ana qızına baxıb başını buladı və utana-utana:

- Yox, - dedi. - Azar-bezarı yoxdur. Amma kasıbçılığın üzü qara olsun. Sən də mənim qardaşım, nə gizlədim, bizim əzvayışımızı yaxşı bilirsən, dayna! Üzüm ayağının altına, qalmışam bu körpələrin əlində. Allah-taala bir oğul züryəti qismət eləmişdi, onu da səndən sonra əzrayıl əlimdən aldı. İndi qapımdakı odunu da yaranım yoxdur. Təzə gələn direktır məni süpürgəçilikdən çıxartdı, yalan-gerçək dedi ki, ixtisara düşürsən.

Yenə ordan beş-on köpük alıb dolanırdıq. İndi evdə də işləyən bircə mənəm. Tək canımnan səhər gedirəm kolxozun işinə, axşam qayıdıram evə. Bir belə əlləşib-vuruşmağın qabağında əlimizə-ovcumuza bir şey gəlmir, əməyimiz hədər gedir. İlin axırında da beş-on kilo dəndən-zaddan ola, ya olmaya. İndi müəllim, Allahdan gizli deyil, səndən nə gizlədim. Qalmışıq yaman günə. Ümidim bircə bu qızadı. Bu da orta məktəbi qurtarıb qalıb evin içində. Ali məktəbə qoymağa gücüm çatmır. Ana-bala çox ölçüb-biçdik. Gördüm ta innən sonra Bəsirəninki oxumaqdan keçib, kolxozdan da haray yoxdur. Dedim elə yaxşısı budur ki, gətirim şəhərə, görüm süpürgəçilikdən, qabyuyandan-zaddan bir iş tapa bilərəmmi? Ayda beş-on manat qazansa qənimətdi. Həm öz əyninə-başına ala, həm də azdan-çoxdan artırıb evdəkilərə əl tutar. İndi gəlmişik! Təvəkkül Allaha, görək bu qıza harda bir yönlü iş tapıram. Bəlkə bir Allah adamına rast gəldik. Sən də ki, sağ ol, ömrün uzun olsun! Allah balalarını saxlasın, elə bizi bu yolun ortasında saya salıb, halımızı soruşursan, Allah da saa dayaq dursun. Yaman günün ömrü az olar. Görüm bu qızı neylirəm, dayna... Müəllim, işləmisən, bilirsən, bizim kənd də ode itin quduran yerindədir. Bu saat qar dizə çıxır. Yol-iz bağlanıb. Necə olsa, şər qarışanacan qayıtmalıyam. Ev-eşik, dana-buzov hamısı maa baxır...

Tamam sözünü tamamlayıb başını yuxarı qaldırmadan:

- Di sağ ol, bizi gözləyirlər. Bir balaca işıq ucu var, gedək görək, bəlkə Allah düzəltdi.

- Sizi kim gözləyir? - Nazim İlham soruşdu.

- Müəllim, sən Allah, bizdən ötrü yolundan qalma, sən də iş adamısan. Biz də gedək, görək, başımıza nə çarə qılırıq.

- Yox, bilmək istəyirəm kim gözləyir? O nə işdir?

Tamam:

- Müəllim, indi ki söz açıldı, qoy deyim. Sən tanımazsan. Bizim rəhmətlik kişinin uzaq bir qohumu var, adı da Nabatdır. Balniskədə povir işləyir, xəstələrə yemək bişirir. Evi də şəhərin qırağındadır. Qarğıdan hördürüb, içəridən, çöldən də qara palçıqla suvatdırıb. Birtəhər yağışdan, küləkdən qoruyur. Elə o da mənim kimi Allahdan yarımayıb. Bədbaxtın biridir. Əri-zadı yoxdur. Bir bölük külfət ona baxır. Amma kasıblığına baxma, nə qədər desən qəlbi geniş adamdır. Getmişdim yanına, bizdən ötrü özünü öldürürdü. Dedi ki, Tamam, heç kəsə demə, balniskədə bir süpürgəçi yeri var. Maaşı da iki yüz manatdı. Ora-bura çıxandan sonra yüz yetmiş manat qalır. İndi görək, düzəlsə, qızı onun yanında qoyub getməliyəm.

Tamam həm sazaqdan, həm də xəcalətindən əsirdi. Bəsirə anasının qaloşdan çıxan barmaqlarına baxıb öz-özünə: - kaş Nazim müəllim görməyəydi - düşünürdü.

Bu mağmunlar da Nazim İlhama bir dərd oldu. Nazim İlham nə isə fikirləşdi, sonra onlara qayğılı nəzər salaraq:

- Ardımca gəlin, - deyib yola düzəldi. Ana-bala bir-birinə qoşulub onun arxasınca düşdülər. Nazim kabinetin qapısını açıb, içəri daxil oldu. Tamamla Bəsirəni də kabinetinə dəvət etdi. Ana-balaya odun sobasının yanında oturmaq üçün yer göstərdi. Onlar bir-birinə qısılıb dinməz-söyləməz əyləşdilər. Odun sobasının istisində qızınıb bir balaca özlərinə gəldilər. Nazim Tamamla Bəsirəni içəridə qoyub, məsul katibin otağına keçdi. Əlini cibinə salıb nə ki pulu var, pencəyinin cibindən çıxardıb qoydu ortalığa. Bir neçə manat da məsul katibdən aldı. Sonra mətbəə müdirini çağırdı. Onun da nəyə gümana gəlirdi, qəpiyinəcən götürüb hər ikisinə:

- Əlborcu alıram, bu gün olmasa da sabah qaytararam, - dedi. Mənə bu saat pul lazımdı. O, məsul katiblə mətbəə müdirinə:

- Kabinetimdə bir qız, bir qadın var, - dedi. - Ana-baladırlar.

Allahın mağmınlarıdır. Onları bu dəqiqə qoşuram sizə. Aparın mərkəzi univermağa. Vaxtı ilə kəndlərində müəllim işləmişəm. Tamamın qardaşı evində qalmışam. Qıza dərs demişəm. Anası da abırlı-ismətli qadındır. Kasıb mərd olar, o vaxt məndən ev kirayəsi də almırdı. Birevli kimi olmuşuq. İndi əlləri dara düşüb, bir pənah yeri axtarırlar. Əyin-başlarına baxanda, adamın ürəyi ağrıyır. Lazım olsa, univermağın müdirinə mənim də adımdan deyin, onda olmasa, qonşu dükanlardan, anbardan tapsın, düzəltsin. Tamam bacıya mütləq bir cüt ayaqqabı, baş örtüyü, qıza da əyninə görə nə lazımdır... özü də isbatdı şey alın. Elə eləyin adımıza layiq olsun. Başa düşdünüz də, nə dedim? - əlavə etdi.

Məsul katiblə mətbəə müdiri bir ağızdan:

- Aydındır, Nazim müəllim, aydındır! Nə mümkündür eliyərik.

Əzizağa xarakterinə uyğun qayğıkeşliklə:

- Əl tutmaq Əlidən qalıb, - dedi. - Nazim müəllim, çox savab iş görürsünüz.

Nazim İlham əlavə olaraq tapşırdı:

- Pal-paltarlarını alandan sonra da buraxmayın, qaytarın gətirin yanıma. Onlarla ayrı işim də var.

...Məsul katiblə mətbəə müdiri ana-bala üçün nə deyilmişdisə, hamısını almışdılar. Ancaq Tamam təzə çəkməsini geyməyə qıymırdı. Öz-özünə düşünürdü ki, təzə ayaqqabını bu zığ-zımrığa bulasam, kənardan baxanlar deyərlər qudurub. Bir də ki, doyunca yeməyə çörək tapmırıq, boş təhnəynən o bahalıqda çəkmə harama yaraşır?! Saxlayaram, qızlar irilib-eliyəndə gərəkləri olar. Tamamın barmaqları içərisinə su dolmuş köhnə qaloşun yırtıq burnundan yenə də görünürdü. Nazim İlham onlara diqqətlə nəzər salıb:

- Tamam bacı, Bəsirə barədə fikrim başqadır, - dedi. - Onu

öz yanımda işə götürmək istəyirəm. Mətbəədə bir boş yerimiz var. Aylıq maaşı da səkkiz yüz manatdı. Buna necə baxırsan?!

Tamamın sevincdən gözləri yaşardı. O, titrək səslə:

- Tay, sən məsləhət görəndən sonra, mənim nə sözüm var, müəllim, - dedi. - Başına dönüm, o nə vəzifədi, yəni Bəsirə bacarar?

- Niyə bacarmır, lap yaxşı bacarar! Bəsirəyə mən dərs deməmişəm?! Fərasətli qızdır, əla bacarar! Yoldaşları da necə lazımdı, kömək edərlər. Mənim də gözüm üstündə olar.

Tamam başını yuxarı qaldırıb Nazimə utancaq nəzər saldı:

- Ayaqlarının altında ölüm, müəllim, - dedi. - Yuxarıda Allah, aşağıda sən. O sözdən sonra tay nə deyim. Fələk kəndirimizi kəsib, bizim bir ümid yerimiz yoxdur. Sən ki, bizə bu cür xoş sifət göstərib, sahib durursan, mən də üzümü o gözəgörünməzə tutub deyirəm, ey ilahi, sən Nazim müəllimə dayaq ol, onu min budaq elə.

Nazim İlham:

- Elə bu gündən Bəsirənin əmrini verirəm. Ancaq onun qalmağa yer məsələsini nə edək?

Tamam:

- Oğlan uşağı olsa, nə dərd idi, harda qalır-qalsın, amma qız xeylağına çətindir. O, bizim kişinin uzaq qohumu var e, bayaq dediyim Nabat, balniskənin yemək bişirəni. Onunla söhbətimiz olanda yer məsələsində də ağzını bir balaca aradım. Dedi ki, Tamam iş düzəlsə, yer məsələsi asandır. Gündüzlər onsuz da idarədə olmalıdır. Axşamlar da Allah verəndən yeyib-içib xosma komamım bir küncündə yorğan-döşəyin salıb yatar. Qışı birtəhər yola verərik, sonrası asandır. Yazda, Allah qoysa, bu qarğı dama bitişik birini də əlavə hörüb düzəldərik. Ondan sonra gen-bol yaşayarıq. Evin birində Bəsirə ilə mən qalaram, o birində uşaqlar. Sağ olsun, kasıbçılığına baxma, ürəyi geniş

adamdır. Çünki nəsli-kökü var. Onun dədəsi Süleyman bəy adınan deyilirdi. At ilxısının, qoyun sürüsünün ucu-bucağı görünmürdü. İndi kiminin əvvəli, kiminin axırı. Hamısı qırılıb-qıpılıb, yurdda qalanı bircə Nabatdır. Onun da, əri, ürəyindən idi nəydisə, durduğu yerdə keçindi. Qardaşları da davaya getdi, gəlmədi. Sonra gördü ki, dolana bilmir, kənddə qalmadı. Uşaqlarını da qanadına alıb yığışdı gəldi şəhərə. Bir qıraqda yaxşı, pis təlisbəti koma qaraldıb, qalır içində. Balniskədə də biş-düşünü eliyib, balalarını birtəhər yola verir. Arvad olanda nə olar, çox kişidən mərddir. Məndən ötrü o da sənin kimi özünü öldürdü.

Tamam əlini yaşmağına atıb:

- Həə, Nazim müəllim, Allah sənin də kəmərini qurşasın. Elə sən ki, bu dədəsiz qızı qanadına çəkdin, dünya durduqca durasan. İşin ki, düzəltdin, elə o maa bəsdi. Bu yaxşılıq ölüncə yadımdan çıxmaz. Qalmağı da ki, sağ olsun Nabatı, boynuna çəkib. Allah ikinizdən də razı olsun...

* * *

Gözdən uzaq, könüldən qıraq olan, otuz-qırx evli, telefonsuz, radiosuz bir kənddən çıxıb haylı-küylü şəhərə düşmək Bəsirə üçün o qədər də asan deyildi. Əvvəl-əvvəl qəribçilik çəkirdi. Ana-bacılarının xiffətini eliyirdi. Heç kimə də yovuşmurdu. Sonra yavaş-yavaş üz-gözü öyrəşməyə başladı. Şəhərə alışdı, işinin çəmini tapdı. İdarədəkilərə də getdikcə isinişirdi.

Əzizağa Aydınbəyov da harda olurdu, Bəsirədən ağız dolusu danışırdı. Deyirdi ki, ağlı başında qızdır. Dünən, srağagün gəlməsinə baxma, o birilərindən fərasətli tərpənir. Mətbəənin bir tərəfini təkcə çəkib aparır.

Bəsirə başını aşağı salıb, səhər hamıdan qabaq işə gedirdi. Müdir də ona yeri deyəndə yüyürürdü. Bu cür üzüyolalığı günü-

gündən onun hörmətinin üstünə hörmət gətirirdi. İş vaxtı qurtaranda da gəldiyi yolla düz başıaşağı qayıdıb, Nabatla balaca komada baş-başa verib birtəhər axşamı səhər eləyirdi. Hərdən bazar günlərində Nazim İlhamın həyat yoldaşı Səriyyə, Bəsirəni evə çağırtdırıb ona görüm-baxım eliyir və axırda da əlinə düşən köhnə-kültəsindən bürüb-büküb qoltuğuna verib yola salırdı. Nazimin uşaqları Bəsirəyə necə öyrəşmişdisə, onsuz dura bilmirdilər. Səriyyə hər dəfə Nazimə deyirdi ki, sən Allah, onnan muğayat ol, dədəsiz qızdı. Ona yaxşı baxsan, Allaha da xoş gedər. Birdən idarədə onu burunlayıb-eləsələr, imkan vermə, vur ağızlarının üstünə.

Kimsəsizliyinə görə, hamı Bəsirəyə ana-bacı gözüynən baxırdı. Bir adam ona - bura tüstüdü, orda otur - demirdi. Çoxu da elə Bəsirənin öz xasiyyətinə görə idi. Bəsirə anasının bir sözünü qulağında sırğa eləmişdi. Tamam qızına öyüd-nəsihət verəndə bir sözü də o olurdu ki, “Allah-taalanın qoyduğu qanundan kənara çıxmayın. Qız ki var, köçəri quş kimi bir şeydi. Bu gün burdadı, sabah orda. Tezi-geci birinin ocağını qalamalıdı. Onda elə davranın ki, söyüş qabı olmuyam. Başınıza vurub deməsinlər ki, sizə öyüd verəni belə-belə olsun. O da ki, qazandığın hörmətdən asılıdı. Hörmət də ki, bazar-dükanda satılmır. O, elə şeydir ki, gərək özün qazanasan”. Bəsirə öz oturuşuynan, duruşuynan, davranışıynan, ədəb-ərkanıynan onu tanıyanların gözündə qalxmışdı. Bircə orası var ki, ayda, iki ayda bir idarədə partiya iclası keçiriləndə partkom deyirdi ki, bitərəflər çıxsın. Onda Bəsirənin ayağa qalxıb yığıncağı tərk etməsi ona bir az çöçün gəlirdi. Fikirləşirdi ki, mənim oturanlardan nəyim əskikdi? Yəni onların qaş-gözü mənimkindən qaradır?! Niyə dəstədən ayrı düşməliyəm? Yəni bu ayrı-seçkiliyin hamısı bir partiya biletinin başında deyil?! Nəslimdə-nəcabətimdə bircə ləkəli adam yoxdur. Özümün də

ki, şrift düzməkdən barmaqlarımın ucu qabar olub. İşlədiyim müddətdə bircə dəfə də töhmət-tənə görməmişəm. Nə iş tapşırırlar, canla-başla yerinə yetirirəm...

Əslində idarədəkilər də bu barədə Bəsirənin başını doldurmuşdular. Evdə Nabat arvad da deyirdi ki, a qızım, bax gör imkan varsa, keç partiyaya. İndi partiyaçıların dövranıdır. Bu zamənədə ki, cibində partiya bileti olmadı, yıxıl öl! İş üçün nə qədər can yandırsan, xeyri yoxdur. İrəli gedə bilməzsən. Firqəçi olmuyanı, heç idarədə də o qədər saymırlar. Bəsirə bunu elə öz gözləri ilə də görürdü. Hər dəfə partiya iclası başlananda ona deyirdilər sən çıx. Bu o deməkdir ki, yəni bitərəf olduğun üçün sənə etibar yoxdur. Yanında sirr açmaq olmaz, belə yerlərə yaramırsan. Bəsirə bunu içinə salıb, özünə dərd eləmişdi. Ona görə də partiyaya keçmək üçün bir yol axtarırdı. Bunun da qayda-qanununu düz-əməlli bilmirdi. Qəlbinə yatan bir adam fikirləşirdi ki, bu işin çəmini, yol-yolağasını ona öyrətsin. Mürəttib yoldaşlarına bildirmirdi ki, birdən söz eliyərlər. Ürəyində deyirdi ki, yenə az-çox Əzizağa yaxşıdır. Oturuşmuş adamdır, bircə o, bu işə yaxın durub, ağıllı məsləhət verər. Bu söhbət baş tutmasa da, aramızda qalar. Ona-buna bildirməz. Bir o bilər, bir də mən. Tay idarədə dilə-dişə düşmərəm.

* * *

Bazar axşamı idarədə tək-tük adam qalmışdı. İşçilərin çoxu maşın tutub Süsən meşəsinə odun dalınca getmişdilər. Redaktor da pambığa təhkim olunmuşdu. Əzizağa Aydınbəyov da tək-tənha çap maşınının üstündə əlləşirdi. O, dəmir hissələrinin birini açır, digərini bağlayır, bəzi qaykaları da möhkəm-möhkəm bərkitmək üçün dodaqlarını bir-birinə sıxıb, ovurdunu şişirdib əlindəki açarı gücü gəldikcə özünə tərəf dartırdı. Bəsirə əlindəki yarımçıq versetkanı yerə qoyub ayağa qalxdı. Və

çəkinə-çəkinə Əzizağa Aydınbəyova səmtidi. Onu özünə məhrəm bildiyindən girəvəyə salıb ürəyini açmaq istədi. Lakin mətbəə müdirinin əli işdə olduğundan dillənmədi. Əvvəlcə ona kömək eləmək fikrinə düşdü. Əzizağa Bəsirənin məqsədini biləndə şriftlərin yerini dəyişə-dəyişə:

- Geri çəkil! - dedi. - Hərf yığmağına baxma, bu sənin xörəyin deyil, bacarmazsan! Elə bilirsən dəmir-dümürnən iş görmək sənin üçün dolma bükməkdir? O, qəddini düzəltdi və Bəsirə tərəfə baxmadan sağ tərəfdəki qutuya yığılmış kiçik maşın hissələrini ələk-vələk elədi. Ancaq axtardığını tapa bilmədi ki, bilmədi və nəfəsini dərib özünü şax tutdu:

- Qızım, səni qınamıram, - dedi. - İndi çox yerdə kişinin işini arvadlar görür. Bizim bir qonşumuz var, onu tanımazsan, milis idarəsində işləyir, o cür adamları elə tanımasan yaxşıdır. Qapıdakı odunu da arvadı yarır. Özü də şikarnı geyinib, qırmızı papağının da dalını qaldırıb lovğa-lovğa qırıldadır. Lobbaz-lobbaz da danışmağı var. Onun-bunun üstünə kəkələnir. Amma di gəl ki, özünün dərisi bir köpüyə dəyməz. Günü də kefdə keçir. Oturanda da yarım litrdən qayıtmır. Soymadığı da adam yoxdur. Düşmənimə də arzu eləmirəm, heyləsinə işi düşsün. Adam tanıyıram ki, bir şapalaq vurmağının üstündə ona arvadının boğazındakıları da satdırıb. Heyləsinin bircə gülləsi əskikdir. Köpəyoğlunun sifətindən qan damır. Elə bil üstündən yel addamıyıb. Utanan üzü də yoxdur. Vallah, di gəl ki, adamnan elə danışır ki, deyirsən dünyada bundan halal adam yoxdur. Arvadı da ki, yazığın biri. Başına vur, əlindən çörəyini al. Altı uşağın əlində qalıb. Bilmir onları yola versin, biş-düş eləsin, yoxsa dükan-bazara getsin. Dinəndə də əri təpəsinə vurur. Deyir ki, mənimki qazanıb gətirməkdir. Qalanı arvad işidir. Öl, canın çıxsın.

Çap maşınının yanındakı telefon zəng çaldı. Əzizağa dəstəyi

qaldırdı. Baş mürəttib idi. Süsən meşəsinə yaxın olan kəndlərin birindən danışırdı. Deyirdi ki, meşəbəyi odun vermir. Deyir ki, nə olsun əlinizdə bilet var. Raykomda bölgüyə baxanda redaksiyanın adını siliblər. Deyiblər ki, palojnu deyil. Redaksiya getsin Başarat meşələrindən odun alsın. Baş mürəttib telefonda qalmışdı. Səsi də elə bil quyunun dibindən gəlirdi. Nə dediyini başa düşmək olmurdu. Birdən ara kəsildi. Əzizağa telefonu nə qədər tıqqıldadı, pülədi, bir şey çıxmadı. Axırda əlini üzüb, dəstəyi yerinə qoydu və Bəsirəyə tərəf dönərək:

- Özün görürsən dəə, nə illahınan bilet düzəltmişik, onu da bururlar. Bunların hamısı işə pəl vurmaqdı.

Əzizağa ağır-ağır başını yırğaladı:

- Bəsirə, bunlar sənə deyiləsi məsələ deyil, qızım, hələ cavansan. Sözümün canı odur ki, bayaq danışdığım o cür biqeyrət kişilər olan yerdə qadına kim hörmət qoyar?! Bir də ki, o zamana getdi. Görürəm mənə canıyananlıq eləmək istəyirsən. İstəyirsən ki, gəlib mənnən bolt, qayka bağlayasan. Amma nahaq, o fikrə düşmə. Qeyrətim yol verməz. Nə qədər canım suludur, nəfəsim də gedib-gəlir, bu dəmir-dümürnən əlləşəcəyəm. Amma qızım, mən dura-dura qoymaram ağır işdən yapışasan. Nazim müəllim sizin barənizdə mənə çox danışıb. İndi hərə başına bir papaq qoyub. Amma kişi-zad qalmayıb.

Əzizağa söhbətini dəyişib soruşdu:

- Qızım, deyəsən nə isə demək istəyirdin. Özü də gözümə birtəhər dəyirsən?!

Bəsirə başını aşağı dikib, çap maşınının üstündəki ləkəni əli ilə silə-silə:

- Deməyə də unatıram. Sizinlə məsləhətləşmək istəyirəm.

- Buyur, qızım, buyur! Sözünü mənə deməyib, kimə deyəcəksən?!

- Yaşım da düşür, iş stajım da. Bilirsiniz ki, nə xaricdə

olanımız var, nə də tutulanımız. Partiyaya ərizə vermək istəyirəm.

Əzizağa Aydınbəyov ona birdən-birə cavab vermədi. Qəddini əyib, gözünü qıyıb, nabordakı yarımçıq sütunların birinin yerini dəyişdirdikdən sonra başını qaldırıb soruşdu:

- Bu haqda partkoma bir söz demisən?

- Yox! Elə birinci Sizə gənəşirəm. İstəyirəm ki, məsləhət görsəniz, partkomla da elə özünüz danışarsınız. Onnan heylə sən deyən yaxınlığım yoxdur. Danışın, razılıq versə...

Əzizağa Aydınbəyov az qaldı desin ki, “biz partiyaya keçmişik, ağzımız bala batıb, qalmısan sən! Dədəsiz qızsan, qıvrıl yat yerində! Partiya sənin harana yaraşır?! Guya partiyaçı olmasan versetkanı əlindən alan var?! Onsuz da qara fəhləlikdən, səhərdən-axşamacan kirpiyində od götürüb, özünə bir tikə çörək pulu qazanırsan. Elə gərək sən də başını başlara qoşasan. Bunun min cür əndişəsi var. İclasa gəl, üzvlük haqqı ver, siyasi dərslərdə iştirak elə, təşkilatın tapşırığını yerinə yetir, bir yerə dəyişildin, uçotdan çıx, uçota gir. Olursan kəbinli arvad”. Ancaq Əzizağa özünü güclə saxladı. Fikirləşdi ki, bunlar qız uşağına deyiləsi söz deyil. Desəm, ağlına başqa şey gələr. İnsandı dəə, necə olsa çiy süd əmib. Üzümə deməsə də fikirləşər ki, Əzizağa paxıllıq eləyir. Əgər partiya pis şeydisə, özü niyə keçib?! Amma əsl həqiqəti axtarsan, Əzizağa Aydınbəyov da yanıqlı idi. İçəridən qovrulurdu. Düşünürdü ki, Bəsirə qız uşağı yox, kişi xeylağı olsaydı və ona inanıb ürək qızdırsaydı, sinəsi doluydu, nə bilirdi, hamısını açıb-tökərdi. Deyərdi ki, elə mənim də o vaxt sənin kimi Allah ağlımı aldı. Minnət-sünnətnən keçdim partiyaya. İndi dizimə döyürəm. Çünki nə partiyaya qiymət verən var, nə də ki, partiyaçıya. Budee, kor-kor, gör-gör. Elə partiyanın birinci dayağı qəzet deyil?! Yazdıqlarımızın üstündə başına tənbəki oyunu açırlar.

Xəta olub, Nazim İlham bir-iki tənqidi məqalə yazıb. Raykom katiblərinin qulbeçələrinə toxunub. Nazim İlham qanadının altına baxıb? Hardan bilsin katiblərin dostu, qohumu, xəlvəti yanına gəlib-gedənləri kimdir?! MTS direktorunun dınqırına deyib ki, niyə onun adı qəzetdə çəkilib. Dalda-bucaqda redaksiyanı qılınclayır. İndi hərəsi bir tərəfdən tökülüblər bu cavan, binəva redaktorun üstünə. Onu yetim cücəyə döndəriblər. Ordan kanalın suyunu göz görəsi kəsib əkinlərə verirlər ki, stansiya yatsın. Axşamlar mətbəəni işlətməyə qoymurlar ki, mərkəzdən qonaq var və ya raykom iclas çağırıb, işıqlar zəifləyər. Qlavlit də bir tərəfdən cənbər olub ki, katiblər qəzetə baxmamış mən senzura nömrəsi verə bilmərəm. Nə müsibətinən bilet alıb, maşın tapıb meşəyə adam göndərmişik ki, idarəyə odun alaq, adımızın üstünə qələm çəkiblər ki, Süsən meşəsinə yox, Başarat meşələrinə gedin. Nədi-nədi iş pozulsun, Nazim İlhamın başını burdan əksinlər. Dərd birdi, ikidi?! Hamısını da eliyənlər kimdir?! Partiyanın inanıb etibar elədiyi adamlar. Hə, di get, o da sənin partiyan!! Bizi ağ günə çıxardıb, qalıb Bəsirə. Mənim günahım nədir?! Stansiya ola-ola səhərdən axşamacan çarx buluyuram. Qoluma caman gəlib, gecələr sızıltısından yata da bilmirəm. Yəni bu da bir işdir?!

Bəsirə onun tay-tuşu olsaydı, Əzizağa Aydınbəyov çox şeyi açıb-tökərdi. Sinəsini yırtıb deyərdi:

- Bir partiya ki, Nadir Nəsrullayevlərin, Qəribzadələrin əlində oyuncaq ola, at getsin! O mənə lazım deyil! Partiyanı bu kökə salan dəyyuslardı. Balam, qələm desən, Nazim İlhamda, ağıl-kamal, mərdlik desən Nazim İlhamda, oxumadığı da kitab yoxdur. Onun dırnağı biləni katiblərin başı bilmir. Niyə onu durduğu yerdə dilə-dişə salıb, günülüyürsünüz?! Onnan oturub-durmağı özünüzə yaraşdırmırsınız. Amma adını güclə yazan kolxoz sədrləri qapınızı təpiklə açır. Pambıq, süd, yun

zavodlarının direktorlarını, püre sexinin müdirlərini görəndə əldən-ayaqdan gedirsiniz. Ədəb-ərkanla ayağa qalxırsınız. Onlara səcdə qılırsınız. Onda üzünüz gülür. Qəzet işçilərinin adı gələndə başınıza daş düşür?! Hıqqıltı azarı tapırsınız?! Naxoşlayırsınız?! Partiyaya dolu baş lazımdır, yoxsa dolu cib?!

Əzizağa Aydınbəyov bütün bu ürəyindən keçənləri Bəsirəyə deyə bilmədiyi üçün içəridən qırıla-qırıla qalmışdı. Əlacı olsaydı, Bəsirənin qabağında diz çöküb ona yalvarardı ki, qızım, mən bir qələt eləmişəm, sən gəl daşı ətəyindən tök! Bu dələduzlara qoşulub, gül kimi adını bədnam elə mə! Şər-şeytan yuvasından min ağac uzaq ol! Tay indi biz görən vaxtlar deyil. Biz partiyaya keçəndə dünyanın düz vaxtı idi. Adamlarda az-çox insaf, mürvət qalmışdı. İndi firqəçilərin çoxu dönüb olub fitnəçi. Allaha inam yox, peyğəmbərə biyət eliyən. Partiya da hərraca qoyulub. Oğru da onun adından danışır, doğru da.

Bəsirə bütün bunları anlayıb-başa düşməkdən çox uzaqdı. Bircə onu düşünürdü ki, partiyaçı olsam, mənə inanarlar, yerim bir az da möhkəmlənər. İclaslarda da məni həmkarlarımdan seçib - siz bitərəfsiniz, iclasdan çıxın - deməzlər.

Əzizağa Aydınbəyov da bu əlli yaşında çox üzlər görmüşdü. Yaxşı bilirdi ki, zamana xarabdır. Bütün bu düşündüklərini dilinə gətirsə, uşaqlıq olar. Yerin də qulağı var, gedib KQB-yə çatsa, onu gecəynən yorğan-döşəyinnən götürüb ilim-ilim itirərlər, heç yeri də bilinməz. Rəhmətlik atasının bir sözü heç vaxt onun yadından çıxmırdı. Atası ona deyirdi ki, Əzizağa, oğul, çox bilirsən, az danış. Nə qədər az danışsan, başın bir o qədər salamat olar. Ona görə də Əzizağa Aydınbəyovun Bəsirəyə axır sözü bu oldu:

- Nə deyirəm, qızım, Allah xeyir versin. Ərizəni yaz, mən də əlimdən gələn köməyi eliyərəm. Amma bəri başdan deyirəm, partiyanın nizamnaməsini, məramnaməsini gərək yaxşı-yaxşı

oxuyub öyrənəsən. İlk partiya təşkilatında, raykomda sual-cavaba tutanda birinci nizamnaməni soruşurlar. Başıma gəlib də bilirəm. Özünü ki, bir balaca itirdin, bircəciyinə cavab verə bilmədin, batdın. Deyəcəklər siyasi hazırlığı yoxdur. Düzü, əsas birinci katibin sözüdü. Onun ki könlü oldu, qurtardı getdi. Yerdə qalanları amin deyənlərdir. Amma hər ehtimala qarşı, o nizamnaməni də, proqrammanı da dönə-dönə əzbərlə. Yerdə qalanı mənim boynuma. Partkomla da özüm birtəhər dil taparam. Ondan arxayın ol, o özümüzünküdü, yola da yaxın adamdır. Qalanlarını da görək neyləyirik.

* * *

...Bəsirə ilk partiya təşkilatından çapanla keçdi. Yerindən qalxan dedi ki, partiyaya layiqdir... Yarım aydan çox idi onun sənədləri raykoma verilmişdi. Amma hələlik yuxarılardan səs-səmir çıxmırdı. Bəsirəni çağırıb-eliyən yox idi. Bundan ötrü Nazim İlham onlara ağız açmaq istəmirdi. Bilirdi ki, desə də xeyri yoxdur, çünki həməyir öyrəniblər. Xırda bir işi də təmənna ilə görürlər. Ona görə də istəmirdi ki, Bəsirədən ötrü kimə isə söz deyib, özünü yüngülsaqqal eləsin. Partkom və ya Əzizağa Aydınbəyov da bu məsələynən maraqlananda onlara deyirdilər ki, hələlik baş qarışıqdır, gözləsin. Ancaq Əzizağa Aydınbəyov tükü-tükdən seçən adam idi. Bilirdi ki, Bəsirənin partiya sənədləri nəyə görə ilişib qalıb... Bəsirənin də bu idarədə bircə Əzizağaya ərki çatırdı. Hər nə dərdi olsaydı, ona deyirdi. Bilirdi ki, Allah adamıdır. Bəsirə tay onu dəngəsər eləmişdi. Gündə, günaşırı soruşurdu ki, mənim partiya işim nooldu?! Əzizağa Bəsirəyə açıb deyə bilmirdi ki, a qızım, məsələ başqarışıqlığında deyil, onların qarnının sancısı başqadır, yəqin umacaqları var.

Əzizağa bir gün girəvəyə salıb raykomun bu işlərə baxan

zona təlimatçısını yanladı. Onu işin axırında tovluyub körpünün qulağındakı pavilyona çəkdi. Orada əməlli-başlı yedirdib-içirdəndən sonra cibinə də yüngülvari xərclik qoydu. Elə həmin günün səhərisi təlimatçı Bəsirənin qovluğunun üstünə öz dəsti-xətti ilə yazdı ki, "sənədlər nizamnamənin tələblərinə tam uyğun hazırlanıb". Həmin gün də iş keçdi partkomissiyaya.

Təlimatçını yola gətirməyə nə var ki! İndi gəl görüm partkomissiyanın sədri Qeysərzadə ilə necə dil tapırsan?! Bəsirənin işi neçə gün də partkomissiyada ilişib qaldı. Əzizağa Aydınbəyov da neçə yerdən Qeysərzadəyə zəng vurdurdu ki, "Bəsirənin partiya işini qurtar getsin, elə onun alqışı sənə bəsdi". Qeysərzadə də bu barədə ona minnətçi düşənlərin hamısını arxayın salmışdı ki, çalışaram məsələ müsbət həll olunsun.

Çox adamın təvəqqisindən sonra Qeysərzadə Bəsirəni əvvəlcə özü təklikdə söhbətə çağırdı. Onun partiya sənədlərini bir-bir vərəqləyib, diqqətlə nəzərdən keçirdi. Sonra sual-cavaba başladı. Marksın, Engelsin, Leninin, Stalinin nə vaxt anadan olduqlarını, onların bəzi əsərlərinin məzmununu soruşdu. Partiyanın nizamnaməsini, məramnaməsini oxuyub-oxumadığını yoxladı. Qeysərzadə hardan soruşdu, Bəsirə ordan bülbül kimi cavab verdi.

Qeysərzadə ona:

- Malades! Malades! Hazırlıqlı qıza oxşuyursan! Sənin parlaq gələcəyin var! - deyib əlavə etdi: - Xoşum gəldi səndən. Ürəyini buz kimi saxla. Elə bil partiya biletini qoymusan cibinə.

- Çox sağ olun! - Bəsirə utana-utana ona razılığını bildirdi..

- Bir-iki günə komissiya üzvləri ilə birlikdə baxıb, birdəfəlik həll eləyərik, bu barədə qətiyyən narahat olma. - Qeysərzadə onu bir daha arxayın saldı.

Bəsirənin totuq yanaqlarına xəfif qızartı çökdü:

- Var olun yoldaş Qeysərzadə, Allah balalarını saxlasın. - Bəsirə dönə-dönə ona razılığını bildirdi.

Qeysərzadə:

- Yaxşı, tutaq ki, biletini aldın, bəs sonra?! - Bu gün-sabah partiya sıralarına qəbul olunacaq qıza sözaltı eyham vurdu.

Bəsirə onun nə demək istədiyini anlamadığı üçün məlul-müşkül boynunu büküb, ona yalvarıcı nəzər saldı.

Qeysərzadə yarızarafat, bir az da ehtiyatla:

- Bəs bunun şirinliyini kim verəcək?!

Bəsirə o dəqiqə barmağını dişlədi. Bildi ki, partkomissiyanın sədri nəyə işarə vurur və ağzını açıb demək istəyirdi ki, - Əzizağa, - Qeysərzadə tez sifətini turşutdu:

- Yox! Yox! Əzizağanı bura qatma, - onun sözünə etiraz etdi. Düzdü e, mən də Əzizağanın xatirini istəyirəm. Böyük də hörmətim var, zəhmətkeş adamdı. Mətbəənin öhdəsindən odur ki, gəlir. Ancaq bir az ağzıyırtıq adamdır. Ordan-burdan danışandı. O bilsə, redaktorun ovcuna qoyacaq. Nazim İlhama da ki, bələdsən də. Xəbər tutsa, qanımız getdi... Katiblərlə də bir az ləjdi. Sonra onun top-tüfənginin qabağında duruş gətirə bilmərik.

Qeysərzadə təmkinlə əlavə etdi:

- Gərək kommunistin ağzı bütöv olsun, ətin də kəssələr, ondan sirr çıxmamalıdır. Nə eləmək istəsən, bir özün bil, bir də mən. - O, əlini büküb, şahədat barmağını göstərdi və - bir bəsti, - dedi. Başa düşdün də?!

- Bəli, aydındır, - Bəsirə cavab verdi.

- Onda haçan gələ bilərsən de, o vaxt kabinetimdə olum.

- İndi! Bu saat! Bir saata gedib qayıdaram. - Bəsirə vəcdlə cavab verdi.

- Yox! Yox! Günün günorta çağı olmaz! Yüz göz baxır. Kənardan görüb-eliyərlər. Yaxşı olar ki iş vaxtından sonra, bir

az da qaranlıq düşsün, hamı çəkilib getsin. Ancaq yenə deyirəm. Bunu bir ins-cins bilməsin haa... Onlar razılaşdılar.

Bəsirə rayon partiya komitəsinin yerləşdiyi əzəmətli binanın mərmər pilləkənlərindən uça-uça enirdi. Və öz-özünə: “İnnən sonra kimin ağzı nədir mənə - sən bitərəfsən, iclasdan çıx - desin”, - deyə düşündü.

Bəsirənin sevinci yerə-göyə sığmırdı. Həmin gün od parçası kimi işləyirdi. Əzizağa Aydınbəyov gözünün quyruğuynan ona nəzər salaraq:

- Qızım, bu gün yaman qoçaqlaşmısan, ha! Başım qarışıq oldu, bayaq soruşa bilmədim, danış görüm, Qeysərzadə ilə söhbətiniz nə cür keçdi?

Bəsirə qımışdı:

- Yaxşı oldu, pis keçmədi.

- Nə dedi?

- Heç zad, nizamnamədən bir-iki sual verdi, sonra Marksın, Leninin, Stalinin tərcümeyi-hallarından bəzi şeylər soruşdu.

- Cavab verə bildin?

- Bəli, Əzizağa əmi, nə soruşdu, hamısına cavab verdim. Özü də çox razı qaldı. Dedi ki, parlaq gələcəyin var. Sonra dedi get, yaxşı olar...

Əzizağa Aydınbəyov əlini işdən ayırmadan var gücü ilə kəsici maşını birtəhər qaldırıb hıqqana-hıqqana:

- Təbrik edirəm! - dedi. - Gözün aydın olsun! Elə əsas Qeysərzadədir, o ki qəmiş qoymadı, vəssəlam, qurtardı-getdi. Yüzdə bir hal olar ki, büro partkomissiyanın rəyi ilə razılaşmasın.

Aydınbəyov tay çox dərinə getmədi. Mətbəənin xırda-xuruş işlərini görməyə başladı. Kəsici maşının bıçağını nizamladı.

Bəsirə tez-tez divardakı saata baxırdı. İş vaxtının qurtarmasına tələsirdi. Fikri-zikri Qeysərzadə ilə onun şirinlik söhbətinin yanında qalmışdı. Saat beşə yaxınlaşanda işçilər iki-

bir, üç-bir şey-şüylərini yığışdırıb idarədən çıxırdılar. Bəsirə bu dəfə yoldaşlarını gözləmədi, - tələsik işim var, - deyib, yeyin addımlarla evə tərəf yollandı.

Nabat arvad bu yöndəmsiz komada, kişi işini də özü görürdü, qadın işini də. O, əyninə nimdaş paltar geyinib, qarğı damın işıq gələn yerlərinə palçıq vururdu. İki gün qabaqkı küləkli yağışda, nə ki su var, axıb içəri dolmuşdu. Yükdəki paltar-palaz o ki var, islanmışdı. Hamısından çox qonaq yorğan-döşəyinin xarab olmasına yanırdı. Nabat ona görə də komanın uçuq-sökük yerlərinə əl gəzdirirdi ki, içəri yağış vurmasın. Hər dəfə də samanla qarışdırdığı palçığı vedrəynən yuxarı qaldıranda bəxtindən, taleyindən gileylənib ası düşürdü:

- Dünyada Allah-taalanın məndən bədbəxt bəndəsi yoxdur. Bilmirəm qurban olduğumun yanında nə günah işlətmişəm ki, maa qəzəbi tutub! İlahi, bu nə zülmdü düşmüşəm! Bir başı papaqlım olsaydı, nə dərd idi! Gəlib bu it damına qısılmazdım. Xalq kimi bir rahatca ev-eşiyim olardı. Zəmanənin üzü qara olsun, aldığım qəpik-quruşla yetimləri ovudum, yoxsa özümə binagüzarlıq edim?!

Bəsirə, özünü evə yaralı ov kimi çatdırdı. Nabatı görən kimi:

- Nabat xala! - çağırdı.

Nabat əlində palçıq dolu vedrə çiyninin üstündən ona tərəf qanrıldı:

- Bıy! Bəsirə, sənsən? Bu gün aaz nə tez gəlmisən?! Xeyirdirmi?!

Bəsirə ona xeyir xəbər gətiribmiş kimi əl elədi:

- Bir aşağı düş! Aşağı düş!

Nabat fikirləşdi ki, yəqin qızda təzə söz var. O, vedrəni damın burnundan asılı qoyub tələsmədən aşağı düşdü. Bəsirə onu qucaqlayıb o üzündən-bu üzündən marçıldatdı. Və evin arxasına çəkib tövşüyə-tövşüyə:

- İşim düzəlir! İşim düzəlir! Nabat xala! - dedi... Və sonra səsini alçaltdı. - Qeysərzadə tapşırıb ki, heç kimə demə. Dədəmin o itkin canı haqqı mən də bu sözü heç kəsə deməmişəm. Amma nənəm əvəzisən. Özün bilirsən ki, səndən gizlin sirrim yoxdur. Bu sözü bircə saa açıram. Bilirəm ki, qiyamət qopsa da ağzından çıxmaz.

- Qeysərzadə kimdir ay qızım?! - Nabat təəccüblə soruşdu.

- Partkomissiyanın sədridir! Hə! Bu iş əsas ondan asılıdır! Məni söhbətə çağırmışdı! Yoxluyub bələd olandan sonra məndən xoşu gəldi. Dedi ki, parlaq gələcəyin var. Partbilet də ki, elə bil cibindədir.

Bəsirə Nabat xalanın qoluna girib, sevincdən alışıb-yanan gözlərini ona zillədi:

- Nabat xala, sən o Qeysərzadəni tanımırsan! Elə xoşsifət adamdı ki! Allah onun balasını saxlasın. Onun barəsində maa pis demişdilər. Qorxurdum bu işə pəl vursun! Amma Allah könlünə nə saldısa, bir kəlmə də olsun alt-üst danışmadı. İllaf axırda soruşdu ki, bəs bunun şirinliyini kim verəcək?! İstədim müdirimizin adını çəkib, Əzizağanı qabağa verim, hirsləndi. Dedi Əzizağaya söz demək olmaz. Onun ağzı yırtığdır. Belə razılaşdı ki, özüm aparım. Bir o bilsin, bir də mən...

Nabat üst-başının qurumuş palçığını çırpa-çırpa:

- A qızım, bir saxla görüm e! Evi xarabın qızı, elə üyüdüb tökürsən! Bilmirəm axı, nə demək istəyirsən?! Düzdü e, xəbərim var, partiyaya keçirdin. Bu gün də o Qənizadədi nədi, razılıq verib. Onları anladım. Sonrasını başa düşmədim.

Bəsirə boynundan asılmış uzun muncuqları qarışdıra-qarışdıra:

- Hə, dayna, mən də bunu deyirəm, sonrası da odur ki, şirinlik söhbəti oldu, bir də ki, barmağının birini göstərdi.

Nabatın qaşları yuxarı dartıldı və gözlərini geniş açdı. Barmağının ucunu dişləyərək:

- Həə, belə de dayna. Tay dedi ki, kişinin umacağı var. Sən də bayaqdan bəri başlamısan onu tərifləməyə. Öz-özümə fikirləşirəm ki, görəsən bu gün hardan doğdu. Aaz! İndi müftə iş görən vaar? Qənizadənin nənəsi ölmüşdü, almamış iş düzəltsin. İntəhası görüb ki, qız xeylağısan. Həm də qəzet idarəsində işləyirsən, sözü açıq deməyib. Sənnən üstüörtülü danışıb.Ortada qandırıb ki, ayrı adam bilməsin.

- Nabat xala, bəs indi neyləyək?! - Bəsirə çıxılmaz vəziyyətə düşübmüş kimi soruşdu.

Neyləməyim odur ki, a qızım, istəyənin bir üzü qara, verməyənin iki üzü. Bir tərəfə də baxanda onu da qınamalı deyil. İndi alım-verim dünyasıdır. Biz də gərək fikirləşib bir söz düzəldək. Əlac nədi?! Yüyürən yıxıldığına baxmaz. Düyünçələrimi töküm, görüm qəpik-quruş nə var?! Düzəldək verək. Ondan ötrü ürəyini sıxma! Nabat xalan ölmüyüb ha! Özümü on heylə başı papaqlı kişiyə dəyişmərəm! Eh, ay qızım, hələ çox şeyi bilmirsən. O səni partiyaya keçirən, barmağının birini göstərməkdə, deməyi odur ki, yəni bir min manat ver. Biz də, əlac nədi?! Gərək boğazımızdan kəsib verək. Gödən bizdən yuxarı deyil ha! Bir müddət az yeyərik, yavan yeyərik.

Bəsirə qaşqabağını salladı. Bilmədi bu sözün qabağında nə desin. Nabat onun halına acıyırdı. O, Bəsirəyə:

- Qızım, dərdimin üstünə bir dərd də sən qoydun, - dedi. Birdən ağlına gələr ki, Nabat xala mala, pula qızırğalanır. Ə tövbə, yox! Özümdə olmasa da qonum-qonşudan borc-xərc tapıb düzəltməliyəm. O barədə ürəyini sıxma. Məni yandıran odur ki, dünyanın üzü çönüb. Utancaqlıq da eləyirəm, bizim kişi də qəministidi. Vallah-billah onda belə şeylər yoxdu. Partiyaya keçdim nədi, pul verdin nədi?! Simi vallah yatsa, yuxumuza

girməzdi. Rəhmətlik kişi bir balaca üzdəydi, nəslində, kökündə də əngəl yoxudu, keçirdilər partiyaya. Özü də, insafən, yaxşı işləyirdi. Adını da zərbəçi kolxozçu qoymuşdular. O necə partiyaçı oldu, heç özüm də bilmədim. Bir gün biletini göstərdi ki, firqəyə keçmişəm. Danışığından belə çıxır ki, indi alverə döndəriblər. Belə bilsəydim əvvəldən razı olmazdım. Qızım, demə ki, Nabat xala işinə nəhs gətirir. Tövbə, yox! Keçirsən, keç! Allah xeyir versin. Amma bilirsən dayna, elə bir savadım-zadım da yoxdu. Adımı gücnən yazıram. İşim-peşəm naxoşlara xörək hazırlamaq, bir də ki, qab-qacaq yumaqdır. Heç şey bilməsəm də, onu bilirəm ki, partiya da bir inamdı, onu ki, alqı-satqıya qoydun, heç, axırı puçdu! Mən ölü, sən diri, yaşayarıq, axırını görərik! Belə çox getməz!..

Söhbət uzandıqca Bəsirənin nigançılığı daha da artırdı. Çünki Qeysərzadənin dediyi vaxta az qalırdı. Nabat xala öz-özünə oyalanırdı. Gördü ki, Bəsirə sınır, sözünün dalını gətirmədi. İçəri girib yükün üstünə çəkilmiş kilimi qaldırdı və boxçasını çıxartdı. Bütün düyünçələri ələk-vələk elədi. Nə ki əzik-üzük manat, üçlük, beşlik var, hamısını ordan-burdan tapıb topladı bir yerə və Bəsirəyə:

- Qızım, ürəyində qaraltı qalmasın, - dedi. - And olsun bizi yaradana, olub-qalanım nə var, budur. Qədərini heç özüm də bilmirəm. İndi sən məndən yaxşısan. Say, gör neçə düzəlir?!

Bəsirə əzilib, əldən düşmüş manatları səliqə ilə üst-üstə qoyub, - on, iyirmi, otuz... - sayıb hesabladıqdan sonra:

- Nabat xala, azdır, - dedi. - Onun dediyi düzəlmir. Burada cəmi-cümlətanı üç yüz qırx manat pul var. Qeysərzadə də indi məni gözləyir. Geciksəm, acığı tutacaq. Deyəcək, məni aldatdı. İşim də pozulacaq.

Nabat ortası dağılmış yun şalını başına atıb, gümanı gələn bir-iki qonşuya üz tutdu. Hamısı and-aman elədi ki, yoxumuzdu.

Bircə dükanda çörək satan arvad dedi ki, yüz manat düzəldə bilərəm. Onu da, Nabat gördü ki, azdı, onnan yara sağalmaz, götürmədi. Nabat kor-peşman geri qayıtdı. Bəsirə onu əliboş görəndə elə bil balaca koma başına çökdü, kövrəldi, yanaqlarında bir-iki damcı yaş gilələndi. Nabat onu danlamağa başladı:

- A bala, ondan ötrü tay niyə ağlayırsan?! Yoxdan Allah da bezardır! Guya ki, yumub-tökəndə partiya işin düzələcək? Bir aman ver, qoy görək neyləyirik! Səhərə qalsaydı, hasan idi. Doxtorlardan tapıb düzəltmək olardı.

- Yoox! Nabat xala, Qeysərzadə indiyə deyib, - Bəsirə dilləndi.

Nabat tutuldu və:

- İndi mən günüqara neyləyim?! Qız ayağını dirəyib ki, tap! Özümdə yox, qonum-qonşu da vermir! Başıma haranın daşını salım! - öz-özünə düşündü, sonra Bəsirəyə yaxınlaşaraq:

- Qızım, gəlsənmi belə bir fənd işlədək, - dedi. - Evdə yaxşı şaqalat qutusu var. Üstü də qırmızı güllü. bir xəstəmiz vardı, özü də böyük adamdı. Ona kimsə gətirmişdi, o da verdi maa. O vaxtdan gizlin saxlayıram. Sandığa qoyub, ağzını da qıfıllamışam. Gizlətmişəm ki, uşaqlar bilsə, o dəqiqə əlimdən alarlar. Yəqin o Qeysərzadədi-nədi, başıbatmış, onun qismətiymiş. Şaqalatı büküb, üstünə də bir qutu peçenye, yarım kilo da şirni var, içi doşablı, xəstələr verib. Bir də onu götür, apar ver. Hələlik ağzı yumulsun. Verəndə dil-ağız elə. Deynən bevədə oldu, sən deyənləri tapıb düzəldə bilmədim, olanım budur. Hələlik bu şirniyyatı az olsa da çox hesab elə götür, çay içərsən. Bileti alanda da ayrıca gələrəm. De ki, mən də bir kişinin qızıyam. Saa heç vaxt borclu qalmaram.

Nabatın dedikləri Bəsirənin ağlına batdı, hələ desən bir az da şad oldu. Onun başqa çarəsi də yox idi. Qeysərzadə kabinetində

gözləyirdi. Nabat dediklərini səliqəylə bürüb-büküb Bəsirənin qoltuğuna verdi. Onu raykoma yola saldı. Amma bu işə mat qalmışdı. Öz-özünə düşünürdü: "Adəmdən xatəmə hamı yetim-yesirə ənəət eliyib. İndi gör nə zəmanəyə gəlib çıxmışıq ki, bığıburma kişilər dədəsiz qızdan da umur. Yəqin Allahın bundan xəbəri yoxdur. Xəbəri olsaydı, dul arvadınan dədəsiz qızın malına-puluna göz dikən qudurğanların tifaqını çoxdan dağıtmışdı! Adlarını da qoyublar partiya rəhbəri! Bolşevik! Raykom katibi! Pula pul demirlər! Görəsən adamın nə qədər pulu olar, ilahi! Neçə yerdə evi olar! Neçə dəst kostyumu olar?! Nə qədər daş-qaşı olar?! Dünya malından gözləri doymur ki, doymur! Özləri də ağızlarını çuval kimi açıb, düzlükdən, qayda-qanundan, namusdan, qeyrətdən danışırlar. Gərək heylə kəmfürsətlərin başına göydən daş yağa! Yağar da, inşallah! İntəhası tezi-geci var!"

Nabat quruyub qalmışdı qarğı damın ağzında. Ağlına cürbəcür şeylər gəlirdi. Düşünürdü ki, elə-belə götürəndə raykom da, firqəçilərin ocağı, ibadət yeri kimi bir şeydir. "O ocaqda ki haramzadalıq ola, ona kim inanıb biyyət eliyər?! Heç kim! Bizim Bəsirə də indi oyanıb! Kül başına! Deyin görək, heylə partiyanı neyləyirsən?! Yetim qızsan, qıvrıl otur yerində... Bu savadsız canımızla biləndə ki, çöllü-biyabanda bitən bir saqqız, dağdağan ağacı pirdi, insan olan kəs onun çöpünə də toxunmur ki, Allahın qəzəbinə gələrəm. Niyə? Çünki dinimiz var, imanımız var, etiqadımız var! Şəhərin ortasında dikələn ağ binanın adını qoyublar partiyanın evi! İçində də min cür hoqqadan çıxırlar. İndi gəl görüm camaat orda oturanlara necə inansın?! Vallah, deyirdilər, inanmırdım! Bu qızın məsələsindən sonra əlim yerdən-göydən üzülüb. Tay şəkki-şübhəm qalmayıb. Bu harda görünüb?! Üç vərəq kağıza da min manat pul olar?! O da kimə-kimə, - dədəsiz qıza. Onu elə Allah onda vurub ki,

dədəsin əlindən alıb. A başımızın ağası partiya, gərək o biçarə qızın əlində-ovcunda olub-qalan beş-on manat pulu da sən alasan?! Bəs o bədbəxtin özü nə yesin?! Kənddəki damın altında ac-yalavac qalan nənəsinə, bacılarına necə əl tutsun?! Vallah, bu dünya dağılmalıdı! Od tutub yanmalıdı! Qiyam-qiyamət günü tez gəlsəydi...”

Nabat içəridən oddanırdı. Bəsirəynən Qeysərzadənin söhbətindən sonra elə bil onun başına bir vedrə neft töküb, ayağından da od vurmuşdular. Raykomun, orda oturanların qarasına nə qədər deyinib qarğış tökürdü, yenə ürəyi soyumaq bilmirdi.

Raykomun binası şəhəri yarıya bölən dağ çayının sol sahilində, üstündə daz qayalar olan təpənin ətəyində, mərkəzdən də bir az aralıda yerləşirdi. Qədim binanın birinci mərtəbəsində redaksiyadan, mətbəədən başqa da idarələr vardı. Bəsirə onun partiya işini həll edəcək mötəbər şəxsə apardığı “hədiyyəni” qoltuğunda bərk-bərk sıxıb, sağına-soluna baxmadan bütün rayonun gözünü dikəcək yeri olan həmin o möhtəşəm binaya tərəf gedirdi. Qulağına hənirti gələn kimi, başını yuxarı qaldırıb səksəkəli baxışlarıyla yan-yörəsinə ürkək nəzər salır və yenə də yoluna davam edirdi. Bəsirəyə elə gəlirdi ki, şəhərin bütün adamları onu izləyir. Kimsə qəfil böyürdən çıxıb soruşacaq ki, “qoltuğundakı nədir?! Onu hara, kimə aparırsan?!”. O, kiminsə bu cür sual-cavabına tuş olmamaq üçün yeyin addımlar atırdı. Özünü unutduğundan bir-iki dəfə ayağı çalaya düşdü. Və az qala kəlləmayallaq getmişdi. Lakin Allah üzünə baxdı, yıxılmadı. Yaşayış evlərinin arxasındakı küçədən hərlənib, raykomun binasına daxil oldu. Çoxdan redaksiyada süpürgəçi işləyən yaşlı qadın onu görcək təəccübləndi:

- Bıy, Bəsirə! Qadan alım, hardan belə gəlirsən?! Xeyirdimi? - canıyananlıqla soruşdu.

Bəsirə özünü itirdi, az qala demişdi ki, Qeysərzadə çağırıb. Ona şirinlik gətirmişəm. Ancaq bu sözü dilinin ucundan güclə qaytarıb:

- Elə-belə, - dedi, pul kimi qızardı. Söhbəti uzatmadan suçlu addımlarla yuxarı mərtəbəyə qalxdı. Qeysərzadə kabinetində o tərəf-bu tərəfə var-gəl edir və arabir divarda aramla çıqqıldayan dəyirmi saatın əqrəblərinə baxırdı. Onun təzə qəhvəyi rəngli kostyumu dolu bədəninə dar gəlirdi. Bu vəzifəyə keçəndən sonra qarnı irəli çıxdığından pencəyinin qabağı düymələnmirdi. Bu cür köklüyünü işinin oturaq olmasıynan və kabinetdən kənara çıxa bilməməsiylə izah edirdi. Səliqəsiz bağlanmış qalstukunun ucu kəmərinə qədər sallanırdı. Yana tökülmüş uzun saçlarını qulağının dalından yuxarı darayıb başının ortasındakı dazı birtəhər örtürdü. Onun qulağı səsdəydi, səbirsizliklə Bəsirənin yolunu gözləyirdi. Birdən qapı açıldı, Bəsirə:

- Olar? - deyib, onun cavabını gözləmədən içəri daxil oldu. Qeysərzadə əvvəlcə qıza yox, onun qoltuğundakı bükülü kağıza baxdı və gözləri işıqlandı:

- Bu nədi belə?! Nə əziyyətdi çəkmisən?! - ona dil-ağız etdi.

- Elə-belə, yüngülvari... şirinlik...

- Hi... hi... hi... Sən özün bir şirinliksən də. - Qeysərzadə gülə-gülə irəli yeriyib onun qoltuğundakını alıb kənara qoydu. Və qolunu Bəsirənin boynuna salıb, sinəsinə sıxdı. Bəsirə Qeysərzadənin nə məqsədlə belə şit hərəkət etdiyinin mənasına varmadan, geri dartınıb başını onun qoltuğundan çıxartdı. Bakirə qıza qarşı baş qaldıran intim hisslərin təsiri altında Qeysərzadənin sifəti ağardı. Bəsirə isə bunu Qeysərzadənin qadın hərisliyindən irəli gələn şıltaqlığı yox, məhrəm bir adamın ona göstərdiyi nəvaziş kimi başa düşürdü.

Gecənin bu vədəsi, kabinetində cavan qız! Qeysərzadənin qəlbinə şeytan dolmuşdu... Partkomissiyanın sədri süni

təbəssümləri ilə bu qara fikirlərini pərdələməyə çalışdı. Bəsirə isə pörtmüş halda tez:

- Sağ olun! Gecəniz xeyrə qalsın, - deyib, onun kabinetini tərk etdi.

Bəsirə raykomun binasından aralananda birdən yadına düşdü ki, Nabat xalanın sözünü ona deməyib. Gərək Qeysərzadəyə eyhamla çatdıraydı ki, tələsik olduğundan bunları elə-belə... Bileti alanda xəcalətindən çıxaram. Bəsirə dizinə vurub dodağını dişlədi və öz-özünə:

- Vay! Vay! Boynum sınsın! Necə yadımdan çıxdı! Biabır oldum!

Şəhərə çökən qaranlıq Bəsirənin gözlərində bir az da qatılaşdı. O, vaysına-vaysına evə qayıtdı. Nabat xalanın gözü yolda qalmışdı. Bayaqdan Bəsirənin gəlişini gözləyirdi. Fikirləşirdi ki, necə olsa, ərgən qızdı, Tamam onu mənə inanıb, etibar edib. Dünyada o qədər anasının əmcəyini kəsən, dələduz gədə-güdə var ki. Birdən qolundan-zadından yapışarlar!.. Bəsirənin qabağını kəsib ona nalayiq söz deyərlər... Sonra Tamamın giley-güzarından qurtara bilmərəm.

Nabat toyuq-cücəni hinə yığıb, komanın qabağında üzü o tərəfə pəjmürdə dayanmışdı. Bəsirə ayağının ucunda ehmalca yeriyib, arxadan onun boynunu qucaqladı. Nabat diksindi və Bəsirəni görəndə üzü güldü:

- Necə getdin, necə gəldin, a qızım?! Qeysərzadəni gördünmü?! Nə dedin?! Bayaqdan nigaran qalmışam, ağlıma yüz şey gəldi...

Bəsirə çiyinlərini çəkib tərəddüdlə:

- Getdim də, gördüm də, - dedi. - O şeyləri də verdim. Amma nə təhər karıxdımsa, o pul məsələsi yadımdan çıxdı, deyə bilmədim. Sonrası nə olacaq, bilmirəm. İşimi burmasa yaxşıdı.

- Tay artıq-əskik söz olmadı ki?!

- Yox, bükülü şeyləri aldı, sonra da boynumu qucaqladı. Hə, hə, siftə-siftə içəri girəndə onu da dedi ki, aaz, bu nə zəhmətdi, sən özün elə şirinliksən dəə...

Nabat arif adamıdı. Kişilərin hər sifətini görmüşdü. Bəsirə ağzını açan kimi başa düşdü ki, Qeysərzadə hara vururmuş. Ancaq onun niyyəti nə imiş, bunu Bəsirəyə açmadı. Üzünü raykom binasının yerləşdiyi tərəfə tutub əllərinin ikisini də geniş açaraq:

- Ala e, külü qoyum təpənizə, - dedi. - Elə heylə biqeyrətçilik orda oturanlardan çıxar! Mənim partiyama bax e! Mənim raykomuma bax e!..

Nabat partiyanın, raykomun qarasına o ki var söyüb-söyləndi. Bəsirə onu başa düşmürdü. Elə bilirdi ki, Nabat o şokalad, peçenye qutularına görə yanıb-yaxılır.

* * *

Qeysərzadə Bəsirəni yola salandan sonra qapının dalını vurdu. Və onun gətirdiyi bükülü kağızı açmağa başladı: “Yəqin hamısı xırda puldu. Ona görə də belə çox görünür. Yüzlük, əllilik olsaydı, o qədər də bilinməzdi” - öz-özünə düşündü. Şokalad, peçenye qutularını, yumruq boyda bükülüdəki şirnini görəndə pərt oldu, onu tər basdı. Kağızları bir-bir təzədən ələk-vələk elədi. Şokalad qutusunun qapağını açıb baxdı. Lakin bir qəpik də pul çıxmadı. Başında cürbəcür fikirlər dolaşdı: “Yəqin bu qız məni düzgün başa düşməyib. Gərək onunla açıq-saçıq danışaydım. Günah özümdə oldu. Onun hələ him-cim qanan vaxtı deyil. Elə bilir ki, müftə bilet var! Ay özün öləsən! Nə olsun mətbəədə mürəttibdi, fəhlədi. Bilet yerinə qulağının dalını görər. Ölmüşdü Qeysərzadə”. O, özlüyündə vaysınaraq: - Ona birdən-birə əl atmağım da yerinə düşmədi. Amma yaman

girəvəsiydi... Gərək mülayimliklə dilə tutub yumşaldeydim, sonra... heç keçməli şey deyildi... Ovu bərəsində vurmadım".

Qeysərzadə dərindən ah çəkdi: "Ondan addıyıb, bəs indi bu birinci katibə nə cavab verim? Plenuma getməlidi. Səhər tezdən yola düşəcək, iki-üç gün Bakıda olmalıdı. Bayaq özü öz diliynən açıqca eşitdirdi ki, bir dəfə Bakıya gedib-gələndə iyirmi-otuz min çatmır. Təkcə mehmanxana xərci olsa, nə dərddi! Sekaya girib-çıxmaq olmur. Hamı adamın əlinə baxır. Qapıçıdan tutmuş, yuxarıdakılara qədər, kiçikdən-böyüyə hamısı adamdan pul umur. Əli cibə salıb dəsmal çıxartmalı deyil. Adamın gözünün içinə baxırlar. Elə bilirlər pul çıxardırsan. Birinci katib bu sözləri mənə havayı yerə demirdi. Ötən həftə sözarası bir işarə vurdu ki, sənə nə var ee! Partiyaya ildə filan qədər adam keçir, opelyasiya aparırsan. Birinci katib axmaq deyil ki, yaxşı bilir ki, bunlar elə-belə başa gəlmir. Hamısının haqq-hesabı var. Ona görə gərək aldığımdan ona da verim. Qara qaşıma, qara gözümə aşiq deyil ki! Verməsəm, gözündən düşərəm. Quyruğumdan tutub atar bayıra! Yerimə də bir başqasın qoyar. Onun əlində deyil?! Ondan sonra get qarnını qaşı! Kim adama iş verir?! Vəzifədən ki, düşdün, öldün. Dost-tanış da adamdan gen qaçır. Düz-əməlli salam da vermirlər. Ona görə də qazandığımızdan gərək katibə də dadızdıraq. Katib də deyəndə, əsas birincidi, o birilərin ağzına kim çarıq tayı verir?!".

Bir sözlə, Qeysərzadəni fikir yaman götürmüşdü. Gözünü Bəsirənin min manatına dikmişdi ki, alıb bu axşam birinci katibə çatdırsın və bununla da canı nigarançılıqdan qurtarsın. O da belə lax çıxdı! Birinci katib uşaq-zaddı ki, ona şokalad qutusu versin. Qeysərzadə üçün min manat nədi ki! Bəsirəyə ümid bağlamasaydı, ondan-bundan tapardı, bədəbəddə öz evindən gətirərdi...

Daxili telefonun cingiltisi Qeysərzadəni fikirdən yayındırdı və o, dəstəyi qaldıraraq:

- Eşidirəm, - cavab verdi.

- Harda itib-batmısan! Bir bura gəl!

- Baş üstə!

Qeysərzadə dəstəyi yerinə qoyub birinci katibin çağırışına getdi. Nadir Nəsrullayev stolunun arxasında ayaq üstə dayanmışdı. Qeysərzadə içəri daxil olanda ona xoş qaşqabaqla:

- Buyur! Buyur gəl! - dedi. - Yaxında otur. - Ona qarşısındakı stulların birində yer göstərdi. Və - bayırda məni gözləyən yoxdur ki?! - soruşdu.

- Xeyr, bircə qapıçıdır. Gözümə başqa adam dəymədi - Qeysərzadə cavab verdi. Və dəliqanlı zabitin qarşısında dayanan bivec əsgər kimi yazıq görkəm aldı.

- Bilirsən də, mən sabah obaşdan Bakıya çıxıram. Plenumdan sonra bəlkə bir-iki gün ləngiməli oldum. Nazirliklərdə bəzi işlərimiz var. Onu həll etməliyəm. Yoldaşları göndərirəm yarıtmırlar. Gedib orda-burda veyillənib, əliboş üstümə qayıdırlar. Özüm məşğul olmasam çətindir. Qayıdanda da geniş büro keçirəcəyik. Siz də, nə ki opelyasiya, qəbul işləri var, hamısını hazırlayın baxaq.

- Baş üstə, - Qeysərzadə dilləndi.

- Yaxşı, mənə başqa sözün-zadın...

Qeysərzadə udquna-udquna:

- Elə bir sözüm yoxdu, - dedi.

- Yaxşı-yaxşı fikirləş, bəlkə yadından çıxan...

Qeysərzadə ilə birinci katibin arası açıq idi. Və həmişə katib bu cür səfərlərə hazırlaşanda Qeysərzadə bilirdi ki, onu necə yola salmaq lazımdır. Başqaları kimi çoxa gücü çatmasa da, mindən, iki mindən verirdi. Lakin bu dəfə işini çiy tutmuşdu. Bəsirə ilə sözü dağ eləməmişdi. İndi katibə verməyə bir şeyi yox idi. Və xəcalətindən bilmirdi nə etsin. Ona görə də katibin axırıncı sualını cavabsız qoydu. Və onun sifətinə xəcalət

qızartısı çökdü. Bu qızartı onun ətli boyun-boğazına yayıldı. Birinci katibin baxışları birdən sərtləşdi və ona:

- Yaxşı! İşinlə məşğul ol! - dedi. - Bu son vaxtlar görürəm yaman arxayınlaşmısan! Qulağıma da başqa sözlər çatır! İndi yol üstəyəm! Bəzi şeyləri açıb-ağardıb sizin də, özümün də qanımızı qaraltmaq istəmirəm! Ancaq belə işləsən, xudahafizləşməli olacağam. Get, yaxşı-yaxşı fikirləş!

Qeysərzadənin dili-dodağı təpidi. Onun nitqi qurudu. Danışmağa söz də tapmadı. Kor-peşman kabinetdən çıxdı. Ürəyində özünü söydü: "Mənə deyən gərək, a köpəyoğlu, qız uşağının da çatısının üstünə odun yığarlar?! Sən sözü örtülü deyirsən, o bədbəxt qızı da nə başa düşsün?! Açıqca başa sal ki, min manat gətir! O da işini bilsin. Sən ona quş dili oxuyursan, o da birdən-ikiyə belə işlərə düşüb-çıxmamış qızdır. Gedib pul əvəzinə şirni gətirib. Nə bilsin ki, Qeysərzadənin könlündən nə keçir? Hardan ağlına gəlsin ki, birinci katibi yola salmaq üçün onun min manatına göz dikmişəm? İndi get, canın çıxsın, cəzandı çək! Görüm katibin bu hərbə-zorbasına necə tab gətirirsən! Bakıdan qayıdan kimi alığını alıb ötürər çölə. Onda ağlın gələr başına! Qeysərzadə, di get!". Qeysərzadə bu dəfə xam iş tutduğuna görə daxilində o ki var, öz-özünü söydü. Ancaq gec idi. Artıq iş-işdən keçmişdi. Qayıdanbaş katibi fikrindən döndərmək, onun xatasından qurtarmaq üçün cürbəcür yollar axtarırdı.

* * *

Quzey tərəfdən yemişan, həmərsin kolları, bir də ki, cır armud, alça, əzgil ağacları ilə örtülmüş alçaq dağlarla, güney tərəfdən isə çılpaq və yastı təpələrlə əhatə olunmuş rayon mərkəzinə qatı qaranlıq çökmüşdü. Gecənin sükutunu kiçik elektrik stansiyasının guppultusu, şəhəri ikiyə bölən dağ çayının

hay-harayı pozurdu. Həmin gecə nə Qeysərzadənin gözünə yuxu gedirdi, nə də ki, Bəsirənin. Birinci katib təpinəndən sonra Qeysərzadə özünə gələ bilmirdi. Bilmirdi ki, axşamkı xoşagəlməz söhbətdən sonra başına nə gələcək. Bəsirə isə Qeysərzadənin onun partiya işinə pəl vurub-vurmayacağının harayında idi. Bu gecə onların hər ikisinə zimistan olmuşdu. Birinci katibi isə dərd götürmüşdü ki, yuxarıdakılara veriləsi pul paketlərinin biri əskik oldu. Hansına çatmasa, ondan ağzını əyəcək. Ancaq bu dağlar, təpələr nə bu dərdi yaradanları lənətləyir, nə də ki, onu çəkənlərin halına acıyırdı. Bircə təmiz səmada sevinclə sayrışan ulduzlar onlara təsəlli verirmiş kimi göy qübbəsinə xoş təbəssüm yayırdı. Bu təbəssümdə isə yer övladlarına qarşı incə bir istehza sezilirdi. Elə bil qeybdən gələn bir səs, Allah-taalanın qaranlıq gecə, parlaq gündüz, min bir nemətli torpaq, möcüzəli dünya bəxş etdiyi naşükür insanların bir-birinə qənim kəsilməsinə yuxarıdan nifrət və töhtəm yağdırırdı. Göylərin bu sirli sədası, elə bil Nabat arvadın namaz üstdə dediyi hikmətli sözlərə, oxuduğu avaza qovuşurdu. Və qarğı komadan gözəgörünməzi öz yaratdıqlarını bəd əməllərdən hifz etməyə çağıran nidalar ucalırdı... Bəsirənin sözlərini dərd dolu ürəyinə salan Nabat arvadın gündə üç dəfə torpağa diz çöküb, tanrının dərgahına üz tutub, dua oxumaqdan başqa nicat yolu yox idi. Bəlkə də elə bu yeganə təsəllisiylə, qəm-qüssə yükünü yüngülləşdirir, neçə-neçə insanın narahat yatdığı gecədə, yalnız şər yuvasından uzaq olub, Allaha pənah gətirən o cür əməli-salehlər şirin yuxu tapırdılar.

* * *

Bu söz-söhbətin üstündən xeyli vaxt keçdi. Neçə bürolar çağrıldı. Bəsirədən sonra ərizə verənlər partbilet sahibi oldular. Onun məsələsindən isə xəbər-ətər çıxmadı. Elə bil bir daş bir

quyuya düşmüşdü. Bəsirə isə hələ də ümidini üzməmişdi. Odur ki, dərdini bir kimsəyə açmırdı. Amma ürəyinə dammışdı ki, bu iş pozulacaq. Evdə, idarədə hərdən xəlvətə salıb minkirlənirdi. Düşünürdü ki, partiyaya keçməsəm, mənim işim bitdi. Deməli, heç kəsə lazım deyiləm. Heç idarədə də saxlamazlar. Nabat, Bəsirənin xiffətdən əriyib günü-gündən geri getdiyini hiss edib, özü işə qarışmalı oldu. Qeysərzadənin xəstəxanada işləyən yaxın bir qohumunu onun üstünə minnətçi saldı. Nabat bu işdən ötrü Qeysərzadənin arvadına atadanqalma bir qulplu beşlik qızıl da boyun oldu. Nabat bu beşlik qızılı bəxtəvər vaxtlarında sinəsindən asardı. Cavanlığı gedəndən sonra qızıl beşliyi üzə çıxartmırdı. Əl boyda köhnə əskiyə büküb, sandığın dərin yerində gizlətmişdi. Deyirdi ki, "saxla samanı, gələr zamanı". Bu beşlik, əslində onun yaman günlüyüydü. Evdə bundan qiymətli mağduru yox idi. Gümanı bircə qulplu beşliyə gəlirdi. Onu da Bəsirənin partbiletinin yolunda qoydu. Axşamçağı beşlik qızılı ovcunun içində gətirib Qeysərzadənin xəstəxanada işləyən qohumuna verdi. Onu dönə-dönə qurana, kitaba and verib Qeysərzadənin yanına göndərdi. Yalvardı ki, "boşunu tutma, Qeysərzadənin ayrı pula-zada təmənnası olsa, qorxub-çəkinmə, özümdə olmasa da, dilənib-dolanıb düzəldərəm. İllaf o altımızdakı palazı sataram. Təki Bəsirə sınmasın. Atasız qızdır, maa qısılıb..."

Ancaq Nabatın bu axırıncı ümidi də boşa çıxdı. Qeysərzadə qohumuna demişdi ki, ikicə həftə qabaq gəlsəydi, bu məsələni birtəhər düzüb-qoşmaq olardı. Ancaq iş-işdən keçib. İlk təşkilatın Bəsirənin partiyaya keçməsi barədəki qərarı artıq geri qaytarılıb. Səbəb də o olub ki, Bəsirənin atasının müharibədə itkin düşməsi şübhəlidir. Bəlkə atası nemeslərə satılıb?! Bəlkə hələ də sağdır, bizə qarşı işləyir?! Bir sözlə, nə qədər ki, atasının

məsələsi öskürəklidi, onu partiya sıralarına yaxın buraxmaq olmaz.

Nabat Qeysərzadənin qohumugildən kor-peşman geri qayıtdı. O, yaxşı bilirdi ki, havayı söhbətdir, qurğu başqadır. Nabat evinə çatanacan özünü söydü: "Elə yaxşı deyiblər ki, musurmanın sonrakı ağlı. Mən boynu sınmış, gərək qızırğalanmayaydım, o beşlik qızılı əvvəlcədən verəydim. Onda iş çoxdan düzəlmişdi. Bütün bu nağıl-həkətin hamısı o min manatın başındadı. Əvvəlcədən düzəldib versəydik, nə ata yada düşərdi, nə də ki, dayı. Aləm şahiddir ki, Bəsirənin atasına Mozdok yaxınlığında güllə dəyib. Əsgər yoldaşları da özcə əlləriynən qəbrini qazıb basdırıblar. Noolsun ki, kağızı gəlməyib, adı itkin siyahısına düşüb. Yanında olanlar gözləriynən görüblər. Uzaqda deyil ha. Qeysərzadə işin düzələn tərəfinə getsəydi, şahidləri çağırıb soruşardı. Dədəm it olub ulasın ki, ona sərf eləsəydi, görənlərin dilindən çoxdan kağız almışdı. Onun qarnının dərdi ayrıdı".

Bəsirənin əli hər yerdən üzülmüşdü. Anası hərdən belə bir söz işlədərdi: "Qismətdən artıq yemək olmaz. Cəh çarıq yırtar". Bəsirə tay bu işin dalınca getmədi. Hər şeydən əlini üzüb, kirimişcə başını saldı aşağı. Hər səhər idarəyə gedir, işdən çıxandan sonra da düz evə qayıdıb Nabatla baş-başa verirdi.

İdarədəkilər bu məsələdən az-çox hali olsalar da dərinə gedib, məsələni ağartmaq istəmirdilər. Düşünürdülər ki, Bəsirənin ata məsələsini təzədən yada salıb, onun yarasının qaysağını qopartmağın mənası yoxdur. Olan-olub, keçən-keçib. Rəhmətliyin indi sümükləri də çürüyüb. Təzədən xalxın dərdini niyə təzələyək? İşçilər də inanmışdı ki, Bəsirənin partiya işi atasına görə pozulub. Hamı da bilirdi ki, ləkəli adamı partiya sıralarına qəbul etmək olmaz. Buna nə Qeysərzadə günahkardır, nə də ki, qeyriləri.

Bu deyilənlər bircə Əzizağa Aydınbəyovun qulağına batmırdı. O bilirdi ki, Qeysərzadə zatıqırıq adamdır. Bir işi düzəltmək üçün dədəsi qəbirdən dirilib gəlsə də xeyri yoxdur. Onunku puldur. Tüpür üzünə, təki pul ver. Bir-iki dəfə Əzizağanın Bəsirə ilə ayrılıqda ata-bala kimi söhbətləri olmuşdu. Bəsirə Qeysərzadə ilə olan söhbətlərini tam təfsilatı ilə açıb deməsə də, ağzından bir-iki söz qaçırtmışdı. Bu da Aydınbəyovun şübhəsini bir az da artırmışdı. Aydınbəyov da ki, arif adam idi. Dalağı sancmışdı ki, bu, ata məsələsi deyil. İşin içində başqa əmma var. Aydınbəyov da bu sirri öyrənmək üçün çox yerə əl atdı. Ancaq bir mətləb hasil eliyə bilmədi. Bir axşam Qeysərzadəni tovlayıb, şəhərin kənarına çıxartdı. Çay boyu xeyli gəzib-dolaşdılar. Körpünün qulağındakı pavilyonun yanından keçəndə Əzizağa ehmalca Qeysərzadənin qolundan yapışaraq:

- Çoxdan bəridi kabab yemirəm, - dedi. - Bəlkə bura dönək. Onsuz da iş vaxtı qurtarıb. Xəlvət otaqların birinə çəkilib özümüz üçün bala-bala vurarıq. Müvəqqəti dünyadır. Hərdənbir bu da lazımdır.

Qeysərzadə bir himə bənd imiş kimi bu təklifi vəcdlə qarşıladı. Və gülə-gülə:

- Bu gün xudmani yerlərdə yeyib-içməyin də bir başqa ləzzəti var, - dedi. - Əslində partiya işçilərinin pavilyona getməsi düz deyil. Çünki bunu da bir söz eləyirlər. Ancaq hərdənbir xəlvətə salıb gillətmək olar. - O, şalvarını yuxarı dartıb, qarnına güclə gələn üst köynəyinin açılan düymələrini bağladı və:

- Nə qədər çalışıram arıqlayam, mümkün eliyə bilmirəm. Əynimə paltar-zad gəlmir. Həkim də deyir yemək-içməyini azalt. Mən də söz verirəm. Ancaq özümlə bacarmıram. Elə ki, yemək-içmək məclisinə düşdüm, arıqlamaq-zad yaddan çıxır, - öz-özünə gileyləndi.

Pavilyonun işçiləri onların gəlişini eşidib, əl-ayağa düşdülər. Qonaqlar üçün xüsusi düzəldilmiş balaca otaqların birini açıb, Qeysərzadə ilə Aydınbəyovu içəri dəvət etdilər. Onlar ümumi zalda əyləşənlərin gözünə görünməmək üçün arxa tərəfdən hərlənib, oturmaq üçün yumşaq stulları, üstünə təmiz süfrə açılmış və bahalı qab-qacaq düzülmüş stolu, ipək pərdə çəkilmiş pəncərəsi olan təmiz və səliqəli otağa keçdilər. Sifariş qəbul etmək üçün pavilyon müdirinin şəxsən özü onların hüzurunda müntəzir dayandı. Qeysərzadə rəhbər partiya işçisinə xas olan əda ilə soruşdu:

- Yemək-içməyə nəyiniz var, ə?!

- Quş iliyi, ceyran südü, ürəyiniz nə istəsə, - müdir vəcdlə cavab verdi.

Qeysərzadə onun cavabından xoşhal olub gülümsədi və Əzizağaya tərəf dönərək:

- Qoçaq oğlandır, - dedi. - Beləsinə varam!

Bu söz pavilyon müdirini daha da açdı:

- İçməyə də ki, araq, konyak, çaxır, şampan, pivə, nə desəniz...

Pavilyon müdirinin bu cür açıq-saçıq danışması Qeysərzadəyə ləzzət elədi və:

- Təkcə araq! Araq! - dedi və əllərini ovuşduraraq - əsl kişi içkisi araqdır! - dedi.

Bir göz qırpımında stolun üstündə yemək, içmək hazır oldu... Yarım litr araq şüşəsinin biri boşalmışdı. İkincisinin dibində azmaz qalırdı. Qeysərzadə artıq hallanmışdı. Əzizağa isə hələhələ belə yerlərə gələn deyildi. Onu bu işə Bəsirənin məsələsi vadar eləmişdi. Yoxsa pavilyonda yemək-içmək harasına yaraşırdı? Məclis qurmağa nə həvəsi vardı, nə də ki, artıq pulu! İndinin özündə də yeyib-içməyə o qədər də meyli yox idi. Elə-

belə xala-xətrin qalmasın stolda qaraltı eləyirdi. Onun məqsədi başqaydı. Əzizağa Qeysərzadənin boş damarından tutaraq:

- Bura yeri olmasa da, Sizdən bir məsələni öyrənmək istəyirəm, - dedi. - Bu barədə hərə bir söz danışır. Mən onlara inanmıram, hər halda düzünü Siz bilirsiniz!

Qeysərzadə süfrədəki yumşaq kağız dəsmalın birini götürüb yağlaçov dodaqlarını silə-silə:

- Buyursunlar! Bilirsən ki, səni özümdən çox istəyirəm, mən ölüm!

- Onu bilirəm, amma bu kişi söhbəti olmalıdır. İkimizin də arasında qalmalıdır. - Əzizağa onu dilə tutdu.

Qeysərzadə güldü və sərxoş halda yerindən qalxıb valaylandı. Və özünü Əzizağanın üstünə atdı. Onu qucaqlayıb o üzündən-bu üzündən öpdü. Əzizağa daxili ikrahla üzünü silib, onu stulunda əyləşdirib birtəhər sakitləşdirdi. Sonra ona müraciətlə:

- Seyfəddin Bədəloviç! - dedi.

- Hay can! - Qeysərzadə huşunu itiribmiş kimi cavab verdi.

- Canım bibəla, mən ölüm, de görüm o mətbəədə işləyən qızın, özün tanıyırsan də, Bəsirənin partiya işini kim vurdu? - Əzizağa girəvəyə salıb ustalıqla soruşdu.

Qeysərzadə bir stəkan badamlı suyu içib çeçədi və əlini sinəsinə vuraraq:

- Mən! - dedi, - bu lələşin!

- Burda kənar adam yoxdu, özümüzük, kişi kimi düzünü de, nə səbəb qoydun?!

- Hi... hi... səbəb? Səbəbi çoxdur. - Qeysərzadə bic-bic güldü.

- Məsələn?

- Məsələsi odur ki, Sizin o Bəsirə dediyiniz qız... amma onu da deyim ki, babat şeydir haa! Keçməli deyil! Hi... hi...

- Atasız qız barədə bu cür danışmaq Sizə yaraşmır, - Əzizağanın baxışları sərtləşdi.

- Yoox! Zarafat eləyirəm, canım!!! Bunu elə-belə, sözgəlişi deyirdim. Gərək Siz mənim zarafatımdan inciməyəsiniz. Bəsirə yetim olsa da, əmlik quzu kimidir. Adam onu çiy-çiy yemək istəyir. O cür totuq-motuq qızdan kim keçər?!

Əzizağanın əlləri əsdi. İstədi ayağa qalxıb bu qələtə görə ona bir-iki tərs sillə ilişdirsin. Amma özünü güclə saxladı. Fikirləşdi ki, kefli adamdı, qoy itilsin cəhənnəmə, vurub xataya düşərəm. Ondan sonra di gəl məhkəmədə cavab ver ki, partiya işçisinə niyə əl qaldırmısan?

Qeysərzadə özgə aləmdə idi. O, içki havasına ağzına gələni çərənləyirdi:

- Şəhərdəki qızlar sizin mətbəə ceyranının əlinə su tökməyə layiq deyil! Bəli! Bəli! Sanatoriyalarda da çox görmüşəm! Qaş-gözlərinə nə qədər yaxsalar da, bir köpüyə dəyməzlər! Sizin o Bəsirə isə... Bunu başqa mənada demirəm... Üz-gözünə heç nə vurmur, ancaq yanaqları çiyələk kimidir. Birdən ağlınıza pis şey gələr ha?! Yoox, yoox! Öz aramızda danışırıq də! Burda ikimizdən başqa kim var?! Onsuz da biz kişilərin adətidir. Gözəl-göyçək qadınları görəndə əldən-ayaqdan gedirik. Əlimizə bir şey çatmayanda da qeybətlərini qırırıq. Bunu elə-belə, sözgəlişi deyirəm. Bir də ki, Bəsirənin o cür sakit gəzməsinə baxma. O da ayılıb, gözü onda-bundadır. E... e... Sən bilmirsən bu qadınlar nədir?! Sizin o mürəttib qızın əyin-başı tökülüb gedir. Yəqin ki, kasıbçılıqdandır. Əgər onu yaxşı-yaxşı geyindirən olsa, dünya maralıdır! Qeysərzadə çiyinlərini qaldıraraq:

- Ancaq nəyimə lazımdır! Allah sahibinə qismət eləsin! Mənim öz adamuşqam var! Düzdü, gözəllikdə Bəsirəyə çatmaz, ancaq o da pis şey deyil. Bircə orası var ki, ərlidir. İki uşağı da var. Biri mənə oxşuyur... Elə bil burnumun ucundan düşüb...

Mənim Bəsirəynən nə işim var! O hara, mən hara! İndicə Siz onu mənim yadıma saldınız! Mən də olanı deyirəm! Gözəgəlimli qızdı. Boyu, buxunu, ağzı, gözü, hamısı öz yerindədir. Elə bil mahir bir rəssamın əlindən çıxıb. Allah hamını gözəl yaratmır ki?! Ancaq bəri başdan deyirəm! Onunku həyatda çətin olacaq! Çünki Allah-taala onu qəşəng yaradıb. Hamı onunla maraqlanacaq! Bəli, bəli, gözəllik namusun qənimidir. Ağıllı kişilər belələri ilə həyat qurmurlar! Gözəllərdən qaçırlar! Bir də ki, mənim nəyimə gərəkdir? Bəsirə məndən çox xırdadır! Tayım-tuşum olsaydı və ya bir yerdə işləsəydik - başqa məsələ. Ona qarmaq atardım! Ancaq səndən keçmirəm! Çünki namuslu adamsan. Bilirəm ki, belə söhbətlərdən xoşlanmırsan! İndi dillənmirsən, amma gözlərinin içindən oxuyuram... Bu saat dişin bağırsağını kəsir! Başımı bədənimdən üzməyə hazırsan! Amma susmusan!.. Səsini çıxartmırsan!.. Ürəyində deyirsən ki, qoy bu partkomissiyanın sədri, büronun üzvü Seyfəddin Bədəloviç Qeysərzadə qarşımda meymunluq eləsin! Mən də içimdə ona gülüm, ləzzət alım! Baax, bu kişilikdən deyil! Namərdlikdir! Amma sən kişilikdən danışırsan! Deyirsən gəl burda kişi kimi danışaq...

Əzizağa içəridən kəsilirdi. Əlacı olsaydı, lopasıynan onun üzünə tüpürərdi. Ancaq özünü o yerə qoymadı və Qeysərzadənin sözünü birtəhər kəsərək:

- Yaxşı, bunları bildik. Siz hamısını düz deyirsiz. Ancaq mənim sualım qaldı kənarda, siz başqa yerə gedib çıxdınız, - dedi.

Qeysərzadə müsahibinə tərəf əyilib hədəqədən çıxmış gözlərini düz onun üzünə zillədi və:

- Siz məndən nə soruşdunuz?!

- Bilmək istəyirəm ki, bayaqdan bəri haqqında danışdığınız qızın partiya işi niyə pozuldu?!

- O qızın, Bəsirənin?!

- Bəli.

- Bayaqdan belə de də! - Qeysərzadə özünü bir balaca ələ aldı və:

- Düzünü bilmək istəyirsinizsə, - dedi, sizin Bəsirə bizim partiyanın nizamnaməsini yaxşı öyrənməyib, aydındır?! Siz Əzizağa Aydınbəyov da ona yaxşı dərs verməmisiz!

- Nə danışırsınız? Bəsirə nizamnaməni də, məramnaməni də əzbər bilir. - Əzizağa onun dediyilə razılaşmadı.

Qeysərzadə qəddini düzəldib qəşş etdi:

- Fikrinizə şərikəm! Bəsirə nizamnamədə yazılanları əzbərləyib! Lap tutuquşu kimi! Ancaq gərək nizamnamədə yazılmayanları da öyrənəydi, - dedi. Və çənəsini Əzizağaya doğ-ru uzadaraq:

- Biri var yazılı qanun, biri də var heç yerdə yazılmamış qanunlar! Həyatda ən çox o kəslər uğur tapır ki, onlar yazılmamış qanunları daha gözəl bilirlər. Yazılan qanunların ucundan tutub gedənləri isə həyat sıxır, əzişdirir, zəlil eləyir... Hi... hi... İndi anladın nə demək istəyirəm?! Yol-daş mət-bəə mü-di-ri! Sənin o maraqlandığın Bəsirə partiyaçı olmaq istəyir! Ancaq "şirinliklə" "şirni"nin mənasını ayırd eliyə bilmir. Beləsindən kommunist olar?! Qətiyyən yox! Şirinlik ayrı şeydir, şirni ayrı! Bax, bu, elə əsas partiya işidir! Kommunistin siyasəti olmalıdır! O, quzu bala, sizin Bəsirəcik isə siyasətdən kasıbdır! Bu barədə çox korafəhimdir... Hi... hi... hələ çox xamdır! Onu əməlli-başlı öyrətmək lazımdır. Qoy nizamnaməmizin yazılmamış qanunlarından da az-çox baş çıxartsın. Ona həyatda lazım olar.

Qeysərzadə birdən diksinib yuxudan ayılan kimi oldu. Stulunda şax dayandı. Üz-gözünü ovuşdurdu. Nə isə susdu. Və özünü ələ almağa çalışaraq:

- Yox! Yox! Zarafat eliyirəm! Elə bilərsən ürəkdən deyirəm?! Xeyr! Xeyr! Sizi həm şənləndirmək, həm də əsəbiləşdirmək istəyirəm. Bu da bir zarafatdı! Bəsirənin partiya işi, düzünü bilmək istəyirsizsə, atasına görə pozulub. Hə, hə, atasına görə. Onun məsələsi müəmmalıdır, çox şübhə doğurur, gərək aydınlaşdıraq. - Bayaqdan bəri dediklərindən peşman olubmuş kimi sözünü dəyişmək istədi. Birdən duruxdu, ciblərini qurdalayıb alışqan çıxartdı və bir siqaret yandırdı. Siqaretin tüstüsünü yanıqlı-yanıqlı bir-iki dəfə sümürüb, sonra əsəbi halda kənara tulladı. Süzgün gözləri yarımçıq qalmış araq şüşəsinə sataşanda qarşısındakı boş qədəhi götürüb Əzizağaya:

- Keçib, birini də süz, - dedi. - Axıracan vurmasaq, bu dünyanın işləri düzələn deyil! Nə yaxşı ki, bu zəm-zəm suyu da var! İçəndə başımız dumanlanır! Keyfimiz durulur! Dünyanın qeyli-qalından xilas oluruq!

Qeysərzadə qədəhi başına çəkib, cərrah bıçağına tablaşmayan xəstə kimi sir-sifətini qırışdırdı, süfrədən bir tikə çörək götürüb burnuna tutdu və qoxladı:

- Zəhrimara qalmış çox tünddü! Adamı barıt kimi odduyur! Yəqin spirti çoxdur! Əldəqayırma arağa oxşuyur! İndikilər o qədər bicləşiblər ki, zavodda istehsal olunanla, əldə düzəldiləni ayırd etmək olmur, - öz-özünə deyindi. Əyləşdiyi stulun arxasına söykənib, sərxoş vəziyyətdə yana sallanan saçlarını başının daz yerinə aşırdı. Və dili topuq vura-vura soruşdu:

- Neçə yaşım olar?

- Otuz, otuz beş, bəlkə də çox, - Əzizağa cavab verdi.

- Bəs Sizin? - bu dəfə Qeysərzadə onun yaşını soruşdu.

- Mənim ki də əlliyə yaxındır. Ahıllığın astanasındayam, - Əzizağa ona yarızarafat cavab verdi.

Qeysərzadə qeyri-müəyyən gülümsündü:

- Ağıl yaşda deyil, başdadır! - dedi. - Sizin başınız o qədər də

yaxşı işləmir. Özünüzü nahaq yerə bilici hesab etməyin. Mənim birinci katibim sizin kimi, sizin o redaktorunuz Nazim İlham kimi axmaq, başıboş adam deyil. Bilir ki, partiyaya keçirmək üçün hər ay neçə nəfər şəxsin işini qəbul edirəm. Və bundan nə qədər gəlirim olur. Gərək qazandığımdan ona da dadızdırım. Yoxsa məni iti məsciddən qovan kimi qovar. Bəli, bəli. Tək mənə yox, hamıya nırx qoyub! Kim vaxtlı-vaxtında verməsə, vay onun halına! Siz bilirsiz ki, birinci katiblik nədir?! Hi... hi... Birdən bunun mənasını bilmək üçün səfehlik eləyib gedib lüğət kitablarını varaqlayarsız haa! Qətiyyən lazım deyil! Özünüzü nahaq yerə əziyyətə salmayın! Lüğətdə belə şeylər yoxdur. Amma yazılmayan qanunlar da var. Düzünü bilmək istəyirsinizsə, bizim ölkəmiz yazılmayan qanunlarla idarə olunur. Birinci katib olmaq - özünü hamıdan ağıllı tutmaq, həkimə iynə vurmağı, müəllimə dərs deməyi, rəssama şəkil çəkməyi, aqronoma əkinçiliyi, mühəndisə ev tikməyi öyrətmək, hamının başına ağıl qoymaq, adamların cibinə girmək, təhqir etmək, özündən yekələrə yaltaqlanmaq, aşağıdakıları əzişdirmək, eyş-işrət, var-dövlət, arvad-uşağını hamıdan yaxşı yedizdirib-geyindirmək... deməkdir. Amma partiyamızın proqramında yazılanlar isə... canım, boş şeydir! Onlara kimdi baxan?! Yazılı qanunlar heç yerdə işləmir! Ona inanıb uyanlar isə yalnız yelbeyin təlxəklərdir... Məsələn, sizin o Nazim İlham kimi! Qanunların quyruğundan ikiəlli yapışıb! Onun yazdıqlarını axı kimdi danzına alan?! Heç kim! Axı, bir mənə de görüm, qəzet nədir? Avam adamlardan başqa onu kim oxuyur? Kim qiymətləndirir? İşiniz-peşəniz kağız korlamaqdır! Rayonda dükançı qədər hörmətiniz yoxdur! Bizim birinci katib ticarətçiləri, bax, elə tütün və ya meyvə qəbulu məntəqəsinin müdirlərini görəndə üzü gülür, qaş-qabağı açılır, çiçəyi çırtlayır. Nazim İlhamla, lap elə götürək başqa-başqa qəzet işçiləri ilə

rastlaşanda zəhər tuluğuna dönür. Elə bil anasının oynaşını görür. Siz qəzetçilərə mənim yazığım gəlir! Sizinki quru fəhləlikdi. Səhərdən axşamacan gözlərinizi qıyıb, iynəynən gor qazırsınız. Zəhmətiniz çox, hörmətiniz yox! Budu deyirəm, gedin özünüzə peşə tapın. Onun-bunun əl-ayağına dolaşmayın! Əgər düzünü bilmək istəyirsinizsə, raykom katiblərinin, idarə müdirlərinin, rəislərin, direktorların sizdən zəndeyi-zəhləsi gedir. Onlar sizə dəvə nalbəndə baxan kimi baxırlar...

Qeysərzadə danışdıqca qızışırdı. Əzizağa qarşısındakı sərxoş adamın dediklərində müəyyən həqiqətlərin olduğunu nəzərə alıb onun sözünü kəsmək istəmirdi. Qeysərzadə birdən ayağa qalxıb divardan yapışa-yapışa qapını açdı. Pavilyonun dəhlizinə çıxıb, aftafa istədi... Bir neçə dəqiqədən sonra səntirləyə-səntirləyə qayıdıb yenə əvvəlki yerində əyləşdi və dörd bir tərəfinə nəzər saldı. Sonra da xumarlanmış gözlərini Aydınbəyovun batıq ovurduna zillədi:

- Deyəsən sarsaqladım axı, - hi... hi... - güldü və - sən özün də əclaf adamsan, - dedi. Məni o ki var içirtdin! İlahi, gör nələr danışdım! Axı, mən büro üzvüyəm! Günah özümdədi! Siz mənim tayım-tuşum deyilsiniz! Qeysərzadə rayonda beş adamın biridir! Siz isə mətbəə siçanı kimi səhərdən-axşamacan qara kraska udursunuz. Qəzetçilərin günü-dirliyi yoxdur, ölün, canınız çıxsın!..

Qeysərzadənin gözləri aşdı. Yıxılmaq istəyəndə Əzizağa Aydınbəyov tez yerindən sıçrayıb onun qolundan yapışdı. Qeysərzadə artıq özünü-sözünü bilmirdi. Onu birtəhər sürüyüb pavilyon müdirinin maşınına uzatdılar və evlərinə yola saldılar...

* * *

Nazim İlham bayaqdan bəri əlini çənəsinə verib gözlərini qırpmadan Əzizağanı dinləyirdi. Mətbəə müdirini dinlədikcə,

Nazim İlham öz ləyaqət dünyasında üfunətli bir çirkabla üzləşir, bütün varlığı ilə dəhşətə gəlirdi. İndi-indi ona çatırdı ki, mətbəə işçilərinin Bəsirəyə zarafatyana dedikləri - "nizamnaməni öyrənməmisən, şirinlik və şirni kəlmələrini qarışdırırsan" - sözlərini hansı mənada deyirlər. Nazim İlham biləndə ki, Bəsirənin partiya işi atasının məsələsinə görə deyil, beş-on manatın üstündədi, elə bil gözlərində məşum bir qəzəb alovlandı. Başını ağır-ağır qaldırıb ürək ağrısı ilə danışan mətbəə müdirinin üzünə güclə baxdı. Mətbəə müdiri redaktorun hiddətləndiyini başa düşüb ayağa qalxdı:

- Gedə bilərəm? - Nazim İlhama müraciət etdi.

Nazim İlham başını tərpətdi və:

- Buyurun, - dedi.

Əzizağa dediklərinə peşman olubmuş kimi suçlu addımlarla redaktorun kabinetindən çıxdı.

* * *

- Çətin dövrdə yaşayırıq - Nazim İlham düşündü. - Ağzına çullu dovşan yerləşməyən bığıburma kişilər istədiyini yeyib, geyinə bilməyən arxasız qızdan pay umurlar... Yaxşı deyiblər ki, tamarzıdan kəs, dadanana ver - kədərli ah çəkdi. Nazim İlham hələ də stolunun arxasında quruyub qalmışdı. Fikri çözələnib onu keçmiş günlərə apardı. Müharibə illərində başına gələn bir hadisəni xatırladı...

Onda hələ çox cavan idi, təzəcə doqquzuncu sinfə keçmişdi. Vətən müharibəsinin qanlı-qadalı illəri idi. Dünya od tutub yanırdı. Gündə birinin vay xəbəri gəlirdi. Elə ki qaranlıq çökürdü, kəndi yanıqlı ağı səsləi bürüyürdü. Nazim İlham cəbhəyə bir cüt oğul yola salmış əmisi arvadı Fatmanın ah-naləsini eşidəndə tükləri biz-biz olurdu:

Axşamlar, ay axşamlar!
Şam yanar, ay axşamlar.
Ana! Yerli yerinə gedər,
Yersiz harda axşamlar?!

Oruc-namazından qalmayan Fatma nənə ağır niskilini yanıqlı ağılarında car çəkir, gecənin qəmli sükutunu daha da ağırlaşdırırdı. Nazim İlham Fatma nənənin ağısını dinlədikcə, arabir özü də doluxsunub xısın-xısın ağlayırdı. Fatma nənə Nazimin kövrəldiyini hiss eliyən kimi, kiriyib bir az toxtayır və gözünün yaşını silə-silə:

- Sən ağlama, a bala, - deyirdi, - maa baxma, sən uşaqsan. Hələ dərd çəkən vaxtın deyil. Əhlimanla Şirzad hərdən yadıma düşəndə özümü saxlaya bilmirəm. Saa noolub?! Qaç, get tay-tuşlarınla oyna, dərslərini oxu, Allah kərim Allahdır, nə bilmək olur, bəlkə sağ-salamat qayıdıb gəldilər. Bircə o yuxarıdakı kişidən ipləri üzülməsin.

Nazim ana üzü görməmişdi. Anası Firəngiz cavanəzən vaxtında dünyasını dəyişmişdi. Özü də Allah adamıydı. Bir gün də olsun oruc-namazını keçirməzdi. Onda şura hökumətinin təzə qurulan vaxtlarıydı. Ara-bərədə söz gəzirdi ki, kolxozluq olacaq. Qadınla kişiyə fərq qoyulmayacaq. Hamı bir yerdə işləyib, bir yerdə yeyəcək. Bu kolxozluq sözünü eşidəndən bəri Firəngizi dərd götürmüşdü. Hər dəfə namaz qılanda üzünü göydəkinə tutub deyirdi:

- Görəcəkli günlərimiz varmış, ilahi! Bu kolxozluq nəydi bizə ürcah elədin?! O günü bizə göstərmə! Ondansa, ucuz bir ölüm yaxşıdır. Abır-həyamızı əlimizdən alınca, elə əvvəlcə canımızı al, kolxozluğu görmüyüm!

Elə bil Allah-taala Firəngizin sözünü eşitdi. Nazim təzə-təzə ayaq tutub yeriyirdi ki, Firəngizə qəfil əcəl gəldi, əhdi yerini

aldı... O günü görmədi. Nazim əmisi arvadı Fatmanın ümidinə qaldı. Fatmanın əri Əmralı da ki, bir Əmralıydı! Asqıranda dam-dam torpaq tökülərdi. İgidlikdə kəndin yarısına bərabər idi. Adı kitablara düşmüşdü. Özündən də xırda bircə qardaşı var idi, Allahverən adlı. Əmralı Allahverəni dünya qədər çox istəyirdi. Hərdənbir söz düşəndə deyirdi ki, oğul beldəndi, arvad eldən, qardaş ələ düşməz. Bacıları Əmralını ağlayanda deyirdilər ki, ərşin addımlı, gümbəz oturuşlu, Koroğlu qışqırıqlı qardaşım var!.. Əmralı erməni-müsəlman davasında gavur gülləsinə tuş olmuşdu. Öləndən sonra arvadı Fatma, Əhliman, Şirzad adlı iki oğlu kiçik qardaşı Allahverənin ümidinə qaldı. Yan-yörədən Allahverənə çox deyənlər oldu ki, səndən bir-iki yaş böyük olmasına baxma, evinə yad gətirincə, elə Fatmanıca al, qurtarsın getsin. Əmralının arvad-uşağını çölə töksən, heç kəs bu işə yaxşı deməz. Yığ qanadının altına dolandır. Onda Əmralının da ruhu şad olar... Allahverən də bu cür danışanların ağzına vurub demişdi ki, iki dünya bir olsa, Əmralının yastığına baş qoymaram. Fatma böyük bacımdı, Əhlimanla Şirzad da balalarım. Ömrümün axırınacan, onları sağ çiynim ağrısa sol çiynimdə, sol çiynim ağrısa, sağ çiynimdə saxlamağa borcluyam. Heç vaxt onları özümdən ayırıb, iki yerdə qazan asdırmaram. Nəyimiz var, bir damın altında olmalıdır.

O gündən Allahverən qardaşının balalarına atalıq elədi... Fatma da Allahverənin bir südəmər qızıynan, təzəcə yeriyib-yüyürən Nazimə ana oldu. Nazim höyrünü Fatmaya salmışdı. Bircə gün onsuz yata bilmirdi. Fatma Məhəmməd Peyğəmbərin qoyduğu yolları Nazimə elə xırdalığından öyrətmişdi. Odur ki, Nazim yalan nə olduğunu bilməzdi. Ağlı kəsəndən əlləm-qəlləm işlərdən gen qaçırdı. Oxuyub məktəbi qurtarması öz yerində, ata-babasının öyüd-nəsihətini hamısından üstün tuturdu. Ona dərindən bələd olan tay-tuşları Nazimə deyirdilər

ki, sən yalan danışmağı bacarmırsan. Çünki olan şeyə - yox - deyəndə, o saat qızarırsan. Nazim bir qəbahət işlədəndə ona elə gəlirdi ki, Fatma nənəsi bunu duyub narazı qalır, həm də anası Firəngizin ruhu inciyir. Nazim bu zəmanəyə heç cürə uyuşa bilmirdi. Bir səhv iş tutanda, onu heç özü də özünə bağışlamırdı. Ağa ağ deyirdi, qaraya da qara. Tay sonrasını fikirləşmirdi ki, bundan ona xeyir dəyir, yoxsa ziyan. Nazimin xəmiri əvvəlcədən necə yoğurulmuşdusa, axıracan elə gedirdi.

Fatma nənə bir axşamçağı bulaqdan qayıdanda, kürəyindəki dolu mis səhəngi yerə qoyub, nəfəsini dərdi. Və sonra Nazimi qırağa çəkib:

- Bulağın şırıltısı, arvadların səs-küyü qoymadı yaxşı eşidəm, - dedi. - Amma deyəsən səhər obaşdan rayona gedən var. Qulağım çaldı ki, biri o Mənzər müəllimədi, biri kolxozun pulunu alıb-paylayan Qaraşdı, biri də o məktəbdə zavxoz işləyənin adı nədir? Xıdıralı! Sən də qələm-kağız gətir, iki məktub yaz. Birini Şirzada, birini də Əhlimana. Səhər də onlara qoşul get rayona. Məktubları da sal poçta, görək nə cavab gəlir. Axırıncı məktublarında yazmışdılar ki, ana, yerimizi dəyişsələr, ayrı cəbhəyə aparsalar, xəbər verərik. İndi, ay Nazim, başına dönüm, yerləri dəyişilsə də, dəyişilməsə də gərək xəbər çıxeydi. Dilim qurusun, başlarına ayrı bir qəza-qədər gəlsəydi, hökumət özü qara kağız göndərmişdi. İndi, ay oğul, çoxdan ara kəsilib. Nə onların özündən xəbər var, nə də ki, hökumətdən bir səs çıxır. Bəlkə başları davaya qarışıb, məktub yazmağa macal tapmırlar? Deyirəm olar, dayna. İndi durma, gətir Şirzada da, Əhlimana da, hərəsinə birini yaz, görək nə çıxır.

Nazim kağız-qələm gətirib, dəhlizdəki taxta çarpayının qabağında qoyulmuş yemək-içmək stolunun arxasına keçdi. Fatma nənə ona söykək oturub, nurdan düşmüş gözlərini Nazimin qarşısındakı kağıza zillədi:

- Sən əvvəlcə başlığı qoy, - dedi. - Sonrasını da mən deyim, yaz.

Nazim məktubun başına "Həsrətli məktub" sözünü yazıb, nənəsinə tərəf döndü:

- Di de görüm, nə deyirsən?!

- Deməyim odur ki, hal-xoşdan sonra yaz ki, ay oğul, kəndə poçtalyon gələndə tökülüb gedirik qabağına. Hamıdan məktub çıxır, bircə sizdən başqa. Bəs mənim başıma niyə bu müsibəti açırsınız?! Məktubunuz olmayanda, gedib, o dünyanı görüb - qayıdıram. Bir də yaz ki, mən heç, öyrənmiş canam, ağlayıb ürəyimi boşaldıram, heç olmasa, əminizə yazığınız gəlsin. Sizdən ötrü Allahverənin beli bükülüb. Səhər kolxozun işinə gedir, axşam da qayıdır. Hər dəfə də evə qayıdanda birinci sizi soruşur. Soruşur ki, Fatma, uşaqlardan nə xəbər var, məktubları gəlməyib ki?!

Nazim hərdən qələmi saxlayıb matdım-matdım Fatma nənəsinin üzünə baxırdı. Onda da Fatma nənə Nazimin üstünə bozarırdı:

- Üzümə nə baxırsan, oğul, bəyəm məni təzə görürsən?! Yaz dayna! Ağzından nə çıxır, hamısını yaz!

Nazim bilirdi ki, məktuba hər şeyi yazmaq olmaz. Ona görə də hərdən dayanıb Fatma nənəsinə diqqətlə qulaq asır, onun dediklərinin lazımlısını qələmə alırdı. Ancaq nə yazdığını Fatma nənəsinə bildirmirdi. Çünki Fatma nənəsi bilsə ki, Nazim onun dediklərinin hamısını yazmır, xətrinə dəyərdi. Fatma Əmralı kimi nəri itirmişdi. İndi də cəbhəyə bir cüt tərlan kimi oğul yola salmışdı. Ürəyi yaralıydı. Nazim onun qəlbinə toxunmaqdan ehtiyat edirdi. Fatma nə desə, Nazim - baş üstə - cavabı verirdi. İndiki məktub məsələsində də Fatmanın sinəsi doluydu. Ancaq Nazim onun dediyi bəzi sözlərin üstündən ötürdü, yazmırdı.

Fatma ortada duruxdu və sonra əlini Nazimin çiyninə toxundurub:

- Hə! Hə! - dedi. - Yaxşı yadıma düşdü. Onu da yaz ki, oğul, aclıq bir il gedər, töhmət min il. Ağlınızı başınıza top eliyin haa! Özünüzü qəməndirlərin, əsgərlərin yanında elə aparın ki, sizə - bəh, bəh! - desinlər. Görənlər desin ki, belə oğul əkib-doğan ata-analara halal olsun. Babalı deyənlərin boynuna. Kənddə söz gəzir ki, uzun Həsənin oğlu əsgərlikdə sabın yeyib. Kərəmalının oğlu da tütün suyu içib özlərini qəsdən xəstələndiriblər ki, həkimlər onları neqodnı eləyib buraxsınlar. Bir söz də danışırlar ki, bizim qapıbir qonşumuzun oğlu müharibədə özü öz əlini gülləynən vurub. Qospitalda da onun üç barmağını kəsib, müharibədən qaytarıblar. İndi adı invalid olsa da, kənddə hamı ona şübhəynən baxır. Bax, oğul, heylə işlərə qol qoysanız, südüm sizə haram olsun. Dədəniz Əmralıdan artıq deyilsiniz ha! Adam öləndə də mərd ölər. Elə iş tutun ki, Əmralının adına layiq olsun, dədazın adın batırmıyın.

Nazim eyni məzmunda iki məktub yazdı. Birini Şirzada, o birini də Əhlimana. Sonra da ağ kağızlardan səliqə ilə üçbucaq düzəldib məktubları qoydu içinə. Paketlərin üstünü də dili yaşlayıb, rəngli karandaşla adreslərini yazdı: Polevaya poçtovaya...

Fatma nənə üstəlik onu da dedi ki, məktubu bərk yerə qoy ki, itirməyəsən. Nazim də nənəsinin sözünə baxıb məktubları qoltuq cibinə qoydu. Fatma nənə arxayın olmaq üçün yaxasındakı sancağın birini açıb, Nazimin məktub qoyduğu qoltuq cibinin ağzına vurdu.

Allahverənin Nazimdən başqa oğul züryəti yox idi. Sonra aldığından da uşaq olmurdu. Gözünün ağı-qarası bircə Nazim idi. Onun üstündə əsim-əsim əsirdi. Ona görə də Nazimin səhər rayona getməsi onun o qədər də ürəyincə deyildi. Fikirləşirdi ki,

qaçaq-quldur əlindən tərpənmək olmur. Yolda başına bir iş-zad gələr. Elə ondansa məktubları rayona gedənlərin birinə vermək hamısından yaxşı olardı. Amma Allahverən bunu ürəyindən keçirsə də, o barədə evin ağbirçəyinə söz deyə bilmirdi. Bilirdi ki, Fatma Nazimi Allahverəndən də çox istəyir. Fatmanın gözündə Şirzadla Əhliman bir tərəfə idi, Nazim bir tərəfə. Fatma da istərdi ki, məktubu rayona gedənlərlə göndərsin, Nazimi dağa-daşa salmasın. Ancaq orası vardı ki, Fatma məktubları heç kimə etibar eləmirdi.

O gecə ilan vuran yatdı, Fatma yatmadı. Elə fikirləşirdi ki, Nazim necə gedib-gələcək? Məktubları necə yola salacaq?! Səhər tezdən yuxudan qalxıb dəstəmazını aldı, sübh namazını qıldı, Allaha dua elədi. Sonra da Nazimi yuxudan durğuzdu. Nazim taxta çarpayısından qalxıb, yuxulu gözlərini ova-ova:

- Nənə, bir çay ver, tez içim, gedim, birdən gecikərəm. Onlar gedər, mən qalaram.

- Bu saat, qadan ürəyimə, bu saat - Fatma nənə ona tez çay-çörək hazırladı. Sonra da Nazimi bağrına basıb dönə-dönə tapşırdı:

- Oğul, Nazim, məktubları özün öz əlinlə o dəmir qutuya salarsan haa... Bacarsan məktubları pullu elə ki, tez gedib çatsın. Dəstədən də ayrılma, özlərinə tapşırmışam. Kəndin ayağında üçü də səni gözlüyür. Bir də ki, körpüdən keçsəniz, heç, çaydan addasanız, ehtiyatı əldən qoyma, elə et ki, məktublar islanmasın.

Nazim yolağadan çıxanda Fatma onun arxasınca:

- Yaxşı yol, bala! Sağ-salamat get, qayıt, - deyib, - nə bilim, o tərəflərdə rastına çıxan olsa, soraqla, gör bizimkiləri görüb-eliyən olmuyub ki? - əlavə etdi.

Rayon mərkəzinə gedən yol kəndin qabağındakı quru çaylağın içindən keçib dərin dağ çayına dirənir. Yuxarıdakı daş körpüdən addamaq üçün, gərək sağa burulub yarım saatlıq yol

gedəsən. Yolunu kəsə eləmək istəyən, soyunub çayın nisbətən dayaz olan keçlatından addamalıdır. Piyada rayona dörd saata çatmaq olar. Amma atın ayağının altında nədi ki, heç nə. İkicə qamçı vur, bir saata şəhərdəsən. Maşınla bu yolu bir göz qırpımında getmək olar. O da ki, hər adama qismət deyil. Nə Mənzər müəllimə, nə Qaraş, nə də ki, Xıdıralı ömürlərində bu yolu maşınla getməmişdilər. Nazim də onlar kimi. Kənddə atı, qatırı olana bəxtəvərçilik verirdilər. Bu dəfə rayon mərkəzinə gedənlərin bəxti onda gətirmişdi ki, Xıdıralı qara qatırını götürmüşdü. Kənddə hamının gözü qara qatırdaydı. İki atın yükünü vur belinə, özün də otur üstündə, vecinə deyildi. Amma çərdəymişin bircə pis xasiyyəti oydu ki, tərs idi. Elə ki dəliliyi tutdu, üzünü görmə. Nə irəli gedirdi, nə də geri. Onda da hirs vururdu Xıdıralının təpəsinə. Tubulğa çubuğunu götürüb düşürdü qara qatırın üstünə. Nə yemisən, turşulu aş. Vur ki, vurasan. Onda da qara qatır dartınıb noxtasını Xıdıralının əlindən çıxardırdı. Qoşa şallağa qalxıb üz qoyurdu kəndin yuxarı tərəfindəki Böyük düzə tərəf. İndi oğul ona deyərəm qara qatırın qaçarağına çatsın! Xıdıralı arvad-uşağıynan çöllərə düşüb, bir müsibətinən qara qatırı aralığa alıb nə zillətlə gətirirdilər. Bu gün qara qatır Xıdıralının altında quzu kimi gedirdi. Çaya çatanda Xıdıralı əvvəlcə Mənzəri, sonra Nazimi, axırda da Qaraşı bir-bir tərkinə alıb çaydan addatdı.

Mənzər nərmənazik gəlin idi. Hörükləri dal gərdəninə sallanırdı. Mülayim danışığı, məsum baxışları vardı. Dinəndə ağzından dürr tökülürdü. Dilinə bir kəlmə də artıq-əskik söz gətirməzdi. İki qardaşın bir bacısıydı. Qardaşlarının ikisi də cəbhəyə gedib-qayıtmamışdı. Qoca atası da oğlanlarının dərdinə tab gətirmədiyindən dünyadan bivədə köçmüşdü. Anası da o qədər ağlayıb-sıtqamışdı ki, gözlərinə gül gəlmişdi. Yaxşı görə bilmirdi. Damın altında bir Mənzər idi, bir də mayıf anası.

Kənddəki orta məktəbi bitirəndən sonra tay-tuşlarının hərəsi bir tərəfə gedib, ali məktəbə girmişdilər. Mənzər isə bağlanmışdı ev-eşiyə. Anasını tək-tənha qoyub bir yana çıxa bilmirdi. Müharibə dövrü məktəblərdə müəllim çatışmadığından Mənzərə aşağı siniflərdə dərs vermişdilər. Öz kəndində müəllimlik edib ayda beş-on manat pul alır, başını birtəhər girləyirdi. Onu Bakıdan təyinatla gələn və kənddəki tibb məntəqəsində işləyən, özündən də on yaş böyük olan həkim istədi. Həkimin iddiası yerə-göyə sığmırdı. Elə o xasiyyətinə görə də Mənzər bir müddət həkimə yaxın durmadı. Həkimin onun üstünə göndərdiyi ara adamlarına belə bir cavab verdi:

- Ər mənim harama yaraşır?! Bir cüt qardaş itirmişəm. Gözümün yaşı hələ qurumayıb. Atam yox, anam da ki, şikəst. İkincisi də, ağacı kəsərsən, səmtinə yıxılar. Şəhər adamının xasiyyətiynən bizimki tutmaz. Ondan savayı da, anamı atsam, elin töhmətindən, tənəsindən qurtara bilmərəm. Eşidib-bilənlər tüpürər üzümə.

Həkim əl çəkmədi. Bir neçə dəfə Mənzərin qabağını kəsib, ona ilan kimi dil çıxartdı. Ancaq Mənzər dediyindən dönmədi. Həkim bütün kəndi Mənzərin üstünə minnətçi saldı. Ona sifariş göndərdi ki, anasını da qəbul eləyirəm. Mənzəri də yağ içində böyrək kimi saxlayacağam.

Əlqərəz, həkim zəli kimi yapışdığından buraxmadı. O adam qalmadı ki, Mənzərə minnətçi göndərməsin... Axırda yüngülvari bir yığıncaq eliyib Mənzəri verdilər həkimə. Ancaq Mənzərin ilk oxu daşa dəydi. Heç ay tamam olmamışdı ki, evdə dığdığa başlandı. Həkim Mənzərə gün-dirilik vermədi. Axşam-səhər dınqıldatdı ki, anan çıxıb getsin xarabasına, kor arvad mənə qalıb... Çox adam heç doğma anasına sahib durmur.

Mənzər bir gün anasının qolundan yapışıb qayıtdı ata evinə. Ondan sonra həkim nə qədər - qələt eləmişəm - deyib Mənzərin

qapısında dizin-dizin sürünsə də faydası olmadı... Mənzər həkimin üzünə qırmızıca dedi ki, anamı bəyənməyəni mən heç dünəndən bəyənmirəm. “Sənin kimi ərdənsə, olmasa yaxşıdır. Məni üzdən-gözdən saldılar, bir qələtdi elədim. Elə ziyanlığın yarısından qayıtmaq yaxşıdır. Həkim olma, Allahın bacısı oğlu ol, bu gündən sonra sənin kimi ikidilli adamla mənimki tutmaz. Dünya doludu kişiynən, amma ana tapmaq çətindi”.

Mənzər o gündən bu günə üç il idi ərsizdi. Bakıdan, Şəkidən belə gəzib dolanmışdı, amma yalandan da olsa adına pis söz deyən olmamışdı. Neçə yerdən də elçi gəlmişdi - yox! - cavabı verib, əliboş geri qaytarmışdı. Demişdi ki, necə ki anam sağdı, ər adı tutmaram. Mənzərin gözəl-göyçəkliyi bir yana, bu günəcən adını da təmiz saxlamışdı. Kəndin cahıl-cuhulu da ona başqa niyyətlə səmt düşmürdü. Bilirdilər ki, havayı işdi, yel qayadan bir şey qopara bilməz. Mənzəri yoldan çıxarmaq çətindir. Kənddə də onu hörmətə mindirən görkəmindən çox, o cür təmiz ad saxlaması idi. Qaraşla Xıdıralı da ona bacı gözüylə baxırdılar. Xıdıralı nə qədər çalışdı ki, Mənzər qatıra minsin, mümkün olmadı. Mümkün olmadı deyəndə, Mənzər yad kişinin tərkinə minməyi özünə ar bilirdi. Tək minməyə də ehtiyat edirdi. Qorxurdu ki, qara qatırın birdən dəliliyi tutar, onu yerə çırpar. Və onda da tumanı başına keçər, əti-əndamı görünər. Qadın üçün də bu, böyük beddamçılıqdı. Odur ki, Mənzər Nazimi yanına alıb, Xıdıralıynan Qaraşın arxasınca qarabaqara gedirdi. Bir kəlmə də dinib-danışmırdı. Xıdıralının bir çətən külfəti vardı. Məktəbdə təsərrüfat müdiri işləyirdi. Şəhərə gedirdi ki, görsün harda undan-dəndən var, alıb gətirsin, balalarını dolandırsın. Nə qədər də desən ifallı adam idi. Saçı-saqqalı ağarsa da, ona qırxdan artıq yaş vermək olmazdı. Ayağının biri anadangəlmə gödək olduğuna görə yeriyəndə yanını basırdı. Yemsidiyinə görə də əsgər getməmişdi. Bu

barədə hamı ona bəxtəvərlik verirdi. Kənddə də kimsənin heçinə-köçünə qarışmazdı. Uşağnan uşağıdı, böyüknən böyük. O neçə dəfə Mənzərə üz vurdu ki, gəl bir az da sən qatıra min. Mənzər başının incə hərəkəti ilə ona - sağ olun - deyib, piyada yoluna davam etdi. Xıdıralı bir-iki dəfə Qaraşla Nazimi tərkinə aldı. Qaraş kolxozda xəzinədar işləyirdi. İkinci dərəcəli də əlil idi. Onu rayona həkim komissiyasına çağırmışdılar. Qaşının üstündə tikiş yeri var idi. Müharibədə qəlpə dəymişdi. Həkimlər qospitalda işığa salıb demişdilər ki, qəlpənin bir qırığı içəridə qalıb. Dərində olduğu üçün çıxartmaq mümkün deyil. Elə ki qəlpənin ağrısı tutdu, Qaraş qulun kimi qışqırırdı. Baməzə də xasiyyəti var idi. Onunla yol gedən yorulmazdı. Bir söz dedi, gərək gülməkdən qarnını tutasan.

Onlar yoxuşu qalxıb irəlidəki düzə çıxanda Qaraş yenə başladı lağlağıya:

- Xıdıralı, - dedi. - Qoy qatırı iki tap minim, sizə yaxşı bir söhbət eliyim.

- Ə, Qaraş, səndən yönlü söz çıxmaz. Qatırı da bir dəfə mindin, bəsdi. Mənnən qatır saxlamısan?! - Xıdıralı yarızarafat cavab verdi.

Qaraş:

- Puluna minnət, neçə deyirsən, verim, - əlini cibinə saldı.

Xıdıralı bilirdi ki, Qaraşın kefi qalxıb. Məzələnməyə adam axtarır. Ona görə də başını bulayaraq:

- Görürəm kalansan, - dedi. - Kassir işləmək belədi də! Amma sənin qəpik-quruşuna qalmamışam. Pulun çoxdursa, ver qatığa, yax başına.

Hamı güldü. Xıdıralı üzünü ona tutaraq:

- Qaraş, bu üz ki səndə var, əl çəkən deyilsən. Al, bu qatır, bu da sən. Nə qədər minirsən, min. Mən öyrənmiş canam,

piyada da gedərəm, - deyib, qatırdan düşdü və noxtanın ucunu ona uzatdı.

Qaraş qatırı kolun qırağındakı daşa çəkib, qıçını üstünə aşırandan sonra, uzundimdik kepkasının dalını qaldırıb, barmağının ucuynan peysərini qaşıya-qaşıya:

- Keçən cümə günü kəndə professor gəlmişdi ee, raykomun ikinci katibiynən. Onun söhbətini eşitmisiniz?! - ortalığa söz atdı.

Xıdıralı:

- Kəndə professor gəldiyini mən də eşitmişəm, ancaq tay niyə gəlib, nə danışıb, ondan xəbərim yoxdur.

Qaraş bic-bic güldü:

- Sən öləsən, Xıdıralı, Mənzər bacı da məni bağışlasın, bir qərəvəlli iş oldu.

- Nə qərəvəlli, ə, mən eşitməmişəm. Səndə də elə paslı sözlər var ki...

- Onda qulaq as, deyim. - Qaraş noxtanı dartıb, qatırın yerişini yavaşıtdı. Əl-qolunu oynada-oynada sözə başladı:

- Ötən cümə günü bizi ziyanlıq eləmiş mal kimi kolxozun klubuna yığmışdılar. Dedilər Bakıdan dərin bir professor gəlib. Elmi ateizmdən danışacaq. Sədrlə partkom professorun solunda, raykomun katibi də sağında qırtıb oturmuşdular. Professor Marksdan, Lenindən, inqilabdan çox çərənlədi. Dedi ki, din tiryək kimi bir şeydi, adamların başını xarab eləyir. Gərək ona uymayasan. Allah, peyğəmbər də ki, mollaların uydurmasıdır. Ona qəti inanmayın. Həə! Adamlar gördülər ki, professor sarsaqlayır, çoxu tüpürüb klubdan çıxdı. Dədəm lap dalda oturmuşdu. Amma qulağı professordaydı. Professor aşağıdan, yuxarıdan danışıb, sinəsini boşaldandan sonra, raykomun katibi ayağa qalxıb oturanlardan soruşdu ki, bizim bu hörmətli professora kimin sualı var? Heç kəs dillənmədi. Dədəm yerindən

qalxıb, adamları yara-yara qabağa gəlib, düz dayandı professorun dimdiyinin qabağında, dedi ki, yoldaş professor mənim saa bir sualım var. Professor dedi ki, buyurun, eşidirəm. Dədəm sual verdi ki, professor, at nə yeyir? Professor gülümsündü, cavab verdi ki, ot. Dədəm yenə soruşdu: - Bəs onda qoyun-keçi nə yeyir? Professor elə başa düşdü ki, dədəm onu doluyur. Qayıdıb dədəmə dedi ki, əşşi, sən uşaq sualı verirsən. Qoyun-keçi nə yeyəcək?! Onlar da ot yeyir. Dədəm professorun gözünün içinə baxıb dübarə bir də soruşdu ki, ay professor, onda nə üçün at çölə gedəndə təsdiyir, qoyun-keçi qığlayır?

Qaraş əlini-əlinə vurub qəşş etdi:

- Sən öləsən, dədəm ki bu sualı vermədi, o boyda professorun dili qurudu, kişini tər basdı, qaldı udquna-udquna. Dedi ki, bu suala cavab verməyə çətinlik çəkirəm. Dədəm düz professorun çənəsinin altına yeridi:

- Ay professor, - dedi, - sənin ki, bu təsinən qığdan başın çıxmır, Allahnan peyğəmbərin işinə niyə qarışırsan?! Başına söz qəhətdi?! Qaraş qatırın üstündə əl-qolunu ölçə-ölçə:

- Dədəm bunu deyəndə klubdakıların hamısı uğunub getdilər. Professorun sir-sifəti yetişmiş pomidor kimi qıpqırmızı oldu. Dədəm tay sözünün dalını gətirmədi. Qayıdıb düz qapıdan çıxdı. Klubdakılar da onun dalınca.

Xıdıralı o ki var güləndən sonra:

- Qaraş, - dedi, - ə, sənin o dədənin dilinə qurban olum! Amma nə deyib! Lap ürəyimdən tikan çıxardıb?! Ə, elə bu dünyanı xaraba qoyan o cür başıboş professorlardı dayna. Ona deyən gərək, a həpənd oğlu, həpənd, bizim Allahımıznan, peyğəmbərimiznən nə işin var?! Başına söz qəhətdi?! Sənin ayrı bir işin-peşən yoxdu?! A qırışmal oğlu, qırışmal!

Xıdıralı professorun qarasına o ki var söyüb-söylənəndən sonra:

- Qaraş, - dedi. - Sən öləsən, sidq-ürəkdən deyirəm. Dədən ki, professoru o kökə salıb, qatırı şəhərəcən verdim saa, nə qədər minirsən, min, halaldı!

Onların arxasınca gələn Mənzərlə Nazim bu söhbətə münasibətlərini bildirməsələr də, altdan-altdan qımışıb gülürdülər. Xıdıralını od götürmüşdü, yol boyu deyinirdi:

- Ə, belə də zamana olar, gəlib düşmüşük. Vaxt varıdı evin qapısını taybatay açıq qoy get, içində qızıl da olsa bir adam dəyib-dolaşmazdı. Hamı Allahından qorxurdu, peyğəmbərindən çəkinirdi. İndi o professor kimi dəyyuslar düz-dünyanı alıb ağzına. Abır, xətir, hörmət, insaf, inam qalmayıb. Olmuşuq quleybani. Ona görə də Allah-taalanın bizə qəzəbi tutub. Hər yer od tutub yanır. Urusetdən belə, hər yan al-qan, göl-qan olub. Yəqin Allah-taala o müharibəni salıb ki, bizə görk olsun. Allahın barmağı yoxdu ha, uzadıb gözümüzü töksün. Qəzəbi tutanda, bax, heylə eləyir ki, bəndələri qudurmasın, yola gəlsinlər.

Nazimin qulağına it zingiltisi gəldi. O, uşaq marağıynan ətrafa boylandı. Ancaq bir şey anlaya bilmədi. Yaxında kənd-kəsək olsaydı, ayrı məsələ. Onda şübhələnməzdi. Düşünərdi ki, it səsi kənddən gəlir. Bu dərənin ağzında it hardandır?! Fermazad da yoxdur. Nazim su başına dönmək bəhanəsi ilə yol yoldaşlarından ayrılıb sağ tərəfdəki mamırlı qayaların arasına keçdi. Zingilti səsi daha da yaxınlaşdı. Nazim irəlidəki dik qayanın üstünə çıxanda iti gördü. Bazburutundan hiss olunurdu ki, çoban itidir. Kənddə belə ənik nə gəzir?! Qabaq tərəfdən baxanda şirə oxşuyurdu. İt qıllı boynunu qatlayıb, yancağını yaladıqca sızıldayırdı. Hiss olunurdu ki, yaralıdı, yoxsa Nazimi görən kimi ona hücum eliyərdi. Ya da ki, quyruğunu qısıb

götürülərdi. Nazim əyilib ona bir daş atmaq istədi. Meşənin ətəyində öküz otaran yaşlı naxırçı palıd ağacının kölgəsində oturub Nazimə göz qoyurmuş. O, Nazimin yerdən daş götürdüyünü görüb xırıltılı bir səslə:

- Allahın heyvanına daş atma, oğul, - dedi. - Yaralıdı. Yolunla düz get, onun saa nə maşatlığı var? Hansı qansız oğlu qansızsa gülləynən vurub. Yüngül yerindən dəydiyinə görə ölməyib, zarıncıdı. Neçə gündü zarıyır. Saa qarğış eliyər, ona toxunma...

Naxırçı bunu deyib aralaşdı, irəlidəki gədiyi aşmaqda olan öküzlərin dalınca getdi. Və təpənin o üzünə aşıb gözdən itdi. Nazim götürdüyü daşı kənara tullayıb, Fatma nənənin onun cibinə dürtdüyü yağ dürməyini çıxardıb, itin qabağına atdı. İt matdım-matdım onun üzünə baxdı. Sahibi olsaydı, indi çoxdan qabağına yüyürüb, ayağına sarmaşmışdı. Lakin bircə dəfə də olsun Nazimin qarşısında quyruq bulamadı. Heç dürməyə də yaxın durmadı. Nazim ona xeyli nəzər saldı, nə isə etmək istəyirdi. Lakin yoldaşlarının ondan nigaran qala biləcəyini nəzərə alıb, çox dayanmadı. Gəldiyi cığırnan qayıdıb yola çıxdı. Yoldaşları irəlidəki döngədə dayanıb onu gözlüyürdülər. Qara qatır da bu fürsətdən istifadə edib, yolun qırağındakı göy otdan acgözlüklə qırpırdı. Nazim onlara çatanda, dəstə yola düzəldi. Qaraş hələ də qatırdan düşməmişdi. Yol boyu olub-keçənlərdən hərə bir söz danışırdı. Qaraş baməzə danışığından qalmırdı. Mənzər isə dinib-danışmırdı. Nazimin fikri itin yanında qalmışdı. Elə hey o barədə düşünürdü: “Görəsən bu it necə olub azıb?! Onun axırı necə olacaq?! Sağalıb ayağa qalxa biləcəkmi?! Kim bilir, onu hansı əli dinc durmayan nanəcib vurub”. Nazim itə güllə atanı təsəvvüründə canlandırır, ürəyində ona nifrət edirdi. Həmin adam Nazimin əlinə düşsəydi, o ki var, söyərdi. Lap kənara çəkilib tüfəngini itə tuşlayan o əclafa bir-iki

ilişdirərdi. Nazimin itə yazığı gəlirdi, fikri-zikri heyvanın yanında qalmışdı. Bu da ona ağıllı-başlı dərd oldu. Ancaq bu haqda nə Mənzərə, nə Xıdıralıya, nə də ki Qaraşa bir söz demədi. Düşündü ki, desəm, məni qınayıb, huydu-huyduya götürərlər. Deyərlər ki, dünya od tutub yanır. Hər gün davada minlərlə adam qırılır, bu da itin dərdini çəkir. Səfehin biri səfeh. Qaraşın da ki, dilinə-ağzına düşdü, qurtardı. Birinin üstünə beşini də qoyub, məni bəzəyəcək. Ona görə də Nazim it məsələsini açıb-ağartmadı. Qaraşla Xıdıralı isə ələşədən-küləşədən hərəsi bir söz danışırdı. Stalinlə Hitler barədə hərəsi bir uydurma fikir yürüdürdü. Bu söhbətin də axır başını gətirib bağlayırdılar, müharibəyə... Mənzərlə Nazim isə onların söhbətinə qarışmırdılar. Başlarını aşağı salıb lal-dinməz qara qatırın arxasınca gedirdilər. Qaraş hərdənbir altındakı qatırı dümsükləyib, noxtanı buraxırdı. Qatır yortuq toz qaldıra-qaldıra aralaşanda, Xıdıralı hirslənirdi:

- Ə, yenə başının qurdu tərpənməsin! Qatırı ehmal sür! Qoy uşaqlar da gəlsin. Mənzər qadındı, Nazim də uşaqdı, biznən ayaqlaşa bilmirlər.

Onlar rayon mərkəzinə çatanda əvvəlcə şəhərə bitişik olan həftə bazarına döndülər. Xıdıralı tərkinə bağladığı arpa, saman dolu torbanı açıb qatırın başına keçirtdi. Sonra yaxınlıqdakı at tövləsinin gözətçisinə yaxınlaşıb cibinə bir üçlük basdı və ona:

- Şəhərdə bir-iki saatlıq işimiz var, - dedi. Biz qayıdanacan gözün qatırın üstündə olsun. O qədər dədəsindən xəbəri olmayan oğru, əyri, gədə-güdə var ki. Birdən başın qarışar, qatırın alığını açarlar. Çulunu da təzə toxutdurmuşam. Bu gün birinci dəfədi belinə vururam. Gözünü bir balaca o tərəfə çəkdin, çul sənindki deyil.

- Bilirəm, arxayın get. Qatırdan nigarançılığın olmasın. - Gözətçi çoxdan tanıdığı qonşu kəndçisi Xıdıralıya cavab verdi.

* * *

...Gün əyiləndə onların hərəsi öz işini qurtarıb bazardan, dükandan aldıqlarını alıb, kəndə tərəf yola düşməyə hazırlaşırdılar. Xıdıralı yoldaşlarını şəhərin yuxarı tərəfindəki bulağın yanında qoyub, özü qatırın dalınca getdi. Həftə bazarı sovuşmuşdu. Meydanda tək-tük adam gözə dəyirdi. Onlar da tərəziləri yerbəyer eləyir, satılmayıb qalan meyvəni, kartofu örtülü yerə yığıb, gözətçilərə təhvil verirdilər. Xıdıralı bazar meydanından ötüb, yaxınlıqdakı uzunsov tövləyə tərəf yönəldi. Qatır yerində yox idi. Xıdıralı dəli kimi oldu: "Yəqin çər dəymişin yenə cini tutub. Bəlkə uşaq-muşaq hürküdüb, noxtasını qırıb qaçıb. Qatırı oğurlaya da bilərlər" - deyə düşündü. Onun qəlbində cürbəcür qara şübhələr baş qaldırdı. Başı alovlu özünü at tövləsinin gözətçisinə yetirərək:

- Ə, namərd oğlu, namərd, - dedi. - Saa ümid olub qanı qiymətinə qatır tapşırmışam, bu nə pəstahdı mənim başıma açırsan?! Belə də qonşu kəndçilik olar?!

Gözətçi əhvalını pozmadan əlindəki qəzet qırığına tənbəki bükə-bükə:

- Darını kola tökmə, - dedi. - Sənin dünyadan xəbərin yoxdur. Bağırov rayona gəlmişdi. Milisdən dedilər ki, qatırı aç, apar dalda yerdə bağla. Birdən Bağırov şəhəri gəzər, qatırı görməsin.

- Ə, boş-boş danışma, mənim qatırımın Bağırova nə maşatçılığı var?! Bağırov qatır-zad görmüyüb?! Başına söz qəhətdi?! De görüm, qatır hardadı?!

Gözətçini söz tutdu:

- Xıdıralı, innən sonra qonşu kəndçi olma, nə olursan-ol, buralara ayağın düşəndə, sənin qatırına göz qoysam məndən alçaq adam yoxdur, - dedi. Ə, niyə Bağırovun özcə kəndlin,

qapıbir qonşun Behbud oğlu Fəmili türmənin ağzından qurtarmasın demirsən, amma qatırı açıb on metr o tərəfə bağlamaqla top-tüfəngə tutursan?!

Xıdıralı Behbud oğlu Fəmilin adını eşidən kimi karıxdı. O, papağının qabağını alnından yuxarı qaldırıb, gözətçiyə təəccüblə nəzər saldı və:

- Bizim dəyirmançı Fəmili deyirsən? - soruşdu.

- Yox, İran, Turandakı Fəmili deyirəm! - gözətçi lax-loğazla ona cavab verdi. - Sizin kənddə iki Fəmil yoxdu ha, bir Fəmil var, guya ki bilmir e! Nə təhər oldu mən iki vers aralıdakı qonşu kənddən ola-ola, dəyirmançı Behbud oğlu Fəmili tanıyıram, amma sən soruşursan ki, hansı Fəmili?! Bayaqdan bəri ağzımda bir quranlıq söz danışıram, bu hələ də ayılmayıb! Elə tutub ki, qatırı niyə açıb o tərəfə bağlamısan! Gör nə zəmanədə yaşayırıq e! Qatır insandan qiymətli olub, - gözətçi ona məzəmmət vurdu.

Xıdıralı, siftə sözünə peşman olub, yumşaldı. Və gözətçiyə yanaşıb peşman-peşman dedi:

- Əmoğlu, mən ölüm, incimə, bir sözdü dedim, deməmiş olum! Bu dəfə günahımdan keç! Öz aramızdı, bu axır vaxtlar sən də yaman dəymədüşər olmusan haa! Bir də ki, məni qınama, elə olub-olacağım bu qatırdı. Evin bütün odun-ocağı, malın ot-alafı ona baxır. Mənim də ki, hara getsəm, ayağımı yerdən üzür. Maa sənin andın yoxdu, o qolsuz Həzrət Abbas haqqı, bu qatıra hələ sıpa vaxtı bir yanı balalı inək, filan qədər də pul vermişəm. Onun borc-xərcindən hələ də qurtarmamışam. İndi bura gələndə qatırı bağladığım yerdə görmədim, elə bil başıma ildırım çaxdı. Heç özüm də bilmədim ki, nə dedim. Ondan keçib, oxunu atıb, yayını gizlətmə, məni agah elə görüm, o Bağırov məsələsi nəydi, dedin. Onu bir əməlli-başlı xırdala, deyəsən səndə təzə söz var.

Gözətçi qara tənbəkiynən köhnə qəzet qırağından büküb

düzəltdiyi papirosu yandırıb, bir-iki dəfə sümürəndən sonra çömələb kürəyini tövlənin divarına söykədi:

- Dünən sizin kənddən olan Behbud oğlu Fəmili prokuror çağırmışdı, - dedi. - Gördüm qalmağa yeri yoxdu, axşam da apardım bizdə gecələdi. Amma Xıdıralı, Allah düşmənimizə də göstərməsin! Zalım oğlu səhərəcən yatmayıb. Elə hey azaylanırdı ki, məni qazamata salsalar, uşaqlar başsız qalacaq. Fəmilə yazığım gəldi. Dedi ki, elə bilirsən indiki zəmanədə yeddi uşağı yedirtmək asandı?! Arvad da ki, diribaş ola, nə dərddi?! O da əfəlin biri. Biş-düşdən başqa əlindən heç zad gəlmir. Mən də Fəmilə toxtaqlıq verdim. Dedim, Fəmil, ümidini o yuxarıdakı kişinin ətəyindən üzmə, Allah kərimdir. Mıxı mismar eliyən var. Qoy bir səhər açılsın, görək bu işə necə əncam çəkirik. Bəlkə bir tanış-biliş tapıldı. Görsək ki, iş-işdən keçib, lazımi yerlərə ərizədən-zaddan yazdırarıq, bir-iki də tel vurarıq.

Gözətçi istehza ilə:

- Özü də o boyda kişini gör nədən ötrü tuturdular e?! Altı pud arpanın üstündə. İç adamdan öyrəndik ki, prokuror sanksiyanı yazıb. Çatan kimi dana-boyun eliyib ötürəcəklər içəri. Di ondan sonra, Fəmil, get, öl! Balaların da qalsın düzdə! İndiki vaxtda da çalış qazamata düşmə, düşdün, ordan çıxmaq çətin məsələdir, - dedi.

Xıdıralı:

- Ə, bağrım çatladı. Yastı-yastı danışma, onun əskikgəlmə söhbəti elə çoxdan varıdı. De görüm, Fəmilin axırı nə oldu?!

Gözətçi:

- Altı aylıq olma! Hövsələni bas! Bu saat deyirəm, axırı yaxşı oldu.

- Axı necə yaxşı oldu?! - Xıdıralı təkidlə soruşdu.

- Necəliyi odur ki, evdə oturub çörək yeyirdik. Arvad da

ehtiyat üçün bir yastıq, bir yun ədyal büküb hazırlamışdı ki, işdi-şayət prokuror Fəmili buraxmasa, qazamata salsa, yastıqla ədyalı dalınca göndərsin. Fəmilin boğazı kilidlənmişdi. Ə, kişini qınamalı deyil, qazamatın odu yamandı. Bir dəfə düşüb çıxmışam. Görmüyənlər bilməz qazamat nədi, mən iki il yatıb, görmüşəm. Allah qanlıma da göstərməsin. Fəmilə bir az toxtaqlıq verdim. Elə ayağa qalxmışdım, bizim o maarifdə işləyən böyük gədə - Rüstəmi deyirəm dayna, başı alovlu özünü içəri təpdi. Dedim, ə, oğul, xeyirdimi?! Dedi: "Ata, Bağırov gəlib, oturub raykomda. Hamısının canına vəlvələ düşüb. Bir azdan çıxıb şəhəri gəzəcək. Milisdən səni axtarırlar. Tez get bazarın, tövlənin yan-yörəsini qayda-qanuna sal. Orda bir dənə at, eşşək olmasın". Gözətçi əlini dizinə vuraraq:

- Xıdıralı, bu sən öləsən, bütün rayon bir-birinə dəymişdi.

Xıdıralı qaşlarını çatıb, gözlərini təəccüblə qıyaraq:

- Həə! Deyirəm axı, deyirəm axıı! Onu mən də bir balaca eşitdim. Dedilər yuxarıdan gələn var. Özü də, illaf böyüklərdəndir. Sən öləsən, mağazaları bir silib-təmizləyirdilər ki, gəl görəsən. Dükançılar ipəyə dönmüşdü. Adamla bir mehriban danışırdılar ki, mən də öz-özümə fikirləşirdim ki, ə, görəsən bu gün hardan doğdu! Belə de də! İlan ulduz görməsə ölməz! Tay deynən məsələ ayrıymış.

- Sözümün arasına söz qatma, - dedi. - Qoy axıracan deyim qurtarım, sonra nə danışırsan danış. Allahdan olan kimi alğıma gəldi ki, bu Fəmilin məsələsini Bağırova çatdıraq. Tez dedim ki, ə, Rüstəm, oğul, bu Fəmilin adından Bağırova bir ərizə yaz. Sonra da düş qabağına, apar tuşut onun yanına, görək axırı nə olur. Rüstəm də ki, uzaqdan-yaxından eşitməmiş olmazsan, öz oğlum olduğuna görə demirəm, çox iti qələmi var. Yazdığı daşdan keçir. Bu söz Rüstəmin də ağlına batdı. Qabağına kağız qoyub tələm-tələsik bir ərizə yazdı. Behbud oğlu Fəmilin

adından yazdı ki, yoldaş Bağırov, özüm köhnə partiyaçıyam, bir çətən də külfətim var. Gözümü açandan da dəyirmançı işləyirəm. Savadsız olduğuma görə, aldığım şahadın hesabını saxlaya bilməmişəm. Altı pud arpam kəm gəldiyinə görə məni tuturlar, kömək elə...

Gözətçi:

- Dizlərim keyidi, - deyib, ayağa qalxdı. Və ayaq üstə dayanıb - sözün kəsəsi odur ki, - əlavə etdi, - adamın işini gərək Allah rast gətirə. Ərizə ki, Bağırova çatıb, prokurora, raykoma od qoyub. Fəmilin üstündə hamısını rüsvay edib. Deyib ki, əlim-ayağım dəyməmiş bu saat Fəmili buraxın getsin. Ə, Xıdıralı, bu raykom, ispalkom, nəçənnik, prokuror var ee, bizi görəndə dönüb olurlar əzreyil. Sən öləsən, Fəmil deyir ki, hamısı Bağırovun qabağında cücəyə dönmüşdü. Nə başını ağrıdım, altı pud arpadan ötrü Fəmilin qoparağını götürmüşdülər, yaxşı qurtardı.

Xıdıralı üzünü göyə tutdu:

- Saa inanmayana lənət, - dedi və sonra gözətçiyə tərəf yönələrək - Bağırov bura elə-belə gəlməyib, onu bura gətirən elə Fəmilin Allahıdır - dilinin altında nə isə deyib, salavat çevirdi. Ötən cümə günü də bizim kəndə bir professor gəlmişdi. Camaatın qabağında boş-boş qırıldadırmış ki, Allah-peyğəmbər yoxdur. Bəs yoxdursa, bu iki daşın arasında Bağırovu ona kim yetirdi?! Behbud oğlu Fəmil bu oddan nə təhər qurtardı?!

Gözətçi gülə-gülə:

- Sən bir işə bax e, bir xısma arpadan ötəri Fəmildən əl çəkmirdilər. And olsun bizi o yaradana, kişi xatadan qurtaran kimi dabanına tüpürüb, asta qaçana göy imam qənim olsun, - deyib, düz üz qoydu kəndə.

Xıdıralı:

- Allaha min şükür, sən də ki, həmişə xeyir xəbər olasan! -

deyib, gözətçi ilə xudahafizləşdi. Sonra da tövlənin arxa tərəfinə hərlənib qatırı yedəklədi və yoluna rəvan oldu. Bulaq başında onu gözləyən yoldaşlarına tərəf yönəldi. Onlar vədələşdikləri yerdə tapışıb, birlikdə yola düzəldilər. Şəhərdən çıxanda günəşin saraltısı qalmışdı. Kövşənlərdən əl-ayaq yığışırdı. Mal-qara yal-yamacdan qayıdıb, qənşərdəki kəndlərə yayılırdı. Gölməçələrdə saysız-hesabsız qurbağalar səs-səsə verib, qürub çağının sükutunu pozurdu. Qara qatır üstündəki iki tay unu vecinə almadan, boynunu şax tutub, quyruğuynan ona hücum çəkən mığmığaları ora-bura qovur və Xıdıralının yedəyində sakitcə gedirdi.

Nazim yeməkxanada ona verilən qara çörəyin bir-iki tikəsini boğazından kəsib, ciblərinə qoymuşdu ki, qayıdanda yolun kənarındakı güllə dəymiş yaralı itə versin. Ancaq o, çalışırdı ki, bunu heç kəs bilməsin. Fikirləşirdi ki, ondan yaşca böyük olan yoldaşları Nazimin bu hərəkətindən xəbər tutsalar, yaxşı düşməz. Xıdıralı da, Qaraş da, lap elə Mənzərin özü də Nazimin üzünə vurmasalar da ürəklərindən keçirərlər ki, sən bunun qudurğanlığına bax! Camaat yeməyə doyunca çörək tapmır, Nazim itin aclığının-toxluğunun dərdini çəkir.

Xıdıralı bu gün şəhərdə eşidib-gördüklərindən danışdı. O, yol yoldaşlarına tərəf dönüb, qatırın üstündəki un taylarına işarə etdi:

- Heç bilirsiniz, putunu neçəyə almışam?

- Neçəyə almısan? - Qaraş soruşdu.

Xıdıralı başını bulayıb içəridən yana-yana:

- Sən öləsən, Qaraş, - dedi. -Bu dükançılarda insaf-mürvət deyilən şey qalmayıb. Un istədim, əvvəl boyun olmadı, özünü naza qoydu. Dedi ki, sən də illaf avadanlıqdan danışırsan. Müharibənin bu vaxtı un deyənin qulağını kəsirlər. Bu vurhavurda un tapılır?!

Xıdıralı gülümsündü:

- Maa da Xıdıralı deyərlər, dükançının danışığından gördüm ki, un var, ancaq özünü tülkülüyə qoyur. Başladı ki, ikicə tay düzəldərəm. Ancaq dükanın unu deyil. Mən də başqasından əl qiymətinə almışam. Putu səkkiz yüz manatdır. Nə qədər çənə vurdum, dedi nənəm ölə, dədəm ölə, bir köpük aşağı düşmərəm. Alırsan al, almırsan xoş getdin. O qədər yalvaranı var ki. Çox kəmfürsət adamıydı. Gördüm dediyindən dönmür, əlacım nədir?! Razılaşdım! Namərd oğlu, namərd, qara unun putunu maa düz səkkiz yüz manata sırıdı. Onu da bir minnətnən!

Xıdıralı Mənzərdən soruşdu:

- Elə kənddəki müəllimlərin biri də sən, ayda neçə alırsan?

- İstajı olanlar çox alır, mənim aylıq maaşım yeddi yüzdür. Onu da vergiyə, subaylığa çıxandan sonra əlimə altı yüz gücnən çatır, - Mənzər cavab verdi.

Xıdıralı:

- Baax, ay uşaqlar, indi öz hesabınızı aparın, - dedi. - Bir put un, müəllimin bir aylıq maaşıdır. İndi Xıdıralı, yeddi baş külfəti gəl dolandır, görüm necə dolandırırsan?!

Qaraşın kefi yox idi. Ona görə də Xıdıralının dediklərinə məhəl qoymurdu. Bayaqdan bəri kəlmə kəsib danışmırdı. Elə bil həmişə deyib-gülən Qaraş deyildi. Xıdıralı ona zarafatyana sataşaraq:

- Ə, Qaraş, niyə mısmırığını sallamısan?! Dünyanın bac-xəracın səndən alıblar?!

Qaraşın eyni açılmadı, könülsüz-könülsüz gülümsəyərək:

- Qəmisyədən keçəndə həkimlər məni çox incitdilər, - dedi. - Qəmisyənin sədri iki ayağını bir başmağa dirəmişdi ki, bunun başında askol-zad yoxdu, ona invalidlik vermək olmaz. Yaramın tikişini əlləşdirəndən bəri özümə gələ bilmirəm, başıma ağrı

sıçrayıb. Özümü yaman pis hiss eləyirəm. Elə bil alnım, boynumun dalı keyiyib. Qıçımı ata bilmirəm.

Xıdıralı zarafata salıb ona sataşmağına peşman oldu. Bu dəfə Qaraşa yazığı gəldi. Ona:

- Ə, qoy bu yoxuşu çıxaq, düzə enəndə qatırı bir tap min. Qara nərə heç zad olmaz, nə yükü var?! Cəmi-cümlətanı on put undu.

Qaraş etiraz elədi:

- Yox, - dedi. - Xıdıralı, yorulmamışam ey, nə isə, bir az yaramın yeri sancır. Həkimlərə dedim askolun yerini çox qurdalamayın, sözümə baxmadılar. Qəmisyənin sədri də tərs bir adamıdı. Sir-sifətindən zəhrimar yağırdı. Heyləsini dindirib, ağzına-ağzına it öfkəsiynən vurasan. Qanmır, qandırmır, deyirəm həkim, içəridən sancır, bərk basma, məni it kimi qapır. Deyir ki, maa həkimlik öyrətmə. Sənin heç zadın yoxdur, sapbasağsan. Askol dəyibsə də, sağalıb gedib. Faqqıllıq eliyirsən ki, hökumətdən havayı pensiya qoparasan. İstədim deyəm yalançının yeddi arxa dönənini belə-belə eliyim, özümü güclə saxladım. Əşi, sən bir işə bax e, canını qoy Vətənin yolunda, sağlamlığın əldən getsin, amma bunun müqabilində beş-on manat invalidlik pulu verirlər, o da can çəkə-çəkə. Hər qəmisyədən keçəndə mənimki maa dəyir. Adamı neçə kərə yoxluyallar? A köpəyoğlu, gözün kordu?! Görmürsən yarımcanam?! Mənim kimiləri sinəsini Hitlerin gülləsinin qabağına verməsəydi, indi sən görəsən harda gəbərmişdin?! Sir-sifətinə, boy-buxununa da baxırsan, köçəl yeyən sıpıya oxşuyur. Nanəcib oğlu, nanəcib! Bilirəm də qarınlarının sancısı nədi, mənnən pul umurlar! Məndə də pul hardadı? Qəmisyə də belədi ki, verməsən, bir bəhanə qoyub, pensiyanı kəsəcək. Amma ver, sapbasağ adamı invalid eləsin...

Həmin o it olan yerə çatanda Nazim bir bəhanəylə

yoldaşlarından təklənib aralandı. Dibində itin uzandığı yastı daşın üstünə çıxdı. İt Nazimi görəndə tanıdı. Bildi ki, səhər ertə ona dürmək atan oğlandı. Nazim öz-özünə sual verdi, görəsən dürməyi it özü yeyib, yoxsa qurd-quş aparıb?! İt bir-iki dəfə ayaq pəncələrini yerə dirəyib gərnəşdi və dikəlmək istədi. Lakin arxa tərəfi qalxmadı. Yerində uzanıb zingildəyə-zingildəyə yaralı yerini yalamağa başladı. Nazim cibindəki çörək tikələrini çıxardıb, itin qabağına atdı. Sülək itlərdən olsaydı, çoxdan qarmalamışdı. Lakin yaralı it aclığını, toxluğunu bildirmədi. Ona atılan çörəyə gözucu baxıb, yenə boynunu şax tutdu. Enli, qırmızı dilini çıxardıb, bir-iki dəfə ləhlədi. Yaralı olmasına baxmayaraq, heç Nazimin özünü də o qədər saya salmadı. Başını qaldırıb, maddım-maddım Nazimin üzünə baxdı. Sonra ağzını göyə tutub, yalquzaq kimi uladı. Nazimə elə gəldi ki, it yer üzünü bürüyən fitnə-fəsadlardan göydəki gözəgörünməzə şikayət edir və bəlkə də onu bu cür zəlil eləyənə qarğış tökür. Nazimin tükləri biz-biz oldu. Allahın dilsiz-ağızsız heyvanını bu kökə salana ürəyində nifrət elədi. Mərhəmətli baxışları ilə itə axırıncı dəfə zəndlə nəzər saldı, sonra geri döndü. Öz-özünə fikirləşirdi ki, kəndimizə yaxın yerdə olsaydı, nə dərd idi. Hər gün bu sahibsiz, yaralı itə yemək daşıyardım. Onda Allaha da xoş gedərdi... Nazim yastı daşın üstündən enib, yeyin addımlarla yola çıxdı. Və bir-iki nəfəs yüyürüb yoldaşlarına çatdı.

Yuxarı qalxdıqca arasından qıjıltıyla çay keçən dərə daralır, üz-üzə dayanan qayalar sanki adamı aralığa alıb sıxırdı. Daşlara toxunduqca, qaynar tiyan kimi coşub-daşan köpüklü suların səsi adamın baş-qulağında qəribə bir uğultu yaradırdı.

Hiss olunurdu ki, Qaraşın əhvalı pisləşir. Xıdıralı neçə dəfə ondan söz soruşdusa, Qaraşdan cınqır çıxmadı. O, hərdən ayaq saxlayıb, əlini başına aparırdı. Cib dəsmalını çıxardıb mamırlı qayadan süzülən sısqa suda islatdı və sonra da alnına, boyun-

boğazına çəkdi. Onun gözləri getdikcə hədəqədən çıxırdı, yad və qorxulu adamların arasına düşübmüş kimi yoldaşlarına şübhəli nəzər salırdı. Qaçmağa girəvə axtarırmış kimi tez-tez ətraf qayalıqlara göz gəzdirirdi. Yoldaşları onun bu hərəkətini başındakı qəlpənin əlamətləri kimi başa düşürdülər. Və hesab edirdilər ki, bu müvəqqəti olan bir haldır. İndicə keçib gedəcək. Qayaların ətəyindəki darısqal yoldan keçib irəlidəki genişliyə çıxanda Qaraş yaralanmış şir kimi bağırırdı:

- Samolyot!! Samolyot!! Lajis!! - deyib qışqırdı.

Mənzərlə Nazim vahimələnib bir-birinə qısıldılar. Xıdıralı Qaraşda bu cür ruhi halların olduğunu bilirdi. O, qatırın yedəyini Nazimə verib, Qaraşı qucaqlamaq istədi. Qaraş:

- Samolyot! Samolyot!! Lajis!! Lajis!! - deyə-deyə qışqırıb, özünü yolun kənarındakı xəndəyə atdı. Başını cəngəllərin arasına soxdu. Xıdıralı tez onu qolları arasına alıb, bərk-bərk sinəsinə sıxdı ki, Qaraş özünü daşa-qayaya çırpmasın. Qaraş Xıdıralının qucağında xeyli çapaladı, ayaqlarını ora-bura çırpdı, ağzı köpükləndi. Xıdıralının qucağında onu qan-tər basmışdı. Handan-hana Qaraş özünə gəldi. Yuxudan kal durubmuş kimi gözlərini açıb yan-yörəsinə baxdı. Xıdıralı qollarını boşaldıb ayağa qalxdı. Qaraş yoldaşlarını görəndə özündən asılı olmayan belə bir hərəkəti üçün xəcalət çəkdi. O, ayağa qalxıb yaxınlıqdakı bulağa tərəf getdi və üzünə iki-üç ovuc su vurdu. Nazimlə Mənzərin matı-qutu qurumuşdu. Xıdıralı öz-özünə deyinirdi:

- Bu davanı törədənlərin evini Allah yıxsın. Bunların hamısı müharibənin bəlasıdır çəkirik. Belə də yaşamaq olar?! İndi biz olmasaydıq, Qaraş özünü daşdan-qayadan atıb puç eləmişdi...

Qaraşa nə olmuşdu, Stalinqrad ətrafındakı döyüşlərdə olmuşdu. Nemes təyyarələri göydən bombanı dolu kimi yağdırırdılar. Onda güclü bombaların biri Qaraşın gizləndiyi

səngərin yanına düşüb, yerin altını üstünə çevirmişdi. Qaraş huşsuz vəziyyətdə iki gün torpağın altında qalmışdı. Yaralanmaqdan başqa, başına hava da gəlmişdi. Bir tərəfdən də qaşının altındakı qəlpə tərpəndikcə, ölüb-dirilirdi. O biri tərəfdən də elə ki, müharibəni, düşmənin qırıcı, bombardmançı təyyarələrinin onların üstünə şığımasını gözünün qabağına gətirirdi, bax, bu şəkilə düşürdü: - Samolyot!! Samolyot!! Lajis! Lajis!! - deyib qışqırır, harda çala yer var, özünü ora təpib, başını kola-kosa soxurdu. Onun tutması olduğuna görə evlənə bilmirdi. Evlənmək istəsə belə, bu vəziyyətdə kim idi ona qız verən. Hansı qız canından bezib, başı xarabın birinə ərə gedərdi?!

Bu əhvalatdan sonra nə Xıdıralı özünə gəlmişdi, nə də ki, Mənzərlə Nazim. Qaraş da kişiyə yaraşmayan hərəkət edibmiş kimi xəcalətindən başını qaldırıb yoldaşlarının üzünə baxa bilmirdi. Ona görə də hamıdan geriyə qalmışdı. Qaraş bir-iki dəfə dəsmalını çıxardıb, gözünə apardı. Hiss olunurdu ki, hirsindən onu qəhər boğur. Onun xısın-xısın ağladığını bircə Nazim görürdü. Çünki Nazim bayaqdan bəri gözünü Qaraşdan çəkmirdi. Xıdıralı qatırın qabağında gedirdi. Mənzərin də ki, ora-bura baxmaq adəti deyildi. Yalnız Nazim hər şeyə incəliyinə qədər fikir verir və heç kəsin hərəkəti onun iti nəzərlərindən yayınmırdı. Nazimin o xasiyyəti də vardı ki, hər şeyi özünə dərd eləyib, ürəyinə salırdı.

Onlar bir qədər dinib-danışmadılar. Hamısı susmuşdu. Qara qatırın isə heç nə vecinə deyildi. Yükünün ağır olmasına baxmayaraq, bu daşlı-cınqıllı yollarda bircə dəfə də olsun büdrəmirdi. Hərdən girəvəyə salıb yan-yörədə bitən hündür otların başını qırpıb kövşəkdən keçirirdi. Onun təzə nalı, sürtülüb bülövlənmiş daşlara toxunduqca yola qığılcım səpələnirdi.

Çay boyu uzanıb gedən yol genişliyə çıxanda qalın meşələrlə

örtülmüş dağlar, təpələr başlanır. Güney tərəfdəki çılpaq dağların ətəyində on beş-iyirmi evli kiçik kəndlər görünürdü. Xıdıralı yol yoldaşlarının fikrini Qaraş məsələsindən yayındırmaq üçün ortalığa belə bir söz tulladı:

- Köhnə kişilərin ağlı olub, - dedi. - Atdıqları hər bir addımı yüz dəfə ölçüb-biçiblər. - O tərəfə baxın - həmin kəndləri göstərdi - görün bir harda məskən salıblar?! Mal-qara saxlamağa örüşləri, içməyə suları, odun yığmağa meşələri, ev-eşik tikməyə daşları, qumları, əkin-biçin üçün gen-bol torpaqları, çayın da səmti. Qəbir üçün sal daşacan fikirləşiblər. İndikilər də...

Xıdıralı başını bulayıb nə isə duruxdu. Və yenə sözünə davam elədi:

- İndiki baş bilənlərimiz də ayaqlarını dirəyib, bizi məcbur eliyirlər ki, hərtərəfli dolanışığı olan bu cür bin-bərəkətli kəndləri atıb. Yazı düzünə tökülək. Özü də deyirlər ki, on-on beş kənd bir yerə cəmləşməlidi. Guya yeni kommunizm kəndləri salırlar. Tay başlarına vurub fikirləşmirlər ki, Yazı düzündə yel vurub yengələr oynuyur. Qışda orda iti quyruğundan bağlasan durmaz. İçməyə suyu yox, daldalanmağa dağ-dərəsi, kölgələnməyə də bircə ağacı. Guya dərin quyular qazıb motorla su çıxaracaqlar. A balam, buz kimi bulaqlarımızı qoyub, niyə quyu suyu içək? Sabah ara qarışdı, məssəb itdi. Müharibə buralara da gəlib çıxdı. Hitler bombanın birini də gətirib bizim başımıza atdı, işıq-zad da kəsildi. Hə, indi Xıdıralı, ölünü qoy, dirini ağla. Görüm suyu hardan tapırsan?! A kişi, o düzdə toyuğa atmağa bir daş da yoxdu. Bəs onda sabah ev tikdirmək istəyən daşı, qumu, əhəngi hardan tapsın?! Ə, savadnan, vəzifəynən deyil ha, gərək başda ağıl ola. Bizim böyüklərdə ağıl nə gəzir?.. Özlərindən gündə bir hoqqa çıxarırlar. Min illik kəndləri köçürürlər ki, nədi-nədi iş bilmişəm? Yaxşı, tutaq ki, kəndləri köçürüb bir yerə yığdın, bu

kövşənlər, bağ-bağat, çay-çəmən, qaynar bulaqlar başına qalsın?! O de, elə götürək Balahəsənli Mikayılı! Vaxt varıdı qoyun sürüsünün ucu-bucağı görünmürdü. Kolxoz əlindən aldı, qalıb beş-onu. Onu kənddən köçürərsən, bəs qoyunlarını hara aparsın?! A kişinin oğlu, vallah məni qınama, atam it olub hürsün ki, indiki rəhbərlərdə ağıl deyilən şey yoxdur. Hərəsi bir fırıldaq yolnan vəzifəyə keçib, camaatın başına olmazın oyun açırlar.

Xıdıralı kəndlərin köçürülüb bir yerə yığılmasından yana-yana danışdıqdan sonra Behbud oğlu Fəmilin bugünkü əhvalatına keçdi. O, yoldaşlarından soruşdu:

- Fəmilin məsələsini eşitmisiniz?!

Bayaqdan bəri səsini çıxartmayan Qaraş Xıdıralıya yaxınlaşaraq kal səslə:

- Yox, - dedi. - Fəmilə nə olub ki?!

- Nə olacaq, qəmisyə dəyirmanı yoxluyub, altı put arpa şahadı əskik gəlib. Bu gün çağırıb tuturdular. Nənəsi namaz üstəymiş. Bağırov qanının arasına girib. Prokuror da, nəçənniyi də, katibi də tulasifət eliyib qoyub ora. Behbud oğlu Fəmili də buraxdırıb.

Qaraş Fəmilin qazamatdan qurtardığını eşidəndə özündə yüngüllük hiss etdi:

- Balam, bəs orda-burda danışırlar ki, o Bağırov yaman xırsız adamdı, - dedi. - Dinənin təpəsindən vurur. Görəsən qəlbinə hardan insaf dolub Fəmilə yazığı gəlib?!

Xıdıralı:

- Yəqin saatının xoş vaxtına düşüb, - deyə cavab verdi. - Ama nə deyirlər desinlər, Bağırovun mərdliyi də var. O de, müharibənin bu vur-çatlasın vaxtında Muradlı kəndinə gəlib, orda yetim-yesir uşaqlara internat açdırıb. Sən bir işə bax e, göydən od tökülür, camaat başını soxmağa yer axtarır, Bağırov

da bu iki daşın arasında bir müəllimin sözüynən Muradlıya gəlib, düzdə qalan uşaqlara internat açdırır.

Qaraş:

- Ə, Xıdıralı, - dedi. - Sənin sözündən belə çıxır ki, Bağırov insaflı adamdır?! Bəs onda özcə kəndlimiz Firid oğlu Həbibin bir gecənin içində yoxa çıxmasına nə deyirsən?! Həbibin günahı varıdı? İlim-ilim itirdilər, indi yeri-yurdu da bilinmir! Adın da qoydular siyasi məhbus. Ə, Firid oğlu Həbib hardan siyasi məhbus oldu? Hökumətə güllə atmışdı?! Yol kəsmişdi?! Bank dağıtmışdı?!

Xıdıralı Qaraşla razılaşmadı:

- Əh, sən də saqqal tərpədib söz danışdın, - dedi. - Adam gərək imam üçün ağlayanda, yezid üçün də ağlaya. İndi gəl haqqınan danışaq. Bağırov Firid oğlu Həbibi hardan tanıyır?! Onu da isnad verən burdakı oğraşlardı! Özcə qonşuları at kimi üzünə dirənəndən sonra, yuxarıdakılar neyləsin?! Hamı bilir ki, Firid oğlu Həbibi dünənəcən onun-bunun qapısında yallanan yoluq Məcid satıb. Sən demə, köpəyoğlu NKVD-nin agentiymiş. Əlaltdan işləyirmiş. Gedib gizlincə yazıb verib ki, Firid oğlu Həbib şura hökumətini istəmir... Guya o vaxt anbarın yanmasında Firid oğlu Həbibin də əli var.

Qaraş yenə də öz dediyinin üstündə durdu:

- Əşi, yaşca məndən böyük olsan da, höcət adamsan. Sənnən söz güləşdirməyə təhrim yoxdur...

- Canım, hərənin öz ağlı var. Sən deyirsən o xırsız adamdı, mən də gördüyümü deyirəm, yəni Behbud oğlu Fəmili qazamatdan qurtarması, Muradlı məktəbində yetim-yesir üçün internat düzəltməsi yalan deyil ki?! Mən olanı danışıram, sən havadan eşitdiklərini...

Xıdıralıynan Qaraşın sözü çəpləşdiyindən onların arasında

balaca pərtlik əmələ gəldi. Ona görə də hər ikisi müsahibəni uzatmaqdan vaz keçdi.

Artıq yol yarı olmuşdu. Ətrafa toran çökürdü. Onlar yastı təpənin kiranlıq yoxuşunu aşıb düzə çıxdılar. İrəlidəki Gölcük dərəsinə enməyə yarım verst məsafə qalırdı. Nazimin ağlına hardansa ötəri bir fikir gəldi. Dumanlı bir hiss onu çulğadı: “Birdən dərədə qabağımızı kəsən olar”. O, başındakı kepkanın dimdiyindən tutub aşağı dartdı. Sonra əyilib çarığının bağını bərkitdi. Və ayağındakı bəzəkli yun corabın boğazını yuxarı dartdı. Onun ağlına gələn bu ani şübhə elə həmin andaca yox olub getdi.

Bu dərə hökumət tərəfindən məcburi köçürülmüş və indi yeri bilinməyən Gölcük kəndinin adıyla adlanır. Günün günorta çağı buradan keçəndə adamı vahimə bürüyür. Dərənin dibindən keçən yolun alt tərəfə böyürtkən kolları ilə, hündür qamışlıqla örtülmüş qorxunc uçurumluqdur. Buradan donuzu vursan belə keçməz. Yolun üst tərəfindəki qayalıq meşələrə baxanda adam vahimələnir. Dərədə “qu” deyəndə qulaq tutulur. Xıdıralı qara qatırın uzun yedəyindən bərk-bərk yapışıb qabağa düşmüşdü. Mənzərlə Nazim isə bayaqkı kimi qatırın arxasınca yox, Xıdıralının yanınca gedirdilər. Qaraşın bayaq keçirdiyi hal yavaş-yavaş ötüb-keçmişdi, indi tam özünə gəlmişdi. Onun qırışığı yavaş-yavaş açılırdı. Qaraş papağının dalını qaldırıb xoş əhval-ruhiyyə ilə:

- Xıdıralı, bayaqdan sən üyüdüb tökürsən, biz qulaq asırıq, - dedi. - Aman ver, bir söz də mən deyim.

- Ə, de, dayna, ağzını yummamışam ha, - Xıdıralı cavab verdi.

Qaraş:

- Xıdıralı, nə deyirsən hamısı düppədüzdür, - dedi. - Xırda kəndlərin çoxunu yerli-dibli köçürdülər, yeri qaldı xaraba. Bəs o

biri tərəfini niyə danışmırsan?! Guya ki, böyük kəndlər ağ günə çıxıb?! Niyə uzağa gedirsən? Elə götürək mənim dədəmi. O vaxt olub-qalanını çığırda-çığırda əlindən alıb qoydular kolxoza. İndi də vergidən basıb boynuna, qalıb altında xırtlaya-xırtlaya. İndi dədəm bir aydan çoxdu ayağın diriyib ki, kəndin xeyir-bərəkəti qaçıb. Gəl yığışaq, gedək şəhərə. Dədəmi qınamalı deyil, kişi neyləsin?! Yazı əkinçidi, qışı dilənçi. Mənim o kolxozun kassasından əlimə qəpik-quruş gəlməsə, batar. Sən öləsən, Xıdıralı, belə getsə, kənddə bir başıpapaqlı duruş gətirməz. İndidən ayağı yer tutan tərpənir şəhərə. Çox demirəm, on beş, iyirmi ilə bu kəndlərdə bir adam tapsan, vur məni öldür.

Xıdıralı:

- Hamısı ağılsızlığın ucbatındandır, - dedi. - Balıq başından iylənər. Bütün bunlar yuxarıdakıların günahıdır.

Onlar söhbətləşə-söhbətləşə Gölcük dərəsinin dibinə endilər. Qaraş Xıdıralının sözünün qabağında nə demək istəyirdisə, irəlidəki qayanın arxasından bir nəfər qəflətən sıçrayıb çıxdı yolun ortasına. Və sinəsindəki beşaçılanın lüləsini onlara tərəf çevirərək əlini tətiyə keçirdi. Atəşə hazır vəziyyətdə, boğuq səslə qışqırdı:

- Tərpənməyin! Tərpənməyin! - Qatırı geri döndərin! Qatır qəflətən peyda olan yad adamı görəndə hürküb geri dartındı. Xıdıralı özünü itirmədən noxtanın ucunu əlinə doluyub ayağının ucunu yerə dirədi. Qatır onu bir neçə metr sürüyəndən sonra, fınxırıb dayandı. Qaraş istədi girəvələyib qaçağın üstünə atılsın. Lakin fikirləşdi ki, ölümünü gözünün altına alan silahlı qaçaqla əliyalın adamın qabaqlaşması axmaqlıq olar. Həm də çox güman ki, qaçaq tək deyil, onun yoldaşları həndəvərdə marığa yatıblar. Xıdıralı qaçağın qırımını görüb qatırı geri döndərdi. Qaraş da burada qan tökülə biləcəyini nəzərə alıb Xıdıralıya qoşuldu. Nazim: "Bu əclafı nə boğazlayardım! Onda Xıdıralı ilə Qaraş

köməyimə gələrdilərmi?!" - düşündü. Sonra daxili qərarını dəyişdi, ölçüb-biçdi ki, Qaraşın kürəyində iki adam gizlənər. Lazım olsaydı, gücünü göstərərdi. Hər halda Xıdıralı da, Qaraş da yaşca məndən böyükdülər, ağılları da məndən çoxdur. Belə məqamda əli silahlı adamla öcəşmək olmaz. Nazim bu mülahizə ilə Xıdıralıyla Qaraşa qoşulub qaçağın göstərdiyi səmtə yönəldi. Mənzər isə onlarla getmək istəmədi, dirəndi. Qaçağın qarşısında əlini üzünə, sinəsinə atıb yalvarıb-yaxarmağa başladı.

- Əmi! Ayağının altında ölüm, - dedi. - Mənə dəymə, burax gedim! Kor anamdan başqa heç kəsim yoxdur! Məni onun şikəstliynə bağışla! - deyib, ona tuşlanan tüfəngin açılacağından qorxub, beşaçılanın lüləsinə əl atmaq istədi.

Qaçaq bir neçə addım geri çəkilərək:

- Yaxın gəlmə! - deyib onun üstünə çəmkirdi. - Çox zirziyin çıxartma. Düş qabağıma deyirəm, düş!

...Qaçaq onların dördünü də əsir kimi qabağına qatdı. Və yolun sol tərəfindəki meşəyə döndərdi. Qaçaq özü də səksəkə içərisindəydi, tez-tez ətrafına şübhəli nəzər salırdı. Amma gözünün biri qabağına qatdığı adamlardaydı. Onları yoldan tez aralamaq üçün yerdən bir daş götürüb qatırın ombasına ilişdirdi. Və Xıdıralını da tüfəngin lüləsi ilə irəli itələdi.

Orta boyu, tökmə bədəni olan qaçağın əlindəki beşaçılandan başqa, onun belində qınının ucu köşə ilə sarınmış gümüşü xəncər var idi. Pencəyinin altından patrondaş da görünürdü. Qaçağın tərpənişi ovunu haqlayan şirin cəldliyini xatırladırdı. Yoldan aralaşanda qaçaq:

- Biz yeddi nəfərik, - dedi. - İçimizdə ən yaşlısı mənəm. Aranızda qadın, uşaq olduğu üçün üstünüzə məni göndərdilər. Cavan göndərmədik ki, sizinlə dil tapmaz, əlindən xata çıxar.

Qaçaq belə deyəndə Xıdıralı da, Qaraş da, Nazim də hesabı içəri verdilər. Başa düşdülər ki, qaçağa müqavimət göstərmək

olmaz. Onlar çoxdular, tək bir adam olsaydı, ayrı məsələ. Elə təkcə Qaraş ona bəs idi. Heç Xıdıralı da qaçağa bac verməzdi. Onlar dinib-danışmadan silahlı adamın qabağına düşüb meşəyə tərəf yönəldilər. Aydın məsələydi ki, ölümə gedirdilər. Nazim ilk dəfə qaçağı görəndə bərk qorxdu. Onun ağzında tüpürcəyi qurudu, dili-dodağı təpidi. Ancaq indi o qədər də həyəcan keçirmirdi. Lakin onu bilirdi ki, qaçaq onları qətlə yetirib, sonra da olub-qalanlarını qarət etmək üçün meşənin dərinliyinə çəkir. Nazim başına nə gələcəyini əvvəlcədən gözünün qabağına gətirdi. O, belə düşünürdü: "Yəqin qaçaq belindəki xəncərlə bir-bir başımızı kəsəcək. Yoox, belə etməz. Çünki birimizi yerə yıxsa, o birimiz qaça bilərik. Onda hamımızı cərgəyə düzüb bir-bir güllələyəcək. Bəlkə də ayrı cür elədi. Sıraya düzüb, elə bircə güllə vurdu. Beşatılanın qabağında nədir ki. Bir gülləsi dördümüzün də ortasından keçər"...

Qəribədir, ölüm kənardan çox dəhşətli görünür, lakin ona yaxınlaşdıqca vahiməsi uzaqlaşır. Nazim ölüm məqamının yetişdiyini görürdü. Lakin çəkəcəyi əzabı o qədər də eyninə almırdı. Özünü tox tutmuşdu. Onlar hündür palıd və vələs ağaclarının arasından keçib, o qədər də geniş olmayan açıq bir talaya çıxdılar. Buradan yalnız tək-tük ulduzlar işıldayan göy qübbəsindən, bir də ki, onları əhatə edən qalın meşələrdən, hündür qayalardan başqa heç yer görünmürdü. Qaçaq geri çəkilib qeyzlə:

- Qatırın yükünü açın, özünüzün də nəyiniz var, qoyun ortalığa! - dedi.

Xıdıralı qatırın noxtasını yaxınlıqdakı qurumuş ağacın kötüyünə bağladı. Əvvəlcə yoldaşlarının bağlamalarını açıb qoydu yerə. Sonra un kisələrini bir-bir qucağına alıb, hıqqana-hıqqana mamırlı daşın dibindəki yumşaq otun üstünə qoydu. Qaçaq indi özünü sərbəst aparırdı. Onun bayaqkı qəzəbi

soyumuşdu. Danışığından mərhəmət işığı sezilirdi. O, tüfənginin qundağını yerə qoyaraq, səksəkəli baxışlarıyla ətrafa yoxlayıcı nəzər saldı və sonra kədərli ah çəkdi. Üzünü Qaraşla Xıdıralıya tutaraq:

- Yeməyə bir şeyiniz var? - soruşdu.

- Ağlımıza gəlmədi ki, sizinlə rastlaşarıq. Yoxsa yavanlıq götürərdik - Xıdıralı ehtiramla cavab verdi. - İki buxanka dükan çörəyimiz var, bir də ki, yer-yemiş almışıq.

Qaçaq on-on beş metr kənara çəkilib çoxdan kəsilmiş ağac kötüyünün üstündə oturdu və tüfənginin qundağını çarığının dabanına dirəyib, lüləsini qabaq tərəfdən çiyninə söykədi. Xıdıralı ona bir buxanka çörək və xoş iyi gələn sarı yemiş uzatdı. Qaçaqsa cibindən uzun və iti tiyəsi olan bıçağını çıxardıb əvvəl yemişi dilimlədi, sonra çörəkdən əl boyda kəsdi. O, yemişi çörəyə yavanlıq eləyə-eləyə:

- Dişim yaxşı tutmur, yemişlə isladıb birtəhər uduram, - dedi. Və udquna-udquna əlavə etdi. - Allah kəssin, bu da bir gündirilik deyil. Dustaqlıq qaçaqlıqdan min dəfə yaxşıdır.

Qaçağın boğazından çörək keçmirdi. O, tələm-tələsik iki dilim yemiş, bir loxma da çörək yedikdən sonra Xıdıralı ilə Qaraşa nəzər yetirdi. Hiss olunurdu ki, azad həyat sürən bu adamlara həsəd aparır. Qaçaq dərindən köks ötürdü:

- Yəqin ilahidən qismətim beləymiş, - dedi. - Taleyim elə gətirib ki, sizin kimiləriynən dolanıram. Başqa çarəmiz yoxdur. Bu saat yoldaşlarım məni gözləyir. Neçə gündü bu meşələrdə ac qurd kimi gəzib-dolanırıq.

Qaçaq ayağa qalxdı. Onun bu cür yumşaq və niskilli danışmasına baxmayaraq, bir an ehtiyatı əldən qoymurdu. Özünü çox sərvaxt aparırdı. Hər dəqiqə təhlükə gözləyirdi. Elə bil bütün bu dağ, daş, qaya, yal-yamac qırmızıların qırıcı batalyonu kimi onu güdür və qaçağı ələ keçirmək üçün sanki adi

kollar da fürsət axtarırdı. Qaçaq burada bənd elədiyi üç kişinin, xüsusilə də bir kənarda qısılıb oturmuş Mənzərin keçirdiyi daxili qorxunu aydınca hiss edirdi. Ona görə də onları arxayınlaşdırmaq üçün:

- Məndən ehtiyat etməyin, - dedi. - Siz ocağımızın başına toplaşan balalarımsınız.

Qaçaq bunu deyib fikrə getdi. Və başını qaldırıb soruşdu:

- Müharibədən xəbəriniz varmı?

- Bəli, radiolar, qəzetlər bu barədə tez-tez xəbər verirlər. - Qaraşla Xıdıralı ikisi də bir ağızdan cavab verdilər.

- Hitlerin qoşunu haracan gəlib? - qaçaq dərin maraqla soruşdu.

- Deyilənə görə Mahaçqalaya çathaçatdadır.

Qaçaq:

- Sizin kənddə də qayıtmayan çoxdur?!

Qaraş:

- Bəli, - dedi. - Otuz birinin qara kağızı gəlib. On yeddisinin də nə öldüsü bilinir, nə də ki qaldısı. Qayıdanlar da şil-axsaqdır. Elə biri mən özüm, yarımcanam, - o, qaşının üstündəki yarasının yerini göstərdi.

Qaçağın zəhmli baxışları kədərli ifadə aldı:

- Bizim bu torpaqlara çoxlu basqınlar olub, - dedi. - Amma eşitməmişəm ki, kənar millətlər bircə dəfə də olsun harayımıza gəlsinlər. Əksinə, xaçpərəstlər bizi həmişə xamlayıblar. Millətimizə badalaq gəliblər. Onların tələsindən hələ də qurtara bilmirik. Bizim gül kimi balalarımız isə basa-basa gedib dünyanın o başında urus, Ukrayna torpaqlarından ötrü qan tökürlər. Onu qanan var?!

Qaçağın bu cür söhbətindən sonra onların qırışığı bir balaca açıldı. Xıdıralı ürəklənərək:

- Soruşmaq ayıb olmasın, necə olub ki, bu yola düşmüsən, - dedi.

Bu sual elə bil qaçağın yaralı yerinə toxundu. Onun kinli baxışları sərtləşdi və tüfənginin lüləsinə dirsəklənərək:

- Namus üstündə olub, - cavab verdi və susdu.

Ortalığa ağır sükut çökdü. Bircə qara qatır heç bir şeyə fikir vermədən uzun quyruğuynan yançaqlarını döyəcləyə-döyəcləyə, onu zinhara gətirən milçəkləri qovur və mal dırnağı dəymiyən xam yerin çiçəkli otlarından ləzzətlə yeyirdi. Qatırdan olsa, gecəni elə buradaca qalardı. Onun nə vecinə.

Qaçaq başını qaldırıb qarşısında dayananlara küt nəzər saldı:

- Qaçağam, - dedi. - Soyğunçuluğa qurşanmışam. Yəqin ki, üzdə deməsəniz də, ürəyinizdə məni lənətləyirsiniz. Söysəniz də haqqınız var. Çünki məni quldur kimi tanıyırsınız. Evinizə getdiyiz yerdə sizi yoldan eləmişəm. İndi nəyiniz var, əlinizdən alacağam. Buna məcburam, başqa çarəm yoxdur. Bayaq dediyim kimi, bax, bu dəqiqə yoldaşlarım bizim pusqumuzda dayanıb. Ağıllı iş gördünüz ki, əl qaldırmadınız. Yoxsa çoxdan gəbərmişdiniz. Elələri çox olub. Qabağımıza çıxanda axmaq-axmaq xoruzlanıblar. Biz də məcbur olub o dünyalıq eləmişik. Əli silahlı adamla bəd rəftar etmək səfehlikdir. Yüz qarğaya bir sapad daşı. Dörd yox, illaf, əlli adam olun, silahın qabağında neyləyə bilərsiniz?! Amma sizdən xoşum gəldi. Adam balası kimi qabağıma düşdünüz. Heç kim istəməz ki, əlini qana bulasın. Amma bəzən adam məcbur olur...

Qaçaq bunu deyib duruxdu. Onu sanki qəhər boğdu:

- Bu yaşımda, gördüyünüz kimi, dağa-daşa düşməyimin səbəbi də adam öldürməyim olub. Bəli, bəli, əlimi qana batırmışam. Necə olsa, müsəlmansınız. Qoy deyib, ürəyimi boşaldım. Onda başa düşərsiniz ki, fikirləşdiyiniz qədər də əclaf, namərd adam deyiləm. Ancaq namusu itə atıblar, it

yeməyib. İnsan belədi ki, yaxşı-yaman bir müddət yaşayıb ömür sürür, sonra da bir gün tez, bir gün gec ölüb gedir. Ancaq ad yüz illərlə qalır. Ona görə də gərək əvvəl ad-sanını qoruyasan. Özündən sonra gələnləri düşünəsən. Kişiyə biqeyrətçilik yaraşmır. Mənim özüm də elə namusa boğulduğumdan bu günə düşmüşəm. Bu cür yaşamaq çətin olsa da, mənə xoşdur. Canım cəhənnəm, daşların üstündə də yataram, aclığa da dözərəm, təki camaata qınaq yeri olmuyum. Binamusçuluğun damğasından yaman dərd yoxdur. Adam gorda da onun əzabını çəkə bilməz. Cəhənnəmin odu ondan qat-qat yaxşıdır. Bax, mənim də xəmirim belə yoğrulub, namus ucbatından çöllərə düşmüşəm. Bu yaşımda sərsəri həyat sürürəm.

Qaçaq belindəki gümüşü xəncəri geri çəkib, tüfəngin qayışını qoluna keçirdi:

- Məni hardan tanıyırsınız?! - dedi. - Sizin ağlınıza gəlməyən uzaq bir rayondanam. Həyatımız belədir. Yerimizi tez-tez dəyişməliyik. Ayda bir məmləkətdə oluruq. Çünki dəstəmizi izləyirlər. Rayonlarda qırıcı batalyonlar yaradılıb, hərəsinin də əlinə bir tüfəng veriblər. Onlar bizim arxamıza düşüb, gecə-gündüz qarabaqara izləyirlər. Hər dəqiqəmiz ölümdür. Bu gündən sabaha ümidim yoxdur. Ancaq elə bilməyin ki, ölümdən qorxuram. Qətiyyən yox! Ölüm Allah əmridir, ondan qaçmaq olmaz. Ancaq fərq orasındadır ki, biri var əcəlinlə evində ölməsən, arvad-uşağa vəsiyyət eləyə biləsən. Vəsiyyət yüngüllükdür. Biri də var getdiyin yerdə qəfil gülləyə gələsən, meyidin çöllü-biyabanda qala, cəsədin qurd-quşa yem ola. Bir də ki, əslinə qalsa, elə ölüm ölümdür. Ya elə, ya belə. Mən qaçaqlığın yoluna qədəm qoyan gündən ölümü gözümün altına almışam.

Qaçaq dörd bir tərəfə boylandı. Şər təzəcə qarışırdı. Hava tam qaralmamışdı. "Əsirlər" daxili narahatçılıq keçirirdilər.

Onlar qaçağın caynağından necə, haçan qurtaracaqlarını düşünürdülər. Bunu qaçaq da hiss eləyirdi. O, Xıdıralı ilə Qaraşa tərəf dönüb, başını yellədi:

- Yoox, sizi bu tezliklə buraxa bilmərəm, - dedi. - Şər deməsən xeyir gəlməz. Tutaq ki, buraxdım, yola çıxanda NKVD-nin adamları və ya qırıcı batalyonun silahlı dəstəsi ilə rastlaşdınız. Onda nə deyəcəksiniz?! Yəqin deyəcəksiniz ki, qaçaqlar qabağımızı kəsmişdi. Nəyimiz vardısa alıb, bizi lüt yola saldılar. Ay-hay! Onlar da tökülüb bizi burada mühasirəyə alıb qırsınlar?!

Xıdıralı ilə Qaraş and-aman elədilər ki, bir daş altda, bir daş üstdə! Bu söhbətlər buradaca qaldı. Nə dəvə görmüşük, nə də ki, qırğın. Quran gətir, and içək, nə sən bizi görmüsən, nə də ki, biz səni.

Xıdıralı əyilib çörəkdən bir tikə kəsdi:

- Qurandan qabaq gəlib, - dedi. - Bu çörək bizə qənim olsun, hamımızı dara çəksələr də sizi gördüyümüzü boynumuza almarıq. Sən hara, biz hara. O barədə min faiz arxayın ol. İçimizdə qadın var, bizi burax, gedək.

Qaçaq qaş-qabağını salladı:

- Allahı-peyğəmbəri bura qatmayın, - dedi. - Bunun xeyri yoxdur. Keçəl suya gedən deyil. Sizin kimilərini dişimə çox vurmuşam. Dar ayaqda yağlı dilinizi işə salıb yalvarırsınız, bir balaca genişliyə çıxanda olursunuz bambaşqa adam. Bir də ki, hələ söhbətimi tam qurtarmamışam. Soruşdunuz ki, niyə bu yola düşmüsən, mən də onun səbəbini deyirəm.

- Ha! Ha! - o, istehza ilə güldü:

- Tələsməyin, - dedi. - Niyə tələsirsiniz?! Axı, mən də insanam. Adama çörək kimi, həmsöhbət də lazımdır. Allah təkliyi itə də qismət eləməsin. Dərdimi kimə isə deyib, ürəyimdəkiləri boşaltmaq istəyirəm. Başıma çox qəzavü-qədər

gəlib. Deməklə qurtaran deyil. Hə, bayaq sözüm yarımçıq qaldı. Qaçaqlığımın səbəbini demədim. Qulaq asın axıracan, danışım, qurtarım, sonra sizi buraxaram.

Qaçaq təzədən sözə başladı:

- Gözümün ağı-qarası iki balam var idi, - dedi. - Biri oğlan, biri də qız. Oğlanı əsgər apardılar. Özü də çox öddək uşaq idi. Bir az da tərsliyi var idi. Nə təhər oldusa, heç üç ay keçməmişdi, qara xəbəri gəldi. Görənlərin deməsinə görə, guya elə özümüzünkülər vurub. Hücum vaxtı qəməndir-peryod! - deyib. Oğlum da kənd uşağıdı, rucsa hardan bilsin. Komandirin əmrini başa düşmədiyi üçün yerindən gec tərpənib. Komandirin də nə vecinə?! Gədənin təpəsini verib güllənin ağzına. Onu nə zülm ilə böyütmüşdüm. Babalı deyənlərin boynuna. Bir başqası da danışırmış ki, qəməndir yox, elə onnan bir qabda çörək yediyi Saşa adlı əsgər oğluma lağloğazla-yoldaşı yibyomat! - deyib arxadan vurub. Tay imanımı yandırıb hansı düzdü, hansı əyridi deyə bilmərəm. Bir də ki, təzədən onu bilib-bilməməyimin nə faydası var?! Dədəm öldü, ya vəlvələdən, ya zəlzələdən. Ölüm ölümdü, istər o cür olsun, istər başqa cür. Mənim kisəmdən getdi. Arvad da ki, necə olsa anadır. O ki var ağlayıb, sızlayıb, axırda yorulub oturdu yerində. Sonra ölçüb-biçib dedim, arvad, tay onlardan keçib, gəl sənli-mənli fikirləşib, qızı bir halal süd əmmişinə verək. Sonra da salaq evimizin içinə. Bizə həm yeznə olsun, həm də oğul. Arvad da mənnən razılaşdı. Razılaşdı deyəndə, arvadın nə həddi var, kişinin bir sözünü iki eləsin. Ancaq məsəl var ki, sən saydığını say, gör fələk nə sayır. Mən özüm də elə o Fin müharibəsindən qayıdandan sonra, neçə illərdi yol idarəsində işləyirdim. Səhərdən-axşamacan əlimdə lapatka fəhləlik eləyib, yolların çala-çuxurunu düzəldib, daş-qayasını təmizləyirdim. Bir gün axşamtərəfi evə qayıdanda gördüm ki, qapımızda yığıncaq var. Sən demə, qızı bulaqdan

gəldiyi yerdə kolxozun şoferi çığırda-çığırda maşına basıb aparıb. Tay əlim hara çatır. Bir istədim milisə, prokurora şikayət eliyim. Ancaq fikrimdən daşındım. Çünki onlara etibar yoxdu. Milisi də, prokuroru da qanun yox, pul maraqlandırır. İndi hər şey pulun başındadır. Mən də ki, fəhlə babayam. Bir heylə pulum hardaydı, ateydim onların ağzına. Əlqərəz gördüm iş-işdən keçib. Qıza da ki, bir başqası əl vurdu, oldu it dəymiş ayran. Təzədən ona kim sahib durar?! Heç kim! Fikirləşdim ki, neynəyək, qaçırıb-qaçırıb, əvvəl-axır bir qız bir oğlanındı. Səbr eləyim, görüm axırı nə olur. Qız qaçırmaq elə dədə-baba adətimizdi. Çox ola bilsin qız elə öz könlüynən gedib. Məsəl var, inək göz eləməsə, kələ sıçramaz. Yəqin qız özü oğlana dil verib. Dalınca gedərəm, qız oğlanın tərəfində durar, deyər özüm gəlmişəm, olaram yüngülsaqqal. El içində hörmətdən düşərəm. Ona görə də səsimi saldım içəri. Tay hay-küy qaldırmadım. Dedim bəlkə xeyir bundadır. Bu gün-sabah el adətiynən barışığa gələrlər, toyların eliyərik, qurtarıb gedər. İki gündən sonra qızı gözüyaşlı qaytardılar üstümüzə. Gözlərinin altı da gömgöy. Sən demə, qız getmirmiş, o qədər döyüblər ki, sağ isdahatı qalmayıb. Bundan sonra qızla nə danışım?! Anası qızı dilə tutdu... həə! Siz də məni bağışlayın. Oğlan qıznan iki gün keyfini çəkəndən sonra deyib mənə lazım deyilsən. Çıx get atanın xarabasına. Oğlan onu da deyib ki, yol fəhləsinin qızı mənə lazım deyil. Evlənsəm də varlı-hallı, adlı-sanlı yernən qohum olaram. Əvvəlcə qıza inanmadım, dedim, öyrənim görüm bu nə məsələdir... Gədə dul bir qadının oğluydu. Anası sifariş göndərdi ki, oğlum içkidən baş açmır. Qızı da kefli olanda qaçırıb. İndi də nə illaf eliyirəm, yaxın durmur. Deyir ki, hələ evlənmirəm.

Qaçaq nəfəsini dərib:

- Hansınızda papiros olar, - soruşdu.

Xıdıralı əlini cibinə salıb bir “Kazbek” qutusu çıxartdı. Və

qaçağa uzatdı. Qaçağın kibriti var idi. O, bir papiros götürüb yandırdı və acgözlüklə tüstünü içəri çəkdi. Qaçaq danışdıqca həyəcanlanır, hirsindən sir-sifəti səyriyirdi:

- Məcbur olub məsələyə özüm qarışdım, - qaçaq söhbətinə davam etdi. - Tay-tuşlarından birinə üz vurdum ki, həmin o qancığın qarnından çıxanı mənimlə görüşdürsün... Gəlmədi, məcbur olub özüm onun ayağına getdim. Oğlana çox dil tökdüm. Dedim cavansan, nə olub-olub, gəl daşı ətəyindən tök, qızı apar zakslat, yüngülvari bir yığıncaq da elə, qurtarsın, getsin. Bu yük mənim üstümdən götürülsün. Əgər imkanın yoxdursa, neynək, xərci də mənim boynuma, ulduzunuz barışar, bir yerdə yaşayarsınız, mən də ollam sizin atanız. Yoox, gördün ki, xasiyyətiniz tutmur, qız ürəyinə yatmır, neynək, yenə qanunla boşa. Mən buna da razıyam. Təki bu töhmət yükünün altında qalmayım. Mən də özümə görə bir kişiyəm, dostum var, düşmənim var. Məni el içində xar eləmə. Sonra bu işin axır-aqibəti yaxşı olmaz.

Qaçağı hirs boğurdu. Onun səsi kallaşdı:

- Boğazım qurudu, - dedi. - Bir qurtum su olsaydı, içərdim. O, dilimlədiyi yemişdən ağzına qoyub, sözünə davam elədi:

- Xülasə, mən çox dedim, oğlan az eşitdi. Gördüm yox e, gədə Allah deyəndən demir, mən yalvardıqca o, ayağını yuxarı qoyur. Dedim, oğul, lənət de şeytana, mənim başımı yerə soxma. Məcbur eləmə ki, səni də, özümü də birtəhər eliyim. Gədə mənə güldü. Dedi sənin qızın mənə lazım deyil. Özün də əlin hara qəlbidi, ora qoy. Dedim a dul arvad oğlu, sən sən ol, mən də mən... Qapını vurub çıxdım. Bir həftə də gözlədim. Oğlan tərəfdən səs çıxmadı. Qız könlüynən getmiş olsaydı, əvvəlcə onu öldürərdim. Ancaq onda təqsir yox idi. Oğlan özü kimi avara bir əmisi oğluynan köməkləşib qızı aparmışdı. Nə gecəm gecə oldu, nə də gündüzüm gündüz. Dərd məni əydi,

namus dərdi, qeyrət dərdi! Axırda, sapı gödək bir rus baltası almışdım, onu çarxçının yanına aparıb, yaxşıca-yaxşıca ovxarlatdım. Çarxçı baltanı nə təhər itiləmişdisə, ülgüc kimi tük aparırdı. Baltanı evdə hazır qoydum. Oğlan bir gün atı kəndin ayağındakı bağda hörükləməyə aparanda, baltanı pencəyimin altında gizlədib, düşdüm dalına. Gözlədim, atı hörükləyib qurtaranda, aldım başının üstünü. Gördüm ki, gədə məni heç milçək yerinə də qoymur. Məni görəndə üstimə cojudu. Dedi nədi, nə at milçəyi olub qopmursan! Bilmirsənsə, deyim bil, sənin qızını tək mən yox, ikimiz aparmışıq... Əmim oğluynan. Qız ikimiznən də olub. Təzədən o qız nəyimə lazımdır...

Qaçağın gözlərinə qızartı çökdü. Onun qaşları çatıldı. Alnının qırışları sıxlaşdı. Bədəni titrəməyə başladı:

- Gör e, indi siz bir işə baxın, - dedi. - Özünüz də atasınız, anasınız. Nə zillətlə qız böyüt, ərsəyə çatanda dərənin iki avara gədəsi aparıb başına pis oyunlar açsınlar. O şofer gədə, ikimiz aparmışıq deyəndə, ağlım başımdan çıxdı. Baltanı necə təpəsinə endirdimsə, heç özüm də bilmədim. Böyük tikəsini qulağı boyda elədim. Onu orda qoyub əmisi oğlunun dalınca getdim. Ancaq onu tapmadım. Fikirləşdim ki, bu hadisə rayona çatan kimi məni damlayacaqlar. İkinci oğraş sağ qalacaq. Ona görə qaçaqçılığa qurşandım. Babamın Nikolay vaxtında tövlənin axurunda gizlətdiyi bu beşatılanı çıxardıb, silib-təmizlədim. O gorbagor şoferin əmisi oğlunu da gecə yatdığı yerdə öldürdüm. Bax, mənim macəram belədir. O ki qaldı özümə, üzə çıxmağımdan keçib. Demirəm, bəlkə Hitler buraları götürə, maa da bir işıq ucu ola. Yoxsa qırmızı partizanlarla, NKVD-nin adamları ilə haçan rastlaşaram, rastlaşaram. Əcələ aman yoxdur. Boynumdakı namus yükünü atandan sonra o dünyada rahatca yataram.

Mənzər kənarda əlini əlinin üstünə qoyub kirimişcə oturmuşdu. Qaçağın onu buraxacağına gümanı az idi. Düşünürdü

ki, yəqin bunları buraxıb, məni saxlayacaq. Qaçağa nə etibar var?! Mənzərin ağlına yüz cürə fikir gəlirdi. Bayaqdan bəri onunku ona dəymişdi. Allah bilir, içəridən nə çəkirdi. Anası da yadından çıxmışdı, indi öz canının harayındaydı. Hər yana yayılacaq ki, Mənzəri qaçaq saxlayıb. Bircə təmiz adım varıdı, o da belə getdi. Birisiynən söz-sözə gələndə bu məsələni üzümə çırpıb deyəcək ki, qaçağın dizinin altından çıxmısan. Get, öz eybinə kor ol. Nə pis yerdə axşamladıq, ilahi! Neçə ilidi gül kimi təmiz ad saxlamışam. Kaş qıçım qırıleydi, bu gün şəhərə getdiyim yerdə. Qaçaq mənnən başqa cür rəftar eləsə, özümü bircə gün də salamat qoymaram. Ya özümü çaya atıb öldürərəm, ya da ki, zəhərdən-zaddan içərəm. Qadının ki adına söz çıxdı, elə ölsə yaxşıdır. Mənzərin ağlına belə-belə qaranlıq fikirlər gəlirdi. Ancaq onu da fikirləşirdi ki, indiki gədə-güdələrə baxma, bu cür kişilərdən adama zaval gəlməz. Nazimin də gözü onda qalmışdı. Gah qaçağın bazburutuna baxırdı, gah da Xıdıralıynan Qaraşa. Elə bil sehrli aləmə düşmüşdü. Nazimə elə gəlirdi ki, Fatma nənəsinin cəhrə əyirə-əyirə ona danışdığı nağıllarda olduğu kimi, meşənin arasındakı xırman boyda talada baş verən möcüzəyə tamaşa edir.

Qaçaq sözünü tamamlayıb qurtarandan sonra bir neçə dəqiqə tərəddüd keçirdi. Onun tük basmış zəhmli sifəti tutqun və qorxulu idi. Öz-özüylə danışırmış kimi gözləri yerə dikildi. Artıq tüfəng qaravoldan düşmüşdü. Dağ-dərə hiss olunmadan qatılaşmaqda olan qaranlığın dərinliklərinə qərq olub, gözdən itirdi. Aşağıdakı uçurum dərə, yaxından axan haylı-küylü çayın sərin mehini çəkib öz çiçəklərinin ətri ilə birlikdə meşənin ətəklərinə yayırdı. Qaçaq daxili qəzəb və nifrətini süni mehribançılığı ilə pərdələyərək:

- Yaxşı, söhbəti qurtaraq, - dedi. Görürəm getməyə də darıxırsınız. Amma mən sizdən betər tələsirəm. Yoldaşlarımın

gözü yoldadır. Hə, indi deyin görüm, bu iki kisə undan başqa daha nəyiniz var? - qaçaq soruşdu.

Qaraş cibindən pul çıxardıb ona uzatdı:

- Olub-qalanım budur, - dedi. - Beş yüz manatdır.

Xıdıralı:

- Un mənimkidir, - dedi. - Bir də üç yemişdi, altı dənə də paltar sabunu.

Nazim də cibini qurdalayıb yüz əlli manat pul çıxartdı. Ancaq qaçağa uzatmadı. Könülsüz-könülsüz ortalığa toplanan payların üstünə tulladı.

Qaçaq Mənzərə nəzər salaraq:

- De görüm, sizin nəyiniz var, qızım? - Soruşdu:

Mənzər ortalıqdakı bağlamaları göstərdi:

- Üç əl-üz sabunudu, beş paltar sabunu, yeddi metr sətin parçadı, iyirmi metr cunadı, bir də ki, doxsan manat pul.

Qaçaq:

- Yaxşı-yaxşı fikirləş! Bəlkə yadından çıxan var, - soruşdu.

Mənzər yaxasını yırtıb and-aman elədi:

- Əmi, nəyə deyirsən and içim, olanım budur! Bircə spiçkam olsa da, sizdən müzəyiq eləmərəm.

Qaçaq Mənzərə təmkinlə:

- Ortalıqda nəyin varsa, ayır qoy bir qırağa. Dəqiq bilmək istəyirəm ki, sizdən nə alıram.

Mənzər bayaq sadaladığı şeyləri qaşlı üzük taxılmış incə barmaqları ilə bir-bir seçib yığdı bir kənara.

Qaçaq təkrar soruşdu:

- Tay bir şeyin qalmadı ki?!

- Xeyr, elə olanım budur, - Mənzər cavab verdi.

Qaçağın təkcə Mənzəri bu cür sorğu-suala tutması şübhə yaratdı. Qaraşla Xıdıralı fikirləşdilər ki, yəqin qaçağın Mənzər barədə məramı başqadır. Onların hər ikisi bir-birindən xəbərsiz

daxilən belə qərara gəldilər ki, qaçaq Mənzərə toxunsa və ya ona qarşı əl-qol atıb, nalayiq hərəkət eləsə, öldü var, döndü yoxdu, Allah ya qaçağa verər, ya da ki bizə. Mənzəri ələ versək, el içinə çıxa bilmərik. Nə olsun ki, onlar çoxdu, hamısı da silahlıdı. Yəni axırı ölüm deyil, qoy öldürsünlər? Hamı bilər ki, Mənzərin üstündə bədifaniyə getmişik. O cür ölmək yaxşıdı, nəinki qadını qaçağın cəngində qoyub özün aradan çıxasan...

Qaçaq Mənzərin ayırıb kənara qoyduğu şeyləri diqqətlə nəzərdən keçirib, üzünü ona tutdu:

- Qızım, - dedi. - Nəyin var, hamısını götür! Sənin bir çöpün də mənə lazım deyil. Necə olsa, müsəlmanıq. Bu dünyada qadın qarət eliyib, o dünyaya şuğulüzlə gedə bilmərəm. Azadlığımı itirsəm də, müsəlmançılığımı, namusumu itirməmişəm. Nəyin var, yığışdır götür.

Qaçağın bu sözünə hamı mat qaldı. Mənzər ürəklənib ona yalvardı ki, ağlına ayrı şey gəlməsin, vallah sidq ürəkdən deyirəm. Heç olmasa, sabunları götür, çölçü adamsan, saa lazım olar. Mən onları hardan olsa taparam.

Qaçaq Mənzərə etiraz etdi:

- Söz bir olar! Dedim, qurtardı! Sənin maa heç bir şeyin lazım deyil. Qadının mağduruna göz dikən kişi getsin boğazına çatı salsın.

Qaçaq belə deyəndə Xıdıralının ayağı yer aldı:

- Əmoğlu, bir söz də mən demək istəyirəm, axı!

- Buyur, de, - qaçaq dilləndi.

- Buyurmağım odur ki, elə bir yönlü vəzifəm-zadım yoxdur, məktəbdə zavxoz işləyirəm. Aldığım da nədir?! Heç nə! Ayda altı yüz manat. Bir çətən də külfətin sahibiyəm. Qonşudan iki pud borc un almışdım, onu da arvad bir-iki dəfə xamır eliyəndən sonra qurtardı. Bu gün şəhərə gəlməyimin də səbəbi odur ki, bir az un tapıb qonşunun borcunu verim. Qalanını da qoyum

uşaqların başının altına. İndi bu iki tay unu ki, əlimdən alırsan, al, halalın olsun! Ancaq mümkün olsaydı, ikicə pudun qaytarardın. Heç olmasa, aparıb qonşunun borcunu verərdim. Özü də heç bilirsən pudunu neçəyə almışam?! Dükançıdan əl qiymətinə. Düz səkkiz yüz manata.

Qaçaq un kisələrinə baxıb fikrə daldı və əlini aparıb sifətindəki fındıq boyda ziyili qurdalaya-qurdalaya:

- Neynək, etiraz eləmirəm. Ras deyirsən, unun bir tayını götür. Əlacım olsaydı, tayların ikisini də qaytarardım.

Xıdıralı tez:

- Yox! Yox! - dedi. - Allah balanı saxlasın! Elə bir tayı bəsdir.

Qaçağın hərəkətlərində özünə inam və ötkəmlik hiss olunsa da, qorxunun onun qəlbinə yol tapdığı sezilirdi. O, geri çəkilib, tüfənginin sürtülmüş qayışını çiyninə keçirdi. Və şax dayanaraq:

- Ay uşaqlar, - dedi. - Üzüqaralıq eliyib bir az şey-meyinizi aldım. Mənimki də belə gətirib, başqa çarəm yoxdur. Buna məcburam. Ancaq sizdən bir təvəqqəm var.

- Buyurun, - Qaraşla Xıdıralı dilləndilər.

Qaçaq:

- Dünya ölüm-itimdir, - dedi. - Mən də nə bilmək olur, bu gün varam, sabah yox. Verdiyinizi halal eliyin.

- Ananın südü kimi halal olsun, - onlar bu sözü deyəndə Xıdıralının səsi hamısından gur çıxdı.

Qaçağın zəhmli baxışları birdən-birə ciddiləşdi:

- İçinizdə qadın olduğu üçün sizi çox saxlamaq istəmirəm, - dedi. - Gedin! Ancaq orda-burda ağzınızı boş qoyub çərənləməyin. Bu söhbət bir yana çıxsa, özünüzdən küsün. Öküzün buynuzunda gizlənsəniz də tapıb hesabınızı çürüdəcəyəm. O, tüfəngini çiynindən aşırıb, çaxmağını geri çəkdi və beşaçılanın ağzına bir patron verdi. Qaçaq ətəyində

Gölcük kəndinin xarabalıqları olan təpənin üstünə tərəf dolaylandı. Xıdıralıgilin dəstəsi dərədəki yola endilər. Bu yol Gölcük kəndinin uçurumları arasından keçib çayın sahilinə enir. Təpənin naməlum yerindən qaçağın hənirtisi gəlirdi. Aydın məsələydi ki, qaçaq bilmək istəyirdi ki, burada onlara qırıcı batalyonun adamları rast gəlir, ya yox...

* * *

Bu əhvalatlar müharibənin əvvəllərində baş vermişdi. Onda Nazimin bığ yeri hələ tərləməmişdi. O vaxtdan gör neçə il keçir? Nazim İlham həmin gün başına gələnləri xatırladı. Elə bil bunlar dünən olmuşdu. Əslində, Nazim İlhamı o qanlı-qadalı illər, bir məsələ çəkib aparmışdı. Canından bezən bir qaçağın, yol kəsənin Mənzərlə o cür xoş rəftar etməsi və deməsi ki, qadının mağduruna göz dikən kişi, getsin boğazına çatı salsın. Və Mənzərin əlindən heç nə almaması. Amma Qeysərzadə kimi?! Cibində bilet gəzdirməsi bir yana qalsın, partiya sıralarının artması və ya ləkəli adamlardan təmizlənməsi kimi vacib bir işin ona tapşırılıb, etibar olunması Nazim İlhama yer eləyirdi. Xəyalının güzgüsündə Qeysərzadə ilə, canından bezib, ölümünü gözünün altına alıb çöllü-biyabanda vəhşi həyat sürən qaçağı üz-üzə qoyurdu. Onları müqayisə etdikcə, partiyaya və quruluşa qarşı qəlbində baş qaldıran ümidlə, ümidsizliyin amansız çarpışması onu üzüb əldən salırdı. Qeysərzadənin, fitrə-sədəqə düşən səqir qızdan pul təmənnasında olması və bu səbəbdən də Bəsirənin partiya işinin pozulması söhbətini eşidəndən bəri özünə gələ bilmirdi. Sanki söykənib, qərar tutmağa mümkünatı olmayan intəhasız, sonu görünməyən boşluğa düşmüşdü. Əli yerdən-göydən üzülmüşdü.

- "İndi neyniyəsən, bundan yaxşı fakt? Amma yazmaq olarmı ki, raykomda alver baş alıb gedir. Partiya bileti də pulunandı. O

boyda rayon başçıları kimsəsiz qızdan da pul umurlar. Yazsaq da, senzuradan keçirmək olarmı?! Belə məqalənin üstündə bütün redaksiyanın külünü göyə sovurarlar" - Nazim düşündü. Onun gözlərinə qatı qaranlıq çökdü. Başı gicəllənən kimi oldu. Özünü birtəhər ələ alıb, ayağa qalxdı. Və Əzizağa Aydınbəyovu yanına çağırdı.

Əzizağa redaktorun kabinetinə daxil olanda hiss etdi ki, Nazim bərk dilxordu. Ona görə də peşmançılıqla:

- Nazim müəllim, - dedi. - Bax, bu xasiyyətinizə görə hər şeyi açıb Sizə demirik də. Pir olmuş, o qədər nazik, həssas adamsınız ki, hər şeyi ürəyinizə salıb, özünüzə dərd eləyirsiniz. Belə getsə, qocalıq Sizi tez haqlayar, - bunu zarafatyana dedi. Nazim İlham əlini çənəsinə vermişdi. Onun baxışları Əzizağanın sifətində donub qalmışdı. Və deməyə söz tapmırmış kimi xeyli sükuta daldı. Sonra əsəbi halda:

- Mənə əvvəlcədən desəydin, bu məsələyə qol qoymazdım. Bütün rayon bilir ki, raykom redaksiya ilə ləj düşüb. Bu saat Nadir Nəsrullayevlə Qəribzadə yeridiyimiz yeri qaşıyırlar. Onların üzümüzə gülməsinə baxma, mətbuat işçisini heç vaxt yaxına qoymazlar. Bunu birdəfəlik başa düşmək lazımdır. Bəsirə partkomissiyadan keçsə də, büroda ilişməliydi.

Əzizağa Aydınbəyov tapança kimi açıldı:

- Nazim müəllim, - dedi. - And olsun bizi yaradana, o Bəsirəni ki, elə məlul-müşkül görürəm, lideri Nadir Nəsrullayev, Qəribzadə, Qeysərzadə olan partiyaya da, onun təşkilatına da nifrət eliyirəm. Mənə nə deyirsiniz, deyin! Belə qərara gəlmişəm ki, bu gün biletimi cırıb, sonra da çırpım onların təpəsinə! Tüpürüm belə partiyaya!

- Yaxşı! Yaxşı! Özündən çıxma! - Nazim onu sakitləşdirdi. Bir az da alçaqdan danış. Çöldə-bayırda eşidib-eliyən olar. Onsuz da əskimiz tüstülüdür. Nadir Nəsrullayevə də belə bir fakt

lazımdır ki, əlində dəstəvuz eləsin. Orda-burda desin ki, redaktor mətbəə müdirini qızışdırıb salıb ortalığa. İndi o sözlərin yeri deyil. Hələlik başımızı salaq aşağı, görək bu işlərin axırı necə olur. Çalışmaq lazımdı qəzetdə səhv getməsin. O ki qaldı Bəsirənin partiyaya keçmək məsələsinə, onu başa salmaq lazımdır. Qoy bu məsələni özünə dərd eləməsin. Bir də ki, axı, mənə de görüm, partiya nədir?! İnam! Partiya bileti adlandırdığımız və bir neçə vərəqədən ibarət olan əl boyda dəftərçə isə bu inamın formal təsdiqidir. Bizdə kommunistlərlə bitərəflər arasında fərq yoxdur, vicdanlılarla vicdansızlar arasında fərq var. Qeysərzadə kimi vicdansız kommunist olmaqdansa, vicdanlı qaçaq-quldur yaxşıdır, - Nazim bu sözü deyib, uşaq vaxtı başına gələn həmin əhvalatı təfsilatı ilə Əzizağaya danışdı. Qaçağın Mənzərə: - "Bu dünyada qadın qarət eliyib, o dünyaya şuğulüzmə gedə bilmərəm. Azadlığımı itirsəm də dinimi, qeyrətimi itirməmişəm..." - deməsini ürək ağrısı ilə təkrar etdi. Qaçağın sözü Əzizağa Aydınbəyovu bərk tutdu. O, əyləşdiyi stulda bədənini təəssüflə yırğalayaraq:

- İnam qəlbdə olur, partbilet cibdə, - dedi. - Qəlb düz olmayandan sonra, cibdə bir yox e, lap yüz partiya bileti olsun, xeyri yoxdur, köpüyə dəyməz.

Nazim başının hərəkəti ilə mətbəə müdirinin dedikləri ilə razılaşdığını bildirdi. Və Əzizağaya təmkinlə:

- O şirin, şirinlik zarafatını bu gündən etibarən yığışdırın, - dedi. - Görürəm Bəsirənin xətirinə dəyir. Yeri düşdükcə, ona ürək-dirək verin, sınmasın. Başa salın ki, partiyaya keçmək elə problem məsələ deyil. Bu gün olmasın, sabah olsun. Yaxşı işlə, qoy qəzetimiz vaxtında çıxsın, səhv-zad getməsin, partiya məsələsi asandır. Bir də ki, insanın əməli partiyalı olmalıdır.

Daxili telefon cingildədi. Nazim dəstəyi qaldırdı:

- Eşidirəm, - cavab verdi. Və telefonda onunla danışan adamı

dinlədikdən sonra dəstəyi yerinə qoydu. Üzünü Əzizağa Aydınbəyova tutaraq:

- Nadir Nəsrullayevin köməkçisidir, - dedi. - Nəsrullayev tapşırıb ki, redaktor yerində olsun, xüsusi iş var, çağıracağıq.

- Xeyir ola, - Əzizağa Aydınbəyov gülümsündü.

Nazim İlham çiynini çəkərək:

- Nə deyim, onun dilindən, felindən Allah da baş açmır. Görəsən yenə nə fırıldağı var.

Nazim İlham stolunun üstündəki məktubları diqqətlə oxuyub, bəzi düzəlişlər etdi. Və yığılmaq üçün mətbəəyə göndərdi. Sonra təzə aldığı qəzet və jurnalları nəzərdən keçirdi. Katib köməkçisinin zəngindən xeyli vaxt keçməsinə baxmayaraq, onu çağıran olmadı. Redaktor fikirləşdi ki, bəlkə məni söhbətə çağırdığını unudub, özüm yuxarı qalxım, görüm nə deyir?! Bəlkə vacib bir məsələ var. Hər şeyə şübhə ilə yanaşmağım da düz deyil. Nəsrullayevi də başa düşmək lazımdır. Necə olsa, rayonun başçısıdır. Onunla hesablaşmalıyam.

Redaktor kabinetinin qapısını kilidləmədən yuxarı mərtəbəyə qalxdı. Və Nadir Nəsrullayevin gözləmə otağına daxil oldu. Katibin qəbulunda rayonun xalq hakimi, dövlət bankının müdiri, bir də ki, böyük pambıqçılıq kolxozunun sədri - cəmi üç nəfər dayanmışdı. Hakimlə sədrin üz-gözündən yorğunluq yağırdı. Hiss olunurdu ki, çoxdan gözlədiklərinə görə səbrləri tükənib. Nazimlə görüşəndə azaylana-azaylana danışırdılar. Redaktor onlardan hal-əhval tutub, sonra qapıçı qıza:

- Görürəm qəbulda çox adam var, - dedi. - Mən getdim kabinetimə. Nadir Xələfoviç bu yoldaşlarla görüşüb qurtardıqdan sonra, xəbər elə gəlim. Özü çağırıb, görünür, nə isə vacib işi var.

Qapıçı qız uzun kirpiklərmni gözlərinin üstünə endirib:

- Oldu, Nazim müəllim, bu yoldaşlarla qurtarsın, yadına

salaram, - dedi və gülümsəyəndə nazik dodaqları qaçdı. Onun sədəf dişləri göründü.

Nazim ona ərk və ehtiramla:

- Şeytan, - deyib gözləmə otağından çıxdı.

Nadir Nəsrullayevin kabinetinin girəcəyində asılmış elektrik zənginin cingiltisi bayaqdan bəri gözləmə otağında qəbula dayananları fikirdən ayırdı. Qapıçı qız tez stulundan qalxdı. Onun içəri girməsiynən çıxması heç bircə dəqiqə də çəkmədi. Və üzünü xalq hakiminə tutaraq:

- Siz buyurun, keçin, - dedi.

Xalq hakimi əyləşdiyi stuldan dikəlib, pəncərənin qabağına qoyduğu qalın qovluğu qoltuğuna vurdu. Və katibin qapısını ehtiyatla açıb, əvvəlcə başnı içəri saldı:

- Olaar?! - çəkinə-çəkinə soruşdu.

- Buyurun! Buyurun! - katibin ötkəm səsi eşidildi.

Hakim içəri daxil oldu. Katib ona, özünə yaxın olan yumşaq stulların birində oturmaq üçün yer göstərdi və:

- Eşidirəm, - dedi.

Xalq hakimi hələ də sol qoltuğunda bərk-bərk sıxıb saxladığı qovluğu katibə göstərərək:

- Çox cəncəl işdir, - yorulub əldən düşübmüş kimi dilləndi - gecəmiz-gündüzümüz yoxdur. Bir həftədi proses gedir. Axır ki, bu gün yekunlaşdırıb qurtarmışıq. Bilirsiniz indi siz deyən təcrübəli müstəntiqlər azdır. İşi çox çiy aparırlar. Sübutlar zəifdir. Ona görə də məhkəmənin gedişində ortalığa min cür əngəllər çıxır, ziddiyyətlər yaranır. Buna baxmayaraq, hər şeyi aydınlaşdıra bildik.

Bütün bu deyilənlərin Nadir Nəsrullayevə dəxli yoxumuş kimi:

- Siz burda dastan danışmayın, - dedi. Məni əsas o Sizə dediyim xəzinədar maraqlandırır. Konkret, deyin görüm, onu

aradan çıxarda bildiniz, ya yox?! - katib bunu deyib, qeyzlə onun gözlərinin içinə baxdı.

Hakim özünü itirdi:

- Nadir Xələfoviç, - dedi. - Onda qoy məsələni qısaca olaraq danışım, sonra Siz necə məsləhət görsəniz... Sizin adınız olandan sonra, heç prokuror da bir söz deməz. İclasçılar da ki, öz adamımızdı. Mən nə desəm odur, qələt eliyirlər!

- Hə! Təzədən nə demək istəyirsən, daldan atılan daş topuğa dəyər. İşə baxıb qurtarandan sonra mənim yanıma məsləhət-məşvərətə gəlmisən, - katib onun sözünü kəsdi.

Xalq hakimi:

- Düzdü, işə baxmışam, lakin hələ hökm yazılmayıb. Elə ona görə də gəldim ki, görüm nə məsləhət görürsünüz?! İki saatdan çoxdu çöldə Sizi gözləyirəm, - deyib, əlavə etdi. - Məsələ belədir ki, kommunal təsərrüfatı idarəsində ştat üzrə əlli nəfər küçə təmizləyən var. Onların on beş nəfəri işləyir, qalanlarının yalnız adı var. Dəqiq desək, naməlum şəxslərdir. Onların adına yazılan maaşı, mükafatı müdir, bir də ki, xəzinədar alıb öz aralarında bölüblər. Bu hal on ildi davam edir. Köhnə mühasib keçən qış xəstələnib, dünyasını dəyişib. Onun yerinə gələn təzə mühasib bir neçə ay işləyəndən sonra, hardansa bu kələyi bilib. Və rayon prokurorluğuna məlumat yazmaq fikrinə düşüb. Müdirlə kassir onun əl-ayağına döşəniblər ki, bu məsələni açıb-ağartmasın. Təzə mühasib razılaşmayıb. Bu dəfə müdirlə kassir idarənin zibil maşınını sürən şoferə on min manat pul boyun olublar ki, təzə gələn mühasibin başını əksin. Şofer də ki, iki-üç dəfə yatıb-çıxmış adamdı. Bir axşam girəvəyə salıb, mühasibi küt alətlə qətlə yetirib, sonra da avtomaşındakı zibillə birlikdə aparıb atıb şəhərin kənarındakı ağlagəlməz bir dərəyə. Verilən ifadələr təsdiq edir ki, bütün bunların başında duran kassirdi. Şofer də, müdir də onun üzünə dirənirlər. Məhkəmənin

gedişində bütün bunlar sübuta yetib. Şoferə ən ağır maddə düşür. Kassirlə müdirə gəldikdə, onların hərəsini azı on il azadlıqdan məhrumolma cəzası gözləyir. Zərərçəkənlərin adamları qan-qan deyirlər. Mühasibin qardaşları dirənib ki, üçü də güllələnməlidir. Elə məhkəmənin gedişində məndən hər yerə teleqram vurublar. Guya bu işdə mənə təsir göstərən var, müdirlə kassiri müdafiə edirəm...

Hakim hadisə ilə əlaqədar rayonun birinci katibinə qısa olaraq bəzi məlumatları verib:

- Nadir Xələfoviç, - dedi. - Bax, məsələ bu yerdədi. Bütün bunlara baxmayaraq, Siz nə cür məsləhət görürsünüzsə... Amma yenə deyirəm, bu cinayətin törənməsində əsas təqsirkar kassirdir.

Katibin baxışları ciddiləşdi. O, acı istehza ilə:

- Məsələni çox şişirdirsiniz, möhtərəm hakim, - dedi. - Niujeli bu işə başqa cür don geyindirib, kassiri aradan çıxartmaq olmaz?!

Hakim rayon katibinin belə bir sualı qarşısında çıxılmaz vəziyyətə düşdü. O, nə - olar - deyə bildi, nə də ki - olmaz. Udquna-udquna nə demək istəyirdisə, Nadir Xələfoviç onun sözünü ağzında yarımçıq qoyub kinayə ilə:

- Sizə yoldaş deməyə də dilim gəlmir! Vətəndaş hakim! Görürəm qanunçuluğun quyruğundan yamanca yapışmısız. Siyasi savadınız olsaydı, partiyanın evində mənimlə belə danışmazdınız. Birdəfəlik bilin! Və başa düşün! Bütün qanunlardan yuxarıda dayanan müqəddəs bir qanun var! O da partiyanın dediyidir! Bunu dərk edə bilmirsizsə, deməli, Sizdən xalq hakimi olmaz! Və bu vəzifəyə təsadüfi düşmüsüz.

Nadir Xələfoviç hirsindən stolunun üstündəki qalın kitabı əlinin arxası ilə kənara itələyərək:

- Sluşi! - dedi. - Ağzımda dönə-dönə demişəm və deyirəm: -

kassirə güzəştə getmək lazımdır. Siz isə bayaqdan bəri mənə maral oxuyursunuz.

Katib şəhadət barmağını silkələyə-silkələyə:

- Unutmayın ki, bizim mineniyamız olmasa, bir köpəyoğlu Sizi burada hakim saxlaya bilməz! Yadınızdan çıxarmayın ki, xasiyyətnamənizə mən qol çəkirəm! Mən! - O, əlini sinəsinə vurdu. Bir halda ki, raykomla hesablaşmırsız, partiyanın dediyini qulaqardına vurursuz, onda gedin! Biz də bu gündən Sizi hakim kimi tanımırıq!

Xalq hakimi:

- Mə-ən! Nə de-sə-niz! - onun sözünün rabitəsi pozuldu. Qırıq kəlmələrlə - Baş üstə! Amma... Amma Ali Məhkəmə, respublika prokurorluğu...

Nadir Nəsrullayev ona fikrini tamamlamağa imkan vermədi:

- Ali məhkəmədə, respublika prokurorluğunda oturanları mənə tanıtmayın, - dedi. - Hamısının dabbaqda gönünə bələdəm. O yolları Siz gedəndə, mən qayıdırdım. Zəhmət çəkin paçka-paçka aldığınızdan onların da ovcuna qoyun. Onda görün Ali Məhkəmədə də, respublika prokurorluğunda da baxdığınız işlər necə yağ kimi keçir. Almağı bilirsiniz, verməyi yoox?!

Hakim yenə kəkələyə-kəkələyə yalvarıcı dilini işə salmaq istədi. Katib imkan vermədi:

- Qalx! Qalx! - dedi. - Kabineti tərk et! Görünür partiya Sizi yaxşı tərbiyə eləməyib, başına buraxıb. Axır vaxtlar həddinizi çox aşmısız. Partiya təşkilatının sözü qulağınıza girmir! Get! İnnən sonra ağlınız necə kəsərsə, o cür də hərəkət eləyin!

- Yoldaş!.. Yoldaş!..

- Partiyanı tanımayan, raykomla hesablaşmayan adamdan mənə yoldaş olmaz! Dedim ki, kabineti azad edin!

- Nadir Xələfoviç!..

- Uzatmaq lazım deyil, qurtardıq bu söhbəti!

Xalq hakimi özünü itirmişdi. O, stulundan qalxanda müvazinəti pozuldu. Qırıq-qırıq danışdı. Və götürmək istədiyi qovluq əlindən yerə düşdü. Hakim əsə-əsə qəddini əyib, təzə yağlanmış parketin üstünə səpələnən kağız-kuğuzunu bir-bir yığışdırdı. Və suyu süzülmüş halda kabineti tərk etdi. Gözləmə otağından çıxanda qapıçı qız arxadan onu səslədi:

- Papağınız! Papağınız qaldı!

Kolxozun sədri pencəyinin düyməsini bağlayıb, saçına tələsik daraq çəkdi. Və şux addımlarla Nadir Nəsrullayevin kabinetinə daxil oldu. Katib böyük bir təsərrüfatın başçısı kimi onu pis qarşılamadı:

- Əyləşin, - dedi. Özü ayağa qalxıb kabinetində gəzinə-gəzinə - son günlər bu iclaslardan baş açmaq olur ki?! - öz-özünə gileyləndi. - Vaxt tapıb kolxozlara çıxa bilmirəm. Yaxşı, de görüm pambığın vəziyyəti necədir?! Sovka qalxmayıb ki? - dərin maraqla soruşdu.

Sədr itaətkar görkəm alaraq:

- Vəziyyət pis deyil, Nadir Xələfoviç, - dedi. - Nə gücümüz var, işləyirik. Hələlik sovkanın qorxusu yoxdur. Ancaq mən bura ayrı məsələdən ötrü gəlmişəm.

- Buyurun, eşidirəm, - katib ayaq saxlayıb ona tərəf çöndü.

- Bəridən o yana gedəndə, görmüsünüz də, kəndə çatmamış, o yolun sol tərəfində, geniş sahə var ee, ortasında da iri çinar ağacı. Ora iki briqadanın yeridir. Həmin sahələrin torpağı bir az qumsal olduğundan suya tələbatı çoxdur. O gün baxıb görürəm ki, kolların yarpağı əməlli-başlı bürüşüb. Hətta bəzi yerlərdə açılan çiçək qoza bağlamamış quruyub tökülür. İstədim suvartdıram, sonra fikirləşdim ki, birdən acığınız tutar. Bax, bununla dördüncü kərədir gəlirəm, Sizi burda tapa bilmirəm. İki dəfə gəlmişəm, deyiblər Bakıya iclasa gedib. Bir dəfə də gəldim, dedilər yuxarıdan qonağı var, kor-peşman qayıtdım. Bu

səfər Allah üzümə baxdı. Sizi görə bildim. İndi, yoldaş Nəsrullayev, gəlmişəm, görüm nə deyirsiniz?! Həmin sahəni suvatdırım, ya yox?! Amma pambıq əldən gedir! Yağı görsə qan ağlayar.

Nadir Nəsrullayev sol tərəfdə qoyulmuş radioqəbuledicini qurdaladı. Lakin tükürpərdici xışıltıdan başqa bir şey eşidilmədi. O, radioqəbuledicini söndürüb, stolun arxasına keçdi. Və özündən razı halda üzünü sədrə tutaraq:

- Yaxşı, Siz özünüz aqronomsunuz. Əgər səhv etmirəmsə, on il bundan qabaq da müdafiə etmisiniz. Rayonda pambıq üzrə yeganə alimsiniz. Kolxozun aqronomu da təcrübəli mütəxəssisdir. Raykomun ikinci katibi də ki, pastoyannı o zonaya təhkimdi. Mejduproçim, onun da pambıqdan başı çıxır. Yaxşı, bir belə adam, bilmirsiniz, pambığı nə vaxt suvartmaq lazımdır?! Məndən gəlib soruşursunuz?!

Sədr tənbeh olunacaq günahkar kimi boynunu yana əyib, əllərini ovuşdura-ovuşdura:

- Yoldaş Nəsrullayev, əslinə qalanda, düz buyurursunuz ee, ancaq Siz başqa, biz başqa. Sizin dırnağınız biləni bizim başımız bilməz. Bir də ki, necə olsa, axı, rayonun böyüyüsünüz. Sizsiz hərəkət etmək istəmirik.

Nadir Nəsrullayev xoşhal oldu və sədrin sözü ona xoş gəldi:

- Koneçno, o da düzdü, - katib dərin bilik sahiblərinə xas olan alim ədası ilə dilləndi. Fikrinizə şərikəm. Belədi də, adamın üzünə tərifləməzlər. Sizi mənim gözümdə ucaldan da elə o cür ədəbli hərəkətinizdi.

Sədr raykom katibinin qarşısında, istiqanlı valideynin əzizlədiyi madar uşaq kimi xoşhallandı. Və alnının qırışlarında tər damcıları işıldadı. Nadir Xələfoviç onun müti görkəminə məmnun nəzər salaraq:

- Nu, xoroşo, mənim etirazım yoxdur, sabahdan başlayın,

həmin sahələri suvarın... Nə çətinliyiniz olsa, utanıb-çəkinməyin, mənə deyin.

Sədr katibin qarşısında nəzakətlə baş əyib:

- Oldu, oldu, Nadir Xələfoviç! - deyib, söhbəti uzatmadan qapıya tərəf yönəldi.

Qapıçı qız katibə bir stəkan çay apardı. Və içəridən çıxanda başının incə hərəkəti ilə rayon bankının direktoruna işarə vuraraq:

- Buyurun, keçin, - dedi. - Sizi gözləyir.

Direktor kabinetin qapısını şəstlə açıb, içəri daxil oldu.

Nadir Nəsrullayev onu görəndə qaş-qabağı açıldı. - Siz də burdasınız?! - soruşdu.

- Bəli, bəli! - bankın müdiri cavab verdi.

- Çoxdan gözləyirsiniz?

- Bir saat olar.

- Nahaq yerə, əgər yadından çıxmayıbsa, bu barədə söhbətimiz olub. Əvvəla, sözünüz varsa, elə telefonda da deyin, zəhmət çəkib gəlmək lazım deyil. İkincisi də vacib işiniz olanda, birbaşa yanıma gəlin, gözlüyüb-eləməyin, - katib ona iradını bildirdi.

Bankın direktoru:

- Bir məsələdən ötrü vaxtınızı almaq istəyirəm, - dedi.

- Sizi eşidirəm, - katib diqqətini cəmləşdirdi.

Bankın direktoru:

- Bankın iqtisadçısı ərizə verib təqaüdə çıxıb. Dörd aydı yeri boşdu. Yönlü kadr da yoxdur. Bu günlərdə bir nəfər cavan oğlan tapmışam. Ali məktəbi də fərqlənmə ilə bitirib. Yoxlamaq üçün bankda beş-on gün işlətmişəm. Çox bacarıqlı, üzüyola oğlandır. Razılıq versəydiniz onu işə götürərdim.

- İki yüz iyirmilikdi, yoxsa yüz iyirmi beşlik? - katib yarızarafat soruşdu.

Direktor çaş qaldı və raykom katibinin nə demək istədiyini başa düşmədiyi üçün duruxdu.

Nadir Xələfoviçin dodaqları qaçdı:

- Yoldaş direktor, - dedi. - Onun təhsili, təcrübəsi, yaxşılığı, pisliyi məni o qədər də maraqlandırmır. Demək istəyirəm görüm, işə götürmək istədiyin o cavan oğlan qaradskoydu, yoxsa selskidi? Şəhərdəndi, yoxsa kənddən?! İndi başa düşdün?!

Bu sözdən sonra direktor ayıldı. Və katibin fikrini başa düşdü.

- Yox, yox! Nadir Xələfoviç, şəhərdən deyil, yuxarı meşə kəndindəndir.

- Kənddən olmaz! Onu rədd elə getsin, - katib ona qəti cavab verdi.

Bankın direktoru özünə məhrəm bildiyi raykom katibindən bu cür sərt cavab gözləmirdi. Və indiyəcən katibin yanında onun bir kəlməsi iki olmamışdı. Bu dəfə sözünün yerə düşməsi direktoru sarsıtdı, onun sifəti allandı. Nadir Xələfoviç direktorun incikliyini hiss eləyib, stulundan qalxdı. Və irəli yeriyib əlini onun çiyninə qoyaraq:

- Bilirsiniz ki, Sizə böyük hörmətim var, - dedi. - Üzdə olan, əsl şəhərlilərdən beş-on nəfəri qalıb. Onlardan biri mənəm, biri də Sizsiniz. Mənə kadr anketləri gətirirlər. Hansının tərcümeyi-halını nəzərdən keçirirəm, yazır kənddə anadan olmuşam. Onda elə bil anama söyürlər. Bunun qabağını sən alma, mən almayım, bəs kim alsın?! Necə olsa, şəhərli şəhərlidir, kəndli də kəndlidi. Axı, bunun sabahı da var. Bərkə düşəndə sözümüzü deyən lazımdır. Kəndlidən şəhərliyə arxa çıxmaz. Lap avaranın biri olsun, ancaq öz şəhərlimiz olsun, mənə qəbuldu. Şəhər şəhərlilər üçündü! Bir ay bundan qabaq yanıma bir nəfər şikayətçi gəlmişdi. Otuz-otuz beş yaşı olardı. Söhbətindən məlum oldu ki, bizim məhlə uşaqlarındandır. Atası vaxtıynan

dəmiryol stansiyasında hamballıq eliyirdi. Öyrəndim ki, incəsənət institutunu qurtarıb, iki il Bakı teatrlarında artistlik eliyib. Sonra nə isə, oradan sıxışdırıb çıxarıblar. Görüb dolana bilmir, qayıdıb gəlib bura. Mən də götürüb göndərdim quşçuluq fabrikinə baş direktor. Dedim qoy özünə bir gün ağlasın. Necə olsa, öz şəhərlimizdi. Vaxt gələr, sənə də, mənə də lazım olar. Ordan-burdan üstümə hücum çəkirlər ki, artist hara, quşçuluq təsərrüfatı hara?! Hamısının cavabını verib, oturtdum yerinə. Dedim partiya belə məsləhət bilir.

Nadir Nəsrullayev əlini onun çiynindən çəkib, stolunun arxasına keçdi və gərdənini geri dartıb:

- İndi mənim ay şəhərli can-ciyərim, - dedi. - Siz də gəlmisiz ki, ali təhsillidi, məktəbi fərqlənmə ilə qurtarıb, fərasəti belə getdi... Kadr tapmışam. Noolsun?! Lap ağzıynan quş tutsun! Bizə heyləsi lazım deyil, lap axmağın biri olsun, amma öz şəhərlimiz olsun. İndi fikrim çatdı Sizə?!

- Bəli, aydındır, Nadir Xələfoviç, aydındır, başa düşdüm. Vabşe, çox uzaqgörən adamsınız. Tamamilə doğru deyirsiniz - Bankın direktoru səhvini etiraf edirmiş kimi dilləndi və korpeşman kabinetdən çıxdı.

Gözləmə otağındakı zəng cingildədi. Qapıçı qız içəri daxil oldu. Katib əlindəki çay dolu armudu stəkanı nəlbəkiyə qoyub kinayə ilə:

- O professoru çağır gəlsin, - dedi.

Professor sözü qapıçı qıza çatmadı və katibin dediyini başa düşmədiyi üçün gözünü ondan çəkmədən çaş halda yerində donub qaldı. Katib ikrahla dodağını yana əyərək:

- O özündən müştəbeh oğlanı deyirəm, redaktordu, nə zibildi, Nazim İlhamı! O da bir kəsmik olub keçib boğazımıza. Çağır gəlsin, deynən katib gözlüyür.

Qapıçı qızın qaşları yuxarı dartıldı və gözlərini geniş açaraq:

- Həə! Bildim, bildim, - deyib, geri döndü və katibin kabinetindən çıxıb, gözləmə otağındakı telefonun dəstəyini qaldırdı. Redaktorun telefon nömrəsini yığaraq:

- Nazim müəllim, bir də salam, katib Sizi gözləyir, - dedi.

Redaktor:

- Yaxşı, gəlirəm, - deyib, ikinci mərtəbəyə qalxdı və katibin qapısını açıb içəri daxil olanda Nadir Nəsrullayev ayağa qalxıb onu qapının ağzında, gülərüzlə qarşıladı. Sonra da redaktorun əlini bərk-bərk sıxıb özünə tərəf dartdı. Üzünü redaktorun ifadəsiz üzünə söykəyərək:

- Bessovestnıy, - dedi. - Mənim başım qarışıb, səhərdən axşamacan hambal kimi işləyirəm, sən də öz keyfindəsən. Bizi itirib-axtarmırsan. De görüm, Səriyyə bacı necədir, kənddəkilərdən nə xəbər var? Allahverən kişi yaxşıdırmı?! - soruşdu.

- Salamatçılıqdır, - Nazim İlham könülsüz cavab verdi.

- Olsun, olsun, day boq! Təki salamatçılıq olsun. İşə qalsa, onsuz da qurtaran deyil, - katib şirin dilini işə saldı. - Qəzet də ki, maşallah, son vaxtlar yaxşı çıxır. Hərdən Qəribzadə bəzi məqalələrə qulp qoymaq istəyir, cavabını verib oturduram yerində. Söz öz aramızda qalsın, üç gün bundan qabağın söhbətidi. Qəribzadə utanmaz-utanmaz mənə deyir ki, redaktor şəhərdən olsa yaxşıdır. Nazim İlham kənddən olduğu üçün şəhər camaatı ona bir cür baxır. Guya qəzet işçiləri üzgörənlik eliyir. Şəhərdən tərif az gedir, tənqid çox. Kənddən isə əksinə...

Nadir Nəsrullayev bunu deyib, başından bərk ağrı tutubmuş kimi əlini alnına apardı:

- Nazim, - dedi. - Biz qardaşıq, ikilikdə hər şeyi danışa bilərik. Bu şəhərli, kəndli söhbətini eşidəndə ölüb yerə girirəm. Əlacım olsa, millətimizin arasında ayrı-seçkilik salanları tikə-tikə doğrayıb, bircə dəfə də "uf" demərəm. Canım, nə naxçıvanlı! Nə qarabağlı! Nə kəndli! Nə şəhərli! Hamısı da mənim

xalqımdır, mənim millətimdir. Balaca bir milləti bölə-bölə, bax, bu günə qalmışıq. İş o yerə çatıb ki, ayrı-seçkilik azarı rak xəstəliyi kimi yavaş-yavaş rayonlara da sirayət eliyib. Orda-burda qulağıma dəyir ki, bizim bu balaca şəhərin özündə belə kənddən olan kadrları burunlayırlar. Belə-belə şeyləri eşidəndə dəhşətə gəlirəm. Bu cür söz-söhbət milləti uçuruma aparır. Balam, nə şəhərli, nə kəndli. Biz yumruq kimi bir olmalıyıq. Sizdən bir redaktor kimi çox-çox xahiş eliyirəm, bu cür murdar adamları tapıb ifşa eləməliyik. Bir vaxt sünni-şiə söhbəti salıb müsəlman aləmində ziddiyyət yaradan kimi, indi də şəhərli, kəndli məsələsi qalxıb. Sənli, mənli buna fikir verməliyik. Meşə çaqqalsız olmaz. Görünür, içimizdə düşmən əli var. Onları axtarıb, tapıb məşhər ayağına çəkməliyik.

Raykom katibinin ürək ağrısı ilə dediyi bu həyəcanlı sözlər Nazim İlhamın qulağına çatırdı, lakin dərrakəsinə yox. Çünki bilirdi ki, Nadir Nəsrullayevin dili ilə əməli arasındakı məsafə çox uzaqdır, ona görə də ağzından qıfıl götürüb bircə kəlmə də danışmırdı. Sadəcə olaraq başının qeyri-müəyyən hərəkəti ilə onu dinlədiyini hiss etdirirdi. Nadir Nəsrullayev milli qeyrətdən, milli təəssübkeşlikdən qovrula-qovrula danışıb qurtardıqdan sonra:

- Nazim, - dedi. - Mən səni ayrı məsələdən ötrü çağırmışam. İş başımızı o qədər qatıb ki, xeyli vaxtdır bir-birimizi görə bilmirik. Az qalıb ki, öz adımı da yaddan çıxardam. Səni çağırdım ki, bir üzünü görüm, səndən ötrü darıxmışdım. Sonra da ki, bu Məlikli sovxozu barədə fikrimi bölüşmək istəyirəm.

Nadir Nəsrullayev baxışlarına qayğılı ifadə verərək:

- Belədi də, - dedi. - Gərək düzünü danışaq. Sovxoz həmişə qabaqcıl olub. Eybalı Salamov da başqaları ilə müqayisədə bacarıqlı işçidir. Uzun müddət də direktor işləyir. Bir neçə dəfə də orden alıb. Bilirsən də, onu geroyluğa hazırlayırdıq, baş

tutmadı. Elə yaxşı ki, iş pozuldu. Döşünə bir beşulduz da taxsaydı, başımızda qoz sındırardı. Son vaxtlar özündən yaman müştəbehdi. Köpək qaya kölgəsində yatır, elə bilir öz kölgəsidir. Düzünü bilmək istəyirsənsə onu mən - Nadir Nəsrullayev adam eləyib ortalığa çıxartmışam. Köməyim olmasa, Eybalı Salamov kimdir?! Heç kim?! Rayona texnika gəlir, birinci Məlikli sovxozuna verirəm, gübrə gəlir, ora göndərirəm. Hara gedirəm, yanımca aparıram, iclas olur, çəkib başda oturduram. Radio, televiziya, qəzet işçisi gəlir, onun sovxozuna göndərib, tərifləyirəm. İndi son vaxtlar görürəm qudurub, yolundan çıxıb. Başımın üstündən addıyıb, yuxarılara iş görür. Baxıram ki, Sekada-zadda onu çox tanıyırlar, nəinki məni. Bir neçə gün bundan qabaq Sekanın kənd təsərrüfatına baxan katibi ilə danışırdım, birinci Eybalı Salamovu soruşdu. Eybalı Salamov da bunları eşidəndə qoltuğu yellənir. Rayonun aktivi ilə hesablaşmır, büro üzvlərini saymır, sovxozun fəhlələrini ayaq altına alır. Ona görə ki, Eybalı Salamovun təsərrüfat göstəricilərini yerli-yersiz şişirtmişik. Nöqsanları ört-basdır eləmişik. Eybalı Salamov isə bunu başa düşmür, ona görə də qanmayanı gərək qandırasan.

Nadir Nəsrullayev stolunun siyirməsindən bir siqaret çıxarıb yandırdı və:

- Mən çəkən deyiləm, - dedi. - Ancaq hərdən əsəbiləşəndə birini tüstülədirəm.

O, siqareti damağına qoyub, nə isə fikrə getdi. Sonra stolundan qalxıb sol tərəfdəki dəmir seyfin qapısını açdı. Üzərində "Məlikli" sovxozu sözü yazılmış qovluğu hikkə ilə Nazim İlhamın qabağına tulladı:

- Buyur, - dedi. - Hamısı Eybalı Salamovun zibilləridir. Mən əminəm ki, onun barəsində deyilənlər də, yazılanlar da tamamilə düzdür. İndiyəcən onu qoruyub saxladığım bəsdir. Bundan

sonra qulağının dalını görər. Kiçik bir səhvindən də keçən deyiləm.

Nadir Xələfoviç qızışmışdı, redaktor isə ona sakitcə qulaq asırdı. Nadir Xələfoviç ağzı köpüklənə-köpüklənə:

- Beş uşağın atasına yaraşarmı ki, o yaşda öz arvadını atıb, gedib qonşu kənddə əri əsgərlikdə həlak olan, qızı yerində gəlinlə yaşasın?! Həmin qadından da iki uşağı var. Biri oğlan, biri qız. Oğlana öz atasının adını qoyub. Dəfələrlə yazıblar ki, Eybalı Salamov məişət pozğunudur. Mən də arayış vermişəm ki, yalandır. Eşitdiyimə görə, idarədə də katibəsini saxlayır. Arvadı neçə dəfə sürüb gedib idarəyə, katibəynən saçyolmasına çıxıb. İndi mənə de görüm, bundan sonra onu direktor saxlamaq olarmı?! Qətiyyən olmaz! Oğlanlarının hərəsinə bir imarət yapdırıb! Bakıda da iki yerdə ev alıb! Dünən o kənddən bir dəstə ağsaqqal, qarasaqqal gəlmişdi ki, bizə belə direktor lazım deyil. Haqları da var! Düz tələb eləyirlər!

Nadir Nəsrullayev o ki var deyinib, sinəsini boşaldandan sonra üzünü Nazim İlhama tutdu:

- Bütün bunları deməkdə məqsədim odur ki, redaktor kimi sən də biləsən ki, Eybalı Salamovun söz-söhbəti çox yoğunluyub. Artıq onu direktor saxlamaq mümkün deyil. Bu qovluqdakı materialların hamısı onun barəsindədir. Kimi də yoxlamaya göndərirəm, yarıtmır. Eybalı Salamov əllərinə bir tütək verib yola salır. Bizim raykomun işçiləri də, başda da Qəribzadə olmaqla, hamısı qoyun kimidir. Əllərindən yönlü bir iş gəlmir. Bu konfransdan sonra it unu kimi onların hərəsini bir tərəfə dağıdacağam. Birinci o Qəribzadənin dalından dəymək mənə borc olsun.

Nadir Nəsrullayev fikrə getdi və sonra:

- Hə, nə isə, inandığım bircə sənsən, - dedi. - "Məlikli" sovxozu barədə yazılanları götür, əvvəlcə diqqətlə oxu, tanış ol!

Sonra ya özün get, ya da ki, inanıb etibar elədiyin işçilərdən birini göndər. Faktları yerində yoxlayın. Sonra qəzetdə geniş verin. Ancaq bilməsinlər ki, mənim burda əlim var. Hamı elə başa düşsün ki, qəzet yazmışdı, biz də çıxardıb atdıq bayıra. Bir məsələni də nəzərinizə çatdırım ki, "Məlikli" sovxozu sizin kəndlə qonşudur. Yanıma gələn şikayətçilər belə bir söz də işlətdilər ki, guya Eybalı Salamovu müdafiə eliyənlərdən biri də sənsən. Mənə bir başqası da deyib ki, Nazim İlham Eybalı Salamova havadarlıq eliyir. Əgər belə deyilsə, nə üçün indiyəcən o sovxozdan bircə kəlmə də olsun tənqid yazılmayıb?! Əlbəttə, bunlar boş sözdü, sənin kimi adamlar Salamovla yaxınlıq eliyə bilməz. Siz tamamilə ayrı-ayrı adamlarsınız. Bu material qəzetdə gedəndən sonra sənin barəndəki bütün bu şübhələr də aradan qalxar. Düzdü ee, mən heç vaxt inana bilmərəm ki, sən Eybalı Salamov kimi simasız adamla dostluq eləyirsən. Ancaq niyə belə söhbət yaransın? Düşmənin çırağına yağ tökmək lazım deyil. Çoxu elə ona görə bu qərara gəldim ki, Eybalı Salamovun məsələsini sənin əlinlə həll eliyək.

Katib redaktordan soruşdu:

- Mənə düzünü de, bayramlarda, yeni ildə heç olubmu ki, Eybalı Salamov qapını açıb desin ki, səhərdən-axşamacan kağıza baxmaqdan gözlərinin qarası gedib və yaxud, rayonda beş sayılan işçidən biri də sənsən. Bu çürük qozu da sənə pay gətirmişəm?!

- Heç vaxt belə şey olmayıb. Onun-bunun əlinə göz dikməyi də adət eləməmişəm, - Nazim İlham cavab verdi.

- Bax! Görürsən! Amma kənardan baxanlar elə başa düşürlər ki, Eybalı Salamovun bir əli sənin cibindədir.

Nazim İlham sifətini turşudaraq:

- Əlbəttə, bədxahlar bu cür düşünə bilərlər, - dedi. - Bir halda ki, söhbət açdınız, gizlətməyin yeri yoxdur. "Məlikli"

sovxozu barədə mənim də qulağıma bəzi söz-söhbətlər çatıb. Ancaq atam bir dəfə mənə deyib ki, oğul, yan-yörə kəndlərdən yazıb, bizi el-obaynan düşmən eləmə. Düzü, mən də elə fikirləşirdim ki, necə olsa, müsəlmançılıqdır. Məlikli camaatı da bizim kəndlə ata-baba qonşusudur. Yolumuz, kövşənimiz birdir. Oranın camaatıyla tez-tez üz-üzə gəlirik. Məlikliləri tənqid etsəm, kənardan baxanlar nə deyərlər?! Ona görə mən özüm də bu barədə qırıla-qırıla qalmışam. Lakin o cür faktlardan sonra kim olur-olsun, susa bilmərik.

Nadir Nəsrullayev:

- Xatirinə dəyməsin, jurnalist kimi belə bir məsələdə tutduğun qeyri-prinsipial mövqe məni açmadı. Tənqid elə kömək deməkdir. Bir də ki, bu sənin şəxsi mülahizəndir. Eybalı Salamovun evinə qonaq da gedə bilərsən, evinə dəvət etməyə də ixtiyarın vardır. Ancaq şəxsi münasibəti partiya, dövlət işinə qarışdırmaq olmaz. Mən səninlə redaktor kimi danışıram. Burada söhbət böyük bir təsərrüfatın tənəzzülə uğramasından gedir. Sən isə şəxsi ambisiyalara uyursan. O cür düşünmək sənə yaraşmaz. Eybalı Salamovun məsələsini, qəzeti bu işə qatmadan da həll edə bilərəm. Bunları sənin xeyrin üçün deyirəm.

* * *

...Rayon qəzetinin yarı səhifəsi "Məlikli" sovxozuna həsr olunmuşdu. "Salamovun sərgüzəşti" başlığı altında dərc edilmiş məqalənin ortasında direktorun karikaturası verilmişdi. Şəkildə iki traktor nə qədər güc verir, Eybalı Salamovu stolundan tərpədə bilmir. Çünki arxa tərəfdə onluq, əllilik, yüzlük pullar dayanıb. Məqalə rayona səs salmışdı. Nazim İlham telefon zənglərinə cavab verməkdən zinhara gəlmişdi. Elə bil hamı bir himə bəndmiş:

- Nazim müəllim, məqaləni oxudum, kəskin yazıdı. Çox da

xoşuma gəldi. Elə bil ürəyimizdən tikan çıxartmısan. Salamovun iddiası yerə-göyə sığmırdı. Yaxşıca köpün almısan.

- Əvvəl-axır Salamovun aqibəti belə olmalı idi. Çünki çox harınlamışdı.

- Dolan tökülməlidi, Salamov rayona yerləşmirdi.

- Hər şey nazikliyindən sınar, insan qalınlığından. O, çox yoğunluyub.

- Salamov da azacıq aşın duzu deyil ha, yiyəsini yıxmış atdı... Qalxanını al başına.

- Məqalə əladır, hədəfi düz seçmisən. Ancaq dağdan soruşublar ki, nədən qorxursan?! Deyib pulludan. Salamovun pulunu töksən, Arazı qaytarar. Ona nahaq sataşmısan. Bu məqalə sənə baha başa gələcək...

Redaktorun otağındakı telefon zəngləri ara vermirdi. Bircə Nadir Nəsrullayevin səsi çıxmırdı. Nazim İlhamı ən çox birinci katibin fikri maraqlandırırdı. Gözlüyürdü ki, Nadir Nəsrullayev redaktoru yanına çağırıb və ya başqaları kimi ona telefonla zəng vurub, heç olmasa bircə kəlmə - sağ ol, yaxşı yazmısan - deyəcək. Ancaq nə Nəsrullayevdən səs-səmir çıxırdı, nə də ki, Qəribzadədən. Nazim İlhamı fikir götürmüşdü. Öz-özünə düşünürdü ki, yəqin birinci katibin işləri başından aşdığı üçün, vaxt tapıb məqaləni oxuya bilməyib. Yoxsa o da çoxdan zəng vurmuşdu. Hər halda bu gün olmasa da səhər, birisi gün məqalə barədə fikrini bildirər. Məqalə büroda müzakirə olunanda bu barədə daha ətraflı danışıb, bizim zəhmətimizi qiymətləndirəcək. Eybalı Salamovun da otunu, suyunu verib atacaq bayıra...

Nazim İlhamın daxili şübhəsi bəzən başqa səmtə də yönəlirdi... Ola bilsin bu da Nadir Nəsrullayevin növbəti oyunudur. Beləsinin ipiynən quyuya düşmək axmaqlıqdır. Nahaq yerə onun sözünə aldandım. Nəsrullayevin qarnının altını

nə bilmək olur?! Yal otu kimidir, gündə bir tərəfə əsir. Bir də gördün keçdi Eybalı Salamovun tərəfinə. Qəzet də qaldı pis vəziyyətdə. Ondan nə desən çıxar...

Müxtəlif şübhələr, müxtəlif tərəddüdlər... hər halda birinci katibin təkidi ilə yazılan, özü də həmişə üzdə olan adam haqqında yazılan və rayonda geniş əks-səda doğuran məqalə barədə onun susması Nazim İlhamı şübhələndirmişdi.

Aradan iki gün keçdi, ancaq katibdən səs çıxmadı. Nazim İlham kabinetində əyləşib növbəti nömrənin materiallarını oxuyurdu. Birdən qapı açıldı. Eybalı Salamov:

- Olar? - deyib, redaktorun icazəsini gözləmədən içəri daxil oldu. O, həmişəki kimi şux geyinmişdi. Ayağında par-par parıldayan uzunboğaz xrom çəkmə, əynində qara mahud parçadan tikilmiş, ütüsünün qatı sınmayan qəlfeyi şalvar, varatniki boynuna güclə gələn açıq yarpaq rəngli kitel pencək. Damağının yuxarı olmasından bilinirdi ki, hardasa kəmərinin altını bərkidib, bir balaca da vurub. Enli sinəsində Lenin və Qırmızı bayraq ordenlərindən başqa bir neçə medal asılmışdı. O, ötkəm addımlarla irəli yeriyib, Nazim İlhama salam verdi. Və təklif olunmadan stulların birində əyləşdi. Sonra yanındakı stulun hündür söykənəcəyini özünə tərəf əyib, qoltuğuna keçirtdi. Və yanpörtü oturaraq:

- Necəsən, bacıoğlu, - soruşdu. - Deyəsən yaman çox yazıb-pozursan haa! Özünü çox da zora salma. Adama istirahət də lazımdır. Sən yazmağnan dünya düzələn deyil.

- Peşəmiz belədi, - Nazim İlham sakitcə cavab verdi.

- Heç dayına bir qulluq-zad buyurmursan. Ehtiyacın-zadın olanda niyə demirsən?!

- Sağ olun, kiçik ailəm var, aldığımız maaş da bəs eliyir. Elə bir çətinliyimiz yoxdur, - Nazim İlham dilləndi.

- Eşitdiyimə görə, atan at axtarır, - dedi. - Sorağı maa da

gəlib çatıb. Keçən həftə də bazara çıxıbmış, tapmayıb. İndi yaxşı at hardadı?! Göndər gəlsin yanıma, bizim sovxozun ilxısında hələ boğulmamış saz ürkələr var. Baxsın, bəyənsin, hansını ürəyi tutsa, aparsın. Pul-zad da lazım deyil.

- Atamın at almaq istədiyindən xəbərim yoxdur. Ona at lazım olsa, mənə deyərdi.

Onların arasında gedən bu cür yoxlayıcı, həm də dəyintili sual-cavab direktoru açmadı. Eybalı Salamov gördü ki, yox, söhbətləri alınmır, redaktor tanrı deyəndən demir, ona görə keçdi əsl mətləbə:

- Görürəm, ehtiyacın yoxdur, at da lazım deyil. Mən deyib borcumdan çıxıram, sonrasın özün bilərsən. Yaxşı, bunları qoyaq bir kənara. O məqalə nədi, götürüb ağzına gələni yazmısan?! Yaxşı, yazmısan-yazmısan, bəs şəklimi niyə o cür eybəcər hala salmısan?

Nazim İlham kinayə ilə gülümsündü:

- Onu düz deyirsiniz, rəssamımız bir az xamlıq eliyib, şəkliniz düzgün çıxmayıb.

Eybalı Salamov:

- Nazim, əvvəla, yaşca səndən böyüyəm. İkincisi də biz qonşu kəndliyik. Atanla da haqq-salamımız var. Bilirsən ki, rayonda da hamı mənim başıma and içir. Sekadan belə məni yaxşı tanıyırlar. O qəzet, o radio yoxdur ki, məni tərifləməsin. İndi bütün bunlardan sonra saa yaraşarmı ki, götürüb məni o cür biabır eləmisən?!

- Sizi biabır yox, tənqid eləmişəm, - redaktor təmkinlə cavab verdi.

Direktor tutuldu. O, söykənəcəyini qoltuğuna keçirdiyi stulu kənara itələyib:

- Onda səndən bir şey soruşum, - dedi. Amma gərək kişi kimi düzünü deyəsən.

- Buyurun.

- Bu işdən Nadir Xələfoviçin xəbəri var, ya yox?! Bircə bunu bilmək istəyirəm.

Əvvəla, bu, qəzetin daxili sirridir. Onu açıb deməyə ixtiyarım yoxdur. İkincisi də məqalədən birinci katibin xəbərinin olub-olmaması ilə maraqlanırsınızsa, yaxşı olar ki, onu Nadir Xələfoviçin özündən soruşasınız. O, Sizə daha düzünü deyər.

- Həə, deməli belə, - Eybalı Salamov öz-özünə mızıldanıb əlini çənəsinə apardı. Və gözünü qıyıb redaktora müəmmalı nəzər salaraq:

- Gərək yazmayaydın, boynuna al ki, səhv iş görmüsən.

- Bəlkə Sizdən üzr istəməliyəm, - redaktor dilləndi.

Söz Eybalı Salamovu götürdü:

- Mənnən belə danışma, oğul, - dedi. - Bu saa baha oturar. Qəzetin bir üzünü bizim sovxoza həsr eləmisən. Çoxu da məndəndir. Hələ ürəyin soyumuyub, üstəlik də götürüb cızmaqara şəklimi çəkdirmisən. Yenə oxşasa, dərd yarıdır. Yazdıqların da hamısı yalan-palan.

Eybalı daxilində nə fikirləşdisə, lazım olmadan güldü:

- O məqalədə hərdən qonşu kənddən peyda olmağıma da sataşmısan. Bilirəm nəyə işarə vurmusan, bəli, heç kəsdən danmıram, orda saxlamam var, noolsun?! O bilər, mən bilərəm, bunun kimə nə dəxli var?! Yəni o da qəzetlikdir?!

Salamov qəddini redaktora tərəf əyərək xısın-xısın:

- Bilirsən nə var?! Tayım-tuşum olmasan da hər halda kişiyana, bir az da açıq-saçıq danışaq. Uşaqlardan ərə gedən də var, evlənən də. Arvadla da otuz ildən çoxdu yaşayıram. Nə gizlədim, mərdi-mərdanə, nə var, onu deməliyəm. Əlim ya bizim arvada toxundu, ya da ki nənəmə. And olsun bizi yaradana, heç bir reaksiyası olmur. Bilmirəm necə deyim başa

düşəsən. Bilmərrə təxərrüş yaranmır. Bacıoğlu, indi öz aramızdır, bir cavanca, incətel, nazikbel tapıb, onnan günümü keçirməliyəm, ya yox?! Ha... ha... Salamov qəddini düzəldib güldü və yenə səsini alçaldaraq:

- Ona görə də, - dedi. - Hərdən o qonşu kənddə kiminləsə eyş-işrətdə olmağıma nahaq toxunmusan. Məsləhət görürəm, burnun girməyən yerə başını soxma. İndi bildin nə demək istəyirəm?!

Redaktor hirsləndi:

- Görürəm bir balaca vurub hallanmısız, içki havasına alt-üst danışırsız, - dedi. - Bura Sizin təşrif gətirdiyiniz xanım-xatınların evi yox, redaksiyadır və görünür başınız ağarsa da, hələ ağlınız ağarmayıb. Ona görə də harda olduğunuzu, kiminlə nə danışdığınızı yaxşı dərk eliyə bilmirsiz. Bayaqdan bəri dediklərniz Sizi mənim gözümdə miskin göstərir. Rəva bilmirəm ki, böyük bir təsərrüfatın başçısı özünü bu cür təlxəkliyə qoysun.

Eybalı Salamov geri çəkilib istehza ilə:

- Hələ cavansan, bala, dalı şələli əyilib qalxmamısan, çox yuxarıdan gedirsən. Amma nahaq yerə! Çoxlarını atdan salıb anasını ağlar qoymuşam. Mənə Eybalı Salamov deyərlər. İndi ki, belə oldu, get! Əlindən gələni beş qaba çək! Bunun qəzetinə-zadına bax! Ayrı şeyləri ortalığa gətirmirəm. Sənin qəzetinin tirajı qədər elə xalı-xalçam var. Özü də sənin bir qəzetinin qiyməti iki köpükdü, ikicə köpük! Lazım gəlsə, səni bu redaksiyan qarışıq satın alaram!

- Maddi cəhətdən üstün olduğunuza şübhə etmirəm, mənəvi dəyəriniz isə çox ucuzdur. Və istərdim ki, xalı-xalçanızın yox, özünüzün insani qiymətinizlə öyünəydiniz. Bir də ki, özünə hörmət etməyi bacarmayan bir adamın, başqasından hörmət gözləməsi əbəsdir.

Eybalı Salamov daha deməyə söz tapmadığı üçün ayağa qalxdı və Nazim İlhamı qəzəbli baxışlarıyla süzərək:

- Eybi yoxdur, Nazim, sən sən ol, mən də mən! Görək axırda kim uduzur, kim udur! - deyib, uzunboğaz çəkməsini cırıldada-cırıldada kabinetdən çıxdı və üzü o tərəfə bir - nanəcib! - sözü də işlədib qapını arxasınca çırpdı.

Nazim İlham stolunun arxasında quruyub qaldı. Redaksiya əməkdaşlarından biri içəri daxil olub, hazırladığı məqaləni redaktorun stolunun üstünə qoydu və:

- Makinadan çıxandan sonra faktları bir də diqqətlə yoxlamışam, - dedi. - Məsul katib də oxuyub. Məqalə hazırdır, özünüz də nəzərdən keçirsəniz, pis olmaz.

Nazim nə redaksiya işçisinin yazısına tərəf baxdı, nə də ki, onun dediklərini eşitdi. Redaktorun tarıma çəkilmiş əsəbləri onu tamam başqa bir aləmə aparmışdı. Nazim İlhamın sanki qulaqları eşitmir, gözləri heç nə görmürdü. O, handan-hana ayağa qalxıb seyfin taybatay açılmış qapısını bağladı və Nadir Xələfoviçlə görüşüb, Eybalı Salamovun bu nəzakətsiz hərəkətlərini ona çatdırmaq üçün yuxarı mərtəbəyə qalxdı. Katib kabinetində tapılmadı. Qapıçı qız bildirdi ki, Nadir Xələfoviç bir az nasazdır, ona görə də işə çıxmayıb, evdə xəstə yatır.

Nazim İlham bu sözü eşidəndə bir qədər yüngülləşdi. Düşündü ki, deməli katib xəstə olduğu üçün məqalə barədə ona zəng vurmayıb. Nahaq yerə ondan bədgüman olmuşam.

Günorta fasiləsinə az qalırdı. Nazim fikirli-fikirli kabinetindən çıxıb evə tərəf yönəldi. İş yeri ilə yaşadığı binanın arasındakı yarım kilometrlik məsafəni maşınla yox, piyada gedib-gəlməyi xoşluyurdu. Şəhərin haylı-küylü, mərkəzi meydanından keçib, irəlidəki küçəyə çatanda sol tərəfdəki qəzet köşkünə döndü. Nazim İlham bütün qəzet və jurnallara abunə

yazıldığına baxmayaraq, çox vaxt poçtalyonu gözləməyə hövsələsi çatmırdı. Rastına təzə qəzet və jurnal düşən kimi alıb bir-bir nəzərdən keçirirdi. Bu gün radioda respublika qəzetlərinin qısa xülasəsi oxunarkən Nazim İlhamın da adı çəkilmişdi. Ona görə də bilirdi ki, çoxdan yazıb göndərdiyi həmin məqalə bu gün dərc olunub. Nazim cibindən xırda pul çıxardıb, köşkdən bir neçə qəzet aldı. O, əvvəlcə öz məqaləsi olan qəzeti tələm-tələsik açıb oxumağa başladı. Qəzetin ikinci səhifəsində, padvalüstü verilmiş üç sütunluq məqalənin altında imzasını görəndə elə bil ona dünyanı bağışladılar. Məqalənin bircə başlığı dəyişdirilmişdi. Mətnə isə qələm vurulmamışdı. Nazimin məqaləsinə əl gəzdirib, onun bircə cümləsinə toxunanda dilxor olurdu. Və əsəbiləşib: - "vicdansız, guya qaş düzəldib, gözünü də töküb qoyub orda, məqaləni korluyub!" - öz-özünə deyinirdi. Bu dəfə məqalə necə yazılmışdısa, eləcə də dərc olunmuşdu. Nazimin çiçəyi çırtladı. Bu sevinc bayaq sovxoz direktoru Eybalı Salamovun ona dediyi köntöy sözlərin qanqaraldıcı təsirini xeyli yüngülləşdirirdi.

Yaxında qarşı-qarşıya dayanan cavan oğlanların bir-birinə hərbə-zorba gəlməsi Nazimin diqqətini məqalədən ayırdı. Onların biri vaxtilə dolanışıq dərdindən Ermənistandan köçüb gəlmiş və tütün qəbulu məntəqəsində mühasib işləyən Suren Sitaryanın oğlu Andronik idi. Suren bu şəhərdə yurd salandan, yaşamağın çəmini tapmışdı. Tütün məntəqəsində əli yaxşı gətirirdi. Rayon mərkəzində beş adamın gözəgəlimli evi vardısa, onun biri Suren Sitaryanın idi. Yumşaq, yapışıqlı xasiyyəti olan bu adam, hamının qılığına girməyi bacarırdı. Oğlu Andronik ali məktəbdən yarımçıq qayıdıb, tikinti idarələrinin birində dülgər işləyirdi. Sənətkarlığına söz yoxdu. Ağacdan adam düzəldirdi. Dülgərlikdən də başqa, əlindən hər iş gəlirdi. Kimin tikiş maşını, saatı, radiosu xarab olurdu, Andronikin yanına aparırdı.

Yaxşı da tüfəng qundağı düzəldirdi. Altındakı üçtəkərli motosikletlə rayonun altından vurub üstündən çıxırdı. Boş vaxtlarını saatlarla çay kənarında dayanıb, qarmaqla balıq tutmaqda keçirirdi. Yetənə yetirdi, yetməyənə də bir daş atırdı. Onunku vur ölüm, haqqımı ver idi. Bu xasiyyətinə görə qonum-qonşu arasında ona Xırtış Andronik də deyirdilər. Ancaq başqa millətdən olduğuna görə və həm də Androniki qərib bilib, şəhərdə heç kəs onun sözünün başına ip salmırdı. Bir-iki dəfə ona-buna sataşdığına görə ağzını, burnunu əzişdirmişdilər. Bununla belə yenə ona dərs olmurdu. Androniklə qabaqlaşan ikinci oğlan isə uzun müddət meşəbəyi işləyən və son vaxtlar pensiyada olan Net Ələkbərin oğlu Qüdrət idi. Ələkbərin vaxtında bir nəfər əli dəhrəli, baltalı meşələrin həndəvərinə üzükə bilməzdi. Kimliyindən asılı olmayaraq, əlində icazə kağızı olmayanı meşəyə buraxmazdı. Nözən billah Allahın bacısı oğlu olsa da ona - yox - deyib geri qaytarırdı. Bu xasiyyətinə görə də ona "Net" ləqəbi qoymuşdular. Net Ələkbəri rayonda uşaqdan böyüyə hamı tanıyırdı. İndi qocalıb əldən düşmüşdü. Oğlu Qüdrət də ki, qəzet, jurnal, məktub dolu nimdaş qara çantasını çiyninə salıb, yaxın kəndləri bir-birinə vurub, poçtalyonluq eləyirdi. Sakit təbiəti, yumşaq xasiyyəti olan bu cantaraq oğlanı dindirən olmasaydı, danışmazdı. O, çiyninə keçirdiyi sürtülmüş çantanın enli qayışından bərk-bərk yapışıb rabitə idarəsindən aralaşanda, Andronik dəlləkxanadan çıxıb tükləri gözlərinin üstünə tökülən qoçusayaq telini daraya-daraya Qüdrətin qabağını kəsdi və:

- Arə, turken dığa, qəzetlərdən bir-ikisini ötür bəri! - dedi.

- Abunəçilərindir, verə bilmərəm. Sənə qəzet lazımdırsa, odey, ordan al! - Qüdrət köşkü göstərdi və əlavə etdi - musurmanın çörəyi də səni qudurtmasın, ədəbli danış.

Bu cavab Andronikin şəstinə toxundu. O, irişib seyrək dişlərinin arasından Qüdrətə tərəf çırt atdı:

- Tüpürüm qəzetinə, - dedi.

Qüdrət onu sərxoş hesab edib, Andronikin bu şit və sırtıq hərəkətinin üstünü vurmadı. Və üzünü o tərəfə çevirib aralanmaq istədi.

Andronikin gözü Qüdrəti yeyirdi. Ona görə də arxadan ona çatıb Qüdrətə badalaq atdı və sonra da rişxəndlə güldü. Qüdrət büdrəyib, üzü üstə getdi, lakin yıxılmadı. Küçəyə əyilən tut ağacının qanadından yapışıb özünü güclə saxlaya bildi. Qüdrət özünü düzəldib ona tərəf dönərək:

- Andronik! Deyəsən gicliyin tutub axı, - dedi. - Axmaqlama!

- Ara, gic özünsən, - Andronik dişini qıcıyıb Qüdrətin üstünə cumdu və yumruğunu qaldırıb onun başına endirmək istədi.

- Ölümün gəlməsin, Andronik, Suren kirvədən ayıbdı, yolunla düz get.

- Ara, bu axmaq türkə bax e! - Andronik istehza ilə gülüb, onun başındakı kepkanın uzun dimdiyindən tutub aşağı dartdı.

Qüdrət kepkasını yuxarı qaldırdı:

- Lənət sənə, şeytan! Yaxşı deyiblər ki, keçinin buynuzu gicişəndə çobanın dəyənəyinə sürtüşər, - deyinməyə başladı.

Andronik:

- Mənə keçi dedin, özün donuza oxşuyursan, - Qüdrətin yaxasından yapışıb silkələdi.

Qüdrət onun əlini özündən aralayıb kənara itələdi:

- Qıraxdan bizə baxırlar, Andronik! - dedi. - Ayıbdı, məni xataya salma. Sənə əl bulamaq istəmirəm! Qoy yolumla gedim.

Qüdrət ona baş qoşmaq istəmirdi. Andronik isə:

- Ara, əlimə gicişir, gərək bu gün bir türkə əzişdirəm, - deyib, döyüşkən xoruz kimi onun çənəsinin altına yeridi.

Qüdrət yenə hirsini cilovladı:

- Ağlın olsun, ay erməni dığası, burda sənə neynəyirəm ki, belə boş-boş danışırsan?!

- Ara, kepimə belə istəyir! Burnuna ovacağam.

- Axı niyə?! - Qüdrət güldü. Əvvəlcə günahımı de, sonra...

- Görürəm zorba oğlansan, gücəmə sınayıram. Hi... hi... - Andronik dişini ağartdı.

Qüdrət başını bulayaraq:

- İşə düşmədim! - öz-özünə deyindi. - Andronik, görürəm kefin yuxarıdır, get yat. Haçan ağlın başına gəldi, onda gələrsən danışarıq. Abunəçilər yolumu gözlüyür, məni ləngitmə, - əlavə etdi.

Andronik bir az da şirnikib, ona əl atmaq istədi. Qüdrət geri çəkildi və:

- Yaxşı deyiblər ki, it qursağı yağ götürməz. Bilirəm tütün məntəqəsi sizi qudurdub. Sənnən söz güləşdirməyə təhrim yoxdur. Məndən əl götür! Get özünə ayrı müştəri axtar! Kənardan bizə baxırlar, ayıbdır, - Qüdrət bunu deyib, çiynindəki çantanın qayışını yuxarı dartdı və üzünü əks tərəfə çevirib ondan aralaşmaq istədi.

Andronikə elə gəldi ki, Qüdrət qorxub onun qabağından qaçır. Ona görə də Andronik bir az da şirnikdi. Arxadan Qüdrətə çatıb, sol əli ilə boynundan yapışdı, sağ əlində tutduğu bıçaqla onun üzərinə qıcandı. Qüdrət üzünü ona tərəf çevirəndə bıçağın ucu qaşının üstünə toxundu və bir balaca qan çıxdı. Həmişə sakit, lal-dinməz görünən Qüdrətin gözlərində qəzəb alovlandı. O, çantasını kənara atıb, qızmış nər kimi Andronikin üstünə cumdu. Andronik bıçağı işə salmaq istədi. Qüdrət onun sağ biləyini burub, bıçağı əlindən aldı. Qüdrətin hədəqədən çıxmış gözlərinə heç nə görünmürdü. O, sol əli ilə Andronikin xirtdəyindən yapışıb, sağ əli ilə onun dəlləkxanada təzə qırxılıb ətirlənmiş baş-gözünü o ki var, yumruqladı. Andronikin

əynindəki təzə saroçka al qana bulanmışdı. Haraya gələnlər Andronikiə Qüdrətin əlindən ala bilmirdilər. Kənarda dayanan yaşlı bir qadın bükülü əlini yaşmaqlı ağzına tutaraq təəccüblə:

- Bıy, az! Az! - dedi, - xəşil də daşarmış e, mən bu Net Ələkbərin oğlunu fığara bilirdim. Gör o dığanı nə kökə salıb e!

Bir başqası:

- Net Ələkbərin oğlu Qüdrətin hələ bu çağacan dalaşdığını görən olmuyub. İndi gör bu dığa ona nə eliyibsə, Qüdrət hövsələdən çıxıb, yoxsa...

Səs-küyə çoxlu adam toplaşmışdı. Dalaşanları birtəhər aralamışdılar. Qüdrətin qolundan yapışıb kənara çəkən üç nəfər onu saxlaya bilmirdi. Qüdrətin sifəti ağarmışdı, ağzı köpüklənə-köpüklənə:

- Buraxın məni, onu öldürməsəm, əl çəkən deyiləm, - deyib, yanındakı adamların arxasına qısılmışdı.

Poçt idarəsinin qabağına çoxlu adam toplaşmışdı. Ağac atsan, yerə düşməzdi. Bu iki nəfərin dalaşmasını eşidib gələnlərin hamısı Net Ələkbərin oğlu Qüdrəti qınayırdı:

- Ələkbərin çörəyi burnundan gəlsin! Surendən eyib deyil?! Onun oğlunu niyə o kökə salmısan?! - deyib, sonra da Andronikə dil-ağız eliyirdilər. - Cavanlıqda belə şeylər olar, eybi yoxdur! Bu gün dalaşmısınız, sabah da barışarsınız, qurtarıb-gedər! Arada Ələkbər var, Suren var, - deyib Andronikin könlünü alırdılar.

Qüdrətin hirsi hələ də soyumamışdı. Andronikə qarşı cilov gəmirirdi. Andronik isə qab sındırmış pişik kimi susmuşdu. Qüdrət onun gözünün odunu necə almışdısa, qorxusundan cınqırını çəkə bilmirdi. Andronikin ağlına gəlməzdi ki, fağır-fağır gəzib-dolanan abırlı bir adam birdən-birə şir kimi qızıb onu bu cür ölümcül vəziyyətə salar.

Suren bu əhvalatı eşidib bacısı Knarikin azərbaycanlı əri

Fərmanla birlikdə hadisə yerinə gəlmişdi. Andronik nə demək istəyirdisə, Suren imkan vermədi. Fərmanla Suren Andronikin qoluna girib onu aradan çıxartdılar.

Surenlə Fərman Androniki evə aparıb onu yan otaqdakı taxta çarpayıda uzatdılar. Suren Fərmanı bir kənara çəkib xısın-xısın:

- Ara, Pərman, yeznə, - dedi. - Bilmirəm dərdimi kimə deyim?! Bizim bu arvadın Yerevanda işləyən qardaşı var e, Şimavon, həptə səkkiz, mən doqquz bir ayağı Livandadır, bir ayağı Pransadadır, bir ayağı Amerikada. Ara, o daşnax köpək oğlu, bizim bu cavanların başına xarab eliyib. Elə ki, bu Andronik Yerevana gedib dayısı Şimavonla görüşür, olur dəli. Başı xarablayır. Başlayır səfeh-səfeh danışmağa. Deyir ki, türk bizim düşmənimizdir. Telefonda da tez-tez dayısıynan axmaq-axmaq danışır. Bir-birinə məktub yazır. Ara o, Şimavon köpək oğlu içimizə azar salıb. Gədələrin üçü də dönüb. Bizim bu arvad da onlara qoşulub. Oturub-durub türkün ziyanına danışırlar. O sonbeşik Levon var e, bu il birinci sinipə gedir. O da sarsaqlayır. Hardansa paslı bir bıçaq tapıb. Gündə bıçağa itiləyir. Soruşuram ki, Levon can, sən o bıçağı neyləyirsən?! Deyir ki, yekələndə türklərin başına kəsəcağam. Mən də ona bir-iki şapalaq çəkdim. Dedim a şandığa, yeməyə çörək tapmırdıq, bura gələndən bəri adam olmuşuq. Bu şəhərdə bizim ev kimi, kimin evinə var?! Bacı-qardaşların gündə bir kostyum geyir, pulumuza da bol. Əgər türk pisdirsə, niyə sənin bibin bizim bu Pərmana ərə gedib?

Suren Sitaryan əlini dizinə vuraraq:

- Ara, Pərman, bu dərd məni götürüb. Belə getsə, bu işin axırına pis olacaq. Yerevanda türk deyənin dilinə kəsirlər. Bakıdakı, Qarabağdakı ermənilər də yoldan çıxardıblar. Günahın çoxu da o Moskvadakı çox bilən propessorlardı. Qazanın altına od qoyan da onlardı. Özləri orda rahatca oturub,

bu kasıb-kusub camaatı bir-birinə qırdırmaq istəyirlər. Bizim bu Andronik, Silva Kaputikyan var e, adını da qoyub şair, onun kitablarını oxuyandan sonra mənə də saymır. Deyir türklərnən dostluq eləmə, Türkləri dünya üzündən silmək lazımdır. Ara, bu Andronikin başına xarabdı, nədi?! Nə qədər çalışıram, bizim bu dığaları başa sala bilmirəm! Cavanlarda ağıl qalıb?! Ara, elə bilirsən təkcə Net Ələkbərin oğlu Qüdrətdi?! Andronik gündə birinə sataşır. Deyir türk görəndə dəli oluram. Deyir burdan köçək Yerevana. Deyirəm sən qəhbənin qarnından çıxmısan, dayın başını xarab eliyib. Yerevanda bizə kim çörək verəcək? Elə Yerevandakılar da türklərin tör-töküntüsüynən dolanmır?!

Suren Siqaryan danışıb qurtardıqdan sonra matdım-matdım yeznəsi Fərmanın üzünə baxdı:

- Ay Pərman, başına dönüm, indi sən mənə bir yol göstər, başıma çarə qılım. İndi-indi bir parça çörək tapmışıq. Onu da bu dığalar yemağa qoymurlar. Yerevanda da, Bakıda da, Stepanakertdə də yenə bəzi-bəzi başıxarab ermənilərin beyninin qurduna tərpənib... Ara, Pərman, demə ki, Suren maa yaltağ eləyir. Məzhəb haqqı düz deyirəm. Erməni ağlı, erməni millətinin qənimidi. İçimizdən çıxan praposuru da, alimi də, şairi də elə bizə qızışdırıb qırğına verirlər. Ara, belə də dərd olar?!

Andronik içəridə zarıyırdı. Onun üstünə həkim çağırdılar. Qüdrət necə vurmuşdusa, Andronikin başı içəridən zədələnmişdi. Huşu özündə deyildi. Hərdən sayıqlayırdı, ancaq nə danışdığı bilinmirdi.

- Şi-ma-von... Şi-ma-von... mə-ni, mə-ni türke, türke vurdu! Vurdu... Ba-şım... ba-şım... Onlara qırmaq... qırmaq... Qara-bağ... Naxçıvan... Xəzərdən... Qara dənizə... Qara dənizə... ha-mısı bizim... bizim...

Suren tez aralığa söz qatıb həkimi o biri otağa çəkdi ki,

Andronikin çərənləməsini eşitməsin. Həkim Andronikin sözlərinə o qədər də əhəmiyyət vermirdi. Bircə onu dedi ki, Andronikin başına dəyən zərbələr ağırdı. Qusması onu göstərir ki, beyni silkələnib... Gərək bir müddət yatsın, belə vəziyyətdə ona hərəkət etmək, danışmaq olmaz. Xəstəni rahat buraxmaq lazımdır... Sayıqlamasına da fikir verməyin. O, qızdırmalıdır, hər şey danışa bilər. Huşu da özündə deyil...

Nazim İlham qoltuğunda qəzet, jurnal evə qayıdanda təzəcə yeriyib, yüyürən oğlu Fəyyaz qapının astanasında onun qabağına çıxıb - ata, qucu-qucu - deyib qollarını qaldırdı. Nazim onu qucağına alıb yenə yerə qoydu. Həmişəki kimi əzizləyib, atıb-tutmadı. Səriyyə o dəqiqə başa düşdü ki, Nazimin keyfi yoxdur. Və qəddini əyib yemək stolunun üstünə yuyulub ütülənmiş ağ süfrə aça-aça:

- Yenə noolub, qaş qabağın yer süpürür?! Dünya-zad dağılmayıb ki?! - dedi. - Uşağın günahı nədi, onun üzünə soyuq baxırsan?! Bu redaksiyada işləyəndən bəri, bircə dəfə gülər üzlə evə qayıtdığını görmədim.

- Bir balaca başım ağrıyır, - Nazim dilxor cavab verdi. - Elə bir şey olmuyub. Bir də ki, siz qəribə danışırsınız! Xasiyyətim belədir. Bəlkə qol götürüb oynuyum?! Onda xoşun gələr?! Dedim ki, heç bir hadisə baş verməyib. Və mənim də keyfim kök, damağım çağdır.

- İnanan daşa dönsün! Mənə də Səriyyə deyərlər. Gözünün içinə baxanda bilirəm ki, kiminləsə sözləşmisən, ya da ki, pis bir şey eşitmisən.

Nazim həyat yoldaşının sözünü cavabsız qoyub istirahət otağına keçdi və küncdəki divanın üstünə sərələndi. Aldığı qəzetləri bir-bir açıb nəzərdən keçirməsinə baxmayaraq, Eybalı Salamovun kobud hərəkətlərini, Andronikin Qüdrətə türk deyib onun üstünə cummasını başından çıxarda bilmirdi. O, bir neçə

gün bundan qabaq da belə bir qanqaraldıcı hadisənin şahidi olmuşdu. Ermənistanın Çoyqovuşana qonşu olan şəhərindən keçəndə, maşını saxlatdırıb məktəb binasının yaxınlığındakı bulaqdan su içib, ləçək-ləçək ağ çiçək açmış akasiya ağacının kölgəsində sərinləyib dincini alırdı. Saqqal buraxan cavan müəllimin sinif otağında gəzinə-gəzinə şagirdlərlə apardığı sual-cavab pəncərədən aydınca eşidilirdi. Nazimin doğulub boya-başa çatdığı kənd Ermənistan sərhəddində yerləşdiyindən və qonşularla tez-tez təmasda olduğundan müəllimin dediklərini az-çox başa düşürdü. Müəllim əvvəlcə başında qotazlı papaq olan və kirəmiddən düzəldilmiş yumruq boyda adam fiqurunu şagirdlərə göstərərək:

- Kim deyər, bu hansı millətə oxşuyur?

Uşaqlar xorla bir ağızdan:

- Müəllim, türkə oxşuyur.

- Ay şad abres, düz tapdınız. Türk bizim nəyimizdir?

- Müəllim, türk bizim düşmənimizdir.

- Ay bərəkallah. Onda deyin görüm, türkü görəndə nə edərlər?!

- Müəllim, öldürərlər.

- Kim deyər, necə öldürərlər?

Orta cərgədə əyləşən gombul uşaq cavab verdi:

- Alnına bir güllə vurarlar.

Müəllim xoşhalallıqla gülümsünüb başını buladı:

- Yoox, bu azdı, - dedi.

Qabaqda əyləşən iti baxışlı oğlan uşağı dilləndi:

- Müəllim, türkün başını kəsərlər.

- Yoox, bu da azdı.

- Müəllim, gözlərini çıxardarlar, - başqa birisi yerindən dilləndi.

Müəllim dodağını büzüb yenə başını buladı:

- Türkə bu da azdır, sən də bilmədin, - dedi.

Gicgahı yastı və başında kəkil qoyan əyriburun oğlan əyləşdiyi skamyanın arasından keçib qabağa çıxdı və müəllimin üzünə şax baxaraq:

- Müəllim, e-vi-mi-zin divarında, çoxlu-çoxlu şəkillər var. Atam... Atam deyir ki, onlar bizim nənələrimiz, babalarımızdır. Orda mənim babamın da iri şəkli var. Hamısını atam şəkilçəkənə böyütdürüb. Atam da, anam da mənə deyib, onları türk öldürüb. Ona görə də atam deyir ki, türklər bizim birinci düşmənimizdir. Haçan olsa, türklərdən qisasımızı almalıyıq. Müəllim, türkü gülləynən vurub, başını kəsib, sonra da gözlərini çıxardıb, qulaq-burnunu da iti bıçaqla siyirib, sonra da... sonra da tonqalda yandırmaq lazımdır.

Müəllim şagirdinin cavabından məmnun olub əlini onun kürəyinə çəkdi:

- Malades, ləv dığa. Düz tapdın, - dedi. Sənə yağlı bir beş.

Nazim bu sözləri eşidəndə qulaqlarını tutub, tez maşınına əyləşdi. O, yol boyu düşünürdü: "İnsan xoş əməllər üçün yaranıb, lakin bu cür dərs alan bir millətin övladları, necə də bədbəxtdir. Və belə müəllimlərdən öyüd alan nəsil çətin ki, tarixi faciələrə düçar olmaqdan yaxa qurtarıb həyatda rahatlıq, dinclik tapa bilsin. Bizim millət isə fil qulağında yatıb. Yağlı tikəmizi ermənıyə yedizdiririk. Bakıda ən yaxşı evlər, vəzifələr ermənilərin əlindədi. Onların aldığı dərs isə... Bunun axırı hara gedib çıxar?!

Başında bu cür dumanlı, təzadlı fikirlər dolaşan gənc qəzet redaktoru, əyləşdiyi divanın söykənəcəyinə dirsəklənib huşa getmişdi. Və gözlərini yumub yuxuya daldığından barmaqları boşalmışdı, oxumaq istədiyi qəzet sürüşüb dizləri üstünə düşmüşdü. Səriyyə bayaq həyat yoldaşını məzəmmət eləməsinə baxmayaraq, onun çəkdiyi əzabları, keçirdiyi iztirabları yaxşı

başa düşürdü. O, Nazimin üstünə nazik və yumşaq adyal çəkdi. Sonra Fəyyazı qucağına alıb Nazimi oyatmamaq üçün ayağının ucunda sakitcə mətbəxə keçdi. Eybalı Salamovun xalı-xalçası ilə öyünüb qəzetə lağ eləməsi, Andronikin Qüdrətə türk deyib onun üstünə ayaq alması, erməni məktəblərində o cür dərslərin keçirilməsi, uşaqlarda millətimizə qarşı düşmənçilik hissi aşılanması Nazim İlhamı yuxuda da rahat buraxmırdı. O, birdən adyalı üstündən atıb gözlərini açdı. Nazimin yorğunluq yağan sifətini tər basmışdı. Yuxulu gözlərini ova-ova ətrafına baxanda heç kəsi görmədi. Ayağa qalxıb vanna otağına keçdi və kranı açıb üzünə bir-iki ovuc su vurdu. Yemək süfrəsinə yaxınlaşıb, stula əyləşməmiş Səriyyəni səslədi. Səriyyə xörək qazanını təzədən ocağın üstünə qoydu. Günorta fasiləsindən xeyli keçməsinə baxmayaraq, Səriyyə özü də çörək yeməmişdi. Nazimin yuxudan qalxmasını gözləyirdi.

Nazim balaca Fəyyazı dizinin üstündə oturtdu. Səriyyə süfrəyə xörək, mer-meyvə düzəndən sonra özü də onlarla üzbəüz əyləşdi. Səriyyə Nazimin xasiyyətini bilirdi. Onun qanı qara olanda olub-keçənlərdən, işdən, ailə çətinliklərindən söhbət açılmasını xoşlamırdı, onda əsəbiləşirdi. Balaca Fəyyazın dəcəlliyindən, onun işlətdiyi təzə və məzəli sözlərdən, etdiyi şıltaq hərəkətlərdən daşınada Nazimin eyni açılırdı. Səriyyə ərinin diqqətini, onu narahat edən fikirlərdən yayındırmaq üçün:

- Xəbərin var, Fəyyaz nə dillər öyrənib, - həyat yoldaşından soruşdu.

- Xeyr, necə?! - Nazimin rəngi açıldı.

- Qoy özü desin, sən də qulaq as, - Səriyyə Fəyyazı dilə tutub, onu danışmağa məcbur elədi. Fəyyaz dili topuq vura-vura:

- Ağac oleydim, yolda dureydim, atam gələndə kölgə saleydim, - əzbərlədiyi sözləri birtəhər dedi.

Nazim ürəkdən güldü. O, Fəyyazın təzə, titrək səsini eşitdikcə, ona yer eliyən sözlərin qəlbsıxıcı təsirindən xilas olurdu.

Nazim evdən şən əhval-ruhiyyə ilə çıxdı. İrəlidəki döngəyə çatana qədər yenicə dil açan Fəyyaz anasının qucağında onun arxasınca əl elədi.

Nazim idarənin yerləşdiyi binaya çatanda yenə Eybalı Salamov uzunboğaz çəkməsini cırıldada-cırıldada qara kölgə kimi gəlib dayandı onun xəyalının aynasında. İçəridən onu didib-parçalayan nifrət hissi yenidən baş qaldırdı. Nazimin qaşları düyünləndi, gözləri qıyıldı, qəddi əyildi, yenə fikri yüz yerə şaxələndi. O, diqqətini işıqlı bir səmtə yönəltmək məqsədilə kabinetinə daxil olub, qarşısına ağ kağız qoydu. Və əlinə qələm alıb, qəzetin növbəti nömrəsi üçün baş məqalə yazmaq istədi. Ancaq bacarmadı. Fikri dağınıq olduğuna görə yazdıqları onu açmadı. Düz üç vərəq ağ kağız korladı. Ancaq məqalə yenə alınmadı. O, telefonun dəstəyini qaldırdı. Və katib köməkçisindən Nadir Xələfoviçin gəlib-gəlməyəcəyini soruşdu. Köməkçi cavab verdi ki, katib bu gün də işə çıxmayacaq. Həkim ona icazə vermir, hələ qızdırması var.

Nazim arxa tərəfdəki rəfdən Nizaminin, Hüqonun, Şekspirin əsərlərini bir-bir götürüb vərəqlədi. Oxuyub altından cızıq çəkdiyi ibrətamiz sözləri nəzərdən keçirdi. Nazim həmişə rast gəldiyi çətinliklərdən çıxış yolunu kitabların səhifələrində axtarıb tapırdı. Və dahilərin dedikləri ona bir təsəlli olurdu. Üzləşdiyi hadisələrə yaşadığı dövrün ötəri qanunları ilə yox, o cür dahilərin gözüylə baxırdı. Buna baxmayaraq, xasiyyətindəki güclü emosionallıq ona dinclik vermirdi. Harınlayıb yolunu azan bir adamın qəzetə, onun redaktoruna qarşı hərzə-hədyanı Nazimi hövsələdən çıxartmışdı. O, Eybalı Salamovla öz aralarında olan xoşagəlməz söhbəti Nadir Nəsrullayevə çatdırıb

ürəyini boşaltmaq istəyirdi. Nadir Xələfoviç də ki, tərs kimi xəstələnib yorğan-döşəyə düşmüşdü. Nazim qarşısındakı kitabları vərəqləyib bəzi sözləri nəzərdən keçirəndən sonra stolun üstünü səliqəyə salıb ayağa qalxdı. Və öz-özünə düşündü: “Bu məsələni sonraya qoya bilmərəm. Salamovun hərəkətlərini elə bu gün Nadir Nəsrullayevə çatdırmalıyam. Şübhəsiz, Nadir Nəsrullayev Eybalı Salamovun redaksiyada dediklərini eşidib-bilsə elə günü sabah büro iclası çağırıb onunla hesabı çürüdəcək. Çünki qəzet rayon partiya komitəsinin öz orqanıdır. Qəzetə hörmətsizlik, raykoma hörmətsizlikdir. Nadir Nəsrullayev Eybalı Salamovu təkcə bugünkü hərəkəti üstündə vəzifədən çıxardıb, partiya sıralarından xaric edəcək”.

Nazim saatına baxdı, iş vaxtı çoxdan qurtarmışdı. Hamı ev-eşiyinə getmişdi. Bir qəzeti çapa hazırlayan mətbəə işçilərinin giley-güzarlı, yorğun səsi eşidilirdi, bir də ki, kabinetləri silib-təmizləyən süpürgəçilərin gəzdirdikləri köhnə vedrələrin dınqıltısı.

Nazim idarə ilə üzbəüz olan və ortasından elektrik stansiyasının ot basmış su kanalı keçən şəhər parkına daxil oldu. Nadir Nəsrullayevin yaşadığı binanın arxa divarı parkın hasarına söykənirdi. O, qabaq Nazim İlhamın qonşuluğunda yaşayırdı. Birinci katib olandan sonra bu xudmani binaya köçmüşdü. Binanın qibləyə baxan dəhlizinə sarmaşan güllərin rəngi əlvan olsa da, ətri duyulmurdu. Nazim təzəcə yuyulub-silinmiş tünd qırmızı rəngli taxta pilləkənlərlə yuxarı qalxıb evin şüşəbəndinə daxil oldu. Nadir Nəsrullayevin həyat yoldaşı Tamara xanım Nazimlə dilucu salamlaşıb, sonra da könülsüz-könülsüz:

- Buyurun içəri, - dedi.

Nazim qəddini əyib ayaqqabılarını soyunanda katibin yatdığı otaqda bu evə yad olan və ona tanış gələn bir səs eşitdi: “Deməli, burda kənar adam var, nahaq gəldim”, - öz-özünə

düşündü. Ancaq fikirləşdi ki, təzədən qayıdıb getsəm, yaxşı düşməz. O, qapını ehmalca tıqqıldadıb sonra açdı. Eybalı Salamovu burada görəndə gözlərinə inanmadı. "Ola bilməz, bəlkə mən səhv gəlmişəm" - düşündü. Nadir Nəsrullayev baş tərəfində əldətoxunma sumağı xalça asılmış çarpayıda uzanıb üzünü Salamova tərəf çevirmişdi. Salamov uzunboğaz çəkməsini çıxartmamışdı. O, qıçını qıçının üstünə aşırıb, yanpörtü raykom katibi ilə nə isə şirin-şirin söhbət edirdi. Redaktor onları görəndə nə irəli gedə bildi, nə də ki geri. Bir anlığa yerində quruyub qaldı. Nadir Nəsrullayev yorğanın altından dikəlib:

- Buyurun, Nazim müəllim! Buyurun, gəlin! - onu dəvət etdi.

Nazim kənardan baş endirib, onların hər ikisinə salam verdi. Lakin yaxınlaşıb əl tutmadı. Və çarpayının ayaq tərəfindəki stulda əyləşdi. Ortalığa lal sükut çökdü. Redaktorun gəlişi nə katibə ləzzət elədi, nə də ki, sovxoz direktoruna. Eybalı Salamov daha oturmağın mənasız olduğunu və katiblə sərbəst danışa bilməyəcəyini nəzərə alıb ayağa qalxdı. Əlini katibin alnına qoyaraq:

- Sağ olmuş, - dedi. - Əməlli-başlı soyuqdəymən var. Belə vəziyyətdə durmaq olmaz. Xəstəliyin tərsikə bilər. Bir neçə gün özünüzü gözləyin. - O, əlini xəstənin alnından çəkib şax dayandı - icazə verin gedim, mənə sözünüz, tapşırığınız?!

- Sağ olun, əziyyət çəkmisiniz, uşaqlara salam deyin. - Nadir Xələfoviç ona razılığını bildirdi.

Eybalı Salamov:

- Yastığınız yüngül olsun, - deyib yataq otağından çıxdı və şüşəbəndin astanasında ayaq saxlayaraq:

- Tamara bacı, gedirəm, - dedi. Zəhmət olmasa, o heybəni bəri ver, boşaltmısansa, sərnici də gətir...

Nadir Xələfoviç hiss etdi ki, Eybalı Salamovun dediyini

Nazim İlham eşitdi. Ona görə də aralığa söz qatıb Nazimin diqqətini Salamovun heybəsindən, sərnicindən yayındırmaq üçün:

- Tamara, orda səs-küy salmayın, - dedi. - Qapını da örtün, külək gəlməsin, - hıqqıldaya-hıqqıldaya sağ böyrü üstə döndü.

Raykom katibi Eybalı Salamov barədə qəzetdə gedən məktubun üstünə gəlmirdi. Və çarpayısında ah-uf edib, o tərəf-bu tərəfə aşırdı. Çalışırdı ki, redaktor bu haqda söhbət açmasın. Nadir Nəsrullayev ağzına iki həb atıb, üstündən bir qurtum su içdi. Və başını yastığa qoyub zarımağa başladı:

- Yu-xa-rı dağ kən-di-nə get-miş-dim, - dedi. Tərli-tərli soyuq su içdim. İndi bərk angina olmuşam. Boğazım qızarıb, soyuqdəyməm də var. Qızdırmam otuz doqquza çatmışdı. Həkimlərdə də insaf-mürvət qalmayıb! Adama nə qədər iynə vurarlar?! Yançaqlarım yara olub! - Vay! Vay! Nə pis yerdə axşamladıq! - Xəstə azaylana-azaylana arxasını redaktora, üzünü divara tərəf çevirdi. - Of! Of! - Nəfəs ala bilmirəm! Elə bil havam çatmır! Tamara! Tamara! Aaz! O pəncərənin qabağın bir balaca aç, təmiz hava gəlsin, boğuluram.

Tamara küt yatan qaz kimi fısıldaya-fısıldaya Nazimin yanından keçib pəncərəni açdı və öz-özünə deyinməyə başladı:

- Vallah, gəlib-gedənin ayağının altında itib-batmışıq! Biz cəhənnəm e, öyrənmiş canıq, xəstəni dincəlməyə qoymurlar. Gələnə də necə deyəsən qayıt?! Məndə də o üz hanı? Gərək adamın özünün abır-həyası ola...

Nadir Nəsrullayev arxası üstə çevrilib, arvadına çəmkirdi:

- Az, nə boş-boş danışırsan?! - deyib halsız vəziyyətdə gülümsündü:

- Birdən dediklərini Nazim özünə çıxar. Sən bilirsən ki, ona böyük hörmətim var, - dedi.

- Yoox! Nə danışırsan?! Mən Nazim qardaşı demirəm ha!

Onun xatirini hamımız çox istəyirik. Axı, sovxoz direktorunun mənim evimdə nə işi var?! Kənardan baxanlar da düşünərlər ki, görəsən direktor katibə nə gətirib?! Allah vurmuşdu Eybalı Salamov kimilərini! Xəstə olduğuna görə dillənmədim. Yoxsa onu bu qapıdan içəri buraxmazdım, iti qovan kimi qovardım.

- Vay! Vay! Başım çatladı. - Nadir Nəsrullayev ah-vay elədi və həyat yoldaşının sözünə qüvvət verərək:

- Bir tərəfə baxanda, elə Tamara xanım düz deyir. Bizim bu evə elə adamlar gəlir ki, məəttəl qalıram. Eybalı da ki, sırtıq adamdı də, beləsinə nə deyəsən?! Elə mən özüm də istədim onu qovam, üzümdən gəlmədi. - Of! Of! Bütün bel-buxunum ağrıyır, az qalır başım dağılsın!

Nadir Nəsrullayev üzüqoyulu çevriləndə başının altındakı yastıq bir balaca aşağı sürüşdü. Zolaqlı döşəklə ağ balıncın arasındakı əlliliklərin, yüzlüklərin ucu göründü... Nadir Nəsrullayevin iniltisi kəsilmirdi:

- Vay! Vay! Başım! Başım! Axmaqlıq elədim. Gərək tərli-tərli su içməyəydim. - Xəstə yan üstə çevrilərək:

- Tamara! Tamara! - Həkimə zəng vur! Həkimə zəng vur gəlsin! Məni yaxşı-yaxşı bankalasın! Kürəyim gizildəyir! Vay! Vay! Bu nə işdi düşdüm! Son vaxtlar çox gümrahlaşmışdım. Özümün özümə gözüm dəydi. Of! Of!

Nazim İlham stulunda quruyub qalmışdı. Xəstə zarıdıqca, onun qəlbində insan riyakarlığına qarşı amansız bir qəzəb və nifrət hissi alovlanırdı. Nazim raykom katibinə deyəcəyi sözü onun sifətinə layiq olan bir lomba tüpürcəklə əvəz etmək istədi. Lakin belə bir nəzakətsiz hərəkəti özünə rəva bilmədi. Ayağa qalxıb baxışlarına sərt ifadə verərək:

- Mən getdim! - dedi.

Nadir Nəsrullayev yastığından dikələrək zəif bir səslə:

- Çox sağ ol, Nazim, Sizdən çox razıyam! - Vay! Vay! - O,

zarıldaya-zarıldaya əlavə etdi, - o qəzetdə yazdığını oxumamışam. Ancaq yoldaşlar mənə danışıb. Məqalə bir az qərəzli kimi çıxıb. Bilirsən də, Nazim, o Eybalı Salamovdan mənim də zəhləm gedir. Ancaq çoxdan işləyir, böyük də təcrübəsi var. O kəndin adamları da çox qəlizdi. Onların öhdəsindən Eybalıdı ki, gəlir. Onu çıxardıb axmağın birini qoysaq, kənd dağılar. Buna yol vermək olmaz. Bir də ki, sən cavan oğlansan, məsləhət görmürəm ona baş qoşasan. Həm də qonşu kəndlisiniz. Kənardan baxan sizə nə deyər?! Eybalı da ki, özün bilirsən dəə! Həyasızın biridir! Bayaqdan burada ağzına gələni danışırdı. Guya ki, ondan at istəmisən, o da verməyib. Nə bilim, deyir ki, Nazim bir də mənə xalça eşitdirib, mən də demişəm ki, redaktora verəsi xalçam yoxdur. - Of! Of! - Düzdü, onun dediklərinə o qədər də fikir vermədim. Ancaq Sizin barənizdə çox axmaqlayır. Sizdən də yuxarılara uzun bir teleqram yazmışdı, alıb oxudum. Teleqramda nələr yazmayıb?!. Cırıb atdım, dedim sarsaqlama! Ya redaksiyadan teleqram vurdun, ya da ki, bizdən, nə fərqi var? Nə isə, birtəhər yumşaldıb başa salmışam. İnnən sonra onunla işin olmasın. İntiriqa heç kəsə xeyir verməyib. Hamıynan mehriban olmaq lazımdır. Eybalı Salamov da ki, elə bir tərəfə baxanda, kara gələn yoldaşdı. İndi kadr tapılır?! Yaxşı-pis kəndi birtəhər yola verir. Məni düzgün başa düş! Birdən elə hesab eliyərsən ki, Eybalını müdafiə etmək istəyirəm. Yoox, ağlına qətiyyən elə şeylər gəlməsin. Bunu sənin xeyrin üçün deyirəm. Bir şeyi də yaxşı-yaxşı yadında saxla! Mən heç vaxt Sizi Eybalı kimi nanəciblərin ayağına vermərəm.

Nadir Xələfoviç qollarını yorğanın altından çıxardıb sinəsinə qoydu. Və zarıya-zarıya:

- Yaxşı, ayaq üstə durma, get, - deyib Nazimə əl uzatmaq istədi. Nazim ona əl vermədi. Qeyzli baxışları ilə Nadir

Nəsrullayevin tər basmış ətli sifətinə tərs nəzər salıb qapıya tərəf yönəldi. O, xəstənin yanından necə çıxdı, pilləkənlərdən necə endi, özü də bilmədi.

Nazim çıxan kimi, xəstə tələsik yerindən dikəlib, baş qoyduğu yastığı qaldırdı. pul bükülmüş qəzet kağızı cırılmışdı, əlliliklər, yüzlüklər yastığın altına dağılmışdı. Nadir - bəlkə Nazim İlham görüb?! - şübhələndi. O, pullara baxanda bankdan təzə çıxmış qırmızı onluqların rəngi sanki xəstənin sifətinə hopdu. Onun halı dəyişdi. Həkimin dava-dərmanı, Nadir Xələfoviçi indiki qədər yüngülləşdirməmişdi. Xəstənin qızdırmalı çöhrəsi bir andaca işıqlandı. Və həyat yoldaşını səslədi. Tamara mətbəxdən çıxıb əli bulaşıqlı ərinin yataq otağına keçdi:

- Eybalanın gətirdiyi yağı, balı yerbəyer eləyirdim, - dedi. Halal olsun. Çox layıxlı adamdı. Ondan muğayat ol. Qəzet-mazetin yazdığına çox da fikir vermə. İndi o cür qanacaxlı direktor hardadır?!

Nadir Nəsrullayev əlindəki pul bükülü kağızı Tamaraya uzatdı:

- Eybalı qoyub yastığımın altına, - dedi. Neçə manatdı, bilmirəm, saymamışam, özün baxarsan.

Tamara əli bulaşıqlı olduğundan bükülü kağızı qızıl bilərzikli, ətli biləyi ilə sinəsinə sıxıb dib otağa getdi...

* * *

Nazim şəhər parkının alt tərəfindən hərlənib mərkəzi küçəyə çıxdı. Mazut hopdurulmuş qara dirəklərdən asılan elektrik lampaları, güclə közərib asfalt yola zəif işıq salırdı. Bədirlənmiş ay gah ağ bulud laylarının arasında gizlənir, gah da açıq səmaya çıxıb şəhəri nura qərq edirdi. Əsəbi sarsıntıdan Nazimin gözünə heç şey görünmürdü. O, sağına-soluna

baxmadan küçə boyu addımlayırdı. Ancaq hara, necə və nə məqsədlə getdiyini sanki dərk etmirdi. Ağlı başından çıxan sərsəri adamlar kimi qarşılaşdığı tanış adamların verdiyi salamı sanki eşitmirdi. Onların yanından laqeydcə ötüb keçirdi. O, xeyli beləcə getdi. Aralıda hürə-hürə gələn zəncirli köpək ona çathaçatda Nazim bayaqdan bəri qərq olduğu fikirdən ayıldı. Və itin ağzından qurtarmaq üçün yolun kənarındakı çəkil ağacının arxasına keçəndə ayağı sürüşdü. O, kol basmış arxa düşüb, qurşağa qədər suya batdı. İtin zənciri kola ilişdiyindən ona çata bilmədi. Nazim arxda xeyli əlləşib, birtəhər aşağı tərəfdəki açıqlığa çıxdı. Onun bir gün əvvəl aldığı təzə ayaqqabısı palçığa batmışdı. Üst-başından çirkli su süzülürdü. Nazim əlini yanqılıcı alnına tutub ağacların arasından ətrafı vərəvurd elədi və öz-özünə:

- Mən hara gəlib çıxmışam?! - düşündü.

Bura şəhərin qurtaracağındakı qara tikandan qalın çəpəri olan və nizamsız tikilmiş birmərtəbəli kasıb-kusub evlərinin arasıydı. Nazimin yaşadığı ev arxada qalmışdı. O, təzədən geri qayıtdı. Qabağına adam çıxanda qısıla-qısıla yolun kənarındakı meyvə ağacının, elektrik dirəklərinin və ya uçuq bir divarın arxasına keçirdi ki, onu bu kökdə görən olmasın. Yaşadığı binaya çatanda pəncərələrin işığı onun üstünə düşməsin deyə, binanın kölgəli tərəfindən hərlənib evinə daxil oldu. Səriyyə onu bu vəziyyətdə görəndə həyəcanlandı:

- Sənə nə olub, Nazim?! Harda yıxılmısan?!

Balaca Fəyyaz yenicə qanad açan qartal balası kimi qollarını qaldırdı və atasının üstünə atıldı. Nazim Fəyyazı qucağına alıb, həyat yoldaşına təmkinlə:

- Narahat olma! - dedi. - Elə bir şey yoxdur. Arxdan addıyanda ayağım sürüşdü, suya düşdüm, burada nə var ki?! - Səriyyəni sakitləşdirdi. - Suya düşmüşəm! Su da ki, aydınlıqdır, -

əlavə etdi və qış günəşinin tutqun səmada işıqlandığı kimi güclə gülümsündü.

Səriyyə ona təmiz paltar gətirdi. Nazim o biri otağa keçib, əynini dəyişdirdi.

Nazim bir stəkan çay içib, özünə gəldikdən sonra maqnitafonda Fikrət Əmirovun "Kürd ovşarı" şur simfonik muğamını səsləndirdi. Ona həmdərd olan bu musiqinin sədası altında arxası üstə divana uzanıb, Fəyyazı sinəsinə aldı. Fəyyaz totuq sifətini atasının yorğun üzünə söykəyib, qollarını onun boynuna saldı. Nazim musiqinin sehrində Nadir Nəsrullayevin, Eybalı Salamovun məkr və hiyləsindən uzaqlaşıb, dünyaya göz açdığı doğma diyarın seyrinə daldı. Xəyal dünyasında, tərdən kürəyi duz bağlayan atasının biçənəklərdə işlətdiyi kərəntinin şırıltısını dinlədi. Əlində qoşalülə Çiçəklinin qayalıqlarında ayağı xınalı kəklik ovladı. Gəlin kahasının altındakı tut bağlarında karxana tutdu. Qoca bibisi ocağın üstündəki tiyanda coşub-daşan doşabın kəfini iri abgərdənlə yığıb mis cama doldurdu və damarlı əlləri əsə-əsə ona uzatdı. Kəhər atı çılpaqca yalmanlayıb Yazı düzündə tel-tel olan yaşıl zəmilərin arasında dördnala çapıb, cıdıra çıxdı. Qartal olub ilk dəfə dil açdığı kəndin səmasından boylandı. Şırşır bulağına, Aynaqlı dərəsinə, çay bağlarına, Balaban təpəyə, Qiblə daşına, uşaqlıq izləri qalan enişli-yoxuşlu cığırlara dəli bir həsrətlə göz gəzdirdi. Sinəsində uyuyan Fəyyazın ilıq nəfəsi onun yorğun sifətini yalayırdı. Ata-oğul şirin yuxuya dalmışdı. Səriyyə onlara mane olmaq istəmirdi. Musiqinin yazıldığı lent axıra çatıb qurtaranda, maqnitafon çaqqıldadı. Nazim xəyalən bir belə yeri gəzib-dolaşsa da, seyrinə daldığı əsrarəngiz dünyasından ayrıla bilmirdi. Onu tər basmışdı. Səriyyə saata baxdı. Gecədən xeyli keçmişdi. Maqnitafon da susmuşdu. Bircə üzüqoylu atasının

sinəsinə qısılan körpə Fəyyazın xəfif mışıltısı eşidilirdi. Səriyyə onların uyuduğu divana yaxınlaşıb, ahəstə səslə:

- Nazim! Nazim! Divan səni əzdi, dur, paltarını soyun, çarpayında rahat yat, - deyib, Fəyyazı onun sinəsindən qaldırdı. Nazim gözlərini açdı.

Səriyyənin boyasız sifətinə, paklıq yağan sürməsiz qaş-gözünə və onun qucağındakı yuxulu Fəyyaza riqqətlə nəzər saldı. Nazimin olduğundan artıq görünmək üçün dəyqədə bir süni boyalarla üz-gözünə bəzək-düzək vurub, özünü qulac saçından məhrum eliyib, kişi kimi kəkil saxlayan ədalı, iddialı, stilyaqa qadınlardan xoşu gəlmirdi. Səriyyə geyinib-kecinəndə həmişə həyat yoldaşının zövqünü, istəyini nəzərə alırdı. Özünü gündə bir modaya salmaqdan uzaq qaçırdı. Bu da onu Nazimin gözündə daha da ucaldırdı.

Səriyyə gülümsəyərək:

- Qalx, qalx, - dedi. - Səni kəsalət basmasın. Son vaxtlar yaman dəymədüşər olmusan ha! Hər şeyi ürəyinə salıb özünə dərd eliyirsən, belə olmaz!

Nazim İlham gözünün birini qıyıb, səmimi baxışları ilə onu altdan yuxarı süzərək:

- Doğru deyirsən?

Səriyyə qucağındakı uşağı yataq otağına aparıb, çarpayısında rahatlayandan sonra geri döndü. Və ərinin bayaqkı sualını cavabsız qoymadı:

- Bəli, doğru deyirəm! - Səriyyə ciddiləşdi. - Jurnalistsən, çoxlu da kitab oxumusan, allaha şükür, azdan-çoxdan həyat təcrübən var, uşaq-zad deyilsən ki! Bilməlisən ki dünyada işıq da var, zülmət də. Yaxşılıq da var, pislik də. Xeyir də var, şər də. Ağ da var, qara da, Rəhm də var, zülm də. İnsan onun hər ikisini qəbul etməyi bacarmalıdır. Bir də ki, xoşbəxt olmaq da, bədbəxtlik qədər çətindir. Ən böyük fəsadlar həddindən artıq

xoşbəxtlikdən törənir. İnsan firavanlığa çıxanda bəzən yolunu azıb tanrısından üz döndərir. Dara düşəndə Allahın ətəyindən bərk-bərk yapışıb ondan imdad diləyir. Bir də ki, ehtiyacla yoxsulluq olmasa cəmiyyətin inkişaf qanunları pozular, insanlar ağlasığmaz cinayətlər törədərlər. Siz isə həyatda yalnız rəvan, maneəsiz yollar axtarırsınız. Unutmayın ki, qismətinizə düşən jurnalistlik, mübarizlik deməkdir. Mübarizə isə həmişə çətinliklərlə üzləşir. Gərək ona tab gətirəsən.

Nazim həyat yoldaşının dediklərini başının hərəkəti ilə təsdiq etdi və zarafatyana:

- Belə dee! İndi bildim nə üçün jurnalist olmamısınız! Müəllimliyə nə var ki!

- Xeyr, yanılırsınız, hər bir peşə, onun məsuliyyətini dərindən dərk edib, ürəkdən sevənlərə çətin, həyatda başını birtəhər girləyib gününü sovanlar üçün asandır. Və məndən hansı peşənin çətin olduğunu soruşsaydılar, tərüddüd etmədən deyərdim ki, müəllimlik! Çünki o, insan formalaşdırır. Bu cəmiyyətdə baş verən bütün çirkinliklərin baisi müəllimi və müəllimliyi ucuz tutanlardır. Bir də ki, təsadüfi başçıların bayağı siyasətbazlığı.

- Dediklərinizdən belə nəticəyə gələ bilərəmmi ki, əsasınız olsaydı, məni qəddarcasına cəzalandırardınız?! - Nazim bunu deyib, həyat yoldaşının qulac saçına sığal çəkdi.

Səriyyə gülümsündü:

- Əlbəttə, Sizi təqsirləndirməyə haqqım çatardı. Ancaq qıymıram. Bir də ki, indiki zəmanədə adamları cəzalandırmaqdan ötrü o qədər də dərin əsaslar lazım deyil. Bunun üçün kiçik bir bəhanə də kifayətdir.

- Bu axşam Sizə nə olub, Səriyyə müəllimə, nədəsə məni ittiham etmək istəyirsiniz?

- Nədəsə yox, dəymə-düşərlikdə, hər xırda şeyi ürəyinizə

salıb dərd eləməkdə, inadkarlıqda, güzəştə getməyi bacarmamaqda, nifrət hissinizin məhəbbət hissi qədər güclü və amansız olmasında...

- Səriyyə xanım, - dedi. - Bu, çox ağır ittihamlardı, - Nazim qolunu onun boynuna saldı. - Yaxşı-yaxşı, bu söhbəti qurtardıq.

Nazim xəyallandı və sonra:

- Səriyyə, - dedi. - Bilirəm, bu sözləri mənə toxumaqda müəyyən qədər haqlısan. Sizi qınamıram, çox vaxt evə dilxor gəlirəm, qanınızı qaraldıram. Etiraf etməyə məcburam ki, bunun əsas bir səbəbi də odur ki, özüm özümlə bacarmıram. Əgər incə, həssas yox, qalın, anlamaz bir məxluq olsaydım, heç nəyi vecimə almazdım. İndiki zəmanədə biganələr, dərin olmayanlar bəlkə də həyatda daha çox udurlar. Lakin o cür həyat mənə lazım deyil. Bütün bunlara baxmayaraq, hər halda çalışaram iradlarınızı nəzərə alım.

- Az inanıram, - Səriyyə ümidsizliklə cavab verdi.

Nazim İlham Səriyyə xanımın məzəmmətli sözlərinin təsiri altında Nadir Nəsrullayevin, Eybalı Salamovun sözlərini, Andronikin türkə olan qəzəbini, erməni məktəbində gənclərə verilən qisasçılıq, vəhşilik tərbiyəsini ürəyinə salıb özünə dərd eləməsini getdikcə unutmağa çalışsa da bunu bacarmıram. Onu təhdid edən nifrət hissləri Nazimi rahat buraxmırdı.

* * *

...Eybalı Salamov haqqındakı məqalə ilə əlaqədar redaktora vurulan telefon zənglərinin, redaksiyaya gələn məktubların ardıarası kəsilmirdi. Poçtalyonun gətirdiyi zərflərin birindən iki karikatura çıxdı. Birinci karikaturada redaktor çox qəzəbliydi və süngüsayağı qələmiylə "Məlikli" sovxozunun direktorunun üstünə hücum çəkirdi. İkinci karikaturada, pulla onun ağzını yummuşdular və Nazim xoşhal olub, daha dillənmirdi.

Məsələdən hali olmayanların redaktor barədə belə bir yanlış fikrə düşməsi Nazim İlhamı sarsıtdı. Əslində, oxucular şübhələnməyə haqlı idilər. Məqalə nəticəsiz qalmışdı. Adamlar arasında rəy yaranmışdı ki, yəqin Salamov redaktoru da yumşaldıb, muma döndərib. Əslində isə həmin məqalə tədbir görülmək üçün rayon partiya komitəsinə göndərilmişdi. Nadir Nəsrullayev də büroda baxılmalı olan məsələni öz başından eləyib tanış olmaq üçün "Məlikli" sovxozuna yollamışdı. Sovxozun direktoru Eybalı Salamov da həmin məktubun üstünə "İşə almaq" dərkənarı qoyub ötürmüşdü arxivə.

Redaktor odla-suyun arasında qalmışdı. Bilmirdi raykomun iradəsi ilə hərəkət etsin, yoxsa oxucu kütləsinə cavab versin. O, çox ölçüb-biçdikdən sonra qapının dalını vurub, damağına bir "kazbek" papirosu qoyub, sinəsini verdi yazı masasının arxasına. "Məlikli" sovxozu barədə ay yarım bundan qabaq rayon qəzetində gedən yazını təzələyib, bir az da dərinləşdirib genişləndirdi. Məqalədə raykomun bu məsələdə tutduğu mövqeyi və direktorun redaktora hücumunu da çılpaqlığı ilə açıb tökdü ortalığa...

Məqaləni səliqə ilə qatlayıb qoydu zərfə və münasib bir adamla göndərdi respublika qəzetinə.

...Nazim İlham hər səhər radionu açıb qəzetlərin xülasəsini dinləyir və gündəlik mətbuatı izləyirdi. Onun mərkəzi qəzetlərdə ara-sıra məktubları dərc edilməsinə baxmayaraq, hələlik ortalığa çıxan jurnalist kimi tanınmırdı. Ona görə də göndərdiyi məktubun qəzetdə veriləcəyinə ümidi az idi. Fikirləşirdi ki, çox kəskin yazılmış, xüsusilə də raykom katibinə toxunan o cür məqaləni cəsarət edib verməzlər. Nazimin gümanı yüz yerə gedirdi. Birdən kabinetin qapısı açıldı, Əzizağa Aydınbəyov əlində qəzet, şən əhval-ruhiyyə ilə içəri daxil oldu:

- Təbrik edirəm, - dedi və poçtalyondan təzəcə aldığı

mərkəzi qəzeti açıb Nazim İlhamın stolunun üstünə qoydu. Nazim məqaləsini görəndə onun tutqun baxışlarında sevinc işığı cilvələndi. Redaktorun rəngi duruldu. Əzizağa Aydınbəyov məqaləni tərifləyib, sonra əlavə etdi:

- Nadir Xələfoviçin lap atasını yandırmısan, - dedi. - Qəzeti görsə, yenə cin atına minəcək. Vay bizim halımıza!

- İslanmışın sudan nə qorxusu?! - Nazim altında imzası olan məqalədən diqqətini ayırmadan ona cavab verdi.

Əzizağa Aydınbəyov redaktorun kabinetindən çıxanda, müharibə əlili olan və raykomda uçot bölməsinin müdiri işləyən Əyyub Əhmədli əlində çəlik yanını basa-basa içəri girdi və daxili bir narahatçılıqla:

- Nazim müəllim, Siz neyləmisiniz?! - dedi. - Bu kişini rüsvay eliyib qoymusan orda.

- Kişi kimdi?! - Nazim kirpiklərini qaldırıb təmkinlə onun üzünə baxdı.

- Nadir Xələfoviçi deyirəm, - Respublikada biabır elə-misiniz.

- Kişini yox, Nadir Nəsrullayevi, - redaktor onun sözünə düzəliş verdi.

- Hə! Hə! Əsas Nadir Nəsrullayevi deyirəm, Əyyub Əhmədli başını yırğaladı və - onun yerinə kim olsa, bu məqalədən sonra bir gün də işləməz. Ərizəsini yazıb, üzüsulu rayondan gedər.

- Əlbəttə, belə bir nəcib hərəkətdən sonra ona kişi demək olardı. Lakin Nadir Nəsrullayevdən bunu gözləmirəm. Bir də ki, elə adamlar var ki, üzünə tüpürməyə razı olar, lakin vəzifəsini əldən verməyə yox, - Nazim dilləndi.

Əyyub Əhmədli çəliyinin ucunu irəli verib, səsini yavaşıtdı:

- İndicə Nadir Xələfoviçin yanındaydım, - dedi. - Bu məqalə ilə əlaqədar Bakıdan ona zəng vurmuşdular. Danışıqlarından belə başa düşdüm ki, Sekadandır. Yuxarıdan ona necə

təpindilərsə, Nadir Xələfoviç özünü itirdi. Bilmədi necə cavab versin. Əsə-əsə dedi ki, məqalədəki faktların biri də düz deyil, hamısı şər, böhtandı. Ordan da dedilər ki, nümayəndə göndərərik yoxlasın. Yoxlama kəlməsini eşidəndə Nadir Nəsrullayevin rəngi qaraldı. Telefonda dirəndi ki, heç kəsin gəlməsi lazım deyil. Biz özümüz necə lazımdısa, həll edərik. Ancaq yuxarıdan razılaşmadılar. Dedilər ki, özünüz haqqında yazılanları, özünüz yoxlasanız, bu, düz çıxmaz.

Əyyub Əhmədli qəddini düzəldib:

- Bilirsən, Nazim, mən özüm neçə ildir bu xarabada can qoyuram. Hər şeydən də xəbərim var. Hamı da bilir ki, Siz haqlısınız. Ancaq necə olsa, katib katibdi! Görürəm ki, Sizi rayonda tənqidləyiblər. Mənim vicdanım qəbul eləmir. Müharibənin odundan-alovundan çıxmışam. Təzədən haqqı qoyub, nahaq danışa bilmərəm. Bizim bu aparatda bir nəfərin qeyrəti çatıb katiblərə Sizin yaxşınızı demir. Yeri düşəndə Nadir Xələfoviçə xoş getmək üçün ipinizi vururlar. Bura gəlməkdə də məqsədim odur biləsən ki, iki-üç günə həmin məqalə ilə əlaqədar yuxarıdan nümayəndə gələcək. Bəri başdan işinizi etibarlı tutun.

Nazim İlham ona razılığını bildirərək:

- Sağ olun, - dedi. - Ancaq bunun üçün narahat olmağa dəyməz. Tezi-geci düz əyrini kəsməlidir. Bir də ki, kim haqlıdırsa, o güclüdür.

Əyyub Əhmədli ikiəlli çəliyindən yapışıb, güclə ayağa qalxdı və Nazim İlhama ürək-dirək verib xudahafizləşdi. Nazim ona ehtiram göstərib qapının ağzınacan yola saldı.

* * *

Nadir Nəsrullayev redaktorun əlindən dəmir gəmirirdi. Yoxlamaya gələni ələ almaq, Nazim İlhamın yazdıqlarını heçə

çıxartmaq, Eybalı Salamova və özünə haqq qazandırmaq üçün dəridən-dırnaqdan çıxırdı. Lazımı adamları bir-bir kabinetinə çağırıb onlara saatlarla "dərs" keçirdi. Eybalı Salamovu hazırlayıb redaktorun üzünə qoymaq və nə yolla olursa-olsun Nazim İlhamı ləkələyib sıradan çıxarmaq üçün hər cür hiyləyə əl atırdı. Nadir Xələfoviç özünə səmt bildiyi işçilərin hamısını redaktorun üstünə qaldırmışdı. Nazim İlham bütün bunlardan hali idi. Lakin özünə arxayın olduğundan Nadir Nəsrullayevin fitnə-fəsadlarını vecinə almırdı. Düşünürdü ki, düzə zaval yoxdur, əvvəl-axır haqq yerini almalıdı.

* * *

Raykomun qonaq otağı dünəndən səliqəyə salınmışdı. Yorğan-döşəyin üzü təzələnmişdi. Yemək stolunun üstünə təzə süfrə salınmışdı. Pəncərələrin qabağına gül dibçəkləri qoyulmuşdu. Stola büllur qədəhlər, içərisində müxtəlif şirələr, mədən suları olan butulkalar düzülmüşdü.

İş vaxtının qurtarmasına az qalırdı. Raykomun yerləşdiyi binanın qarşısında mavi rəngli "Pobeda" maşını dayandı. Nömrəsindən bəlli idi ki, Bakı maşınıdır. Tez Nadir Nəsrullayevə xəbər çatdırdılar ki, qonaq gəlib. Nadir Nəsrullayev kabinetdən çıxıb tələsik addımlarla daş pilləkənlərlə aşağı endi. Saçları vaxtından əvvəl töküldüyündən və başının ortası daz olduğundan o, heç vaxt çölə papaqsız çıxmırdı. Bu dəfə karıxdığından papağını unutmuşdu. Qonağa ikiəlli salam verib, canfəşanlıqla:

- Süleyman Xəliloviç, buralara xoş gəlmisiniz, - dedi. - Əşşi, harda qalmısınız? Yolunuzu gözləməkdən gözümüzün kökü saraldı. Düzü, bir az da narahat oldum. Fikirləşdim ki, uzun yoldu, hər şey ola bilər. Ağlıma cürbəcür şeylər gəldi. Yaxşı ki, sağ-salamat gəlib çıxdınız.

Qonaq soyuqqanlılıqla:

- Sağ olun, - dedi. Və ümumi qapıya tərəf yönəldi. Nadir Nəsrullayev onun qolundan yapışdı. Onlar yanaşı yuxarı qalxıb, katibin kabinetinə daxil oldular.

Çəlimsiz bədəni olan Süleyman Xəliloviç sadə kostyum geyinmişdi. Hiss olunurdu ki, əynindəki təmiz saroçka bir neçə dəfə yuyulub və ütülənib. Ayaqqabısı köhnə olsa da, çəkmə yağı ilə tərtəmiz silinmişdi. Qaralmış arıq sifəti, çallanmış qalın qaşları, səliqə ilə daranmış seyrək saçları ilk baxışda xoş təsir bağışlayırdı. Nadir Nəsrullayev onun qəlbinə girmək üçün nə qədər dil töküb, dondan-dona girsə də qonaq onun hərəkətlərinə əsla məhəl qoymurdu. Süleyman Xəliloviç soruşdu:

- Redaktor burdadırmı?

Nadir Nəsrullayev istehza ilə gülümsündü:

- Onu çətin tapmaq olar!

- Nə üçün?!

- Sizin gəldiyinizi eşidibsə, ya özünü xəstəliyə vuracaq, ya da ki, bir bəhanə ilə qaçıb itəcək.

Süleyman Xəliloviç:

- Nazim İlhamın imzasına hərdən qəzetlərdə rast gəlirəm, - dedi. Qələmi pis deyil, ancaq özünü şəxsən tanımıram.

- Yaxşı ki tanımırsınız.

- Yəni o qədər əcaib adamdır?!

- Əcaibdən də əcaibdir. Həm də əclafın biridir. Bu rayonu qatıb-qarışdıran elə o deyil?!

- Siz onun əclaflığını nə ilə izah edirsiniz?!

- Elə Sizin bugünkü əzab-əziyyətinizlə. Neçə saatdı maşında yol gəlirsiniz. Mən Sizə görə xəcalət çəkirəm. Yolda qəza baş verərdi, bir bölük külfətiniz var, arada peşmançılıq olardı. Axı, bunlar nəyə lazımdır?! Rayon qəzeti buna bəs deyilmi? Ürəyi

soyumuyub, götürüb respublika qəzetinə də ağlına gələni yazıb! Hamısı da başdan-ayağa uydurma, yalan!

- İlham Nazimin tənqidi yazısı, Sizin ona əclaf deməyiniz üçün kifayət qədər əsas verirmi? - Süleyman Xəliloviç soruşdu.

Katib cavab tapmadı. Bir anlığa susdu. Süleyman Xəliloviç onun qızartı çökmüş sifətinə nəzər salaraq:

- Redaktorun yazdıqları yalandırsa, nə üçün onun barəsində ciddi ölçü götürmürsünüz?

- Hələ yoxluyub müzakirə etməmişik.

- Bəs hardan bilirsən ki, onun yazdıqları başdan-ayağa uydurmadır?

- "Məlikli" sovxozunun direktoru Eybalı Salamov vicdanlı, obyektiv yoldaşdır. Böyük bir təsərrüfatı etibar etdiyimiz adamın dediklərinə inanmaya bilmərəm.

- Sovxoz direktoru raykom katibinin gözündə obyektiv, vicdanlı, insaflı, sadə, səmimi görünə bilər. Bəs rayon ictimaiyyətinin, onun başçılıq etdiyi fəhlə kollektivinin nəzərində necə?!

Nadir Nəsrullayev udquna-udquna və öz-özünə - "Tərs adama oxşuyur! Beləsiynən çalıb-çağırmaq çətin məsələdir": - Düşündü. Və söhbətin qəlizləşə biləcəyini nəzərə alıb, mövzunu dəyişmək üçün:

- Süleyman Xəliloviç, yorulmusunuz, - dedi. - Gedək qonaq otağına. Yəqin ki, acsınız. Bir stəkan çay içək.

Süleyman Xəliloviç:

- Aclığım yoxdur, yolda bir balaca çörək yemişik. Ancaq deyirsən gedək qonaq otağına, buna etirazım yoxdur.

Onlar içəridən çıxanda Eybalı Salamov gözləmə otağında dayanmışdı. Nadir Nəsrullayev onu dünəndən hazırlamışdı ki, gələn nümayəndə ilə görüşdürsün. Lakin Nadir Nəsrullayev qonaqla söhbətdən hiss etdi ki, Süleyman Xəliloviç mürəkkəb, həm də ciddi adama oxşuyur. Ona görə də Eybalı Salamova qaş-

gözlə işarə vurdu ki, sən girən kol deyil, burdan yavaşca sivişmək lazımdır. Nadir Nəsrullayevlə Eybalı Salamovun müəmmalı hərəkətləri qonağın nəzərindən yayınmadı. Süleyman Xəliloviç başını yuxarı qaldırmadan soruşdu:

- Bu yoldaş kimdi? Hərəkətlərindən Sizə ərki çatan adama oxşuyur.

- Yoox, yoox... Mən də elə-belə tanıyıram... Sovxoz direktoru kimi... uzaqdan gəlib. Yəqin traktor lazımdı... Bəlkə də yanacaq istəyir. Ola bilsin gübrələri qurtarıb. - Nadir Nəsrullayev özünü itirdi. Nə danışdığını özü də bilmədi. Qonaq özözünə gülümsündü.

Onlar söhbətləşə-söhbətləşə qonaq otağına çatdılar. Süleyman Xəliloviç yemək stolunun dəmdəstgahına gözucu nəzər salıb vanna otağına keçdi. Əl-üzünü yuyub yemək stolunun ayaq tərəfində əyləşdi. Nadir Nəsrullayev onun qolundan qaldırıb yuxarı başa keçməyi təkid etdi. Qonaq:

- Nə fərqi var, elə bura da rahatdır, - deyib, oturduğu yerdən tərpənmədi.

Qonaq otağına xidmət edən bufetçi içəri daxil olub, əllərini ovuşdura-ovuşdura:

- Nadir müəllim, hər şey hazırdır, - dedi. - Əvvəlcə çay gətirim, yoxsa yemək? - Katiblə zarafatı olan adam kimi sırtıqcasına irişdi.

- Qonaq özü desin, - Nadir Nəsrullayev Süleyman Xəliloviçin üzünə baxdı.

- Əvvəlcə bir stəkan çay gətirin, - qonaq dilləndi.

Onlar çaylarını içib qurtardıqdan sonra Nadir Nəsrullayev:

- Süleyman Xəliloviç, dedi. - Bilirsiniz də, rayon yeridir. Şəhərə baxmayın, burda hər şey tapılır. Sizin üçün yaxşı plov hazırlatmışam. Qoyun ətindən basdırma kabab da olacaq; hinduşka əti də var, təzə balıq da tapdırmışam. Dağ pencərindən

kətə də bişirtdirmişəm. İçməyə də nə desəniz - araq, konyak, şampan, çaxır...

- Sağ olun, əziyyət çəkmisiniz. Ancaq belə bir hazırlığı mənim üçün görmüsünüzsə, nahaq yerə. Axşamlar bir stəkan qatıqdan başqa heç nə yemirəm. Çünki belə adət etmişəm. İçki də əvvəllər hərdən olurdu, son vaxtlar tərgitmişəm.

Nadir Nəsrullayev dilxor oldu. O, bir də təkid etdi:

- Əşşi, nə danışırsınız?! Ordan bura əziyyət çəkib uzun yol gəlmisiniz! Özü də birinci dəfə tanış olub, çörək kəsirik! Yəni ayda-ildə bircə rumka da olmaz? Arağı mən də məcbur eləmirəm, bir stəkan şampana nə söz?!

- Hesab edin ki, yemişəm də, içmişəm də. Sağ olun, minnətdaram.

Dolu bədəni, ətli sifəti olan və qarnı irəli çıxan xidmətçi yenə içəri daxil oldu. Onun üst-başından xörək qoxusu gəlirdi. Xidmətçi yağlanov əllərini ovuşdurub, ərklə dişini ağartdı:

- Nadir müəllim, manqalı yandırmışam, qabaqca plov, yoxsa kabab?

Nadir Nəsrullayev pərt halda:

- Heç bir şey lazım deyil, - dedi. - Hərəmizə bir stəkan qatıq...

Qonaq söhbətə qarışaraq:

- Nadir Xələfoviç, - dedi. - Mənə baxmayın, qoy Sizə nə lazımdırsa, gətirsin. Adətim belədir, xahiş edirəm, inciməyin. Məndən ötrü iştahanızı korlamayın.

Axşam qurulacaq keyf məclisinin bu cür pozulması xidmətçiyə ləzzət eləmədi. O, ürəyində qonağı lənətlədi. Nadir Xələfoviçin də ovqatı təlx oldu. O, yasa batıbmış kimi xidmətçiyə:

- Yaxşı, - dedi. - Get, işində ol. Nə deyirlər, elə də et. Hərə-

mizə bir stəkan qatıq gətir. Hazırladıqlarınızı da saxla sabaha, sonra baxarıq.

Bufetçi, həmişə yemək-içmək qabağı şən əhval-ruhiyyədə olan Nadir Nəsrullayevin indiki dilxorçuluğunu hiss edib, peşiman geri döndü. Süleyman Xəliloviç onların pərtliyini hiss edib:

- Nadir Xələfoviç, - dedi. - Xahiş edirəm elə başa düşməyin ki, mən burada nəyə görə isə çörək yemək istəmirəm, özümü Sizdən ayırıram və ya saymazlıq edirəm. Xeyr, qətiyyən belə deyil. Xalqımızın qonaqpərvərliyinə bələdəm. Yeməyin yaxşısını qonağın qabağına qoyurlar. Yorğanın təzəsini qonağın üstünə örtürlər. Axşam olmasa da, sabah hardasa bir tikə çörək kəsməliyik. Bir belə xərc çəkib, hazırlıq görməyinizə gəldikdə, buna Sizin qonaqpərvərliyinizdən çox, israfçılığınız kimi baxıram. Rica edirəm, məni düzgün başa düşəsiniz. İstər axşam olsun, istər günorta, bunun fərqi yoxdur. Süfrə açmağın da təhəri var. Bunun özü də insanı əhatə edən mədəniyyətin bir formasıdır. Süfrəyə yeyilən qədər xörək qoyarlar. Atılan günahdır, onu allahımız da qəbul etməz. Xahiş edirəm sözlərimi ağıl öyrətmək kimi yox, Sizinlə həmyaş olan bir adamın yoldaşlıq məsləhəti kimi qəbul edəsiniz. Əlbəttə, hər kəsin öz ağıl ölçüsü vardır. Ona görə də dediklərimlə razılaşmaya da bilərsiniz. Onda mən bunu təbii hal hesab edərdim...

Bu sözlər Nadir Nəsrullayevdə qonağa qarşı daxilən ikrah hissi oyatdı. Ancaq o, Süleyman Xəliloviçi səmimi qəbul edirmiş kimi:

- Aydındır, Süleyman Xəliloviç, aydındır! - dedi. - Siz tamamilə haqlısınız. Ancaq nə etməli, əvvəldən belə öyrəşmişik. Lakin sözlərinizdə böyük həqiqət var. Mən də bu fikrə şərikəm. Bundan sonra gərək belə məsələlərə fikir verək.

Qonaq otağında onlardan başqa heç kəs yox idi. Nadir

Nəsrullayevlə Süleyman Xəliloviç süfrə qırağında qabaq-qənşər əyləşsələr də, birdən-birə açılışa bilmirdilər, söhbətləri yaxın gəlmirdi. Nadir Xələfoviç nə qədər çalışırdı qonağın qəlbinə yol tapsın, alınmırdı. Süleyman Xəliloviç hiss edirdi ki, onun ədəbiyyat, incəsənət, yaxın və uzaq keçmişimizin tarixi barədəki söhbətləri Nadir Xələfoviç üçün o qədər də maraqlı deyil. Raykom katibinin bayağı sözləri isə qonağı bezikdirirdi. Süleyman Xəliloviç axır zaman peyğəmbər Məhəmmədin həyat və fəaliyyəti, onun qoyduğu dinin əsasları barədə şirin söhbət etdiyi yerdə, Nadir Xələfoviç onun sözünü ağzında yarımçıq qoyaraq:

- İndi raykom katibi işləmək çətindir, - dedi. - Şəxsən mən çox əzab çəkirəm.

Qonaq, raykom katibinin onun danışmasına aman verməməsindən və sözünü yarımçıq kəsməsindən dilxor olsa da, bunu büruzə vermədi. Nadir Nəsrullayev əl-qolunu ölçə-ölçə sözünə davam etdi:

- Yuxarıda oturanların çox şeydən xəbərləri yoxdur. Onlar bilmir ki, biz nələr çəkirik! Elə ikicə misal çəkim, öz hesabınızı aparın, görün raykom katibliyi nə deməkdir.

- Buyurun, eşidirəm Sizi, - qonaq diqqətini ona yönəltdi.

- Pambıq yığımının qızğın vaxtı, yaxın kolxozların birinə getmişdim. - Nadir Xələfoviç sözə başladı. - Camaat işə çıxmırdı. Kəndin arasında yaşlı bir kişiynən rastlaşdım. Sədr ondan şikayətləndi. Dedi ki, sözümüzə baxmır. Bu il bir kiloqram da pambıq yığmayıb. Həmin qocanı darta-darta kolxoz idarəsinə gətirdik. Onu ayaq üstə saxlayıb sorğu-suala tutdum ki, nə üçün pambıq yığmırsan?! Dedi ki, yoldaş katib, əvvəla, belimdə ağrı var, əyilib-qalxa bilmirəm. İkincisi də kolxozda əlli il can qoymuşam, indi heyim, hərəkətim qalmayıb. Saqqalımın bu vaxtında məndən pambıq yığan olar?! Mən də ki, hirsləndim,

nöyzəmbillah heç Allahımı da tanımıram. Sədrdən soruşdum ki, kənddə dəllək var?! Dedi yoxdu. Dedim onda bir iti qayçı tap gətir. Sədr kabinetdən çıxanda kişi məndən soruşdu ki, yoldaş katib, o qayçını neyləyirsən?! Dedim, bax, bu əllərimlə əvvəl bığlarını, sonra da o çal saqqalını qayçılayıb tökəcəyəm yerə.

Nadir Xələfoviç əlini əlinə vuraraq:

- Süleyman Xəliloviç, başın üçün, belə deyəndə, o yaşda kişi nə təhər ağladı... Qarşımda diz çökdü, yalvardı ki, katib, bu çağımda məni bihörmət eləmə. Pambıq yığmaq demirsən, sabahdan canım çıxsa da gedərəm. Kişiyə nə təhər təpməcə gəldimsə, odu-budu bir gün də pambıqdan qalmır. Amma eşitdiyimə görə, bir-iki dəfə sahədə ürəyi gedib.

Nadir Nəsrullayev qonağın üzünə baxaraq:

- İndi düzünü deyin, yaxşı eləməmişəm?!

Süleyman Xəliloviç dillənmədi, fikrə getdi. Katib:

- Qulaq asın, Sizə başqa bir maraqlı əhvalat da danışım, - dedi. Axşamtərəfi yenə tarlaya çıxmışdım. Gördüm bir nəfər kolxozçu, üzdən iraq, eşşək arabasında quru ot aparır. Kəsdim qabağını, soruşdum ki, bu otu hardan gətirirsən?! Dedi ki, kolxozun sahəsindən deyil. Arxların qırağından, yol kənarından biçmişəm. Soruşdum ki, bu gün neçə kiloqram pambıq yığmısan?! Dedi ki, iyirmi kiloqram. Hirs vurdu təpəmə! Dedim, əə, qoduq oğlu, qoduq! Özünə bu boyda ot yığa bilirsən, pambıq yoox?! Saldım ayağımın altına. Nə yemisən, turşulu şorba, o ki var, əzişdirdim. Sonra da cibimdən spiçkanı çıxardıb, arabadakı otu odladım. Yayın cırhacırı, quru ot! Alov göyə qalxdı. İndi eşşək anqıra-anqıra qaçır, kişi də ki, özünü itirib, nə qədər çalışır, alova yaxın dura bilmir. Ot qarışıq araba da yandı, eşşək də. Gülməkdən ölmüşəm. Bu əhvalatı rəhbər yoldaşlardan birinə dedim, ona ləzzət elədi, dedi malades! Onlarla belə rəftar eləməsən, iş getməz. Ha!.. ha!.. - raykom katibi əlini əlinə vurub uğundu.

Raykom katibi danışdıqca Süleyman Xəliloviç ot arabasına qoşulmuş dilsiz-ağızsız heyvanın necə yandığını təsəvvür edir və onun sahibinin çəkdiyi iztirabı yaşayırdı. Nadir Nəsrullayev güləndə Süleyman Xəliloviçin gözlərinə qaranlıq çökdü. O, ürəyini tutub, halsız vəziyyətdə kürəyini əyləşdiyi stula söykədi və:

- Volokardindən, nitroqliserindən görün nəyiniz var?! Nə isə, ürəyim sancdı, - dedi.

Qonaq otağındakı apteçkada bu cür dərmanlar saxlanılırdı. Süleyman Xəliloviç bir həb atıb gözünü otağın tavanından çəkmədən bir neçə dəqiqə hərəkətsiz qaldı. Özünə gələndən sonra Nadir Nəsrullayevin bu cür əllaməliyini eşitməmək üçün süni təbəssümlə:

- Gedin, istirahət edin, - dedi. - Yəqin ki, evdə gözlüyürlər. Mən də yorulmuşam, yatmaq istəyirəm.

Nadir Nəsrullayev gedəndən sonra qonaq qapının dalını vurdu və çantasında gətirdiyi kitabların birini açıb oxumağa başladı...

Eybalı Salamov bayaqdan bəri qonaq otağının qabağındakı döngədə dayanıb səbirsizliklə Nadir Nəsrullayevi gözlüyürdü. O, katibi görən kimi tez ona yan aldı. Nadir Nəsrullayev sovxoz direktorunun qolundan yapışıb kənara çəkdi və onun qulağına əyilib yavaşcadan:

- Bu, çox sərt, həm də quru adamdır, - dedi. - Ona yaxın düşmək olmaz. Nə qədər çalışdım ki, dil tapıb ələ alım, mümkün olmadı. Özünü çox rəsmi aparır. Qətiyyən adama yovuşmur.

- İndi bəs mən nə etməliyəm?! Özüm də hazırlıqlı gəlmişəm, dediyinizdən də artıq.

Eybalı Salamovun yalvarıcı baxışları raykom katibinin çaşqın sifətində donub qaldı.

- Heç nə! Hələlik bu barədə bir söz deyə bilmərəm. Özü də

buralara üzükmə. Çıx get kəndə. Sabah da sovxoza yoxlama gəlməlidi. Bax gör komissiya üzvlərini tovluyub ələ ala bilərsənmi? Bu Süleyman Xəliloviçdi, nə zibildi, ondan qətiyyən gözüm su içmir. Beləsinin yanında artıq-əskik danışmaq olmaz!

Eybalı Salamov nə demək istəyirdisə, Nadir Nəsrullayev onun sözünü yarımçıq kəsib xısın-xısın:

- Burda nağıl açma! Görüb-eliyən olar! Məni də işə salarsan, özünü də, - deyib, Salamovu yolun ortasında yalqız qoydu. Və yan-yörəsinə şübhəli nəzər yetirib, suçlu və tələsik addımlarla sola dönüb gözdən itdi...

* * *

...Səhərin gözü açılandan Nadir Nəsrullayev qonaq otağının həndəvərində vurnuxurdu. Süleyman Xəliloviçin yuxudan durub-durmadığını yəqin eliyə bilmirdi. Yuxarı qalxıb otağın qapısını döyməyə cəsarət etmirdi. Düşünürdü ki, Süleyman Xəliloviç uzun yol gəldiyi üçün yorulub, həm də şəhərlilərin adətinə görə yəqin yuxudan gec qalxar. Süleyman Xəliloviç isə çoxdan ayılmışdı. Səhər saat altıdan qalxıb kitab oxuyurdu. Onun yatdığı otağın kiçik pəncərəsi çölə yox, içəri baxdığından stolüstü lampanın işığı kənardan hiss olunmurdu. Süleyman Xəliloviç bu gecə rahat yata bilməmişdi. Bu, heç də onun yerinin dəyişməsi ilə əlaqədar deyildi. Nadir Nəsrullayevin danışdığı hadisələr onu daxilən sarsıtmışdı. Ha çalışırdı ki, sakitcə yuxuya getsin, bacarmırdı. Kirpiklərini yuman kimi raykom katibinin bığını, saqqalını qayçılamaq istədiyi ixtiyar qoca, bir də ki, ot yüklü arabanın eşşək qarışıq yanması gəlib dururdu gözünün qabağında. Araba sahibi ha çalışırdı odu söndürüb, eşşəyi xilas etsin, bacarmırdı. Onun qışqırtısı Süleyman Xəliloviçin qulağından getmirdi. Arabadan qalxan məşum alov buru-

la-burula qalxıb eşşəyin cızdağını çıxardırdı. Dilsiz-ağızsız heyvan anqıra-anqıra qaçır, sanki insanların törətdiyi əməllərə tuş olmasından fəryad qoparır və onu yaradan ulu tanrıdan kömək diləyirdi. Süleyman Xəliloviç yuxusunda neçə dəfə - ona kömək!.. ona kömək!.. - deyib, çarpayısından dik atıldı. Başını yastığa qoyanda sanki vahimələnirdi. Süleyman Xəliloviçə elə gəlirdi ki, həmin alovun istisi onun da üz-gözünü qarsıb-yandırıb. O, bir neçə dəfə yorğanı üstündən atıb ayağa qalxdı, işığı yandırıb pencəyi çiyninə saldı və otaqda var-gəl etdi. Sonra yenə də çarpayısına uzandı. Nəhayət, yata bilməyəcəyini nəzərə alıb, ala-toran yerindən qalxdı, əl-üzünü yuyub, paltarını geyindi. Nadir Nəsrullayevin fəxrlə danışdığı və gecə sübhəcən ona dinclik verməyən əhvalatları fikrindən çıxarmaq üçün axşamdan oxumağa başladığı kitabı açıb qabağına qoydu.

Qonaq otağının yaxınlığındakı dirəkdən asılmış iri təvərəli radio xırıltılı bir səslə - Moskva vaxtı ilə saat səkkizdir - deyəndə Süleyman Xəliloviç bayaqdan oxuduğu kitabı qatlayıb ayağa qalxdı. Qonaq otağının ümumi qapısını açıb həyətə enəndə ağacların arasında gəzinən Nadir Nəsrullayev qıvraq addımlarla ona tərəf yönəlib vəcdlə:

- Sabahınız xeyir, - dedi və gülə-gülə əlavə etdi. - ayağınız yüngüldür, bu gün hava açılıb, sərin meh əsir.

Qonaq ona xoş getmək üçün deyilən bu sözü soyuq qarşıladı. Və təmkinini pozmadan sakitcə başını sinəsinə endirib-qaldırdı. Onlar əl verib salamlaşdıqdan sonra ağacların yaşıl budaqları altında sakit-sakit gəzinməyə başladılar. Danışmaq üçün münasib söz axtarırmış kimi heç biri dillənmirdi. Qonaq öz daxili aləmindəydi. Nadir Xələfoviç isə onun qəlbini ələ almaq barədə düşünürdü. Onlar bağın qurtaracağına çatanda qonaq ayaq saxladı. Onun ifadəsiz baxışları aşağı tərəfdəki bağlı-bağatlı evləri, şəhərin kənarından keçən çayın rəvan axınını, əks tərəfdəki çıl-

paq dağların zirvəsini dolandı. Üzünü Nadir Nəsrullayevə çevirərək:

- Təbiət ilahinin xəlq etdiklərinə nələr bəxş etməyib?! İnsanlar da bu cür mərhəmət sahibi olsaydı... Ancaq şüurlu məxluq bir-birinə qənim kəsilib...

- Hamı mehriban dolansaydı, nə dərd idi! Bizim də işlərimiz xod gedərdi, - Nadir Nəsrullayev qonağın fikrini tamamladı, - ancaq vicdansızlar çoxdu! - əlavə etdi.

Qonaq sağ tərəfə dönüb həqarətlə onun təzəcə qırxılmış ətli sifətinə baxdı və:

- Gedək, - dedi. - İş vaxtının başlanmasına az qalıb.

Onlar yemək otağına keçib çay süfrəsinin arxasında əyləşdilər. Nadir Nəsrullayev çörəkdən bir loxma kəsib həyəcanla:

- Xalq yolunda bir belə əlləşib-vuruşuruq, ancaq qədir-qiymətimiz bilinmir, - dedi. İndi yaxşı işləyənlə pis işləyənə fərq qoyulmur.

Süleyman Xəliloviç kirpiklərini qaldırıb ona müəmmalı nəzər saldı, lakin bir söz demədi. Nadir Nəsrullayev bu lal-dinməz adamı dilə gətirmək üçün öskürüb, əyləşdiyi stulu bir balaca irəli çəkdi:

- Bu rayona gələndən bəri rüşvətxorluğa son qoymuşam, - dedi. Yerliçiliyin, dostbazlığın da ki, kökünü biryolluq kəsmişəm. Hər il də təsərrüfat planları dolur. Heç bilirsiniz nə qədər tövlə tikdirmişəm?! Ancaq Nazim İlham kimi cızmaqaraçı nakəslər işləməyə imkan vermirlər. Əl-ayağımıza dolaşırlar. Redaktorun iç üzünü açmaq istəyəndə də yuxarıdan təpinirlər ki, mətbuat işçilərini yola vermirsiniz! Belələrini necə yola verək?!

Süleyman Xəliloviç əlindəki çayı axıracan içib qurtardıqdan sonra, stolun üstündən bir kağız dəsmal götürüb ağzını sildi və ona zəndlə nəzər yetirib soruşdu:

- Son bir ildə rayon üzrə neçə uşaq doğulub? - soruşdu.

- Düzü, fikir verməmişəm.

- Bəs ölənlər?

- Onların hesabını aparmırıq. Lazım olsa, statistika idarəsindən öyrənə bilərəm.

- Neçə nəfər gənc özünə yeni ailə həyatı qurub?

- Hə, toylarımız çox olur, ZAQS idarəsində uçotu var.

- Boşanan və boşuyanların barəsində nə bilirsiniz?

- Əlbəttə, ailə konfliktləri ilə əlaqədar yanıma çoxlu şikayətçi gəlir. Lakin o qədər vacib işimiz var ki, belə məsələlərlə məşğul olmağa vaxt tapılmır.

- Bir ildə orta məktəbləri neçə nəfər bitirib və onlardan neçəsi ali və orta ixtisas məktəblərinə daxil ola bilib?

- İmtahandan kəsilib geri qayıdanlar çoxdur, ali məktəbə daxil olanlar da var.

- Kənd yerlərində ildə neçə ev tikilir?

- Tikənlər var, amma çoxu kənddən köçür. Ha çalışırıq, qarşısını ala bilmirik.

Süleyman Xəliloviç əlini çənəsinə verib fikrə getdi və birinci katibin rəngdən-rəngə düşən çöhrəsinə məzəmmətedici nəzər saldı. Və heç bir söz demədən dərindən ah çəkib ayağa qalxdı:

- Nadir Xələfoviç, gedək, - dedi. - Bu gün işlərimiz çoxdur.

...Onlar raykomun yerləşdiyi binanın ümumi qapısından içəri daxil olanda Süleyman Xəliloviç ikinci mərtəbəyə qalxan pilləkənin ayağında dayanıb soruşdu:

- Gərək ki, redaksiya da burada yerləşir, eləmi?

- Bəli, - Nadir Xələfoviç sol tərəfə açılan qapını göstərdi.

- Bəlkə səhər-səhər redaksiya işçilərinə baş çəkək?!

- Etirazım yoxdur, ancaq inanmıram onlar bu tezliklə işə gəlsinlər. Hamısı əhlikef adamlardır. Lazım olsa, sonra redaktoru çağırıb söhbət eliyərik. Hərçəndi onun sifətini görmək istəməzdim, lakin bir halda ki, Siz məsləhət görürsünüz...

Süleyman Xəliloviç onun sözlərinə münasibətini bildirmədən redaksiyanın yerləşdiyi otaqlara tərəf yönəldi. O, əvvəlcə sağ tərəfdəki iri, bir qədər də köhnəlmiş taxta qapını açdı. Əllərində versetka olan mətbəə işçiləri yorğun-yorğun ayağa qalxdılar. Onların qızarmış gözlərindən yuxu tökülürdü. Əzizağa Aydınbəyov çap maşınından indicə çıxmış təzə qəzetləri bir-bir sayıb, səliqə ilə büküb, yerbəyer eləyir və poçta göndərməyə hazırlaşırdı. Onun solğun sifətinə, batıq ovurduna, qaşlarının üstünə qara rəng ləkələri düşmüşdü. Hiss olunurdu ki, hələ üzünü yumayıb. Süleyman Xəliloviç irəli yeriyib, onlarla bir-bir əl tutdu və hal-xoş elədi. Nadir Nəsrullayev yad adam kimi işçilərə kənardan başı ilə salam verdi. Süleyman Xəliloviç mətbəə müdiri ilə üzbəüz dayanaraq:

- Gözümə bir cür dəyirsiniz, - dedi. - Bu sir-sifət nədir?!

Əzizağa Aydınbəyovun solğun çöhrəsinə utancaq bir qızartı çökdü və çəkinə-çəkinə:

- Qəzetin çapını indicə qurtarmışıq, - dedi. Bu gecə heç birimiz yatmamışıq.

Süleyman Xəliloviç təəccübləndi:

- Bu nə sözdü?! Gecə yatmamışıq nədi?! - təşvişlə soruşdu.

- İşıq olmadığı üçün maşının çarxını əllə hərləyirik, - mətbəə müdiri ona izah etdi. Çalışırıq qəzet gecikməsin. Ona görə də sabaha kimi növbə ilə maşının çarxını hərləyib qəzet çıxartmışıq. Redaktorumuz da bu gecə evə getməyib, bizimlə birlikdə qəzet çıxardıb.

- Qonaq otağının lampaları səhərəcən yanıb! Necə yəni elektrik işığı yoxdur?!

Nadir Nəsrullayev iki addım irəli yeriyib onların söhbətinə müdaxilə etdi:

- Düz demir, işıqlar pastoyannı yanır, yəqin maşının

motorunu işlədə bilmirlər. O, üzünü yana tutaraq yavaş səslə - redaktor başqa işlərlə məşğuldur, mətbəəyə fikir verir ki!

Əzizağa Aydınbəyov katibin sözünü aldı və kinayə ilə gülümsünərək:

- Raykomun maraqlandığı yerlər həmişə işıqlı olur, - dedi. - Nadir Xələfoviç! Biz isə aydan, ulduzdan gəlmişik. Yad adamlarıq. Ona görə Sizdən işıq-zad ummuruq. Öyrənmiş canıq, əzab-əziyyət çəkməyə adət eləmişik. Hər halda beş adam bir motoru əvəz edə bilər.

Mətbəə müdiri bunu deyib, əynindəki bədrəng xalatın uzun ətəyini qaldırıb, onun astar tərəfi ilə üzünə, qaşının üstünə düşən qara ləkələri silməyə başladı.

Raykom katibi susdu. Canlarından bezmiş bu adamların bu əzablı baxışlarında Nadir Xələfoviçə qarşı nifrət sezilirdi. Süleyman Xəliloviç raykom katibi ilə mətbəə işçiləri arasındakı gərginliyin xoşagəlməz nəticələr verə biləcəyini nəzərə alıb, söhbətin dərinləşməsinə imkan vermədi. Çap maşınının üstündən bir nüsxə təzə qəzet götürüb diqqətlə nəzərdən keçirdi və xoş ovqatla:

- Şəkillər, tərtibat, mövzuların aktuallığı hamısı yerbəyerindədir, - dedi. Bu cür məzmunlu, maraqlı qəzet üçün bir gecə yuxusuz qalmağa dəyər.

Mətbəə işçiləri rayon başçılarından bircə dəfə də olsun bu cür xoş söz eşitməmişdilər. Süleyman Xəliloviçin qəzet barədəki belə bir müsbət rəyi elə bil mətbəə işçilərini qaldırıb dağın başına qoydu. Onlar bir anlığa yorğunluqlarını da, yuxusuzluqlarını da unutdular. Nadir Nəsrullayev isə tez-tez qonağa:

- Gedək! Gedək! - deyib, mətbəənin iyindən, qoxusundan, bir də ki, işçilərin onu təhdid edən narazı baxışlarından xilas olmaq üçün Süleyman Xəliloviçi tələsdirirdi. Raykom katibi ən

çox Əzizağa Aydınbəyovun təkrar onun üzünə qayıdıb, qonağın yanında xar eliyə biləcəyindən ehtiyat edirdi.

Nadir Nəsrullayevin onu tələsdirməsinə baxmayaraq, Süleyman Xəliloviç mətbəə işçiləri ilə görüşüb və hərəsinə də xoş bir söz deyib, könüllərini aldı. Onun ağayana söz-söhbəti, nəzakətli rəftarı mətbəənin ab-havasını xeyli dəyişdi, əsəbi gərginlik bir andaca yox oldu. İşçilərdə xoş əhval-ruhiyyə yarandı. Həyatlarından narazı kimi görünən, yorğun-arğın adamların solğun çöhrəsinə xoş təbəssüm yayıldı.

Süleyman Xəliloviç:

- Hələ burdayam. Bəlkə bir də görüşdük, - deyib əks tərəfə döndü və mətbəədən çıxıb redaktorun kabinetinə daxil oldu. Nazim İlhamı oturduğu yerdə yuxu aparmışdı. O, çapdan təzəcə çıxan rayon qəzetini nəzərdən keçirib, oxuduğu yerdə, alnını üst-üstə qoyduğu yumruğuna söykəyib, huşa getmişdi. Süleyman Xəliloviçlə Nadir Nəsrullayev onu bu vəziyyətdə görəndə kabinetin ortasında dayanıb bir-birinin üzünə baxdılar. Nadir Xələfoviç sifətini turşudaraq başının hərəkəti ilə:

- Gedək, - dedi. - O, həmişə həyatda yuxulu olub. Ona görə də mətbəənin maşınını motorla yox, əllə işlədirlər, yavaş səslə əlavə etdi.

Süleyman Xəliloviç bilirdi ki, redaktor gecə yatmayıb, yorğundu. Onu narahat edib yuxudan oyatmağa qıymadı. Bir tərəfdən də Nazim İlhamla görüşməmiş onun kabinetini tərk etmək istəmirdi. Birdən redaktorun stolunun üstündəki telefon zəng çaldı. Hiss olunurdu ki, Bakı zəngidir. Nazim İlham telefonun səsinə səksənib, huşdan ayıldı. O, kabinetin ortasında iki nəfər mötəbər şəxsin dayandığını görəndə telefonu unutdu. Stolunun arxasından qalxıb hər ikisi ilə görüşdü. Qonaq redaktora əl uzadanda:

- Süleyman Cavadov, - deyib, ona tanışlıq verdi.

Nadir Nəsrullayev redaktoru işarə edərək:

- Süleyman Xəliloviç, - dedi. - Görürsünüz də, bizim redaktor necə işləyir?! Əsl jurnalist, bax, belə olar! Şəxsən mənim onun özünə də, qələminə də böyük hörmətim var. Zəhmətkeş oğlandı! - Nadir Nəsrullayev səsinin tonunu dəyişərək, - bir az tərsliyi olmasa, işçi kimi əvəzi yoxdur. Rayon partiya komitəsi ondan razıdır.

- Raykom katibinin redaktor barədə bu cür yüksək fikirdə olmasını yalnız təqdir etmək olar, - qonaq dilləndi. Nazim müəllimin tərsliyinə gəldikdə, yəqin ki, bu, onun cavanlığından irəli gəlir. Onu da getdikcə aradan qaldırmaq mümkündür, - Süleyman Xəliloviç raykom katibinin sözünə əlavə etdi. Və sonra duruxub dediyinə düzəliş eləyirmiş kimi:

- Bəlkə, Siz prinsipiallıqla tərsliyi qarışdırırsınız?! - dedi.

- Kimliyindən asılı olmayaraq hər halda rayon rəhbərinin fikri ilə razılaşmaq lazımdır. Axı, mən birinci katib ola-ola redaktora yaraşmaz ki, dediyimin əksinə getsin, - katib cavab verdi.

Nazim İlham:

- Bu doğrudur və mən redaktorun rayon partiya komitəsinə tabeçiliyini heç də inkar etmirəm. Lakin hər hansı yanlış mövqe ilə razılaşmaq, qeyri-qanuni göstərişlərə əməl etmək, öz mənini qiymətləndirib vəzifəsini başa düşən idarə başçısı üçün çətindir. Jurnalist hər bir məsələyə öz vicdanının ölçüsü ilə yanaşmalıdır. Ağa qara demək, aldığım tərbiyəyə, malik olduğum əqidəyə yabançıdır və mənim innən sonra da belə hallarla razılaşacağımı heç kəs ağlına belə gətirməsin.

Nadir Nəsrullayev də, Süleyman Xəliloviç də başa düşürdülər ki, redaktor bu sözlə hara vurur. Haqlılar güclü olurlar. Odur ki, Nadir Nəsrullayev mübahisəyə girişməkdən vaz keçdi. Redaktor onlara:

- Əyləşin, - deyib, çay gətirtmək istədi.

Nadir Nəsrullayev:

- Redaktor yorğundur, - dedi. - Ona əziyyət verməyək, çıxaq mənim kabinetimə, çayı yuxarıda içərik.

- Nazim müəllimin yorğunluğunu çıxarmaq üçün onun qonağı olub, çayını içmək lazımdır, - Süleyman Xəliloviç yarızarafat cavab verdi.

Nazim İlham bu sözdən xoşhal olub, vəcdlə:

- Süleyman Xəliloviç elə bil ürəyimi oxuyub, - dedi. - Jurnalistin qəlbi kövrək olur. Onu sındırmağa nə var ki? Aqillər təsadüfi hallarda qəbahətə yol verirlər. Bir də ki, nəcib adamlarla təmasda olub onların əziyyətini çəkmək, yorğun və yuxusuzlar üçün çox xoşdur.

Dünəndən bəri qaşqabağında qara buludlar qaynaşan Süleyman Xəliloviçin baxışlarına elə bil yaz günəşinin şəfəqləri yayıldı və təəccüblə:

- Tərsliyinizi bilmirəm, amma mərd oğlana oxşuyursunuz, - dedi.

- Bəli, nəciblərin nəzərində ola bilsin ki, belədir...

Nazim İlham nə isə düşündü və sonra fikrini tamamlayaraq:

- Nanəciblərin eynəyi ilə baxsaydınız, bəlkə Sizin də gözünüzə çox qəribə, bəlkə də eybəcər görünərdim.

Nadir Nəsrullayev redaktorun daşı onun baxçasına atdığını başa düşsə də özünü bilməməzliyə vurub o yerə qoymadı:

- Əlbəttə, - dedi. - Farslar demişkən, zər qədrini zərgər bilər. Jurnalistlik elə peşədir ki, hər adam onu duymağı bacarmaz. Nazim müəllimi yaxşı jurnalist kimi bütün rayon tanıyır. Son vaxtlar respublika mətbuatına da yol açıb. Raykom da onun arxasında möhkəm dayanıb, yoxsa...

Süleyman Xəliloviç bu diplomatik, həm də dəyintili söz-söhbətin dərinləşməsinə yol verməmək üçün rəsmi görkəm aldı

və sifətini bozardıb onların hər ikisilə danışığını ciddiləşdirdi. Üzünü redaktora tutaraq:

- Qəzetinizin son nömrələrinə baxmaq olarmı?

Redaktor cəld ayağa qalxıb, səliqə ilə tikilmiş son bir neçə ayın qəzetini kitab rəfindən götürüb, Süleyman Xəliloviçin qarşısına qoydu. O, qəzetlərin səhifələrini bir-bir vərəqləyib, dərc olunmuş materialları diqqətlə nəzərdən keçirdi. Bəzi məqalələri əvvəldən axıracan oxuyub, özü üçün qeydlər apardı. "Məlikli" sovxozu barədəki tənqidi məktubun üzərində xeyli dayandı və sonra başını təəssüflə yırğalayaraq:

- Çox ciddi məqamlara toxunulub, - dedi. - Burada yazılan faktlar doğrudursa, bu vaxtacan sovxoz direktoru barədə nə üçün qəti tədbir görülməyib?! Bu yazılanlara görə onu vəzifədən çıxartmaq azdır...

- Düzdü, "Məlikli" sovxozunda bəzi nöqsanlar var. Lakin qəzet çox şişirdib. Yazılanlar kimi deyil, - Nadir Nəsrullayev məqaləyə iradını bildirdi və əlavə etdi - Nazim müəllim bunu mənə əvvəlcədən desəydi, ona ayrı faktlar da verərdim.

- Əlinizdə ayrı faktlar vardırsa, qəzetə vermədən də tədbir görə bilərdiniz, - Süleyman Xəliloviç raykom katibi ilə razılaşmadığını bildirdi.

Nazim İlham məsələni aydınlaşdırmaq üçün seyfi açıb, içərisində "Məlikli" sovxozuna dair sənədlər olan qovluğu Süleyman Xəliloviçə təqdim etdi:

- Bu qovluğu mənə Nadir Xələfoviç özü verib, - dedi. - Məqalə də əslində onun verdiyi faktlara, etdiyi təkidə görə yazılıb...

Süleyman Xəliloviç qovluqdakı sənədlərə diqqət yetirdi. Əksəriyyətinin üstünə Nadir Xələfoviç öz dəst-xəttilə belə dərkənar qoymuşdu: "Məlikli" sovxozu və onun direktoru

barədə yazılanların doğruluğuna heç bir şəkk-şübhəm yoxdur. Ciddi yoxlamaq, qəti tədbir görmək.

Nadir Xələfoviç pərt oldu:

- Süleyman Xəliloviç, Sizə böyük hörmətim var, - dedi. - Lakin raykomun birinci katibini onun tabeliyində olan adamla üz-üzə qoyub hörmətdən salmaq məncə etikadan kənardır. İkincisi də, düzdür, "Məlikli" sovxozunun, onun direktorunun tənqid olunmasına mən də beşəlli tərəfdaram. Lakin rayon qəzetində! Tay onu mərkəzi mətbuatın səhifələrinə çıxardıb rüsvay etmək, məsələnin bir tərəfini gətirib mənə bağlamaq, bu şəxsən raykoma sataşmaqdı. Bu rayonun yaxşısına da, pisinə də cavabdeh mənəm!

Raykom katibi belə deyəndə redaktorun əhvalı dəyişdi. Onun gözünə nə Süleyman Xəliloviç, nə də ki, Nadir Nəsrullayev göründü:

- Nadir Xələfoviç, - dedi. Unutmayın ki, Sizin adınıza da, vəzifənizə də hamı hörmət edir, bircə özünüzdən başqa. "Məlikli" sovxozu barədə yazılan məqaləyə gəldikdə, bu məsələdə mövqeyiniz istehza doğurur. Qəzet elin, raykom isə azğın bir fərdin tərəfindədir. Səbəbini isə bir Siz bilirsiniz, bir də ki, mən! Ancaq əmin ola bilərsiniz ki, bunu üçüncü şəxsə bildirmək fikrində deyiləm. O barədə narahat olmaya bilərsiniz.

Nadir Nəsrullayev o dəqiqə başa düşdü ki, redaktor hara vurur... Odur ki, daha sözü çevirmədi. Fikirləşdi ki, redaktor Eybalı Salamovun mənim evimdə olmasını, heybə, sərnic məsələsini açıb-ağarda bilər. Ona görə də söhbəti qəlizləşdirmək istəmədi, məsələni malalamağa başladı:

- Bilirsiniz, Nazim müəllim, - dedi. Atan yaxşı kişidi. Səriyyə bacı qabağıma çörək qoyub, biz də bir yerdə ata-oğul kimi işləyirik... Süleyman Xəliloviç də elə başa düşməsin ki, bizdə bir-birimizə qarşı inciklik var və ya yola getmirik.

Qətiyyən elə deyil! İş əsnasında bu cür söz-söhbətlər ola bilər. Yazılan məqaləyə gəldikdə, bu barədə fikrim qətidir. Mən də bilirəm ki, sovxozun direktoru yaramaz adamdır. Onun da dərsini ağıllı-başlı verməliyik...

Bütün bu söhbətlərin gedişində Süleyman Xəliloviçə artıq hər şey aydın olurdu. O, qarşısındakı qəzeti qatlayıb ayağa qalxdı. Və Nadir Xələfoviçə tərəf dönərək:

- Gedək, - dedi.

Onlar redaktorla xudahafizləşib, katibin kabinetinə qalxdılar. Nadir Xələfoviç qapının arxasını vurub, qonaqla qabaq-qənşər əyləşdi. Onun bayaqkı həyəcanı hələ soyumamışdı:

- Süleyman Xəliloviç, Sizdən nə gizlədim, artıq bıçaq sümüyə dirənib, - dedi. - Odur ki, ras gəlmisiniz, açıq danışmalıyıq. Siz Sekanın məsul işçisisiniz, mən də Mərkəzi Komitənin üzvüyəm. Moskvada olduğunuz üçün neçə ildi respublikanın həyatından ayrılmısınız. Bildiyimə görə, cəmi beş-altı aydı Sekaya işə qayıtmısınız. Ona görə də ola bilsin bəzi şeylərdən xəbəriniz yoxdur. Qeyri-təvazökarlıq olsa da deməliyəm ki, respublikada beş nəfər üzdə olan katib varsa, onun biri də mənəm. Pervi də məni yaxşı tanıyır. Xatirimi də istəyir. Məsələni yuxarı səviyyəyə qaldırsam, çox adamın başı ağrıyar. Ona görə də raykomu kakoy-nibud bir qəzet redaktorunun ayağına vermək lazım deyil. Əvvəla, Nazim İlham köhnə rəhbərliyin tör-töküntülərindəndir. Onu məndən əvvəlki katib bu vəzifəyə qoyub. Əslində vəzifəyə keçəndə birinci onun şələşüləsini qoltuğuna verməli idim. Ancaq fikirləşdim ki, cavan oğlandır, qoy hələlik işləsin, bəlkə özünü düzəltdi. Bu, mənim səhvimdir. Sonrasına da qalanda, onun özü boğazacan zibilin içindədir. Bəsirə adlı pozğun bir qızı mürəttib adınan redaksiyada işə götürüb. Onunla min hoqqadan çıxır. Arvadı neçə dəfə üstümə şikayətə gəlib. Bunu bütün rayon bilir. Həmin o,

"Məlikli" sovxozunun direktoru Eybalı Salamovdan at istəyib, verməyib. MTS-in direktoru büro üzvü ola-ola onun barəsində felyeton yazıb. Özü də mənə gənəşməmiş... İndi deyin görüm, bütün bu həngamələrdən sonra onu redaktorluqda saxlamaq olarmı?! Elə faktlar vardır ki, deyib qanınızı qaraltmaq istəmirəm. Mən hələ bir dəfə də olsun eşidib-görməmişəm ki, rayon qəzetinin redaktoru respublika mətbuatında çıxış eləsin. Həftə səkkiz, mən doqquz Nazim İlhamın səs-sorağı mərkəzi qəzetlərdən gəlir. Raykomu biabır eləyib qoyur orda. Oxuyanda xəcalətdən ölüb yerə girirəm.

Nadir Xələfoviç həyəcanlandığından onun nəfəsi tıncıxdı. Sözünə fasilə verib, yenə də yanıqlı-yanıqlı danışmağa başladı:

- Süleyman Xələfoviç, bu şəraitdə işləmək olmaz! Bir tərəfdən, Mərkəzi Komitə məndən plan tələb eliyir. O biri tərəfdən də redaktor yana çəkir. Belə getsə, ərizəmi verib, üzüsulu bu vəzifədən uzaqlaşmalıyam. Qalmışam bu cızma-qaraçının əlində. İndi Siz də gəlmisiniz, xoş gəlmisiniz, xahiş edirəm işə vicdanla yanaşasınız. Məsələni qəti həll etmək lazımdır. Nazim İlhamdan mənə redaktor olmaz! Bunu demişəm, deyirəm və yeri gəlsə, yenə deyəcəyəm!

- Redaktorun vəzifədə qalıb-qalmamasını yox, hələlik onun rayon və respublika qəzetində qaldırdığı məsələnin nə dərəcədə obyektiv olub-olmamasını müəyyənləşdirib həll etməyə gəlmişəm, - Süleyman Xəliloviç ona konkret cavab verdi.

- Yaxşı, iş ki belə oldu, günü sabahdan sovxozun direktorunu işdən çıxararam! Sonra?!

- Çıxararam yox, çıxarmalıydınız! Həm də nəzərə alın ki, bu, Sizin yox, Eybalı Salamovun əməllərindən irəli gələn hökmdür!

- Bəs redaktor?!

- O sonrakı işdir.

- Sözünüzdən belə çıxır ki, mən yenə də Nazim İlhamla qalıb işləməli olacağam, eləmi?!

- Bu mənim səlahiyyətim xaricində olan məsələdir. O barədə yalnız yuxarıya fikrimi deyə bilərəm.

- Mən çox xahiş edirəm, - Nadir Xələfoviç yumşalıb yalvarıcı görkəm aldı.

- Arxayın ola bilərsiniz.

- Çox sağ olun!

- Dəyməz, - Süleyman Xəliloviç ona cavab verdi.

* * *

...Məqalədə göstərilən faktları yoxlamaq üçün müəyyən edilmiş adamlar "Məlikli" sovxozuna yola salındıqdan sonra Süleyman Xəliloviç onun sərbəst işləməsi üçün ayrılmış kabinetdə tənha oturub fikrə dalmışdı. Ötkəm xarakteri, kəskin qələmi, sərrast və məntiqli danışığı, prinsipial mövqeyi olan gənc redaktora qarşı onda yaranmaqda olan xoş təəssüratla Nadir Xələfoviçin ikrah doğuran sözləri arasında çaş qalmışdı. "İnsanlara birdən-birə inanmaq olmaz. Yaxşı deyiblər ki, adamlara tamamilə inanmaqdansa, tamamilə inanmamaq yaxşıdır. Bəlkə Nazim İlham elə doğrudan da məişətcə pozğun adamdır?! O Bəsirə adlı küçə qadınını nə məqsədlə işə götürüb?! Doğrudanmı sovxoz direktorundan şəxsi təmənnası olub?! Respublikanın hörmətli katiblərindən biri sayılan və böyük bir rayona başçılıq edən təcrübəli partiya işçisinə necə inanmayım?!" Süleyman Xəliloviç Nazim İlham barədə bəzən bədgüman fikirlərə düşür, tərəddüd keçirirdi. Sonra da Nadir Xələfoviçin dünəndən bəri yüz cürə fikrə düşməsini - beş-on kiloqram pambıqdan ötrü atası yerdə kişinin bığını, saqqalını qırxdırmaq istəməsini, ot yüklü arabaya od vurmasını, redaktor barədə üzdə bir cürə, dalda da bir cürə danışmasını gözünün qabağına gətirib

Nazim İlhama qarşı yaranmaqda olan şübhələrindən uzaqlaşırdı. Ancaq yenə də redaktora qarşı inamı ilə, inamsızlığı arasında dolaşıb qalmışdı.

Süleyman Xəliloviç pəncərəni açıb çölə boylandı. Bahar günəşinin altında xumarlanan bağ-bağat adamı riqqətə gətirirdi. O, kabinetdən çıxıb, binanın arxa tərəfindəki ağacların sərinlik yaydığı ensiz səkidə gəzinməyə başladı. Süleyman Xəliloviç tez-tez ayaq saxlayıb onu əhatə edən qollu-budaqlı ağaclara, güllərə, çiçəklərə heyranlıqla nəzər salır və sanki təbiətin bu yaşıl inciləri ilə gizlincə söhbət edirdi. Açıq-yaşıl rəngində olan, bir qurd çəhrayı çiçəkli ağacın tər yarpaqlarını acgözlüklə yediyi yerdə, bir neçə qarışqa özlərini yetirib onun böyür-başını didməyə başladılar. Canının həşirinə qalan qurd bir neçə dəfə qıvrılıb-açıldı, ancaq qarışqaların cəngindəın qurtara bilmədi. Elə bu dəmdə ağacların arasından çıxan sərçə vəcdlə ovunun üstünə atılıb, qarışqa qarışıq qurdu balaca dimdiyi ilə hop eləyib uddu. Qəflətən peyda olan qırğı sərçəni göydə caynağına keçirib, qonşu həyətdəki hündür ağacın qanadına qondu. Və sərçənin tükünü havaya sovurub onu didməyə başladı. Şüşəbənddə dayanan on-on beş yaşlı oğlan uşağı onu görən kimi tez içəri keçib tüfənginin ağzına bir patron verdi və sərçəni parçalamaqda olan qırğını nişan aldı - "çıq" - tüfəng açıldı. Qırğı bir göz qırpımında tappıltı ilə ağacın dibinə düşüb gözünü bərəltdi... Ata tüfəngin səsinə çıxıb qırğının al qana bulandığını görəndə, hirslənib oğluna yaxşıca bir sillə ilişdirdi:

- Yuva vaxtı quşa güllə atmazlar, axmaq! Yenə əti yeməli ola! Nə bilirsən, bəlkə bala üstədir?! - deyib tüfəngi onun əlindən aldı.

"Səhnə" bununla da bitdi.

* * *

Süleyman Xəliloviç bağın bir küncünə çəkilib bu hadisələri dərin maraqla izləyir və sanki gözəgörünməz qüvvənin təbiət səhnəsində yaratdığı macəralara tamaşa edirdi. O öz-özünə:

- "Dünyamızın da bir atası olsaydı", düşündü və işinə davam etmək üçün binaya daxil olub, fikirli-fikirli daş pilləkənlərlə yuxarı qalxdı. Pilləkənin yuxarısında ayağında kerz çəkmə, başında qıraqları əzilib aşağı sallanan nimdaş panama, əynində köhnədənqalma hərbi paltar, belində enli qayış, əlində qara çanta olan bir kişi dayanıb, dünyadan əlini üzübmüş kimi ümidsiz baxışlarlarını məchul bir nöqtəyə zilləmişdi. Süleyman Xəliloviç gözaltı ona diqqət yetirdi. Sərgərdan qoca ona tanış kimi gəlirdi. Bu adamı hardasa görmüşdü. Süleyman Xəliloviçin ehtiramla ona verdiyi salamı qoca hiss etmədi. - Yəqin qulağı ağır eşidir - Süleyman Xəliloviç düşündü və ötüb-keçmək istədi. Lakin birdən yadına düşdü ki, bu adam vaxtilə təhlükəsizlik orqanlarında işləmiş polkovnik Hüseyn Qurbanovdur. Süleyman Xəliloviç ona yaxınlaşıb qocanın nurdan düşmüş gözlərinə zənnlə baxdı və:

- Siz Hüseyn Qurbanov deyilsiniz?! - onun ağır eşitdiyini nəzərə alıb bir qədər ucadan soruşdu.

Qoca polkovnikin qayğılı baxışları təbəssümləndi:

- Bəli, - dedi. - Bağışlayın, Siz kimsiniz, axı, tanıya bilmədim.

Süleyman Xəliloviç:

- Siz məni tanımazsınız, ancaq mən Sizi yaxşı tanıyıram, - dedi. Vaxtilə nəçənnik NKVD işlədiyiniz rayonda ezamiyyətdə olmuşam. Rayon fəallarının qarşısında beynəlxalq vəziyyət barədə mühazirə oxuyanda mənə bir neçə qəliz suallar verdiniz. Onlar yadımdadır. İlk dəfə də orada tanış olmuşuq.

- Ola bilər, ancaq yadımdan çıxıb. Xatirimə gəlmir, - Hüseyn Qurbanov həvəssiz cavab verdi.

Süleyman Xəliloviç:

- Bura gəlməkdə xeyir ola?! - soruşdu.

Hüseyn Qurbanov:

- Elə-belə gəlmişəm - cavab verdi. İkinci katiblə balaca işim vardı, Qəribzadəynən. Gördüm kabineti bağlıdır, gedirəm.

- Qəribzadə kəndə gedib. Onun kabinetində mən otururam. Gedək orda söhbət edək.

Süleyman Xəliloviç bunu deyib kabinetin qapısını açdı və Hüseyn Qurbanovla birlikdə içəri daxil oldu. Boyca çox da hündür olmayan qoca polkovnik əldən düşmüş kimi ağır-ağır, əzgin halda yeriyirdi. Onu gücdən salan əsas yel xəstəliyi idi. Ancaq hiss olunurdu ki, ürəyi sağlamdır. Qoca dərindən ah çəkərək:

- Həə! - dedi. - Bu qocalıq pis şeydir. Allah-taala insana cavanlığında hər şey verir, ahıllığında isə hər şeyin alır. Qalır bircə quru canı. Xəstəlik də ki, yağı düşmən kimi fürsət axtarır. Elə ki, bir balaca zəiflədin, alır başının üstünü. Dünyanın ən varlı-hallı qocaları da kasıb gəncə həsəd aparır. Çünki gənclikdən böyük sərvət, varidat yoxdur. Qışın oğlan vaxtı, yer-göy buz bağlayanda tüfəngi götürüb ova çıxırdım. Qazı, ördəyi vurub, dalınca qurşağa qədər girirdim suyun içinə. Şaxtanı, buzu vecimə almırdım. İndi yanımdan yel ötən kimi düşürəm yorğan-döşəyə. Allah kəssin belə yaşamağı - qoca polkovnik azaylandı.

Süleyman Xəliloviç əlini onun çiyninə qoyub ürək-dirək verdi:

- Çekistlər möhkəm olur! Siz də ki, maşallah, buz baltası kimisiniz! Hələ qocalıqdan danışmaq tezdir!

- Yox, oğul, tay o canım qalmayıb. Günlərimi sayıram ki, görüm əzrayıl nə vaxt gəlir.

- Əşşi, nə danışırsınız, əzrayıl Sizə yaxın düşə bilər?! Yəqin nə isə əsəbiləşmisiniz! - Süleyman Xəliloviç onu dilə tutub, könlünü aldı. - O vaxt mühazirə oxuyanda mənə yamanca qəliz suallar verirdiniz. Heç yadımdan çıxmır, Amerika-Sovet münasibətləri ilə bərk maraqlanırdınız.

Belə deyəndə elə bil Hüseyn Qurbanov yuxudan ayıldı:

- Həə! Belə dee! Belə dee! Yadıma düşdü! Yadıma düşdü! Onda Siz özünüz də geyimli-kecimli şivərək oğlandınız. İndi xeyli dəyişmisiniz. Saçlarınız yavaş-yavaş ağarır. - Hüseyn Qurbanov bunu deyib, təzədən onun əlini bayaqkı yad adam kimi yox, köhnə tanış kimi hərarətlə sıxdı və əlavə etdi. - Mənə elə baxmayın, düzdü, yaş məni haqlayıb, siyasət aləmindən bir qədər uzaq düşmüşəm, ancaq kənardan da olsa, dünyanın gedişatını izləyirəm. Bütün qəzetləri də alıram. Düşməndən mərhəmət gözləmək axmaqlıqdır. Stalin dərin adamdı, Ruzvelti, Trumeni, Eyzanhaueri, Çerçili yaxşı başa düşürdü. Onlarla necə rəftar etməyin çəmini bilirdi. Lazım gələndə onları yerində oturtmağı bacarırdı. İndi rəhbərlərimiz yelbeyindir. Düşmənin dilinə, felinə tez aldanırlar.

Hüseyn Qurbanov nəyi isə xatırlayırmış kimi:

- O vaxt mənim sualıma cavab verəndə Amerikanın prezidenti Eyzenhauer barədə maraqlı bir söz dediniz. Prezidentin kommunistlər, Şərqi Avropa, Sovet Pribaltikası ölkələri münasibəti barədə... Təəssüf ki, yaxşı yadımda qalmayıb, - dedi.

Süleyman Xəliloviç həmsöhbətinin marağını nəzərə alıb, o vaxt dediyini təkrar etdi:

- Eyzenhauer hələ o vaxtkı çıxışlarının birində deyirdi ki, Şərqi Avropa, Sovet Pribaltikası ölkələri Qərb dünyası ilə canbir, qəlbbirdirlər. Nə qədər ki onlar Qərb sivilizasiyasının ağuşuna atılıb, ona qovuşmuyub, Amerikanın vicdanı sakit ola bilməz.

- Bu, Amerika diplomatiyasının çoxdankı siyasətidir. Və onu ustalıqla da davam etdirir. - Hüseyn Qurbanov dilləndi.

- Eyzenhauer onu da deyib ki, biz hər sutkanın iyirmi dörd saatı, hər həftənin yeddi günü, hər ilin əlli iki həftəsi kommunistlərin fəaliyyətinə göz qoymalıyıq. - Köhnə siyasi məruzəçi, qoca çekistə izah etdi.

- Eyzenhauerin kommunistləri görən gözü olmayıb. - Hüseyn Qurbanov müsahibinin sözünü təsdiq etdi.

Süleyman Xəliloviç:

- Amerika prezidenti ərəb ölkələri ilə münasibətini ancaq antikommunist özülü üzərində qura bilirdi. Bir dəfə Səud Eyzenhauerlə söhbətində bütün ərəblərin adından belə bir söz işlədib:

- "Heç bir əsl ərəb, kommunist ola bilməz". Eyzenhauer də ərəbə bildirib ki, bir vaxt Deqol da mənə belə bir fikir deyib. "Heç bir əsl fransız kommunist ola bilməz".

Hüseyn Qurbanov dərin fikrə getdi və sonra Süleyman Xəliloviçə:

- Diplomatik məsələlərdə o qədər də səriştəm yoxdur. Oxuduqlarımın da çoxu yadımdan çıxıb, canımın hayındayam. Ancaq mən biləni belədir ki, bizim dövləti idarə edən siyasi maşının bütün hissələri, adi vintlərinə qədər marksizm-leninizm dəzgahlarında hazırlanıb. Stalin iyirminci əsrin nadir şəxsiyyəti, həm də güclü marksisti kimi onun idarə olunmasını nəzəri və praktiki cəhətdən mükəmməl bilir və onu məharətlə irəli aparırdı. Sonra bu maşın çox nadan adamların əlinə düşdü və insafsızcasına sındırılıb dağıdıldı. Elə götürək Xruşşovu və ya sonrakıları. Mən bunu, naşı, nadan arabaçının nəhəng təyyarəni idarə etməsinə bənzədərdim. Biz bu təyyarədə əyləşənlərin gününə düşmüşük... axırımız necə olacaq?! Onu bir Allah bilir.

Süleyman Xəliloviç:

- Bənzətməniz pis deyil, ola bilsin ki, dediklərinizdə müəyyən həqiqət vardır. Ancaq Sizin qibtə etdiyiniz köhnə maşının sükançıları qəddar olublar. Onların sərt qərarları cəmiyyətdə daim gərginlik yaradıb. Adamlar azad nəfəs ala bilmirdilər.

Hüseyn Qurbanov başını bulayıb, həmsöhbətilə razılaşmadı:

- Yox, - dedi. - Fikrinizə şərik ola bilmərəm. Atalar deyib ki, məni ağladan yanına apar, güldürən yanına yox. Görünür, Siz intizamla gərginliyi qarışdırırsınız. Ailədə də, dövlətdə də qanunların müqəddəsliyini təmin edən amil, ilk növbədə, onun sərtliyidir. Əks-təqdirdə hərc-mərclik baş alıb gedər. İnsanlar qurd olub bir-birini didər. Sabah hərə bir partiya yaratsa, hər yerindən qalxan bir qəzet çıxartsa, hərə bir əqidəyə qulluq etsə, onun axırı hara gedib çıxar?! Çoxpartiyalılıq da, çoxallahlılıq kimi bir şeydir. Ziddiyyət əqidə, məqsəd müxtəlifliyindən irəli gəlir. Bu isə qarşıdurmalara, çəkişmələrə, qırğınlara aparan yoldur. Məhəmməd Peyğəmbərin islam dünyasındakı ən böyük xidməti bir də ondan ibarətdir ki, o, çoxallahlılığı ləğv etdi. İslam dünyası bir Allaha, bir dinə biyət elədi. Ərəblər birlik tapdı. Qırğınlar dayandı.

Süleyman Xəliloviç Hüseyn Qurbanovun psixologiyasına həkk olunmuş köhnə antidemokratik ideyalarla razılaşmasa da, onun dediyinin əksinə getmək istəmədi. Fikirləşdi ki, qoca ilə mübahisəyə girişib onun qəlbini sındırmağa dəyməz. Ona görə də dediklərinin üstünü vurmadı. Və aralığa söz qataraq:

- Yaxşı, Hüseyn kişi, bu siyasi söhbəti qoyaq bir qırağa, - dedi. Bunlar bizlik məsələ deyil. Danış görüm, gün-güzəranın necə keçir? Bura gəlməkdə xeyirdirmi? Bəlkə katiblərlə bir işin var? Ola bilsin mənim də köməyim dəyə bilər...

- Sağ olun, Sizlik deyil, - Hüseyn Qurbanov bayaqkı kimi həyəcanla yox, sakit və ümidsiz cavab verdi.

Süleyman Xəliloviç əyləşdiyi kabinetdə ona bir stəkan çay gətirtdi. Hüseyn Qurbanov qarşısındakı məsul işçinin ona bu cür ehtiram və qayğı göstərmək istədiyini hiss edib, ürəyini açdı:

- İndi ki, belə oldu, yeri gəlmişkən qoy deyim. Görürəm yapışıqlı adama oxşuyursan. İnsan yaşa dolanda xatirə danışmağa adam axtarır. Çətin yollar keçmişəm. Bizimki də bir sənət deyildi. Hər dəqiqəmiz ölüm idi. Ömrüm boyu tüfəng, tapança gəzdirmişəm. NKVD-də nəçənnik işləmişəm. Hökumətin yolunda can qoymuşam. Sizə bircə hadisəni danışım, özünüz hesabınızı aparın. Görün başım nələr çəkib:

- Müharibənin şıdırğı vaxtıydı. Qaçaq, quldur, dünyanı almışdı ağzına. Onda kənar rayonların birində işləyirdim. Hələ nəçənnik deyildim, balaca işdəydim. Özüm də təzəcə evlənmişdim. Mürsəl adlı bir qaçaq bu zonada tüğyan eliyirdi. Düzdü, arvad-uşağa, kasıb-kusuba dəyib-dolaşmırdı, ancaq qırıcı batalyonun adamlarına qan uddururdu. Onların ki biri girinə keçdi, qurtardı-getdi. Əhədini kəsib qoyurdu orda... Çoxlu qanlar eləmişdi. Həmin qaçağın soyduğu adamların siyahısında, bax, bu Nazim İlhamın da adı vardı, indi rayon qəzetində redaktor işləyir. Onda Nazimin on dörd-on beş yaşı olardı. Nazim İlhamın bizim orqan işçilərinə verdiyi yazılı izahatı da oxumuşam. O vaxt başlarına gələn hadisəni artırıb-əksiltmədən olduğu kimi yazıb. Qaçaq Mürsəl onları qarət eliyəndə üç kişi, bir qadın olublar. Qadın kənd müəlliməsi işləyirmiş. Qaçaq Mürsəl qadının bir çöpünə də toxunmayıb. Nəyi var, qaytarıb verib özünə. Nazimin verdiyi izahata görə, qaçaq Mürsəl deyib, qızım, müsəlmanıq. Bu dünyada qadın qarət eliyib, o dünyaya şuğlüzümmə gedə bilmərəm... Həmin iş üzrə NKVD-də toplanmış sənədləri diqqətlə oxumuşam. Qaçaq Mürsəl çoxlu hadisələr törətmişdi. Onun rastına çıxan paqonluların bir neçəsini qətlə yetirib. Qaçaqçılığı da namus üstündə olub.

Şoferlə başqa bir nəfər qızını qaçırıb, zorluyublar. O da hər ikisini öldürəndən sonra qaçaq düşüb.

Elə bil Hüseynin bədəninə birdən-birə üşütmə gəldi. O, təhlükə ilə üzləşibmiş kimi:

- Qaçaq Mürsəlin adını çəkəndə indi də dizlərim əsir, - dedi. Mənə elə gəlir ki, o bu saat, elə bu dəqiqə hardansa peyda olub, məni yaxalayacaq. Ömrümdə o cür, qorxunun nə olduğunu bilməyən qoçaq, cəsarətli adama rast gəlməmişəm. Nə başınızı ağrıdım, bir gün məni yuxarı çağırdılar. Məxfi idarənin tapşırığı belə oldu ki, gərək qaçaq Mürsəlin ya ölüsünü, ya da ki dirisini gətirəsən. Qaçaq Mürsəl çoxlarının başını yemişdi. Mən özümü onun növbəti qurbanı hesab edirdim. Ancaq başqa yolum yoxudu. Bu təhlükəli işin ardınca getməli idim.

Qoca polkovnik neçə il bundan qabaqkı qorxulu anlarını yaşayırmış kimi bir qədər həyəcanlanaraq:

- Bəli - dedi. - Ona heç cürə yaxın düşmək mümkün deyildi. Ona görə də tamamilə ağıla gəlməyən başqa bir yol seçməli oldum. Saqqal, bığ uzadıb, qiyafəmi dəyişdim. Qaranlıq gecələrin birində maşınla neçə kilometr yol qət edib, bu rayonun ərazisinə gəldim. Qaçaq Şahverən adınan gecə-gündüz çölləri dolaşdım. Bu yerlərin dağ-daşına bələdçiliyim olmadığı üçün, Allah bilir, ilk günlər nə çəkdim. Sonra hər şeyə öyrəşdim. Qaçaq Mürsəlin adamlarından birini ələ alıb, ona sifariş göndərtdim ki, qaçaqçılıqda təklik pis şeydir, mən qaçaq, o qaçaq, gəlsin birləşək. O mənim bu təklifimə razılıq vermədi, gedərlərin sözünü rədd edib, kor-peşman geri qaytardı. Ancaq nəyin bahasına olursa-olsun, ona yaxınlaşmalı idim. Ona görə də cürbəcür yollara əl atdım... Bir gecə yaxın qohumunu tapıb, məsələni ona açdım. Dedim ki, Mürsələ arxa olaram, məni də yanınca götürsün. Onun kölgəsində birtəhər hərlənim. Çox dil töküb minnətçi salandan sonra qaçaq Mürsəl görüşməyimə

razılıq verdi. Onu ağılagəlməz bir dərədə tapdım. Çatan kimi tüfəngimi, tapançamı əlimdən aldı. Üzümə diqqətlə baxıb dedi ki, gözlərindən oğraşlıq yağır. Sənin kimi adama etibar etmək olmaz. Ancaq ras ki xahişçi salıb gəlmisən, bir-iki gün yanımda dolanarsan, sonra baxarıq. Onun yanında bir ay silahsız gəzib-dolaşdım. Mürsəlin qarşısında özümü müti, həm də qorxaq bir tülkü kimi aparırdım. Onun mənə inanıb etibar etməsi üçün hər cürə sifətə düşürdüm. Hiss edirdim ki, münasibəti mənə günbəgün dəyişir, getdikcə üzümə xoş baxır.

İstefada olan qoca polkovnik bu əhvalatı danışdıqca hərdən ötkəm görkəm alıb gülmək istəyirdi. Lakin onun güclə sezilən təbəssümündə vaxtilə keçirdiyi qorxunun iztirabı hiss olunurdu. Qaçaq Mürsəl gizli bir nöqtədən ona tərəf boylanırmış kimi hərdən özünü itirir, danışığının rabitəsi pozulurdu. Qoca polkovnik olub-keçmiş əhvalatı danışıb bəzi sirləri açmağa peşimanmış kimi:

- Həyatda çox şey olur, - dedi və istədi ki, araya başqa söhbət qatsın, Süleyman Xəliloviç onun niyyətini başa düşüb:

- Qaçaq Mürsəlin axırı necə qurtardı? - soruşdu.

İstefada olan polkovnik könülsüz-könülsüz gülümsündü:

- Əşşi, bu uzun əhvalatdı, - dedi. - Danışıb Sizi yormaq istəmirəm.

- Mənim üçün maraqlıdır.

Qoca polkovnik başını bulayaraq:

- Nə isə! - dedi və söhbətinə davam etdi:

- Düz iki aydan sonra tüfəngimi özümə qaytardı, ancaq naqanı vermədi. Məni bir an belə gözdən qoymurdu. Elə hey deyirdi ki, ə, Şahverən, səndən ağlım bir şey kəsmir. Satqın adama oxşuyursan. Elə bil mənim kimliyim onun qəlbinə dammışdı. Mən isə özümü ona sadiq olan bir adam kimi aparırdım. Buna baxmayaraq, getdiyimiz tənha və gizli

cığırlarda həmişə məni qabağa salırdı. Hərdən gözlənilmədən silahımı əlimdən alıb çaxmağı geri çəkir və tüfəngin ağzında patron olub-olmadığını yoxluyurdu. Havaların isti və sərinliyindən asılı olaraq gecələr çay kənarındakı qamışlıqlarda, meşələrin qalın yerində, sərt qayalıqlarda yatırdıq. Axşamlar mənə yatacağım yeri göstərir, özü aralaşıb naməlum bir küncə çəkilirdi. Məni dönə-dönə hədələyib tapşırırdı ki, gecə yerində qurcalanıb, bircə metr o tərəfə sürüşsən, özünü ölmüş bil. Təpən odlanmalıdır. Ona görə də gecələmək üçün haranı göstərirdi, orda bir daş kimi qalıb, qorxumdan yerimdən tərpənə bilmirdim. Gecənin hansı vaxtı olursa-olsun, yad şaqqıltı eşidəndə Mürsəl vəhşi pişik kimi cəld yerindən sıçrayıb, atəşə hazır vəziyyətdə dayanırdı. Qaça-qaça atdığı güllələrin hədəfə necə sərrast dəydiyini gözlərimlə görmüşəm. Onun atıcılıq qabiliyyətinə məəttəl qalırdım. Qorxumdan yanında cınqırımı belə çəkə bilmirdim. “Bəli”, “baş üstə”dən başqa bir kəlmə artıq-əskik söz işlətmirdim. Qarət etdiyimiz şeylərdən yaxınlıqdakı kəndin naxırçısına da verirdik. Naxırçı bizə iki gündən bir çörək gətirirdi. Həftənin tək günləri onunla ağ qayalıqdakı sısqa suyu olan bulağın üstündə, cüt günləri isə palıd meşəsinin qırağındakı quru ağacın altında görüşürdük. Qaçaq Mürsəl sonra naxırçıdan şübhələnməyə başladı. Hardansa ona çatdırmışdılar ki, naxırçını qırıcı batalyonun adamları ələ alıb. Naxırçının gecə NKVD-yə getdiyini görən olmuşdu. Ona görə də qaçaq Mürsəl gözümün qabağında naxırçını boğub dərin bir xəndəyə atdı. Və üstünü torpaqladı. Bir müddət naxırçının öldüsünü-qaldısını bilən olmadı. Sonradan sonraya bu məsələni mən açdım. Amma gec idi, naxırçının meyidi tamam çürümüşdü. Onun quru skeleti qalmışdı.

Qoca polkovnik bir anlığa sükuta dalıb yenə sözünə davam etdi:

- Mürsəl bir nəfər bostançı tapıb onunla əlaqəyə girdi. Qaçaq Mürsəl nə qədər qoçaq və qorxmaz idisə, bir o qədər də ehtiyatlı, hiyləgər idi. Onun xarakterindəki cəsarətlə ehtiyat birləşdiyi üçün rast gəldiyi hər cür təhlükədən asanlıqla sovuşurdu. Mürsəlin hərəkətlərinin timsalında bir daha yəqin etdim ki, həyatda insana zorakılıqdan çox məharət, gücdən çox bacarıq uğur gətirir. Çekist hazırlayan məktəblərimizdə hər cür təlim-tərbiyə almağıma baxmayaraq, qaçaq Mürsəlin yanında əl-qol açа bilmirdim. Sanki o, mənim nə düşündüyümü də hiss edirdi. Onun gülləsinə gəlmək üçün kiçik bir səhvim kifayət idi. Ona görə də var qüvvəmlə çalışırdım ki, onunla davranışımda son dərəcə ehtiyatlı olum.

Qoca polkovnik cib yaylığını çıxardıb, alnının qırışlarındakı təri silə-silə:

- Yayda bu yerlər bərk bürkü olur, - dedi. - Gilas qızarmamış hamı arandan dağa çəkilir. Qaçaq Mürsəl haracan desən, ailəcanlı adam idi. Həftədə bir-iki dəfə girəvəyə salıb, gecələr ailəsinə baş çəkirdi. O, undan, dəndən tapıb, uşaqlarının başının altına yığandan sonra mənə dedi ki, ə, Şahverən, sən yayı buralarda birtəhər girlən, mən yaylağa getməliyəm. Yalvardım ki, məni də özünlə apar. Üstümə hirsləndi. Dedi ki, olmaz! Dağlar dolaşıqdır, sənin yerin deyil. Orda ələ keçə bilərsən. Nə qədər çevirdim, ipə-sapa yatmadı. Başıma bir qapaz da saldı. Dedi ki, axmaqlama, nə deyirlər, onu da elə. Qaçaqçılıq sənə asan gəlməsin. Hələ xamsan, qaxıl otur buralarda. Bir-iki aydan sonra sağ-salamat qayıda bilsəm, onda yenə də birlikdə gəzib-dolanarıq. Görək axırımız hara çıxır...

Süleyman Xəliloviç ona diqqətlə qulaq asırdı. Qoca polkovnik isə ömür kitabının saralıb-solmuş səhifələrini oxumaqda çətinlik çəkirmiş kimi duruxub, qaşlarını dərin qırışlarla haşiyələnmiş ölgün gözlərinin üstünə saldı və

hafizəsində uzaq bir əks-sədanı xatırlayırmış kimi xəyallanıb yenə sözünə davam etdi:

- Qaçaq Mürsəl məni aranda tək-tənha qoyub, özü yaylağa getdi. Yuxarı idarəmiz məxfi kanallarla sifariş göndərib əməliyyatın gecikməsində məni məzəmmət edirdi. Mən isə heç cürə fürsət tapıb, qaçaqla məsələni çürüdə bilmirdim. Mürsəl yaylaqdan qayıdana qədər onun yolunda dəridən-qabıqdan çıxdım. Əlimə keçən qənimətin hamısını onun kənddə qoyub getdiyi ailəsinə ötürdüm. Qoymadım aranda uşaqları korluq çəksin. Beləcə iki ay da gəlib keçdi. Mürsəl yaylaqdan qayıdıb gəldi. Əməlli-başlı gümrahlaşmışdı. Sifətindən qan damırdı. Onun ailəsinə etdiyim yaxşılıqları biləndən sonra mənə bir balaca isinişib, yaxınlıq göstərdi. Amma yenə də bir yerə gedəndə məni qabağa salırdı. Gecələr yatanda yerimdən tərpənməyə imkan vermirdi. Özünün harda olduğunu isə əsla bildirmirdi. Ancaq tay əvvəlki kimi tüfəngin ağzında patron olub-olmadığını yoxlamırdı.

Söhbətin bu yerində qoca polkovnikin sönük bəbəkləri genişləndi:

- Bir gün keyfinin duru vaxtı dedi ki, əə, Şahverən, üzüm yaman tüklənib. Bunu neyləyək?! Dedim gətir qırxım! Mürsəl güldü, dedi əə, sir-sifətindən oğraşlıq yağır, yəni deyirsən göz görəsi boğazımı verim sənin ülgücünün qabağına? O belə deyəndən sonra tay dillənmədim, susdum. Dedi get güzgü tap gətir, bir də ki, sabınqabı, ülgüc özümdə var. Getdim onun dediklərini birtəhər tapa bildim. Yolda təvəkkül Allaha deyib, tüfəngin ağzına bir patron verdim. Çaxmağı ayağa çəkib, atəşə hazır vəziyyətdə qoydum. Qaçaq Mürsəl arxasında qarmağı olan əl boyda güzgünü koldan asıb, üzünü sabunluyub, qırxmağa başladı. Mən onun sol tərəfində oturub, tüfəngin qundağını qıçımın arasına keçirmişdim. Mürsəl üzünü qırxa-qırxa mənimlə

ordan-burdan söhbət eliyirdi. Tüfəngin lüləsini yavaş-yavaş onun ortasına tərəf meylləndirdim. Sonra ayağımın ucunu tətiyə dirədim. Qaçaq Mürsəl üzünü ikinci dəfə sabunlayıb, gözünü güzgüyə zilləyəndə, canımı dişimə tutub, tətiyi basdım. Güllə sol tərəfdən onun qoltuğunun altından keçdi. O, nərə çəkib, Şahverən! Ay namərd köpəyoğlu! Məni vurdun?! - deyib, tüfənginə əl atmaq istədi. Mən özümü itirdim. Yerimdə key kimi qaldım. Görünür, güllə onun ürəyindən keçmişdi. Ona görə də dərhal öldü. Əlləri tüfəngin qundağında qaldı. Məni qan tutmuşdu. Meyidin zəhmi məni necə basmışdısa, tərpənə bilmirdim.

İstefada olan polkovnik söhbətin bu yerində özündə qəribə bir yüngüllük hiss etdi. O, indi ötkəm əhval-ruhiyyə ilə danışırdı:

- Qaçaq Mürsəlin kim tərəfindən öldürüldüyünü bilən olmadı. Mən dərhal aradan çıxıb, lazımi yerdə... qiyafəmi dəyişdim. Üz-gözümü taraş etdirib özümü baş idarəyə yetirdim... Belə bir əməliyyatın baş tutacağına heç kəs ümid etmirdi. Qaçaq Mürsəlin öldürülmə xəbəri ildırım sürətilə ətraf rayonlara yayıldı. Həmin əməliyyata görə ulduzumun birini artırdılar. İlin axırında vəzifəmi böyütdülər.

İstefada olan polkovnik sözünə fasilə verib, həmsöhbətinin üzünə baxdı:

- Bilirsiniz, Süleyman Xəliloviç, bir ilə yaxın qaçaqla gəzib-dolaşmaq Sizə zarafat gəlməsin. Ona yaxınlaşana qədər anamdan əmdiyim süd burnumdan gəldi. Qaçaq Mürsəlin arxasına düşmək ölümə getmək kimi bir şeydi.

Qoca polkovnik başına gələn bu əhvalatı danışıb qurtardıqdan sonra birdən-birə həvəsdən düşdü. Boynunu çiyninə tərəf əyərək:

- İndi bir arvaddı, bir də mən. Amma özümə yönlü bir yuva

düzəltməmişəm. Gözümün də ağı-qarası bircə qızım var. O da bu şəhərdə ərdədi. Ona görə də pensiyaya çıxandan sonra həyat yoldaşımı da götürüb, bura gəldim ki, öləndə meyidimiz yerdə qalmasın. Hökumətdən altı sot torpaq götürüb, yerdən ikiotaqlı ev tikdirmişəm. O da ki, nə zülümnən. Ancaq evin içinə pol taxtası vurdura bilməmişəm. Vurdura bilməmişəm deyəndə, Sizdən nə gizlədim, gücüm çatmır. Son vaxtlar qıçlarım tutulur, addım ata bilmirəm. Həkim deyir ki, revmatizmdir, çoxu nəmişlikdəndir. Ayaq altına nə qədər cır-cındır döşüyürük, yenə yorğan-döşək nəm çəkir. Pensiyamı yığıb, bir az pul toplamışam. İndi dörd-beş kubmetr taxta tapa bilmirəm ki, alıb döşəməyə vurdurum. Tapmıram deyəndə, ərizəmi alıb məni taxta növbəsinə götürüblər. Məndən sonra yazılanların hamısı alıb. Ancaq nədənsə məni get-gələ salırlar. İki ay bundan qabaq bizim ikinci katib Qəribzadənin yanında olmuşam. O da deyib ki, get, arxayın ol. Tapşıraram verərlər. Ancaq ya Qəribzadənin yadından çıxır, ya da ki, onu eşitmirlər, qalmışam belə.

İstefada olan polkovnik xəcalət çəkirmiş kimi başını aşağı dikdi və:

- Gərək belə şeylərdən ötrü Sizə başağrısı verməyəydim. Məcbur elədiniz, mən də dedim. O, dərin bir ah çəkərək, - həə! Otuz il! Bir igidin ömrüdür! Zamana yaman xarab olub! Biz işləyən vaxtları qayda-qanun varıdı, düzlük idi. Hökumətin təzə vaxtı qaçaq-quldurdan kiloynan qızıl tuturduq, amma onun bircəciyində gözümüz olmazdı. Hamısını sanılı qoz kimi dövlətə təhvil verirdik. Rüşvətin nə olduğunu bilməzdik. - Polkovnik Qurbanov gəlir - deyəndə banditlər zağ-zağ əsirdi. Di gəl ki, yaşamağa rahatca bir komam yoxdur. İndikilər çiyinlərinə paqon taxan kimi min oyundan çıxırlar. Adi milis nəfəri də cah-calal içində yaşayır. Amma soruşmurlar ki, balam, bu nəynəndir?! O vaxt olsaydı... İndi qayda-qanun yoxdur, başlı-başınalıqdır.

Arada xətir-hörmət də qalmayıb. Bir belə əlləşib-vuruşmağın qabağında iki evlik taxta ala bilmirəm. Bir gün də gəldim ki, görüm, bunlardan bir kar çıxmasa, məcburam yuxarılara yazım. Vaxtında ağlım olmayıb. Kunopkanı bassaydım, ikicə saatın içində on evin taxtasını gətirərdilər. Amma eləmirdim, çünki qorxu varıdı, düzlük varıdı. Suyu da püləyə-püləyə içirdik. İndi dövran dəyişib. Dördcə kub taxta nədir ki?! Gedib-gəlməkdən dizlərimə su enib! Belim quruyub, tərpənə də bilmirəm. Həkimlər deyir yel xəstəliyidir. Nəm yer də ki, yelin qənimidir.

Süleyman Xəliloviç kağız-qələm götürüb onun adını, familiyasını, ev ünvanını yazdı və:

- Bu məsələ ilə şəxsən özüm məşğul olaram, - dedi. - Hesab edin ki, sabah, uzağı o biri gün, döşəmə taxtası qapınızdadır...

İstefada olan polkovnikin baxışları sevinc və minnətdarlıq ifadəsi ilə işıqlandı. Və o, Süleyman Xəliloviçə dönə-dönə təşəkkürünü bildirdi.

Süleyman Xəliloviç:

- Yoldaş Qurbanov, Sizdən bir söz soruşmaq istəyirəm.

- Buyurun.

- Əlbəttə, bu məsələnin Sizə o qədər də dəxli yoxdur. - Süleyman Xəliloviç onu dilə tutmağa başladı. - Ancaq görürəm təmiz adamsınız. Köhnə çekistsiniz, dünyaları yola salmısınız. Düzdür, çox oturub-durmasaq da, söhbətlərinizdən görürəm ki, Sizə inanmaq olar. Burada edəcəyimiz söhbət öz aramızda qalmalıdır. Bircə xahişim odur ki, mənə nə var, düzünü danışasınız. Deyin görüm, bayaq o qaçaqla əlaqədar adını çəkdiyiniz Nazim İlham - redaktor, necə adamdır, camaat onun barəsində nə fikirdədir?!

Hüseyn Qurbanov:

- Nazim İlhamı yaxşı tanıyıram. Yazdıqlarının da hamısı camaatın ürəyindəndir. Bizdən də iki küçə o tərəfə olur. Həyat

yoldaşı müəlliməndir, nəvəmə dərs deyir. Onun katiblə çəkişməsindən xəbərim var. Həqiqəti bilmək istəyirsinizsə, redaktor düzünəqulu adamdır. Əyri, dor-dolaşıq işnən arası olmaz. Qələmi də çox kəskindir. İntəhası bu Nadir Nəsrullayevin ətrafında bir şayka var. Bu rayonda da onların kəsdiyi başın sorğu-sualı yoxdur. Nazim İlham da ki, cavan oğlandır. Bu dəstəyə qoşulmur. Onun da öz yolu var. Düzünü bilmək istəyirsizsə, Nazim İlhamı rayonda burunluyanlar çoxdur. Raykomda oturanların heç birinin gözü onu götürmür. Nadir Nəsrullayevin də əlləşdiyi-vuruşduğu odur ki, Nazim İlhamı aradan götürüb, yerinə də özünə bab olan bir adam qoysun. “Otur” deyəndə otursun, “dur” deyəndə dursun. Bax, bütün bu dava-dalaşın hamısı onun üstündədir. Burada başqa bir məqsəd yoxdur. Bu rayonda da kimi dindirsən, mən deyəni təsdiq eliyər.

- Guya redaktor idarədə Bəsirə adlı əxlaqsız bir qadın saxlayır. Və bunu bütün rayon danışır. O barədə nə bilirsiniz?

- Süleyman Xəliloviç, bu sözü mənə dediniz, bir də başqa yerdə danışmayın, - qoca polkovnik təbdən çıxdı. Bu ancaq birincinin uydurması ola bilər. Bu şayiəni yayırlar ki, redaktor gözdən düşsün. Çox namərd sözdü! Bunu birinci dəfədir eşidirəm. Yaşadığım bu balaca şəhərdə hamı bir-birini yaxşı tanıyır. Bəsirə atasını vaxtsız itirmiş bədbəxt bir qızdır. Anası bir bölük uşağın əlində qalıb. Nazim İlham vaxtilə onların kəndində müəllim işləyib. Və Bəsirəyə dərs deyib, onların çörəyini kəsib. Bəsirənin anası onu şəhərə gətirib ki, idarələrin birinə süpürgəçidən-zaddan düzəltsin. Nazim İlhamın cavan olmasına baxma, çörək itirən adam deyil. O, bunu biləndə namusu qəbul eləməyib. Bəsirəni qanadına çəkib, ona idarədə yüngülvari bir iş verib ki, qəpikdən-quruşdan qazansın. Bəsirə də haracan desən abırlı-həyalı bir qızdır. Başını qaldırıb bir adamın üzünə baxan

deyil. İndiyəcən onun adına bir söz çıxmayıb. Bakirə qızın barəsində o cür böhtan demək kişilikdən deyil.

- "Məlikli" sovxozunun direktoru Eybalı Salamovu yaxından tanıyırsınızmı? - Süleyman Xəliloviç başqa məsələyə keçdi.

- Bəli, bəli, dabbaqda könünə bələdəm, - Hüseyn Qurbanov kinayə ilə cavab verdi.

- Onun barəsində nə deyə bilərsiniz?

İstefada olan polkovnikin çallaşmış qaşları yuxarı dartıldı və o, başını ikrahla yırğalayaraq:

- Nə deyim, vallah, adamdı dəə! Yuxarıdakıların gözündə mələk, aşağıdakıların gözündə gürzə. Özünə çoxlu yatar toplayıb. Əli qalın adamdır. Ona Allahın da gücü çatmır. Bu günlərdə redaktorun onun haqqında yazdıqlarını diqqətlə oxumuşam. Bir nöqtəsi də əənbəən deyil. Hamısı dübbədüzdür. O yazı camaatın da ürəyindəndi. Nazim İlham nahaq heyləsiynən daşa, tərəziyə girib.

Qoca polkovnik sinəsi xışıldaya-xışıldaya güldü:

- "Məlikli"də bir nəfər dədə-baba dostumuz var, - dedi. Müharibədə qolundan yaralanıb. İndi heç yerdə işləmir. Aldığı pensiya ilə dolanır. Hərdən şəhərə ayağı düşəndə mənə də baş çəkir. Onnan dədə-babadan get-gəl eliyirik. Mənə baməzə bir əhvalat danışıb. Deyir ki, guya kəndin altında iki nəfər süpürləşirmiş. Onlara yaxınlaşanda görürlər ki, biri Eybalı Salamovdur, biri də Əzrayıl. Onlar bir saatacan əlləşib əldən düşürlər. Axırda Eybalı Əzrayılın kürəyini yerə gətirir və qarnına da bir diz vurur...

Qoca polkovnik gözlərini geniş açaraq:

- Bax, Eybalı Salamov hamının gözünün odunu necə alıbsa, deyirlər ki, ona Əzrayıl da dab gələ bilməz. Nazim İlham Əzrayılın gücü çatmayan adama nahaq girişib. Bax, bu qəzet məsələsinin də kökünü axtarsan, yenə gedib çıxacaq Nadir

Nəsrullayevə. Bu fitnə-fəsadların hamısı onun qurğusudur. Məqsəd də odur ki, redaktoru onun əli ilə yıxsınlar.

Süleyman Xəliloviç başını aşağı dikib fikirli-fikirli əlini çənəsində gəzdirdi. Və öz-özünə mızıldandı:

- Qəribədir, - dedi, çox qəribə. Yaxşı, redaktorla Eybalı Salamov barədə dediklərin mənə müəyyən qədər aydın oldu. Bəs camaat Nadir Nəsrullayev haqqında nə düşünür?

- Eh! Sağ olmuş, camaatın dediyinə baxan var?! Camaata qalsa, indi çoxdan onun külünü göyə sovurmuşdular. Bir də ki, işləyən vaxtlar başqaydı. Bir adamı raykoma katib qoymaq istəyəndə əvvəlcədən onu yüz yerdən yoxluyub, saf-çürük eliyirdilər. İndi katib olmağa nə var ki?! Üç şeyi bildin, qurtardı getdi, bütün qapılar üzünə açıqdı.

- O üç şey nədir?! - Süleyman Xəliloviç dərin bir maraqla soruşdu.

- Almaq, vermək, bir də ki, artist kimi dondan-dona girməyi bacarmaq.

Qoca polkovnik bu sözün həmsöhbətinə necə təsir bağışladığını yoxlamaq üçün düz onun gözlərinin içinə baxdı və əlavə etdi:

- Məni o qədər də sadəlövh hesab etməyin. Kimə nə barədə nə dediyimi yaxşı başa düşürəm. Dediklərimə inanmaya da bilərsiniz. O, Sizin öz işinizdir. Mən başqa cür tərbiyə görmüş bir adamam. Yalançı gözümün düşmənidir. İstər qadın olsun, istər kişi, fərqi yoxdur. Yalançılıq da biqeyrətçilik kimi həmişə adamın başını aşağı eliyər. Bir də ki, atılıb-unudulan qoca polkovnikin böyük bir rayonun başçısı haqqında mənfi və müsbət rəydə olmasının nə əhəmiyyəti var? Siz, əvvəla, qonaqsınız, ikincisi isə bizim rayona ilk dəfədir gəlirsiniz. Və görürəm ki, bu rayonda heç kəsi tanımırsınız. Ona görə də Nazim İlham, Eybalı Salamov, Nadir Nəsrullayev haqqındakı

suallarınıza bu cür cavab verməkdə məqsədim odur ki, onların barəsində qəbul edəcəyiniz qərar düzgün olsun. Və bu qərarın əsas verəcəyi hökmlər rayonumuzda nifrətlə qarşılanmasın.

Süleyman Xəliloviçin qoca polkovnikə olan daxili inamı və rəğbəti daha da artdı və yarızarafat:

- Köhnə çekistin obyektivliyinə şübhəm yoxdur. Görünür, düzgün yol seçmək üçün münasib bələdçi tapa bilmişəm.

Onların hər ikisi güldü. Qoca polkovnik əyilmiş qəddi-qamətini, gəncliyində olduğu kimi, qürurla düzəldib ayağa qalxdı və Süleyman Xəliloviçə xoş nəzər salıb, getmək üçün ondan icazə istədi. Süleyman Xəliloviç ona razılığını bildirdi və əlavə etdi:

- Əlbəttə, bunu demək artıqdır. Siz görüb-götürmüş adamsınız. Odur ki, bu söhbət heç yerə çıxmamalıdır. Yoldaşların qulağına çatsa, yaxşı düşməz, inciyə bilərlər. Deyərlər ki, bizi orda-burda müzakirəyə qoyurlar. Mən heç, gəldi-gedər adamam, Siz isə həmişə onlarla üz-üzə gəlirsiniz.

O barədə xatircəm ola bilərsiniz. Mənim sinəmin altında çox sirlər yatır. - İstefada olan qoca polkovnik Hüseyn Qurbanov onun əlini bərk-bərk sıxıb xudahafizləşdi.

* * *

Süleyman Xəliloviç vəziyyəti dərindən öyrənməmiş heç kəsin barəsində qəti rəyə gəlmək istəmirdi. Fikirləşirdi ki, qəlbi qaranlıq günah doğurur. Vicdan qarşısında günahkar olmamaq üçün hər şeyi doğru-dürüst aydınlaşdırmaq lazımdır. Şəksiz ki, qoca polkovnikin dediklərində bəzi həqiqətlər vardır. Lakin təkcə onun sözünü əsas götürmək olmazdı. Ona görə də Süleyman Xəliloviç "Məlikli" sovxozunda yoxlamanın nəticələrinə nəzarət etməklə yanaşı, müxtəlif adamlarla görüşüb onlara dolayı suallar verir, Nazim İlhamın, Nadir Nəsrullayevin,

Eybalı Salamovun rayondakı mövqelərini, kimin nəyə qadir olduğunu ustalıqla, həm də ehtiyatla öyrənirdi. Çox vaxt adamların həqiqi fikri onu dilində yox, sifətinin rəngində, üzünün cizgilərində, baxışlarında ifadə olunurdu. Süleyman Xəliloviç deyilənləri dinləməklə yanaşı, adamların sifətindəki ifadəni də məharətlə oxuyurdu. Onun xarakterindəki belə incəlik Süleyman Xəliloviçi işlədiyi idarədə də obyektiv adam kimi tanıtmışdı. Ona görə də həmişə bu cür mübahisəli məsələləri aydınlaşdırmaq üçün ona müraciət olunurdu.

"Məlikli" sovxozuna gedənlər yoxlamanı başa çatdırıb geri qayıtmışdılar. Süleyman Xəliloviç raykomun büro üzvləri ilə birlikdə komissiya üzvlərinin tərtib etdiyi yoxlama aktını diqqətlə nəzərdən keçirirdi. Büro üzvlərindən biri yanındakı yoldaşının qulağına yavaşcadan pıçıldadı:

- Qəzetdə yazılanlar aktda göstərilənlərin yanında muştuluqdu ki...

Bu söz nə qədər ehtiyatla deyilsə də, onu ətrafdakılar eşitdi. Komissiyanın aşkar etdiyi faktlar təhlil ediləndən sonra Süleyman Xəliloviç üzünü Nadir Xələfoviçə tutaraq:

- Məqalənin nə üçün yazıldığı, həm də əlavə etmək istərdim ki, haqlı olaraq yazıldığı məlumdur. Lakin tənqid olunanların nəyə görə tənbeh edilmədikləri mənə çox qaranlıqdır.

Nadir Nəsrullayev onun eyhamından hiss etdi ki, bu məsələdə ağacın yoğun ucu onu tuta bilər. Ona görə də stolun arxasında bürüşüb, qınına çəkildi. Nadir Xələfoviç həm də yaxşı başa düşürdü ki, Süleyman Xəliloviçin ona toxuduğu bu tikanlı söz sabah yuxarıdakıların ovcunda ola bilər. Odur ki, günahı özündən uzaqlaşdırmaq üçün boğazını arıtlayıb:

- Süleyman Xəliloviç haqlıdır, - dedi. - Bunun üstündə bizə nə desə, yeri var. Təqsirkarları cəzalandırıb qəzetin çıxışına çoxdan cavab verməliydik. Sovxozun direktoru Eybalı Salamovu

bu faktlara görə nəinki vəzifədən çıxartmaq, hətta güllələmək lazımdır!.. Başqa işlərini deyə bilmərəm, bu məsələdə Nazim İlhamın mövqeyi tamamilə düzdür. Məqaləyə də heç bir iradımız yoxdur.

Dünənəcən Eybalı Salamovu ciddi-cəhdlə müdafiə edib, duruluğa çıxartmaq istəyən raykom katibi, indi doxsan dərəcə dəyişmişdi və ona qarşı qəddar ittihamlar irəli sürürdü.

Süleyman Xəliloviç:

- Siz bir "güllələmək" ifadəsi işlətdiniz. Raykoma belə bir hüquqi səlahiyyət verilməyib, - dedi.

Nadir Nəsrullayev sarsıldı və:

- Güllələməyi elə-belə, sözgəlişi dedim, - dedi.

- İnsan taleyi həll olunan məqamda işlədilən hər bir kəlmə dərindən də dərin düşünülüb, sonra deyilməlidir. Burada "elə-belə" sözü ola bilməz. - Süleyman Xəliloviç ona iradını bildirdi.

Nadir Nəsrullayev peşman görkəm alıb susdu. Onların arasına lal sükut çökdü. Heç birindən səs çıxmadı. Süleyman Xəliloviç tərtib olunmuş aktın axırıncı vərəqəsini nəzərdən keçirib, qovluğu örtdü. Və başını yuxarı qaldırmadan:

- Burada yazılanlar barədə kimin nə sözü var, - soruşdu.

Heç kəs dillənmədi. Süleyman Xəliloviç saatına baxıb ayağa qalxdı. Dəvət olunanlar onun getmək istədiyini hiss edib kabinetdən çıxdılar. İçəridə bir Süleyman Xəliloviç qaldı, bir də ki, Nadir Nəsrullayev. Raykom katibinin ona axırıncı sözü bu oldu:

- Səhvimizi başa düşürük. Bu gün-sabah büro çağırıb, qəzetdə göstərilən nöqsanlar barədə qəti tədbir görərik. Eybalı Salamov sovxoz direktorluğundan azad olunub cinayət məsuliyyətinə cəlb edilməlidir. Əslinə qalsa, onun özü bir zibil deyil. Direktorluqdan çoxdan qovulmalıdır. Ancaq elə şeylər var ki, açıb-ağarda bilmirəm. Onun barəsində ordan-burdan o qədər

zəng vururlar ki, mən də... çarəm nədir?! Üz ki var, ətdəndir, keçə bilmirəm. Ancaq iş bu həddə çatandan sonra onu saxlamaq olmaz. Mən də ki, xətir üçün xəstə yata bilmərəm. Amma Sizdən bir xahişim var.

- Buyurun, - Süleyman Xəliloviç dilləndi.

- Onsuz da mən rayonda biabır oldum!

- Nə üçün? - Süleyman Xəliloviç təəccüblə soruşdu.

- Ona görə ki, sovxoz direktoru çıxan kimi, bütün rayona yayılacaq ki, redaktor katibi üstələdi.

- Qalib gəlmək üçün haqsız güclünün yox, haqlı zəifin tərəfində dayanmaq lazımdır.

- Tay onlardan keçib, - Nadir Nəsrullayev məğlub güləşçi kimi başını aşağı dikərək sözünə davam etdi. - Ancaq mən bu sözü bir də deyirəm. Nazim İlham redaktor qalsa, mənim üçün çətin olar. Bu məsələ də Sizin yuxarılara deməyinizdən asılıdır. Artıq dərəcədə xahiş edirəm... O barədə mən özüm də yuxarılarla danışa bilərəm. Məsələni qəti qoyandan sonra, kimin ağzı nədir?! Nazim İlhamı heç kəs müdafiə edə bilməz! Bu rayonu mənə tapşırmayıblar? Lakin işi o dərəcəyə çatdırmaq istəmirəm. Ona görə də yaxşısı budur ki, yoldaşlarla özünüz danışıb, onları başa salın. Bu gündən sonra onunla işləyə bilmərəm. Nə çoxdur kadr, birini qoyaram yerinə. Redaktorluq axı nə çətin işdir?! Yazı-pozudan indi başı çıxmayan yoxdur.

- Ona sonra baxarıq, - Süleyman Xəliloviç qısa, həm də qeyri-müəyyən cavab verdi.

Onlar birinci mərtəbəyə enəndə Süleyman Xəliloviç:

- Qəzetçilərlə görüşməsək yaxşı düşməz, sonra bizdən inciyərlər, - deyib sola döndü. O, əvvəlcə mətbəə işçiləri ilə vidalaşdı. Sonra redaktorun kabinetinə daxil oldu. Nazim İlhamla xudahafizləşəndə təbəssümlü baxışlarındakı incə eyhamla ondan razı getdiyini hiss etdirdi. Və - Siz haqlısınız -

demək mənasında uzun barmaqları ilə onun əlini sıxıb, silkələdi. Onların belə bir vida görüşü Nadir Nəsrullayevi açmadı. O, dilxor halda mısmırığını salladı.

* * *

Süleyman Xəliloviçin rayona gəlib-getməsini hərə bir yerə yozurdu. Bəziləri deyirdilər ki, onun cibini doldurub yola saldılar. Nadir Nəsrullayevin dediyi olacaq. Süleyman Xəliloviçlə bu az müddətdə təmasda olanlar isə orda-burda danışırdılar ki, o birilərinə baxma, bu, çox sərt adama oxşuyur. Onu hələ-hələ ipə-sapa gətirib yumşaltmaq olmaz. Yapışdığından əl çəkən deyil...

...Bir neçə gündən sonra rayon partiya komitəsinin büro iclası çağırıldı. Adamları ən çox iki məsələ maraqlandırırdı. Bir "Məlikli" sovxozunda aparılan yoxlamanın nəticələri, bir də ki, köhnə meşə işçisi olan Net Ələkbərin poçtalyon oğlu Qüdrətin, tütün qəbulu məntəqəsində işləyən Suren Sitaryanın oğlu Androniki döyməsinə münasibət.

...Büro iclası başlanandan bir saat sonra "Məlikli" sovxozunun direktoru Eybalı Salamov içəridən çox qanıqara çıxdı. Qırımından hiss olunurdu ki, atıblar bayıra. Onun gümrah sir-sifəti avazımışdı. Bu bircə saatın içində kişi elə bil on il geri düşmüşdü. Bayaqkı Eybalı Salamova oxşamırdı. Qəddi əyilmişdi, həmişəki kimi özünü şax tutub şəstlə yerimədiyi üçün uzunboğaz çəkməsi də cırıldamırdı. Sabiq sovxoz direktoru ətrafına baxmadan pilləkənlərdən deyinə-deyinə aşağı enirdi:

- Nanəcib köpəyoğlu! Məni yeyib, süng eliyib! Verdiklərim burnundan gəlsin! Birincidən tutmuş aşağılaracan hamısı ikiüzlü, oğraşdı! Putunan duz-çörək yediklərimin birinin kişiliyi çatmadı ki, xeyrimə ikicə kəlmə söz desin! Gör qazandığımı kimlərə vermişəm e?!

Eybalı Salamov gileylənə-gileylənə ümumi qapıdan çıxıb sonra geri döndü və ağ daşdan tikilmiş ikimərtəbəli binanın divarına nifrətlə tüpürdü.

Andronikin döyülməsi məsələsi Moskvaya qədər gedib çıxmışdı. Ona görə də Nadir Nəsrullayevin şəxsən özü bu barədə büroda əyləşənlərə məlumat verdi. O, ehtiyatla, həm də çox təəssüflə danışırdı:

- Bura büro iclasıdır, yoldaşlar, - dedi. - Sizinlə açıq danışmalıyam. Bu heç də adi məsələ deyil. Buna Andronik Sitaryanla Qüdrət Arzumanovun dalaşması kimi baxmaq olmaz. Moskva bu hadisəyə azərbaycanlılarla ermənilər arasındakı milli ədavətin təzahürü kimi qiymət verir. Burada əyləşənlərin əksəriyyəti Andronikin atası Suren Sitaryanı yaxşı tanıyır, elə deyilmi?!

- Elədir, hamımız onu yaxşı tanıyırıq, - əyləşənlər bir ağızdan cavab verdilər.

- Suren Sitaryan necə yoldaşdır? - Nadir Nəsrullayev soruşdu.

- Yaxşı! Yaxşı! Əla! Əla! - buçağacan ondan heç bir narazılıq eşitməmişik.

- Bax, belə bir xətirli-hörmətli, layiqli adamın oğlunu durduğu yerdə basıb döyüblər. - Nadir Nəsrullayev sözünə davam etdi. - Özü də kim, kim? Julikin biri! Atası vaxtı ilə meşələri dağıdıb! Oğlu da çiyninə bir poçtalyon çantası salıb rayonda qoçuluq eləyir. Bizim inzibati orqanlar da buna göz yumurlar. Qüdrət Arzumanovun səsi-sorağı Sibirdən gəlməlidir. Əfsuslar olsun ki, o hələ də ortalıqda gəzir! Moskva da haqlı olaraq bizi millətçilikdə təqsirləndirir!

Nadir Nəsrullayev səsini yavaşıtdı:

- Bu məsələnin Moskvaya çatdırılmasından Suren Sitaryanın xəbəri yoxdur. O, son dərəcə abırlı adamdır. Və heç vaxt belə iş görməz. Onun oğlu Andronikin Yerevanda yaşayan dayısı

Şimavon Petrosyan Ermənistanda tanınmış adamdır. Moskvada da onun böyük hörməti var. Özü də gərək ki, yazıçı olsun. O, bacısı oğlunun döyüldüyünü bilib, rəsmi surətdə Moskvaya yazıb. Yazıb ki, Azərbaycanda ermənilərə qarşı köhnə ədavətlər baş qaldırıb. Ermənilər hər yerdə sıxışdırılır, gözümçıxdıya salınır, onlara qarşı görünməmiş divanlar tutulur, genosid siyasəti yeridilir. Bizim Mərkəzi Komitənin şöbə müdiri Əbdüləziz Vəkilov yoldaş bu barədə mənə zəng vurmuşdu. Telefonda abrımı ətəyimə bükdü. Dedi ki, sizin rayonda ermənləri döyürlər, söyürlər, sıxışdırırlar, bəs raykom, onun birinci katibi kimi Siz özünüz hara baxırsınız?! Mən də ona cavab verdim ki, Andronik Sitaryanın döyülməsindən xəbərim olmayıb. Bu məsələ ilə dərindən maraqlanıb, necə lazımdırsa, o cürə də tədbirlərini tökərik. Ha çalışdım Əbdüləziz Vəkilovu inandırım ki, bizim rayonda ermənilərə dəyib-toxunan yoxdur, ancaq mənimlə razılaşmadı. Ona bildirdim ki, son bir neçə ayda bizim rayonun mərkəzinə Ermənistandan on erməni ailəsi köçüb. Hamısı da gələn kimi torpaq sahəsi ilə, mənzillə təmin olunub. Mənim bu məlumatım çox yerinə düşdü. Özümüzün-külərə iş tapılmır, ancaq onlara vəzifə də vermişik. Əbdüləziz Vəkilov telefonda dedi ki, malades! Esli tak, ya qarjus vami! Əbdüləziz Vəkilov onu da dedi ki, erməni yoldaşlara xüsusi qayğı göstərmək lazımdır.

Nadir Nəsrullayevin qaşları çatıldı. O, ətrafındakılara müraciətlə:

- Belə bir qərar qəbul edək. "Poçt işçiləri arasında siyasi, xüsusilə də beynəlmiləl tərbiyə işləri zəif olduğuna görə idarənin rəisi və müavinləri vəzifələrindən kənar edilsinlər. Rayon prokurorluğuna tapşırılsın ki, həmin hadisə ilə əlaqədar olaraq poçt işçisi Qüdrət Arzumanov barəsində cinayət işi qaldırsın..." Qərarın surəti mərkəzi Komitəyə göndərilsin.

Moskvaya arayış təqdim olunsun. Qərarın bir maddəsində yazılsın ki, rayon ərazisində yaşayan ermənilərin təcili olaraq məişət şəraiti öyrənilsin, onların tələb və ehtiyaclarının ödənilməsi üçün konkret olaraq əməli tədbirlər görülsün. Qərar rayon qəzetində dərc edilsin.

Nadir Nəsrullayev əlindəki kağızdan diqqətini ayıraraq:

- Bu barədə kimin təklifi və ya əlavəsi var?!

- Bəyənilsin! Bəyənilsin! - büro üzvləri bir ağızdan razılıqlarını bildirdilər.

Büroya dəvət olunanların arasında rayon qəzetinin redaktoru Nazim İlham da vardı. O, söz almadan ayağa qalxaraq:

- Büro üzvü olmadığım üçün qərarın lehinə və ya əleyhinə səs vermək səlahiyyətim yoxdur. Ancaq onun qəzetdə dərc olunmasına gəldikdə, mən ona qəti etiraz edirəm.

Redaktorun çıxışı gözlənilməz oldu. Əyləşənlərin təəccüblü baxışları Nazim İlhama tərəf yönəldi. Zala sükut çökdü. Nadir Nəsrullayev əvvəlcə əlini alnına söykədi. Sonra başını ağır-ağır qaldırıb, kinayəli baxışları ilə redaktoru təqib edərək:

- Bu nə sözdü? Necə yəni, büronun qərarını qəzetdə dərc etməyə etiraz edirsiniz?

- Ona görə ki, əvvəla, qəbul edilən qərarın obyektiv əsası yoxdur. Siz sadəcə olaraq küyə gedirsiniz. İkincisi də, biz bunu qəzetdə dərc etsək, həmin hadisənin şahidi olanları özümüzə güldürə bilərik. Redaktoru olduğum qəzeti heç bir vəchlə gülünc, rişxənd hədəfinə çevirə bilmərəm.

- Hi... hi... Nadir Nəsrullayev istehza ilə gülərək. - Yoldaş redaktor! Moskvaya, Bizim Mərkəzi Komitədə əyləşən hörmətli Əbdüləziz Vəkilova inanım, yoxsa Sizə?!

- Onlar Andronik Sitaryanla Qüdrət Arzumanovun dalaşmasını uzaqdan-uzağa, həm də Yerevan vasitəsilə təhrif olunmuş şəkildə eşidiblər. Mən isə hadisənin şahidiyəm. Həmin

hadisənin baş verdiyi vaxt rayon rabitə idarəsinin yanından keçirdim. Qüdrət Arzumanov çantasını təzə qəzet-jurnallarla doldurub poçtdan çıxdığı yerdən Andronik Sitaryan onun qarşısını həyasızcasına kəsdi. Qüdrətdən qəzet istədi. Qüdrət abunəçilərin qəzetini ona verməkdən imtina edib, yoluna düzəldi. Andronik ondan əl çəkmədi, qırsaqqız olub, yapışdı yaxasından. Gah kepkasının dimdiyindən tutub aşağı dartdı, gah arxadan ona badalaq atdı. Qüdrət qaçdıqca, Andronik onu qovdu. Axırda Qüdrət boğaza yığılıb Androniklə əlbəyaxa oldu. Atalar demişkən, günah ölləndə olar. Həmin hadisədə əsas günahkar erməni dığası idi. Siz isə əsas günahkarı kənarda qoyub, təqsirsizi cəzalandırırsınız. Burada əyləşən yoldaşlar da Sizə amin deyirlər. Balaca şəhərdir, uzaqdan-yaxından hamımız bir-birimizi tanıyırıq. Bu gün burada qəbul olunan ədalətsiz qərara səs verən yoldaşlardan soruşmaq istərdim ki, indiyə kimi Net Ələkbərin oğlu Qüdrətin bir nəfərlə öcəşib-dalaşdığını görən olub? Yox! Suren Sitaryanın oğlu Andronik isə kimə sataşmayıb? Kimlə dalaşmayıb?

- Heç kəsdən səs çıxmadı. Nadir Nəsrullayevin qaşları düyünləndi:

- Nazim müəllim. - Ola bilsin ki, Sizin dediklərinizdə müəyyən həqiqət vardır. Ancaq başa düşmək lazımdır ki, Moskvanı başqa cür inandırıblar. Əbdüləziz Vəkilovun telefonda mənə qarşı olan hərzə-hədyanını eşitsəydiniz, bu cür danışmazdınız. Yuxarıda bu məsələni böyüdüblər. Yerevan buna siyasi don geyindirmək istəyir. Bizim ayrı cür yolumuz yoxdur. Vəziyyətdən çıxmaq üçün gərək özümüzünkülərdən bir-iki adamı güdaza verək. Yoxsa bu işin üstündə rayonun da başı ağrıyar, respublikanın da!

Nazim İlham daha da əsəbləşdi:

- Moskva! Moskva! Böyük bir millətin siyasətkeşləri erməni

fitnəkarlarının əlində oyuncağa çevrilib. Stalin kimi tarixi şəxsiyyət də erməni lobbisinin hiyləsindən baş açmadı. Ermənistanda yaşayan yüz minlərlə azərbaycanlı bu rəzil siyasətin qurbanı oldu. Mikoyan Stalin kimi dahini, onun ən sadiq sirdaşı, silahdaşı olduğunu inandıra bilmişdi. Ancaq ölləndən sonra Xruşşovun qılığına girib, özünü duruluğa çıxartmaq üçün Stalinin qəbri üstünə zibil tökənlərdən biri, bəlkə də birincisi Mikoyan oldu. Stalinin ən böyük heykəli Yerevanın başı üzərində ucaldılmışdı. Ancaq Stalinin "SSRİ-də sosializmin iqtisadi problemləri" əsərinə də ilk dəfə Anastas Mikoyan hücum etdi. Bax, budur erməni siyasətkeşlərinin məkrli sifəti! İndi də Şimavonlar! Sitaryanlar! Petrosyanlar! Nə bilim, nələr... Bəsdirin!.. Bu rəhbər, vəzifəli alimyanlar daim iki qonşu xalqın arasında ədavət toxumu səpir, qızdırma xəstəliyi yayırlar. Bildiklərim, gördüklərim məni bunu deməyə vadar edir.

Nadir Nəsrullayev tez onun sözünü kəsdi:

- Görürəm bərk əsəbiləşmisiniz, - dedi. - Unutmayın ki, siyasi səhvlərə yol verirsiniz. Sizin çıxışınızdan qatı millətçilik iyi gəlir. Bunun üstündə başınız ağrıyar. Təkcə bu sözünüzün üstündə Sizi partiyadan da, vəzifədən də xaric etmək olar.

- Bu cür səhvimə görə alacağım cəza mənə əziyyət verməz. - Nazim İlham raykom katibinə sərt cavab verdi və əlavə etdi. - Əhatəsində olduğumuz yoldaşlar kimi, nəyinsə xatirinə susmaq, həqiqəti gizlətmək Sizin üçün xoşdursa, mən buna təəccüb edirəm!

- Yoldaş redaktor! Sizin dediyiniz mənə aydındır, ancaq birdəfəlik başa düşmək lazımdır ki, ondan-bundan ötrü yaxamı Moskvanın, Əbdüləziz Vəkilovun əlinə verə bilmərəm. Biz özümüzünkülər barədə bu cür sərt qərar qəbul etməsək, sabah, birisi gün yuxarıdan bir dəstə gəlib çökəcək boğazımıza. Ondan sonra gəl ölünü qoy, dirini ağla. Sizə bu lazımdır, yoxsa bir-iki

nəfəri cəzalandırıb, özümüzü vəziyyətdən çıxarmaq?! İndi məni başa düşdünüz?!

- Xeyr! Sizi qətiyyən başa düşə bilmirəm.

Nadir Nəsrullayev ayağa qalxdı:

- Onda söhbəti uzadıb, Sizinlə söz güləşdirməyin mənası yoxdur. Büro iclasını bağlı elan edirəm, - dedi. - Qərarımız da qətidir. O ki qaldı qəzetdə dərc edib-etməyəcəyinizə, onun məsuliyyəti Sizin üzərinizdə qalır. Buna cavab verməli olacaqsınız. Onu da nəzərinizə çatdırım ki, Sizin burdakı antibeynəlmiləlçi, antileninçi hərəkətinizi, yuxarılara çatdırmalıyam!

Bununla da müzakirələr bitdi. Nadir Nəsrullayev iclas zalından kabinetinə keçən kimi telefonun dəstəyini qaldırıb, Əbdüləziz Vəkilovla danışmaq üçün Bakını sifariş etdi. Beş dəqiqə keçməmiş telefon zəng çaldı. Nadir Xələfoviç telefondakı mötəbər şəxslə üzbəüz danışırmış kimi stolunun arxasında ayaq üstə qalxıb, itaətkar görkəm aldı və telefonun dəstəyini qulağına bərk-bərk sıxaraq:

- Yoldaş Vəkilov, - dedi. - Həmin məsələni ətraflı müzakirə etdik. Poçtun rəisi, onun müavini vəzifələrindən azad olundular. Həmin o Andronik Sitaryanı döyən adam haqqında cinayət işi qaldırıldı. Qərarın bir maddəsində göstərildi ki, rayonda yaşayan erməni ailələrinin sosial vəziyyəti öyrənilsin, onlara hərtərəfli məişət şəraiti yaradılsın və lazım gəlsə maddi yardım edilsin. Ancaq bir məsələni diqqətinizə çatdırmağı özümə borc bilirəm ki, rayon qəzetinin redaktoru Nazim İlham özünü büroda çox eybəcər apardı. Mən yoldaşlara deyəndə ki, redaktor bu vəzifəyə təsadüfən düşüb, onun yeri deyil, mənnən razılaşmaq istəmirlər. Redaktor çıxışında kobud siyasi səhvlər buraxdı. Bu məsələni elə-belə qoymaq olmaz...

Əbdüləziz Vəkilov telefonda:

- Malades! Malades! - dedi. - Həmin o döyülən Andronik

Sitaryanın özünü də, atasını da yanına çağırıb, hər ikisindən üzr istəyərsən. Mənə dediklərini də onlara çatdırarsan. Qoy bizdən narazı qalmasınlar. Deyərsən ki, bu məsələ ilə Mərkəzi Komitənin şöbə müdiri Əbdüləziz Vəkilovun özü şəxsən məşğuldu. Onu da çatdır ki, Vəkilov Sizin təəssübünüzü çəkənlərdəndir. Çünki qohumlarından çoxu ermənidir və damarlarından da erməni qanı axır. Sizə böyük hörməti vardır. Yaxşı olar ki, gördüyünüz tədbirlər barədə Yerevandakı qohumlarına razılıq məktubu yazsınlar. O ki qaldı redaktorun özünü qeyri-səmimi aparmasına, onun barəsində fikirləşərik. O barədə narahat olmayın. Redaktor nə zibildir! Atarıq bayıra, çıxıb gedər...

* * *

Bəsirə günü-gündən geri gedirdi. Son vaxtlar əriyib çöpə dönmüşdü. Bir dəri qalmışdı, bir sümük. Paltarı əynindən sallanırdı. Gözlərinin yağı da ərimişdi. İş yoldaşları onu nə qədər əzizləsələr də eyni açılmırdı. Nazim İlham da, Əzizağa Aydınbəyov da işçilərdən fərqli olaraq ona daha çox qayğı göstərirdilər. Evində qaldığı Nabat xala onun qabağında əldən-ayaqdan gedirdi. Yemək-içməyinə özününkülərdən çox fikir verirdi. Nazim İlhamın həyat yoldaşı Səriyyə də savab bilib onun payını kəsmirdi. Ancaq Bəsirənin yorğan-döşəyə düşmədən ayaq üstə bu cür sınıxması çox adamı şübhələndirmişdi. Axır vaxtlar Bəsirənin ayağı Nazim İlhamgilə düşəndə Səriyyə övladlarını ondan qoruyurdu. Çalışırdı ki, uşaqları ona səmt düşməsin. Ancaq bunu açıq-saçıq eləmirdi. Səriyyə qonşusundakı dərzi arvadla dilləşmişdi. Bəsirə hərdənbir bazar günləri və ya işdən çıxanda, Nazim İlhamgilə dəyəndə Səriyyə dərzi arvadı tez çağırıb:

- Əlimdə işim var, beş-on dəqiqəliyə bu körpələri apar sizdə

qalsın. Tay bunların səs-küyündən baş-beynim getdi, - deyib, bir bəhanə ilə uşaqları Bəsirədən uzaqlaşdırırdı.

Ancaq Bəsirənin eyninə gəlməzdi ki, Səriyyə uşaqları ondan qoruyur. Səriyyə Bəsirənin çay içdiyi stəkan-nəlbəkini də, xörək yediyi qab-qaşığı da ayrıca qoyurdu. Və o gedəndən sonra Bəsirənin əli nəyə dəymişdisə, hamısını qaynar su ilə dönə-dönə yuyurdu. Əslində bunları qonşudakı dərzi arvad Səriyyənin ağlına salmışdı. Dərzi arvad Səriyyəyə pıçıldamışdı ki, vallah, Sizin evə gəlib-gedən bu qızdan mənim gözüm su içmir. Sir-sifətindən başqa cür xəstəyə oxşuyur. Dilim qurusun, birdən vərəm-zad olar, uşaqlara da keçər.

Bu sözlər də Səriyyənin beyninə batmışdı. O gündən Bəsirədən gen qaçırdı. Ona tay əvvəlki kimi xoş üz göstərmirdi. Bəsirənin bu evə gediş-gəlişi seyrəlmişdi. Ancaq Səriyyənin yenə də ürəyi durmurdu. Uzaqdan-uzağa olsa da Bəsirənin payını kəsmirdi. İdarənin işçiləri və ya səmt adamları vasitəsilə əlinə düşəndən ona göndərirdi. Bəsirə Səriyyənin uşaqlarına necə isinişmişdisə, onları ikicə gün görməyəndə darıxırdı. Ancaq saralıb-solandan bəri telefonla zəng vurub onlara getmək istədiyini bildirəndə Səriyyə bir bəhanə tapıb, Bəsirəni başından eləyirdi... Bəsirənin Nazim İlhamgilə gediş-gəlişi kəsilmişdi. Aylarla Səriyyənin üzünü görmürdü. Bəsirə də nə hiss eləmişdisə, ondan sınmışdı. Səriyyənin ona sərinliyini başa düşüb, tay o tərəflərə üzükmürdü. Ancaq nə qədər fikirləşirdi, Səriyyənin birdən-birə ondan üz döndərməsinin səbəbini başa düşə bilmirdi. Ağlına cürbəcür fikirlər gəlirdi. Bəsirə bunu da ürəyinə salıb özünə ağır dərd eləmişdi.

Bəsirə idarədə də həmişəki kimi işləmirdi. Tez-tez təngnəfəs olurdu. O, bir dəfə üzünü iş yoldaşlarına tutub:

- Siz də mənim qardaşlarım, - dedi. - Vallah, elə bil havam çatmır. Yuxum da ərşə çəkilib, iştahım-zadım da yoxdur. Beşcə

dəqiqə işləyən kimi məni tər basır. Heyim-hərəkətim qalmayıb. Bilmirəm bu nə dərddi durduğum yerdə məni tapıb?!

Çap maşınının üstündə əlləşən Əzizağa Aydınbəyov bu sözü eşidəndə elə bil onu od götürdü. Qarşısındakı nabordan diqqətini ayırıb Bəsirəni o ki var ərkyana məzəmmət elədi:

- Bütün günahlar özündədir, - dedi. - Partiya işin pozulandan bəri göz qoyuram, qaşqabağın açılmır. Elə bil ağır dağlar uçub, qalmısan altında. Guya ki, partiyaya keçsəydin, dünya düzəlmişdi. Yəni partiyaçı olmayanlar çörək tapmırlar? Bileti olmayanlar ölürlər?! Mənə qalsa, yalvarsalar da o partiyaya yaxın durmaram! Qızım, mən də sənin atan, bax, budur, deyirəm, yaradıcısını qəbirdən çıxardıb üzünə tüpürən partiyanın axırı yoxdur! Yoxdur! Mən ölü, sən diri əvvəl-axır, bu dediyim söz düz çıxmasa maa söyərsən. O vaxtı sən maa deyəndə gördüm ki, partiyaya keçməyə həvəsin var, mən də götür-qoy elədim ki, cavan qızdır bir halda ki ürəyi istəyir, qoy biz də kömək eliyək keçsin. İndi ki baş tutmadı, canın sağ olsun. Bəlkə xeyir bundadır, tay onu böyük bir dərd eləmək nəyə lazımdır?! İki-üç dəfə görmüşəm ki, ağlayırsan, üzümü o tərəfə tutmuşam. Belə getsə, özünü məhv eliyərsən. Tüpürüm onun partiyasına da, partbiletinə də! Bir vaxt mən də sevinə-sevinə partiyaya keçmişdim. Onda başqaydı. İndi partiyanı dələduz yığıncağına çeviriblər.

Bəsirə Əzizağa Aydınbəyovun sözünün qabağında dillənmədi. Qəhərlənib üzünü yana çevirdi. Koftasının qoluna keçirdiyi balaca əl dəsmalını çıxardıb avazımış sifətində gilələnən göz yaşını sildi. Sonra yarımçıq versetkanı şriftlərlə doldurmağa başlayanda yenə öskürəyi tutdu. Nə qədər çalışdı ki, öskürməyinin qarşısını alsın, mümkün olmadı. O, yerindən qalxıb bir qurtum su içdi, sonra havaya çıxdı. Alnını həyətdəki şam ağacının pıtırlaşmış gövdəsinə söykəyib özünə gəlincə

hərəkətsiz qaldı. Yoldan keçənlər ona nəzər salıb təəssüf mənasında başlarını bulayır, bəziləri də ağzını yanındakının qulağına tutaraq:

- Yazıq qız, necə də əldən düşüb. Yəqin ağır xəstədir, - deyib onun halına acıyırdılar.

Bəsirə bir neçə dəqiqə özünü təmiz havaya verib yenə də qayıdıb yerində əyləşdi. Ancaq əlini versetkaya vurmadı. Nəfəsini çiyinlərindən alaraq, gözlərini ağır, buz kimi soyuq hərflərə dikmişdi. Mürəttib yoldaşları onu bu kökdə görüb dilxor olmuşdular. Mətbəəyə həzin sükut çökmüşdü. İşçilər Bəsirənin halına yanırdılar. Ona görə də həmişəki kimi danışıb-gülmürdülər. Onların cınqırı da çıxmırdı. Əzizağa Aydınbəyovu da Bəsirənin dərdi götürmüşdü. O, əsəbləşdiyindən səhvlərə yol verir, qarşısındakı naboru tez-tez dağıdıb, təzədən qururdu. Bəsirə Əzizağa Aydınbəyovun bayaqkı məzəmmətiynən gah daxilən razılaşıb, bir qədər təsəlli tapır, gah da öz bildiyinin üstündə dayanıb dərin fikrə gedirdi. Düşünürdü ki, bütün bu işlərin hamısı mincə manatın üstündədir. Atam cəbhədə həlak olmasaydı, onu elə odun satmaqla düzəldərdi. Partiyaçı olsaydım, mən də bir yana çıxardım. Həm damın altındakı ana-bacıma əl tutardım, həm də özümə bir gün-güzəran ağlardım. Əzizağa əminin deməyiynən deyil ha! İndi ağıl, fərasət axtaran kimdir?! Partiyaçıların zəmanəsidir. Birini vəzifəyə qoyanda onun heç ağlını, huşunu yoxlamırlar. Birinci partiyaçı olub-olmadığını soruşurlar. Kəndimizdə Məcid əmini partiyadan çıxarmağın üstündə, onun böyük qardaşı Fərəcin başına hava gəldi. O pir qalmadı ki, Fərəci aparmasınlar. Ancaq çarəsi tapılmadı. Axırda da urvatsız öldü. Əgər partiya lazımsız şeydirsə, o boyda ağsaqqal kişi bir partbiletdən ötrü niyə dəli oldu?! Bilirəm, Əzizağa Aydınbəyov məni istədiyindən o sözləri deyir. Ancaq onun gücü çatsaydı, məni çoxdan partiyaçı eləmişdi.

Onda biletim olardı, idarədə yığıncaq keçirəndə məni də içəri buraxardılar. Əzizağa əmi gördü ki, bacarmır, ona görə partiyanı pisləyib gözümdən salmaq istəyir. İnnən sonra ağ gün tapmağım getdi. Atam sağ olsaydı, nə dərd idi?!

Öhö... Öhö...Bəsirə o qədər öskürdü ki, boğulmaq dərəcəsinə gəldi. Əzizağa çap maşınından aralanıb ona bir stəkan dağ su uzatdı:

- A qızım, bir qurtum iç, özünü ələ al, - dedi.

Bəsirənin sifəti göyərmişdi. Onun yalvarıcı baxışları Əzizağanın mərhəmət ifadə edən üz-gözündə donub qalmışdı. Əzizağa öz növbəsində titrək bir səslə ona ürək-dirək verdi:

- Özünü ələ al, qızım, - dedi. - Qorxulu bir şey yoxdur, quru öskürəkdi, keçib gedər. Yəqin özünü soyuğa-zada vermisən. Bir-iki soyuqdəymə dərmanı atandan sonra sapbasağ olacaqsan... Sabahdan işə gəlmə. Sağalana qədər otur evdə. Eybi yoxdur, yoldaşların səni əvəz eliyər.

Bəsirənin nəfəsi tıncıxan kimi oldu. Ölüm ayağındaymış kimi gözləri alacalandı. Və Əzizağanın yaxasından bərk-bərk yapışaraq:

- Əziz... Əziz... Əzizağa əmi, - o, suda boğulurmuş kimi sözünün ardını gətirə bilmədi. Əzizağa geri qanrılıb işçilərə:

- Ə, tez təcili yardım maşını çağırın! - dedi.

Bəsirə huşunu itirdi. Onun başı Əzizağanın qolunun üstünə düşdü. Bəsirənin nəbzi aramla vururdu. Nəfəsi güclə gedib-gəlirdi. İşçilər Əzizağanın kövrəldiyini hiss edib, ayaq üstə donub qaldılar. Bəsirəynən eyni yaşda olan cavan mürəttib özünü saxlaya bilmədi. O, kirpiklərindən qopan yaşı yoldaşlarından gizlətmək üçün üzünü yana çevirdi.

Çöldə təcili yardım maşınının siqnalı eşidildi. Ağ xalatlı həkimlər tələsik içəri daxil oldular. Ona bir-iki iynə vuruldu. Bəsirə handan-hana özünə gəldi. Həkim işçiləri çölə çıxardıb,

onun üzərində bəzi müayinələr apardıqdan sonra mətbəə müdirini içəri çağırıb:

- Sizin bu işçiniz ağıllı-başlı xəstədir, - dedi. - Əvvəla, ümumi bədən zəifliyi var. Ürəyinin ritmi pozulub. Belə vəziyyətdə işləmək olmaz. Nə qədər ki analizdən keçməyib, onun xəstəliyi barədə dəqiq fikir deyə bilmərik. Hər halda, müalicə olunmalıdır.

Bəsirə yorğun-yorğun ayağa qalxdı. Taqətsizlikdən güclə addımlayırdı. Mətbəənin işçiləri qapının ağzınacan onun arxasınca çıxıb, evlərinə yola saldılar. Bəsirə yüz metr gedib dayanır və yenə yoluna davam edirdi. Quru öskürək onu əldən salmışdı.

Nabat xala onun xörəyini ayrıca bişirirdi. Əlinə düşən yeməyin yağlısını, yaxşısını Bəsirəyə verirdi ki, ətə-qana gəlsin. Ancaq son vaxtlar Bəsirənin iştahı da kəsilmişdi. Bu dəfə də Nabatın danlağı-dansağı altında güc-bəla ilə iki tikə çörək kəsib geri çəkildi. Nabat öz-özünə:

- Şükür kərəminə, ilahi, - dedi. - Bu nə dərddi, durduğu yerdə qızcığazı tapdı. Gül kimi uşaq gözümün qabağında günügündən əriyib-əldən gedir?! Elə bir günahı da məndədir. Deynən niyə başsoyuqluq eliyirsən? Səhərdən-axşamacan doxdurların içində olasan, bu qızı aparıb əməlli-başlı baxdırmayasan?! Dilim qurusun, sabah başına bir iş gəlsə, anasına nə cavab verim? - Nabat arvad daxilən özünü o ki var danladı. Sonra da belə qərara gəldi ki, iş yerindən icazə alıb Bəsirəni həkimə aparsın, biryolluq nigarançılıqdan çıxmaq üçün onu hərtərəfli yoxlatdırsın.

Nabat bu barədə fikrini Bəsirəyə deyəndə o, əvvəlcə nəmnüm elədi, həkimə getməyə razılıq vermədi, yazıq-yazıq:

- Nabat xala, - dedi. - Həkimdən boyun qaçırmıram. Ancaq indi o qədər axmaq xəstəlik var ki, birdən həkim dedi raksan, vərəmsən, bəs onda neyləyim?! Ona görə də heç dərdimi bilməsəm yaxşıdır. Təvəkkül Allaha! Qoy elə-belə keçinim! Ölərəm-

ölərəm, qalaram-qalaram. Atamdan artıq deyiləm ha?! O de, qəbrinin yeri də bilinmir. Bircə evdəkilərə yazığım gəlir. Anam təkdir. Bacılarım da əlsiz-ayaqsızdır. Başıma bir iş gəlsə, hamısı damın altında qırılasıdır.

Nabat ona sifətini bozartdı:

- Ağzını xeyirliyə aç! - dedi. - Ölmək-zad nədi! Bəyəm hər xəstələnən ölür?! Hələ sənin nə yaşın var?! Deyəsən sayaqlayırsan ha?! Nabat xalan səni bütün həkimlərdən keçirib, dava-dərman elətdirər, onda baxarsan! Heçcə-zadın yoxdur! Allah o raykomdakıların evini yıxsın! Partiya işin düyünə düşəndən bəri görürəm özünə gəlmirsən. Partiyanı neyləyirsən, az? Ölüm-itim olmasın?! Partiya əyninə paltar olacaq?! Yoxsa qarnına çörək?! Yəni partiyaçı olmayanlar acından ölür? Qızın ağlına bax e! İki vərəq kağızdan ötrü gör özünü nə günə salıb! Qadam düşsün onun raykomuna da, partiyasına da.

Bəsirənin halı özündə deyildi. Canının hayındaydı. Hərdən ürəyi qalxırdı. Elə bil onu qutuya salıb, ağzını qıfıllamışdılar. Havası çatmırdı, tez-tez təngnəfəs olurdu. Nabat xala ona:

- Qızım, - dedi. - Gecə keçir, görürəm yorulmusan, yat, yuxunu al. Gecəni sabah eliyək, inşallah, hər şey yaxşı olar. Həkimlər baxıb, neyləmək lazım olduğunu deyəcəklər. Min dərd varsa, min bir dərman var. Allah qoysa, sappasağ olub, həmişəki kimi işə də gedərsən, partiyaya da keçərsən. Çərxi-fələyin işini bilmək olmaz. Bir də gördün ki, atan da böyürdən çıxdı. El arasında belə bir söz var: - "Uzaqda yüz ölənin olsun, yaxında bir ölənin olmasın". O de, müharibədə neçə adamın qara kağızı gəldi. Yasını tutub, ehsanını da verdilər. Ancaq üstündən bir il keçməmiş özü sağ-salamat gəlib çıxdı. İndi, qızım, deməyim odur ki, Allahın işinə qarışmaq olmaz. Hər şeyi ürəyinə salıb dərd eləməyin xeyri yoxdur. Yıxıl yat, görək səhər başımıza nə gəlir.

Gecə yarıdan keçmişdi. İçərisi və çölü sarı palçıqla suvanmış darısqal qarğı komada Bəsirədən başqa hamı şirin yuxuda idi. Nabatın qulağına bir səs gəldi. O, yerindən qalxıb, evin küncündəki dəmir sandığın üstünə qoyduğu onluq lampanın piltəsini kibritlə yandırdı. Bəsirə yorğanı başına çəkib, için-için ağlayırdı. Nabat onun yastığına yaxınlaşıb:

- Ay qızım, - dedi. - Tay səninki olmadı! Vallah-billah, ağ eləmisən! Gündüzlər yumub-tökdüyün bəs deyil, gecələr də minkirlənirsən?! Axı, belə olmaz! Özün özünü məhv eliyirsən! De görüm, haran ağrıyır? Sabahacan döz, səhər açılan kimi səni həkimə aparım, görüm axı, bu nə dərddi, durduğun yerdə səni tapdı?

Bəsirə yorğanın altından başını çıxardıb:

- Nabat... Nabat... Nabat xala, sən Allah, məni bağışla! Sizin də yediyinizi, içdiyinizi zəhrimara döndərmişəm. Allah məni tezcə öldürsəydi, canım qurtarardı. Sizə də bir belə əzab-əziyyət verməzdim. Nabat xala, vallah, ölmək istəyirəm! Onsuz da yuxusunu görmüşəm, ölməliyəm! Ancaq istəyirəm tez ölüm!

Nabat damarları çıxmış əlini onun tər basmış alnına qoyaraq:

- Bıy, sən heç bilirsən nə danışırsan?! - dedi. - Ölmək nədir az?! Deyəsən ağlın çaşıb?! Vallah, ağlı başında olan adam heç vaxt belə danışmaz!

Bəsirə yorğanın altında yastığına tərəf sürünüb, birtəhər özünü düzəltdi. Gözünün yaşını silib, üzünə dağılmış sarışın saçlarını, incəlmiş barmaqlarının darağında başına tərəf aşırıb:

- Nabat xala, - dedi. - İndicə qarmaqarışıq yuxular görürdüm. Elə təzəcə huşa getmişdim, atam gəldi durdu gözümün qabağında. Əvvəlcə öz başına gələnləri danışdı, dedi ki, qızım, mən əsir-zad düşməmişəm, xain də çıxmamışam. Sovet hökumətinin əsgərlərinə qarşı da vuruşmamışam. Mənim qəbrim insan ayağı dəyməyən bir yerdədir. Nemeslər başımıza

od ələdi. Qəfil gülləyə gəldim. Əsgər yoldaşlarım məni dəfn etməyə macal tapmadılar. Sonra yaxınlıqdakı sarı yarğan uçub, meyidimin üstünü örtdü. Top mərmilərinin göyə sovurduğu meşəlikdən iri bir qaya diyirlənib qəbrimin üstündə bənd aldı. Qeybindən, bax, beləcə baş daşım da qoyuldu. Artıq sümüklərim də çürüyüb, yad torpaqlara qarışıb. Quruca ruh qalmışam. Gah dünyaya göz açdığım bu doğma diyarı dolaşıb, sizə həyan olmaq istəyirəm, gah da ömrümü faciə ilə başa vurduğum qərib eldəki tənha qəbrimə sığınıram. Qaraltdığım koma ilə məzarımın arasında qalmışam, qızım. Allah yolunda övladıma mərhəmət göstərən Nazim İlhamdan da, Əzizağa Aydınbəyovdan da, Nabat xaladan da, min manata görə partiya işini burub səni dərdə salanlardan da, binamusçuluq edib sənə əl atmaq istəyən Qeysərzadədən də haliyəm. Uğrunda vuruşub, canımı fəda etdiyim partiyanın övladıma bu cür sitəmlər etməsini biləndə, qəbrim üç yerdən çat verdi. Ruhum səni sağalmaz dərdə düçar eliyən belə bir partiyanı, onun cildinə bürünüb min bir fitnə-fəsad törədənləri heç vaxt bağışlamaz...

Küncdə yanan lampanın nefti azaldığı üçün, piltəsi közərir, xəstə qızın zarıdığı balaca komanı güclə işıqlandırırdı. Nabatı dərd götürmüşdü. Xəstənin başı üzərində hüznlü görkəm alıb, onun halına acıyırdı. Bəsirə nəfəsini dərib, yuxusunu danışmağa davam etdi:

- Hə, Nabat xala, atam qolumdan tutub məni özünə tərəf elə dartdı ki! Dedi, qızım, gedək mənim yanıma, tək darıxıram. Onsuz da son günlərini yaşayırsan. Həyatla sənin aranda çox az məsafə qalıb. Çünki sağalmaz dərdə düşmüsən. Nabat xala, atam məni aparmaq istəyəndə, sən haray-həşir salıb saçlarını yoldun. Məni onun əlindən almaq istədin. Dedin ki, bu qız mənim evimdə əmanətdir. Sabah onun anasına nə üzlə cavab verim? Ancaq məni atamın əlindən ala bilmədin, Nabat xala! O

məni çəkə-çəkə öz yanına apardı. Sən dizlərinə döyüb, saçlarını yolurdun. Mənim nakam balam, - deyib ağlayırdın. Nə illah elədin, mən geri qaytara bilmədin...

Nabat arvad Bəsirənin sözlərindən vahimələndi. O, bismillah deyib, ayağa qalxdı. Nəməkdandan bir çimdik duz götürüb, Bəsirənin başına hərlədi və sonra ocağa atdı. Tasatdıq çıxdı, dilənçiyə beş manat nəzir dedi. Sonra da Bəsirəni dilə tutaraq:

- Elə şeylərə fikir vermə, - dedi. - Qızım, atana Allah rəhmət eləsin. Yəqin yatanda fikrində tutmusan. O da gəlib girib yuxuna. Yuxuya o qədər də inanmaq olmaz. Bir də ki, yuxu həmişə tərsinə olur. Gülmək ağlamaqdı, ağlamaq gülmək. Atanın da qəbri nurla dolsun, əgər səni aparıbsa, deməli, hələ çox yaşayacaqsan. Həkimlər dava-dərman eliyib, sağlamlığını qaytaracaq. Ağlına nəhs şeylər gətirmə. Allah qoysa, bəxtin də açılar, qapımıza elçi gələr, toyunu eliyib, səni varlı-hallının birinə ərə verərəm, qurtarıb gedər... Tamam kimdir?! Sən mənim balamsan, özüm də ərə verəcəyəm.

Bəsirənin ürəyi bulanan kimi oldu. O, Nabat arvadın dediyi sözləri eşitmirmiş kimi taqətsiz başını yastığa qoydu. Və xeyli susdu. Artıq xoruzlar səs-səsə verib sübhün açıldığını car çəkirdi. Qarğı komanın balaca pəncərəsi şəfəqlənirdi. Sərçələr səhərin açılmasına sevinirmiş kimi damın qıraqlarından tək-tək çıxan qarğanın üstünə qonub vəcdlə cikkildəşirdilər. Nabat toyuq-cücəyə dən səpib, uşaqların çay-çörəyini verdikdən sonra Bəsirəni yanına alıb xəstəxanaya tərəf üz qoydu.

Nabat Bəsirənin qabağına düşüb onu rayonda ad çıxaran və özünə məhrəm bildiyi həkimin yanına apardı. Əvvəlcə Bəsirəni gözləmə otağında qoyub, özü tək içəri daxil oldu və vəziyyəti olduğu kimi açıb danışdı:

- Həkim, qadan alım, sizi deyib gəlmişəm. Bizim evdə bir qız

var, elə əmanət kimi saxlayıram. Anası onu mənə ümid eliyib. Özü də qəzet idarəsində işləyir. Səhərdən-axşamacan hərf yığır. Dədəsi də müharibəyə gedib qayıtmayıb. Vallah, nə bilim, babalı deyənlərin boynuna, ona da ad qoyublar ki, guya düşmən tərəfinə keçib. Amma inanmıram, sağ olsaydı, bir yandan səsi çıxmışdı. Onlardan keçib e, indi bu qızın dərdi məni alıb. Günü-gündən əriyib, iynələrə saplanmalı olub. Vallah, həkim-zad deyiləm, amma onun əzvayişini ki belə görürəm, deyəsən qorxulu xəstəliyə oxşuyur. Nə bilim, özün əməlli-başlı yoxla, dayna! Görək bu nə dərd-bəladı? Özü də arxayın olsun, mən də.

Həkim eynəyinin altından Nabata baxıb, onu diqqətlə dinlədikdən sonra:

- Xəstə hardadır?

- Qapıda gözləyir.

- Çağır gəlsin içəri.

Bəsirə həkimin kabinetinə daxil olanda, öskürəyi başladı. O, əlini ağzına tutub, birtəhər özünü saxladı. Həkim əvvəlcə xəstəyə müxtəlif suallar verdi. Və bəzi müayinələr apardı. Sonra stolunun arxasına keçib əlinə qələm aldı. Onu rentgenə yazdı. Və bir neçə də analizdən keçməyi məsləhət gördü.

...Rentgenin və analizlərin nəticəsi məlum olandan sonra həkim Nabatla Bəsirəni birlikdə qəbul etdi. O, Bəsirənin solğun çöhrəsinə baxıb, təəssüflə başını yırğaladı:

- Qızım, çöldə gözləyin, Sizi çağıraram, - dedi.

İçəridə bir həkim qaldı, bir də ki, Nabat. Həkim Nabata üzünü tutaraq:

- Çox gecikmisiniz, çox! Bu qızın vəziyyəti yaxşı deyil, - dedi. - Hələlik özünə bildirmək olmaz, ağır formada vərəmdir. Vaxtında gətirsəydiniz, yenə bir çarə qılmaq olardı. Artıq gecdir. Çünki xəstəlik öz işini bizdən qabaq görüb. Daxili orqanların funksiyası tamam pozulub...

Nabatın əli yerdən-göydən üzüldü. Onu qəhər boğdu. Gözlərindən pırçım-pırçım yaş süzüldü. Xırıltılı bir səslə soruşdu:

- Həkim, yəni deyirsiz tay heç bir işıq ucu qalmayıb?

Həkim:

- Yox! İş-işdən keçib. İnnən sonra müalicənin əhəmiyyəti yoxdur. Özünə deməyin, bir-iki sakitləşdirici dərman yazaram, alıb verərsiniz. İnnən belə neçə gün yaşayar, onu Allah bilir.

Nabat həkimin yanından kor-peşman çıxıb, Bəsirənin qoluna girdi:

- Gedək qızım, gedək! Həkim deyir ki, elə bir qorxulu xəstəlik yoxdur, özünü soyuğa verib. O da keçib gedər. Bir də onu dedi ki, sağalanacan kənddə olsa yaxşıdır. Kəndin havası, suyu xeyirdir. - Nabat onu qucaqlayıb bağrına basdı. - Qorxma, qızım, Allah qoysa sağalarsan. Canlıdan qada əskik deyil. Vallah, Nabat xalan o qədər xəstə yatıb ki... Birdən elə olurdu ki, aylarla yorğan-döşəyə düşürdüm. Onda hamı deyirdi Nabat tay dirilməz. Mən çox görmüşəm. Sən hələ cavansan. Belə şeyləri vecinə alma. Ürəyinə salsan, xəstəlik səni daha da üstələyər.

Nabat kəndə sifariş göndərdi ki, Bəsirənin anası Tamam durmasın, gəlsin. Ona deyiləsi söz var. Sonra rayon qəzetinin redaksiyasına getdi ki, redaktoru görüb, Bəsirənin düşdüyü vəziyyəti ona açıb danışsın. Ancaq Nazim İlham idarədə yox idi. Onun başını qatmışdılar. Neçə gündü Bakıdaydı. Raykomun birinci katibi Nadir Nəsrullayev Nazim İlhamın ermənilər barədə dediklərini olduğu kimi Mərkəzi Komitəyə çatdırmışdı. Əbdüləziz Vəkilov Nazim İlhamın büro iclasındakı çıxışını eşidib, od götürmüşdü. Mərkəzi Komitədəkilər bir-birinə dəymişdi. Nazim İlhamı milli ədavəti qızışdırmaqda günahlandırırdılar. Nadir Nəsrullayev də fürsətdən istifadə edib,

alovu daha da qızışdırırdı. Ancaq bu danışığın nə ilə qurtaracağı hələlik bilinmirdi. On günə yaxın idi redaksiya başsız qalmışdı.

Nabat arvad redaktorun kabinetini bağlı görüb, yan tərəfdəki qapını açdı, ancaq içəri girmədi. Başını irəli uzadıb:

- Ay oğul, dedi. - Nabələdəm, məni başa salın görüm, redaktor burda olmayanda onun sözünü kimə deyirlər?!

Səs-küyə Əzizağa Aydınbəyov içəridən çıxıb irəli yeridi:

- Nabat xala! Sən hara, bura hara?! Xeyirdirmi?! De görüm, Bəsirənin vəziyyəti necədir?

Nabatın gözü Əzizağa Aydınbəyova sataşan kimi əllərinin ikisini də başına aparıb:

- Gör e, sən Allah, illaf başımı itirmişəm. Heç ağlıma gəlmir ki, sən burdasan, - deyib, kədərli ah çəkdi və əlavə etdi. - Bəsirə necə olacaq? Pis! Çox pis! Elə o bədbəxt qızdan ötrü bura gəldim ki, Nazimi görüb bir-iki kəlmə ona söz deyim. Tərs kimi o da olmadı. Elə yaxşı ki, səni tapdım. Qadan ürəyimə, ay Əzizağa, dünəndən bəri Bəsirədən əlimi üzmüşəm. Həkimə aparmışdım, dedilər ki, onun dirilməsindən keçib. Sifariş eləmişəm, sabah da anası gəlməlidir. İndi bilmirəm ona nə cavab verəcəyəm. Bəsirənin dərdini bilsə... Yoox, Tamam bilsə, özün öldürər, bir dəqiqə də sağ qalmaz. Gözünü dikəcəyi bu qız idi, ona qərnəhlənirdi. O da ki, belə oldu. Yaxşı deyiblər ki, yetimin ağzı aşa çatanda, başı da daşa çatır.

Nabatla Əzizağa danışa-danışa mətbəəyə daxil oldular. Nabat Bəsirənin iş yoldaşlarını, onun oturduğu boş stulu, yarımçıq qalmış versetkanı görəndə doluxsundu. İşçilər də bu xəbəri eşidib yasa batdılar. Elə bil bütün çap maşını, şrift yığılan qəfəslər, mürəttiblərin əlindəki versetkalar, onları əhatə edən dörd divar bir andaca ağır sükuta qərq oldu.

Nabat üzünü Əzizağaya tutaraq kədərli ah çəkdi:

- Tay keçib, - dedi. - Yəqin Bəsirənin qisməti beləymiş. İndi

gəldim ki, vəziyyəti sizə çatdıram. Sabah da onu kəndlərinə yola salmalıyam. Həkimin deməsindən belə çıxır ki, Bəsirənin qayıtmasına ümid yoxdur. Onunku bu gün-sabahlıqdır. Həm də bilmək istəyirəm görüm Bəsirədən kimin nə alacağı, verəcəyi varsa, desin, mən də öz işimi bilim. Bir də ki, onun idarə kağız-kuğuzunu hazırlayın, bəlkə lazım oldu...

Heç kəsdən səs çıxmadı. Əzizağanın kədərli baxışları Bəsirənin yarımçıq qoyub getdiyi versetkada, bir də ki, stulunun söykənəcəyindən sallanan xalatda donub qaldı. İşçilərin hamısı yasa batdı.

Səhərisi Bəsirənin iş yoldaşları sar-sovqat düzəldib Nabatgilə getdilər. Bəsirəyə baş çəkib, ona təsəlli verdilər. Anası Tamama dil-ağız etdilər. Sonra da ana-balanı şəhərin qurtaracağına qədər müşayiət edib, kəndlərinə yola saldılar.

...Aradan iki həftə keçməmiş Bəsirənin ölüm xəbəri gəldi. Nizamsız tikilmiş evləri dağın ətəyinə səpələnən balaca kəndin arasınca yaxınlıqdakı qəbiristanlığa doğru bir dəstə adam irəliləyirdi. Qabaqdakı dörd nəfərin çiynindən sanki yaşıl rəngli atlas parça asılmışdı. Zənn etmək olardı ki, bu, həvəslə bəzənmiş toy xonçasıdır. Yox, dünyadan nakam gedən Bəsirənin ipək çəkilmiş cənazəsiydi... Onu dəfn edəndə qəbrinin üstünə axırıncı bir neçə bel torpağı atanlar Bəsirənin mətbəə yoldaşları oldu...

Dəfn mərasimindən bir neçə gün sonra redaksiya və mətbəə işçiləri öz aralarında belə bir qərara gəldilər ki, hər ay öz əmək haqlarından müəyyən qədər ayırıb, Bəsirənin aylıq maaşı qədər pul düzəltsinlər və onun ailəsinə göndərsinlər...

* * *

Nazim İlham neçə gün idi Mərkəzi Komitədəydi. Onun məsələsi çox böyümüşdü. Mərkəzi Komitənin bəzi işçiləri onu

milli məsələni qızışdırmaqda ittiham edirdi. Bu barədə ideoloji sahəyə baxan katibə də altdan-üstdən deyənlər olmuşdu. Məsələni qəti olaraq qoymuşdular ki, Nazim İlhamı ermənilər barədə tutduğu mövqeyə görə nəinki redaksiyadan, onu ümumiyyətlə mətbuatdan uzaqlaşdırmaq lazımdır. Bir tərəfdən də, Nadir Nəsrullayev Nazim İlhamın raykomla hesablaşmaması, qəzetdə kobud səhvlərə yol verməsi, siyasi cəhətdən yetkin olmaması, məişətdə özünü nalayiq aparması barədə Mərkəzi Komitəyə rəsmi məktub yazmışdı. Nadir Nəsrullayev həm də belə bir rəy yaratmışdı ki, Nazim İlham mətbəənin mürəttibi Bəsirəni məşuqə kimi saxlayırmış. Bəsirə redaktordan hamilə olub. Redaktor bu işi ört-basdır eləmək üçün qızı işdən çıxardıb və kəndlərinə göndərib. Anası türkəçarə yolla uşağı rədd etmək istəyəndə, Bəsirə qanaxmadan ölüb. Katib bütün bu faktları əsas götürüb yazmışdı ki, onun bu vəzifədə qalmasını qeyri-mümkün hesab edir. Mərkəzi Komitənin ermənipərəst işçiləri ilə Nadir Nəsrullayevin fikri qara sel kimi birləşib, redaktoru göz açmağa qoymurdu. Bu qara selin amansız dalğaları Nazim İlhamı ağzına alıb, sualtı daşlara çırpa-çırpa harasa aparırdı. Nazim İlham isə gah şahə qalxan bu selin girdabına yuvarlanıb boğulur, gah da onun burulğanlarına bac vermədən, var gücü ilə sahilə çıxmağa can atırdı. Bu dar ayaqda heç kəs irəli durub, ona əl uzatmaq istəmirdi. Özünə səmt bildiyi adamlar da indiki məqamda ondan gen qaçırdı. Nazim İlham Mərkəzi Komitənin beşinci mərtəbəsindəki dəhlizdən keçəndə təsadüfən Süleyman Xəliloviçlə rastlaşdı. O, Nazimi görən kimi ayaq saxlayıb:

- Hə, burdasan, - deyə soruşdu. - Xeyir ola?

Nazim:

- Özləri çağırıblar, - dedi. - Bir həftədən çoxdur, bura gəlib-gedirəm. Ancaq hələlik bir söz demirlər. Qəbul da eləmirlər ki,

birdəfəlik işimi bilim. Bu gün-sabaha salırlar. Bilmirəm bu nə məsələdi? Hərə də bir söz danışır. Artıq səbrim tükənib, təngə gəlmişəm. Özümə də, bu vəzifəyə də...

Nazim dilinin ucuna gətirdi ki, - bu binaya da nifrət edirəm - desin. Ancaq özünü güclə saxladı.

Süleyman Xəliloviç ona ərklə:

- Yaxşı, yaxşı! - dedi. - Əsəbiləşməyin. Üçüncü mərtəbəyə enin, kabinetim ordadır. İyirmi yeddinci qapının ağzında gözləyin. Yoldaşlarla bir balaca işim var, görüşüb gələrəm.

Nazim İlham üçüncü mərtəbəyə enib, üzərində "Süleyman Cavadov" sözü, bir də ki, iyirmi yeddi rəqəmi olan kabinetin qarşısında məlul-müşkül dayandı. O, burdan ötüb-keçən müxtəlif biçimli, müxtəlif yaşlı adamlara baxdıqca xəyallanırdı. Kimisi göynən gedir, kiminin ədası bu binaya sığmır, kimi də dünyasından bezibmiş kimi başını aşağı salıb bir kölgə kimi koridor boyu sürünürdü. Nazim İlham iyirmi yeddinci otağın qarşısınca sakitcə dayanıb, bu mənzərənin seyrinə daldıqca ağlına cürbəcür şeylər gəlirdi. O, öz-özünə: "İnsanlar bir dünyaya gələndə, bir də ki, dünyadan gedəndə bərabər olurlar. Fərq orasındadır ki, doğulduqda güldürür, ölləndə ağladırlar. Gətirdiyi sevinci əvvəl-axır göz yaşına çevirib, dünyadan köçürlər". Süleyman Xəliloviç liftdən çıxıb, xoş əhval-ruhiyyə ilə Nazim İlhama:

- Darıxmırsınız?! - soruşdu. Səbr edin, hər şey yaxşı olar, - deyə əlavə etdi.

Onlar dalqabaq içəri daxil oldular. Süleyman Xəliloviç Nazimə əyləşmək üçün yer göstərdi və sonra saatına baxaraq:

- İyirmi dəqiqədən sonra Sizi Sirac Səmədzadə qəbul edəcək, - dedi. - Bizim sahəyə baxan katibi deyirəm. Müdrik adamdır. Vurduğunuz teleqramı oxuyub. Bəzi məsələlərdən xəbəri var. Mən də öz obyektiv fikrimi demişəm. Nadir Nəsrullayevi Sizin yerinizə qoyulan təzə redaktorla birlikdə çağırtdırıb. Sabah üçünüzü də birlikdə qəbul edəcək. Müzakirədə şöbə müdiri Salman Məmmədov, mətbuata baxan müavin İmanqulu Nəsirov, mətbuat bölməsinin müdiri Qasım Əliyev də iştirak edəcəklər. Sirac Səmədzadə əvvəlcə Sizinlə görüşüb, söhbət etmək istəyir. Onun xasiyyəti belədir, düzlüyü xoşlayır. Hər iki tərəfin fikrini öyrənməmiş qərara gələn deyil. Akademik kimi bütün alimlər onnan hesablaşırlar. Burda da böyük nüfuz qazanıb. Lakin kadr işinə-zada qarışan deyil. Bu da öz sahəsi olduğuna görə. Həm də axı, onun adına teleqram vurmusunuz. Çalışın, düzünü danışın. Nə var, onu!

Süleyman Xəliloviç saatına baxıb ayağa qalxdı:

- Vaxta beş dəqiqə qalıb, - dedi, - Səmədzadə dəqiqliyi sevən adamdır. Onun çağırışına bir saniyə belə gecikmək olmaz. Siz çıxın yuxarı, mən evə tələsirəm. Sabah bəlkə idarəyə gələ bilmədim. Neft daşlarına getməliyəm. Sabahkı müzakirədən sonra mənnən görüşərsiniz. Kabinetdə olmasam, evdə gözləyirəm.

Süleyman Xəliloviç əlini döş cibinə salıb, üzərində ev ünvanı, telefon nömrələri olan şəxsi vərəqini ona uzatdı. - Bizim Mərqufə də Sizinlə tanış olmaq istəyir. Həyat yoldaşımı deyirəm. O, Sizi qiyabi tanıyır. Odur ki, elə birbaşa evə gəlsəniz, yaxşıdır. Utanmayın, gəlin! Biz də insanıq, burada nə var ki. Yəni bir stəkan çayımızı içsəniz, qiyamət qopar? Sizə deyiləsi başqa sözüm də var.

Onlar xudahafizləşdilər. Süleyman Xəliloviç liftlə aşağı endi. Nazim ideoloji iş üzrə katib Sirac Səmədzadənin əyləşdiyi yeddinci mərtəbəyə qalxdı. İş vaxtının qurtarmasına baxmayaraq, qəbul otağında bir neçə adam əyləşmişdi. Süleyman Xəliloviçin dediyi iyirmi dəqiqə tamam olan kimi qapıçı oğlan

qarşısındakı siyahıya göz gəzdirib, başını yuxarı qaldırdı və soruşdu:

- Nazim kimdir?! Çayqovuşan rayon qəzetinin redaktoru. Katib gözləyir, buyurun içəri.

Nazim Sirac Səmədzadənin geniş, lakin Nadir Nəsrullayevin kabinetindən çox-çox sadə olan iş otağına daxil oldu. Orta boylu, çəlimsiz bədənli katibin əynində adi kostyum, yaxalığı əzik, hava rəngində köynək, səliqəsiz bağlanmış qalstuk vardı. Ümumi görkəmindən tutmuş baxışlarının ifadəsinəcən respublikanın beş adamından biri olan rəhbər işçi yox, sadə müəllim təsiri bağışlayırdı. Seyrəlmiş saçlarını səliqə ilə geri daramışdı. Stolunun üstündə qalaq-qalaq siyasi-bədii kitablar, müxtəlif jurnallar vardı. Əyləşdiyi stolun arxasındakı divardan iri xəritə asılmışdı. O, Nazimi görən kimi ayağa qalxıb əl verdi və:

- Əyləşin, - dedi.

Nazim ondan bir neçə stul aralıda oturmaq istəyəndə, katib əlinin işarəsiylə cərgə ilə düzülmüş və özünə yaxın olan birinci stulu göstərdi. Və sarışın sifətinə xoş ifadə verərək:

- Sizinlə ilk dəfə görüşsəm də imzanızla tanışam, məqalələrinizi oxumuşam, - dedi. - Bu nə məsələdi? Deyəsən raykomla dil tapa bilmirsiniz?

- Olar bir kəlmə? - Nazim danışmaq üçün icazə istədi.

Sirac Səmədzadə gözündəki eynəyin sağanağını bir balaca yuxarı qaldıraraq:

- Buyurun, buyurun, - deyib, ona diqqətlə qulaq asdı.

Nazim:

- Yoldaş Səmədzadə, - dedi. - Dini misal olsa da, bizlərdə belə bir misal var: "İlan vuran ocağa qaçar". Bizim də ümidgahımız buradır. Ona görə də hər hansı haqsızlıqla rastlaşanda, adam istər-istəməz bura pənah gətirməli olur. Mənim məsələmə gəldikdə, yəqin ki, jurnalist təhsili olmayan adi kənd

müəlliminin mətbuat sahəsində işləməsi Sizə qəribə də görünə bilər. Və əslində bu vəzifəyə heç də öz arzumla gəlməmişəm. Partiya Komitəsi tərəfindən məcbur edilmişəm. Ona görə də həmin Partiya Komitəsinin bu gün mənim redaktorluqdan kənar olmağım barədəki qərarına etirazım yoxdur. Buna bəlkə də vaxtilə yol verilmiş bir səhvin düzəldilməsi kimi də baxardım. Ancaq Sizdən bir xahişim var.

- Buyurun, - deyə Səmədzadə gülümsündü.

- Sizin yanınıza vəzifəmi yox, inamımı qaytarmağa gəlmişəm. - Nazim bu sözü xüsusi vurğu ilə dedi. Və fikrinə davam etdi. - Məni inandırın ki, haqqımda qəbul olunan qərar ədalətlidir. Çünki ixtisasca tarix müəllimiyəm və təbii olaraq öz doğma peşəmə qayıtmalıyam. İstəyirəm ki, tariximizin gerçəkliyini, konstitusiyamızın müqəddəsliyini şagirdlərə tədris edərkən deyəcəyim söz ürəkdən gəlsin. Qəlbimin hökmüylə, dilimin ifadəsi arasında eyniyyət olsun. Bir də ki, rayona qayıdanda tanıyanlar istər-istəməz soruşacaqlar:

- Redaktorluqdan niyə çıxdın? Bax, onda verəcəyim cavab, haqqımda görülən tədbir inandırıcı olsun. Ədalətsizlik mütləq nifrət doğurur. Hökm və fərmanları nifrət doğuran iqtidar sahibləri heç vaxt xalqın qəzəbindən yaxa qurtara bilməz...

Nazim İlham başına gələnləri bütün təfsilatı ilə açıb danışdı. Redaktorla katibin görüşü qırx dəqiqədən çox çəkdi. Sirac Səmədzadə onun dediklərinə münasibətini hiss etdirmədən:

- Nazim, nahaq əsəbiləşirsiniz, - dedi. - Görürəm həyəcanlısınız. Ancaq nahaq yerə. Raykomun qərar çıxarmaq səlahiyyəti, vətəndaşların da öz haqqını tələb etmək hüququ vardır. Bizim də borcumuz ədalətli münsif olmaqdır.

Katib bunu deyib güldü və söhbəti uzatmamaq üçün:

- Yaxşı, gedin istirahət edin, - dedi. - Sabah aydınlaşdırarıq, - əlavə etdi. - Qalmağa yeriniz varmı? - soruşdu.

- Bəli.
- Harda qalırsınız? Mehmanxanada, yoxsa qohum evində?
- "İnturist" mehmanxanasında. - Nazim cavab verdi.

Nazim həmin axşam çox narahat yatdı. Əvvəla, ona görə ki, sabahkı müzakirənin necə qurtaracağını, Nadir Nəsrullayevlə üz-üzə gələcəyini qəlbində vuruşdururdu. İkincisi də, Süleyman Xəliloviçin - "Evdə gözləyirəm, Mərqufə də Sizinlə tanış olmaq istəyir" deməsini ha fikirləşirdi, bir yana çıxarda bilmirdi. Süleyman Xəliloviç hara, mən hara?! Birdən-ikiyə oturub-durmadığım və həm də vəzifəcə məndən çox-çox yuxarıda duran bir adam niyə məni evinə dəvət etsin?! Axı, aramızda elə bir şəxsi münasibət də yoxdur. Onun həyat yoldaşı Mərqufə mənnən niyə tanış olmaq istəyir?! Axı, ömründə bircə dəfə də olsun onun üzünü görməmişəm! Nazim nə qədər ora-bura yozurdu, bu müəmmalı suallara cavab tapa bilmirdi.

O, səhəri birtəhər açıb, deyilən vaxt Mərkəzi Komitədə oldu. Komendaturadan buraxılış vərəqəsi alıb, liftə yaxınlaşmaq istəyəndə Nadir Nəsrullayevlə qarşılaşdı. Yanında yerinə qoyulan təzə redaktor Həsən Muradov. Nazim özündən asılı olmayaraq onlarla sərin görüşdü. Nadir Nəsrullayev toy ziyafətinə dəvət olunubmuş kimi bu gün çox şux geyinmişdi. Bərbərxanada üz-başına vurulan pudranın, ətrin qoxusu on addımlıqdan hiss olunurdu. Redaktorun kürəyini yerə vurması ilə qürrələnirmiş kimi Həsən Muradova:

- Siz yuxarı mərtəbəyə qalxın. Biz də Nazimlə gəlirik, - deyib sabiq redaktorun qoluna girdi. Və onu kənara çəkdi. Nazimə qarşı məkrli niyyətini süni səmimiyyətlə pərdələməyə çalışaraq:

- Necəsən, qardaş?! - soruşdu. - Haçandan burdasan?! Rayondan çıxanda səni çox axtardım, tapa bilmədim! Evinizə neçə dəfə zəng vurmuşam. Axırda Səriyyə bacı ilə danışdım.

Dedi ki, Nazim Bakıdadır. Səriyyə bacının danışığından hiss etdim ki, bir az incikli kimidi. Ancaq nahaq yerə. Sizin çörəyinizi kəsmişəm, qonşu olmuşuq, neçə dəfə qanımın arasına girmisən. Sən olmasaydın, indi Kamal Qafarzadə məni çoxdan birtəhər eləmişdi. Bunları unutsam başımdakı papaq mənə haram olsun. Heç Allah da buna görə məni bağışlamaz. Ancaq Nazim, olar dəə, qardaş! Sən heç səhv eləməmisən?! Bunu da mənim səhvim hesab elə! O gündən bəri özümü bağışlaya bilmirəm! Allah mərdimazara lənət eləsin!! Aramıza girən oldu! Məni başdan çıxartdılar! Bu işdə aldanmışam. Gərək günahımdan keçəsən. Elə bil əlimdə qəfil güllə açılıb, Allah eləməmiş balana dəyib. Qan işindən ötrü qapına gəlmişəm. Mən ölüm, incimə! Sənə bundan da yaxşı iş verəcəyəm. Verməsəm, kişi deyiləm. Atılan gülləni təzədən geri qaytarmaq olmaz. Bir də deyirəm, Allah mərdimazara min lənət eləsin! Bu səhvimdən keçməlisən. Buradan qayıdaq, barmağını hansı vəzifənin üstünə qoysan...

Nazim zahirən ona ürəyiyumşaqlıqla qulaq asırdı. Əslində isə Nadir Nəsrullayevin dediklərində, onun mübarizə üsuluna xas olan hansı məkrli xidmətlərin gizləndiyini düşünürdü. Və həm də qəlbini çulğayan sualların cavabını fikirləşirdi. - "İlahi, belələrini niyə yaradırdın?!" Sonra öz-özünə etiraz edərək - "Yox, o bilən yaxşıdır. Allah-taala Nadir Nəsrullayevi yaratmaqda səhv etməyib. Zülmət gecə olmasa, parlaq gündüzün, çirkin olmasa, gözəlin, şər olmasa, xeyirin, murdar olmasa, halallığın, hiylə olmasa, səmimiyyətin qədir-qiyməti bilinməz. Lakin Allahverən yurdundan götürdüyü ədəb, Nazimə imkan vermirdi ki, işlətdiyi siyasi oyunlardan zövq alan bu riyakarın barəsində nə düşündüyünü çılpaqlığı ilə onun təzəcə təraş edilib pudralanmış dolu, qırmızı sifətinə çırpsın. Və bəlkə də tüpürsün. Nazim onu laqeyd-laqeyd dinlədikdən sonra:

- Yoldaş Nəsrullayev, - dedi. - Göstərmək istədiyiniz qayğı üçün sağ olun. Və avans olaraq bəri başdan Sizə təşəkkür də edirəm. Mənim Sizdən elə bir giley-güzarım və hər hansı umacağım yoxdur. İzaha ehtiyacı olan bir-iki sualım var. Onu da vermişəm.

- Kimə?! Nə sual?! - Nadir Nəsrullayev xoflandı.

Nazim:

- Elə-belə, - dedi. - Hər halda Nadir Xələfoviçdən gizli olmayacaq. Bəlkə də onu elə Sizin özünüzdən soruşdular.

Nadir Nəsrullayev onun qılığına girib yağlı dilini işə saldı:

- Gəl belə danışmayaq dəə, Nazim! Yenə də daşı ətəyindən tökmək istəmirsən. Ancaq nahaq yerə! Burda oturanlar elə bilirsən yönlü vücuddular?! Atı torbalı döyüşdürməkdə bir candırlar. İndi də hərləyib-fırlayıb bizi üz-üzə qoymaq istəyirlər. Tutaq ki, birini sən dedin, birin də mən. Köhnə palan içi tökmək heç birimizə xeyir verməz. Qərara da elə bir ciddi şey yazılmayıb. Hi... Hi... Qərara ayrı şeylər də əlavə edə bilərdim. Ancaq vicdanım yol vermədi. Öz aramızda qalsın, bilirsən sənin barəndə nələr danışırlar?! Hi... Hi... Onlara qulaq assam, gərək körpü qala suyun o tayında.

- Nə danışırlar?! - Nazim gözünü qıyıb qeyzlə soruşdu:

- Çox şey! Çox şey! Ancaq onlara əhəmiyyət verən kimdi? Hi... Hi...

Nazim:

- Lətifəsi Sizdən uzaq olsun, it dəmirçi dükanından heç nə apara bilməz. - Nazimin bu sərt, bir qədər də kobud cavabı onun ortasından güllə kimi keçdi.

- Hi... Hi... Deyirəm də, elə mən də onu deyirəm, - Nadir Nəsrullayev arsızlığa salıb, Nazimin atmacasını qulaqardına vurdu. Və özünü o yerə qoymadan gülümsünərək:

- Burda ikimizdən başqa heç kəs yoxdur, - dedi. - Gəl əyri

oturaq, düz danışaq. Axı, heç kəs bilməsə də mən yaxşı bilirəm ki, səni bu vəzifəyə zornan gətiriblər. Boynuna al ki, bu işə əvvəlcədən könlün olmayıb. Bir də ki, mənə de görüm, bu qəzetdə nə görmüsən e? Yönlü bir dolanışığı da yoxdur! Onnan-bunnan üz-göz olub düşmən qazanmaqdan başqa bir şey deyil!

Kabinet iblisinin uyduğu avantüranın, ona bəxş etdiyi mənfur nəşə, Nəsrullayevin süni təbəssümləri arxasında gizlənsə də, Nazimin iti nəzərlərindən yayınmırdı. Nazim bu bezikdirici sözlər yağışından xilas olmaq üçün ona heç bir cavab vermədən üzünü ikrahla əks tərəfə çevirdi. Və varid olduğu səcdəgahın mərmər pilləkənləri ilə yuxarı qalxmağa başladı. Nadir Nəsrullayev isə bayaqdan bəri işlətdiyi təntənəli sözlərdən bir mətləb hasil edə bilmədiyindən, pərt halda liftin düyməsini basdı...

Saat on birdə ideoloji sahəyə baxan katibin kabinetində müzakirə başlandı. Sirac Səmədzadə başda əyləşmişdi. Qarşısındakı uzunsov stolun solunda və sağında şöbə müdiri, onun müavinləri, bölmə müdiri oturmuşdu. Nadir Nəsrullayev, Nazim İlham və onun yerinə qoyulmuş Həsən Muradov kabinetin divarları boyu düzülmüş stullarda bir-birindən aralıda özlərinə yer seçmişdilər. Sirac Səmədzadə onları ötəri nəzərdən keçirib:

- Yəqin ki, bura nə üçün yığışmağımızın səbəbi hamınıza bəllidir! Əyləşənlərdən bəziləri, - bəli, bəli - dedi. Bəziləri də başını sinəsinə endirib-qaldırmaqla məsələdən hali olduğunu bildirdi. Sirac Səmədzadə Nazim İlhamın redaktorluqdan azad olunması barədə yarım vərəqdən ibarət qərarı nəzərdən keçirib, başını yuxarı qaldırdı. Və üzünü Nadir Nəsrullayev tərəfə tutaraq:

- Burada yazırsınız ki, Məmmədbağırov Nazim Allahverən oğlu köhnə rəhbərliklə yaxın olduğuna və qəzetdə kobud səhvlərə yol verdiyinə görə vəzifəsindən azad edilsin. İndi gəlin

bunu bir-bir aydınlaşdıraq. - Köhnə rəhbərlik deyəndə Siz kimi nəzərdə tutursunuz?! - Nadir Nəsrullayevdən soruşdu.

- Məndən əvvəlkilərin - Nəsrullayev cavab verdi.

- Sizdən əvvəlki orada birinci katib kim idi?

Nadir Nəsrullayev çətin fənndən imtahan verən zəif tələbə kimi udquna-udquna:

- Kam... Kam... Kamal Qafarzadə.

- Kamal Qafarzadə pis partiya işçisi olmayıb. Yaxşı da alimdir. Hazırda tarix və fəlsəfə institutunda direktor müavini işləyir. Əgər redaktor onunla yaxın olubsa, məgər bu qəbahətdir? Çox istərdik ki, nəinki partiya işçiləri ilə jurnalistlər, bütün insanlar bir-birilə mehriban olsunlar. Dünyada insanlar arasındakı ünsiyyət tellərindən qiymətli heç nə yoxdur. Bu, təyyarəçi kimi, kürreyi-ərzi gəzib-dolaşmış fransız yazıçısının sözüdür, Ekzüperinin.

Nadir Nəsrullayev Mərkəzi Komitə katibinin bu sözünü təsdiq etdi. Sirac Səmədzadə soruşdu:

- Bəlkə Nazimlə əvvəlki katibin yaxınlığı arxasında arzuolunmaz bəd niyyətlər dururmuş? Məsələn, ara düzəltmək, rüşvət almaq, başqa-başqa yollara getmək...

- Yox! Yox! - Belə şeylər olmayıb. O barədə vicdanımı dana bilmərəm. - Nadir Nəsrullayev yerindən dilləndi.

- Bəs onda bu yaxınlığın rayona vurduğu zərər nədən ibarətdir ki, Siz onun nəticələrini aradan qaldırmağı özünüzə məqsəd seçirsiniz?! - Səmədzadə soruşdu.

Heç kəsdən səs çıxmadı. Kabinetə sükut çökdü. Nazim ayağa qalxdı:

- Yoldaş Səmədzadə, - dedi. - Nəsrullayevin əlində Kamal Qafarzadə ilə mənim yaxınlığımı təsdiq edən konkret fakt var. Görünür, Nəsrullayev yoldaş təvazökarlıq etdiyi üçün açıq danışmaq istəmir.

Səmədzadə birinci katibin üzünə sualedici nəzər saldı. Nəsrullayev çiyinlərini çəkərək:

- Bu barədə bir söz deyə bilmərəm, - dilləndi.

- Onda icazə verin, özüm bu sirri açım, - Nazim İlham ayağa qalxdı.

Sirac Səmədzadə:

- Buyurun.

Nazim İlham:

- Vaxtilə biz mehriban ev qonşusu olmuşuq. Onda Nadir Nəsrullayev rayon kənd təsərrüfatı idarəsində baş zootexnik işləyirdi, mən isə məsul katib. Saxta aktlar yazdığına görə Nəsrullayevin partiya məsələsi qoyulmuşdu. Həm də haqqında cinayət işi hazırlanırdı. Həmin məqamda bu Nəsrullayevin həyat yoldaşı üstümə ağladı. Qadının göz yaşları məni Kamal Qafarzadəyə üz vurmaq məcburiyyəti qarşısında qoydu. Kamal Qafarzadə həssas, qəlbi yumşaq insandı. Sağ olsun, sözümü yerə salmadı... Əlbəttə, bu, sabiq birinci katiblə mənim əlaqəmi təsdiq edən təkzibolunmaz faktdır. Lakin Nadir Nəsrullayev gərək bunu deyəydi.

Nadir Nəsrullayev başını aşağı dikdi və onun qulağının dibi bir balaca qızardı. Mübahisə yaratmamaq üçün Sirac Səmədzadə məsələnin üstündən addadı. Və müzakirənin istiqamətini başqa səmtə yönəldərək Nadir Nəsrullayevdən soruşdu:

- Qərarın ikinci və axırıncı bəndində göstərirsiniz ki, qəzetdə kobud səhvlərə yol verdiyinə görə... Bu barədə nə kimi dəlil-sübutunuz var?

Nadir Nəsrullayev tez dilləndi:

- Var! Yoldaş Səmədzadə! Özü də kifayət qədər! Qəzetdə siyasi səhvlər baş alıb gedir. Tərifə layiq olanlar tənqid edilir. Quruluşumuzu gözdən salan məqalələr dərc olunur. Təəssüf ki,

əlimdə qəzet yoxdur. Dediklərimi bir-bir göstərərdim. Elə cümlələr var ki, oxusanız, dəhşətə gələrsiniz.

Sirac Səmədzadə mətbuat bölməsinin müdiri Qasım Əliyevin üzünə baxdı. Əliyev onun nə demək istədiyini başa düşüb ayağa qalxdı və Çayqovuşan rayon qəzetinin son birillik nömrəsini gətirib qoydu Nadir Nəsrullayevin qarşısına və:

- Bu da qəzet, - dedi. - Buyurun, həmin səhvləri göstərin.

Qəzet bağlamalarının ortalığa gəlməsi Nəsrullayev üçün gözlənilməz oldu. Çünki Nəsrullayevin ağlına gəlməzdi ki, qəzet çıxan kimi Moskvadan belə müxtəlif ünvanlara, o cümlədən də bir nüsxəsi isti-isti Mərkəzi Komitənin mətbuat bölməsinə göndərilir. Ona görə də çıxılmaz vəziyyətə düşdü və qarşısındakı qəzetlərə baxmadan:

- Yoldaş Səmədzadə, - dedi. - Səhv gedən nömrələr hansıdır? O dəqiq yadımda deyil. Ancaq Rayon Partiya Komitəsi, ümumiyyətlə qəzetin işindən narazıdır.

Səmədzadə Qasım Əliyevə tərəf yönəldi:

- Sektorun bu qəzet barədə fikri nədir?

Qasım Əliyev:

- Respublikada beş-on məzmunlu qəzet çıxırsa, onun biri Çayqovuşan rayon qəzetidir, - dedi. - Həm də rayon uzaqda olduğu üçün Mərkəzi Mətbuatın işçiləri hər dəqiqə ora gedə bilmirlər. Nazim İlham respublika qəzetlərini, radio verilişlərini operativ materiallarla təmin edir. Yazıları da ki, göz qabağındadır, maraqla oxunur.

Sirac Səmədzadə:

- Aydındır, - dedi və Nazim İlhamın yerinə təsdiqə gələn Həsən Muradovu ayağa qaldırdı və soruşdu:

- Siz mətbuat sahəsində işləmisiniz?!

- Xeyr.

- Bəs onda belə çətin, məsuliyyətli işin öhdəsindən gələ

bilərsinizmi?! Özünüz də rayon partiya komitəsinin ideoloji şöbəsinə cəmi iki aydır başçılıq edirsiniz. Ondan qabaq da gərək ki, yeddiillik məktəbdə idman müəllimi olmusunuz.

Həsən Muradov:

- Nəsrullayev yoldaş gücümə bələddir, - dedi. - Cəsarətlə deyirəm! Məndə elə bir bacarıq vardır ki, nəinki rayon qəzetinə, illaf respublika qəzetinə redaktorluq edə bilərəm.

Nadir Nəsrullayev:

- Doğru deyir, dostoynı yoldaşdır. - Təzə redaktorun sözünə qüvvət verdi.

Əyləşənlər altdan-altdan qımışdılar. Sirac Səmədzadə təəssüf mənasında başını ağır-ağır yırğaladı və qərar yazılmış kağızı əyləşənlərə nümayiş etdirərək:

- Yoldaş Nəsrullayev, - dedi. - Məcburuq ki, Sizin bu qərarınızı ləğv edək. Çünki əsassız qərardır. Bir də ki, haqsızlığa qarşı mübarizə aparmalı olan bir təşkilat özü ədalətsizlik edirsə, onun xalq arasında nə nüfuzu olar?! Nazim İlham qayıdıb yerində işləməlidir. Sizə də məsləhət görürük ki, ona kömək edəsiniz. Əks təqdirdə, Mərkəzi Komitə Nazim İlhamı itirməyəcək. Çünki indi ümid verən gənc jurnalist kadrlarımız azdır. O ki qaldı redaktorun millətçilikdə ittiham olunmasına, o barədə məlumatım var. Bizim şöbə müdiri Əbdüləziz Vəkilov yoldaş da redaktor haqqında mənə narazılığını bildirib. Yazdığınız məktubla da tanışam. Müxtəlif millətdən olan iki nəfərin dalaşmasına milli don geyindirmək ən azı siyasi səbatsızlıqdı. Bu, sırf inzibati orqanların səlahiyyətinə aid olan şəxsi məsələdir. Qoy kim təqsirkardı, o da cəzasını alsın. Partiya işçilərinin buna müdaxilə etməsi gülüncdür. Aydındır?!

- Tamamilə doğrudur, - əyləşənlər Sirac Səmədzadənin dediklərini təsdiq etdilər.

Nadir Nəsrullayev:

- Yoldaş Səmədzadə, təklikdə Sizə bir-iki kəlmə sözüm var, - dedi.

- Nə haqda?

- Qərarımızla bağlıdır.

- Bu məsələnin müzakirəsi qurtardı. - Səmədzadə qəti cavab verdi...

* * *

Nazim İlham axşamçağı dəniz qırağındakı beşmərtəbəli binanın dördüncü mərtəbəsinə qalxıb, üzərində Süleyman Cavadov yazılmış otağın qapısını döydü. İçəridən sadə geyimli, gözəl bir qadın çıxıb:

- Buyurun, - dedi.

Nazim onu görəndə çaşdı. - Rəziyyəyə necə də oxşayır, ilahi, - düşündü. Elə bil ikisi bir almadır. Nazim məəttəl qaldı. Bəlkə elə Rəziyyədir. O vaxtdan bəri dəyişilib?! - Qəlbində müəmmalı suallar baş qaldırdı. Süleyman Xəliloviç irəli yeriyib, Nazimə əl uzatdı və sonra xanımını göstərərək:

- Mərqufə xanımla tanış olun, - dedi. - Həyat yoldaşımdır. Sizi qiyabi tanıyır.

Onlar yemək otağına keçdilər. Mərqufə stola çay gətirdi. Süleyman Xəliloviç bir siqaret yandırdıqdan sonra ilk sualı bu oldu:

- Hə, de görüm, bugünkü müzakirə necə keçdi?

- Haqqımdakı qərar ləğv olundu. Məni də yerimə qaytardılar. - Nazim cavab verdi.

- Ayrı cür də ola bilməzdi. - Süleyman Xəliloviç siqaretini külqabına qoyub, soyumaqda olan çaydan bir-iki qurtum içdi. Və qaşlarını çatıb eyni rəsmiyyətlə:

- Rəziyyəni tanıyırsınız? - soruşdu. Vaxtilə siz oxuyan institutda kitabxanaçı işləyən qızı.

Rəziyyə sözünü eşidəndə elə bil pəncərədən açıqca görünən dənizin üstündəki buludlar sıxlaşdı. Göyün üzü damarlandı. Və ildırımın alovu onun kürəyini gizildətdi. Nazim əyləşdiyi stulda özünü güclə saxladı. Və keçirdiyi halı qarşısındakı mötəbər şəxsə hiss etdirməmək üçün özünü birtəhər ələ alıb:

- Bəli, - dedi. - Tanıyıram. Necə bəyəm?!

Süleyman Xəliloviç:

- Bizim bu Mərqufənin kiçik bacısıdır, - dedi. - Sizin barənizdə çox danışıb. Qəzetlərin hansındasa kiçik həcmli məqaləniz çıxmışdı. Sevinə-sevinə imzanızı göstərdi. Rəziyyənin deməsinə görə, yaxşı da rəssamlıq qabiliyyətiniz var. Elədirmi?

- Bəli, hərdənbir şəkil çəkirəm. Ancaq son vaxtlar məşğul olmuram, - Nazim onun dediyini təsdiq etdi. Və ehtiyatla soruşdu:

- Bağışlayın, Rəziyyə indi hardadır?

Süleyman Xəliloviç siqareti damağına qoyub qıçını qıçının üstünə aşıraraq:

- Əh! Heç yarda! Atasının evində - dedi. - Tərsin də biridir, başa salmaq olmur.

Qapının zəngi söhbəti yarımçıq qoydu. Süleyman Xəliloviçi qonşudan çağırdılar. Nazimlə açıq danışmaq üçün Mərqufənin əlinə fürsət düşdü. O, qonağa riqqətlə nəzər salaraq:

- Nə sirdisə, Rəziyyənin dilindən düşmürsünüz - dedi və kədərli ah çəkib əlavə etdi: - elə Sizi çoxdan görmək istəyirdim. Söhbət düşəndə Süleymana demişdim ki, Nazim qardaşı evə dəvət elə. Rəziyyənin institut yoldaşı olub. Ona yaxşılıqları keçib. Rəziyyənin nə gizli sözü olsa mənə danışır. Siz Allah bağışlayın, nə sirdisə, ona elə gəlir ki, bu dünyada varsa da Sizsiniz, yoxsa da.

Nazim kövrəldi və:

- İndi hardadır? - soruşdu.

- Harda olacaq? Atasının evində. Siz də mənim qardaşım. Görsəz, tanımazsız. Saç ağarıb, üz qırışıb... Elə bil yüz ilin qarısıdır. Özü özünə elədi, onu görmüşdünüz də. Aya deyirdi sən çıxma, mən çıxım, günə deyirdi, sən çıxma, mən çıxım. Yanaqlarına baxanda deyirdin ağ gül ilə, qızılgül bir-birinə qarışıb. Neçə yerdən elçi gəldi, dedi öldürün məni, getmərəm. Ağsaqqal, ağbirçək, özcə ata-anası, elə biz özümüz də nə illah elədik, yola gəlmədi. Dedim bacı ata-anamızı demirsən, onlar mənim boynuma. Qardaşlarım baxmır, qoy baxmasınlar. Mən ölməmişəm ki! Gəl bu daşı ətəyindən tök, biriynən baş-başa ver. İndi quşlar da tək gəzib-dolanmır. Özüm dedim, özüm eşitdim.

Mərqufənin gözləri doldu. Nazim də qəhərlənən kimi oldu. Qapı cırıldadı. Onlar söhbəti dəyişdi. Süleyman Xəliloviçin hənirtisi gəldi. O, asılqanın qabağında üst paltarını, ayaqqabılarını soyuna-soyuna:

- Nazim, məni bağışla, - dedi. - Qonşunun xeyir işi var. Beş dəqiqə oturub, xeyir-dua verdim. Sonra dedim, qonağım var, icazə alıb tez çıxdım.

Süleyman Cavadov bayaqkı yerində əyləşərək, xoş əhval-ruhiyyə ilə:

- Mərqufə xanım, - dedi. - Yaxşı, qonağın başını elə bir stəkan çayla aldatmaq istəyirsən? Yeməyə bir şeyin yoxdur?

Nazim:

- Süfrəniz açıq olsun, - dedi. - İştahım yoxdur. Elə bir saat qabaq bura gələndə...

Süleyman Xəliloviç:

- Bilirsiniz, Nazim, - dedi. - Əqidəli, prinsipial adam olmağınız barədə az-çox təsəvvürüm var. Rəziyyə qətiyyətli adamları, düzlüyü sevən bir qızdır. Ona böyük inamım var. Sizin barənizdə Mərqufəyə də, mənə də çox danışıb. Mərqufə biləndə ki, Bakıdasınız və məsələnizlə məşğulam, dedi ki,

mümkünsə, redaktorla məni tanış et. Sizin Çayqovuşanda bir nəfər istefada olan polkovnik var. Köhnə orqan işçisidir. Uzun müddət nəçənnik NKVD işləyib, Hüseyn Qurbanov. Xoşuma gəldi, maraqlı adamdır, şirin də söhbətləri var. Haqqınızda ondan bəzi şeyləri öyrəndim. Yəqin etdim ki, bu məsələdə tam haqlısınız. Ona görə də bugünkü müzakirənin Sizin xeyrinizə qurtarması üçün mənə yox, öz əməllərinizə minnətdar olmalısınız.

Süleyman Xəliloviç barmaqlarının arasında tüstülənən siqareti damağına qoyub, gözünün birini qıyaraq:

- Hələ cavansınız, - dedi. - Görürəm həyatı kitablarda oxuduğunuz, qanunlarda yazılan kimi başa düşürsünüz. Əslində elə də olmalıdır, seçdiyiniz yol da düzgündü. Lakin unutmayın ki, keçmək istədiyiniz həyat sellərində nəzərinizə çarpmayan sualtı daşlar da çoxdur. Çalışın ilişib büdrəməyəsiniz. Bir də ki, nəbadə çaşıb yoldaşların Sizi müdafiə etməsindən yanlış nəticə çıxarasınız. Nəsrullayevlə də daşa, tərəziyə girmək lazım deyil...

Söhbət yekunlaşanda Nazim ayağa qalxıb xudahafizləşmək istədi. Mərqufə irəli yeriyərək:

- İki gündən sonra Rəziyyənin ad günüdür, - dedi. - Öz evlərində qeyd edəcək. Vaxt tapıb gələ bilsəydiniz, pis olmazdı.

...Mərqufənin belə bir dəvətindən sonra Nazim rahatlıq tapa bilmirdi. Fikirləşirdi ki, Rəziyyənin üzünə necə çıxım? Şəksiz ki, görüşəndə mənə ilk sualı bu olacaq: - evlənmisənmi? Alacağı cavab Rəziyyənin qəm yükünü daha da ağırlaşdırmazmı? Onda mən ömrüm boyu bu günahımı yuya bilmərəm. Bir də ki, Rəziyyə qəlb evimdə nəcib insan, gözəl qadın kimi yaşayır. Onu Mərqufənin dediyi kimi görsəm, gözəlliyindən təsəlli tapdığım mələk timsallı qızın mağmun vəziyyəti, məni əzablara düçar etməzmi?

Nazim çox götür-qoydan sonra düşüncələrini kətan parça üzərinə köçürmək qənaətinə gəldi. Əlvan rənglər onun fırçasının sehrində dil açdı. Çəkdiyi tabloda ata-anasından üz döndərən pəhləvan cüssəli oğlanların öz zövcələrinin itaətkar quluna çevrildiyi təsvir olunmuşdu. Və ahu baxışlı bir qız həmin valideynlərin önündə şam kimi əriyib sönük işıq saçırdı. Üfüqün tutqun səmaya qovuşduğu nöqtədə dayanıb bu mənzərəni seyr edən gənc oğlan isə qızın uğursuz taleyinə acıyırdı.

Nazim vaxtilə universitetə oxumağa gələrkən mənzilində qaldığı uzaq qohumu Fəttahı tapıb, ondan belə bir xahiş etdi:

- Rəziyyənin ad günü yalnız bir rəngdən ibarət gül buketi düzəltdirərsən. Buketlə birliklə bu tablonu Rəziyyəyə təqdim edib, onun - bunu kim göndərib? - sualını cavabsız qoyarsan. Yəqin bu hədiyyənin kim tərəfindən göndərildiyini özü anlayacaq.

Nazim axırda bir də onu dedi:

- Çalış Rəziyyəyə deyə biləsən ki, tabloya Mərqufədən başqa heç kim baxmasın. Bir də ki, Rəziyyəni nə halda gördüyün barədə mənə bir kəlmə də danışma...

* * *

Üç aydan sonra Sirac Səmədzadə Nazim İlhamın imzası ilə belə bir məktub aldı:

- "Çətin olsa da etiraf etməyə məcburam ki, işləmək qeyrimümkündür. Nadir Nəsrullayev haqqımda qəbul olunan qərarın ləğv olunmasını heç vəchlə özünə sığışdırmaq istəmir. Vəzifəmə bərpa olunmağımı onu kütlə qarşısında alçaltmağım, nüfuzdan salmağım kimi başa düşür. Redaksiyamızın işçilərinə qarşı təqiblər daha da güclənmişdir. Birinci katib bütün ətrafındakıları üstümüzə qaldırıb. Redaksiyamız ögey uşaq vəziyyətindədir. Kollektivin yaradıcılıq imkanlarını məhdudlaşdırmaq

üçün hər cür vasitələrə əl atılır... Xahiş edirəm məni respublikanın uzaq rayonlarından birinə, ən aşağı mətbuat işinə göndərəsiniz. Bu, vəziyyətdən yeganə çıxış yolu olardı. Əks təqdirdə..."

Bir neçə gündən sonra Nazim İlham Mərkəzi Komitəyə dəvət olundu. Onu ideoloji şöbənin müdiri İsgəndər Məmmədov qəbul etdi. Yaşı əllidən ötən tarix elmləri doktoru İsgəndər Məmmədovun nurani sifəti, gümüşü saçları, qayğılı baxışları, sadə və səmimi rəftarı ilk görünüşdə adamın qəlbində ona qarşı rəğbət oyadırdı. O, Nazimi diqqətlə dinlədikdən sonra:

- Məsələ aydındır, - dedi. - Sizin vəziyyətinizi Səmədzadə yoldaş da bilir. Məktubunuzu alıb belə qərara gəlmişik ki, Sizi Göyəzən rayon qəzetinə ədəbi işçi göndərək. Buna necə baxırsınız?

- Bunun üçün Sizə yalnız minnətdar olardım.

Şöbə müdiri gülümsündü və:

- Sizi sınayırdım, - dedi. - Ədəbi işçi yox, Göyəzəndə redaktor yeri boşdur. Ora çoxdan adam axtarırıq, - dedi. Kakraz Sizin yerinizdir. Göyəzən Çayqovuşan rayonundan üç-dörd dəfə böyük olar. Ancaq raykomla da razılaşmaq lazımdır. Oranın birinci katibi ağıllı, təcrübəli yoldaşdır. Məncə, o da etiraz etməz. Sabaha qədər yaxşı-yaxşı fikirləşin. Mən də Göyəzənlə danışıb, ordakı yoldaşların fikrini öyrənərəm. Sonra ümumi bir qərara gələrik. Görürəm prinsipial oğlansınız. Mətbuat işində də artıq formalaşmısınız. Odur ki, Sizi itirmək istəmirik.

Nazim şöbə müdirinə razılığını bildirib, onunla xudahafizləşdi. Və Süleyman Xəliloviçlə görüşmək üçün aşağı mərtəbəyə endi. Süleyman Xəliloviçin kabineti bağlı idi. Qonşu otaqdan çıxan bir nəfər bildirdi ki, Cavadov Moskvada kursdadır. Bir ay burda olmayacaq. Nazim Süleyman Xəliloviçlə görüşə bilməməsindən təəssüfləndi.

Səhər İsgəndər Məmmədovun fikri dəyişdi. O, Nazimə:

- Göyəzənlə danışdım, - dedi. - Yoldaşlar etiraz etmir, imzanızdan Sizi tanıyırlar. Lakin dünən Sizdən sonra Səməd-zadə ilə görüşərkən ortalığa başqa bir fikir çıxdı. Respublika qəzetində vilayət üzrə xüsusi müxbir yeri boşdur. Ora bir qədər uzaq, həm də sərhəd zonası olduğuna görə bəzi çətinlikləri vardır. Məncə, xüsusi müxbirlik rayon qəzetinin redaktorlu-ğundan aşağı vəzifə deyil. Siz özünüz buna necə baxırsınız?

- Etirazım yoxdu, - Nazim razılaşdı.

* * *

...Respublika qəzetinin kollegiya iclası çağırılmışdı. Nazim İlham içəri dəvət olundu. Redaktor Xaspolad Həsənoğlu onu kollegiya üzvlərinə təqdim edərək:

- Çayqovuşan rayon qəzetinin redaktorudur, - dedi. - Bizim qəzetə də hərdən yazır. Yəqin ki, imzasından tanıyırsınız. Onu irəli çəkib kollektivimizə yeni bir gənc üzv qəbul etsək necə olar?! Bu barədə Sekanın da razılığı var. İsgəndər Məmmədov da deyib. Onu vilayət üzrə xüsusi müxbir götürmək istəyirik. Kollegiya üzvləri bu barədə nə deyə bilər?

Hər məsələyə barmaq uzadıb, bir qulp qoymağı adət eləyən bəzi kollegiya üzvləri yana çəkərək:

- Çayqovuşan kimi kiçik bir rayon qəzetinin redaktorunu birdən-birə bu boyda respublika qəzetinə xüsusi müxbir götürmək nə dərəcədə məqsədəuyğun olardı? Özü də böyük bir vilayətə.

- Ədəbi işçidən-zaddan olar, amma Mərkəzi mətbuatda bir gün də işləməyən təcrübəsiz bir adamı iki xarici dövlətlə həmsərhəd olan vilayətə xüsusi müxbir göndərmək? Bu, heç cürə ağlasığan məsələ deyil.

- Belə bir ağır məsuliyyətin altına girmək üçün ürək lazımdır! Buna görə gərək Nazim İlhamın özü də razı olmasın.

Saçlarının rənginə uyğun bəyaz kostyum geyinən alçaq-boylu, dolu bədənli və bir qədər də açıq-saçıq danışan Bağırlı ayağa qalxdı:

- Hər şeyə şəkk gətirib, nəhs danışmaq bəzi yoldaşların qanındadır, - dedi. - Məndən əvvəl danışanların fikri ilə qəti razı deyiləm. Nazim İlham bura skamya arxasından gəlməyib. Məsul katib işləyib, redaktor olub, Mərkəzi Mətbuatda ara-sıra məktubları dərc edilir. Burda əyləşənlərin çoxunun yaşı əllidən ötüb. Bizi əvəz edəcək bu cür gənc jurnalistlərin yoluna kötük diyirləmək lazım deyil.

- Bağırlının dedikləri əksəriyyət tərəfindən müdafiə olundu...

* * *

Respublika qəzetinin redaksiyası şərq üslubunda tikilmiş qədim binada yerləşirdi. Otaqlardakı divariçi sobaların üzərində keramikadan işlənən nəfis heykəllər, cürbəcür fiqurlar şəhər arxitekturasının qədimiliyindən xəbər verən muzey təsiri bağışlayırdı. Tavanının hündürlüyü üç metrdən artıq olan geniş kabinetlərdə Nazimə qayğı ilə yanaşanlar da olurdu, ona kəc baxanlar da. Bəzi şöbə müdirləri, ədəbi işçilər Nazimin təzə-liyindən və üzüyola xasiyyətindən istifadə edib, onu səhərdən-axşamacan insafsızcasına işlədirdilər. Nazim isə aldığı tapşı-rıqların asan və çətinliyinə baxmayaraq, ona həvalə edilən hər bir işi həvəslə yerinə yetirirdi.

On gündən sonra qəzetin redaktoru Xaspolad Həsənoğlu Nazimi yanına çağırtdırdı. Xaspolad Həsənoğlunun yaşı əlliyə yaxın olsa da, sifətindən çox cavan görünürdü. Yana daradığı qara, yumşaq saçları tez-tez gözünün üstünə töküldüyü üçün, bir

əli ilə hey darayıb, alnından yuxarı qaldırırdı. O, işçilərə müəyyən bir məsləhət verərkən stolun arxasında o tərəf-bu tərəfə gəzinə-gəzinə danışmağı adət etmişdi. Onun bu xasiyyəti bəzilərini açmırdı. Əhvalı yaxşı olanda gülümsünə-gülümsünə danışır, saf ağ dişləri, nüfuzedici baxışları onu dinləyənlərdə özünə qarşı rəğbət hissi yaradırdı. Nazim qapını açıb içər daxil olanda Xaspolad Həsənoğlu ehtiramla:

- Buyurun! Buyurun! Gəlin! Çəkinməyin! - dedi. - Siz artıq burada yad deyilsiniz! Deyin görüm işləriniz necədir? Şöbələrlə tanış olmusunuzmu? Yoldaşlar Sizi necə qarşılayır? Çətinliyiniz yoxdur ki?

- Sağ olun, elə bir narazılığım yoxdur, - Nazim ifallı cavab verdi.

Xaspolad Həsənoğlu:

- Rayon qəzetinə baxmayın, - dedi. - Burada iş şəraiti bambaşqadır. Bizdə köhnədən işləyən təcrübəli jurnalistlər var. Çalışın onlarla yaxından əlaqə saxlayın. Buranın ab-havasını öyrənmək lazımdır. Ayın başına da ki, nə qalıb?! İki həftədən sonra zonaya getməlisiniz. Zona xeyli vaxtdır ki, boşdur. Son vaxtlar oralardan ağıllı-başlı bir yazı verə bilmirik. Gərək ilk gündən özünüzü göstərəsiniz.

- Çalışaram, - Nazim sakitcə cavab verdi.

...Artıq vaxt çatmışdı. Nazim yır-yığış eləyib təyin olunduğu zonaya hazırlaşırdı. Ancaq onun cib xərcliyi qurtarmışdı. Kimdənsə borc istəməyə üzü gəlmirdi. O barədə xasiyyəti bambaşqaydı. Ac qalmağa razı olardı, borc almağa yox. Odur ki, beş yüz manat avans pul almaqdan ötrü redaktorun adına ərizə yazdı. Hər bir xüsusi müxbirin buna haqqı var idi. Ancaq müəyyən müddətdən sonra götürdüyü avans pulun nəyə sərf olunduğu barədə redaksiyanın mühasibatına dəqiq hesabat təqdim edilməlidi. Xüsusi müxbirlər şöbəsinin müdiri redaktorun

yanına gedəndə Nazimin ərizəsini də özü ilə apardı. Qayıdanda redaktora üstünü yazdırmaq üçün apardığı ərizəni Nazimin üstünə ataraq başını buladı:

- Bizim bu redaktor pul məsələsində çox ehtiyatlıdır, - dedi. - Qəpiyin də hesabını çəkir. Ancaq Sizin ərizənizə baxarkən bir qədər fikirləşdi və sonra dedi ki, Nazim gözümə yaxşı dəymir. Hiss olunur ki, maddi cəhətdən çətinlikləri var. Xaspolad Həsənoğlu onu da dedi ki, ərizəni beş yüz manat yazıb, bu azdır. Aparsın min manat eləsin, - ondan çıxmayan iş, - şöbə müdiri çiynini qaldırdı. - Ras deyir, ərizəni təzədən yazın. Sizdən nə gedir, özünüz də yol üstəsiz. Yad yerdə pulunuz olmasa, çətindir.

* * *

...Nazim İlham qatarla yarım sutka yol gedəndən sonra təzə iş yerinə çatdı. O, bu yerləri ilk dəfə görürdü. Adətə görə, əvvəlcə Vilayət Partiya Komitəsinin katibləri ilə görüşüb, özünü onlara təqdim etməli idi. Geniş alnı, iri oynaq gözləri, şux danışığı olan Vilayət Partiya Komitəsinin birinci katibi Şirxan İsmayılzadə arzularının zirvəsində dayanıbmış kimi, əyləşdiyi fırlanan yumşaq kreslosunda fəxrlə o tərəf-bu tərəfə dönür və qarşısındakı gənc jurnalisti dünyanın işlərindən bir o qədər də baş çıxartmayan avam yerinə qoyub, onunla çox iddialı danışırdı. Nazim isə sakitcə katibin dediklərini diqqətlə dinləyir və onun bəzi suallarına qısaca cavab verirdi. Ancaq Şirxan İsmayılzadənin hərəkətləri onun diqqətindən yayınmırdı.

İsmayılzadənin qalın qaşları birdən çatıldı, alnındakı qırışlar sıxlaşdı və başını aşağı dikərək əlindəki yoğun, qırmızı karandaşla qarşısındakı ağ vərəqə əyri-üyrü cızıqlar çəkə-çəkə:

- Daa, - dedi, - Sizin barənizdə yoldaşlar yuxarıdan zəng vurmuşdu. Redaktorunuz da danışdı. Mənim üçün nə fərqi? - o,

çiyinlərini çəkdi. - Kim gəlir-gəlsin, lij bı obyektiv adam olsun. Vilayətin həyatını doğru-düzgün işıqlandırsan. Yazanda bir bizimlə də hesablaşsın. Kontse-kontsov mən vilayətin sahibiyəm, bu boyda Muxtar respublikanı mənə tapşırıblar. Yol verə bilmərəm ki, hərə bir at oynatsın.

Şirxan İsmayılzadənin sifəti narazı ifadə aldı:

- Sizdən əvvəlki müxbir öz yerli kadromuzdu. Vətən müharibəsinin əlili idi. Mejdu proçim, qələmi-zadı da pis deyildi, ancaq özünü apara bilmirdi. Burda pişik asqıran kimi sabah qəzet səhifəsində idi. Nırxını soruşmurdu ki, bunu yazmaq olar, olmaz?! Axırda məsələni qəti qoyduq... Çıxardıb atdılar bayıra! Neçə aydı küçələrdə bekar-behdin veyillənirdi. İnsafımız qəbul eləmədi, bizim bu yerli radio verilişləri redaksiyasında kiçik bir vəzifə vermişik, orda başını girliyir. Deməyim odur ki, Siz də təzə yoldaşsınız, bunları bilməlisiniz. O cür adamların yolu ilə getmək olmaz.

Nazim İlham İsmayılzadənin dediklərinə münasibətini bildirmirdi. Sadəcə olaraq başının hərəkəti ilə onu diqqətlə dinlədiyini hiss etdirirdi.

Otağın qapısı açıldı. Katibin köməkçisi içəri daxil oldu və:

- Gecə məktəbinin direktoru gəlib, - dedi. - Fikrət İmanov. Bayaqdan gözləyir.

- Qoy gəlsin, - katib cavab verdi.

Nazim onların söhbətinə mane olmamaq üçün ayağa qalxıb xudahafizləşmək istədi. Katib əlinin işarəsi ilə:

- Əyləşin! Əyləşin! - dedi. - Elə bir əhəmiyyətli adam deyil, - əlavə etdi. - Sizin iştirakınızla da qəbul edə bilərəm.

Nazim İlham təzədən əyləşdi. Alçaq boylu, iti baxışlı və təxminən otuz-otuz beş yaşlarında, səliqə ilə geyinib-gecinmiş məktəb direktoru içəri daxil olub, qapının ağzında mil dayandı. Katib ona - yaxın gəl, - dedi, lakin oturmağı təklif etmədi. Fikrət

İmanov çəkinə-çəkinə bir neçə addım irəli yeriyib, uzunsov stolun ayaq tərəfində quruyub qaldı. Nazim axşam fəhlə-gənclər məktəbinin direktoru ilə vilayətin katibi arasındakı söz-söhbətin ona dəxli yoxmuş kimi, yan tərəfdə üst-üstə yığılmış jurnalların birini götürüb, sakit-sakit vərəqləməyə başladı. Şirxan İsmayılzadə üzünü direktora tutaraq:

- Eşidirəm, - dedi.

Həyəcandan dodaqları təpimiş Fikrət İmanov özünü cəmləşdirərək:

- Şirxan Qasımoviç, başıma gələn əhvalatları yaxşı bilirsiniz, - deyə yazıq-yazıq sözə başladı. - Atamı günahsız yerə dolaşdırdılar. İyirmi ildən çox sədr işləyib. Onun vaxtında camaat ağıllı-başlı dolanırdı, qədrini bilmədilər. Fermanın əskikliyini haqq-nahaq yoğurub-yapıb onun boynuna qoydular. Atamın üstündə məni də komsomolun katibliyindən çıxartdılar. İndi atam bəraət alıb, türmədən buraxılıb, partiya biletini də özünə qaytarıblar. Ancaq mən hələ də onun əzabını çəkirəm. İki ilə yaxındır, yarı işsiz kimiyəm. Gündüzlər boş-bekar gəzirəm, axşamlar dörd-beş saat məktəbdə oluram. Axı, gecə məktəbinin direktorluğu mənim işim deyil! Elə bir sahə verin ki, qüvvəmi tam sərf eləyə bilim. Onda həm xalqa xeyrim dəyər, həm Siz razı qalarsınız, həm də gördüyüm işdən zövq alaram. Özünüz məni yaxşı tanıyırsınız. Vaxtilə bir yerdə işləmişik. Necə işçi olduğumu bilirsiniz. Öz əlinizlə mənə neçə dəfə qramota vermişsiniz. Hələ aldığım orden-medalları demirəm. İki dəfə də Ali Sovetin deputatı seçilmişəm. Bütün bunların müqabilində məni itələyib, salıblar gecə məktəbinə. Əslində ora oturuşmuş yaşlı bir adamın yeridir, mənim yox...

Nazim başını aşağı dikib, jurnalın səhifələrini nəzərdən keçirsə də, qulağı gecə məktəbinin direktorunda idi. Şikayətçi

sözünü qurtarandan sonra İsmayılzadə stolunda təəssüflə yırğalanaraq:

- Sizi yaxşı başa düşürəm, bütün bu danışıqlarınızın hamısına şərikəm, - dedi. - Məndən qabaq Sizin barənizdə böyük haqsızlıqlar olub, bunu yaxşı bilirəm. Ancaq Siz danışdıqca, məni bir şey düşündürür. Bəzən vacib bir yerə kadr lazım olur, onu tapa bilmirik. Ətrafımdakı yoldaşlardan soruşanda da hərə öz adamını soxuşdurmaq istəyir. Bu vicdansızların biri Sizin adınızı çəkmir! Mənim də yüz cürə işim var. Səhər-səhər ciddi bir məsələ ilə əlaqədar Moskvadan zəng vurmuşdular. Seka dəqiqədə bir arayış istəyir. Vilayətdə də ki, işlərimiz başdan aşır! Bayaqdan bəri də bax, bu yoldaşla məşğulam. O, Nazim İlhama işarə etdi. - Respublika qəzetindən gəlib. Ona görə də belə bir vəziyyətdə gərək məndən inciməyəsiniz. Axı, Siz haradan mənim yadıma düşə bilərsiniz? Mənim katiblərim, şöbə müdirlərim də ki, hərəsi közü öz qabağına çəkir. Bu bezsovestnıların biri ağzını açıb, Sizin barənizdə mənə bircə kəlmə söz demir...

Şirxan İsmayılzadə qəddini əyib, qarşısındakı təqvimi vərəqlədi. Və Fikrət İmanovun barəsində nə isə yazdıqdan sonra:

- Sizin məsələniz aydındır, - dedi. - Adınızı bura qeyd edirəm. Bizim bu üçüncü katibə də tapşıraram. Yunis Hüseynov yoldaşa. Sizə münasib iş tapar. Xahiş edirəm, özünüz də onunla tez-tez əlaqə saxlayın. Sizin kimi bacarıqlı kadrları əl-əl axtarırıq. Amma nə edim ki, bu korafəhim yoldaşlar burunlarının qabağında Sizi görə bilmirlər!

İri xalçalar döşənmiş kabinetdə müti görkəm alan Fikrət İmanov, yuxarıdan aşağıya düşmüş və atılıb-unudulan bir adamı bu cür qayğıkeşliklə qarşılayan vilayət rəhbərinin səmimiyyəti qarşısında baş əyib, dönə-dönə minnətdarlığını bildirdi. Gözləri

ümid sevinci ilə işıqlanan məktəb direktorunun imkanı olsaydı, bu dəbdəbəli kabinetdə qollarını gərib, Şirxan İsmayılzadəni bağrına basardı.

Qarşısındakı jurnalı diqqətlə nəzərdən keçirən gənc jurnalistin də qəlbində vilayət partiya komitəsinin birinci katibinə qarşı inam və rəğbət oyandı. Fikrət İmanovu tər basmışdı. Məktəb direktoru sevindiyindən kabinetdən necə çıxdığını özü də bilmədi. O, gedəndən sonra Şirxan İsmayılzadə öz-özünə gülümsünüb daxili telefonun düyməsini basdı. Vilayət partiya komitəsinin kadr işinə baxan üçüncü katibi Yunis Hüseynovun itaətkar səsi eşidildi:

- Şirxan Qasımoviç, Sizi eşidirəm.

Şirxan İsmayılzadə:

- Yoldaş Hüseynov! Yaxşı, Siz bu adamların tərbiyəsi ilə niyə pis məşğul olursunuz? - üçüncü katibi ittiham etməyə başladı. - Gecə məktəbinin direktoru, o Fikrət İmanovdu, nədi, bayaqdan bəri gəlib baş-beynimi aparır! Orda yönlü qayda-qanun yarada bilmir! Səhərdən-axşamacan bir dəstə özü kimi boş-boğazı başına yığıb, nərd oynamaqla məşğul olur! İndi də utanmaz-utanmaz gəlib məndən böyük vəzifə umur. Düzdür, onu birtəhər başımdan elədim. Tapşırdım Siznən əlaqə saxlasın. Onu özünüz başa salarsız, aydındır?

- Aydındır! Şirxan Qasımoviç, aydındır! Mən məşğul olaram! - üçüncü katib cavab verdi.

Nazim İlham hələ də lal-dinməz qarşısındakı jurnala baxırdı. Vilayət rəhbərinin üçüncü katiblə belə bir tərzdə danışması onun qəlbində İsmayılzadəyə qarşı baş qaldırmaqda olan rəğbəti alt-üst elədi. Nazim diqqətini jurnaldan ayırıb başını yuxarı qaldıra bilmirdi. Bilmirdi ki, bir neçə dəqiqənin içində bir-birinə zidd olan iki fikir yürüdən mötəbər adamın üzünə necə baxsın, Şirxan İsmayılzadəyə elə gəlirdi ki, gənc jurnalistin fikri başqa

yerdədir və rəhbər partiya işçisinə xas olan bu cür diplomatik gedişlərin incəliyindən baş açmaz. Şirxan İsmayılzadə özündən razı halda əyləşdiyi stulda Nazimə tərəf burularaq:

- Hə, Siz belə-belə işlərə necə baxırsınız? - soruşdu.

Nazim diqqətini jurnaldan çətinliklə ayırıb ona zəndlə nəzər saldı. Lakin dillənmədi. Şirxan İsmayılzadə təkəbbürlə:

- Elə bilirsiniz katib işləmək asandır, - dedi, - ha... ha... Bu məqalə yazmaq deyil, yoldaş jurnalist! Partiya işidir! O məktəb direktorunu qəsdən Sizin iştirakınızla qəbul etdim ki, biləsiniz nə çəkirik. Gündə neçəsi ilə bu cür üz-üzə gəlirik. Gərək hərəsini bir dilnən yola verəsən. Başqa cür işləmək mümkün deyil.

Elə bil Nazimin dilindən qıfıl asılmışdı. O, cavab verməyə söz tapa bilmirdi. Nazimin ifadəsiz baxışları böyük bir vilayətin taleyi tapşırılan partiya rəhbərinin dolu sifətində, dən düşmüş saçlarında, oynaq gözlərində, şaqqanaq çəkdikcə ağaran iri seyrək dişlərində donub qalmışdı. Şirxan İsmayılzadə özözlüyündə, Nazim İlhamın qaradinməzliyini onun dünyanın işlərindən bixəbər, avam olması kimi mənalandırırdı. İsmayılzadə əfəl hesab etdiyi jurnalistdən ürəyinə yatan yönlü bir cavab ala bilmədiyi üçün söhbəti uzatmaq istəmədi və ötkəm əda ilə:

- Nu, xoroşo! Sizə müvəffəqiyyətlər. - Ayağa qalxıb onun əlini sıxdı. - Bizim qonaq evində birnəfərlik otaq var. Mən tapşırmışam, hələlik mənzil tapanacan birtəhər orada keçinin, sonrasına baxarıq!

İsmayılzadə ilə məktəb direktorunun görüşü Nazmin yadından çıxmırdı. Yatanda da, yol gedəndə də, süfrə başında əyləşib çörək yeyəndə də katibin ikibaşlı sözünü qəlbində vuruşdururdu. Katiblə onun ilk görüşü olsa da, bu məsələdən yan keçməyi özünə bağışlaya bilmirdi. Vicdanının səsi Nazimi gecə-gündüz təhdid edirdi: "Niyə qələm götürüb İsmayıl-

zadənin insanlığa yad olan bu cür ikiüzlü siyasətin aləmə car çəkmirsən?!" Ancaq bu mümkün olan məsələ idimi?! Yazsa da, vilayət rəhbərinin adı pisliyə çəkilən məqaləni qəzet səhifəsinə çıxarmağa kimin cəsarəti çatar? Bunun üstündə adama siyasi rəng verib gedər-gəlməzə göndərərlər. Bəs nə etməli?! Bu çətin sual Nazim İlhamı hey düşündürürdü. Axır ki, bir axşam yazı masasının arxasına çəkildi... Bir neçə gündən sonra Nazim İlhamın imzası ilə satirik hekayə dərc olunan respublika qəzeti əldən-ələ gəzirdi. Hekayədəki ünvan, ad-familiya başqa olsa da, onu oxuyanların əksəriyyəti altdan-altdan pıqqıldayıb gülür və öz-özlərinə: - lap İsmayılzadənin özüdür - düşünürdülər. Ordaburda xısın-xısın danışırdılar ki, bu təzə müxbirin sakit gəzibdolanmasına baxmayın, xəmir yeyənin fığarası olmaz! Sərçəni lap gözündən vurub. Başqa ad altında İsmayılzadənin iç üzünü açıb qoyub ortalığa. Ancaq üzdə bir adam bunu dilinə gətirmirdi. İsmayılzadənin özü də hekayənin güzgüsündə özünü olduğu kimi gördükdə, burnunun ucuna qədər qızarır, əsəbləri tarıma çəkilirdi. O, hekayəni oxuyub qurtardıqdan sonra dişlərini qıcıyaraq:

- Vic-dan-sız, - deyib, qəzeti əzib yumruladı və qəzəbliqəzəbli cırıb yan tərəfdəki zibil qutusuna tullayıb tüpürdü və çənəsini ovcuna alıb, bir qədər fikirləşdikdən sonra belə qərara gəldi ki, bu məsələni açıb-ağartmasın. Özünü elə göstərsin ki, guya hekayənin İsmayılzadəyə heç bir aidiyyatı yoxdur. Müxbirlə üz-üzə gələndə də özünü əsla o yerə qoymasın. Əslinə qalanda, hekayə İsmayılzadəni yaman tutmuşdu. Bu məsələ ona güllədən betər təsir eləmişdi. Üzünə qarşı onun atasına söysəydilər, min dəfə bundan yaxşıydı. Bir tərəfdən də özüözünü söyüb danlayırdı ki, dünyanı yorub-yortduğum halda, bu dəfə niyə ehtiyatsızlıq etdim? Müxbirin yanında o cür səhvə yol verdim. Özüm də bu müxbir tayfasını tanıya-tanıya. Bilə-bilə ki,

jurnalistlər bir himə bənddilər, onların yanında hər şeyi danışmaq olmaz. Telefonu götürüb yuxarılara deyim ki, bu Nazim İlhamdı, nə zibildi, onu buralardan rədd eləyin getsin, o da düz çıxmaz. Məndən soruşarlar ki, əsasın nədir? Nazim İlham hələ yerini isitməyib. Təzə adam haqqında nə deyim?!

Şirxan İsmayılzadə çox ölçüb-biçəndən sonra dərindən köks ötürdü və kinayə ilə: - Eybi yoxdur, qoy o müxbir olsun, mən də mən. Hələlik səbr etmək lazımdır, - öz-özünə mızıldandı.

* * *

...Məhərrəmlik ayı təzə girmişdi. İbadətgahlarda insan əlindən tərpənmək olmurdu. Məscidlərdə ehsan verən kim, sinə döyən kim. Adamların dini mərasimlərə bu cür ucdantutma meyl etməsi yüksək vəzifə sahiblərini vahiməyə salmışdı. Moskvanın nümayəndəsi Sergey Lukyanovun, respublikanın məsul işçisi Rahib Zərbəliyevin tədbiri və təkidi ilə vilayətin şəhər və kəndlərində din əleyhinə ciddi-cəhdlə təbliğat kompaniyası başlanmışdı. Məruzəçilər, mühazirəçilər, partiya, sovet işçiləri kəndbəkənd düşüb dinin puçlğunu sübut etmək, Allahı, peyğəmbəri adamların qəlbindən silmək üçün dəridən-qabıqdan çıxırdılar. Elmi ateizmin təbliği sahəsində püxtələşmiş, partiyaya sədaqətlərini fəxrlə nümayiş etdirməyə çalışan professorlar, alimlər, akademiklər bu yolda daha çox canfəşanlıq göstərirdilər. İmamın yeddisi çıxan günü vilayət partiya komitəsində yığıncaq keçirilirdi. İş heyətində cəmi üç nəfər əyləşmişdi. Ortada Şirxan İsmayılzadə, onun sağında Sergey Lukyanov, solunda Rahib Zərbəliyev əyləşmişdi. Sergey Lukyanovun burada iştirakı zalda gərginlik yaratmışdı. Şirxan İsmayılzadə qısaca danışdıqdan sonra əyləşənlərə bir-bir söz verdi. Qabaq cərgədə əyləşən, döşündə Sosialist Əməyi

Qəhrəmanı və deputat nişanları olan raykom katibi ayağa qalxaraq bir gözü Sergey Lukyanovda:

- Bizim rayon doxsan iki kənddən ibarətdir, - dedi. - Son vaxtlaracan cəmi-cümlətanı üç kənddə məscid qalmışdı. Onun da birini anbar eləmişik. İçinə dəmir-dümür, toxumluq taxıl yığılır. Birində də fermanın məhsulları emal olunur. Qaldı biri, onu da planlaşdırmışıq, səfər ayı çıxan kimi uçurub yerində idarə binası tikməliyik. Tak çto rayonun ərazisində demək olar ki, məscidlərin axırına çıxmışıq. İki pir var. Məhərrəmlik ayı başlayan gündən ora gedən yolda milis postu qoymuşuq. O tərəflərə bir nəfər adam üzükə bilmir. Ziyarətə getmək istəyən üç-dörd nəfər olub, onları da milisə müqavimət göstərib ictimai asayişi pozanlar kimi aktlaşdırıb qoydurmuşuq dama. Tapşırmışam ki, başqalarına görk olmaq üçün xuliqanlıq maddəsi ilə onların hərəsinə dörd-beş il iş versinlər, ağılları gəlsin başlarına.

Ordenli katibin çıxışı Mərkəzin nümayəndələri tərəfindən təqdirlə qarşılandı. Şirxan İsmayılzadə əyilib Sergey Lukyanovun qulağına nə dedisə, Moskvadan gəlmiş qonağın baxışları məmnun ifadə aldı. Rahib Zərbəliyev xoş ovqatla üzünü əyləşənlərə tutaraq:

- Vot! Belə işləmək lazımdır! - deyib, ordenli katibin bu sahədəki fəaliyyətini alqışladı.

Mərasimin qarşısını almaq üçün on gün bundan qabaq Xırmanlar kəndinə yollanan Ali Sovet sədrinin və vilayət partiya komitəsinin üçüncü katibinin məscidə toplaşanlar tərəfindən daşa basılması müşavirənin gedişini gərginləşdirirdi. Vilayət mərkəzindəki məscidə və onun ətrafına minlərlə adamın toplanması faktı da vəziyyəti ağırlaşdırırdı. Sergey Lukyanovla Rahib Zərbəliyevin bu barədəki hədələyici çıxışlarından sonra vilayət rəhbərlərinin kürkünə birə düşmüşdü. Şirxan İsmayılzadə yerini isitmirdi. O, zalda yaranmış ovqatı dəyişmək, yuxarıdan gələn-

ləri yumşaltmaq üçün din əleyhinə təbliğat sahəsində görülən və görüləcək işlərdən konkret faktlarla uzun-uzadı danışdı. Və sonra üzünü arxa cərgədə əyləşmiş jurnalistlərə tutaraq:

- Biz bu sahədə yazıçılarımızdan, jurnalistlərimizdən çox şey gözləyirik, - dedi. - Təəssüf ki, onların fəaliyyəti nəzərə çarpmır. Müxbir yoldaşlar dinə qarşı mübarizədə passivlik göstərirlər. Bu barədə vilayətimizi təmsil edən respublika qəzetinin xüsusi müxbiri Nazim İlhamdan narazıyıq. Düzdür, o, təzə yoldaşdır. Ancaq buna baxmayaraq, gəldiyi bu bir neçə ay müddətində nə yazır, necə yazır, hansı məzhəbə qulluq eləyir? - başım çıxmır! Məsul işçilərimizi məsciddə daşa basırlar! Ancaq müxbirlərin səsi çıxmır! Nazim İlham satirasındakı bəzi məkrli eyhamlar mənə ayrı mətləblərdən xəbər verir...

Nazim İlham yerindən dikəlib İsmayılzadənin sözünü kəsdi:

- Yoldaş İsmayılzadə, bəlkə yanılırsınız? - dedi. - Mən vəzifəmi az da olsa başa düşürəm. Lakin Sizin mülahizə etdiyiniz kimi yox. Xırmanlar məscidində baş verən əhvalatlardan dəqiq xəbərim var. Onu burda ayrı cür mənalandırmağınız məni təəssüfləndirir. Nəzərdə tutduğunuz həmin məsul işçilər ibadət vaxtı yanğınsöndürən maşın çağırtdırıb, yüzləşlə yaşlı adamı suya basıblar. Bunu, ən azı, kobudluq, Konstitusiyanın vətəndaşlara verdiyi dini azadlığın boğulması kimi qiymətləndirərdim. Siz isə... Lakin iradınızı nəzərə alaraq məlumat verməyə məcburam ki, o barədə bugünkü qəzetdə artıq felyeton gedib. Təəssüf ki, poçt gecikdiyi üçün qəzet hələ gəlməyib. Yoldaşlar oxuyanda görəcəklər ki, Sizin yozumunuz həqiqətdən uzaqdı.

Elə bil qurbağa gölünə daş atdılar. İsmayılzadə pərt oldu. Zala ağır sükut çökdü. Müxbirin o cür qırmızı cavabı zalda əyləşənləri açmadı. Sergey Lukyanovla Rahib Zərbəliyev bir-birinin üzünə baxıb, başlarını aşağı dikdilər. Şirxan İsmayılzadə müx-

birlə söz güləşdirməkdən yayınaraq çıxışının istiqamətini dəyişdi:

- Nazim müəllimin fikri ilə mən də şərikəm, - dedi. - Əlbəttə, din azaddır, heç kəsə izacə verilmir ki, insan hüquqlarını pozsun. O ki qaldı məsciddə pojarnı maşınlarından istifadə olunmasına, bunu birinci dəfədir eşidirəm. Komissiya ayırıb yoxlatdırarıq. Düz çıxsa, kimliyindən asılı olmayaraq, pojarnı maşınına göstəriş verənlər barəsində tədbir görərik.

* * *

Qonaq evi vilayət pariya komitəsinin yerləşdiyi binanın bağlı-bağatlı həyətində yerləşirdi. Şəhərə varid olan müsafirlər ümumi mehmanxanalarda qalır, yuxarı vəzifədə olanlar isə qonaq evində yerləşdirilirdi. Hər cür rahatlığı olan qonaq evinin ümumi zalında iyirmi nəfərlik yemək stolu, piano, radio, televizor, yumşaq kreslolar, divan qoyulmuşdu. Döşəməyə iri ölçülü xalça sərilmişdi. Yan tərəfdəki koridordan yataq otaqlarına bir neçə qapı açılırdı. Nazim ailəsini gətirmək üçün mənzil tapa bilmədiyinə görə xeyli vaxtdı buradakı birçarpayılıq otaqda qalırdı. O, tünlüyü sevmirdi. Vəzifəsinə görə özünü yuxarı tutan qonaqlardan uzaq qaçırdı. Çoxluq olanda və ya yemək-içmək məclisi qurulanda birçarpayılıq otağına çəkilib qapını da örtürdü ki, səs-küyü, boğazdan yuxarı deyilən boş-boş sözləri eşitməsin. Sergey Lukyanovla Rahib Zərbəliyev burada qalırdılar. Nazim onlarla üz-üzə gəlməkdən qaçırdı. Ona görə də içəridə yazı-pozusu ilə məşğul idi. Birdən qapı döyüldü. Qonaq evinin xidmətçisi başını içəri salaraq:

- Qonaqlar gözləyir, - dedi. - Yoldaş İsmayılzadə Sizi yeməyə dəvət edir.

Nazim İlham dilxor oldu. Ancaq başqa çarə yox idi. Getməsə ağ olardı. Və bunu da bir söz eləyərdilər.

Qonaqlar ləziz xörəklər qoyulmuş şam süfrəsini dövrəyə almışdılar. Sergey Lukyanov başda əyləşmişdi. Rahib Zərbəliyevlə Şirxan İsmayılzadə qabaq-qənşər oturmuşdular. Qalan stullar boş idi. Nazim İlham görünən kimi İsmayılzadə bu gün onların arasında heç bir inciklik olmayıbmış kimi:

- Buyurun, buyurun! - dedi. - Yoldaş müxbir, harda itib-batmısız?! Bayaqdan Sizi gözləyirik! Yaxşı deyiblər, qonaq qonağı istəməz, ev sahibi heç birini.

Hamı gülüşdü. Nazimin qaşqabağı açılmadı. O, könülsüz boş stullardan birini altına çəkdi.

Tez-tez sağlıqlar deyilir, qədəhlər dolub-boşalırdı. Sergey Lukyanov iri qədəhlə "Stoliçni" araq, qalanları konyak, Nazim İlham isə az-az çaxır içirdi. İçkinin təsirindən başlar xumarlanır, gözlər hədəqədən çıxırdı, etika normalarını gözləmədən, kimin sinəsinin altında nə var, açıb tökürdü çölə. Nazim İlham da bir balaca hallanmışdı. Sergey Lukyanov bir siqaret alışdırıb arxasını geri söykədi və üzünü Nazim İlhama tutdu:

- Bugünkü məqalənizi oxudum, - dedi. - Öz aramızdı, dindarlara əməlli-başlı haqq qazandırmısız. Məsələnin mahiyyətindən yan keçmisiniz.

- Şirin yalandansa, acı həqiqət yaxşıdır, Sergey Andreyeviç, - Nazim İlham cavab verdi. - Hansı yazıçısa deyib ki, həqiqət vəfalı köpək kimidi. Onu daim kötəkləyib it damına salırlar. Ev tulasını isə yuxarı başa keçirirlər. O da yavaş-yavaş otağın havasını korlayır.

Bu söz əyləşənləri açmadı. Sergey Lukyanov gülümsünüb, əlindəki siqareti qarşısındakı külqabında keçirə-keçirə:

- Son vaxtlar din əleyhinə məqalə yazmısınızmı?

- Xeyr.

- Cavabınızdan belə nəticə çıxmırmı ki, siz jurnalistlər xalqı

dinin zəhərli təsirindən xilas etməyi ideologiyamızın tələbindən irəli gələn zəruriyyət kimi başa düşmək fəhmindən xalisiniz.

Nazim fikirləşmədən:

- Qələmə aldığımız mövzuları bizə günün reallıqları, həyat həqiqətləri diktə edir. Bir də ki, obyektiv gerçəklikdən qaçmaq çətindir. İdeya mərkəzimiz olan Moskva kimi böyük şəhərdə kilsə günbəzləri qızıla tutulduğu təqdirdə, onsuz da uçub-dağılmış və qapısına it bağlanan viranə ibadətgahlarımız barədə yazmağa nə ehtiyac var? Bir də ki, malik olduğu imtiyazları əldən verməmək xatirinə, millətimizin heysiyyatını ayaq altına salmağı özünə rəva bilən, yüksək vəzifə sahiblərinin təşəkküründən ötrü xalqın nifrət hədəfinə çevrilmək istəmirəm.

Sergey Lukyanovun qızarmış sarışın sifətinə acı təbəssüm yayıldı. O, tez bir siqaret çıxarıb yandırdı və lazım olmadın - öhö... öhö... öskürüb, içini arıtladı.

- Müsəlmançılıqda allahsızlıq, dinsizlik qəbahət sayılır - Nazim İlham əlavə etdi. Çünki cəmiyyətdə ən çirkin fitnə-fəsadlar Allah-taalanı tanımaq istəməyənlər tərəfindən törədilir. İslam mədəniyyətinə biganəliyin nəticəsidir ki, övladlar valideynlərindən üz döndərirlər. Gəlinlər qayınananı it kimi qapır, kiçiklər böyüyün yolunu saxlamır, insanlar qurd olub bir-birini didir, zinalıq baş alıb gedir... Siz partiya işçiləri də onu başa düşmək fəhmindən xalisiniz ki, qırmızı parçalarda car çəkilən "İnsan insanın dostu olmalıdır" şüarını reallaşdıra bilən yeganə təminatçı əsrlərin sınağından çıxmış islam elmidir.

Nazim İlham danışa-danışa əyləşdiyi stulu Sergey Lukyanova yaxınlaşdıraraq - İnciməyin, indi mən Sizdən soruşuram, - dedi. - Bu gün müsəlmanların yas tutduğu İmam Hüseyn kimdir?

Sergey Andreyeviç çiyinlərini çəkdi:

- Heç kim!! Əvvam, geridə qalmış dindarların uydurduğu mücərrəd bir mif.

Nazim gülərək:

- Mən isə Məhəmməd peyğəmbərin tarixini çox gözəl bilirəm, - dedi. - Məhəmməd peyğəmbər buyurur ki, bütün dinlərə hörmət edin. Biz bütün peyğəmbərlərə hörmət eliyirik. Lakin Sizin mif kimi başa düşdüyünüz İmam Hüseyn İmam Əlinin oğlu olmaqla yanaşı, görkəmli şəxsiyyət, böyük alimdir. Həm də bir çox qiymətli əsərlərin müəllifidir. Bu gün müsəlman dünyasının haqlı olaraq yas tutduğu İmam Hüseyn kimi görkəmli şəxsiyyəti mif kimi təsəvvür etməyiniz məndə ikrah hissi yaradır. İslamın qanunlarına görə qəlb sındıran adamın ibadəti Allah-taala tərəfindən qəbul olunmur. Çünki hər bir adamın qəlbi Allah-taalanın yuvasıdır. Onu zədələyib dağıdan şəxs, Allah-taalanın düşməni sayılır. Əhsən! İnsanlara mehribançılıq təlqin edən sadə bir kəlamdan bixəbər olduğunuz halda, inciməsəydiniz deyərdim ki, İslam dünyası haqqındakı yanlış fikir yürütməniz Sizi gülünc vəziyyətə salır. Yaşca da, vəzifəcə də məndən böyük olsanız da, Sizə məsləhət görərdim ki, dibi görünməyən quyuya daş atmayın.

Şirxan İsmayılzadə gənc jurnalistin sözünü zarafat kimi mənalandırdı və Sergey Lukyanovun diqqətini Nazim İlhamın ittihamlarından yayındırmaq üçün aralığa başqa söz qatdı və butulkanı götürüb qədəhlərə içki süzə-süzə:

- Canım, buraxın bu zarafatları, - dedi. - Nazimdi də, içki havasına danışır. Əlli dərənin suyunu bura qatmağın nə mənası?!

Onlar qədəhlərin birini də boşaltdılar. Sergey Lukyanov çeçədi. O, kağız dəsmalla dodaqlarını silib, Şirxan İsmayılzadəyə tərəf yönəldi:

- Onda Sizdən bir şey soruşum, - dedi.

- Buyurun.

Sergey Lukyanov jurnal stolunun üstünə qoyduğu qırmızı qovluğu açıb içindəki əl boyda dəftərçəni vərəqləyərək:

- Vilayət üzrə Rusiyadan gəlmə neçə nəfər gənc müəllimə var? - soruşdu.

Şirxan İsmayılzadə:

- Olmağına vaar! Vilayətdə cavan rus dili müəllimləri çoxdur. Ancaq neçə nəfərdi, dəqiq deyə bilmərəm.

- Onlardan neçə nəfəri ərə gedib və azərbaycanlı oğlanlarla ailə qurub? - Sergey Lukyanov sualı təkrar etdi və xumarlanmış gözlərini Şirxan İsmayılzadənin üzünə dikdi.

- Düzü, o məsələ ilə maraqlanmamışam. Ancaq bundan sonra məşğul olarıq. - İsmayılzadənin əhvalı korlandı.

Sergey Lukyanov:

- Amma bu barədə bizdə dəqiq məlumat var, - dedi. - Sizin cavanlar kənar millətdən olan qızlarla evlənib ailə qurmaqdan uzaq qaçırlar. Gözəl-göyçək rus qızları isə qalıb qarıyırlar. Onlar ailə həyatı qura bilmirlər. Bilirsinizmi bunun səbəbi nədir? Bax, bu cavan jurnalistin bayaqdan çılğınlıqla mədh etdiyi müsəlmançılıq! Vilayətin mərkəzində, burnunuzun qabağında hələ də azan səsi kəsilməyən qoşa minarəli məscid! Allahın müqəddəs evi! Başqa millətdən evlənənlərin evində iki qazan asıldığı da bizə yaxşı məlumdur.

Lukyanov İsmayılzadəyə sərt nəzər salaraq:

- Bax, budur apardığınız ideoloji işin konkret nəticəsi!

Şirxan İsmayılzadənin dolu sifəti allandı. Nazim İlhamın dişi bağırsağını kəsirdi və gördü ki, bu cür söhbətə dözə bilmir, əsəbiləşib ayağa qalxdı və başağrısını bəhanə edib, həmsöhbətlərinə - gecəniz xeyrə qalsın, - deyib, xudahafizləşdi. Rahib Zərbəliyev Sergey Lukyanovun tərəfinə keçərək:

- Sergey Andreyeviç bu məsələdə haqlıdır, - dedi. Bayaqdan o cavan müxbirin yanında dillənmirdim. Axı, o məscidi niyə saxlayırsan? - Burnunu qırışdırıb dodağını əydi. - İsmayılzadənin

yerinə olsaydım, bu şəhərdəki məscidi bir gecənin içərisində yox eləyərdim, - əlavə etdi.

- Məsələn, necə? - İsmayılzadə maraqla soruşdu. - Ondan sonra gəl görüm, qara camaatın qabağında necə duruş gətirirsən!!!

- Oçen prosto, axı burada nə çətin məsələ var? - Rahib Zərbəliyev fikrini izah etməyə başladı. - Moskvaya, Ali Sovetin sessiyasına və ya plenuma gedəndə şəhər partiya komitəsinin birinci katibini çağırıb ikilikdə deyərəm ki, yuxarıdan xüsusi göstəriş var. Mən Moskvadan qayıdanacan hərbi hissənin komandiri ilə danış. Bir gecənin içində diviziyanı tökün, məscidi yerli-dibli ləğv eləyin. Yerində gül-çiçək əkin, vəssəlam!

İsmayılzadə:

- Nə danışırsan canım, onda camaatın ağzını yummaq olar? Tökülüb bizi daşqalaq eləyərlər!

Rahib Zərbəliyev təkəbbürlə güldü:

- Onun da bir çarəsi var, - dedi. - Moskvadan qayıdan günün sabahı dərhal rayon partiya komitəsinin plenumunu çağırıb, din əleyhinə təbliğatda kobud səhvlərə yol verdiyinə görə şəhər partiya komitəsinin birinci katibini ataram bayıra. Bununla da camaatın ağzı yumular. Beləliklə də məscidə bir katib qurban verərəm, qurtarıb gedər...

Rahib Zərbəliyevin bu cür dərrakə sahibi olması Sergey Lukyanovu heyrətə gətirdi. O, Şirxan İsmayılzadəyə tərəf yönələrək:

- Rahib Zərbəliyevin nə dediyini yaxşı-yaxşı eşitdin? - soruşdu.

- Bəli.

Eşitmək azdır, onu həyata keçirmək lazımdır. Eto çisto partiynıy padxod. - Sergey Lukyanov İsmayılzadəni fərsizliklə qınadı.

- Nəticə çıxararıq. - İsmayılzadə təqsirkar olduğunu etiraf edib onların hər ikisi ilə razılaşdığını bildirdi və:

- Bu cür adamlar əl-qolumuza dolaşmasa, nə var ki? - əlavə etdi. - Nazim İlhamı deyirəm, cavan müxbiri. Bayaqdan gördünüz də nə danışırdı. Ağzından qan iyi gəlir. Bugünkü qəzetdə də nala-mıxa vurub. Guya məsciddəki xoşagəlməz hadisə partiya işçilərinin ehtiyatsızlığı üzündən baş verib. Vilayət partiya komitəsinin nümayəndələri vəzifə hədlərini aşıblar. Siz də deyirsiniz, məscidi ləğv eləyin! Məscidi ləğv eləməyə nə var ki? Əl-qolumuzu bağlayan, bax, bu cür cızma-qaraçılardır. İşləməyə imkan verirlər ki?! Kiçik bir faktı fil boyda şişirdirlər.

Sergey Lukyanov yarızarafat:

- Bayaq sağlığına içərkən niyə bunları üzünə demirdin?

İsmayılzadə sifətini turşutdu:

- Ona baş qoşmaq istəmirəm! Müxbir kimdir? Mənim üçün heç kim! Prosto hərdən qanımızı qaraldır!

Rahib Zərbəliyev:

- Müxbir söhbətini qurtaraq, - dedi. - O barədə sonra bir şey fikirləşərik. Qayıdanda onun povedeniyasını yoldaşlara çatdıraram. Redaktorunu da bəlkə çağırıb başa saldım. Nazim İlhamın danışıqları məni də açmadı. Özünü partiyalı aparmır. Unudur ki, mətbuatın da, ədəbiyyatın da xətti partiyanın xətti olmalıdır.

Gecə yarıdan keçmişdi. Sergey Andreyeviç artıq özündə deyildi. Başı sinəsinə əyilmişdi. Sakit-sakit fısıldayıb xoruldayırdı. İsmayılzadə ayağa qalxdı və Rahib Zərbəliyevə:

- İcazə verin gedim, - dedi. - Sergey Andreyeviç yorğundu, yatıb, sizi də yuxu basır.

* * *

...Nazim İlham sübh tezdən yatağından qalxıb yüngülvari idman elədi və Lukyanovla Zərbəliyevin gec oyanacaqlarını nəzərə alıb, onları gözləmədən qonaq evinin bufetində nahar elədi. Redaksiyanın yoxlanmaq üçün göndərdiyi məktubu götürüb, ticarət nazirliyinə getdi. Məktub bir qrup fəhlənin adından yazılmışdı. Ancaq konkret ad, familiya göstərilməmişdi. Buna baxmayaraq, məktub redaktorun nəzarətinə götürülmüşdü. Nazim əvvəlcə nazirlə görüşmək fikrində idi. Lakin bu, mümkün olmadı. Nazirin gözləmə otağında çoxlu adam dayanmışdı. Telefon tez-tez zəng çalırdı. Qapıçı qız telefonu qaldıraraq zəng çalanların hərəsinə bir cür cavab verib, başından eləyirdi:

- On zanit.
- Nazir hökumət telefonu ilə danışır.
- İçəridə iclas gedir.
- Yanında adam var.
- Nazirlər Sovetinə çağırıblar və s.

Qəbula gələnlərin səbr kasası dolmuşdu. Onlar öz-özlərinə deyinirdilər. Danışıqdan belə məlum oldu ki, nazirin dişi ağrıdığı üçün həkim çağırtdırıb və kabinetin dal otağında məşğuldur. Nazim İlham birinci müavinin kabinetinə daxil olub, özünü ona təqdim etdi və sözarası:

- Bu diş ağrısı pis şeydir, - dedi. - Mənim də başıma gəlib. Nazirlə görüşmək istəyirdim, dedilər dişinin ağrısı tutub, həkim çağırıblar, ona görə də...

Müavin bir balaca qımışdı, bic-bic gülümsündü. Bir saatdan sonra nazirin kabinetindən, əynində ağ xalat olan, gözəgəlimli bir gəlin çıxdı. Diş həkiminin təravətli yanaqları pörtmüşdü. O, başını yuxarı qaldırmadan dağılmış saçlarını düzəldə-düzəldə

qəbula gələnlərin istehza və nifrət dolu baxışlarından yayınaraq tez aradan çıxdı.

Bir neçə vərəqdən ibarət olan məktubun yoxlanması dörd saatdan artıq çəkdi. Nazim nazirliyin binasından çıxıb, irəlidəki döngədən sağa burulanda yaşlı bir kişi onun qabağını kəsib şəstlə:

- Bacıoğlu, tanış olaq! - dedi. - Mənim adım Xanbabadır. Xanbaba Qədiməliyev. Görməzə-bilməzə mənim Sizə sözüm var.

- Buyurun.

Əllidən artıq yaşı, şux baxışları, ötkəm danışığı olan və nimdaş kostyum geyinmiş bu adam dolu sifətinə xoş ifadə verərək:

- Əvvəlcə qoy bir balaca özüm barədə deyim, - dedi. - Qırmızıtuman vaxtlarım var idi. Daxili İşlər nazirliyində işləyirdim. Qılıncımın dalı da kəsirdi, qabağı da. Polkovnik Qədiməliyev gəlir deyəndə hamı tük salırdı. Hi... hi... hi... Ağlımın yoxluğundan qovdular. Bəli, bəli, iti məsciddən qovan kimi! İndi birisini vəzifədən çıxaranda deyir ki, özüm çıxdım, ərizəmlə. Boş sözdür, canım! Hamısı yalan danışır. Hansı axmaq xoşaxoşluqla vəzifəsini əlindən verər? Hi... hi... hi... Mən düz danışan adamam. Arvadımın felinə düşdüm. Gündə baş-beynimi xarab elədi. - Səhərə ümid yoxdur, çal-çap gətir! - dedi. Mən külbaş da onun ağlıynan oturub-durdum. Məhəmməd peyğəmbərdən soruşurlar ki, dünyada qadın çoxdur, yoxsa kişi?! Peyğəmbər Əleyhissəlam buyurur ki, qadın çoxdur! Niyə?! Çünki qadın qadındır, arvadın sözünə baxan kişilər də elə qadın kimi bir şeydir. Hi... hi... hi... Mən də dünya malından ötrü özümü oda-közə vurdum. Axırda da... Bizim hökumətdə ki, dovşanı arabaynan tutur. Axırda da ilişdim, şələ-şüləmi verdilər qoltuğuma. On ildən çoxdur ki, nazirlikdə zavxoz işləyirəm.

Benzin paylayıram, idarələri sildirib-süpürtdürürəm. Məni uşaq kimi ora-bura buyururlar, üzümə tüpürürlər! Sağlığına altım doludur, nə qədər desən varımdır! Ölənəcən yeməyə çörəyim, geyməyə pal-paltarım var! Yığdığım nəvə-nəticəmə də bəsdir! Ancaq hi... hi... hi... Ancaq bir köpüyə dəyməz! Üç manatlıq paqon qədər qiyməti yoxdur. Paqon gəzdirən vaxtımda... Nə danışırsan, məclislərdə başda əyləşirdim, bir sözüm iki deyildi. İndi bir körüklük hörmətim yoxdu. Düzdü, yenə də pis qazanmıram. Var-dövlətim aşıb-daşır. Di gəl ki, hörmət qoyan yoxdur. Görürəm, sən də cavan oğlansan. Bizim el-obaya təzə gəlmisən. İndi məndən sənə nəsihət, çalış vəzifəni əldən vermə. Tamah pis şeydir! Bir də ki, bəxt insanın yanından bir dəfə ötüb keçir. Tutub saxladın, saxladın, saxlamadın, tay görməzsən!

Nazim İlham nazirliyin təsərrüfat müdirinə diqqətlə qulaq asırdı. Lakin onun nə demək istədiyini anlaya bilmirdi. Özünü Qədiməliyev kimi təqdim edən bu şəxsin çərənləməsindən hiss olunurdu ki, açıq-saçıq danışan, bir qədər də qırmızı adamdır. Söhbətini kəssən və ya ona qarşı etinasızlıq göstərsən, adamın abrını ətəyinə bükər. Odur ki, Nazim İlham onun danışığına mane olmadı. Gözləyirdi ki, ilk dəfə gördüyü köhnə milis işçisi və hazırkı təsərrüfat müdiri ürəyini axıracan boşaltsın.

Xanbaba Qədiməliyev:

- Görürəm, tələsirsən. Bunları elə-belə dedim. Ancaq sözümün canı başqadır. Sənə bir məsələdə ağız açmaq istəyirəm. Amma nə xahişdir, nə minnətdir, nə əmrdir, nə də göstəriş! Sözdü, deyirəm, eşit! Sonrasını özün bilərsən! Bayaqdan bəri bizim bu nazirlikdə yoxlama aparırsan. O məktubda Şərifə adlı bir nəfər qadının da adı var. Cavan, göyçəkcə gəlindi. Əri dəmiryolçuydu. Başına qəza gəldi. Çoxdan rəhmətə gedib. O Şərifə dediyim gəlin qalıb üç körpənin əlində. Çörək pulu qazanmağın dərdindən saat dükanında işə girib. Bir dəfə

qəzetə yazdılar ki, divar saatını üç manat artığa satıb. Nazir də qəzetə cavab yazdı ki, Şərifə işdən çıxarılıb. Ancaq bildiyin kimi, o hələ də yerində qalıb işləyir. İndi bu dəfə də yazsan, onun kitabı bağlandı. Qolundan tutub atacaqlar bayıra. Özünün də ayrı bir sənəti yox, sübutu yox, əlindən də heç nə gəlmir. Bəs onda Şərifə neyləməlidir?! Məcbur olub, gecələr çıxacaq bizim bu şəhər parkına! Qoşulacaq pozğun qadınlara... Bildin də nə demək istəyirəm?!

Xanbaba Qədiməliyev gözlərini qıyıb düz müxbirin üzünə baxaraq:

- Bax! Sizin məqaləniz şəhər parkında özünü satan müsəlman qadınlarının birini də artıracaq! Dünən fahişə qadınlar üç idisə, sabah olacaq dörd! Özü də üçcə manata görə! Di özün bilərsən! Sənə deyəcəyim söz elə budur! Xudahafiz!..

Xanbaba Qədiməliyev Nazim İlhamın cavabını gözləmədən, üzünü əks tərəfə çevirib küçənin o tərəfinə keçdi və aralaşıb gözdən itdi.

Nazim bu xasiyyətdə adama ömründə ilk dəfə idi rast gəlirdi. Ona görə də yolun ortasında donub qalmışdı. Təsərrüfat müdirinin sözləri onu bərk tutmuşdu...

Nazim İlham redaksiyanın göndərdiyi məktubun izinə düşüb ticarət nazirliyində aşkar etdiyi faktları qələmə alanda saat satan qadının heç də xeyrinə olmayan arayış və izahatları bürüb-büküb bir kənara qoydu... Təsərrüfat müdirinin sözü onu bərk tutmuşdu, odur ki, vilayətdə müxbir işlədiyi müddətdə heç kəsə imkan vermədi ki, Şərifəyə dəyib, dolaşsın.

* * *

Həftələr, aylar gör necə tez gəlib gedir ey! Nazimin vilayətə gəldiyi vaxtdan neçə il keçmişdi. Artıq ev də tapmışdı. Daha qonaq evində qalmırdı. Ona başqa yerə köçüb gedən sərhədçi

zabitin çiy kərpicdən tikilmiş, altı zirzəmili, üçotaqlı mənzilini vermişdilər. Arvad-uşağı ilk günlər qəribçilik çəkirdi. Qonum-qonşuya öyrəşdikdən sonra daha darıxmırdılar. Dor-dolanışıqları da pis keçmirdi. Yerli camaat kimi yandıracaqları daş kömürü vaxtında alıb, qışqabağı qovurma eləyib şirli küplərə yığmışdılar. Təndirdə iki-üç aylıq lavaş bişirtdirib, sonra da kiflənməsin deyə sərib, qurudub üst-üstə yığmışdılar. Divar qonşuları bütün bu işlərdə Səriyyə müəlliməyə ürəkdən kömək edirdilər, Səriyyəni əlini ağdan-qaraya vurmağa qoymurdular. Nazim İlhamın da xasiyyəti eləydi ki, qonum-qonşudan işi düşənə köməyini əsirgəmirdi. Kimin nə çətinliyi olsaydı, onun üstünə qaçardı. Kara gəlməkdə üstü yoxudu. Bu yerin camaatı da kənardan gələnlərdən ötrü özlərini öldürürdülər. Söz düşəndə Səriyyə deyirdi ki, buranın adamları kimi hörmətcil camaat görməmişəm.

Nazim İlhamın ürəklərdən tikan çıxaran, bəzən də mötəbər dairələrdə qan qaraldan məqalələri əksər adamların qəlbinə yol tapmışdı. Onun yazıları əksər hallarda aşağıdakıların rəğbəti, yuxarıdakıların hərbə-zorbası ilə üzləşirdi. Lakin haqqın işığı, onu enişli-yoxuşlu yoluna qənim kəsilən şərin zülmət qaranlığından xilas edirdi. Nazim axşamçağı şəhər parkının yaşıllığına sığınan kinoteatrın qabağından keçəndə, hündür boyu, dolu bədəni, girdə sifəti və qırxdan artıq yaşı olan bir nəfər ona yanaşaraq:

- Sizinlə tanış olmaq istəyirəm, - deyib, ona əl uzatdı. - Təhmiraz Tahirov. Sizi göydə axtarırdım, yerdə əlimə keçmisiniz. Haçan bir görüşüb söhbət edə bilərik?

- Bağışlayın, Siz harda işləyirsiniz? - Nazim İlham soruşdu.

- İşləmirəm, neçə aydı ki, bekaram. Başıma çox işlər gəlib.

- Buyurun, Sizi eşidirəm.

- Yox, bura yeri deyil. Əhvalat çox uzundu. Bir-iki kəlmə

danışmaqla qurtarası deyil. - Təhmiraz Tahirov onun təklifi ilə razılaşmadı.

- Onda sabah gəlin.

- Bağışlayın, yer-yurdunuzu bilmirəm, harda otursunuz?

- Vilayət qəzetinin redaksiyasında. On beşinci otaqda. Qapısında yazılıb: "Müxbir məntəqəsi". Səhər saat ondan iş vaxtının axırınadək kabinetdə oluram. Günorta fasiləsindən başqa, nə vaxt istəsəniz, gələ bilərsiniz.

Səhərə yaxın başlanan leysan yağış getdikcə şiddətlənirdi. Küçələrin çala-çuxurunda əmələ gələn gölməçələrdən keçmək olmurdu. Sürətlə şütüyüb ötən avtomaşınlar çirkli, bulanıq suyu ətrafa sıçradıb səkidəki piyadaların üst-başını batırırdı. Çətir tutmuş incə yerişli qadınlar öz-özlərinə deyinib, sürücülərin arxasınca latayır sözlər işlədirdilər. Nazim İlhamın yaşadığı evlə, idarənin arası uzaq olduğu üçün bu gün işə beş-on dəqiqə gecikmişdi. Təhmiraz Tahirov üst-başından su axa-axa bayaqdan bəri müxbir məntəqəsinin qapısını kəsdirmişdi. Nazim onu görən kimi:

- Bəxtinizdən havanı görürsünüz də, - dedi. - Göydən leysan tökülür. Məni bağışlayın, bu gün bir az gecikmişəm. Di qapıda dayanmayın, keçin içəri. Dünən axşamkı söhbətimizi davam etdirək.

Təhmiraz altındakı stulu Nazimə tərəf sürüşdürərək:

- İcazə verin, Sizinlə açıq danışım. Ancaq xahiş edirəm ki, bəzi sözlərimə görə məndən inciməyəsiniz. Məni tanıyanların hamısı yaxşı bilir ki, ürəyiaçıq adamam. Kişi gərək hər şeyi olduğu kimi danışsın, alt-üst vurmasın. Sizinlə ilk dəfə tanış olsam da, haqqınızda çox eşitmişəm. Düzlüyü sevən, heç nədən çəkinməyən müxbir olduğunuzu az-çox bilirəm. Bax, elə bu ümidlə də yanınıza gəlmişəm.

Nazim İlham şikayətçinin sözlərindəki bəzi məqamları qeyd etmək üçün qarşısına ağ kağız və qələm qoydu:

- Diqqətim Sizdədir, - dedi.

Təhmiraz qəddini irəli əyərək:

- Yəqin ki, Ziyad Kərimlini tanımamış olmazsınız, - dedi. - Karamel fabrikinin direktorunu. İnstitutu onnan bir yerdə qurtarmışıq. Yeyinti sənayesi nazirinin indiki birinci müavini Həmid Salahov onda bir kurs bizdən aşağı oxuyurdu.

Təhmiraz Tahirov əlini alnına aparıb nəyisə xatırladı və dərindən ah çəkdi:

- Taleyin qismətidi də, - dedi. - Biri nazir müavini, digəri fabrik direktoru. Mən də neçə aydır sərgərdan qalmışam. Yazdığım ərizələrə də baxan yoxdur. On ildən çoxdur konserv zavodunda sex rəisi işləyirdim. Yuxarıdan əmr gəldi, sexlərin çoxunu birləşdirdilər. Mənim vəzifəm ixtisara düşdü. O vaxtdan şəhərdə yönlü bir iş tapa bilmirəm. Getdim Həmid Salahovun yanına. Fikirləşdim ki, necə olsa, birinci müavindir. Köhnədən yoldaşlıq eləmişik. Aramızda haqq-salamımız olub. İnsafən, yaxşı da adamdır, sadə də xasiyyəti var. Sağ olsun, məni yaxşı qəbul elədi. Dedi ki, Ziyad Kərimlinin yanında boş yer var. Ötən kollegiyada onun müavinini biabırçılıqla işdən götürmüşük. Kakraz onun yerinə kadr axtarırıq. Nazirlə danışıb, razılaşıb, səni ora göndərərik. Dolanışıqlı da yerdi. Əvvəlki vəzifəndən on dəfə yaxşıdır.

Təhmiraz Tahirov duruxdu. Onun çöhrəsinə acı bir təbəssüm yayıldı və başını yırğalayaraq:

- Həmişə mənim ağlıma gələn başıma gələr, - dedi. - Yalvardım ki, Həmid, məni ora göndərmə! Ziyad Kərimli ilə ötüşə bilmərəm, onnan mənimki tutmaz. Həmid Salahov özü də yaxşı bilir ki, Ziyad Kərimli tük üzü içəri adamdır. Onun qarnının altından fələk də baş açа bilməz. Köhnədən də aramızda

bir haqq-hesab olmuşdu. Bilirdim ki, dəvə kimi kinlidir, onu heç vaxt yadından çıxarmaz.

- Aranızda nə haqq-hesab olub? - Nazimin marağı artdı.

Təhmiraz dediyinə peşman olubmuş kimi tutuldu. Və bu sualdan yayınmağa çalışaraq:

- Heç, elə-belə, - dedi. - Olur də! Həyatda elə söz var, deməli deyil. Xahiş edirəm, siz də bu barədə üz vurmayın.

Nazim İlham:

- Axı, söhbətinizin əvvəlində dediniz ki, mən açıq danışan adamam! Həm də şikayətinizin obyektiv həlli üçün mən hər şeyi bilməliyəm.

Təhmirazın yorğun sifətinə utancaq qızartı çökdü və:

- Cavanlıqda hər şey olur, - dedi. - Bir halda ki, üz vurursuz, bu söz aramızda qalmalıdır. Yaşca da məndən cavansınız, gərək bağışlayasınız. Bu barədə əvvəlcədən Sizdən min dəfə üzr istəyirəm. Əslində deməli məsələ deyil. Bir də ki, aramızdakı pərdəni götürmək istəmirdim. Ancaq görürəm eyninizə ayrı şey gəlir. Ona görə yeri gəlib, qoy elə hamısını yerli-yataqlı deyim ki, Sizdə şübhə yeri qalmasın. O vaxt bizimlə Rəna adlı bir qız oxuyurdu. Mənə də meyli vardı. Hər gün dərsdən çıxanda, onu evlərinə mən aparırdım. Kinoya, teatra bir gedirdik. İnstitutda da adımız çıxmışdı. Hamı elə bilirdi ki, onu almaq istəyirəm. Bu sözü qız özü dilindən qaçırmışdı. Tay dalını demirəm... Gördüm bir balaca ağıldan seyrəkdir, ondan uzaqlaşdım. Heyləsiynən mənimki tutmazdı. Sonra Ziyad Kərimli həmin qıza uydu. Axırda da evləndilər. Həmid Salahov bu işləri yaxşı bilir. Hətta o vaxt Həmid Salahov Kərimliyə dedi ki, başına at təpib-nədi, qız qəhətliyidi? Gərək sürtülmüşün birini alasan? Kərimli onu da eşitmədi. Öz bildiyi ilə getdi. Hətta belə bir söz də işlətdi ki, at mənim altımda büdrəməsin. İndi dörd-beş uşaqları var. Allah

daha da artıq eləsin. O vaxtdan Ziyad Kərimlinin ürəyində mənim barəmdə qaraltı qalıb. Düzdü üzdə mənnən görüşür-öpüşür, ancaq ürəyi qəbirəcən mənnən düzəlməz. Ona görə də Həmid Salahova yalvarıb-yaxardım ki, karamel fabrikindən keç! Ziyad Kərimli ilə mənimki tutmaz. Həmid Salahov məni eşitmədi. Dedi ki, baxma, Ziyad Kərimli, necə olsa, özümü-zünküdür. Neçə il bir yerdə makaron supu içmişik. O əhvalatlar Kərimlinin yadında qalmaz. İşdi-şayət, axmaqlasa, çağırıb qulaqburması verərəm, ağlı gələr başına.

Təhmiraz Tahirov sözünə fasilə verdi. Sonra söhbətinə yenə davam eylədi:

- Nə başınızı ağrıdım. Həmid Salahov inadından dönmədi. Nazirlə razılaşıb, karamel fabrikinin direktor müavinliyinə əmrimi verdilər. Kərimlinin yanına gedəndə də mənnən çox yaxşı görüşdü. Ancaq biləndə ki, müavinliyə əmr almışam, elə bil başına ağır daş düşdü. Bir dəqiqənin içində çönüb oldu başqa adam. Qırmızıca üzümə dedi ki, Təhmiraz, bizimki tutmaz. Amma niyəsini demədi. Bir də ki, görünən kəndə nə bələdçi?! Niyəsini o da yaxşı bilir, mən də. İntəhası, açıb-ağartmaq istəmədim. Nə bilim bəhanə gətirdi ki, tələbə yoldaşı olmuşuq, guya məndən iş tələb etmək onun üçün çətindir. Əlbəttə, boş sözdür! Gördüm uşaq üzü əlləyir. Mən də acığa düşdüm. Dedim, Ziyad Kərimli, institutda mən fərqlənmə ilə oxuyanda, sən bir burnufirtıqlı üçü gücnən alırdın. İndi necə olur ki, sən direktor işləyə bilirsən, amma mənə müavinliyi də çox görürsən?! Bir halda ki, iş belə gətirdi, sənin acığına bircə gün də olsa bu fabrikdə işləməliyəm, - deyib, qapısını çırpıb çıxdım. Ancaq Nazim müəllim, özün bilirsən ki, bizim zəmanədə pul qanundan güclüdür. Vilayətin rəhbərləri də işə qarışdı. Təzədən Həmid Salahov zəng vurdu, əməl etmədi. Ziyad Kərimli dedi ki, nə qədər mən direktoram, Təhmiraz Tahirov fabrikin yan-yörəsinə

üzükə bilməz. Müavinlik yox ey, Təhmirazı fabrikdə heç kur-yerliyə də qəbul etmərəm!

Təhmiraz Tahirov danışdıqca həyəcanlanırdı. O:

- Nazim müəllim, olar bir qurtum su içim? - dedi. - Boğazım qurudu.

- Buyurun. - Nazim stolun üstündəki qrafindən qalın çay stəkanına su süzüb ona uzatdı.

Təhmiraz Tahirov nəfəsini dərib sözünə davam elədi:

- Nazim müəllim, indi Kərimli deyir, dəli Nəzərəm, belə gəzərəm! Açığı, heç kəs də ona bata bilmir. İnciməyin, Sizin də ona təsir göstərə biləcəyinizə əmin deyiləm. Pulu çox, sözünün qabağında söz deyən yox. SSRİ Ali Sovetinin deputatı, Sosialist Əməyi Qəhrəmanı, Sekanın da ki, plenum üzvü... Ona yaxın düşmək çətindir. O biri tərəfdən də, nə qədər işi keçən adam var, hamısı onun yanında boğazdır. Odur ki, heç kəsi vecinə almır. Mən də qanımı almışam ağzıma! Ölsəm də bu yoldan qayıdan deyiləm. Allah ya Kərimliyə verər, ya mənə! Sizin yanınıza da gəlməkdə məqsədim odur ki, bəlkə qəzet vasitəsilə bu işə bir əncam çəkə bildiniz. Ancaq ağlım kəsmir. Amma əlacım yoxdur. Elə başa düşməyin ki, Sizi qızışdırmaq, boynunuza yük qoymaq istəyirəm, yoox! Yaxşı başa düşürəm ki, bu, müxbir girən kol deyil. Kimə demişəm, ağzım yanıb. Suda boğulan saman çöpünə əl atan kimi, axırda Sizin üstünüzə gəlmişəm. Bir az köntöy danışıram, gərək məni bağışlayasınız. Çünki əlim hər yerdən üzülüb. Bekar qaldığım bu neçə ay ərzində olub-qalanımı da satıb-sovub uşaqlara yedizdirmişəm. Sizdən də bir kar aşmasa, Moskvaya getməliyəm. Artıq bıçaq sümüyə dirənib. Daha yaşamaq istəmirəm. Özüm özümdən bezmişəm. Amma mən işləməsəm də, Kərimlinin yediyini, içdiyini burnundan gətirməliyəm.

Nazim İlham qələmini yerə qoyub təmkinlə:

- Bilirsiniz, yoldaş Tahirov, - dedi. - Sizi başa düşürəm, ancaq hələlik hansınızın haqlı olub-olmadığı barədə fikir yürüdə bilmərəm. Adətən, belə dolaşıq məsələlərdə hər kəs özünə haqq qazandırmağa çalışır. Ola bilsin ki, sabah Ziyad Kərimli ilə görüşüb-danışsam, o da elə faktlar gətirə bilər ki, Siz borclu qalarsınız. Burada dediklərinizi şübhə altına almaq istəmirəm. Yəqin ki, əlinizdə gediklərinizi təsdiq edən konkret sənədlər var, eləmi?

- Bəli, inanmırsınızsa, sabah-birisi gün, haçan deyirsiniz gətirə bilərəm.

Nazim İlham:

- Hələlik Sizə inanmamağa haqqım yoxdur. Sabah elə təxminən bu vaxtlar ərizənizlə birlikdə həmin sənədləri gətirin, mütləq məşğul olaram. Bu, bizim borcumuzdur. Dediklériniz mənim üçün də maraqlıdır.

Təhmiraz Tahirov gedəndən bir-iki saat sonra Bakıdan zəng vurub, Nazimi sabahkı iclasa çağırdılar. Kollegiya iclasında onun yaradıcılıq fəaliyyəti müzakirə olunmalı idi. Nazim günün ikinci yarısı tez-tələsik qatara əyləşib, səhərisi Bakıda oldu. Redaksiyanın daxili divar qəzetində fəal müxbir kimi onun şəkli verilmişdi. Şəklin altında gah ciddi, gah da gülməli məqalələrinə şer qoşulmuşdu. Nuh əyyamından işləyən qələmi korşalmış müxbirlərdən birinin də karikaturası çəkilmişdi. İş vaxtının axırına iki saat qalmış kollegiya iclası başlandı. Ədəbiyyat və incəsənət şöbəsinin müdiri Nazim İlhamın yaradıcılığı barədə məruzə etdi. Sonra çıxışlar oldu. Əksəriyyət yaxşı danışdı. Bəzi nöqsanları da göstərildi. Axırda Xaspolad Həsənoğlu redaktor kimi müzakirəyə yekun vurdu:

- Nazim İlhamın hekayə, oçerk və felyetonları yaxşı səslənir, - dedi. Ciddi məsələlərə toxunur. O vaxt Xırmanlar məscidində baş verən əhvalatlar ustalıqla təhlil olunmuşdu. Cəsarətli yazı

idi. Biz də onu risklə dərc etdik. Sadə adamlardan çoxlu razılıq məktubu almışıq. Ancaq yuxarılarda onu bizə irad tutdular. Vilayət partiya komitəsinin birinci katibi Şirxan İsmayılzadə məqaləyə etirazını bildirmişdi. Onun üstündə hətta Moskvanın nümayəndəsi Sergey Lukyanovla Sekanın zamzavotdeli Rahib Zərbəliyevlə üz-üzə gəldik. Aramızda giley-güzar oldu. Yoldaşlar məndən incidi də. Lakin bunlar məni heç də narahat etmir. Məni narahat edən o məqalələrdir ki, səs-səmiri çıxmır. Qəzet səhifəsində havayı yer tutur, kağız korlanır, vəssalam! Ədalətli, prinsipial, cəsarətli çıxışları üzümə söz gətirən jurnalistlər gözümdə daha da ucalır.

Xaspolad Həsənoğlu müzakirənin gedişində qeydlər etdiyi kağıza gözucu nəzər salıb sözünə davam etdi:

- Nazim İlhamın bir üstünlüyü də onun ayıq-sayıq olması, hadisələri vaxtında qabaqlayıb, onu isti-isti qəzet səhifəsinə çıxara bilməsidir. Əslində müxbir elə "xəbərdar" deməkdir.

Həsənoğlu gülümsünərək:

- Xatirimə bir rəvayət düşdü, - dedi. - Bir ərəb erkək atda, onun xanımı isə madyan atda yol gedirmişlər. Rast gəldikləri çinar ağacının dibində dincəlib, istirahət etməli olurlar. Onları yuxu tutur. Ərəb ayılanda görür ki, arvadın mindiyi madyan yoxdur. Açılıb harasa gedib. Ərəb mütəəssir olur. Qadını tərkinə alıb yoluna davam edir. İrəlidəki kəndin yaxınlığında qarşılaşdığı adamlardan soruşur:

- Ey bəradər, bizim həmsayeyi mükərrəmənin ünası münnəsi çinar ağacından fərar eliyib! Ayə, müxbirsiniz, ya yox?!

Onlar da cavab verir ki, - xeyr, biz müxbir deyilik.

Hamı gülüşdü. Redaktor:

- Burada gülməli bir şey yoxdur: Və məni də hərfi mənada başa düşməyin, - dedi. - Bu misalı çəkməklə Sizə çatdırmaq istəyirəm ki, müxbir elə xəbərdar deməkdir.

* * *

...Nazim İlham xəstələndiyi üçün Bakıda on gündən çox ləngiməli oldu, daha doğrusu, boğazındakı artıq ət kəsilib çıxarılmışdı. Özünü düzəldib işlədiyi zonaya qayıdandan sonra hey fikirləşirdi. Onun boynundakı yük daha da ağırlaşmışdı. Narahat hisslər keçirirdi. Gecə-gündüz özünü oda-gözə vururdu ki, redaksiyada onun barəsində yaranmaqda olan xoş təəssürat korlanmasın. Səhərertə evdən çıxanda telefon zəng çaldı. Şəhər prokurorunun səsi eşidildi:

- Nazim müəllim, başqa vacib işiniz yoxdursa, Sizinlə görüşmək istəyirəm.

- Xeyirdimi?

- Həbsxanada bir nəfər dustaq aclıq elan edib. Tələbi də odur ki, şəhər prokuroru və bir də ki, respublika qəzetinin müxbiri ilə görüşsün. Etiraz etməsəydiniz, onu birlikdə qəbul edərdik, görək nə demək istəyir.

Nazim prokurorun fikri ilə razılaşdı. Onlar birlikdə həbsxanaya yollandılar.

Köhnə vaxtlar tikilmiş həbsxana binası şəhərin kənarında, hündür hasara alınmış çılpaq səhrada yerləşirdi. Burada vilayətdən başqa, respublikanın da müxtəlif rayonlarından gəlmiş dustaqlar saxlanılırdı. Həbsxananın qabağında üz-gözündən nigarançılıq və qəm-qüssə yağan, boynu bükük qadın və kişilər dayanmışdı. Hiss olunurdu ki, içəridəkilərin qohum-əqrəbalarıdır. Ora-bura vurnuxan həbsxana işçiləri qapını kəsdirən dustaq sahiblərinə çəmkirib:

- Əl-ayağa dolaşmayın! Çəkilin burdan, çəkilin! - deyə hərdən qışqırırdılar.

Giriş qapısının arxasında dayanan növbətçi dəmir barmaqlıqların arasından prokurorla Nazim İlhamı görəndə telefonla

həbsxana rəisinə onların gəlişi barədə məlumat verdi. Rəis məsələdən hali olduğu üçün - buraxın gəlsin, - dedi. Növbətçi rəsmi qaydada ayağa qalxıb elektrik düyməsini basdı. Ağır dəmir qapılar avtomatik olaraq daranq-daranqla aralandı. Prokurorla jurnalist içəri daxil oldular. Bayaqdan onları gözləyən həbsxana rəisi qabağa düşüb, bələdçilik etməyə başladı...

Yad adamların hənirtisini alan xüsusi təlim görmüş itlər yanyörədə zəncir gəmirirdilər. Dəmir tor arxasında özünü yeyib-tökən qaraqılçıq ovçarkanın zəhmli, kal səsi həbsxananın hündür divarlarını titrədirdi. Həyətdə tək-tük gözə dəyən şam ağacları da adama vahiməli görünürdü. Əlində avtomat silah olan cantaraq növbətçi üç nəfər dustağı qabağına qatıb kameradan tualetə tərəf aparırdı. Onların biri Nazim İlhama tanış kimi gəldi. Və həmin şəxs tanınmamaq üçün tez əlini üzünə tutub əks tərəfə yönəldi. Nazim İlham bu adamı kiməsə oxşatdı. Lakin ha fikirləşdi, xatırlaya bilmədi. - "Kim olar?" - öz-özünə düşündü. - Boy-buxunu, ədalı yerişi vaxtilə Çayqovuşan rayonunda bir yerdə işlədiyi Nadir Nəsrullayevə necə də oxşayır, ilahi! Yoox, ola bilməz! O hara, bura hara?! - Nazimin qəlbində cürbəcür qara şübhələr dolaşdı.

Həbsxana rəisi yan tərəfdəki kameralara döndü. Prokurorla müxbir də onun ardınca getdilər. Bir nəfər kəsif qoxu gələn, qaranlıq və rütubətli dustaq kamerasının küncündə çöməlib kürəyini nəm divara söykəmişdi. O, prokurorla müxbirin hənirtisini alanda yerində qurcalandı. Bir qədər dirçələn kimi oldu. Nazim İlham aclıq elan edən dustağı tanıdı. Neçə gün bundan əvvəl Bakıya kollegiya iclasına getməmişdən qabaq qəbulunda olan və görüşüb söhbət etdiyi Təhmiraz Tahirov idi. Aman Allah! Bu bir neçə günün içərisində o, necə də dəyişmişdi. Ovurdları batmışdı, iri, oynaq gözləri çuxura düşmüşdü.

Yalvarıcı baxışları, sağalmaz dərdə düçar olmuş xəstənin həkimdən imdad gözləməsini xatırladırdı. Təhmiraz Tahirov başını güclə yuxarı qaldıraraq, nəfəsini çiyinlərindən ala-ala:

- Sizi nə maraqlandırır?! - deyə soruşdu. Və kinayə ilə gülümsəyərək:

- Bəli, aclıq elan etmişəm! - dedi. Sonra yarıyumulu gözlərini, yatdığı kameranın məchul nöqtəsinə zilləyərək üçüncü adamla danışırmış kimi:

- Prokuror! Müxbir! Ha... ha... ha... - acı qəhqəhə çəkdi. - Bağışlayın, sizin üzünüzə baxa bilmirəm, - dedi. - İstəmirəm xəcalət çəkəsiniz. Ancaq sizdə utanan üz də görmürəm!!! Bir deyin görüm, hansı günahıma görə bura girmişəm? - Onun təpimiş dodaqları güclə aralandı, səsi birdən-birə kallaşdı. - Bəlkə mənə yazığınız gəlir, hə? Yoox! Buna inana bilmərəm! Düzünü bilmək istəyirsizsə, dustaq olsam da sizin kimi vəzifə düşkünü, vicdanı kəm prokurorla cızmaqaraçı jurnalistlərin halına acıyıram. Ona görə ki, hər ikiniz, həm də elə sizin kimilər tutuquşu kimi əzbərləyib, əldə bayraq etdiyiniz qərarlara, qanunlara yox, üstündə əsdiyiniz vəzifənizin dərdindən qarşısında min cürə sifətə düşdüyünüz ixtiyar sahiblərinə qulluq göstərirsiniz.

Prokurorla müxbir ehtiyatla bir-birinin üzünə baxdılar. Onlar fikirlərini sözlə ifadə etməsələr də, rastlaşan baxışlarında belə bir məna dolaşdı ki, - azadlığı əlindən alınmış bu zavallı insanın sözlərinə əhəmiyyət verib, onun səviyyəsinə enmək lazım deyil.

Dustaq birdən huşunu itirən kimi oldu. Xeyli hərəkətsiz qaldı. Bir qədər susduqdan sonra yenə üsyankar, acı dilini işə saldı:

- Elə başa düşməyin ki, sizdən imdad gözləyirəm, - dedi. - Xeyr, əsla! Onda axmaqların axmağı olardım! Onsuz da sizdən gördüyümü görmüşəm! Bir də ki, axı siz kimsiniz?! Heç kim!

Külli-aləm bilir ki, təqsirsizəm! Ancaq noolsun?! Haqq, qanun mənim tərəfimdə olsa da, Ziyad Kərimlilərin qarşısında acizdir. Çünki mən boş dağarcığam, o isə dolu çuvaldır. Mən gəvəzə-gəvəzə danışan çərənçiyəm! Onun isə hər kəlməsi qızıldır!!! Qələminin sorağında olduğum Siz Nazim İlham da məni dinləyəndən sonra - Sabah gələrsən, - deyib sonra sivişib aradan çıxdınız! Qorxaq! Yadımda deyil, hardasa oxumuşam ki, qorxaqların xisləti məşəlin işığı kimidir. Məşəl titrədiyi üçün ətrafına yaxşı işıq saçmır. Prokurora da, Sizə də bəslədiyim ümid işığı artıq sönüb. İnnən sonra onun təzədən şölələnəcəyinə inamım qalmayıb. Sizin kimi baş girləyən hüquq və mətbuat işçilərinə nifrət edirəm! Bax, bu sözləri üzünüzə deyib ürəyimi boşaltmaq üçün sizin bura gəlməyinizi tələb eləmişəm. İndi rədd olun burdan! Özüm öz dərdimi çəkə bilərəm. Yəqin axırı ölüm deyil?! Ona da hazıram!

- Siz yanılırsınız, yoldaş Tahirov. Həmin vaxt görüşümüzün baş tutmamasının üzrlü səbəbi var. Məni Bakıya çağırdılar. Sonra da bir neçə gün xəstə oldum. Həmin söhbətimiz yenə də qüvvəsində qalır. Sizə söz verirəm ki...

Dustaq başını buladı və acı istehza ilə:

- Nazim müəllim! Artıq gecdir! - dedi. - Əlimdə güllə açılıb! Başıma dəstə yığıb Ziyad Kərimliyə qəsd eləmişəm! Ancaq Ziyad Kərimlinin anası namaz üstəymiş! Atdığım güllə yan keçib! Qırmalar onun kəlləsini göyə sovurmayıb! Bayram qovurğası kimi cibinə tökülüb! Bəli, bəli! Cani olduğum təqdirdə Sizin qələminiz nə edə bilər? Heç nə!! İndən sonra daldan atılan daş topuğa dəyər!

Nazim istədi izah etsin ki... Ancaq dustaq onu eşitmək istəmirmiş kimi, üzünü yana çevirib, əlinin arxası ilə müxbirin demək istədiyi sözü rədd elədi. Dustaq prokurora qarşı bir neçə tələb irəli sürdü... Sonra Nazimə tərəf yönələrək kinayə ilə:

- Sizinlə ilk söhbətimizdən neçə gün keçsə də, şükür Allaha, axır ki, görüşümüz baş tutdu! - dedi. - Ancaq müxbir məntəqəsində yox, dustaqxanada! Sağ olun! Bu, mənimlə Sizin axırıncı görüşünüzdür! Gedin cızmaqaranızla məşğul olun. Yaldan, yamacdan, çöldən-çəməndən, güldən-çiçəkdən, nə qədər yazırsız-yazın. Bu şərtlə ki, yazdıqlarınız yuxarıların xoşuna getsin!

Təhmiraz Tahirov daha onlarla danışmaq istəmirmiş kimi xeyli susdu. Sonra başını ağır-ağır yuxarı qaldırdı və Nazimlə prokurora ikrahla nəzər saldı:

- Başa düşürəm, - dedi. - Dustaqxanaya düşənin şikayətinə baxmaqdan zəhlətökən iş yoxdur. Bu gün mən əzab çəkirəm, siz isə xəcalət. Bəli, xəcalət... Buna inana bilseydim, nə dərdidi?! Onda bu da mənim üçün bir təsəlli olardı. Fikirləşərdim ki, qarşımda dayanan ədalət carçısı ilə, insan hüquqlarının keşikçisi düçar olduğum haqsızlıqları başa düşürlər. Lakin Ziyad Kərimlinin məkr səddini aşıb mənə kömək əli uzatmaqda acizdirlər. Heç olmasa bu məlum həqiqəti açıq etiraf etmək üçün özünüzdə cəsarət tapa bilsəydiniz, dustaq qəlbim sizi bağışlardı. Nə isə, - o işlətdiyi sözlərə peşman olubmuş kimi başını buladı. - Bir də ki, axı bütün bu dediklərimin və demək istədiklərimin nə mənası var?! Çünki siz heç kimsiniz! Ona görə də xahiş edirəm məni tərk edin! Sizə baxdıqca, onsuz da darısqal, darıxdırıcı məhbəs məni daha da sıxır. Siz jurnalist, hüquqşünas kimi bu gün heç nəyə yaramırsınız. Heç nəyə yaramayan adam, ən yaramaz adamdı.

Təhmiraz Tahirov yanpörtü çarpayısına uzanıb, üzünü divara çevirdi. Nazim İlhamla prokurorun ona vermək istədiyi suallar cavabsız qaldı. Onlar təqsirkar kimi bir-birinin üzünə baxdılar və şikayətçinin qarşısında günahkar olduqlarını etiraf edirlərmiş kimi dustaq kamerasını tərk etdilər.

Nazim İlham prokurora:

- Siz gedin, mən bəlkə bir-iki saat ləngiməli oldum, - dedi. Həbsxana rəisi ilə bir balaca söhbətim var.

Prokuror razılaşdı. Nazim İlham həbsxana rəisi ilə onun kabinetinə keçdilər. Nazim İlham əvvəlcə ordan-burdan, nə bilim, dustaqxana həyatından söhbət saldı və soruşdu:

- Bayaq o boylu-buxunlu, cantaraq növbətçinin qabağında gedən üç nəfər kimlər idi?

- Hə, mən hiss elədim, onların biri altdan-altdan Sizə diqqətlə baxırdı. Görünür, tanış adamdır, - rəis cavab verdi. - Həbsxanaya təzə qəbul eləmişik. Bir həftə olar. Dünən arvadıynan qardaşı da gəlmişdi. Görüş istədilər, vermədik. Buna ixtiyarımız da yoxdur. İstintaq altında olanların görüş məsələsini prokurorluq həll edir. Ordan bura bir şələ azuqə də gətirmişdilər, hamısını qaytardım geri. Dedim bura həbsxanadır, yemək-içmək yeri deyil.

- Bax, həmin adamın kimliyi məni maraqlandırır. - Nazim fikrini açıqladı.

Həbsxana rəisi dodağını büzdü:

- Başdan xarabın biri, - dedi. Sən bir gör insanların taleyini kimə tapşırırlar e! Uzun müddət Çayqovuşan rayon partiya komitəsinin birinci katibi olub. Əlindən xata çıxdığı üçün ötürüblər içəri. İkinci katibi gəbərdib. Tanımamış olmazsan, Nadir Nəsrullayev. Yəqin o Sizi hardasa görüb.

Nazim İlham həbsxana rəisinin sualından yayınaraq:

- Dediyiniz hadisə barədə dəqiq məlumatınız varmı?!

- İşi Respublika prokurorluğu aparır, - həbsxana rəisi cavab verdi. Müstəntiq gəlmişdi. Mənə hamısını ətraflı danışıb. Onlar üç nəfər olublar. Nadir Nəsrullayev özü, ikinci katib, bir də ki sürücü. Bazar günü bulaq başından gəlirmişlər, yeyib-içməkdən. Özləri də lülqənbər. Görürlər ki, yoldan bədheybət bir heyvan

keçir. Kaftara oxşuyurmuş. İkinci katib deyir ki, bu vaşaqdı, pələng kimi zolaqları var. Sürücü maşını düz həmin vəhşinin üstünə sürür ki, basıb öldürsün. Ancaq mümkün olmur. Vaşaq sivişib aradan çıxır. Yolun kənarındakı daşlıqda gözdən itir. Sürücü keçib getmək istəyir. İkinci katib ayağını diriyir ki, yoox, olmaz, gərək onu öldürək, maşını saxla! Onların üçü də maşından düşür. İkinci katib əyilib yerdən daş götürmək istəyəndə Nadir Nəsrullayev maşında gəzdirdiyi kiçik kalibrli tüfəngin ağzına bir patron verib irəli yeriyir. Sərxoş vəziyyətdə tüfəngin lüləsini ikinci katibin qabırğasına dirəyib, deyib ki, kənara çəkil, kaftardı, vaşaqdı, canavardı, nədi, onun təpəsini oddamasam kişi deyiləm. Bu heyndə özündən asılı olmayaraq Nadir Nəsrullayevin barmağı tətiyə toxunur... Güllə ikinci katibin qara ciyərindən keçir. İkinci katib qışqıra-qışqıra bircə onu deyir ki, - vay, namərd! Məni bədbəxt... Sözünün dalı gəlmiyib. Dili tutulsa da sağmış, nəbzi vururmuş. Sürücü deyib ki, gəl bunu tez həkimə çatdıraq, Nadir Nəsrullayev razı olmayıb. Yəqin ki, fikirləşib onsuz da öləcək. Keçinməmiş dili açıla bilər və kim tərəfindən vurulduğunu deyər. Bu mülahizə ilə yaralını, canını tapşıranacan yolun kənarında saxlayıblar. Motosikletlə yoldan keçən bir nəfər elektrik montyoru hadisənin üstünə çıxıb. Onu da hədələyiblər ki, heç nə görməmisən! Bu məsələni açıb-ağartsan, özünü ölmüş bil. Səni işıq üzünə həsrət qoyarıq...

Nazim İlham həbsxana rəisini təəssüflə dinləyirdi. Rəis isə baş vermiş hadisəni olduğu kimi dəqiq danışırdı:

- Müstəntiqin deməyindən belə çıxır ki, burada qəsd yoxdur. Prosto, ehtiyatsızlıqdır. Mən özüm də elə o fikirdəyəm. Ancaq faktiki olaraq adam ölüb. Cinayəti də törədən birinci katib olub. Ancaq yerli prokurorluq birinci katibi təmizə çıxarmaq üçün ilk sənədləşdirməni saxtalaşdırıb, işi başqa səmtə yönəldib. Guya

güllə ikinci katibin öz əlində açılıb, özünə dəyib. Ancaq birinci katibi istəməyənlər məsələni təzədən közərdiblər. İş böyüyəndən sonra respublika prokurorluğu məsələyə qarışıb. Onun istintaqını aparan müstəntiqi çoxdan tanıyıram. Köhnə qurddur! Nadir Nəsrullayevi nə qədər bərkə çəkib, düz ifadə verməyib. Deyib ki, güllə ikinci katibin öz əlində açılıb, vəssalam! Sürücünü dindirəndə müstəntiq çox bic tərpənib. Ona and verib ki, düzünü boynuna alsın. Kommunist kimi! Sürücü partiya biletinə, Leninin qəbrinə and içib ki, burda başqa adamın günahı yoxdur. Tüfəng ikinci katibin öz əlində açılıb, özünə dəyib.

Həbsxana rəisi təəccüblə:

- Sən bir müstəntiqin çoxbilmişliyinə bax e. Quran tapdırıb, gətirdib. Bu dəfə sürücünün qarşısına Quranı qoyub. Deyib indi də Qurana and iç ki, güllə ikinci katibin əlində açılıb.

Sürücü Quranı görən kimi qolları düşüb yanına. Hadisəni necə var, olduğu kimi açıb töküb ortalığa... Axırda katib özü də priznaniyaya gedib. Bura gələndə ilk günlər bərk darıxırdı. İki dəfə çağırıb qəbul eləmişəm. Katib dəli kimi olmuşdu. İnsanın üzü bərkdi. İndi öyrəşib, özünü quzu kimi aparır. Əvvəlki kimi atılıb-düşmür. Bir dəfə onu qəbul edəndə mənə ilan dili çıxartdı. Yalvardı ki, məni içəri salma. Qoy elə həyətdə ağaclara qulluq edim. Qaçaqarın da işini görmək mənə qəbuldu. Lijbı çöldə qalım, açıq havada. Kamerada ürəyim sıxılır, az qalır bağrım çatlasın. Birtəhər onu başa saldım ki, buna ixtiyarım yoxdur. İstintaq altında olan dustaqlardan təsərrüfat işlərində istifadə etməyə icazə verilmir. Məhkəmə iş kəsmiş olsaydı, ayrı məsələ. Onda həbsxananın o qədər işi var ki. Ağacları becərərdin, dəmir rəngləyərdin, qaçaqar işini də gördürərdik, dustaqların çoxu belədir. Siftə dözmürlər. Sonra yavaş-yavaş öyrəşirlər. Onu qınamıram. Birinci katib! Deputat... O cür yüksək vəzifə

sahibinin birdən-birə dəmir barmaqlıqlar arasına düşməsi, əlbəttə, çətindir. Ömrüm bu türmə işlərində keçib. Onu bilirəm ki, həbsxana kişi yeri deyil. Neçə ildi işləyib görürəm də. Düşmənim də bura düşməsin... Mən bir az Allaha inanan adamam. Yəqin o Nadir Nəsrullayevin öz əməlləridir, qabağına çıxır. Bir məsələ onun vəziyyətini daha da ağırlaşdırıb. Kabinetdəki dəmir kassadan çoxlu pul, onluq, beşlik qızıl çıxıb. Bir də ki, rüşvət aldığı və verdiyi otuz-qırx adamın adı olan siyahı. Odur ki, bu məsələ dərinləşib. Çox adamın başı ağrıyacaq...

Həbsxana rəisi danışdıqca Nazim İlham redaktorluq dövründə başına gələnləri, Bəsirənin faciəli aqibətini xatırlayırdı. Ancaq özünü elə göstərirdi ki, guya bütün bu deyilənlərin ona qətiyyən dəxli yoxdur. Həbsxana rəisini bu cür diqqətlə dinləməsi onun jurnalist marağından irəli gəlir. Nazim İlham soyuqqanlılıqla:

- Dediyiniz dustağı elə-belə tanıyıram, uzaqdan-uzağa. Onunla görüşmək olarmı?!

Rəis tərəddüdlə çiyinlərini qaldırdı:

- Qanunla düz deyil, - dedi. - Ancaq Sizi çox maraqlandırırsa, buyurun. Onu çağırtdırım bura, elə mənim kabinetimdə... İstəsəniz Sizin üçün ayrıca bir otaq da təşkil edə bilərəm.

Nazim İlham razılaşmadı:

- Xeyr, - dedi. - "Onun vəzifəsi, azadlığı əlindən alınsa da, məndən artıq olan yaş fərqi qalır. Bir də ki, dünənəcən hamı qabağına yüyürən şəxsi indi əlacsız görüb, ayağıma gətirməyi özümə rəva görmürəm". - Bir anlığa düşündü. - Mümkünsə, onunla elə cəza çəkdiyi kamerada görüşüm, - əlavə etdi.

- Etirazım yoxdur, - həbsxana rəisi razılaşdı.

Nazim İlham:

- Ancaq dustaqla təklikdə görüşmək istəyirəm, - dedi.

Həbsxana rəisi razılaşdı və:

- Onsuz da o, bir adamlıq kamerada saxlanılır, - dedi.

Nazimin təkadamlıq kameraya daxil olması Nadir Nəsrullayev üçün gözlənilməz idi. O, yöndəmsiz taxta çarpayının üstünə salınmış nimdaş döşəyin üstündə oturub, məlul-müşkül başını aşağı dikmişdi. Nazim İlham içəri daxil olanda yerindən tərpənmədi. Dustaq əvvəlcə elə hesab etdi ki, gələn həbsxana işçisidir. Yenə nə isə onun zəhləsini tökəcək. Nazim İlham onu süst vəziyyətdən ayıltmaq üçün ehtiyatla:

- Nadir Xələfoviç, - çağırdı.

Dustaq tanış səsi eşidəndə diksinən kimi oldu və tez qapıya tərəf boylandı. Gözü Nazim İlhama sataşanda quruyub qaldı. Bu görüş ona yuxu kimi gəlirdi. Dustaq özündən asılı olmayaraq, tez ayağa qalxdı:

- Siz... Siz... hardan belə? - dili dolaşdı.

Nazim İlham onunla ədəb və ehtiramla salamlaşdı. Dustağın sifəti avazımışdı. Gözləri ölgünləşmişdi. Ovurdlarının sümüyü çıxmışdı. Boğazı kilidlənmişdi. Nadir Nəsrullayev yazıq və yalvarıcı görkəm alaraq:

- Yəqin burada olduğumu eşidib gəlmisən, eləmi?! - soruşdu.

Nazim İlham:

- Xeyr, bu bir təsadüfdür, - dedi. - Ancaq burada olduğunuzu bilsəydim, Sizə çoxdan baş çəkərdim. Bu gün türmədə başqa bir işim vardı, prokurorla birlikdə gəlmişdim. Bayaq Sizi kənardan ötəri gördüm, ancaq tanıya bilmədim, sadəcə oxşatdım. Sonra həbsxana rəisindən öyrəndim ki...

Nadir Nəsrullayev udqundu:

- Hə, - dedi. - Durduğum yerdə xataya düşmüşəm.

Nazim ona bu barədə uzun-uzadı nağıl açmağa imkan vermədi və:

- Bu məsələdən dəqiq olmasa da, az çox məlumatım var, -

dedi. - Türmənin rəisi mənə ucundan-qulağından danışıb. Nə etməli?! Olacağa çarə yoxdur! İş adamın başına gələr! İnsan həyatda hər şeyə hazır olmalıdır! - ona toxtaqlıq verdi.

Nadir Nəsrullayev gözləyirdi ki, Nazim İlhamın əlinə girəvə düşüb, o, fürsətdən istifadə edib olub-keçənləri onun üzünə çırpacaq. Lakin köhnə redaktor palan içi tökməkdən yan keçdi. Əksinə, Nadir Nəsrullayevin halına acıdığını bildirdi və ona ürək-dirək verdi:

- Olan olub, keçən keçib. Daha darıxmağın, fikir eləməyin mənası yoxdur. Hər halda səbirli olmaq lazımdır. Axırı yaxşı olar. Bu, təsadüfən baş verən hadisədir. Hər adamın başına gələ bilər. Yəqin ki, məhkəmə xidmətlərinizi nəzərə alıb, cəzanızı yüngülləşdirər.

Dustaq üzbəüz dayandığı adamın qarşısında ət tökürdü. O, Nazim İlhama yox, təkadamlıq kameranı güclə işıqlandıran kiçik pəncərəyə baxırdı. Nazim onun keçirdiyi daxili iztirabı hiss edərək:

- Həbsxananın qanunlarını özünüz bilirsiniz də, - dedi. - Çox danışmağa icazə yoxdur. Görüş vaxtımız qurtarır. İndi deyin görüm, Sizə nə köməyim dəyə bilər?! Mənə sözünüz?

Nadir Nəsrullayev bir az duruxub:

- Nə sözüm olacaq, - boğuq səslə dilləndi. - qaldığım bu kamera gördüyün kimi çox rütubətlidir. Divarları su verir, havası da çox ağırdır, nəfəs almaq olmur. Sözün keçsə, de kameramı dəyişsinlər.

Nazim İlham:

- Məncə, bu, mümkündür. Həbsxana rəisindən xahiş edərəm. Əminəm ki, o məni eşidər.

Nadir Nəsrullayev:

- Bir də ki, bura sərhəd zonası olduğu üçün gediş-gəlişə xüsusi buraxılış kağızı lazımdır. Ona görə də yanıma gəlib-

gedən qohumlarım çətinlik çəkir. Məni Bakı türmələrinin birinə yatab eləsələr yaxşı olar. Özüm də bir-iki dəfə naçalnikdən xahiş eləmişəm. Ancaq dustağın sözünə kim baxır? Siz desəniz, yəqin ki, eşidərlər. Yatabımı tezləşdirsəydilər pis olmazdı.

Nazim İlham:

- O da asan məsələdir. Düzdür, buna səlahiyyətim çatmır, lakin yoldaşlarla danışaram. Güman edirəm ki, sözümü yerə salmazlar. Başqa nə xahişiniz var?! Çəkinməyin, deyin, əlimdən nə gəlsə...

- Siz mənə xəcalət verirsiniz... Gərək bağışlayasınız, qarşınızda...

Dustaq istədi ki, köhnə söz-söhbətlərin üstünə qayıtsın, Nazim İlham imkan vermədi. Tez Nadir Nəsrullayevə əl uzatdı:

- Yaxşı, xudahafiz, məni bağışlayın, getməliyəm. Dediklərinizdən də arxayın olun, çalışaram...

Kameranın dəmir qapısı örtüldü. Nadir Nəsrullayev ayaq üstə xeyli key kimi qaldı. Sonra yenə qəddini əyib, dizlərini büküb, divarlarından su axan darısqal kameranın qaranlıq küncündəki həm çarpayını, həm də stulu əvəz edən yöndəmsiz taxtanın üstündə oturdu. Ölgün gözlərini, kiçik pəncərənin gen dünyanın parlaq gündüzündən soraq verən və həsrətində olduğu solğun işıltısına zillədi. O, hərdən mürgülədikcə, həbsxana işçilərinin tez-tez açıb-örtdükləri dəmir qapıların vahiməli cingiltisi Nadir Nəsrullayevi səksəndirirdi.

* * *

...Redaksiyadan tez-tez zəng vurub pambıqtəmizləmə zavodu barədə yazılmış imzasız məktubun cavabını təkidlə tələb edirdilər. Nazim İlham nəzarətdə olan məktubdakı faktların yoxlanmasını gecikdirdiyi üçün şöbə müdiri bu barədə redaktora şikayət edəcəyini bildirmişdi. Ona görə Nazim İlham Nadir

Nəsrullayevin xahişlərini yerinə yetirdikdən sonra başqa işlərini kənara qoyub, pambıqtəmizləmə zavoduna yollandı. Zavodun direktoru Dadaş Umudov ağlı kəsəndən burada qəbulçu, məntəqə müdiri, əmtəəşünas işləyirdi. Qəbul və emal işinin cikinə-bikinə yaxşı bələd idi. Son on il idi ki, direktor stulunda əyləşmişdi. Saçları vaxtından əvvəl töküldüyündən başının ortası tavandan asılmış elektrik lampasının altında işım-işım işıldayırdı. Arxa tərəfdən boynu quzğun boynunu xatırladırdı. Danışığında bir ötkəmlik vardı. Müxbirin gəlişi onun halına əsla təfavüt eləmədi. Nazim İlham əvvəlcə zavodun istehsal gücündən, müəssisənin gəlirindən-çıxarından söhbət saldı. Sonra qovluğu açıb, içindəki dəftərçəni vərəqlədi. Direktora verəcəyi sualları gözucu nəzərdən keçirdi. Ortalığa tez iki stəkan çay gəldi. Nazim direktordan sözarası soruşdu:

- Aylıq məvacibiniz neçədir?

- Heç, yüz əlli manat, - direktor həvəssiz cavab verdi.

- Hökumət binasında qalırsınız, yoxsa şəxsi eviniz var?

- Əvvəl Xaqani küçəsindəki o üçmərtəbəli binada yaşayırdım. Gördüm əl vermir. Torpaq sahəsi alıb, həyət-bacalı ev tikdirmişəm.

- Kənddə eviniz var?

- Bəli, yəqin bizim kənddə olmusunuz. O, məktəbdən aşağıdakı, üstü ağ dəmirli ikimərtəbəli bina mənimdir. Atadanqalma evdir. Çiy kərpicdən idi, xoşuma gəlmədi, sökdürüb təzədən tikdirmişəm.

- Neçə nəfər ailə üzvünüz var?

- Altı uşaqdır, arvadla mən bir yerdə səkkiz nəfərik.

- Onlardan neçəsi ailəyə qazanc gətirir?

- Heç biri, hamısı havayı yeyəndir. Arvad müəlliməliyi qurtarıb, onu da işləməyə qoymuram, ev işlərilə məşğul olur. Deyirəm elə bu altı uşağı böyüdüb bir yana çıxartsan bəsdi.

- Uşaqların məktəb qurtaranı var?

- Xeyr, dördü Bakıda institutda oxuyur, ikisi də kənd məktəbində. Hələlik qurtarıb qazanc gətirən yoxdur.

- Bakıdakılar harda qalır, yataqxanada, yoxsa ev düzəltmisiniz?

Nazim İlham sualları yağdırdıqca zavod direktoru papirosu papirosa calayırdı. Dadaş Umudov axırıncı suala gülə-gülə cavab verdi:

- Bu boyda zavodun direktoru olasan, uşaqların da yataqxanada qala? Mən ölmüşəm ki, uşaqlarım kiminsə qoltuğuna sığınsın? Yasamal tərəfdə xaricə köçən bir nəfər yəhudinin evini alıb yığmışam içinə.

Direktorun qorxub-çəkinmədən verdiyi düzünəqulu cavablar Nazim İlhamın həm xoşuna gəldi, həm də onda təəccüb doğurdu: - "Bəlkə bu özündənmüştəbeh direktor düz danışmır, məni yoxlamaq istəyir?" - öz-özünə düşündü və ona belə bir sual verdi:

- Yaxşı, aldığınız maaş bir belə xərc-xəsarətin qarşısında...

Direktor qəddini düzəldib gülümsündü və:

- Bacıoğlu, - dedi. - Axırda belə bir sual verəcəyinizi gözləyirdim. Onda icazə verin mən Sizdən bir şey soruşum.

- Buyurun.

- Məni sorğu-suala çəkməkdə məqsədinizi başa düşdüm. Alnıma güllə sıxsalar da, düz danışmağı xoşlayıram. Sözümü də həmişə pramoy demişəm. Bu kabinetdə ikimizdən başqa heç kim yoxdur. Bir sənsən, bir də mən! İndi deyin görüm, kişi kimi mərdi-mərdanə danışaq, yoxsa saxta-suxta söz güləşdirək?

- Əlbəttə, sözün doğrusu yaxşıdır, - Nazim cavab verdi. - Dünyada yüz biclik varsa, onun doxsan doqquzu düzlükdü, - əlavə etdi.

Dadaş Umudov:

- Mənə ziyan gəlsə də olanı deməliyəm. Aldığım maaşla nə ev tikdirmək olar, nə Bakıda uşaq oxutdurmaq olar, nə də ki, külfət saxlamaq. Maaşım heç evin bazarlığını görmür. Cavan oğlansan, oğlum yerindəsən, saqqalımın bu ağ vaxtı durum yalan deyim?! Formalistlik nəyə lazımdır? Əgər aldığım aylıq maaşa qane olsam, başqa əyri yola getməsəm, o raykom, ispalkom, məni bir gün də bu zavodda direktor işləməyə qoymaz, mitilimi atarlar bayıra. Prokuror da keçi subulandırması eləyib bir bəhanə ilə basar içəri. Ona görə də məcburam saxtakarlıq eliyim. Oğurladığımdan həm özümü dolandırmalıyam, həm də bu zavoda qurd kimi göz dikənlərin ağzını yummalıyam. Ancaq bu bir çörək deyil yeyirik! Evimdə rahat yata bilmirəm! Gecələr yuxumu qarışdırıram. Qapı cırıldayanda deyirəm, yəqin qırmızıpapaqlardandır, gəlir məni aparsın. Tez-gec o günü gözləyirəm. Ancaq başqa yolum yoxdu. Yeməliyəm, yedirtməliyəm, axırı nə olar, olar... Mən də bu yolu tutmuşam...

Nazim İlham fikrə getdi. Zavod direktoru əlindəki siqaretin tüstüsünü ciyərlərinə çəkib sol çiyninin üstündən kənara pülədi və müxbirin qarşısında buğlanan boğmalı stəkana işarə edərək:

- Nazim müəllim, çayını soyutma, iç - dedi.

Nazim İlham tələsik dəmlənmiş rəngsiz çaydan bir qurtum alıb, qarşısındakı qovluğu bağlaya-bağlaya ayağa qalxdı və zavod direktoruna əl uzadaraq:

- Məni bağışlayın, - dedi. - Vaxtınızı aldım.

Direktor:

- Bəs söhbətimiz nə yerdə qaldı? - soruşdu.

Nazim İlham gülümsəyərək:

- Söhbətimiz qurtardı, - dedi və üzünü əks tərəfə çevirib zavod direktorunun papiros tüstüsü ilə dumanlanmış kabinetini tərk etdi.

* * *

Aclıq elan edən dustağın tənəli sözləri Nazim İlhamı tərk etmirdi. Ondan kömək gözləyən bir adamın imdadına vaxtında çatmağa macal tapmadığı üçün özünü heç vəchlə bağışlaya bilmirdi.

Təhmiraz Tahirov başına gələnləri Nazimə yerli-yataqlı danışmışdı. Nazim İlham isə hələlik nə Təhmirazın dediyinə inanıb bel bağlayırdı, nə də ki, onun barəsində verilmiş həbs qərarının əsaslı olmasına. Ona görə də bu məsələdə fikrini dürüstləşdirmək məqsədilə Təhmiraz Tahirovun həbs olunmasına sanksiya verən şəhər prokuroru ilə görüşmək qərarına gəldi. Hündür boyu, dolu bədəni, ətli sifəti olan və həmişə səliqə ilə geyinib-gecinən şəhər prokuroru çoxdanın işçisi idi. Dediyinə görə altı rayon dəyişmişdi. Haracan da desən, yola yaxın, həlim adam idi. Raykomdan, ispalkomdan nə desəydilər, onun üçün qanun idi. Ölüm işi olsa da elə ki, yuxarılardan bir söz dedilər, batırmalıydı. Tay dursun raykomla, ispalkomla söz güləşdirsin, qanun belə getdi, məcəllə bunu tələb edir, o xasiyyəti yox idi. Söz düşəndə də deyirdi ki, raykomla raykomluq eləmək olmaz. Sabah iş tərsə düşəndə məni katibdən soruşurlar. Əvvəl-axır xasiyyətnaməmə o qol çəkməlidir. Və yaxud, bir balaca alt-üst eləsəm, hərləyib-fırlayıb kürəyimə bir partiya töhməti yapışdırarlar. Ondan sonra qanım gedər. Kimdi məni bu vəzifəyə yaxın qoyan? Prokuror həmişə deyir ki, qanunun qulpundan yapışmaq axmaqlıqdır. Əgər istəyirsənsə bu zəmanədə başın salamat olsun, işin də düz getsin, onda gərək yuxarılarla dil tapıb aşağıdakıları da birtəhər yola verəsən. İndiki dövr bunu tələb eləyir. Çox da atılıb-düşməyin axırı yoxdur. Mənnən neçəsi işləyib, görmüşəm də. Raykomla çənə-çənəyə durduğuna görə alığını aşırıb deyiblər xoş getdin. Nazim İlham rayon prokurorunun bütün bu xasiyyətlərinə yaxşı bələd idi. Ona

görə də prokurorla görüşəndə onu hürkütməmək üçün əvvəlcə gələcəkdən-keçəcəkdən söz saldı. Sonra söhbəti ustalıqla gətirib Təhmiraz Tahirovun üstünə çıxartdı. Dustağın adını çəkən kimi prokurorun ovqatı korlandı:

- Nazim müəllim, görürəm söz çəkmək istəyirsən. Mən ölüm, xatanı uzaq elə.

- Siz yanılırsınız, - Nazim prokuroru dilə tutdu. - Müstəntiqlər istintaqı tam başa çatdırmadan, qərar qəbul etmədiyi kimi, jurnalistlər də dəqiqləşdirilməmiş faktı qələmə almırlar. Təhmiraz Tahirovla əlaqədar söhbətimiz heç də o demək deyil ki, elə bu saat o barədə məqalə yazmaq istəyirəm. Xeyr, məsələ ondadır ki, xidmət etdiyim zonadakı hadisələrə biganə qala bilmərəm. Təhmiraz Tahirovun məsələsinə gəlincə, o həbs edilməmişdən qabaq bu əhvalatla bağlı mənə müraciət edib. Lakin həmin günün səhərisi Bakıya çağırıldığım üçün onun şikayəti ilə dərindən məşğul ola bilməmişəm. İndi kimliyindən asılı olmayaraq, bir insan kimi Təhmiraz Tahirovun taleyi məni çox düşündürür. Özünüz ki şahidsiz, aclıq elan edəndə türmədə bizə nələr dedi! Hiss etdim ki, siz onun dediklərinə əhəmiyyət vermədiniz. Ancaq Təhmiraz Tahirovun o sözlərindən sonra özümə gələ bilmirəm. Həmin gecə sabaha qədər yatmamışam. Elə bilirəm onun türməyə düşməsində günahkar mənəm.

Prokuror qaşqabağını salladı:

- Məni çətinə salırsan, Nazim müəllim, - dedi. - Düzünü deyim ki, bu, elə dolaşıq məsələdir ki, prokuror kimi ondan özüm də baş açа bilmirəm. Siz müxbir tayfasına etibar yoxdur. Birdən gedib yazıb-pozarsan, bunun zibilindən qurtara bilmərəm. - Prokuror bu sözü zarafatyana dedi və yenə ciddiləşdi: - Öz aramızda qalsın, Təhmiraz Tahirovun tutulması, əslində mənlik deyil. Bu işi Moskvaya qədər böyüdüblər. Sizə

asan gəlməsin, Ziyad Kərimli deputatdır, Sosialist Əməyi Qəhrəmanıdır, plenum üzvüdür, büro üzvüdür, böyük bir fabrikin direktorudur. Açıq-aşkar onun həyatına qəsd olunub. Bəxti onda gətirib ki, atılan güllə boşa çıxıb...

Nazim:

- Siz inanırsınız ki, Ziyad Kərimliyə güllə atan Təhmiraz Tahirovdur?!

Prokuror tərəddüdlə çiyinlərini çəkdi:

- Nə deyim, vallah, hadisə gecə saat on bir radələrində baş verib, - dedi. - Fabrikdə iclas keçirilirmiş. Yığıncaq qurtarandan sonra hamı ev-eşiyinə çəkilib. Axıra qalan Ziyad Kərimli olub, bir də ki, sürücü ilə fabrikin gözətçisi. Gözətçi ifadəsində göstərir ki, hadisəni gözlərimlə görmüşəm. Ziyad Kərimli maşına əyləşməklə güllənin atılması bir olub. Gözətçi təsdiq edir ki, güllə atılan kimi darvaza ilə üzbəüz olan divarın dibindən bir nəfər əyilə-əyilə götürüldü. Onun əlində təklülə ov tüfəngi olub. Hadisəni görən başqa şahidlərin dediyi ilə gözətçinin ifadəsi düz gəlir.

Nazim İlham:

- İfadələr şahidlərin öz əli ilə yazılıb?

- Özü yazan da var, şifahi deyənlər də.

Nazim İlham:

- Məlumdur ki, mətbuat işçilərinin istintaqın gedişinə müdaxiləsi hüquqi baxımdan düz deyil, - dedi. - Ancaq mənə etibar etsəydiniz, üçüncü adamın bilməməsi şərtilə istərdim ki, bəzi ifadələrlə tanış olum.

Prokuror:

- Bildiyin kimi, sənə də, qələminə də hörmətim var, - dedi. - Təəssüf ki, xahişini yerinə yetirmək imkanım xaricindədir. Ona görə ki, Bakı materialları bizdən alıb. Bizim prokurorluqda bir vərəq də olsun istintaq sənədi qalmayıb. Hazırda istintaqı

Dövlət Təhlükəsizlik Komitəsi aparır. Özü də çox məxfi. Heç mənim özümə də bir şey demirlər.

DTK deyəndə Nazim İlham gücsüzləşdi. Çünki müvafiq qaydaya görə mətbuat işçilərinin təhlükəsizlik orqanlarından yazmasına icazə verilmirdi.

Prokurorla müxbirin arasında soyuq sükut yarandı. Prokuror müxbirin dilxorçuluğunu hiss edib:

- Səni başa düşürəm, Nazim müəllim, - dedi. - Dustağa sənin kimi mənim də yazığım gəlir. Onun aclıq elan etməsinə də adi hal kimi baxıram. Başımı bu yolda ağartmışam. Köhnə hüquqşünas kimi cinayətkarı dinləyəndə onun nə dərəcədə haqlı olub-olmadığını gözlərindən oxuyuram. Əlbəttə, izi azdırmaq üçün həyasızlığına salıb yalandan haray-həşir qoparanlar da olur. Lakin Təhmiraz Tahirovun dediklərində ağlabatan detallar çoxdur. Bu hadisə həqiqətdən çox, Ziyad Kərimlinin ağıllı şəkildə düşünülmüş ssenarisinə də oxşayır. Əlbəttə, prokuror kimi bu cür danışmağa nə haqqım var, nə də hüququm. Lakin bunu sənlə kəsdiyim çörəyi gözümün qabağına gətirib, inanıb etibar etdiyim yoldaş kimi deyirəm. Hələlik bütün bunlar mülahizədir. Güman ki məsələ heç də bizim düşündüyümüz kimi olmasın. Hər halda, istintaqın gedişində hər şey aydın olacaq.

Prokuror fikirli-fikirli əlini alnında gəzdirərək:

- Təhmiraz Tahirov mənim də yanımda çox olub, - dedi. - Yazmadığı yer də qalmayıb. Birləşmiş Millətlər Təşkilatına qədər teleqram vurub. Elə ağlagəlməz faktlar eşib çıxarıb ki, onun üstündə gərək Ziyad Kərimli asılsın. Kərimlini bir-iki dəfə çağırıb başa salmışam ki, inad eləmə, bir halda ki, nazirlik əmr verib, müavinlik nədir, götür işləsin! Bununla da söz-söhbət qurtarsın. Təhmiraz Tahirovun ağzını başqa cür yummaq çətindir. Əgər fabrik yoxlansa və onun yazdıqlarının yarısı belə

düz çıxsa, deputat olmursan, nə olursan-ol, səni heç kəs müdafiə edə bilməz.

Prokuror qaşlarını yuxarı dartaraq:

- Ancaq dediklərim onun qulağına batmadı. Görünür, döşündəkilərə arxayındır. Dedi ki, iki dünya bir olsa da, onu fabrikin həndəvərinə qoymaram. Təhmiraz Tahirovun sözlərindən belə başa düşdüm ki, onların deyəsən, köhnədən, aralarında nə haqq-hesabsa olub.

- Mənə də bir balaca danışıb. - Nazim İlham prokurorun sözünü təsdiq etdi.

Prokuror ayağa qalxdı:

- Nazim, - dedi. - Bilirəm də, başım çox çəkib. İşin gedişi göstərir ki, bu xəmir hələ çox su aparacaq. Sənə də hörmətim olan bir adam kimi məsləhətim odur ki, bu məsələyə baş qoşma. Nəyinə lazımdır, ağrımaz başına buz bağlayasan?! Məqalə yazmağa mövzu qəhətdi?! Gəl sənə elə faktlar verim ki, xoruz səsi eşitməyib.

Prokurorun sadəlövhlüklə dediyi sözlərdə müəyyən səmimiyyət olsa da, onun bu məsələdəki qeyri-ciddi mövqeyi Nazim İlhamı əsəbiləşdirirdi və istədi qapını çırpıb çıxsın, getsin. Ancaq özünü birtəhər saxladı və aradakı xətir-hörməti pozmamaq xatirinə təəccüb və təəssüf mənasında başını buladı...

* * *

Nazim İlham istər müəllimlik etdiyi kəndlərdə, istərsə də jurnalistlik fəaliyyətinə başlayandan sonra yaşadığı gur şəhərlərdə elə ki bir dilxorçuluq üz verdi, yaxud özünü yorğun hiss etdi və ya fikri düyünə düşdü, səs-küydən aralanıb, kənara çıxır, sakit, səssiz bir guşəyə çəkilib meşələrin seyrinə dalır, suların şırıltısını dinləyir, əlçatmaz qayalıqlara heyranlıqla

tamaşa edirdi. Səmanın ənginliklərində rəvan qanad çalan qartalların uçuşuna baxırdı. Beləliklə də yüngülləşir, durulur və elə bil qarmaqarışıq fikirlərin üfüqündə, qeybdən parlayan günəş onun zülmət çökmüş xəyal dünyasının sərt döngələrinə işıq yayırdı. Nazim İlham həmin məqamda özünə gəlir, dizin-dizin sürünüb irəliləyirdi. Çətin yoxuşları aşıb intəhasız düzlərin genişliyinə çıxırdı. Nazim İlham prokurordan ayrıldıqdan sonra adəti üzrə əlini belinə vurub tək-tənha şəhərdən xeyli aralandı. Qızlarquşunun və göy qarğaların dəlmə-deşik etdikləri yarğanların dibindən axan çayın sahilinə endi. Onsuz da həmişə bulanıq axan çay, yazqabağı olduğundan indi çamır gəlirdi. Quzey tərəfdəki daşların arasından pıqqıldayıb çıxan bulağın dumduru suyu çaya qarışanda öz şəffaflığını itirirdi. Nazim bu qovuşan suların təzadını öz romantik aləmində başqa cür yozurdu. Bulaq sanki sahilə yayılan ləpələri durultmaq istəyir, lakin məcrasına sığmayan çayın girdabında burularaq, saflığını itirib özü də çirkablaşırdı. Neçə-neçə büllur çeşmə qızmış nər kimi ağzı köpüklənə-köpüklənə aşıb-daşan bu xırsız selin burulğanında necə də bulanıb çirkab olurdu...

Nazim nə qədər gəzib dolanırdı ki, başı qarışsın, Təhmiraz Tahirovun dumanlı əhvalatlarından, prokurorun müəmmalı söz-söhbətindən uzaqlaşa bilmirdi. Axşam evində çörək yediyi yerdə sağında-solunda əyləşmiş həyat yoldaşı Səriyyəyə, uşaqlarına baxıb, yenə xəyallandı: “Görəsən Təhmiraz Tahirov nə haldadır? Onun arvad-uşağının güzəranı necə keçir? Yəqin uşaqları məktəbdən qayıdanda, gözləri atalarını axtarır. Qulaqları səsdədir ki, bir nəfər şad-şalayın qapıdan girib muştuluq istəyəcək, deyəcək ki, Təhmirazın işi sübut olunmayıb, onu buraxıblar. Qonum-qonşu da yığışıb gəlib Təhmirazın ailəsinə gözaydınlığı verəcəklər. Təhmiraz uşaqlarını bir-bir bağrına basacaq. İndi mən neyniyim ki, haqq

yerini alsın?! Niskillər durulsun, həsrətlilər qovuşsun?!” Nazim İlham bu barədə hey düşünürdü. O, cismən evində olsa da, fikrən Təhmiraz Tahirovun, onun arvad-uşağının yanındaydı. Səriyyə soruşdu:

- Nazim, yenə nə olub? Bu gün gözümə birtəhər dəyirsən, yaman pəjmürdəsən?!

Elə bil bu sözü daşa dedin. Nazimdən səs çıxmadı. Səriyyə ortalığa başqa bir söz saldı:

- Məktəbə getmişdim, - dedi. - Valideynlər iclası idi. Müəllimlər bizim uşaqlardan razılıq elədilər.

Nazim dillənmədi. Səriyyə gülümsündü, ərk və nəzakətlə:

- Deyəsən, yenə huş səni aparıb, - dedi. - Nə fikrə getmisən? Hardasan! Qayıt! Çayını iç! Çörəyini ye!

Nazim sanki heç nə eşitmirdi. O hələ də öz içində prokurorla söhbət eləyirdi, Təhmiraz Tahirova ürək-dirək verirdi. Səriyyə incə barmaqlarını onun boynunun ardında gəzdirərək gülə-gülə:

- Noolub, mənim sözüm söz deyil, deyəsən, çox uzağa getmisən! Yüz fikir bir borcu ödəmir, xörəyin soyudu!

Nazim yuxudan hövlnak qalxan adamlar kimi birdən əyilmiş qəddini düzəldərək:

- Hə! Nə dedin?! - Səriyyəyə baxıb başını buladı. - Heç, elə belə. Deyirsən məktəbə getmişdin? Müəllimlər nə dedi?

Səriyyə güldü:

- Deyəsən, axı söz sənə indi çatdı. Müəllimlər nə deyəcək?! Dedilər ki, müxbir olanda nə olar, qoy bir dəfə də uşaqların atası mübarək qədəmlərini məktəbə bassın, onun boynunu görək.

Nazim xəfifcə gülümsündü:

- Müəllimlər haqlıdır, - dedi. - Ancaq gərək onlara izah edəydin ki, biz jurnalistlər gecələr yatanda da, gündüzlər yol gedəndə də, çörək yeyəndə də yazırıq. O vaxtım hardadır?

Səriyyə:

- Eh, özünü mənə tanıdırsan? Köhnə xasiyyətindir! Sənin elə səhərdən-axşamacan belini əyib, gözünü qıyıb, kağız-kuğuzla əlləşmək olsun! Guya ki səndən başqa müxbir yoxdur?! Qəzetlərə baxıram, dayna! Eləsi var ki, ayda bir dəfə imzasını görmürəm. Yazdıqları da xırda-mırda şeylərdir! Hamısı da tərif. Özünü oda-közə vurub, onnan-bunnan üz-göz olan, tənqid yazan bircə sənsən! Nahaq yerə! Canına qulaq as, çox da dərinə getmə! İndiyə kimi yazanlara heykəl qoymayıblar! O Qızıl qələmdi, əməkdarlıqdı, nədi, onsuz da ağına-bozuna baxan yoxdu, onu elə ucdantutma hamıya verirlər.

Nazim riqqətlə Səriyyənin üzünə baxdı:

- Bilirəm, bu sözləri ürəkdən demirsən. Elə-belə zarafat eləyirsən, - dedi.

- İllaf düzünü deyirəm! - Səriyyə bu dəfə ciddiləşdi. - Sözün düzünü elə zarafatda deyərlər. O qədər fikirli yatırsan ki, yuxuda da sayıqlayanda məqalədən danışırsan. Yaxşı yadıma düşdü. O Rəziyyə kimdi?! Neçə dəfə onun adını çəkmisən. Rəziyyə! Rəziyyə! Yəqin o da şikayətçidir?

Rəziyyə! Onun adı çəkiləndə Nazimin rəngi qaçdı. Ancaq dili var gəlmədi ki, Səriyyənin fikrini azdırmaq üçün yalandan da olsa desin ki, - bəli, Rəziyyə həyatda rastlaşdığı təsadüfi qadındı və onun adını da təsadüfi olaraq çəkib. Nazimin qəlbi ehtizaza gəldi, xəyallandı, əhvalı dəyişdi. Səriyyənin diqqətini Rəziyyə məsələsindən yayındırmaq üçün aralığa ayrı söz salıb, tez ayağa qalxdı və divardakı saata baxaraq:

- Gecikmişəm, məni gözləyirlər, Səriyyə, - dedi. - Bir yoldaşla görüşməliyəm. Onunla vacib işim var.

Nazim bəhanə ilə tələsik papağını başına qoydu və sonra qolunu Səriyyənin boynuna saldı. Uşaqları kənardan baxdığı üçün onun alnından öpdü, könlünü aldı. - Nə etməli, Səriyyə, peşəmiz belədir, - dedi. - Jurnalistin gecəsi-gündüzü yoxdur.

* * *

Xalq deputatı Kərimliyə güllə atılması və bunun üstündə neçə adamın həbsə alınması ağızdan-ağıza düşmüşdü. Bir səhər şəhərə xəbər yayıldı ki, fabrikin gözətçisi gecə yarısı durduğu yerdə keçinib. Onu müayinədən keçirən həkimlər rəy veriblər ki, ürəyindəndir. Sən demə, gözətçi infarkt keçirdiyini bilməyib, ürəyi qəfildən dayanıb. Orda-burda da belə bir söz gəzirdi ki, gözətçi ölməyib, nə məsələdirsə, başını əkiblər və həkimlərin rəyi saxtadır. Bu əhvalatla bağlı kim nə bilirdi, necə bilirdi, elə o cür də danışırdı. Düz, əyri, hərənin ağzından bir avaz gəlirdi. Nazim İlham özü də çaşıb qalmışdı. Bilmirdi kimə inansın. O, kabinetinin qarşısında vilayət qəzetinin köhnə əməkdaşı, uzun müddət redaksiyada məsul katib işləmiş və neçə il bundan qabaq təqaüdə çıxmış Nemət Rəcəbli ilə qarşılaşdı. Yaşlaşdığından onun sir-sifəti dəyişmişdi. Adamları kənardan güclə seçirdi. Son vaxtlar da həkimlər onda şəkər xəstəliyi tapmışdı. Buna baxmayaraq, dodağında gümüş haşiyəli qara demi, əlində təsbeh, səhərdən-axşamadək şəhərin ayağından vurub başından çıxırdı. O kabinet olmurdu ki, baş çəkməsin. Hamı da ona ehtiramla yanaşırdı. Bilirdilər ki, ürəyi təmiz, zərərsiz adamdır. Yalan-palanla da işi olmazdı. Həmişə də sözün düzünü deyirdi. Qırmızı da xasiyyəti vardı. Vilayətdə elə bir hadisə olmazdı ki, ondan xəbər tutmasın. Onu tanıyanlar deyirdilər ki, Nemət bilməyən şeyə qurd düşər. Vaxtilə məsul katib işləyəndə də təmiz ad çıxarmışdı. İndi də elə bir qayğısı qalmamışdı, oğlanlarını evləndirmişdi, qızlarını ərə vermişdi. Evdə bir arvadıydı, bir özü. Kasıb da həyat sürürdü. Evlərində bir həsir idi, bir məmmədnəsir. Əlinə düşən bir dəst kostyumu azı on il geyirdi. Çəkməsi də həmişə yamaqlı olardı. Mənəvi saflığı, halal adam olması ona haqq verirdi ki, hamının üzünə dik

baxsın. Nazimə də böyük hörməti vardı. Hərdənbir ona baş çəkirdi. Kimlə də rastlaşırdı, ilk sözü bu olurdu:

- Atam! Mən bu işə matam!

Nemət Rəcəbliyə heç kəs ad-familiyası ilə müraciət etmirdi. Hamı onu "Mirzə" çağırırdı. Mirzə bu dəfə də Nazimlə rastlaşan kimi demisi damağında, təsbehini çevirə-çevirə özünəməxsus nikbinliklə:

- Atam! Mən bu işə matam! - deyib, sonra Nazimlə birlikdə müxbir otağına keçdi.

Nazim ona yoxlayıcı nəzər salaraq:

- Mirzə, deyəsən, yenə sözlü adama oxşuyursan?! - ona söz atdı.

Mirzə əzbər etdiyi eyni sözü vəcdlə təkrar etdi:

- Atam! Mən bu işə matam!

- Mirzə, oxun atıb yayın gizlətmə. Danış görüm, təzə nə var?

Mirzə tüstülənən demisini əlində o tərəf-bu tərəfə yelləyərək:

- Yox! - dedi. - Məndə sözlər var, qatı açılmamış. Elə-belə, havayı yerə demərəm. Bir şey addad bəri gəlsin, sonra.

- Sənə nə lazımdır?

- Bir "Üçulduz".

Nazim gülümsündü:

- Üçulduz nədi, Mirzə?!

- Guya ki içmiyib! Yoxsa məni xamlamısan? O zəhrimardan deyirəm də! Evdə boğazımı yaşlamağa bir şey yoxdur.

- Hə, aydındır, aydındır! Hesab et ki, almışam. - Nazim ona yarım litr "Üçulduz" konyak boyun oldu.

Mirzənin kefi duruldu:

- Yəqin ki, karamel fabrikində baş verən hadisəni eşitməmiş olmazsan, - dedi. - Ziyad Kərimliyə güllə atılmasını.

- Bəli, eşitmişəm. Bunu hərə bir cür danışır. Ancaq düzü

nədir? Bunu dəqiq deyə bilmərəm, - Nazim cavab verdi.

- Düzünü bilmək istəyirsənsə, məndə. - Mirzə demisinin ucunu sinəsinə toxundurdu.

Mirzənin sözü Nazim üçün o qədər də inandırıcı olmadı. Mirzə özü də hiss etdi ki, Nazim onun dediyinə şübhə ilə yanaşır. Ona görə məsələni yerli-yataqlı danışmağa başladı:

- Hadisə vaxtı, maşını sürən Müharib adlı şofer, yoldaşımın doğmaca bacısı oğludur. O vaxt Ziyad Kərimli mənim xahişimlə onu şofer götürüb. Özü də çox diribaş gədədi. Odda yanmaz, suda batmaz. Dəyirmanın boğazından ölü sal, ayağından diri çıxasıdır. Xozeynin doveriyasına necə giribsə, Ziyad Kərimlinin bütün alveri onun əlindən keçir. Ziyad Kərimlinin ondan sirri-sekreti yoxdur. Həmin hadisədən bir gün sonra Müharib bizə gəlmişdi. Bəxtindən də yaxşı piti hazırlatmışdım. Dedim, Müharib, elə vaxtında gəlmisən, yəqin qaynanan səni çox istəyir. Süfrənin üstündə güllə məsələsini soruşdum. Məndən gizli sözü olmaz. Ancaq bu dəfə əvvəlcə bir az nəm-nüm elədi. Bir-iki yüz qram vurandan sonra boynuna aldı. Hamısını olduğu kimi açıb danışdı.

Mirzə hiss etdi ki, Nazim İlham onun sözünə dərin maraq göstərir, dayandı və məzələnməyə başladı:

- Nazim müəllim, tay burdan o tərəfə danışa bilmərəm, gərək o "Üçulduz"u iki eləyəsən.

Nazim güldü:

- Oldu, Mirzə. O da baş üstə! Sən sözünü de.

- Bu, ayrı məsələ. - Mirzə vəcdə gəldi və demisini sümürə-sümürə:

- Müxbirlər fil qulağında yatıb. Məsələ tamam bambaşqadır, - dedi. - Başçı ki deyirlər, Təhmiraz Tahirov, əslində o bədbəxtin bu işdən heç bir xəbəri yoxdur. Deyilənə görə cavanlıqda onların arasında bir qadın məsələsi olub. Rəna! Rəna!

Guya Təhmiraz Tahirovun gəzdiyi həmin o Rəna adlı qızı sonradan Ziyad Kərimli alıb. Ona görə də Kərimlinin elə o vaxtdan Təhmirazla araları gendi. Təhmiraz Tahirov da bunu bilə-bilə gedib müavinliyə əmr alıb. Bəlkə də fikirləşib ki, tələbəlik vaxtında olan işdir, indi yaddan çıxıb gedib. Kərimli də ki, onu hələ sən yaxşı tanımırsan, dəvə kinli adamdır. Yaddan çıxardar?! Necə olsa, namus məsələsidir.

Nemət Rəcəbli demisini qurdalayıb bir-iki dəfə sümürdü və sonra sözünə davam etdi:

- Biz ikimiz də jurnalistik. Cavanlıqda elə oşibkalar olur ki, ilk məqamlarda sevib-sevilənlər arasındakı məhəbbət odunun istisində nəzərə çarpmır. Onları yalnız ehtirasın qızğın anları düşündürür. Özün bilirsən dəə... Tay dalını demirəm. Ha... ha... - hər ikisi güldü. - İllər keçdikcə bu sevgi alovu sönməyə başlayır. Onda keçmiş haqq-hesablar baş qaldırır. Bax, məsələ də bundadır. Müharibin dediyinə görə, evdə Kərimli ilə arvadı itlə pişik kimi dolanırlar. Noolsun ki, Kərimlinin var-dövləti aşıb-daşır, ad-sanı da yerə-göyə sığmır. Ailədə ki, mehribançılıq olmadı, köpüyə dəyməz. Tüpürüm elə həyata.

Nemət Rəcəbli Nazimə müraciətlə:

- Mən ölüm, düz demirəm?

- Həyatda belə şeylər olur. Ancaq Mirzə, bu sevgi macərasını qoy kənara. Məni o güllə əhvalatı maraqlandırır. Sən söhbəti yayındırma!

- Yox də, özün dedin ki, o hadisəni dəqiq bilmirəm. Mən də danışıram ki, ətraflı məlumatın olsun. Bütün bunlara görə müavinlik məsələsində Təhmiraz Tahirovun əli boşa çıxıb. Nazirliyin əmri göydə qalıb. Ona görə də Təhmiraz Tahirov bu dəfə başlayıb karamel fabrikindən yazmağa. Kərimliyə görə neçə illərdir cəsarət eləyib fabriki yoxlayan olmayıb. Orda da zibil xirtdəyəcəndir. Üstü açılsa, neçə adam dama getməlidir.

Başda da Ziyad Kərimli. Kərimli də ki, siyasətdə dallesdi. Təhmiraz Tahirovun səsini kəsmək üçün ona bu qurğunu qurub. Bu toru Ziyad Kərimli, bizim bu Müharib, bir də gözətçi birlikdə hörüblər. Əslində gülləni atan elə gözətçi olub. Özü də boş maşına. Avtomaşının kabinəsində heç kəs olmayıb. Kabinənin qabaq qapısını bir neçə qırma deşib, vəssəlam. Orda Təhmiraz Tahirov-zad nə gəzirmiş! Hamısı uydurmadır! Müharib çörəyi tikə-tikə elədi, and içdi ki, əmi, elə bil yanımızda olmusan!

Mirzə birdən duruxdu və nə fikirləşdisə:

- Səndən nə gizlədim, ötən gecə gözətçinin ölümünü eşitdin də? - soruşdu.

- Hə, deyilənə görə durduğu yerdə ölüb, - Nazim İlham cavab verdi. Tibbi ekspertin verdiyi rəyə görə infarkt imiş.

- Nemət Rəcəbli qəddini Nazimə tərəf əyib, xısın-xısın:

- Nə danışırsan, canım, - dedi. - Boş sözdü, hamısı qurmadır! Müharib onu da mənə olduğu kimi danışıb. Gözətçi əvvəlcə ifadə verib ki, guya Təhmiraz Tahirov Kərimliyə güllə atanda orda olub və gözləri ilə görüb. Sonrakı dindirmədə başlayıb alt-üst vurmağa. Evdə-zadda danlayıblar, nədisə, geriləyib. Ziyad Kərimli bir-iki dəfə yanına çağırıb, cibinə pul qoymaq istəyib. Gözətçi götürməyib. Cibindən Quran çıxardıb ki, dədə-babadan əlimizdən mərdimazarlıq gəlməyib. Səni and verirəm Məhəmməd peyğəmbərin Quranına, məni bu işə qoşma. Əgər məni bir də prokurorluğa, məhkəməyə dartsalar, düzünü deyəcəyəm. Ona görə də elə həmin gecə gözətçinin başını əkiblər. Müharib dedi ki, Kərimlinin bir residivist qohumu var, onnan mən bağırda-bağırda boğub öldürdük.

Nemət Rəcəbli demisinə bir qullab vurub sözünə davam elədi:

- Nazim, - dedi. - Bu, çox dolaşıq məsələdir. Bir halda ki,

maraqlanırsan, bir sekretdi də açım. O Təhmiraz Tahirovun işinin bu cür əndazəyə minməsinin başqa səbəbi də var. Millətlər Təşkilatına, Mavzoleyə yazdığı məktubların birində respublikaya sataşıb. Guya burda hökumət, qayda-qanun yoxdur. Bu söz də yuxarılara toxunub. Bu tərəfdən də güllə məsələsi. Əsas da, işi dərinləşdirən Təhmiraz Tahirovun respublika rəhbərlərinə sataşması olub. İndi bildin də, işin kökü hara gedib çıxır?

Nemət Rəcəbli danışdıqca Nazim İlham daha da hiddətlənirdi. Rəcəbli sözünü tamamladıqdan sonra demisini təzədən doldura-doldura:

- Bax, belə-belə işlər! Atam! Mən bu işə matam! Hələlik bu qədər. - Mirzə sinəsini boşaldıb qalxdı ayağa. Nazim fikirli-fikirli ona təşəkkürünü bildirərək yarızarafat:

- Mirzə, mən sənə borclu. "Üçulduz" məsələsindən arxayın ol. Elə bil içmisən.

Nemət Rəcəbli ona tərəf çevrilərək:

- Nazim müəllim! Əşşi, qoymazsan da zarafatımızı eləyək! - dedi. - Bilmirsən ki, məni saxlayan elə bu zarafatdır! Konyak-zad nədir?! Prosto səni yoxlayırdım. Sözdü də, elə-belə ağzıma gəldi, tulladım. Əslinə qalsa, mən sənə qonaqlıq verməliyəm. Çünki mən yerli adamam. Sən isə, necə olsa, qəribsən. Amma evimin qapısını tanımırsan. Bu barədə təqsirimi boynuma alıram. Sağlıq olsun, günahımı yuyaram! Bir də ki, Nazim müəllim, indi o canım qalmayıb. Vaxt var idi, bir oturuma yarım litr boşaldardım, halıma təfavüt eləməzdi. İndi hərdən yeri düşəndə yüz qram vururam. Onda da altın çəkirəm. Ağrısından gecə səhərəcən yata bilmirəm.

...Nazim İlham Nemət Rəcəblini yola salandan sonra qapını örtüb, içəridə xeyli fikrə getdi. O, "ağıl ağıldan ötkün olar, bir də ki, necə olsa, idarəmizin başçısıdır. Kimliyindən asılı

olmayaraq, nə yazıb-pozsam, axırda onun ələk-xəlbirindən keçəcək. Bu barədə redaktorun da fikrini bilim" - öz-özünə düşündü.

O, başını iki ovcu arasına alıb, dərin fikrə getdi. - "Əvvəlki redaktor olsa, nə dərdidi?! Jurnalistika qazanında bişmiş adam idi, Xaspolad Həsənoğlu. Mətbuat işinin anasıydı. Bilirdi ki, jurnalist nə deməkdir, qəzetdə nəyi vermək, necə vermək olar. Onun vaxtında müxbirlər heç nədən çəkinmirdilər. Bilirdilər ki, arxalarında Xaspolad Həsənoğlu kimi dəyanətli, sözübütöv, qəzeti, qəzetçini dərindən duyub başa düşəni redaktor var. İndi bu "fil həkimi"ynən nə danışım, necə danışım?! Külli-aləm bilir ki, bu təzə qoyulan Mollazadədən redaktor olmaz. Xaspolad Həsənoğlu kimi redaktoru götürüb Mollazadəni qoyasan, bunu heç Allah da qəbul eləməz. Nədi, nədi, başıaşağı adamdı. Ali məktəbdə müəllim olub, elmlər namizədidir. Yuxarıda oturanlar, tay düşünüb-daşınmırlar ki, alim olmaq, jurnalist olmaq, qəzetdən baş çıxara bilmək demək deyil. Qonşumuz Sona xala demişkən axı, arı tutub, şan kəsməyən balın qədrini nə bilər?! Mollazadə nə bilir ki, müxbir nədir? İndi gəl mətbuatdan başı çıxmayan, ömründə bir məqalə də yazmayan adamla dil tap, görüm necə tapırsan? Mollazadəni necə başa salım ki, belə bir haqsızlıq var, onu qəzet səhifəsinə çıxarmaq lazımdır. Bax belə məqamda Xaspolad Həsənoğlunun yeri görünür. Bu barədə heç ona demək də lazım deyildi. Xırmanlar məscidində baş verən əhvalatlardan yazdığım kimi, indi Təhmiraz Tahirovun da başına gətirilənləri çoxdan qələmə almışdım, qurtarıb getmişdi. DTK olmasın, nə olur-olsun, sabah bir səs-küy qalxanda bilərəm ki, qabaqda Xaspolad Həsənoğlu var. Yoxsa Mollazadə kimi? Suyun lal axanı, adamın yerə baxanı. Danışanda üz-gözündən yazıqlıq, məzlumluq yağır. Amma içində qurd qaynayır. Yuxarılar da, onu elə-belə yumşaqlığına, tikansız,

qola-qolay adam olduğuna görə redaktor qoyublar. Bu gün də əzabını biz müxbirlər çəkirik”. Nazim İlham bu məsələni qəlbində çox vuruşdurandan sonra düşündü ki, başqa yol yoxdur. Bəy dediyin nədi, bəyənmədiyin nədi? Hər kimdi, redaktordu. Mollazadənin ağzını arayım, görüm o nə deyir? Bəlkə də başa salıb, birtəhər yola gətirə bildim. O da qeyrətə gəlib dedi ki, yazmaq lazımdır.

Nazim İlham çox götür-qoydan sonra, nəhayət, redaktorla danışmaq üçün Bakını sifariş verdi. Üstündən beşcə dəqiqə keçməmiş telefon zəng çaldı. Nazim İlham dəstəyi qaldırdı. Redaktorun kal səsi eşidildi. Nazim İlham Təhmiraz Tahirov adlı bir şikayətçinin vaxtilə ona müraciət etməsini və sonradan şikayətçinin başına gələn əhvalatları, güllə məsələsini redaktora ətraflı danışdı. Redaktor soruşdu:

- Yaxşı, bu dediklériniz aydındır. Sizin fikriniz nədir?

- Qəzet səhifəsinə çıxartmaq! - Nazim fikrini qəti bildirdi.

- Əsl həqiqətin necə olduğu Sizə bəllidirmi? - redaktor soruşdu.

- Bəli, ancaq məsələ bir balaca ziddiyyətlidir.

- Bunu necə başa düşək? - redaktor səsini bir qədər qaldırdı.

- Başa düşmək belədir ki, həqiqət, ictimaiyyətin inamı Təhmiraz Tahirovun tərəfindədir, rəsmi dairələr, toplanan sənəd-sübutlar isə fabrik direktorunun.

- Bu işlə kim məşğul olur?

- Dövlət təhlükəsizlik orqanları. Onların nümayəndələri artıq neçə gündür ki, buradadırlar. İstintaqa general başçılıq edir, respublika dövlət təhlükəsizlik komitəsi sədrinin müavini.

Redaktorun səsi yayı boşalan patefon kimi nəzildi:

- Yaxşı, onda qoy əvvəlcə buradakı yoldaşlardan vəziyyəti öyrənim, sonra Sizə bir söz deyərəm. Günün axırında zəng vurarsınız.

Nazim İlham stulunda qərar tuta bilmirdi. O, yazı masasının sol tərəfindəki radioqəbuledicini qurdalayır, ayağa qalxıb kabinetində o tərəf-bu tərəfə var-gəl eləyir, gah da pəncərənin qabağında dayanıb, qarşı tərəfdəki çinar ağaclarının cərgəsinə nəzər salır və redaktordan nə cavab alacağını düşünür, narahat hisslər keçirirdi.

İş vaxtının axırına yarım saat qalmış Nazim İlham redaktora zəng vurdu. Mollazadə elə bil bayaqkı adam deyildi. İndi onun səsində bir həyəcan vardı:

- Siz orda nə işlə məşğul olursunuz, başım çıxmır, - dedi. - Heç bilmirsən qazanda qaynayan nədir, qabını uzadırsan ki, bir çömçə də bura qoy! Mən respublika prokurorluğu ilə də, təhlükəsizlik komitəsi ilə də danışdım. Okazıvayetsa orada böyük bir müəssisənin rəhbərinə, hökumət üzvünə qəsd hazırlanıb! Direktora güllə atılıb! Qəsdin başında duran da günahsız bilib haqlı saydığınız Təhmiraz Tahirov! Siz də ələşəndən-güləşəndən danışıb, bizi zibilə salmaq istəyirsiz! O məsələ qətiyyən dediyiniz kimi deyil! O işdən uzaq olun! Məni başa düşdünüz?!

Nazim İlham telefonda quruyub qaldı. Redaktorun fikri onu qəne etməsə də məyus-məyus:

- Aydındır, - dedi.

Redaktor Nazimin cavabını eşitmədi. Sözünü bitirər-bitirməz dəstəkdən - du... du... du... - səsləri eşidildi.

* * *

Kasıb həyat sürən fabrik gözətçisi şəhərdə nəzərə çarpan adam olmasa da, kənar yerdə işləyən karlı qardaşları vardı. Biri Moskvada zavod direktoru, digəri Qazaxıstanda idarə rəisi işləyirdi. Gözətçi sağlığında onların üzünü iki ildən, üç ildən bir görərdi. Ancaq indi onun ölüm xəbərini eşidib hamısı yığışıb

gəlmişdi. Qardaşların ad-sanına görə kasıb gözətçinin yas yerinə çoxlu adam toplaşmışdı. Qəbiristanlığa tərəf irəliləyən insan axını arasında Nazim də vardı. Yerli camaat, kimliyindən asılı olmayaraq, hüzür yerinə getməyənlərə birtəhər baxırdı. Hüzür yeri Nazim İlhamın yaşadığı küçədən beş-on ev yuxarı olduğu üçün o da imkan tapıb, dəfn mərasiminə gəlmişdi. Səriyyə həmişə söz düşəndə Nazimə deyirdi ki, xeyir-şər vəzifəyə-zada baxmır. Bu, insani borcdur. Adamlığı olan kəs belə mərasimlərdə özünü yuxarı tutub, yaxasını kənara çəkməməlidir. Eldən uzaq düşən, Allah-taalanın qada-balasına yaxın olar.

Mərhumun işlədiyi karamel fabrikinin işçiləri üstünə keci cecim çəkilmiş cənazənin arxasınca ağır addımlarla irəliləyirdilər. Öndə gedənlər əllərində əklil tutmuşdular. Bəzilərinin yaxasında mərhumun sancaqla bərkidilmiş qara lentli şəkli də vardı. Fabrikin direktoru Ziyad Kərimli, əziz-xələfi ölübmüş kimi hamıdan çox kədərli görünürdü. O bu gün üzünə ülgüc də vurdurmamışdı. Kərimlinin son mənzilə yola salınan işçisini belə urvatlı tutması, hüzür yerinə gələnlərə xoş təsir bağışlayırdı. Gözətçinin arvadının ağlamaqdan səsi batmışdı. O, xırıldaya-xırıldaya ağı deyirdi. Üç nəfər qadın onu kiridə bilmirdi. Hönkürə-hönkürə fəryad qoparırdı ki, namərd, məni yeddi tifilin əlində qoyub hara gedirsən? Onlara nə gün ağladın? Hansını ərə verdin, hansına toy eliyib gəlin gətirdin? Niyə belə tələsdin? Qara torpaq nə tez səni əlimdən aldı? Axı sən evdən gülə-gülə çıxmışdın?!! Bu vaxtacan bir ağrın-acın olmamışdı! Bircə dəfə uf deməmişdin! Niyə Kərimlinin fitnəfelinə uydun, ay binəva?! Axı, özcə dilimnən dedim ki, ay kişi, sən Kərimlinin kələyinə aldanıb mərdimazar işə qol qoyma!.. Sən güllə atanı harda görmüşdün?! Ağ bədiyə - Hə?! - dedin. Günahsız adamın üzünə dirəndin! Axırda da Allahın qəzəbinə gəldin! Bəs bilmirdin Təhmiraz Tahirovu da yaradan var?

Bilmirdin quyu qazan özü düşər?! Bilmirdin Kərimliyə əzrayıl da batmır?!.

Gözətçinin arvadı kirimək bilmirdi. Ağlamaqdan havalanmışdı, nəfəsi güclə gedib-gəlirdi. Dırnaqlarıynan sinəsini dədidə deyirdi:

- Əvvəl dedin ki, gülləni Təhmiraz atdı! Atanda gördüm! Yaxamı yırtdım, dedim kişi, şər pis şeydir, qabağına çıxar! Yeddi balan var! Ondan sonra gerilədin! Sözünü döndərəndə də bildim ki, axırı belə olacaq! Onun ürəyinə nə gəlmişdi aaz? Ürəyi sappasağ idi! Canı yanmış paqonlulara dediyi sözü geri götürdüyünə görə başına bu oyun gəldi! Balan ölsün, Kərimli! Tifaqın dağılsın, Kərimli!

Kərimli bu sözləri eşitdikcə başını soxmağa yer axtarırdı. Ancaq zahirən özünü o yerə qoymurdu. Onunla yanaşı gedənlərə:

- Ölümün qabağında Kərimli neyləsin? Əcəl ki gəldi, çarə yoxdur. Yazıq qadın! Onu qınamıram, o qədər ağlayıb ki, ağlını, huşunu itirib, özünü-sözünü bilmir. Ona dəyməyin, qoyun ağlayıb ürəyini boşaltsın. Onun sözlərindən incimərəm. Düz deyir, bəlkə həkimə vaxtında çatdırsaydıq, belə olmazdı. İnfarktın qarşısı alınardı.

Gözətçinin qardaşları hərəsi bir tərəfdən qadına çəmkirərək:

- Baş-beynimizi apardı! Bu arvadın səsini kəsin, rədd olub getsin! Ağlamağın da təhri var! Ölümüzü urvatsız elədi! Kərimlinin əlindən nə gəlir?! Allahdı ki, əzrayılın qabağında dursun?! O da bu kişinin yaxşılığı! Səhərdən ac-susuz bizimlə ayaq üstədir! İşini-gücünü atıb biznən bərabər əldən ayaqdan düşüb!..

Dörd-beş adam yığışıb gözətçinin üzüqanlı arvadını dilə tutatuta ovudub, birtəhər geri qaytardılar. Qadının kal, boğuq səsi, daha eşidilmirdi. Dəfn mərasiminə gələnlərin çoxu onsuz da bu

məsələdən hali idilər. Bilirdilər ki, zavallı qadın hara vurur. İki-bir, üç-bir çiyin-çiyinə gedənlər xısın-xısın danışırdılar ki, mərhumun arvadı düz deyir. Ziyad Kərimliyə güllə atılması boş şeydir. Bu fırıldaqların hamısı Təhmiraz Tahirovun ağzını yummaq üçündür. Gözətçi də bu işin güdazına getdi.

Dəfn mərasimi başa çatdı. Adamlar qəbir üstündən qayıtdılar. Mərhumun evinin qabağında iri mağar qurulmuşdu. Molla başda əyləşib, əlindəki xırda dənəli uzun, qotazlı təsbehini çevirə-çevirə şəriətin qanunlarından, Quranın ayələrindən misallar gətirir, ibrətamiz kəlamları ilə əyləşənləri səbirli olmağa çağırırdı. Arabir də fatihə verib, gedənləri yola salır, gələnlərə oturmaq üçün yer göstərirdi. Mağarın arxa tərəfində tüstülənən ocağın üstündə iri ehsan qazanları asılmışdı. Nazim mağarın baş tərəfində oturmuşdu və çöl tərəfdəki ocağa yaxın olduğundan ehsan qazanlarının ətrafındakı danışıqları aydınca eşidirdi. O qədər də yaşlı olmayan cantaraq aşpaz başında ağ fəs, gah kəfgirlə əti qarışdırır, gah da ocağın alovu üzünü qarsa-qarsa yanıb qurtarmaqda olan uzun kösöyləri irəli itələyirdi. Aşpaz kənara çəkilib qazanın buğundan, ocağın tüstüsündən yaşarmış gözlərini, tər basmış sifətini əynindəki ağ xalatın ətəyi ilə silə-silə divara söykənən mürdəşirə yan alaraq:

- Rəhmətliklə söhbətimiz tuturdu, - dedi. - Məndən gizli sözü olmazdı. Üç gün qabaq maa dedi ki, yaman tora düşmüşəm. Açıb-ağartmalı deyil. Hamısı da öz ağlımın ucundan. Xırsız oğlu məni yoldan çıxartdı. Boş maşına güllə atdım. Qurub-qoşub adını da qoyduq ki, o fabrikə müavin gəlmək istəyən Təhmiraz Tahirov, direktoru öldürmək istəyirmiş. Rəhmətlik dedi ki, o dünyada bu günahı maa bağışlamazlar. Mən də dedim a kişi, uşaq işi tutmusan. Üstü açılsa, onda gərək buralarda baş gəzdirmiyəsən. Köçüb gedərsən Ursetdəki qardaşlarının yanına. Bu sözdən sonra rəhmətlik elə bil ayıldı. Dedi, dünyada şərdən

pis şey yoxuymuş. Deyirdi ki, o gündən bu günə gecələr yata bilmirəm, yuxumu qarışdırıram. Bu dəfə məni sorğu-suala çəksələr, hamısını açıb tökəcəyəm. Kərimli də məni işdən çıxardır, qoy dünəndən çıxartsın. O cür çörək mənə lazım deyil. İllaf tutub dama bassalar da düzünü deyəcəyəm. Allah göydən baxır axı! Təhmiraz Tahirovun güllə atması ağ yalandır. Kişinin bu hadisədən elm gümanı yoxdur.

Aşpaz vaysına-vaysına:

- Elə həmin söhbətdən üçcə gün sonra xəbər çıxdı ki, gözətçi ürəyindən keçinib. İmanım Allah amanatı, o, haqq dünyadadı, biz nahaq! Bu ürək söhbətinə oxşamır.

Mürdəşir:

- Otuz ildən çoxdur bu işə qulluq eliyirəm, - dedi. - Meyidə baxan kimi öz-özümə dedim, bununku əcəl deyil, əcəl - mayallaqdır. Bu işdə ayrı bir əngəl var, - mürdəşir səsini yavaşıtdı. - Yüzü yüz söz desin, kişini boğublar! Xirtdəyi qapqaraydı. Cansız adamıdı, boğazından yapışan kimi nəfəsi batıb. Elə o saatca canını tapşırıb. Həkim-zad də qələt eləyir! Çörəyi qulağımızın dalına yemirik ha. Azı, yüz meyit yumuşam, bu ürək məsələsi deyil.

Aşpaz gördü ki, kənardan onlara qulaq asan var, altdan mürdəşirin ətəyini çəkdi:

- Söhbəti dəyiş, yeri deyil, - dedi. - Onsuz da olan oldu, keçən keçdi. Nəyimizə lazımdır? Bizim danışığımızla təzədən ölü diriləcək?! Şəhər doludur paqonluynan. Gedib qulaqlarına çatar, bizi də cələkləyib qoşarlar içəridəkilərə.

Mürdəşir:

- Belə məsələlərdən nə qədər uzaq olsaq, başımız bir o qədər salamat qalar, - deyib, əyilmiş qəddini düzəltdi və yönünü o tərəfə çevirib, ağır addımlarla hüzür yerindən uzaqlaşdı. Aşpaz iri mis kəfkiri götürüb, qazanı qarışdırmağa başladı.

Nazim bu sözləri eşitdikcə, dəhşətə gəlir və vilayət qəzetinin keçmiş əməkdaşı Nemət Rəcəblinin dediklərini yadına salıb öz-özünə: "Mirzə ki Mirzə! Onun dedikləri elə düz imiş" - düşünürdü.

* * *

Güllə məsələsi ilə əlaqədar şəhərdə gündə bir yad adam peyda olurdu. Tindəki su kranını dövrəyə alan qadınların qulağı nə çalmışdısa, paqonlu görəndə xısınlaşırdılar:

- Aazz, o Beriya ki var idi haa! Axırda da özü özcə başını yedi! Baax! O işləyən idarənin adamlarıdır! Yenə də o işdən ötrü gəliblər, dayna! Bunlarda insaf, mürvət deyilən şey yoxuymuş! Kişini nahaqdan badi-fənaya verdilər.

Başqa birisi:

- Təhmiraz Tahirovu tanımırıq?! Tövbələr olsun, o hadisədən xəbəri yoxdur. Onun yerinə Qurana əl basaram.

Qəzet butkasının qabağında dayanan hündürboylu adam müsahibinin qulağına əyilərək:

- Ziyad Kərimli çox evlər yıxıb! Onun pulunu balta da kəsməz! Təhmiraz Tahirov nahaq eləsinə baş qoşub. Təhmirazın onuncu sinifdə oxuyan ortancıl gədəsi mənim o saatsaz oğlumla uşaqlıqdan bir yerdə tay-tuşluq eliyirlər. Bizim özümüzün də onlarnan köhnədən gediş-gəlişimiz var. Təhmirazı məndən yaxşı tanıyan yoxdur. O, dünyasında belə mərdimazar işə qol qoymaz. Kişini durduğu yerdə tora salıblar. Keçən gecə də üçünü tutublar. Biri qaynatasıdır, biri qardaşı, biri də bacısının əri. Guya ki, güllə məsələsində onların da əli var. Gedişatı ki belə görürəm, Təhmiraz bu xatadan çətin qurtarar. İş kəssələr nə var ki?! Qoy on il versinlər! Yatıb qayıdar. Kişini güllələməsələr yaxşıdır!

Nazim gəzib-dolaşdıqca qulağına çatan bu söz-söhbətlərə

biganə qala bilmirdi. Təhmiraz Tahirovla yaxınlıq əlaqəsi olmasa da, bir insan kimi onun barəsindəki haqsızlığa tablaşmırdı. O, kabinetdə oturub işlədiyi yerdə telefon zəng çaldı. Nazim İlham dalğın halda dəstəyi qaldırdı və:

- Eşidirəm, - cavab verdi.

- Zəhmət olmasa, vilayət partiya komitəsinə gəlin, - katibə qızın incə səsi eşidildi. - Yoldaş İsmayılzadənin yanında bir nəfər Sizi gözləyir.

Nazim dilxor oldu. Sanki onu, İsmayılzadənin məkr və hiylə ilə dolu olan fitnə-fəsad yuvasına dəvət edirdilər. Buna baxmayaraq getdi. Gözləmə otağına daxil olan kimi katib qız nəzakətlə:

- Buyurun, keçin, - dedi. - Bayaqdan Sizi axtarırlar.

Ziyad Kərimli çiynində zərli general paqonu olan qaraqabaq bir adamla yanaşı əyləşmişdi. İsmayılzadə Nazimi görən kimi qalib sərkərdə əhval-ruhiyyəsi ilə:

- Hardasan, yoldaş müxbir? Aləm bir-birinə qarışıb, amma Sizi tapmaq olmur!! - deyib, əyləşənləri ona təqdim etdi. - Yəqin ki, bizim çox hörmətli Ziyad Kərimlini tanıyırsınız?! Bu yoldaş da yuxarıdan gəlib, Behbudov Nifaq Zamanoviç. Təhlükəsizlik komitəsindən! Müavindir!

Nazim İlham onların hər ikisi ilə əl tutub, Ziyad Kərimlidən üç stul aşağı əyləşdi. İsmayılzadə ona yaxın oturmağı təklif etdi. Nazim isə oturduğu yerdən tərpənmədi. İsmayılzadə Nazim İlhamın gəlişi ilə əlaqədar olaraq, yarımçıq qalmış söhbətinə davam etdi:

- Nazim də özgəsi deyil. Vışe stoyaşi orqanın işçisi kimi, onun yanında danışmaq olar, - dedi. Və üzünü Ziyad Kərimliyə tutaraq: - Siz narahat olmayın! Qoy kim nə deyir, desin! Artıq hər şey bəllidir! - əlavə etdi. - İstintaq da ki, pis getmir. Müstəntiqlər hələ çox şey aydınlaşdıracaqlar! Əvvəlcə mən özüm də

elə bilirdim Təhmiraz Tahirov tək olub. Okazıvayetsa, bu işin təşkilatçıları da varmış. Onların hamısı öz payını alacaq. General sağ olsun, istintaq qrupunu gecə-gündüz işlədir. Müstəntiqləri yatmağa da qoymur. Vot, tak! Yoldaş Kərimli. Siz öz işinizdə olun.

İsmayılzadə ayağa qalxdı:

- Başqa məsələlər də var. Onu arxayınçılıqda danışıb həll eləyərik. Siz bayaq danışdığımız kimi, o işlərlə məşğul olun. Arada qonaq otağına da baş çəkərsiz. Biz də işimizi yekunlaşdırıb gəlirik. Başa düşdüz də?! O dediyimi də mütləq tapın! Biz gəlincə hazır olsun!

Ziyad Kərimli:

- Başa düşdüm! Başa düşdüm! Arxayın olun, - deyib, vilayətin rəhbəri ilə, generalın qarşısında məmnun əhvalruhiyyə ilə baş əydi.

Ziyad Kərimli kabinetdən çıxandan sonra İsmayılzadə tövrünü dəyişib üzünü Nazim İlhama tutaraq:

- Yəqin bu həngamələrdən xəbəriniz var də?! - soruşdu. Bir dəstə julik əlbir olub, respublikanın fəxri olan o boyda adlı-sanlı kişini aradan götürmək istəyirmiş. Kərimlinin anası namaz üstəymiş! Güllə yan keçib! Maşına yarımca saniyə gec otursaymış, qanı getmişdi!

Qıvrım saçları olan və qara eynək taxmış general rəsmi görkəmini daha da ciddiləşdirərək təkəbbürlə:

- Jurnalistlər bu hadisəyə necə baxırlar?

Nazim İlham tərəddüd etmədən:

- Camaatın baxdığı kimi.

- Çox güman ki, camaat əsl vəziyyətdən bixəbərdi. Siz isə rəsmi adamsınız. Onun-bunun dediyi küçə sözlərinə inansaz, yanıla bilərsiniz. Bizim müstəntiqlərin hamısı təcrübəli yoldaşlardır. Maraqlanıb əlaqə saxlayaydınız, onlar Sizi şifahi

də olsa məlumatlandırardılar. Qəbul olunan hər bir qərarın arxasında sənəd-sübutlar dayanmalıdır. Ağızdan-ağıza gəzən boş söhbətlər Sizi çaşdıra bilər. - General Nazimin cavabı ilə razılaşmadığını bildirdi.

Nazim İlhamın baxışları ciddiləşdi:

- Baş vermiş hadisəyə cinayət donu geyindirildiyi üçün, şübhəsiz, ilk növbədə, bununla inzibati orqanlar məşğul olmalıdır. Qanuni nöqteyi-nəzərdən buna jurnalistlərin müdaxiləsi düz deyil. Ancaq xidmət etdiyim zonada baş verən hər hansı hadisəyə laqeyd də qala bilmərəm. Bu mənada deməliyəm ki, bir çox hallarda əsl həqiqəti tribunalardan və ya kabinetlərdən yox, sadə adamların ürəyindən qopub gələn pıçıltılardan eşitmək olar. Bir də ki, əvvəl-axır elin sözü düz çıxır.

General Nazimin dediklərindən alındı. Lakin özünü o yerə qoymadı və eyni təkəbbürlə gülümsünərək:

- Müxbirlərin qələminin tikanlı olduğunu bilirdim, - dedi. - Ancaq sözlərinin...

Nazim İlham:

- Siz haqlısınız, - dedi. - Düz söz acı, həm də tikanlıdır. Onu eşitmək çətin olduğu kimi, demək də asan deyil.

General hiss etdi ki, onun təcrübəsiz hesab etdiyi bu cavan müxbirlə mübahisəyə girişmək əbəsdir. Odur ki, valı dəyişdi və bir qədər mülayim tərzdə:

- Yaxşı, - dedi. - Gəl bu barədə müzakirə açmayaq. Mən Sizdən başqa bir söz soruşmaq istəyirəm.

- Buyurun.

- Bu əhvalatdan qabaq o qatil Sizinlə görüşüb? Təhmiraz Tahirovu deyirəm. - General təmkinlə soruşdu.

- Ola bilsin Sizin bu cür danışmağa səlahiyyətiniz çatır, ancaq istintaq nə qədər ki tamamlanmayıb və məhkəmənin bu barədə hökmü yoxdur, ona qatil, cani deməyə haqqım yoxdur, -

Nazim cavab verdi. - Təhmiraz Tahirova gəldikdə, bəli, bir şikayətçi kimi onunla iki dəfə görüşüb söhbət etmişəm. Birinci dəfə kabinetimdə, ikinci dəfə aclıq elan edərkən, həbsxanada. Necə bəyəm?!

General eynəyinin yerini dəyişərək:

- O, verdiyi ifadədə Sizin də adınızı çəkir. - Guya mərkəzi mətbuatın nümayəndəsi kimi Sizə müraciət edib. Siz isə şikayəti qulaqardına vurmusunuz.

- Doğrudur, onu dinləmişəm, lakin üzrlü səbəbə görə şikayəti ilə vaxtında məşğul ola bilməmişəm. - Nazim izah etdi. - Onda Bakıya çağırılmışdım. Mən qayıdana qədər iş-işdən keçmişdi, artıq o, həbs edilmişdi.

- Axı, Sizi nə maraqlandırırdı? - deyə general yapışmağa əl yeri axtarırdı.

- Məncə, jurnalistlərin insan taleyi ilə maraqlanması heç də təəccüblü deyil. Hər bir vətəndaşın şikayətinə qayğı ilə yanaşmaq vəzifə borcumuzdur. Lakin münəccimlik fəhmindən xali olduğum üçün, üzləşdiyim adamın gələcəkdə nə edəcəyini və onun başına nələr gələcəyini əvvəlcədən duymaq mənim üçün çətindir. Əgər general bunu mənə irad tutursa, üzr istəyə bilərəm. - Nazim bu sözü kinayə ilə dedi. - Lakin Sizin sualınız məndə təəssüf və təəccüb doğurur.

General təmkinini pozmadan:

- Mən açıq danışan adamam, - dedi. - Mövqeyiniz o qədər də səmimi deyil.

- Nə üçün? - Nazim soruşdu.

General:

- Redaktorunuzu tanıyıram, - dedi. - O, sakit, sadə adamdır. Sizdə işləyən şöbə müdirlərinin də bir neçəsi ilə yaxınlığım var. Sadə, səmimi yoldaşlardır və söhbətləri mənə xoş təsir bağışlayır. Siz isə çox yuxarıdan gedirsiniz.

- O baxır kimin hansı mövqedə dayanmasına. Haqq yolunu tutanlar mənəvi ucalığın zirvəsinə yüksəlməyə layiqdirlər. Onların qarşısında məmnuniyyətlə baş əyərdim. Xəmiri fitnə-fəsaddan yoğrulanlar, qızıl tac sahibi olsalar da mənə miskin görünürlər. Belələrindən hüsn-rəğbət ummuram.

- Nazim! Nazim! - İsmayılzadə ərk və həyəcanla dilləndi. - Qonaqla o cür danışmazlar. Bizim generala böyük hörmətimiz var. Bu işdə bilirsən necə dəridən-qabıqdan çıxır?

Nazimin getdikcə ciddiləşən baxışlarına acı təbəssüm yayıldı:

- Qonaq bizim üçün əzizdir. Lakin bura ev yox, rəsmi yerdir. Və mən, insafından insan taleyi asılı olan mötəbər bir şəxslə danışıram.

İsmayılzadə mübahisənin qəlizləşə biləcəyini nəzərə alaraq ayağa qalxdı və:

- Gedək, - dedi. - Günorta fasiləsindən yarım saat keçib.

General pərtliyini süni təbəssümü ilə pərdələməyə çalışaraq, əlini özündən təxminən on beş yaş kiçik olan Nazim İlhamın çiyninə qoyub, onu silkələdi və:

- Xoşum gəldi Sizdən, malades! - dedi. - Cəsarətli oğlana oxşayırsız. Əsl jurnalist elə-belə olmalıdır.

Nazim İlham:

- Əfsus ki, özüm barədə o fikirdə deyiləm, - dedi. - Təsadüf etdiyim ilk yoldaşsınız ki, müşahidəsi onu aldadır və haqqımda yanlış fikir yürüdür.

İsmayılzadə Nazim İlhama:

- Nu, xoroşo, Nazim, Siz də çox ağ eləməyin, - dedi. - Generalı hələ yaxşı tanımırsız. O, nə dediyini bilir.

Onlar kabinetdən dal-qabaq çıxdılar. İsmayılzadə Nazimə ağızucu:

- Bizimlə gedək birlikdə nahar eləyək.

Nazim İlham isə kinayə ilə:

- Söhbət ikilikdə yaxşıdır, - dedi. Üçüncü şəxs artıqdır. Təklifiniz üçün təşəkkür edirəm.

* * *

Vilayət qəzetinin bir neçə işçisi redaktorun kabinetində Nemət Rəcəblini dövrəyə almışdı. Rəcəbli olub-keçənlərdən, onun vaxtında qəzetin necə çıxdığından, bəzi şöbə müdirlərinin, müxbirlərin sərgüzəştlərindən, yadda qalan maraqlı əhvalatlardan həvəslə danışırdı. Arada özündən də basıb-bağlayırdı. O, tüstülənən demisini vilayət qəzetinin redaktoruna tərəf uzadaraq:

- Həə, bizi bəyənməzsən! Onda qəzet əldən-ələ gəzirdi, - dedi. - Siz də adınızı jurnalist qoymusunuz?! Yazdıqlarınızdan naftalin iyi gəlir. Qələminizdə kəsər qalmayıb. Elə bilirsiniz, diplom aldınız, bir-iki də məqalə yazdınız, oldunuz jurnalist?! Ay-hay! Gərək külüng vurasan, toz qopa! Bizim vaxtımızda müxbir nədi, qorxub-çəkindi nədi?! Lap Allahın bacısı oğlu olsun müxbir üçün fərqi yoxuydu. Düzü düz, əyrini əyri... Tay Sizinki kimi?! Kölgənizdən ürkürsünüz.

Redaktor qımışdı, o biri işçilər altdan-altdan pıqqıldaşdılar. Nemət Rəcəbli işlədiyi vaxt bu idarədə özünə böyük hörmət qazanmışdı. Həmsöhbətləri yaxşı bilirdi ki, bu sözləri ürəyinin təmizliyindən deyir. Mətbuat işindən aralanmasına baxmayaraq, jurnalistlər indi də Nemət Rəcəblini sayırdılar, onun dediklərindən ibrət götürürdülər. Nemət Rəcəblinin, yeri düşəndə, gənc sələflərinə təpinib, onlara hərbə-zorba gəlməsi də var idi. Heç kəs onun sözündən inciməzdi. Rəcəbli baş barmağının ucuyla demisini qurdalaya-qurdalaya:

- Yazın dəə, yazın! - dedi. - Niyə susmusunuz? Güllə məsələsiynən biriniz də maraqlanmırsınız. Qorxursunuz?! Nədən qorxursunuz? O xırda-xuruş məqalələri elə nənəm də

yazar. İstəyirsiniz qəzet qəzet olsun, karamel fabrikinin qabağında baş verən əhvalatları qələmə alın! Bütün respublika ondan danışır, siz isə ağzınıza su alıbsınız! Həə, bax, oğul istəyirəm ki, buna qələm çalsın!

Nemət Rəcəbli bunu elə-belə, zarafata salıb desə də, cavan jurnalistlərin ovqatına soğan doğradı. Redaktor isə hər şeydən başı çıxan, çoxbilmiş adam ədası ilə:

- Bizi əngələ salma, Mirzə! - dedi. - O məsələdən adda. Deputata güllə atılmasından burada mübahisə açmaq məsləhət deyil, ayrı söz danışın. Gedib yuxarıların qulağına çatsa, başımız ağrıyar. Tutub partbiletimizi alarlar, deyərlər di get! Bir də ki, Mirzə, özün köhnə qəzetçisən, neçə il bu redaksiyada külüng vurmusan, çox şeyi də bizdən yaxşı bilirsən. Elə məsələ var ki, onu açıb-ağartmaq olmaz. Sizi başa düşürəm. Ziyad Kərimliyə güllə atılmasını deyirsən. Biz girən kol deyil. Heç respublika qəzetləri də bu işə yaxın düşə bilməz. Nazim İlham siftə-siftə qələmini itilədi, istədi nə isə eləsin. Sonra gördü ki, onun xörəyi deyil, çəkilib durdu qıraqda.

Bu heyndə Nazim İlham redaktorun kabinetinə daxil oldu. Nemət Rəcəbli onu görəndə gülə-gülə:

- Elə Sizdən danışırdıq, yaxşı gəldiniz, - dedi.

Nazim İlhamın baxışları səmimi ifadə aldı:

- Xeyir ola, Mirzə? Məndən nə danışırsınız?

- Heç, elə-belə. Dilim dinc durmadı. Bizim bu cızmaqaraçıları bir balaca sancdım. Deyirəm ki, indikilərin cəsədi var, cəsarəti yox! Məndən inciyərlər.

Nazim İlham:

- Mirzə, bütün jurnalistlərin ağsaqqalıdır, onun sözü bizə qəbuldur, - dedi və gördü ki, tünlükdür. Nemət Rəcəbli də burada mərəkə açıb, əyləşmədi. Qayıdıb getmək istəyəndə Nemət Rəcəbli ayağa qalxdı:

- Nazim müəllim, bayaqdan Sizi gözləyirəm, - dedi. - Gördüm qapınız bağlıdır, redaktorun yanına döndüm.

Nazim İlham:

- Bizim bir Mirzəmiz var, bütün qapılar da həmişə onun üzünə açıqdır, - deyib, Nemət Rəcəblinin qoluna girdi. Onlar müxbir məntəqəsinə keçdilər. İçəri keçən kimi Nemət Rəcəbli bic-bic gülərək:

- Atam! Mən bu işə matam!! - dilindən düşməyən eyni sözləri təkrar etdi.

- Mirzə, deyəsən yenə sinən doludur. - Nazim İlham ona müəmmalı nəzər saldı.

Nemət Rəcəbli:

- Boynuna al ki, mənsiz işin aşmaz, urvan məndən olmasa yapdıqların küt gedər.

- Əlbəttə, ağsaqqal jurnalistlərə ehtiyacımız var. Çox şeyi onlardan öyrənməliyik. - Nazim cavab verdi.

Onların hər ikisi güldü. Nazim təmkinli görkəm alaraq:

- Yaxşı, de görüm, yeni nə var?! O məsələdən daha nə bilirsən?

Əsl mətləbə keçdilər. Nemət Rəcəbli əlini arıq sifətinə qoyub, balaca gözlərini Nazim İlhama dikərək:

- O Kahini tanıyırsan?

- Kahin kimdir?

- Vaxtilə bu redaksiyada fotomüxbir işləyirdi. Özünə ayrıca atelye açandan sonra qəzeti buraxdı. Haçansa, bir dəfə də ilişib, ona kömək eləmisən. Deyəsən OBXS dükanını peçatlayıb, sən də naçalnikə zəng eləyib açdırmısan. O vaxtdan dili ağzına sığmır, harda olur, səndən razılıq eləyir.

- Hə, hə, yadıma düşdü! Alçaqboy, bir az da qozbel kimidir. Tanıdım, tanıdım! Ona pasport üçün şəkil də çəkdirmişəm. Necə bəyəm?

Nemət Rəcəblinin baxışları duruldu:

- Kahinin evi həmin o karamel fabriki ilə üzbəüzdür - dedi. Balkon pəncərəsi lap fabrikin həyətinə baxır. Sözümün canı başqadır. İndi qulaq as, deyim. Onun bir qardaşı xaricdə işləyir. Kahinə də hərdən əntiqə şeylər göndərir. Ziyad Kərimliyə güllə atılan gün ona pasılka gəlibmiş. İçində də Yaponiyada istehsal olunmuş bahalı fotokamera. Nə cür qaranlıq olur-olsun, səsi də, şəkli də aydın götürür. Kahin gecə balkona çıxıb, yönü fabrikə tərəf kameranı yoxlayırmış. Sən bir təsadüfə bax ey! Gözətçinin əlində tüfəng, arxa tərəfində də Ziyad Kərimli. Güllə atılandan sonra sürücü maşının ora-burasını yoxlayıb, gözətçini söyüb-danlayıb ki, vicdansız, qırmalar iriymiş, kabinəni deşik-deşik eləyib. Ziyad Kərimli sürücüyə hirslənib. Deyib ki, ə, səfehləmə, onu düzəltdirməyə nə var ki, tez milisə zəng vur... Qışqırıb haray salıblar ki, Ziyad Kərimlinin maşınına güllə atıblar. Gözətçi Təhmiraz Tahirovu ağıllı-başlı güdaza verib. Hadisə yerinə gələnlərə deyiblər ki, gülləni atan Təhmiraz Tahirov olub, gözümlə görmüşəm.

Nemət Rəcəbli təəssüflə başını bulayaraq:

- Atam! Mən bu işə matam dedi. - İnsan ki, Allahdan qorxmadı, ondan nə desən çıxar. Təhmiraz Tahirovu, bax, beləcə duzağa salıblar. Kahin hamısını kasetə köçürüb. Həmin hadisədən sonra Kahin axşamlar fabrikin, həyət-bacasına tez-tez göz qoyurmuş. Kahin Ziyad Kərimlidən bərk yanıqlıdı. Hələ desən, gözətçinin öldürülməsini də çəkib. Toçnı, keçən səfər dediyim kimi olub. Bunu bir Kahin özü bilir, bir də mən. Dünən də gəlmişdi yanıma. Söhbətindən belə başa düşdüm ki, qaz vurub, qazan doldurmaq istəyir. Məndən soruşdu ki, bu kasetləri Ziyad Kərimliyə neçəyə sata bilərəm?! Hiss elədim ki, ağzımı yoxlayır. Ona bərk təpindim. Dedim, tələsmə, qoy bir ağıllı-başlı fikirləşək.

Nemət Rəcəbli üzünü Nazimə tərəf tutaraq:

- Sən buna necə baxırsan? - soruşdu. - Əgər o barədə yazmaq məqsədin varsa, bundan tutarlı dəlil-sübut ola bilməz. Gəl sənlimənli birləşək, o kasetləri Kahinin əlindən çıxardaq. Yox, əgər bu işə qol qoymaq istəmirsənsə, başqa məsələ, biz qarışmayaq! Qoy Kahin öz bildiyi kimi eləsin. Kahin bir arada ağzından qaçırtdı ki, Ziyad Kərimli bilsə ki, məndə belə kasetlər var, gecə də yatmaz. Bütün ev-eşiyini də satar ki, kasetləri ələ keçirsin. Onda kasıblığın daşını biryolluq ataram.

Belə bir faktın ortalığa çıxması Nazim İlhamın həmin məsələ barədə yazmaq fikrini daha da qətiləşdirdi, özündə bir yüngüllük hiss etdi. Xalq deputatının süni surətdə uydurduğu faciəvi səhnəni və onun İsmayılzadə, qara eynəkli general kimi rejissorlarını gözünün qabağına gətirəndə əsəbləri tarıma çəkildi. İnsafının əsiri olan Nemət Rəcəbli bu anlarda onun gözündə daha da yüksəldi və minnətdarlıq ifadə edən baxışları ilə müsahibini süzərək:

- Mirzə, nə danışırsan? Bu imkanı əldən vermək olar? - dedi. Bir yol tapıb, kaseti ondan qoparmalıyıq. Ancaq necə? Ola bilsin ki, Kahin uzaqdan-uzağa mənim xatirimi istəyir. Ancaq onunla birdən-ikiyə oturub-durmamışam. Ürək qızdırmadığım adama necə deyə bilərəm ki, sizdə belə kasetlər var? Kahin birdən-birə mənə etibar edib kasetləri boyun olarmı? Yox, Mirzə! Onu hürkütmək olmaz! Yenə çarə sənə qalıb. Necə olsa, həmyerlisiniz. Uzun müddət redaksiyada əməkdaşlıq etmisiniz. Əlinizin altında işləyib. Ona görə də bu işin yol-yolağasını məndən yaxşı bilərsən. Onu da nəzərdən qaçırmaq olmaz ki, dünya malı şirindir. Kahinin tamahı güc gələ bilər. Bəlkə səndən sonra qərarını dəyişib?! Kasetləri Ziyad Kərimliyə vermək fikrinə düşüb?

Nemət Rəcəbli demisini qurdalayıb közərdəndən sonra qəddini düzəldib:

- Ağlım kəsmir, ola bilməz, - dedi. - Düzdür, Kahində bir az hərdəmxəyallıq var. Ancaq qələt eləyir! Onun ağzı nədir? İlan hər yerə əyri getsə də, öz yuvasına düz girər. Mənə kələk gələ bilməz. İkincisi də sənin bilmədiklərin çoxdur. Kahinin özü də Ziyad Kərimlidən yanıqlıdı. Onu görəndə elə bil anasının oynacını görür. Çünki o vaxt karamel fabrikini genişləndirəndə, çığırda-çığırda Kahingilin həyətinin yarısını kəsdirib, yerində sex tikdirib. O vaxtdan araları gendi. Kahinin əlacı olsa, onun qanını içər.

Nazim İlhamın kasetləri ələ keçirə biləcəyinə ümidi bir az da artdı və:

- Yaxşı, bu dediklərin öz yerində, indi gəl kaset barədə fikirləşək, - müsahibini təkid etdi.

- Sən narahat olma, onun ipi mənim əlimdədir. Nə desəm odur. Kahin bizə tez-tez gəlir. Bir axşam yüngülvari stol düzəltdirib onu da, səni də çağıraram evə. Məsələni üçlükdə həll edərik, qurtarıb gedər. Kahininki çətini yüzcə qram içənəcəndir. Ondan sonra içində söz saxlayan deyil. Hamısını açıb tökəcək.

Nazim İlhamın üzü güldü. O, vəcdlə:

- Arşınmalçı demişkən, əgər bu iş düzəlməsə?

- Onda babalı bu Mirzənin boynuna. - Rəcəbli zarafata zarafatla cavab verdi.

* * *

İki gündən sonra Nemət Rəcəbli müxbir məntəqəsinə telefonla zəng vuraraq:

- Nazim müəllim, val dəyişdi, - dedi. Ürəyinə qaraltı gəlməsin. Belə məsləhət oldu ki, bizdə yox, Kahingildə

görüşək. Mən özüm də buna razıyam. Çünki onlarda xarici televizor var. Kahini ağıllı-başlı bişirmişəm. Bəlkə elə orda da kasetə baxmalı olduq.

Bu təklif Nazimin də ürəyincə oldu. Onlar razılaşdılar.

...Kahin bayaqdan bəri ayaq üstə qalmışdı. Qonaqların, xüsusilə də ilk dəfə onların evinə qədəm basacaq Nazim İlhamın yolunu səbirsizliklə gözləyirdi. Eyvanda o baş-bu başa var-gəl eləyir, tez-tez də gah saatına baxır, gah da həyət darvazasına tərəf boylanırdı. Nəhayət, qapı zənginin düyməsi basıldı. Dəhlizdə bildirçin səsi eşidildi. Kahin tələsik addımlarla ikinci mərtəbədən aşağı endi. Nemət Rəcəbli demisini tüstülədə-tüstülədə:

- Ay ev yiyəsi! - çağırıb, icazəsiz-filansız həyətə daxil oldu. Nazim də onun arxasınca.

Kahin onları həyəcanla qarşılayıb, yuxarı mərtəbəyə dəvət elədi. Orta otaqda yemək süfrəsi açılmışdı. Kahin yaxınlıqdakı məktəbdə kargüzar işləyən həyat yoldaşı Xavər xanımı Nazimlə tanış etdi. Alçaq boyu, incə qaməti və üz-gözündən abır-ismət yağan Xavər xanım Nazimin qarşısında sıxıla-sıxıla:

- Adınızı çox eşitmişəm, - dedi. - Boynumuzda böyük haqqınız var. Vallah, o vaxt Sizin zənginiz olmasaydı, milis işçiləri Kahini birtəhər eləmişdilər. Deməyə də dilim gəlmir, canıyanmışlar aza qane olurlar ki? İnsaf yox, mürvət yox! Ağızlarını elə yerdən açırlar ki, adam quruyub qalır. Evimizin palazını da satsaydıq, onların dediyini tapıb düzəldə bilməzdik. Sizin bircə kəlmə sözünüzlə o xatadan qurtardıq. Onu da, ömrü uzun olsun, bax, bu Nemət qardaş səbəbkarlıq elədi. Burda özgəsi yoxdur nə gizlədim, Sizi Kahinə tuş eliyən o oldu. Dedi ki, get Nazim İlhamın yanına, mənim adımı ver, sonrasıynan işin olmasın. Allah hər ikinizin ömrünü uzun eləsin. O gündən bu günə bir qırmızıpapaq Kahinin dükanına tərəf hərlənmir. Dükan

deyəndə ki, qızıl satmır, gümüş satmır, şəkildən başqa axı, nəyi var? Onun da əlindən şəkil çəkməkdən başqa nə gəlir? Hərənin çörəyi bir cür çıxır.

Xavər pəncərənin qabağındakı dibçəklərə su çiləyən bəstəboy qızı göstərərək:

- Utanmazlıq da eliyirəm uşaqların böyüyüdü, - dedi. - Buranı qurtarandan sonra bir-iki dəfə ali məktəbə getdi, stajı olmadığına görə götürmədilər. Elə o vaxtdan bizim bu evin böyründəki fabrikə düzəltmişik. Ziyad Kərimlinin yanında işləyir. Birtəhər qiyabiyə düzəlib. Sağ olsun, Ziyad qardaş da yaxşı kömək eliyir.

Ziyadın adı çəkiləndə qız nə isə çaşdı. Nəcibənin əlindəki su qabı yerə düşüb çilikləndi, o, pul kimi qızardı. Nəcibə onlara tərəf baxmadan köhnə əsgi götürüb döşəməyə calanan suyu və şüşə qırıqlarını təmizləməyə başladı. Xavər incə bir təbəssümlə:
- Eybi yoxdur, qızım, - dedi. - Çox utancaqdır, yad adam görəndə özünü itirir, - əlavə etdi.

Nəcibə sanki anasının dediklərini eşitmək istəmirmiş kimi solğun üzünü əks tərəfə çevirib yan otağa keçdi.

Xavər xanım söhbəti uzatdığından Kahin özünü saxlaya bilmədi:

- Yaxşı, yaxşı! Xavər xanım, - dedi. - Qonaqları ayaq üstə saxlama. Gör yemək-içməyə nəyin var?..

...Ortalığa, təzəcə qalaylanmış iri mis məcməyidə üryan gəldi. On-on beş kilo ağırlığında balbas quzu, təndirdə xına kimi qızarmışdı. Kahin üryanı parçalaya-parçalaya:

- Nazim müəllimin bəxtindən yaxşı çıxıb, - dedi.

Yemək-içmək başlandı. Bir neçə qədəhdən sonra Kahinin sifəti allandı. O, qonaqlara, üstünə güllü ipək pərdə salınmış televizoru işarə edərək:

- Yaxşı kasetlərim var, - dedi. - Kino, cürbəcür konsert

kasetləri. Hamısını da qardaşım xaricdən göndərib. Xətriniz hansını istəyir, göstərə billəm!

Nazim, Nemət Rəcəblinin üzünə baxdı. Nemət Rəcəbli onun nə demək istədiyini başa düşdü və Kahinə:

- Onda əvvəlcə bir söz soruşum.

- Buyurun! Birini yox, ikisini soruşun.

- De görüm, bizə inanıb, etibar eləyirsən?!

- Beş yüz faiz! Yəni buna şəkk-şübhən də var?

- Ürəkdən deyirsən, yoxsa...

- Nemət müəllim, məni tanıyandan bəri birdən-ikiyə saxtakarlığımı görmüsən?!

- Qətiyyən yox.

- Onda buyur, görüm, nə demək istəyirsən?

Nemət Rəcəbli əlini boğazına atdı və:

- Mən ölüm, o güllə məsələsini göstər, - dedi. Qoy Ziyad Kərimlinin düzəltdiyi hoqqanı Nazim müəllim özcə gözü ilə görsün. Sonra da gözətçini necə boğub öldürdüklərini...

Kahin tutuldu. Nə demək istəyirdisə, Nemət Rəcəbli yalvarıcı görkəm alıb:

- Bu mən ölüm, ayrı söz olmasın, - dedi. - Onsuz da Nazim müəllimdən gizli sirrim yoxdur. Ona hamısını danışmışam.

Kahinin dili topuq vurdu:

- Həə! Yoox... Belədi də... Nazim müəllimə də böyük hörmətim var! Bilirsiniz, bu elə məsələdir ki... Ziyad Kərimlidən mənim də zəhləm gedir. Hələlik hər yerdə onun sözü keçir. Bilsə torpağımı torbaynan daşıtdırar. Kərimlinin axırı onsuz da çatıb. Onu saxlayan deputatlığıynan geroyluğudur. Fabrikdə elədiklərinin üstü açılsa, əlli-ayaqlı gedər. Təhmiraz Tahirov da bunları bilirdi. Elə ona görə də səsini batırdılar getdi. O bədbəxtin heç nədən xəbəri yoxdur. Nə güllə, nə qəsd! Hamısı Ziyad Kərimlinin qurğularıdır. Özü də generalın əli ilə.

General da ki, yuxarı vəzifədə işləməsinə baxmayaraq, Ziyad Kərimlinin peşkasıdır. Barmağını hara tutsa...

Nemət Rəcəbli əlini köhnə həmkarının çiyninə qoydu:

- Kahin, bunların hamısı bizə məlumdur. Prosto, maraq üçün o kasetlərə baxmaq istəyirik.

- Nə deyirəm, etirazım yoxdur. Ev-eşiyim də Nazim müəllimə qurbandır. Onun yolunda başımı da verərəm. - Kahin yan otaqdan kaseti gətirib, videomaqnitafona saldı və könülsüz-könülsüz televizoru açdı.

Ekran bir qədər tutqun olsa da, kadrlar aydın seçilirdi. Əvvəlcə onların üçü də baş-başa verib, nə isə pıçıldaşdılar. Sonra Ziyad Kərimli əl-qolunu ölçə-ölçə gözətçi ilə sürücüyə təpinib, özü geri çəkildi. Gözətçi dizləri əsə-əsə qoşalüləni darvazanın ağzında dayanmış və içərisində heç kəs olmayan "Qaz - 69" markalı avtomaşına tuşlayanda sürücü:

- Lüləsini aşağı tut, şüşələrə dəyməsin, - deməsi aydınca eşidildi.

Əvvəlcə bir topa barıt tüstüsü göründü, sonra güllə səsi eşidildi. Sürücü maşına tərəf qaçdı və qabaq kabinəni açanda - oturacağı deşik-deşik eləyib, - dedi, - vicdansız! Ziyad Kərimli təşvişlə - maşın cəhənnəm olsun, qaç milisə, xəbər ver, - deyib özü qabaq kabinəyə keçdi. Beş-on dəqiqədən sonra üstündə mavi işıq yanan milis maşınının həyəcan siqnalı eşidildi. Gözətçi aralıda dayanmışdı. Milis rəisi fabrik direktorunun əyləşdiyi maşının qapısını açanda diksinib, geri çəkildi. Ziyad Kərimlini kabinədə görəndə, yerindəcə donub qaldı və təşvişlə soruşdu:

- Yoldaş Kərimli, niyə düşmürsünüz?

- Şəkləndim ki, vicdansız oğlu vicdansız buralarda pusquda olar. Gözünə sataşsam, namərd oğlu yenidən atəş açar!

- Kim? - rəis tez soruşdu.

- Kim olacaq? Təhmiraz Tahirov! Ondan başqa mənə kim

güllə ata bilər? Neçə aydı qəsdimə durub! Məni hərim-hərim hərləyir! Nədi-nədi onu işə götürməmişəm! Axır ki, bu axşam əlinə girəvə düşüb! Görünür, əcəlim çatmayıb, yoxsa... Çoxdan o dünyalıq olmuşdum. Güllənin səsini eşidəndə əvvəlcə özümü itirdim. Tüfəng əlində əyilə-əyilə aradan çıxdı. Yerişindən tanıdım. Gözətçi qənşərdə dayanmışdı. Güllə səsini eşidən kimi su hovuzunun üstünə çıxıb hasarın o tərəfinə sıçradı. Onlar xaphaxap qabaqlaşdılar. Gözətçi - Təhmiraz, qaçma! Tanıdım! - deyib, qışqırdı. Təhmiraz cır tutun altına keçib götürüldü. Gözətçi tüfəngə patron qoyunca, o, aradan çıxdı. Qarasına bir güllə atdı. Ancaq uzaq idi, güllə ona çatmadı. Namərd oğlu! Az qala uşaqları yetim qoymuşdu. Allah üzümə baxdı. Qırmaların bir neçəsi maşının dəmirinə dəyib, cibimə düşüb, - direktor pencəyinin yan cibini çevirib, əlinə keçən qırmaları hadisə yerinə gələn milis işçilərinə göstərdi.

Ziyad Kərimli danışdıqca, hadisə yerini müayinə edən milis işçiləri əl fənərinin işığında deyilənləri sənədləşdirir, ələ gələn qırmaları, patrondan çıxan barıt qoxulu yanıq kağızları maddi sübut kimi ehtiyatla seçib, bir kənara qoydular...

Yemək-içmək yaddan çıxmışdı. Onların diqqəti televizorun ekranındaydı. Otağa darıxdırıcı sükut çökmüşdü. Adama elə gəlirdi ki, otağın küncündəki qara piano da, şüşə vitrinlərindəki bəzək-düzəkli qab-qacaq da lal-dinməz televiziya ekranında cərəyan edən həmin hadisələri izləyir. Nazim İlham yerində sakit otura bilmirdi. O özündən asılı olmayaraq, gah qəddini televiziyanın mavi ekranına tərəf əyir, hərdən də dikəlib, stulundan qalxır və diqqətini ekrandan yayındırmadan yenə sakitcə əyləşirdi. Nemət Rəcəbli isə atmacasından qalmırdı.

- Atam! Mən bu işə matam! - deyib, sönməsindən xəbəri olmayan demisini nə qədər sümürürdü, tüstü çıxmırdı. Onun bütün fikri-zikri televizorda olduğundan, deminin yanıb-

yanmamasını unutmuşdu. Birdən ekran ağardı. Nemət Rəcəbli əlini onunla yanaşı oturan Kahinə toxunduraraq:

- Afərin - dedi. - Böyük ustalıqla çəkmisən. İndi o biri kaseti qoy.

Kahin candərdi ayağa qalxıb, lenti dəyişdi.

* * *

Səma təmiz idi. Aylı gecədə mürgü vüran ağacların dibinə cürbəcür naxışlar düşmüşdü. Orda-burda vaxtsız banlayan xoruzların səsi ətrafa hakim kəsilən sakitliyi pozurdu. Karamel fabrikinin yuxarı tərəfində dikələn gözətçi daxmasının balaca pəncərəsindən zəif işıq gəlirdi. Yöndəmsiz daxmanın qabağındakı ağac kötüyünün üstündə çömələn yaşlı gözətçinin xırıltılı, bir qədər də yanıqlı səsi eşidildi. Onun niskilli sözlərini güclə başa düşmək olurdu.

Bu dünyada üçcə şeydən qorxuram:
Bir ayrılıq, bir yoxsulluq, bir ölüm.
Heç birindən əsla könül şad olmaz,
Bir ayrılıq, bir yoxsulluq, bir ölüm.

Gecənin tənhalığında, qoca qəlbi ehtizaza gələn gözətçi bundan başqa da sözlər işlətdi. Nemət Rəcəbli kövrələn kimi oldu. Gözətçinin niskili Nazimə də sirayət elədi. O, gözünü qırpmadan televizora baxırdı. Gözətçi əlini dizinə qoyub: Ya Əli! - dedi və güclə ayağa qalxdı. Əyilmiş qəddini düzəldə bilmədi. Bir qədər hərəkətsiz qaldı. Hiss olunurdu ki, kötük yançaqlarını keyidib. Gözətçi handan-hana özünü düzəldib, qundağı yeyilmiş, qədimdənqalma qoşalüləsini çəlimsiz çiyninə keçirdi. Fabrikin yan-yörəsinə diqqətlə nəzər saldıqdan sonra arxayın düşüb, daxmasına qayıtdı. İstədi içəri girib, üstündə

nimdaş yorğan-döşək olan taxta çarpayısına uzansın. Ancaq fikrindən daşındı. Yenidən qayıdıb kötüyün üstündə əyləşdi, bir papiros yandırdı. Gözətçi hara gedirdi, onun həndəvərində də, yanı balalı bir pişik hərlənirdi. Pişik gözətçidən əl çəkmirdi. Hiss olunurdu kit, onun da insan hənirtisinə ehtiyacı var. Öyrəşdiyi adamdan ayrı dura bilmir. Gözətçi də ona isinişmişdi. O, daxmaya keçib, qabın dibində qalan kotlet və çörək qırıntılarını götürüb pişiyə atdı. Pişik torpaq süfrədəki tikələri acgözlüklə yeyib doyduqdan sonra ora-burasını yalaya-yalaya arxası üstə uzanıb şelləndi. Balaları onun qarnına qısılıb, yavaş-yavaş sormağa başladı. Gözətçi gecənin kimsəsizliyində ona həyan olan pişiklə balalarına baxdıqca xəyalı başqa-başqa yerlərə gedirdi. Sakit gecə, bədirlənmiş ay, bir də ki, bir-birinə sığınan ana-bala. Gözətçinin əlacı olsaydı bu darısqal, narahat komada gecələməzdi. Ev-eşiyinə gedərdi. İsti yuvasında mütəkkəyə dirsəklənib o da balalarını başına yığardı. Ancaq fabriki başsız qoyub hara getsin? Sonra bir hadisə baş verdi, onda di gəl, cavab ver. Qolundan tutub bayıra atsalar, bir çətən külfətə kim çörək qazanacaq? Bu işə də nə zillətnən düzəlib. Ziyad Kərimli də neçə dəfə ona acığı tutanda deyib ki, əməlli-başlı işləyirsən işlə! İşləmirsən, cəhənnəm ol get! Bu vəzifəyə papaq sulayan çoxdur. Qoca kədərli ah çəkdi. - Başqa əlac yoxdur. Ömrüm burda çürüməlidir, - düşündü. O, yersiz-yurdsuz pişiyin azad həyat sürməsinə həsəd aparırdı.

Gecə yarıdan keçmişdi. Ay şəhərin üstündən şimala doğru meyllənirdi. Gözətçi ayağa qalxıb, daxmaya girmək istədi. Ancaq nə isə, fikrindən döndü. Elə bil bu axşam kişinin basaratı bağlanmışdı. Pişiyin balaları o ki var, əmib doymuşdular. İndi anaları ilə oynaqlaşırdılar. Gözətçi onlara baxıb düşündü: - Sizə nə var, Allahın heyvanları, bu saat istədiyiniz yerə gedə bilərsiniz. Sizə qoruq-qadağa yoxdur. Azad həyat sürürsünüz.

Mənim kimi sizin də başınızın üstünü Ziyad Kərimli kimi qansız bir direktor kəsdirməyib ha! İndi də bu oyunu çıxardıb. Ağzımı dağa dirəyib ki, haqq-nahaq belə deməlisən.

Alt tərəfdən hərlənib gələn "Qaz - 69" markalı maşının səsi gözətçini qərq olduğu fikirdən ayırdı. Maşın darvazaya yaxınlaşdı. Bir qədər aralıda dayandı. Ziyad Kərimli ilə sürücü gözətçidən xəbərsiz başqa bir qapıdan fabrikin həyətinə daxil oldular. Onların bu hərəkəti gözətçini şübhələndirdi. Ayın şəfəqləri Ziyad Kərimlinin döşündəki deputat nişanını və qızıl beşulduzu işıldadırdı. Onların hər ikisi, gözətçini daxmanın yanına dartıb, sıxma-boğmaya saldılar. Əvvəlcə Ziyad Kərimli onu sorğu-suala tutdu:

- Bu neçə ildə məndən bir pislik görmüsən?

- Yoox, Allah eləməsin!!

- Fabrikin hesabına yeyib-dolanırsan?!

- Min bərəkət, itirsəm, verdiyin çörək gözümü tutar.

- Maaşını vaxtında alırsan?

- Giley-güzarım yoxdur.

- Yaxşı, bəs onda, qoca həpənd, mənim haqq-sayımı niyə yerə vurursan?

- Bu nə sözdü, yoldaş Kərimli, neyləmişəm?!

Ziyad Kərimli dişini qıcayaraq:

- Qoca kaftar onda nə üçün sözünü geri götürürsən?

- Hansı sözü, yoldaş direktor?

Ziyad Kərimli daha da qəzəbləndi:

- Özünü tülkülüyə vurma, köpək! - dedi. - Biz danışdıq ki, o it balası, Təhmiraz Tahirovdu, nədi, qırsaqqız olub yapışıb yaxamızdan. Yediyimi-içdiyimi zəhrimara döndərib. Yazmadığı yer qalmayıb! Ayağını diriyib ki, gərək fabrik yoxlansın! Yaxşı bilirsən ki, bura əl atsalar, külümüz göyə sovrulmalıdır! Sənli-mənli, hamımızı qusdurarlar. Razılaşdıq ki, o köpəyoğlunun

səsini kəsək! Bir dünya xərclə yuxarıda işi qurub-qoşdum! Bunu da birlikdə elədik! Bəs indi, vicdansız, niyə geriləyirsən?! General məni çağırıb ki, gözətçi ifadəsini dəyişir. Verdiyi ilk ifadədən boyun qaçırır, dediyinin əksinə çıxır! İstintaqda demisən ki, Ziyad Kərimliyə güllə atan olmayıb. Təhmiraz Tahirovu da görməmişəm...

Gözətçi Kərimlinin qarşısında daha da yazıqlaşdı:

- Yoldaş direktor, vallah-billah adam içinə çıxa bilmirəm! Görən cəmdəyimə tüpürür. Bütün el-oba bilir ki, bu, qondarma işdir! Belə hadisə olmayıb, axı! Saqqalımın bu çal vaxtında imanımı necə yandırım?

Ziyad Kərimli gözətçinin qulağının dibinə bir şillə qoydu:

- Elə bilirsən əlimdən qurtara biləcəksən? Yoox!! Təhmiraz Tahirovu qoduqluğa soxdurmuşam. Səni də cəhənnəmə vasil etməsəm, əl çəkmərəm! Əvvəlki kimi deməlisən, vəssəlam! Mənə gülləni Təhmiraz Tahirov atıb, vəssəlam! Sən də buna şahidsən! Başa düşdün? Deməsən, dedirtdirərəm!

Gözətçi yenə yalvarmağa başladı:

- Yoldaş direktor, özcə gözünün qabağında əlli il bundan əvvəl Sibirə sürgünə gedənlərin çürümüş sümüyünü eşib, gətirib, səbəbkarına məhkəmə qurub, başına kəmsik salırlar. Məni bu xatadan uzaq elə! Siftə də bir söz demişəm, qələt eləmişəm! Təzədən boynuma diri ilan salsalar da, xeyri yoxdur. Çağırsalar, düzünü deməliyəm! İndi ixtiyar sənindir. İstəyirsən, bu tüfəngi götür çax təpəmə. Ölümümə razıyam.

Ziyad Kərimli cibindən nə isə çıxardıb gözətçinin burnuna tutdu. Gözətçi huşunu itirdi və yerə sərildi. Sürücü dərhal özünü yetirib, onun ağzını, burnunu bərk-bərk bağladı...

Nazim İlham özündən asılı olmayaraq, gözətçini xilas etmək üçün televizora tərəf cummaq istədi. Bu, baş tutmayan xəyali bir köməklik idi. Fikrindən ayrılıb, yenə də yerində oturdu. Zavallı

gözətçi yerdə sərili qaldı. Onun əl-ayağı tərpənmirdi. Artıq canını tapşırmışdı...

Ziyad Kərimli ilə sürücü meyidi ortalıqda qoyub, tez-tələsik aradan çıxdılar. Ana pişik balaları ilə birlikdə gözətçinin çuxasına sığınıb, gah gözlərini yumur, gah da başlarını qaldırır, şıqqıltı gələn tərəfə qulaqlarını şəkləyirdilər.

Gözətçinin aqibəti beləcə sona çatdı. Videomaqnitafon ehmalca çaqqıldadı. Ekranda qarmaqarışıq nöqtələr qaynaşdı. Kahin televizoru söndürdü. Nemət Rəcəbli ona:

- Halal olsun! Gecə vaxtı, bu cür çəkiliş aparmaq hər adamın hünəri deyil, - dedi. Nazim İlhamın başı gicəllənən kimi oldu. Elə bil gözətçinin darısqal daxmasına girmişdi və onun havası çatmırdı. O, ev sahibindən dərman istədi. Xavər xanım bir əlində su dolu stəkan, bir əlində validol gətirdi. Nazim həbi atıb, havasını dəyişmək üçün evin dəhlizinə çıxdı. Bir neçə dəfə o baş-bu başa var-gəl etdi. Kahinlə Xavər onun xəstələndiyini zənn edib, əl-ayağa düşdülər. Xavər Kahini məzəmmət edərək:

- Nahaq o kasetləri göstərdin, - dedi. - Mən özüm bir dəfə baxmışam, neçə gün özümə gələ bilməmişəm. Nazim qardaş da ki, qəlbi yuxa adamdır. Baxan kimi halı dəyişdi.

Nazim özünə gələndən sonra:

- Narahat olmayın, - dedi. - Bu cür hadisələri görəndə, özümü pis hiss edirəm. Hamısı əsəbilikdəndir. Gözətçinin əhvalatı mənə pis təsir elədi.

Onlar içəri keçdilər. Nazim bir stəkan çay içib, toxtadıqdan sonra:

- Kahin, çox sağ olun, - dedi. - Sizə əziyyət verdik. Süfrəniz həmişə açıq olsun. O üryandan da ki, olmaz. Mənə ləzzət elədi. İndi Sizdən bir xahişim olacaq.

- Buyurun, - Kahin dilləndi.

- O kasetlər mənə bir neçə günlüyə lazımdır. Sonra qaytararam.

Kahin nə hə dedi, nə də yox.

Nazim İlham:

- Sizi başa düşürəm, - dedi. - Bunu üçümüzdən başqa bir adam bilməyəcək. O barədə tam arxayın ola bilərsiniz. Hesab edin ki, bu işdə mənim tərəfimdən Sizə heç bir xəta gəlməz. Buna əmin olun.

Kahin çiyinlərini çəkdi:

- Nə deyirəm, etirazım yoxdur. Məsələ orasındadır ki, bu, qan işidir. Ziyad Kərimli xəbər tutsa, gərək burdan köçək.

- O barədə tam arxayın ola bilərsiniz. - Nazim onu arxayın saldı.

Nemət Rəcəbli:

- Bu işə zamin oluram, Kahin, - dedi. - Nə qədər ki ortalıqda mən varam, o barədə ürəyin buz kimi olsun.

Nazim Kahinə məzəmmətedici nəzər salaraq:

- Kasetləri Sizdən aldığımı heç kəsə bildirmərəm. Halal süfrənizdə çörək kəsən bir adam kimi bu barədə məndən arxayın olun.

* * *

Nazimin Təhmiraz Tahirova qara yaxıldığına inamı qətiləşdikcə, bu haqsızlığı qələmə alıb, aləmə faş etmək əzmi də artırdı. Ancaq necə?! Bircə bu suala səhih cavab tapmaqda çətinlik çəkirdi. Bilirdi ki, yazsa da, qabaqda Mollazadə kimi kölgəsindən hürkən redaktor var. Məqaləsi qəzet üzü görməyəcək. Redaktorun qara papkasının arasında yatıb qalacaq və çəkdiyi əziyyət hədər gedəcək. Əvvəlki redaktor Xaspolad Həsənoğlunun dövrü olsaydı, nə dərd idi! Xaspolad Həsənoğlu bu cür materialları göydə axtarırdı. O saat qol çəkib birbaşa

mətbəəyə göndərərdi. Üstəlik də müəllifinə - çox sağ olun - deyərdi. O, gedəndən bəri qəzetdə tənqidi məqalələr azalıb. Felyetonlar yoxa çıxıb. Həsənoğlunun yerinə qoyulan Mollazadə yuxarıların ab-havası ilə nəfəs alır, Mərkəzi Komitənin adicə təlimatçısının da qarşısında əyilib ikiqat olurdu. Ona görə də iqtidarda olanlar ona - "yaxşı redaktordur, həlim adamdır" - deyirdilər. Mollazadənin əlləşib-vuruşduğu o idi ki, mindiyi yumşaq maşın, oturduğu rahat kabinet əlindən çıxmasın. Dünya od tutub yansaydı, vecinə deyildi. Müxbirlərə də dönə-dönə deyirdi ki, çox da dərinə getməyin. Çalışın bu tənqidi materiallardan uzaq olun. İndi ayrı zəmanədir. Hərənin arxasında bir adam var. Mollazadə redaktor keçəndən bəri ildə bir felyeton dərc oluna-olunmaya. Di gəl ki, vəzifəli şəxslərin şəkli ilə birlikdə müsahibələrini verməkdən ötrü sinov gedirdi. Tərif də ki, nə qədər yazırsan-yaz! Tərifə qoduq-qadağa yox idi. Respublika nazirlərindən və ya başqa rəhbər işçilərdən birinin məktubunu verən kimi, dərhal xüsusi hökumət telefonunun dəstəyini qaldırıb, həmin adama zəng vururdu:

- Oxudun?! Necədir, xoşuna gəldi? Şəklin pis çıxmayıb ki?! Qonorarını da kassir gətirib kabinetdə verər. Qoy aradan bir az keçsin, müxbir göndərərəm, indi də başqa bir səpkidə məktubunuzu hazırlayarıq. Sizin kimi hörmətli yoldaşların yolunda həmişə hazırıq.

Bu cür yalotu xasiyyətinə görə heç kəs ona dəyib-dolaşmırdı. Ancaq redaksiya işçilərinin çoxu Mollazadənin ona-buna yarınmasını, hamam suyu ilə özünə xətir-hörmət qazanmasını xoşlamırdı. Ona görə də özünə hörmət qoyan, ona-buna əyilməyi xoşlamayan dişli müxbirlər öz xoşlarıyla redaksiyadan baş alıb gedirdilər. Mollazadə boylu-buxunlu, dilli-ağızlı, qələmi kəsərli olan işçilərdən gen qaçırdı. Yeri düşəndə də onların hərəsini bir yolla redaksiyadan əkirdi. Harda

bivec, ağzı qatıq kəsməyən, korafəhim, qola-qolay adam var, altdan-altdan tapıb yığırdı ətrafına. Bunu eşidib-bilənlər də Mollazadəyə lağ-loğaz eləyib "su axar, çuxurunu tapar, taylı-tayın tapmasa, günü ah-vayla keçər" deyirdilər.

Nazim İlham Mollazadənin gündə bir rəngə düşən sifətinə yaxşı bələd idi. Əlinin içi kimi bilirdi ki, onun boynuna diri ilan salsalar da, təhlükəsizlik orqanının barmağı olan hadisədən yazılan məqaləni yaxın buraxmaz. Xaspolad Həsənoğlunun vaxtı olsaydı, Ziyad Kərimlinin nə deputatlığına baxardı, nə də onun döşündəki qızıl ulduza. İndi çoxdan bu güllə məsələsini qələmə aldırıb, aparılan saxta istintaq işlərini alt-üst eləmişdi. O vaxt Nazim İlham məscid əhvalatından, vilayət prokurorundan, kənd təsərrüfatı nazirindən, ispalkom sədrindən, ali məhkəmə sədrindən kəsərli felyetonlar yazanda Xaspolad Həsənoğlu telefonla da olsa Nazim İlhamdan soruşmadı ki, faktlar dəqiqdirmi? Bunu versək xatası çıxmazmı? Nazimin bu gün yazdığı sabah olduğu kimi qəzetdə dərc edilirdi. Onda qəzet də əldən-ələ gəzirdi. Hamı qəzetə ədalət carçısı kimi baxır, ona pənah gətirirdi. Mollazadə ki gəldi, elə həmin gündən qəzetin dəfi döndü. Oxucular da qəzetdən üz döndərmişdi. Qəzetə abunə yazılışı birə onqat azalmışdı. Abunə yazılanlar da yuxarıların hədə-qorxusuynandı. İşçilərə aylıq əmək haqqı verilində raykomun, ispalkomun göstərişi ilə adamların pulunu çığırda-çığırda əlindən alıb, zorla respublika qəzetinə abunə yazdırırdılar ki, redaksiyanın gəliri-çıxarını ödəsin.

Nazim İlham neçə redaktorla işləmişdi, belə nüzulun görməmişdi. O, bunu dərd eləyib, öz-özünə: "Bu müstər oğlu müstərdən üzümüz olsaydı, min yaşayardıq" - deyinirdi. "Özündə təpər yox, bizə də əl-qol açmağa imkan vermir. Ancaq nə etmək olar, yaxşı, pis, hər nədir, redaktordur". Xoşun gəldi, gəlmədi, bu cür mübahisəli məsələlərdə son söz onunku idi.

Nazim çox götür-qoydan sonra belə qərara gəldi ki, redaktorun ağzını bir də yoxlasın. Bəlkə Mollazadə qeyrətə gəldi və kişi kimi dedi ki, get, yaz!

...Nazim İlham qatara bilet alıb, Bakıya yollandı... Redaksiya yerini dəyişmişdi. İdarə şəhərin basırıq yerindəki qədim binadan yenisinə köçmüşdü. Təzə bina müasir qaydada tikilmişdi. Özü də çoxmərtəbəli idi. Kənardan baxanda onun arxitektura gözəlliyi adamı heyran edirdi. Amma köhnəsinin yerini verməzdi. Sanki redaksiyadakı nizam-intizam, qayda-qanun, işçilərin arasındakı xətir-hörmət, əməkdaşların yaradıcılıq əhval-ruhiyyəsi elə Xaspolad Həsənoğlunun işlədiyi o köhnə binada qalmışdı. O bina Nazimə bir məbədgah təsiri bağışlayırdı. Hər dəfə ayağı Bakıya düşəndə, yolunu köhnə redaksiya binasının qabağından salır, dayanıb, illər boyu açıb-örtdüyü qapılara, boylandığı pəncərələrə baxıb, ötüb-keçən o illəri xatırlayır, xəyallanır və öz-özlüyündə: - "Ömrümün bir parçası, qələmimin ilk səsi-sorağı, müxbirlik əmrimin izi Xaspolad Həsənoğlunun mərhəm, ötkəm hənirtisi, bu divarların arasında qaldı" - düşünür və kövrək hisslər keçirirdi. Həə, Nazimə əvvəlki yer doğmadan doğma idi. İndikinə isə əsla yovuşmurdu. İllah da ki, Mollazadə gələndən sonra bura ayaq basmaq istəmirdi. Əlacı olsaydı, Mollazadənin təlx sir-sifətini görməmək üçün illərlə bu binanın həndəvərinə üzükməzdi. Ancaq çarə nədir? İşin xatirinə yeri gələndə gərək ermənıyə də dayı deyəsən.

Nazim redaksiyanın yerləşdiyi beşmərtəbəli binaya çatanda iki nəfərlə rastlaşdı. Biri Mollazadəni gəzdirən avtomaşının sürücüsü Kürən idi. Sarışın olduğu üçün bu ütük, bir qədər də sırtıq xasiyyətli sürücünü - Kürən - deyə çağırırdılar. Bu idarədə çoxdan işləyirdi. Mollazadə bəlkə də beşinci, altıncı redaktor idi ki, gəzdirirdi. Kürən Nazimi görən kimi, irişə-irişə onun

qabağına yüyürüb ikiəlli görüşdü. Sonra geri dönüb yanındakı yaşlı kişini Nazim İlhama təqdim edərək:

- Hacıtalıb kişiynən tanış ol, - dedi. - Şefin atasıdır. Bir aydan çoxdu xəstəxanada yatırdı, iki-üç gündür çıxıb. Qohumlarıgildə qalırdı. Bu gün rayona yola düşmək istəyir. Oğluynan görüşməyə gəlmişdi. Mollazadə tapşırdı ki, bir maşın tap, göndər avtovağzala. Ordan o tərəfə özü gedər.

Hacıtalıb kişinin hay-hayı getmişdi, vay-vayı qalmışdı. Qocalıq, bir tərəfdən də xəstəlik onu lap əldən salmışdı. Hiss olunurdu ki, Hacınınkı bu gün-sabahlıqdır. Əzrayılın başı qarışdığı üçün hələlik Hacıtalıbın nəfəsi gedib-gəlir. Onun başında zağarı getmiş qaragül papağı, əynində ölçüsündən böyük olan və neçə yerdən yamaq vurulmuş ətəyisallaq pencək vardı. Hiss olunurdu ki, əynindəkilər ya kiminsə soyxasıdır, ya da ki, oğlunun köhnə-kültəsi. Dama-dama köynəyinin boynunu sadır kəsmişdi. Onun ölgün və nigaran baxışları tez-tez şütüyüb keçən maşınlarda qalmışdı. Kürən boş taksi gördükcə, irəli yeriyib, əl qaldırırdı. Sürücülər - "sifariş dalınca gedirəm", "Benzinim qurtarıb", "İş vaxtım başa çatıb" - işarəsi verib ötdükcə, Kürən hirslənib onların arxasınca deyinirdi. Hacının bəxtindən bir idarə maşını dayandı. Kürən ona tanış olan sürücüyə razılığını bildirib, Hacını dal kabinədə əyləşdirdi və cibindən bir onluq çıxardıb, həmkarına uzadaraq:

- Redaktorumuzun atasıdır, - dedi. - Xahiş edirəm bu kişini avtobus dayanacağına çatdırın, - dedi. - Bir az nasazdır, xəstəxanadan təzə çıxıb. Maşını sürəndə ehtiyatlı olun.

Sürücünü isə qocanın xəstəliyi, nasazlığı yox, aldığı çörək pulu maraqlandırırdı. O, on manatı alıb qoltuq cibinə dürtdü və altındakı maşına xod verdi... Nazim İlhamı təəccüb götürmüşdü. O Kürəndən soruşdu:

- Yaxşı, mənə de görüm, Mollazadənin öz maşını burda boş-bekar dura-dura atasını niyə başqa maşınla...

Kürən bic-bic gülərək çiynini çəkdi:

- Mən kiməm, qədeş! Xozeyin özü bilər! Desin mənim maşınımla apar, aparım! Deyir taksi tut, baş üstə! Mən əl buyruqçusu kimi bir şeyəm.

Nazim İlham özündən asılı olmayaraq:

- Qəribədir - dedi və təəccüblə başını buladı.

Kürən çənəsini əyib, damağıyla çırt vurdu və sonra Nazim İlhamla üzbəüz dayanıb ehmalca:

- Mollazadə mənə deyər ey atamı vağzala apar. Ancaq arvadından dızıdır. Redaktorun bir atmaralı arvadı var ki, gəl görəsən! Heyləsini Allah düşmənimə də tuş eləməsin! Kişinin başında qoz sındırır. O, məni barmağıynan hədələyir ki, nəbadə o Hacıdı-macıdı bizim maşına mindirəsən. Lətdinin biridi. Nəfəsini çiyinlərindən alır. Mikrobları uşaqlara keçər. Xanım həm də deyir ki, o qoca maşına oturanda kabinədən it iyi gəlir, onnan iyrənirəm.

Kürən əlindəki açarı oynada-oynada:

- Şefin bir qayınanası var ki, yalan olmasın yarım ton! Urset madyanına oxşuyur. Baxanda adamın qusmağı gəlir. Amma di gəl ki, Mollazadə az qalır onu dalına alsın. Hi... hi... Öz atasını görəndə üz-gözündən zəhrimar yağır. Onların evində çox oluram. Şefin atası gələndə evdə dava-dalaşdı. Qayınanası gələndə toy-bayram.

Kürən ötkəm əda ilə səsini qaldırdı:

- Üstümü unlu görüb, məni dəyirmançı bilmə e, qədeş! Şofer olanda noolar! Tükü tükdən seçirəm. - Sürücü boynunu gərdi. - Nəyimə lazımdı! Özləri bilər! Bax, belənçi, belənçi işlər!

Nazim İlham başını endirib-qaldırdı:

- Aydındır, - dedi.

Kürən əlini çənəsinə apararaq:

- Qədeş mən ölüm, burda qalsın! Necə olsa, xozeyin xozeyindir. Mollazadənin qulağına çatsa məni birtəhər eləyər. Qələt eləyir e, o, qeyrəti yoxdu! Heç yel də olub yanımdan ötə bilməz! O qədər zibilini bilirəm ki! Amma yenə də... Mənim nəyimə lazımdır?

Nazim gördü ki, Kürənin bir gözü onun əlində qalıb, cibindən bir-iki manat çıxardıb ona uzatdı:

- Al, araq pulu eləyərsən. Ancaq bu sözləri mənim yanımda dedin eybi yoxdur, başqalarının yanında danışma, - deyib aralandı və tələsik addımlarla ümumi qapıdan içəri daxil olub sürtülüb bülövlənmiş pilləkənlərlə yuxarı qalxdı.

Redaktor yana daradığı cod saçını öz zövqünə görəmi, yoxsa dəlləyin səhvindənmi, bu dəfə çox qısaltmışdı. Bu, onun girdə sifətini bir qədər də iri göstərirdi. Nazimi görəndə əlindəki dəstəyi telefonun üstünə qoyub ağır-ağır yerindən qalxdı və qəddini irəli əyib, ona könülsüz salam verdi. Mollazadə külqabında tüstülənən papirosunu damağına qoyub, küt baxışları ilə onu süzərək:

- Hə, işlərin necə gedir? Zonada təzə nə var, nə yox? - soruşdu.

- Elə bir qeyri-adi hadisə yoxdur, - Nazim cavab verdi. - Olanlardan da az-çox xəbəriniz var.

Mollazadənin qaşları çatıldı. O, üzünü yana çevirib, yanıb kötüyü qalmış filtrli siqareti külqabında söndürə-söndürə:

- O deputata güllə atanların axırı nə yerdə qaldı?

- Deputata yox, onun boş maşınına.

Cavab Mollazadəni açmadı. Onun xırda gözləri köbələndi. Səliqə ilə düzəltdirdiyi nazik bığlarına tər gəldi:

- İndi nə demək istəyirsən? - redaktor qeyzləndi.

- Həqiqəti açıb ortalığa qoymaq!

- Onu kim etməlidir?

- Mən, Siz! Yüzə yaxın əməkdaşı olan kollektivimiz.

Mollazadənin küt baxışlarına acı təbəssüm yayıldı:

- Yazılarınıza sözüm yoxdur, - dedi. - Ancaq Sizdə jurnalist üçün vacibdən-vacib olan iki cəhət çatmır. Birincisi dərin siyasət, ikincisi, başladığınız bir işin gələcəkdə verə biləcəyi nəticəni qabaqcadan görüb, nəzərə ala bilmək qabiliyyəti.

- Müşahidəniz yanlışdır. - Nazim ona etirazını bildirdi. - Şahidi olduğum haqsızlıqların mənə cəhənnəm əzabından da betər əziyyət verdiyini duya bilsəydiniz, güman edirəm ki, bəlkə də mənim barəmdə o cür fikir yürütməzdiniz.

- Siz konkret olaraq hansı haqsızlığı nəzərdə tutursunuz?!

- Elə biri karamel fabrikinin direktoruna qəsd olunması faktını götürək. Başdan-ayağa uydurmadır.

- Yəni Siz buna qəti əminsiniz?!

- Bəli! İkiynən ikinin dörd eləməsi kimi.

- Ancaq onu da bilməlisiniz ki, inamı təsdiq edən möhürlüştamplı hüquqi sənəd-sübutlar olmalıdır. Siz isə havadan danışırsınız. Mejdu proçim, həmin işin istintaqına başçılıq edən general mənə zəng vurmuşdu. Nifaq Zamanoviç. Sizdən də bərk narazılıq elədi. Deyəsən, vilayət partiya komitəsinin birinci katibi İsmayılzadənin kabinetində onunla bir balaca mübahisəniz də olub, bir az da artıq-əskik danışmısınız. Bir redaktor kimi, orqan işçiləri ilə o cür rəftar etməyi Sizə məsləhət görmürəm. O generalı mən yaxşı tanıyıram. Obyektiv adamdır, yuxarılarda da böyük hörməti var. Belə bir inanılmış yoldaşla söz güləşdirməniz Sizə şərəf gətirməz. Generalla o dildə danışdığınıza görə başımız ağrı çəkə bilər.

Nazim İlham redaktorun dediklərinə münasibətini bildirmədən ayağa qalxdı. Mollazadə əlinin işarəsiylə:

- Əyləşin, əyləşin! - dedi. - Dikbaşlığınızı eşitmişdim, ancaq

inanmırdım. Okazıvayetsya, deyilənlər doğru imiş. Açığını deyim ki, belə getsə, Sizinlə işləyə bilməyəcəyəm.

- Sizcə dünyada nə qədər insan yaşayır? - Nazim kinayə ilə soruşdu.

- Saymamışam. Özü də bu cür yersiz suallara cavab verməyə vaxtım yoxdur, - redaktor hövsələdən çıxdı.

Nazim İlham:

- Kürreyi-ərzdə milyonlarla insan yaşayıb-yaradır, - dedi. - Məgər bu idarədən kənardakılar başlarını girləyə bilmirlər?

Mollazadə ona endirilən zərbəni dəf etməkdə aciz imiş kimi stolunun arxasında sanki balacalaşdı. Ölgün və balaca gözləri, qalın qaşlarının altındakı uzun kirpiklərinin arasında güclə işıldadı. O, ikinci dəfə yandırdığı filtrli siqareti bir neçə dəfə sümürüb tüstülədərək:

- Yenə deyirəm! Bugünkü söhbətdən sonra bir yerdə işləməyimiz çətin ki, baş tutsun, - dedi. - Yaxşı olar ki, bu barədə özünüz fikirləşib bir yol seçəsiniz.

Nazimin qətiyyətli baxışlarına kinayəli təbəssüm yayıldı və:

- Yaşadığımız zəmanədə vəzifə elə bir ovxarlı qılıncdır ki, dəstəyi hər hansı bir bivecin əlində olduğu təqdirdə, qarşısındakı məğrurlar da onun iradəsinə tabe olub, baş əyməyə məcburdur. Lakin məndən onu gözləməyin, - deyib, ayağa qalxdı.

- Siz əndazəni aşırsınız, - redaktorun siqaret tutduğu əli titrədi.

Nazim İlham:

- Dilimizin orfoqrafik lüğətində elə bir ifadə yoxdur ki, işlətdiyiniz sözün müqabilində bundan yumşaq səslənsin, - deyib, hikkə ilə redaktorun kabinetini tərk etdi.

Redaktorla xüsusi müxbir arasında gedən gərgin söhbətin təsirindən kabinetin onsuz da siqaret tüstüsündən dumanlanan

havası daha da ağırlaşdı. Mollazadə hələ də daldığı fikrin burulğanından xilas ola bilmirdi. Redaktora qalsa, Nazim İlhamın məsələsini sabaha qoymazdı. Onun işini elə indicə, bax, elə bu gün bitirərdi. Bir ad qoyub, mitilini kənara atardı. Ancaq dillə demək asandı, bəd ayaqda redaktor verdiyi əmrin arxasında dayana bilərdimi? Nazim İlham kimi bərkə-boşa düşüb-çıxmış, sərt, prinsipial bir adamla kəllə-kəlləyə gəlmək ona sərf eləyərdimi? Bu məsələdə Mollazadənin qabağını çox şey kəsirdi. Ölçüb-biçirdi ki, bu işə necə don geyindirsin ki, həm Nazim İlhamla üzüsulu üzülüşsün, həm də öz başı bir zərrə qədər ağrımasın.

* * *

...Nazim İlham Mollazadədən əlini üzüb, kor-peşman geri qayıtmalı oldu. O, axşam qatarına əyləşib, xidmət etdiyi zonaya yola düşdü. Buta dəmiryol stansiyası, Şirvan, Mil, Muğan düzləri... O vaxt gecəni qatarın üstündə keçirməsi... Yuxuya qalıb Mincivan stansiyasında ayılması və dəmir yol relslərinin arası ilə əlində ağır çamadan payi-piyada Əkərə stansiyasına qayıdarkən sərhəd keşikçiləri tərəfindən addımbaşı yaxalanıb sorğu-suala tutulması... Nazim ötüb-keçən günlərin yaddaş kitabını vərəqləyir, vaxtilə bu yolda başına gələnləri gözünün qarşısına gətirirdi. Yumşaq vaqonun rahat kupesində də acılı-şirinli xatirələr, Mollazadə ilə olan gərgin mübahisələr, onu təhdid edən uğurlu-uğursuz insan taleləri Nazim İlhama dinclik vermirdi. Dəmir relslər üzərində diyirlənən təkərlərin yeknəsəq tıqqıltısı, qarşıdakı stansiyanın yaxınlaşdığını təntənə ilə car çəkib, qərib gecənin sakitliyini pozan fit səsi onu çulğayan qarmaqarışıq fikirlərdən ayıra bilmirdi. Gözlərini yumub bir balaca huşa gedən kimi qarşısına ağ kağız qoyub qələmə sarılır, Təhmiraz Tahirov barədəki haqsızlığı çılpaqlığı ilə açıb tökür,

yazdığı məqalənin faktlarını dönə-dönə yoxlayıb dəqiqləşdirir, məktubu axırıncı dəfə makinadan çıxan kimi xüsusi zərfə qoyur, tələm-tələsik redaksiyaya göndərir. Bir neçə gündən sonra... Sonra da şöbə müdiri ona telefonla zəng vurub deyir ki, redaktor məqaləni bəyənmədi... Mollazadə məktubu brak eləyib qaytardı geri. Nazim İlham yuxudan hövlnak qalxdı. - Yaxşı ki bunlar yuxuymuş, - düşündü və özündə bir yüngüllük hiss etdi. Sonra yumşaq kupenin balaca pəncərəsindən asılmış ağ pərdəni yana çəkib, bayıra tərəf boylandı. Gecənin intəhasız dərinliklərində heç nə görünmürdü. Hərdən uzaqlarda sayrışan elektrik lampalarının işıltısı ani olaraq nəzərə çarpıb, tez də yox olurdu. Qatar Nazim İlhamın xüsusi müxbir olduğu vilayətin mərkəzinə çatanda, sübhün şəfəqləri yenicə sökülürdü. Dəmiryol vağzalının arxa tərəfindəki avtomaşın dayanacağında müştəri gözləyən sürücülər, səliqə ilə geyinib-kecinmiş, boynu qalstuklu, əli portfelli sərnişinlərlə rastlaşanda sifətlərini turşudub, yan keçirdilər. Çiyni xurcunlu, dalı şələli adam görəndə həvəslə onların qabağına yüyürüb:

- Maşınım təptəzədir! Harada deyirsən, gözüm üstə! Artıq almaqla da işim yoxdur! Nə versən, öz insafına! - yalvarıcı dil tökməkdən çəkinmirdilər.

Hündür boyu, sağlam bədəni olan, şulum geyimli sürücü Nazim İlhama yanaşıb, kabinəsində üç nəfər əyləşmiş "Pobeda" maşınını ona işarə edərək:

- Kakraz biradamlıq yer var, - dedi. - Gedirsiniz, buyurun, əyləşin.

Nazim dillənmədən fikirli-fikirli irəli yeriyib, bir qapısı açıq olan "Pobeda"nın arxa tərəfindəki iki nəfərin yanında əyləşdi. Müştəri sarıdan bəxti gətirən sürücünün kefi duruldu. O, nəşə ilə sükanın arxasına keçib, aramsız siqnal verə-verə nizamsız dayanmış avtomaşınların, ora-bura şütüyən yolçuların arasından

birtəhər sivişib şəhərə tərəf yol aldı. İrəlidəki döngədən sola burulub, genişliyə çıxanda sürücü sürəti bir balaca artırdı və yanında əyləşmiş sərnişinə:

- Şaban müəllim!

- Bəli!

- Bəlin şirin, qonşu, neçə gündür buralarda görünmürsən. Yəqin çox şeydən xəbərin yoxdur. Yaman tuthatutdur, - sürücü asfaltı sökülüb-dağılmış çala-çuxur yoldan diqqətini ayırmadan sözə başladı, - hələlik yeddisini cələkləyiblər. Bəzilərini elə gecə yatdığı yerdə yorğan-döşəyindən götürüblər. Nırxın-zadın da soruşmurlar. Kimdən bir balaca şübhələndilər, qanı getdi. Danaboyun eləyib basırlar içəri.

Sadə paltar geyinmiş və hərəkətlərindən mülayim təbiətli adam təsiri bağışlayan Şaban müəllim yaşına uyğun həlim səslə:

- Buralarda olmamağıma baxma, - dedi. - Az-çox xəbərim var. Yəqin o Təhmiraz Tahirovun güllə əhvalatını deyirsən? Ziyad Kərimliyə qəsd eləməsini.

- Qonşu, bu saat şəhərdə bir pıçhapıçdır ki, gəl görəsən! Tay başqa söz-söhbət yoxdur. Hara gedirsən, o barədə danışırlar. Belə getsə, qorxuram elə bizi də... Amma camaatın ağzı ayrı hava çalır. Danışılanlara görə bu, qurma işdir. Təhmiraz Tahirov heç "çıq" da eləməyib. Hamısı Ziyad Kərimli ilə onun yuxarıda bir qaranoyu var, adına da qara general deyirlər, üçhərfli idarədə işləyən, onun işidir.

Şaban müəllim gülümsündü və:

- O üçhərfli nədir, başa düşmədim? - soruşdu.

Sürücü özünü çoxbilmiş kimi göstərərək eyni şıltaqlıqla:

- KQB - üç hərf - dedi. - Onu bilməyə nə var?! General bax, orda, böyük yerdə işləyir. Ziyad Kərimliynən də çoxdan curdur. Deyilənə görə, aralarından su da keçmir. Söhbət gəzir ki, bu işin əsas mayası elə odur.

Maşındakılar bir-birindən ehtiyat edirmiş kimi dillənmirdilər. Kabinəyə lal sükut çökmüşdü. Şaban müəllim balaca kabinənin kəsif havasını dəyişmək üçün qabaq qapının şüşəsini azacıq endirdi. Sübhün təmiz havası içəri doldu. Şaban müəllim təmkinlə:

- Çox adam çox söz deyə bilər, - dilləndi. - Ancaq belə məsələdə fikir yürütmək çətindir. Yalnız onu deyə bilərəm ki, o Təhmiraz Tahirovu çoxdan tanıyıram. Tələbəm olub. Elə indinin özündə də iki uşağına dərs deyirəm. İnsaf üçünə, o vaxt yaxşı oxuyurdu. Sinifdə beş şagirdin biriydi. Di gəl, çox höcət idi. Dediyindən dönməzdi. Sərxan adlı bir skamya yoldaşı vardı. Hərdən ona sataşanda deyirdi ki, Təhmirazın başı artezian quyusudur. Bir şey ki, düşdü, qurtardı-getdi. Çıxartmaq mümkün deyil. O cür xasiyyətinin üstündə çox danlayıb-dansamışam. Amma biliyinə söz yoxdur. Dilinə də yalan gətirməzdi. O vaxt özünə çox demişəm. Neçə dəfə dəlil-dəlalət eləmişəm ki, Təhmiraz, bu tərsliyindən əl çək! Vaxt gələr, onun bəlasını çəkərsən. Son vaxtlar əlaqəm yoxdur. Hərdənbir valideynlər iclasına gələndə görürdüm.

- Mən də elə bunu kənardan-kənara tanıyıram. Ağızdan-ağıza eşitmişəm ki, pis adam deyil. Heç kəsin də heçinə-köçünə qarışmaz. - Sürücü Şaban müəllimin sözünə əlavə etdi.

Şaban müəllim üzünü sürücüyə çevirdi:

- Oğul, həyatda salamat baş gəzdirmək üçün yaxşı adam olmaq azdır, - dedi. - Gərək ağlın-kamalın da ola. Təhmiraz Tahirov Ziyad Kərimliynən nahaq daşa-tərəziyə girib. Kərimlinin ad-sanı aləmi bürüyüb. Necə olsa, deputatdır, geroydur. O dediyin general olmasın, başqası olsun. İstər-istəməz Ziyad Kərimlinin tərəfini saxlamalıdır. Yuxarılarda Təhmiraz Tahirovu kim tanıyır? Heç kim! Heç it dəftərində də adı yoxdur. Ağlı başında olan kəs gərək özünü uşağa, valideyninə, müəl-

liminə, dəliyə, bir də ki, pullulara qarşı qoymasın. Təhmiraz özü-özünə eləyib.

- Ee, müəllim, Siz də lap abadanlıqdan danışırsınız. Mən özüm də doqquzacan oxumuşam. Xətrinizə dəyməsin, vallah-billah məktəbdə verdiyiniz dərslə mənim eşidib-gördüklərim arasında yerlə asiman qədər fərq var. İş kitabda yazılanlar kimi olsaydı nə dərdidi! Onda qurd qoyunla otlayardı. Əşşi, indi sən dediyin kimi deyil e, müəllim, tülkü tülkülüyünü sübut eləyincə, dərisini boğazından çıxarırlar. Külli-aləm bilir ki, Ziyad Kərimliyə güllə atılmayıb. Ancaq gör dünyanın harasıdır ki, qaynatası da, qardaşı da, yeznəsi də üzünə at kimi dirənirlər. Qırmızıca deyirlər ki, Təhmiraz Ziyad Kərimliyə güllə atıb, biz də görmüşük. Bax, indi buna sözün nədir?!

Müəllimin mülayim çöhrəsinə xəfif qızartı çökdü:

- A bala, mən prokuror deyiləm, güllə atanın da yanında olmamışam. Bunlar hamısı mülahizədir. Mülahizə də ki, veriləcək hökm, çıxarılacaq qərar üçün əsas ola bilməz. İrəli sürülən hər bir fikir, konkret dəlil-sübutlara əsaslanmalıdır. Nə bilmək olur, insan çiy süd əmib. Bəlkə o Təhmirazın üzünə haqlı dirənirlər?!

Bayaqdan bəri Nazim İlhamın yanında lal-dinməz əyləşən ahıl, bir qədər də əndamlı qadın barıt dağarcığı kimi açıldı:

- Təhmirazın üzünə dirənmirlər ey, dirəndirirlər! Niyə sözün düzünü deməyə qorxursunuz? Bəyəm Təhmirazın qaynatasının, qardaşının, yeznəsinin başına at təpib ki, ortalıqda bir şey olmaya-olmaya onun üzünə dirənirlər. O qıldığım haqqı, hamısı şər-şəbədədir. Gec-tez də üstü açılacaq. Hay-hayım gedib, vay-vayım qalıb. Bu sözün üstündə qoy, illaf, məni tutsunlar. Bəlkə Siz vəzifənizdən qorxursunuz? O üç hərf deyirsiniz, nə deyirsiniz, təzədən məni tutub neyniyəcək? Arpaya qatsalar at yeməz, kəpəyə qatsalar it! Bax, budu deyirəm yadınızda

saxlayın, mən ölü, siz diri. Bu işi nə qədər çək-çevir eləsələr də, axır-aqibəti yoxdur. Mən deyən olmasa, bu ağbirçək çağımda it olub uluyaram.

Zəhra xala ürəyini boşaldıb, damarları çıxmış qansız barmaqları ilə, çalın-çarpaz qırışlar düşmüş sifətinə dağılan ağ birçəyini başındakı qalın şalın altına yığdı və hikkəli-hikkəli əlavə etdi:

- Deməyin ey, Zəhra xalanın savadı-zadı yoxdur. Mən də özümə görə bir adamam. Dörd oğul böyütmüşəm. Hamısı da nər kimi. İndi biri də əlimdə-ovcumda qalmayıb. Hitlerin evi yıxılsın. Hamısı o qanlı meydanda batırqana düşdü. Bu günəcən nə öldüsü bilinir, nə qaldısı. Amma belə-belə haqsızlıqları görəndə adamın ayağının altından yer qaçır. Bir də ki, ay bala, indiki zamanda adamı durduğu yerdə dolaşdırmağa nə var? Qanun da, hökm də öz əllərindədir. İstəyəndə ağa qara deyirlər, qaraya ağ. Əslinə qalsa, qanunu qanun çıxaranların elə özləri pozur. Yoxsa Təhmirazın burda nə günahı var? Niyə, onu tanımıram? Dədə-babadan neçə ilin gor qonşusuyuq! Bəyəm Təhmiraz o qədər hayıxıb ki, o boyda dirıxtıra güllə atsın?! Bu harda görünüb? Yaxşı, güllə atmışdısa, niyə bəs dirıxtıra dəyməyib? Vallah, gülməli işdir.

Zəhra xala əynindəki xəz baftalı qolsuz arxalığının ətəyini geri çəkib, sağ tərəfə döndü və Nazim İlhama müraciətlə:

- Düz demirəm, ay oğul? - deyə soruşdu. - Vəzifə də bilmirəm, amma bazburutundan donluq alana oxşuyursan, - əlavə etdi.

Nazim İlham xoş təbəssümlə:

- Bu barədə bir söz deyə bilmərəm, xala, - cavab verdi. - Mən də sizin kimi kənardan-kənara eşitmişəm.

- Həə, elə düz eləyirsən, bala, ağıllı adamsan! Eşitməmişəm! Görməmişəm! Bilmirəm! - dən yaxşısı yoxdur. Onda başın

salamat olar. - Zəhra xala eyhamla Nazim İlhamı qınadı. - Xatirinə dəyməsin ey sən də mənim oğlum. Bir az qırmızı adamam. Sözü adamın üzünə deyirəm. Elə sənin kimi oxuyub donluq alanlar yaxasını kənara çəkir ki, belə olur, dayna! Hara baxırsan, nahaq işlər ayaq tutub yeriyir!

Sürücü sükanı sağa-sola bura-bura:

- Zəhra xala, yaman dedin ha! Lap ürəyimdən tikan çıxartdın. - Şit-şit irişdi.

Zəhra xalanın solunda fasıx-fasıx oturan ortayaşlı kişi, sürücünün atmacası ona ləzzət verirmiş kimi, bic-bic güldü. Şaban müəllim isə öz daxili aləmində olduğundan onlara məhəl qoymadı. Maşın şəhərə daxil olanda söhbət dəyişdi. Sürücü kimin harada düşəcəyini soruşdu. Şaban müəllim:

- Əvvəlcə Zəhra xalanı düşürərik, - dedi.

- Həə, bizim evimiz elə şəhərin ayağındadır. - Zəhra xala müəllimdən razı qaldı. - Sabir küçəsi, 97-də oluruq, - dedi. Bayaq adını çəkdiyiniz Təhmirazın evi ilə bizim ev divar-divaradır. Həə, kişinin topdağıtmaz evi vardı, hər yadıma düşəndə məni od götürür. - Zəhra xalanın dərdi təzələndi. - Tutulandan sonra hamısını altdan-altdan satıb-sovublar. Bir az pul toplamışdılar ki, ora-bura verib qurtarsınlar, əlləri girmədi. - O, kədərli bir ah çəkdi və içəridən qovrula-qovrula:

- İndiki zamanada çalış yıxılma, yıxıldın, qurtardı, getdi. Yıxılana balta çalan çox olar. Axı, kimdi yıxılana qahmar duran: Hərə öz başının həşirindədir. Məndən ötdü, qardaşıma dəydi, elə bil saman çuvalına dəydi. Ee, Ziyad Kərimli, Ziyad Kərimli! Neçə evlər yıxıb, qapılar bağlatmısan! Şaban müəllim də yastı-yastı deyir ki, onun adı-sanı var! Tələsmə! Aşağıda yıxan varsa, yuxarıda da baxan var! Onun da vaxtına az qalıb! Ziyad harınlayıb! Dərisinə sığmır! Onu da bilin ki, elələri çox getməz! Dolan tökülməlidir!

Sürücü daxili şübhə ilə:

- Zəhra xala, - dedi. - Hələ siftə eləməmişəm, mən ölüm, səhər-səhər məni zibilə salma. Hər kolun dibində bir şpion var, gedib çatar qulaqlarına, ondan sonra di gəl, vur eşşək palçıqdan çıxsın! Bu taksi maşınını alınca diz yerə qoymuşam. Hələ indiyə kimi nəçənniyə verdiyimi çıxarda bilməmişəm. İtə də bir çörək borcluyam. Çax-çux eləyib uşaqları birtəhər girliyirəm. Əlimə gələn qəpik-quruşun çoxunu borca verirəm. Tutub altımdakı dördtəkərlini də əlimdən alsalar, batdım. O məsələni çox da qurdalamaq lazım deyil!

Zəhra xala:

- Saxla, saxla, oğul, bizim ev budur. - Sürücünün sözünü kəsdi. - Yan tərəfdəki də o adamın evidir. Təhmiraz Tahirovun. - Əlavə etdi. - Görmürsünüz suyu sovulmuş dəyirman kimidir.

Maşındakıların maraq dolu nəzərləri Təhmiraz Tahirovun o qədər də geniş olmayan həyətinə və bir neçə qartımış ağacın əhatəsindəki ikimərtəbəli evinə yönəldi. Baxımsızlıqdan həyətdəki alma-armud ağaclarının yarpaqları saralıb-tökülmüşdü. Pəncərəsinə tül pərdə çəkilmiş alt otaqdan yanıqlı qarmon səsi gəlirdi. Zəhra xala şələ-şüləsini yığışdıra-yığışdıra:

- Təhmirazın Bakıda oxuyan oğludur, - dedi. - İnişil nələri vardı, satıb-sovub birtəhər ali məktəbə girmişdi. Atası tutulan gündən institutu atıb gəlib. Səhərdən-axşamacan eləcə yanıqlı-yanıqlı qarmon çalır. Düzü, eşidəndə, elə bil ürəyimin başına od düşür. Çoxusu elə onun dərdindən baş götürüb ora-bura gedirəm. Arvadı da o tutulandan bəri dərd çəkməkdən yorğan-döşəyə düşüb. Allah düşmənimə də göstərməsin. Quru şər pis şeydir. Di sağ olun! - Zəhra xala barmaqları əsə-əsə əlindəki pulu sürücüyə uzadıb, dil-ağız elədi və - Xaraba qalmış bu yel xəstəliyi dizlərimin ikisini də qurudub, addım ata bilmirəm. - Azaylana-azaylana üzərində Sabir küçəsi 97 yazılmış qapıdan

içəri daxil oldu.

Taksi maşını irəlidəki döngəyə çatanda sürətlə sağa buruldu və bir qədər gedəndən sonra dayandı. Qabaq tərəfdə əyləşən müəllimlə arxadakı ortayaşlı fağır kişi də düşdülər. Maşında yalnız Nazim İlham qalmışdı. Sürücü ona tərəf qanrılaraq:

- Hə, əmoğlu, səni harada düşürdüm? - soruşdu. - Ev adresini de görüm.

- Puşkin, 92 - Nazim cavab verdi.

- Bildim, bildim, o qırmızı daşdan tikilmiş üçmərtəbəli binanı deyirsən?! Özü də gərək ki, bu yaxınlarda istifadəyə verilib. Sağlığına qismət, yaxşı evlərdir.

- Sağ olun.

Sürücü boğazını uzadıb, maşının əl boyda güzgüsündən Nazim İlhama zəndlə baxdı və:

- Səhv etmirəmsə, Sizi bir dəfə də aparmışam, - dedi. - Onda məscidin o tərəfindəki köhnə binada olurdunuz.

- Doğrudur, - Nazim İlham sürücünün sözlərini təsdiq etdi.

- Soruşmaq ayıb olmasın, harada işləyirsən?

- Mətbuat sahəsində.

Sürücü dünya vecinə deyilmiş kimi irişdi. Və özünəməxsus nikbinliklə sorğu-sualına davam etdi:

- Belə de də, deməli, ondan-bundan yazıb-pozursan.

Nazim İlham gülümsündü. Lakin onun sözünün başına ip salmaqdan vaz keçdi.

Sürücü nəyisə xatırlayırmış kimi qaşlarını çatdı:

- Hə, hə, deyirəm axı, Sizi neçə dəfə bizim bu qəzet idarəsinin qabağında görmüşəm.

- Ola bilər, - Nazim dilləndi.

Sürücü yarızarafat:

- Bura bax, əmoğlu, mənim başıma nə gəlir, bu dilimin ucundan gəlir. Çünki həmişə sözün düzünü deyirəm. Xatirinə

dəysə də, dəyməsə də mənim bu qırmızıpapaqlılarla, müxbir tayfasına etibarım yoxdur. Birdən bu maşında danışdıqlarımızın üstünə beşini də qoyub məni bəzəyərsən ha! - O, şübhəli nəzərlərlə maşının güzgüsündən Nazimə tərəf boylandı.

Nazim İlham sakit-sakit güldü. Sürücü geri qanrılıb Nazimə:

- Sən Allah, bağışla, - dedi. Qanunla gərək Sizi düşürəydim, sonra onları. Birdən məndən inciyib-eləyərsən!

- Əslində Siz düz hərəkət etdiniz, - Nazim cavab verdi. - Əvvəlcə qadınlara, müəllimlərə hörmət etmək lazımdır.

Sürücü xoşhal oldu və bir qədər mülayimcəsinə:

- Sizdən bir söz də soruşum.

- Buyurun.

- Bayaq danışdığımız məsələdən Sizin ağlınız nə kəsir?

- Hansı məsələdən?

- Təhmiraz Tahirovun Ziyad Kərimliyə güllə atmasından. Amma mənim beynimə girmir. - Sürücü sifətini turşudub, başını buladı. - Tək mən yox ey, eşidib-bilən deyir ki, bu iş Ziyad Kərimliynən onun bir general dostu var, onun fırıldağıdır.

Nazim İlham:

- Bu məsələ ilə inzibati orqanlar məşğul olduğu üçün mən bir söz deyə bilmərəm. Bu barədə istintaq gedir, qarşıda məhkəmə var. Gec-tez hər şey aydın olar. Onda Siz özünüz də mənə verdiyiniz bu suala cavab tapa biləcəksiniz. Odur ki, indidən fikir yürütmək tezdir.

- O da düzdür. - Sürücü razılaşdı və tərəddüdlə əlavə etdi:

- Yönlü bir məktəb də qurtarmamışam, sən isə oxumuş adamsan. Allaha şükür, vəzifən də elədir ki, hər şeyi məndən yaxşı bilirsən. Amma Ziyad Kərimlinin döşündəki ulduz-mulduza baxma. Çox qansız adamdır. Barmağı da hər yerə girir. Köhnədən aralarında nə olubsa indi Təhmiraz Tahirovdan hayıf çıxır. Onlar ali məktəbi bir yerdə oxuyublar. Təhmiraz

Tahirovun arvadı o barədə ayrı cür danışır. O məsələni çox adam bilir. Guya ki, ikisi də bir qızı istəyirmiş. Nə bilim, vallah mən də danışılanları deyirəm. Guya ki, köhnədən aralarında nə isə varmış. O ki qaldı sən deyən istintaq, məhkəmə, ağlım bir şey kəsmir. Hamısı boş şeydir. Ziyad Kərimli barmağını hara tutsa, milis də, prokuror da o tərəfə getməlidir. Pir olmuş, indi qanuna baxan kimdir?

Sürücü sanki Nazimin yaralı yerinə toxundu. Dünən redaktorla olan xoşagəlməz söz-söhbət Nazimin yadına düşdü. Xəyallandı, yenə Mollazadə ilə qabaq-qənşər əyləşdi. Redaktorla mübahisəyə başladı. Həmin anda sürücünün çərənləməsini eşitmirdi.

- Çatdıq, - sürücünün şən səsi eşidildi. Puşkin, 92-dir, - deyib üçmərtəbəli daş binanın qabağında ayağını maşının əyləcinə basdı. Taksi maşını qəfil dayandığı üçün Nazim İlham irəli-geri ləngərlənib xəyaldan ayrıldı. O, maşının kabinəsini açıb, əlini cibinə uzatdı. Sürücü mərd-mərdanə:

- Qonağım olun, - deyib, pul almaqdan imtina etdi. Nazim İlham isə:

- Bu, Sizin şəxsi maşınınız olsaydı, bəlkə də razılaşardım. Ancaq sürdüyünüz taksi maşınıdır. Və şübhəsiz ki gündəlik planınız var, - sürücüyə etiraz etdi.

Sürücü təkidlə:

- Nemət eşitsə ki, Sizdən pul almışam, külümü göyə sovurar. Onun xasiyyətini bilmirsən?!

- Nemət kimdir? - Nazim təəccüblə gözlərini qıydı.

- Guya ki, tanımır! Qələm dostunuz. Tez-tez bir yerdə oturub-durursunuz. Nemət Rəcəblini deyirəm, əmoğluyuq. Sizin barənizdə ondan çox eşitmişəm. Siftə səni tanımadığım üçün bir az alt-üst danışdım. Sən Allah, bağışla.

- Allah bağışlasın. Lakin həmkarımın qohumu olduğunuz

üçün gərək taksi pulunu ikiqat verim. - Nazim İlham əlindəki onluğu təkidlə sürücüyə verib, xırdasını gözləmədən maşından aralandı.

* * *

...Nazim kiçik kabinetində siqareti calayıb vilayətdə sənaye müəssisələrinin işinə dair məqalə hazırlayırdı. O, hərdən qələmini yerə qoyub, əlini üzünə söykəyir və Təhmiraz Tahirov barəsində düşünürdü. Ziddiyyətli söz-söhbətlərə səbəb olan bu müəmmalı hadisə onu əsla rahat buraxmırdı. Nemət Rəcəbli həmişəki kimi kabinetin qapısını açıb, demisi dodağında şəstlə içəri daxil oldu. Və yenə həmişəki kimi:

- Atam! Mən bu işə matam! - deyib, Nazim İlhama yaxın olan stulların birini altına çəkdi.

Nazim daxili düşüncələrindən ayrılıb, dilxorçuluğunu büruzə verməməyə çalışaraq süni təbəssümlə:

- Yenə nə var, Mirzə:

- Eşitməmisən?

- Xeyr! Nə olub ki? - Nazim soruşdu.

Mirzə baş barmağının ucu ilə demisinin sönməkdə olan külünü yastılaya-yastılaya:

- İbiş Allahyarlının da başını belə əkdilər. KQB-nin bizim vilayət üzrə nəçənniyini. Deyəsən generalla sözləri çəp gəlib.

- Ola bilər, - Nazim cavab verdi.

- Ola bilər yox, olub! Yerinə də bir nəfər sütül oğlan qoyublar. Deyilənə görə, generalın yaxınıdı. Yuxarıda aparatda işləyirmiş.

Nazim fikrə getdi və öz-özünə:

- Qəribədir, - dedi.

Nemət Rəcəbli soruşdu:

- Siz onu necə tanıyırdınız, İbiş Allahyarlını?

- Rəsmi, başqa bir münasibətimiz olmayıb.

- Mən onu yaxından tanıyıram. - Nemət Rəcəbli bu barədə təfsilatı ilə danışmağa başladı. - Allahyarlı ilə söhbətimiz tuturdu. Özü də mənə çox inanırdı. Darıxanda məni axtarırdı. Hərdən gileylənirdi ki, bu idarə mənim yerim deyil. Təhlükəsizlik orqanlarında iyirmi ilə yaxın işləməsinə baxmayaraq, elə hey deyirdi ki, Mirzə bu mühitə uyğunlaşa bilmirəm. Həmişə də cibində əl boyda Quran olurdu. Amma bunu heç kəsə bildirmirdi. Bircə məndən gizlətmirdi. Bir dəfə zarafata salıb ona söz atdım. Dedim ki, yoldaş Allahyarlı, axı, Sizin qulluq mövqeyinizlə dini ayinlərə etiqadınız uyğun gəlmir. Mənim bu sözümdən İbişin xoşu gəlmədi. Dedi ki, Mirzə, nahaq dərinə gedirsən. Mən tutduğum vəzifəyə heç vaxt xəyanət etməmişəm, etmərəm də. Ancaq din, əqidə başqa şeydir. Dininə sadiq olmayan, vəzifəsinə də vicdanlı münasibət bəsləməz. Sonra İbiş Allahyarlı əlini çiynimə qoyub ərklə dedi ki, Mirzə, mən din içində din bəsləyirəm.

Nemət Rəcəblinin nikbin baxışlarında tutqun bir kölgə dolaşdı. O, mütəəssir baxışları ilə Nazim İlhama yoxlayıcı nəzər salaraq:

- İbiş Allahyarlı mənə hamısını danışıb, - dedi. - Çıxarılan günün axşamı evlərinə getmişdim. Özü çağırmışdı. Çağırmasaydı, getməzdim. Qanı bərk qara idi. Sistemdən biryolluq uvolit eləmək istəyirlər. Deməsindən belə çıxdı ki, Təhmiraz Tahirovun məhkəməsinin axırın gözlüyürlər. Onlar iş alsa, Allahyarlının qanı getdi. Hələlik sərəncama çağırıblar. Əmrini də yazıblar ki, başqa işə keçdiyinə görə. Vəzifədən çıxmasını vecinə də almır. Onu ən çox ağrıdan Təhmiraz Tahirovla Ziyad Kərimlinin əhvalatıdır. O da biz bildiyimiz kimi bilir. Okazıvayetsya, yuxarılara rəsmi surətdə arayış verib ki, belə bir hadisə olmayıb. Yazıb ki, Ziyad Kərimliyə yox,

onun boş maşınına güllə atıblar. O da Təhmiraz Tahirovun tərəfindən yox gözətçinin əli ilə. Arayışda fotoqrafın kasetə çəkdiyi kimi gözətçinin necə aradan götürüldüyünü də açıqca göstərib.

Nemət Rəcəbli danışığına fasilə verib cibindən kibrit çıxartdı. Sönməkdə olan demisini közərtməyə başladı. Nazim İlham əlini çənəsinə verib, ona diqqətlə qulaq asırdı. Nemət güclə tüstülənən demisini bir-iki dəfə sümürüb, sözünə davam etdi:

- Allahyarlıya bir-iki söz dedim. Dedim ki, yıxılanla yıxılmaq olmaz. Təhmiraz Tahirovun onsuz da kitabı bağlanıb. Vəziyyəti bilə-bilə nahaq risqə gedib özün öz çörəyinə bais olmusan. İndi igidlik zəmanəsi deyil. Ailən, uşağın var. Heç olmasa, onları düşünməliydin.

Mirzə Nazimin üzünə dik baxaraq:

- Bilirsən mənə nə cavab verdi?

Nazim dillənmədi.

Nemət Rəcəbli:

- Allahyarlı dedi ki, Mirzə, səndən gözləməzdim. Gözləməzdim ki mətbuat sahəsində otuz ildən artıq külüng vuran mübariz, ağı qaradan seçən və mənim böyük inamım, hörmətim olan qocaman jurnalist insan taleyinin asılı olduğu belə bir prinsipial məsələdə yüngül desəm, liberal, qeyri-ciddi mövqedə dayansın. Siz dediyiniz yolla getsəydim itirdiyim qazandığımdan çox olardı. Generalla razılaşıb, Təhmiraz Tahirovun Ziyad Kərimliyə güllə atmasını təsdiq edən saxta sənədlər toplasaydım əlbəttə, bu çiyinlərimdəki ulduzların artması, vəzifə kürsümün möhkəmlənməsi üçün böyük təminat idi. Və tabe olduğum bir neçə, bəli, bir neçə adamın rəğbətini qazanardım. Lakin bu məsələnin kökünü yaxşıca bilən minlərlə adam məni lənətləyərdi. Əlini çiynimə qoyub dedi ki, Mirzə,

unutmayın ki, nifrət seli amansızdır və onun əzablarına dözmək çətin olur.

Mirzə gülümsündü və təslim olurmuş kimi əlavə etdi:

- Düzü, dediyimə də peşman oldum. Allahyarlıdan üzr istədim.

- O sahədə belə adamlar tək-tük olur, - Nazim İlham dilləndi. - Sizin bu dediklériniz onu gözümdə qaldırdı. Təəssüf ki, İbiş Allahyarlı ilə şəxsi yaxınlığımız olmayıb. Bir-birimizi elə-belə, kənardan-kənara tanıyırıq.

Nemət Rəcəbli:

- Məndən gizli sirri yoxuydu, - dedi. - Gecə yarıya qədər söhbət elədik. Bakıya yola salanda bir-iki adam gəlmişdi. Rəhbər işçilərdən gözümə dəyən olmadı. Amma qonum-qonşu gəlmişdi. Ayrılanda kövrələn kimi oldu. Məni kənara çəkib dedi ki, Mirzə, darıxma, həyatda belə şeylər çox olur. Həqiqət gec gələr, amma güc gələr. Həmişə çalış, Allahla hesabını düz saxla. Onda həmişə üstün gələrsən.

Nemət Rəcəbli söhbətini bitirib xarakterinə uyğun nikbinliklə:

- Atam! Mən bu işə matam! - deyib xeyli susdu.

Nazim İlham Mirzənin sözlərinin təsiri altında dərin fikrə getmişdi. O, daimi papiros çəkən olmasa da, məqalə yazanda və ya dilxorçuluq baş verəndə siqareti siqaretə calayırdı. Nazim bir "Kazbek" papirosu yandırıb tüstüsünü dərindən sinəsinə çəkdi. Sonra diqqətini Nemət Rəcəblinin sifətində cəmləşdirərək:

- Mirzə, bir neçə gündür ezamiyyətdəyəm. Ona görə də çox şeydən xəbərim yoxdur. İnanıb ürək qızdırdığım köhnə həmkar kimi bilməlisiniz ki, çox güman İbiş Allahyarlı barədə dediklərin mənim də başıma gəlsin. Belə bir aqibətlə üzləşəcəyimi indidən görürəm. Lakin bu, mənə məsələdən yan keçməyə haqq vermir. Belə demək mənim üçün çətin olsa da,

açığı özüm özümlə bacarmıram. Elə bilirəm ki Təhmiraz Tahirov qəlbinin məhkəməsində məni qətiyyətsizlikdə ittiham edir. Və bu haqsızlığı üzə çıxaracağımdan ümidini üzməyib. Nə isə qələm adamı kimi məndən kömək gözləyir. Bax, gecə-gündüz bu fikir məni amansızcasına təhdid edir. Bir də ki, jurnalist məlum həqiqəti üzə çıxara bilmirsə qələmini zibil qutusuna tullasa yaxşıdır. Gücsüzlüyün etirafı da bir mərdlikdir.

Telefon zəng çaldı. Nazim dəstəyi qaldırdı. Danışan vilayət partiya komitəsinin işçisi idi. Onu bu gün vilayət partiya komitəsində keçiriləcək fəallar yığıncağına dəvət edirdilər. Nazim telefonun dəstəyini yerinə qoyub saatına baxdı və ayağa qalxaraq:

- Ayda-ildə bir namaz, onu da şeytan qoymaz, - narazı halda başını buladı və - Mirzə, gedək, - dedi. - Məni iclasa çağırırlar. Vaxta az qalır, ancaq çataram. Jurnalistlərin əskisi tüstülüdür, geciksəm, onu da söz eləyərlər. Heyf, söhbətimiz yarımçıq qaldı. Eybi yoxdur, sonra vaxt taparıq.

...Vilayət üzrə geniş yığıncaq keçirilirdi. Ayrı-ayrı rayon, şəhər və kəndlərdən gəlmiş nümayəndələrin əyləşdiyi yumşaq stulların arasınca, kənarı naxışlı fərşlər salınmışdı. İş heyətindəki on-on beş nəfərdən ibarət sayılıb-seçilən adamların arasında general da əyləşmişdi. Şübhəsiz ki, o, bura qonaq sifətilə dəvət olunmuşdu. Generaldan bir adam o tərəfə Ziyad Kərimli görünürdü. O, tez-tez generala tərəf əyilib, onun qulağına nə isə pıçıldayır, sonra da qəddini düzəldib, həyatından razı, xoşbəxt adam əhval-ruhiyyəsi ilə o tərəfə-bu tərəfə döndükcə sinəsindəki beşguşəli Qızıl ulduz nişanı və başqa orden-medallar tavandan asılmış çil-çıraqların gur işığı altında bərq vururdu. Zaldakıların çoxunun ona qibtə ilə nəzər saldığı aydınca hiss olunurdu. Generalın qara eynəyi, lal-dinməz oturuşu, çiynindəki zərli paqonları zəhmli təsir bağışlayırdı. Və

bəzilərini üşəndirirdi. Fəhlədən, alimdən tutmuş məsul vəzifə sahiblərinə qədər çıxış edən natiqlər əvvəlcədən rəhbərlikdə yazılıb hazırlanmış yad cümlələrdən ibarət bir-iki vərəqlik mətni höccələyə-höccələyə oxuyub qurtardıqdan sonra çiyinlərindən ağır qurğuşun yükü götürülübmüş kimi xitabət kürsüsünü tərk edib, dabanlarını yerə basmadan, pəncələri üstə və ehtiyatlı addımlarla öz yerlərinə keçirdilər.

General bir-birini əvəz edən natiqlərin çıxışlarını diqqətlə dinləyir, qara eynəyinin altından zaldakıları nəzərdən keçirir və hərdən təkəbbürlü hərəkətləri ilə müzakirələrə münasibətini büruzə verirdi. Vilayət Komitəsinin rəhbəri Şirxan İsmayılzadə yerindən qalxıb ağır addımlarla xitabət kürsüsünə yaxınlaşdı. O, əvvəlcə iqtisadi sahədəki bəzi qüsurları qeyd etdi. Birdən onun sifəti ciddiləşdi və çıxışının istiqamətini dəyişdi.

- Təəssüf ki, bəzi xoşagəlməz hadisələr də baş verir, - deyib, əlavə etdi. - Yəqin çoxunuzun xəbəri olmamış deyil. Hamınız bilirsiniz ki, Ziyad Kərimli respublikamızın fəxridir. Onu ölkəmizin hüdudlarından kənarda da yaxşı tanıyırlar. Neçənci dəfədir SSRİ Ali Sovetinə deputat seçilir! Əmək qəhrəmanıdır. Neçə-neçə orden-medallara layiq görülüb. Biz ona heykəl qoymalıyıq! Lakin bunu demək nə qədər ağır olsa da, belə bir adlı-sanlı adamın həyatına qəsd olunmuşdur. Ancaq xoşbəxtlikdən atılan güllə boşa çıxmışdır.

Şirxan İsmayılzadənin həyəcanlı çıxışının təsiri altında zalda onsuz da hökm sürən gərginlik daha da artdı. Generalın görkəmi bir qədər də ciddiləşdi. Ziyad Kərimli həyatının uğurlu anlarını yaşayırmış kimi baxışları qeyri-adi məmnunluq ifadə edirdi. Çoxlarının inamı isə bu mötəbər məclisdə deyilənlərlə, camaat arasında dolaşan mülahizələrin ziddiyyətli düyünündə ilişib qalmışdı. İsmayılzadə üzünü generala tutaraq minnətdarlıqla:

- Burdakıların hamısı adından, şəxsən öz adımdan Sizə

təşəkkürümü bildirirəm, - dedi. Və yenidən zala tərəf yönəlib eyni ciddiyyətlə sözünə davam etdi. - Cinayətin açılmasında, cinayətkarların ifşa olunmasında bizim burda əyləşən hörmətli Nifaq Zamanoviçin böyük əməyi var. Neçə gündür, evini-eşiyini, işini-gücünü atıb bizimlə birlikdə əlindən gələni edir. İstintaq işçilərini gecə-gündüz işlədir. İndi artıq hər şey gün kimi aydındır. İstintaq işi yekunlaşıb, məhkəməyə göndərildiyi üçün bəzi məqamları sizə deyə bilərəm.

Zalda əyləşənlərin maraq dolu baxışları İsmayılzadəyə zilləndi. Vilayətin rəhbəri baş vermiş hadisəni qısaca olaraq izah etməyə başladı:

- Caninin, o Təhmiraz Tahirovdu, nə zibildi, - İsmayılzadə sifətini ikrahla turşutdu. - Onun adını çəkməyə belə dilim gəlmir. Həmin o alçaq, qardaşını, qaynatasını, yeznəsini, yaxın qonşusunu başına yığıb, Ziyad Kərimliyə qarşı terror aktı hazırlayıb. Onların hansı gün, saat neçədə, kimin evinə toplaşdıqları Ziyad Kərimlini aradan götürmək üçün nə kimi planlar qurduqları artıq istintaqa məlumdur.

İsmayılzadə acı istehza ilə:

- Yalnız Təhmiraz Tahirov hələlik boynuna almaq istəmir. Onun da xeyri yoxdur. Boynuna qoyarlar. Hi... hi... istehza ilə güldü.

Natiq generala tərəf baxdı. General təkəbbürlə gülümsünüb Şirxan İsmayılzadənin dediklərini təsdiqləmək mənasında başını tərpətdi.

Vilayətin rəhbəri əlavə etdi:

- Əlbəttə bu gün bura yığışanlar respublikanın qaymaqlarıdır. Və bizim sizdən gizli sirrimiz ola bilməz. Ona görə bir qədər açıq danışmalıyam. Ancaq dediklərim bu zalda qalmalıdır. Burada gedən söz-söhbət kənara çıxmamalıdır. Nə qədər ki, məhkəmə prosesi başa çatmayıb əslində bu barədə əvvəlcədən

fikir söyləmək düz deyil. Ancaq dəxli yoxdur. Onsuz da işin üstü açılıb. - İsmayılzadə dodağını əydi. - Hamısı rastrel getməlidir. Başqa cür ola bilməz...

Hamı çəpik çaldı. Axırdan-axıra general bir-iki dəfə əlini əlinə vurdu.

Həmin iclasdan bir neçə gün sonra vilayət qəzetinin növbəti nömrəsində "Kommunist xarakteri" rubrikası altında Ziyad Kərimli barəsində yarım səhifəlik müxbir yazısı dərc edilmişdi. Məqalənin ortasında Ziyad Kərimlinin iri şəkli diqqəti cəlb edirdi. Məqalədə onun keçdiyi mənalı həyat yolundan, işgüzarlığından, gənclərə örnək ola biləcək nəcib, mənəvi keyfiyyətlərindən bəhs olunurdu. Ziyad Kərimlinin başçılıq etdiyi müəssisənin bir neçə işçisi müxbirə verdiyi qısa müsahibəsində onu kollektivin qayğıkeş atası kimi səciyyələndirmişdi. Müsahibələrdə Ziyad Kərimliyə qarşı terror aktı hazırlayan Təhmiraz Tahirovu və onun əlaltılarını lənətləyir, canilər barəsində ən ağır cəza tədbiri görülməsini tələb edirdilər. Nazim İlham məqaləni oxuyub, şişirdilmiş faktların altından cızıq çəkdi. Qapının açılması onun diqqətini qarşısındakı qəzetdən ayırdı. Kabinetləri qonşu olan vilayət qəzetinin redaktoru içəri daxil oldu. Mülayim xasiyyəti, alçaq boyu, xoş sifəti olan, həmişə geyim-keciminə fikir verən redaktor altında imzası olan qəzeti Nazim İlhamın qarşısında görən kimi vəcdlə:

- Bugünkü nömrənin çapı bir az gecikdi, - dedi. - Yəqin oxumusan.

- Bəli, - Nazim könülsüz cavab verdi.

- Necədir?! Xoşuna gəlirmi?! Həyatın nəbzini düzgün tuturuq?! - Redaktorun baxışları məmnun ifadə aldı.

- Tərtibat öz yerində, - Nazim cavab verdi. - Əlbəttə, formanın da əhəmiyyəti var. Ancaq qəzetdə dərc olunan hər bir

məqalə, gerçəkliyinin təsdiqini oxucu inamında tapmalıdır. Əks təqdirdə o, mütləq ikrah doğurur. Nifrət və rəğbət elə bir daxili, həm də mənəvi hissdir ki, adamları ondan məhrum etmək qeyri-mümkündür. Redaktor qəzeti imza etməzdən əvvəl cümlə, imla, inşa xətaları ilə yanaşı, hər bir yazının nə dərəcədə obyektiv olduğunu və ya oxucularını razı salıb-salmayacağını dönə-dönə götür-qoy etməlidir. Bu, həm də qəzetin nüfuzu, oxucuya hörmət probleminin tələblərindən irəli gələn zərurətdir. Biz qəzetçilər çox vaxt əlimizə qələm alanda, bax, belə bir cəhəti unuduruq.

Vilayət qəzetinin redaktoru ilə, mərkəzi qəzetin müxbiri arasında bu cür yaradıcılıq mübahisələri çox olurdu. Ancaq Nazim İlhamın bu dəfə bir qədər sərt danışığı redaktoru o qədər açmadı. Redaktor xarakterinə uyğun həlimliklə:

- Məncə, biz heç vaxt qəzetçilik etikasına xilaf çıxıb, qeyri-obyektivliyə yol verməmişik, - dedi. - Bu barədə konkret bir faktınız varsa, buyurun, deyin.

Nazim vilayət qəzetinin axırıncı nömrəsinə gözucu işarə edərək acı istehza ilə:

- Fakt! Fakt! Bu da fakt! Faktın biri elə göz qabağındadır. - Ziyad Kərimlinin şəkli olan qəzeti, qarşısındakı stolun üstündə ona tərəf sürüşdürdü və - guya o məsələdən Sizin xəbəriniz yoxdur? Yerinizə olsaydım, düzü nədir, onu yazardım. Heç olmasa, susardım.

Redaktor Ziyad Kərimli barəsindəki məqalədə bəzi sətirlərin altındakı cızıq çəkildiyini görüb tutuldu və o, vəziyyətdən çıxmağa çalışaraq:

- Nə demək istədiyinizi başa düşdüm, - dedi. - O barədə fikrinizə şərikəm. Ancaq mövcud vəziyyətlə hesablaşmaq lazımdır. Qəzet vilayət partiya komitəsinin orqanıdır. Heç vəchlə onun tutduğu xətdən kənara çıxa bilmərik. Ziyad

Kərimli haqqındakı məqaləyə gəldikdə, bu, yuxarıların göstərişi ilə olan yazıdır. Bir də ki...

Redaktor duruxdu və:

- Yaşca Sizdən çox böyüyəm. Təcrübəm də Sizinkindən çoxdur. - dedi. - Komsomol işi, raykom katibi, nazir müavini... Axır yerim də ki, buradır. Başım çox çəkib. Bircə qulağımın dibi salamat qalıb. El üçün ağlayanın gözü kor olar. O qədər axmaq deyiləm ki, Təhmiraz Tahirov kimilərdən ötrü yaxamı ələ verim. Düzdür, Təhmiraz Tahirovun Ziyad Kərimliyə güllə atması ola bilsin mənim də ağlıma batmır. Bunu öz aramızda deyirəm. Lakin partiya mətbuatının işçisi kimi bunu rəsmi olaraq danışmağa və yazmağa haqqım yoxdur. Tem bolee düz-əyri, istintaq sübuta yetirib ki, bu, belədir. Təhmiraz Tahirov Ziyad Kərimlinin həyatına qəsd edib...

- Görünür, Siz yalnız bu günlə yaşayırsınız. - Nazim redaktorun dediklərilə razılaşmadı. Atdığınız addımın sabahını ağlınıza gətirmirsiniz. Burada söhbət kiminsə taleyin amansız girdabına tuş olmasından yox, haqdan-ədalətdən gedir. İkincisi də, jurnalistin hər bir yazısı onun yaşadığı müəyyən bir dövrün ictimai-siyasi hadisələrini əks etdirən tarixdir. Mən əminəm ki, gec-tez vaxt gələcək, həmin o istintaq robotlarının da, Ziyad Kərimlinin də məharətlə biçib-tikdikləri və bu hadisəyə geyindirdikləri hiylə donu qarşısalınmaz həyat qanunlarının hökmü ilə onların özləri kimi saralıb, solub, çürüyüb yox olacaq. Və onda hər şey üzə çıxacaq. İstintaqın saxtakarlığı da, bu cür böhtan xarakterli qəzet yazıları da mütləq lənətlənəcək. O vaxt sələflərimiz ruhumuz qarşısında xəcalət çəkəcək və bizə nifrət edəcəklər.

Redaktor nə demək istəyirdisə, Nazim İlham ayağa qalxdı və onun sözünü kəsərək:

- Gedək, - dedi. - Bu barədə mübahisə etməyə dəyməz. Artıq redaktoru olduğunuz qəzet düz-əyri, öz sözünü deyib. Atılan

gülləni geri qaytarmaq olmaz. Ona görə də o haqda müzakirə açmağa lüzum yoxdur. - Nazim İlham yazı masasının üstünə səpələnmiş kağız-kuğuzları yığışdıra-yığışdıra və redaktora tərəf baxmadan öz-özünə danışırmış kimi əlavə etdi: - Bir də ki, insanların zahiri oxşarlığı kimi, daxili aləmləri də müxtəlifdir. Odur ki, hamı eyni cür düşünə bilməz. Ola bilər ki, yaşı, təcrübəsi məndən artıq olan həmkar kimi bu məsələdə Sizin mövqeyiniz düz və ədalətlidir. Bu barədə Sizi qınamıram. Redaktorun mövqeyi partiyalı olmalıdır. Ancaq o partiya biletindən biri də məndə var. Lakin bu, mənə əsas vermir ki, haqqa nahaq, ağa qara deyim. Və qəti inamım var ki, mənsub olduğumuz partiya da bunu bizə rəva bilməzdi. Nə qədər acı olsa da, deməliyəm ki, əslində qəzetinizdə gedən bu cür yazılarda, Sizi buna təhrik edənlər də partiyanın müqəddəsliyinə şübhə kölgəsi salır.

Bu sözlər redaktoru sillə kimi tutsa da, kürəyini yerə vurmadı:

- Ee, Nazim, Nazim, - dedi. - Hələ cavansan! Çox şeydən xəbərin yoxdur. Sonra başa düşərsən. Məndə də çoxlu sirlər var. Ancaq onu açıb-ağartmaq olmaz. Bir də ki, nə işim var! - redaktor çiyinlərini çəkdi. - Bir dost kimi onu da əlavə etməliyəm ki, dövrümüz heç də Sizin dərk etdiyiniz kimi yox, tamam bambaşqadır. Həyatda o cür ki sərt mövqe seçmisən, çətin ki, tutduğun yolu uğurla başa vura biləsən. Belə getsə, çox əzab çəkəcəksən, ancaq nahaq! Bu barədə yaxşı-yaxşı fikirləş!

- Özü yıxılan ağlamaz! Bir də ki, haqqın yolu əzablıdır. Mən bunu yaxşı başa düşürəm. Yalnız özündə qətiyyət tapıb, onun çətinliklərinə tab gətirməyi bacaranlar qəlblərdə əbədiləşir və həmişə xoş xatirələrdə yaşayırlar. Bu barədə Sizi də qınamıram. Həyatda elə adamlar vardır ki, ancaq başlarını girləməklə kifayətlənirlər. Onların ömrü su üzərində küləyin ora-bura

qovduğu saman çöpünə bənzəyir. Ancaq hər bir insanın öz əqidə istiqaməti olmalıdır. Aqillərlə nadanlar arasındakı sədd, sərhəd də elə buradan başlanır. - Nazim bunu deyib, kabinetin qapısını bərkdən örtdü və əlindəki açarla bağladı.

Onlar kabinetdən çıxıb, xudahafizləşdilər.

* * *

Nazim yaşadığı binanın həyətinə daxil olanda ömür-gün yoldaşı Səriyyə ilə qarşılaşdı. Səriyyə əlində iki su dolu vedrə yuxarı qalxırdı. Nazim ağır vedrələri onun əlindən aldı. Səriyyə üç il bundan qabaq istifadəyə verilmiş bu gözəllikdə binada hələ də suyun gəlməməsindən, istilik sisteminin işə düşməməsindən, əzab-əziyyətlə üçüncü mərtəbəyə daş kömür daşımasından azaylandı. Nazim fikirliydi. Səriyyənin nə dediyini eşitmirdi. Axırıncı pilləkənə çatanda Səriyyə qabağa keçib qapını açdı. Uşaqlar hərəsi öz yerinə çəkilib sakitcə kitab oxuyur, sabahkı dərslərinə hazırlaşırdılar. Az ata-ana olardı ki, öz övladlarını Nazimlə Səriyyə qədər fanatik məhəbbətlə sevsinlər. Lakin uşaqların kiçik bir səhvinə əsla güzəşt olunmurdu.

Nazim yemək otağına keçib, radioqəbuledicini açdı. Tibb institutunu bitirib ucqar dağ rayonuna təyinat alan həkim qız barədə veriliş gedirdi. Səriyyə gətirdiyi çay dolu stəkanı Nazimə uzadanda radiodan - "Xoş gördük, Rəziyyə xanım" - kəlməsi eşidildi. Elə bil Nazimin bədənindən elektrik cərəyanı keçdi. Özündən asılı olmayaraq, Səriyyənin əlindən aldığı stəkan-nəlbəki döşəmənin üstünə düşüb çilik-çilik oldu. Qaynar çay Nazimin corabından keçib, ayağını pörşələdi. Lakin Nazim özündə olmadığından bunu hiss etmədi. Səriyyə əyilib yerə tökülən şüşə qırıntılarını yığmağa başladı. Nazim tez radionu söndürdü ki, həyat yoldaşı bir şey başa düşməsin. Səriyyə döşəməni silib-təmizlədikcə:

- Keçmə sənin bu xasiyyətindən. Elə durduğun yerdə səni fikir götürür. Eybi yoxdur, belə şeylər çox olar. Təki sınan qab-qacaq olsun. Şüşə sınması yaxşı əlamətdir. - Nazimin pərtliyini ört-basdır eləməyə çalışdı.

- "Xoş gördük, Rəziyyə xanım!" - Radio sönəndən sonra da bu səs Nazimi tərk etmirdi: - "Xoş gördük, Rəziyyə xanım!", "Xoş gördük, Rəziyyə xanım!". Qaynar çay yandıran ayağının göynərtisi Nazimin eyninə deyildi. Birdən Nazimin nəfəsi tıncıxdı, boğulan kimi oldu. Elə bil havası çatmırdı. O, gündoğana baxan kiçik balkona çıxdı. Adamların inam və etiqad yeri olan məşhur pirin müqəddəsliyi qarşısında canlı məxluq kimi səcdə qılan ilan dağının əzəmətini seyr etdi. Bir anlığa xəyal dünyasına baş vurdu... Rəziyyənin rayihəsi ilə ətirlənən institut kitabxanasına daxil oldu. "Rəziyyənin saçları yaman ağarıb. - Kaş bacından bu sözləri eşitməyəydim, Rəziyyə! Bakıda olarkən Sizi görməməyimə peşmanam. Bir də ki, Sizin pərişanlığınızı görsəydim, dərd əlindən ağarmış saçlarınız, solmuş çöhrəniz mənə əzab verərdi. Təsəlli tapdığım və ruhən məni yaşadan o ülvi gözəlliyinizi itirərdim, Rəziyyə! Dünyam gözəlsiz qalardı, tənhalaşardım. Yeganə təsəllim odur ki, intəhasız mavi çadırın altında, Yer adlı məkanda sənsiz deyiləm. Təki istədiyim an, şirin röyalarda bizi bir-birimizə qovuşduran vüsal telləri incəlib, üzülməsin, Rəziyyə!".

- Nazim! Yenə nədir, səni fikir götürüb?! Yoxsa gəmin batıb?! Çayını təzələmişəm, gəl, iç! - Səriyyənin gileyli-məzəmmətli sözləri Nazimi uzaq-uzaq diyarlardan doğma evinə qaytardı. O, çayını içib, övladları ilə əylənib, fikrini dağıdandan sonra yenə yazı masasının arxasına keçdi. Belə qərara gəldi ki, bu gün kabinetə getməsin. Yarımçıq qalmış məqaləsini elə evdəcə tamamlasın...

* * *

İnzibati binalarla, çoxmərtəbəli evlərlə əhatə olunmuş şəhərin mərkəzi meydanında bir neçə magistral küçə kəsişir. Mənzil başına tələsən avtomaşınlar buradan keçəndə birdən-birə yavaşıyır, yol nəzarətçilərinin tənbehindən ehtiyat edən sürücülər sürəti azaldırlar. Son iki gün idi ki, vilayət başçılarına məxsus inzibati bina ilə, onunla üz-üzə dayanan mədəniyyət sarayının qarşısında nəqliyyat maşınlarının gediş-gəlişini qadağan edən xüsusi yol işarələri qoyulmuşdu. Aktyorların etirazına baxmayaraq, mədəniyyət evində yerləşən Dram teatrının avadanlığı vurhay başqa yerə daşınırdı. Hərbi geyimdə və milis formasında olan bir neçə nəfər, şəhərin yeganə mədəniyyət ocağı olan qədim binanın meydana baxan balkonlarında bu gün-sabah başlanacaq məhkəmə prosesini translyasiya etmək üçün radio qurğuları quraşdırırdı. Aydın məsələydi ki, məşhur dövlət xadiminin həyatına qəsd edənlərin mühakiməsinə hazırlıq görülürdü. Ötən gecə qatarla gəlmiş Respublika Ali Məhkəməsinin üzvü və dövlət ittihamçısı böyüklərə məxsus xüsusi qonaq evində, onlar üçün ayrılmış hər cür dəmdəstgahı olan otaqlarda qalırdılar. Şəhər camaatı səksəkə içindəydi. Adamlar bu hadisə ilə əlaqədar çox ehtiyatla danışırdılar. Nazim İlham o qədər də geniş olmayan, lakin səliqə ilə saxladığı kabinetinə çəkilib, redaksiyanın qoyduğu qaydaya uyğun olaraq yazacağı məqalələrin aylıq və rüblük planlarını tərtib edirdi. Stolun üstündəki ağ telefon zəng çaldı. Nazim İlham dəstəyi qaldırdı. Müxtəlif xarakterli sifarişçilərin gah tikanlı, gah xoş sözlərinə cavab verməkdən bezikmiş telefonçu qızın həyəcanlı səsi eşidildi:

- Aaaz, güclə almışam, qanacağın olsun, çıx liniyadan, qoy abonent danışsın! Nazim müəllim, Bakı Sizi istəyir. Buyurun,

danışın. - Liniya xarabdır, səs yaxşı eşidilmir, trubkanı yaxın tutun, - əlavə etdi.

Telefonçu qızın ardınca, redaktorun kal səsi eşidildi:

- O terror hadisəsinə bu günlərdə baxılmalıdır, - dedi. - Ali məhkəmədən yoldaşlar gəlməlidir. Məhkəmənin gedişində əvvəldən axıradək iştirak et. Yəqin çox çəkməz. Bir ay, uzağı ay yarım. Eybi yoxdur, yuxarının göstərişidir. Məhkəmənin gedişini bizim qəzet verməlidir. Belədi də... - Mollazadə sözü boğazında qaynadıb əlavə etdi. - Məhkəmədə deyilənləri kopirovka eləmək lazım deyil. Onda oxunaqlı olmaz. Məsələyə qəzetin münasibəti bildirilməlidir. Başa düşdün də... Özün təcrübəli adamsan, səni öyrətmək artıqdır. Ziyad Kərimlinin xidmətləri ön plana çəkilməlidir. Ona qarşı terror aktı hazırlayanların iç üzü çılpaqlığı ilə göstərilməlidir. Generalla da ötəri söhbətimiz olub. Bu işin sübuta yetirilməsində istintaq işçiləri dəridən-dırnaqdan çıxıblar. Onların fəaliyyətinə də geniş yer verilməlidir. General Nifaq Zamanoviçin adını xüsusilə qeyd etməliyik. Onu mən də yaxşı tanıyıram. Yuxarıda da onu eşidirlər. Koroçe, gözdə-qulaqda ol. Məhkəmə başlayan kimi hi... hi... hi... Mollazadə güldü. - Bu dəfə də özünü göstər, görək nə çıxır.

Mollazadə telefonda danışdıqca, Nazim İlhamın dişi bağırsağını kəsirdi. O özünü saxlaya bilmədi və redaktor sözünü qurtaran kimi:

- Yoldaş Mollazadə, - dedi. - Xatirinizdən çıxmayıbsa, bu barədə ikilikdə ətraflı söhbətimiz olub. Özü də bu yaxınlarda. Mənim mövqeyimi də, əsl həqiqəti də Sizə çatdırmışam.

Mollazadə:

- Daraqoy Nazim! - dedi. - Mənə sənin yox, rəhbərliyin mövqeyi lazımdır! Bildin! Keçən dəfə mənə dediklərinin hamısı başdan-ayağa cəfəngiyatdır. Bu işlə inanılmış yoldaşlar məşğul

olub. Hər şey təkzibolunmaz sənədlərlə sübuta yetirilib, sən isə havadan danışırsan. Sən özündən fərziyyə uydurma. Bu barədə sözümü dedim, qurtardı-getdi! Məhkəmədə iştirak et! Dediyim qaydada da material hazırla! Məqaləni şəxsən özüm oxumalıyam! Bəlkə yuxarılarda da baxdılar.

- Böyük bir kollektivin başçısı, yarım milyon tirajla buraxılan nüfuzlu qəzetin redaktoru ilə bu cür danışmağı əlbəttə özümə rəva bilməzdim. Və bu heç də aldığım tərbiyənin qüsurlarından irəli gəlmir. Lakin Siz məni buna vadar edirsiniz, yoldaş Mollazadə! Redaktor bölgələrdə baş verən hadisələrə, inanıb etibar etdiyi xüsusi müxbirin gözü ilə baxmalıdır. Mən öz qəti fikrimi demişəm. Əgər mənə inamınız yoxdursa, onda bu haqda nahaq mübahisə açırıq.

- Açığını bilmək istəyirsənsə, bəli, bu məsələdə sənə inanmıram! İnana da bilmərəm! Və məsləhət görürəm ki, mənasız inadından əl çək! Onu da bilməlisən ki, redaktorun dediyi müxbir üçün qanundur. Və mənimlə bu cür danışmağı da sənə məsləhət görmürəm. - Mollazadə hirsləndi.

- Yanılırsınız, yoldaş Mollazadə, çox yanılırsınız! Siz bilsəydiniz ki, bu, Janvaljanın məhkəməsidir, onda dediklərinizin peşmançılığını çəkərdiniz.

Redaktor:

- Janvaljan kimdir? Onun bu məsələyə nə dəxli? - təəccüblə soruşdu.

Nazim İlham özündən asılı olmayaraq güldü. Redaktor daha da hövsələdən çıxdı:

- Görünür, ağlın çaşıb, Nazim! O Janvaljandır, kimdir, belə bir adam eşitməmişəm, eşitmək də istəmirəm! Mənə generalın dediyi əsasdır, Janvaljanın yox. Ras belədir, onda məhkəmə prosesində iştirak etmək üçün ora başqa yoldaş göndərərəm. Ancaq bundan sonra sənin o bölgədə işləməyin çətin ki baş

tutsun. Ümumiyyətlə, bundan sonra bu redaksiyada bir yerdə işləyə bilmərik. Yaxşı olar ki, bu barədə özün fikirləşəsən. Elə olmasın ki...

Du... Du... Redaktor dəstəyi yerə qoymuşdu. Nazim əlini çənəsinə verib, süst vəziyyətdə xeyli sükuta daldı. Sonra bir siqaret yandırıb, bayıra çıxdı. Vilayət qəzetinin balaca həyətindəki kiçik çarhovuzun kənarında dayanıb, suyun aynasındakı əksi ilə məsləhətləşirmiş kimi üzləşdiyi vəziyyətin asan olmayacaq xilas yollarını araşdırırdı. Xəfif meh başının üstündəki meyvə ağaclarının yaşıl budaqlarını silkələdikcə günorta yerinə qalxan günəş fürsət tapıb hovuzda titrəşən saf bulaq suyuna baş vurur və yenə qeyb olurdu. Rəziyyənin baxışları da beləcə həmin o kitabxanada işıq saçırdı. Kitab rəflərinin arasında... Bax, bu günəş kimi. - Nazimin xəyalından keçdi: - Rəziyyə... Sərt qamətli, xoş sifətli, munis baxışlı o əsmər qız yenə də Nazimin fikir dünyasından boylandı. Həzin, bir qədər də niskilli idi. Onun məsum dodaqları pıçıldadı: “Etibarsızsan, Nazim, məni biryolluq unutdun. Ancaq səni ittiham etməyə haqqım yoxdur. - Yox! Yox! - O, dediyinə peşman oldu. - Mənəm günahkar! Ancaq iyirminci əsrin gəlini olmaq barədəki qərarımdan peşman deyiləm. Mən o gəlin adına yenə də nifrət edirəm. Sizi qınamağa əsla haqqım yoxdur. Artıq ailə qurmusunuz. Xoşbəxt olun. Səriyyə Sizin həyat yoldaşınız olmağa layiqdir. İnanın, bunu ürəkdən deyirəm. Övladlarınızı necə sevdiyinizdən də agaham. Təsəllim odur ki, qəlbinizin genişliyində mənə də yer vermisiniz. Orada özümü rahat hiss edirəm. Mənim üçün bu da, ilahi bir xoşbəxtlikdir. Ancaq unutmayın ki, bu, qarşılıqlıdır. Fərq bircə orasındadır ki, mən bütün qəlbimi Sizin, yalnız Sizin ixtiyarınıza vermişəm. Hərdən içimdə bir ağrı duyuram. Hiss edirəm ki, Nazim narahat anlarını yaşayır. Əlacım nədir?! Şirin röyalarda olduğu kimi qanad

açıram, həndəvərində dolanıram. Haqqın dərgahına üz tutub, yaradandan Sizə kömək diləyirəm”.

- Atam! Mən bu işə matam! - Nemət Rəcəblinin səsi gələndə Nazim İlhamın Rəziyyə ilə görüşdüyü xəyal qəsri yox oldu. O, sol tərəfə burulub, çiyninin üstündən geri baxdı. Nemət Rəcəblini görəndə eyni açıldı və - Salam, Mirzə - dedi. Niyə aya-günə dönmüsən! Nə vaxtdan görünmürsən. Bəlkə səma buludlanıb! - sarı simə vurdu.

- O nə sözdür, Nazim, Sizi başa düşə bilmədim. - Rəcəblinin qaşları düyünləndi.

Nazim zarafatyana:

- Etibarsız dost kölgə kimidir, - dedi. - Səma təmiz olanda sənlədir, hara getsən, arxanca sürünər, elə ki hava buludlandı, görünməz olur.

- Səhvin var, Nazim, görünür yenə hansı nanəcibləsə sözləşib, qanını qaraltmısan. Acığını mənim üstümə tökmək istəyirsən. Bu, keçməz. Bilsəm ki, o sözü ürəkdən deyirsən, buralara ayaq basmaram, - Nemət Rəcəbli incikliyini bildirdi.

Nazim dediyinə peşman olubmuş kimi onun qoluna girib, könlünü aldı. Bağçada var-gəl edə-edə mətbuat aləmindən söhbət açdılar. Nemət Rəcəbli olub-keçənlərdən, jurnalistikanın daşlı-kəsəkli yollarında başına gələnləri danışdı. Nazim onu diqqətlə dinləyirdi. Nemət Rəcəbli birdən ayaq saxlayıb, demisini közərdə-közərdə:

- Yaxşı yadıma düşdü, - dedi. - Bunu Sizə danışmamışam. Dünən yox, srağagün günorta üstü həmin o general məni çağırmışdı, Nifaq Zamanoviç. İstədim getməyim. Çünki nə o məni tanıyır, nə də ki, mən onu. Sonra fikirləşdim ki, yaxşı düşməz. Lənət şeytana, gedim. Bəlkə vacib işi var. Tənbəllik eləmədim, getdim. Məni yüz ilin dost-tanışı kimi qarşıladı. Onun bu hərəkətinə təəccüb qaldım. Əvvəlcə qoltuğuma verdi, dedi

ki, Sizi şəxsən olmasa da, qiyabi tanıyıram. Köhnə jurnalistsiniz. Həm də hamı ilə ünsiyyətdə olan ağsaqqalsınız. Mejdu proçim, camaat arasında yaxşı hörmətiniz var. Söz-söhbətlərdən hiss edirəm ki, hər yerdə xatirinizi istəyirlər, adamlar Sizə inanıb etibar edir. Nazim, o dəqiqə hiss etdim ki, general məni xamlamaq istəyir. Ancaq özümü o yerə qoymadım. Fikirləşdim ki, qoy danışsın, görüm bu hərif nə demək istəyir. Mən də onun qoltuğuna qarpız verdim. Dedim, çox şadam ki, general mənim barəmdə bu cür yüksək fikirdədi. Bu söz ona ləzzət elədi. Cibindən amerikanski papiros çıxarıb mənə uzatdı. Dedim, çox sağ olun, yoldaş general, iltifatınız artıq olsun. Siqaret çəkmirəm. Mən qəlyana öyrənmişəm. Başqa papiros çəkəndə sinəm götürmür. General demini alıb baxdı. Gümüş işləməsindən xoşu gəldi. Dedi qədimi demidir. İndi beləsi yoxdur. Bir də buralara ayağım düşsə, Sizə bir qəlyan bağışlayaram, heç də bundan pis deyil. Mənə xaricdən gətiriblər. Generala təşəkkürümü bildirdim.

Bu qəribə söhbət uzandığından Nazim, Nemət Rəcəbliyə çarhovuza yaxın olan bir skamyanı göstərərək:

- Mirzə, bəlkə o küncdə oturaq, - təklif etdi.

Nemət Rəcəbli razılaşdı və:

- Olar, - dedi. - Son vaxtlar sol qıçım bir az ağrıyan kimidir. Ayaq üstə çox dura bilmirəm.

Onlar salxım söyüdlərin kölgə saldığı taxta skamyanın üstündə əyləşdilər. Nemət Rəcəbli yönünü Nazimə çevirib, söhbətinə davam etdi:

- General zəndlə gözlərimin içinə baxdı. Sonra dedi ki, Nemət Babayeviç, bizim yaş həddimiz və təcrübəmiz elədir ki, gərək bir-birimizlə açıq, həm də səmimi danışaq. Dedim, buyurun, yoldaş general, Sizi dinləyirəm. General başladı ki, jurnalist də elə çekist kimi bir şeydir. Bildiyimə görə, Siz çox

məlumatlı adamsınız. Heç kəs də Sizdən söz gizlətmir. Ona görə də burdan kənara çıxmamaq şərtilə Sizdən bir neçə söz soruşmaq istəyirəm. Amma gərək düzünü deyəsiniz. Onsuz da çox şeydən özümün də xəbərim var. General əvvəlcə soruşdu ki, İbiş Allahyarlı ilə münasibətiniz necə olub? Bizim burdan gedən KQB-nin nəçənniyi ilə. Dedim, çox yaxşı. Onun xatirini istiyirəm. İndinin özündə də hərdən İbiş Allahyarlının evinə zəng vurub ondan hal-əhval tuturam. Gördüm ki, cavabım generalı o qədər də açmadı. Sonra dedi ki, yaxşı, dostluğunuz öz yerində, onun burdan getməsinə camaat necə baxır? Dedim, camaatı bilmirəm, mən çox pis. Heç şübhə etmirəm ki, İbiş Allahyarlıya yaxından bələd olanların hamısı onun barəsində elə mən fikirdədirlər. Çünki o, son dərəcə nəzakətli, savadlı, obyektiv, heç vaxt ağa qara deməyən çekist idi. General qaşqabağını sallayıb, dodağını əydi və dedi ki, Nemət Babayeviç, Siz ürəyidüz adamsınız, hamını öz qəlbinizlə ölçməyin. Yəqin bəzi şeylərdən xəbəriniz yoxdur. İdarə sirri olsa da deməliyəm ki, tərifləyiniz o İbiş Allahyarlı Sizin düşündüyünüz qədər də təmiz adam deyil. Elə götürək burada baş verən hadisəni. Ziyad Kərimliyə güllə atılmasına şübhə ilə yanaşırdı. Nəinki şübhə, açıqdan-açığa bu ağbədiyə məsələni inkar edirdi. Terrorçulara başçılıq edən Təhmiraz Tahirovu ciddi-cəhdlə duruluğa çıxarmağa çalışırdı. Yaxşıca payını aldı!..

Nemət Rəcəbli sönməkdə olan demisini qurdalayıb közərtdi. Və bir-iki dəfə sümürüb kinayə ilə gülümsündü:

- O barədə generalla söz güləşdirmək istəmədim. Bunun xeyri də yox idi. Məndən soruşdu ki, bəs Ziyad Kərimliyə güllə atılmasına Siz necə baxırsınız? Zarafata salıb dedim: elə o İbiş Allahyarlı kimi. Generalın rəngi ağappaq kağız kimi oldu. Sonra soruşdu ki, bəs ictimaiyyət bu barədə nə fikirdədir? Dedim, camaatın inamı ilə istintaqın gəldiyi nəticə çox ziddiyyətlidir.

General gördü ki, bu dəfə baltanı lap kökündən vurdum, mısmırığını salladı. Başa düşdüm ki, cavabım onun ürəyindən olmadı. O, mənə bu barədə bir söz demədi.

Rəcəbli əlini Nazim İlhamın dizinə toxunduraraq:

- Fikrin ayrı yerə getməsin, - dedi. - Hələ harasıdır, generalla söhbətimin ləzzətlisi daldadır. Hiss etdim ki, məndən o qədər də gözü su içmir. Bəlkə də mənimlə görüşməyə peşman olmuşdu. Dedi, başqa bir şey soruşum. Dedim, buyurun. Soruşdu ki, o cavan oğlan necə, respublika qəzetinin xüsusi müxbiri, Nazim İlham? Ondan ağlın nə kəsir? Deyilənlərə görə, yerində olan adama oxşamır. Bu vəzifəyə təsadüfən düşüb.

Nemət Rəcəbli kürəyini skamyanın arxasına söykəyib, güldü. Demisini dodağına aparıb, bir-iki dəfə tüstülədəndən sonra Nazimə göz vurdu və:

- Söhbət Sizin üstünüzə gələndə özümü bir az xamlığa qoydum. Dedim ki, yoldaş general, Nazim İlham böyük bir qəzetin nümayəndəsi, mənsə həyatın siyasi səhnəsini tərk etmiş sadəcə bir pensioner. Onun barəsində nə deyə bilərəm?! Yaxşı olar ki, onu öz redaktorundan soruşun. Vilayət komitəsinin birinci katibi Şirxan İsmayılzadə də onu tanımamış olmaz. Belə deyəndə general başını aşağı saldı. Dedi ki, öz qulağına çatmasın, mejdu nami, bunu tolko Sizə deyirəm. Düzünü bilmək istəyirsinizsə, Şirxan İsmayılzadənin o adamdan zəndeyi-zəhləsi gedir. Redaktora da qalsa, onu bir gün də bu vəzifədə saxlamaz. Mollazadə ilə bu barədə söhbətimiz olub. Onu burdan əkməlidir. Sonra general dedi ki, bilirsiniz, indi mətbuat işçilərinə hələm-hələm toxunmaq olmur. Bir söz deyən kimi, Moskvadan belə tökülüb gəlirlər. Nazim İlham da ki var, hələ onu tanımırsan. Elə-belə sən deyən azacıq aşın duzu deyil. Ona görə də Mollazadə moment axtarır. General bic-bic güldü. - Mollazadənin fasıq-fasıq gəzib-dolanmağına baxma, işin bilən

adamdır. Qarnının altından fələk də baş açmaz. O müxbiri elə yerdə ilişdirmək istəyir ki, cınqırını da çəkə bilməsin. Odur ki, hələ gözləyir. Mollazadənin tələsməklə arası yoxdur. Özü də, mejdu proçim, taktiçnı yoldaşdır. Onnan ilk dəfə Yesentukidə tanış olmuşam. "Kalinin" sanatoriyasında. İkimiz bir otaqda qalırdıq. Onda hələ universitetdə müəllim işləyirdi, jurnalistikada dərs deyirdi. Təzə də müdafiə eləmişdi.

Nemət Rəcəbli ayağa qalxaraq:

- Nazim, səni bir balaca baqaja qoydum ki, görüm generalın dağarcığında daha nə var? Dedim, yoldaş general, eşitdiyimə görə terror məsələsində o da orda-burda ayrı hava çalır. Əlbəttə, ona yaraşmaz. Belə deyəndə generalın sinəsi atlandı. Kürəyimə vurub dedi - malades, düz başa düşmüsən. Bizdə olan dannılara görə, Nazim İlham Təhmiraz Tahirovun adamlarına satılıb. Hətta redaktora deyirmiş ki, bu iş qurmadır. Biz nə məqsədləsə, haqq-nahaq qaşınmayan yerdən qan çıxartmaq istəyirik. Mollazadə də... Malades! Ağzına vurub. General qayıtdı ki, sağlıq olsun, onun dərsi veriləcək. Onda başa düşər ki, partiya, dövlət xadimini qoyub, çujoy elementlərin tərəfini saxlamaq nə deməkdir. Gördüm, general ucundan tutub ucuzluğa gedir, arada saatıma baxdım. Generalın gözü aldı, dedi, bəlkə gedəsi yerin var? Bəli, dedim, Sobesdə məni gözləyirlər. Pensiya işimdə bir balaca dolaşıqlıq yaranıb, onu aydınlaşdırmalıyam. General ayağa qalxdı. Xudahafizləşəndə əlimi buraxmadı. Dedi ki, Nemət Babayeviç, bu söhbətimiz məxfi qalmalıdır. Bir-birimizi görməmişik, belə söhbət də olmayıb. Aydındır də nə demək istəyirəm?! Dedim, yoldaş general, məndən tam arxayın ola bilərsiniz. Sizin harda işlədiyinizi də, kimlə söhbət etdiyimi də yaxşı başa düşürəm. Ağlınıza başqa qaraltı gəlməsin.

Nazim İlhamı fikir götürmüşdü. Nemət Rəcəbli onun əlindən yapışıb əyləşdiyi skamyadan qaldırdı və:

- Nazim, generalın sözü olmasın, bu sirri bir sən bilirsən, bir də mən. Kənara çıxsa pis vəziyyətdə qalaram. Bunları deyib qanını qaraltmaq istəməzdim. Lakin onda özümü bağışlaya bilmərəm. Bunları deməkdə məqsədim səni ayıq salmaqdır.

Nazim qururunu pozmadan:

- Mirzə, səni başa düşürəm, - dedi. - Məni istədiyindən bunları deyirsən. Buna görə sağ ol. Lakin unutma ki, mən də zənbirək dəvəsiyəm. Zərli paqonlar altında məğrur görünən o cür general qiyafəli iblislərin hərbə-zorbası məni əqidəmdən döndərə bilməz. Bunu heç ağlına da gətirmə. Mənim qorxduğum göydə Allahdır, yerdə özüm.

Nemət Rəcəbli yarızarafat:

- Səndə də qatı açılmamış sözlər var haa! Hələ bir de görüm, o zənbirək dəvəsi nə olan şeydir?

- Pambıq əkininə dəvə girmişmiş, - Nazim dediyini izah etməyə başladı. - Bunu görən qarı haray-həşir qoparır və arxalığının ətəyindəki gümüş pulcuqları cingildədir ki, dəvə hürküb sahədən çıxsın. Dəvə sakitcə başını qaldırıb, kövşəyə-kövşəyə qarıya gülür və rişxəndlə deyir: - Ee, ay qarı nənə, mən zənbirək dəvəsiyəm, üstümdə toplar, tüfənglər atılıb. Qasığına döyüb, ətəyindəki pulcuqları cingildətməklə məni hürküdə bilməzsən.

Mirzə ürəkdən güldü və tez baxışlarına qayğılı ifadə verdi:

- Nazim, - dedi. - Onları ki belə görürəm, ehtiyatlı ol. Çox qansız, vicdanı kəm adamlardır. Səni ləkələyə bilərlər. Dağdan soruşurlar ki, nədən qorxursan, deyib pullulardan. Generalın da, İsmayılzadənin də, o birilərinin də ipi Ziyad Kərimlinin əlindədi. Ziyad Kərimli nə cür çalsa, o cür də oynayırlar. Bunları səni qorxutmaq üçün yox, sərvaxt olmaq üçün deyirəm. Sonrasını özün bilərsən.

Nazim ona qarşı hücumların gücləndiyini hiss etdikcə, daha da əyilməz və qətiyyətli olurdu. O:

- Mirzə, - dedi. - Qorxaqlar iki dəfə ölürlər. Heç narahat olma. Haqqın yolundan ayrılan cığırların sonu mütləq fəlakətdir. Qoy kim nə deyir desin...

Nazim sözünə fasilə verib, Nemət Rəcəbliyə təmkinlə nəzər saldı:

- Mirzə, - dedi. - Napoleonun belə bir kəlamı var. Ən böyük əxlaqsızlıq bacarmadığın işdən yapışmaqdır. Məni belə bir təhqirdən xilas edəcək, gözəgörünməz qüvvənin varlığına şübhə etmirəm. Gülünc vəziyyətə düşməyəcəyimə əmin ola bilərsən. Bir də ki, general belindəki tapançaya güvənir. Lakin unudur ki, güllənin səsi bir an çəkir və çox da uzağa getmir. Qələmin səsi isə əsrlər boyu əks-səda doğurur.

* * *

Məhkəmənin başlanmasına bir gün qalmış qırxdan artıq yaşı, dolu bədəni, sarışın saçı, güləş sifəti olan və redaksiyada çoxdan şöbə müdiri işləyən Saleh Qənizadə vilayət mərkəzinə gəlmişdi. Əlbəttə, Mollazadənin tapşırığı ilə onların hər ikisi məhkəmə prosesində əvvəldən-axıra qədər iştirak etməli və bu barədə qəzet üçün material hazırlamalı idilər.

Nazim hələ respublika qəzetinə xüsusi müxbir keçməmişdən əvvəl Qənizadə ilə haqq-salamı var idi. Onda Nazim Çayqovuşan rayon qəzetində redaktor işləyirdi. Qənizadə Çayqovuşanda yaradıcılıq ezamiyyətində olanda qələm əhli kimi Nazimlə oturub-dururdu. Hər gün də axşam çay-çörəyini onlarda yeyib-içirdi. Elə o vaxtdan Səriyyənin açdığı süfrənin, bişirdiyi xörəklərin dadı damağında qalmışdı. Hər yerdə də deyirdi ki, anam-bacım olsun, Səriyyə xanımın evdarlığı, səliqə-səhmanı başqadır. Uşaqlarına necə dərs veribsə, qonaq yanında biri də

cınqırını çıxarmır. Saleh Qənizadə bir-iki dəfə sözarası dilindən qaçırtmışdı ki, Çiçəkliyə getsəydim, Allahverən kişi ilə görüşüb tanış olardım. Köhnə kişilərin söz-söhbətlərini dinləyəndə elə bil maraqlı roman oxuyuram. Nazim əvvəlcə bu sözü qulaqardına vurdu. Çünki Saleh içkinin ölüsüdür. Bilirdi ki, bir-iki stəkan vuran kimi hətərən-pətərən danışacaq. Allahverənin də məclisdə içib sözünün dalını-qabağını bilməyən adamdan xoşu gəlmir. Ona görə də arada pərtlik ola biləcəyini nəzərə alıb istəmirdi ki, Saleh Qənizadəni kəndə aparsın. Ancaq Saleh Qənizadə qır-saqqız olub əl çəkmədi. Bu sözü çox təkrar elədiyindən Nazim axırda üzə düşüb atasına sifariş göndərdi ki, qonaq var, başqa yerə getməsin. Evdə olsun, gəlirik. MTS direktorunun ikiqapılı "Qaz - 69"-unu alıb, Qənizadəni kəndə apardı. Qora bişirən ay Çiçəklidə bir başıpapaqlı tapılmır. Hamı itli-pişikli kənddən bir neçə kilometr yuxarıdakı, kəndin əkin-biçin yeri olan Yazı düzünə köçür. Hərə bir alaçıq qurub, taxıl biçini sovulanacan yayı Yazı düzündə keçirir.

Xırman sovuruğa gələn vaxt Saleh Qənizadə ilə Nazimin əyləşdiyi maşın alaçıq evlərinə çatdı. Onda Çiçəklinin gəlhagəli idi. At və öküz arabaları torpaq yollarda toz qaldıra-qaldıra kövşənlərdən xırmana dərz daşıyırdı. Vəl qoşulmuş öküzlər yorulmaq bilmədən sübh tezdən gün günorta yerindən əyilənə qədər dəyirmi xırmanda dövrə vururdular. Əlli tərpənib qabağa düşən xırmançılar günorta olmamış boyunduruqları açıb, öküzləri səllimə buraxır, taxılı şüşələyir, dəni köçəldən ayırır, samanı da bir kənara yığırdılar. Çiçəklinin bu cah-calalına tamaşa edən Saleh Qənizadə heyrətini gizlətmədi:

- Nazim, səfalı yer-yurdunuz, işlək camaatınız var. Nə əcəb, bunları bizim qəzetə yazmırsan?

- Öz kəndimizdən yazmağa çətinlik çəkirəm.

- Nə üçün? - Qənizadə soruşdu.

- Pisliyə yazsam, deyəcəklər kor atdanıb, kəndin çapır. Tərifləsəm də, deyəcəklər üzgörənlik edir. Bir də ki, bizim camaatdan da çalışqanları var. Onları qoyub...

Allahverən kişi toyuq-cücənin dərdindən boz alaçığın qabağında atın başına torba keçirib, özü içəridə mütəkkəyə dirsəklənmişdi. Maşının tırtıltısını eşidəndə, cəld ayağa qalxdı. Qonaqların qabağına çıxdı. Oğlunun boyunu görəndə alnının qırışları açıldı, üzü güldü. Elə bil on il cavanlaşdı. İlk dəfə bu kəndə qədəm basan Saleh Qənizadəyə ehtiramla əl uzatdı... Xoş-beşdən sonra onlar qəddini əyib, darısqal qapısı olan və içərisinə xalça-palaz döşənmiş keçə alaçığa daxil oldular. Allahverən kişi səhər-səhər naxırdan ayırıb saxladığı və alaçığın dal tərəfində ora-bura dartınan qara erkəyi mıxdan açdı. Sümük saplı bıçağını çıxarıb, belindəki enli toqqadan asılan satıla çəkib itilədi. Sonra dizinin altında çabalayan erkəyin başını qibləyə tərəf çevirib, müsəlman qaydasında bir-iki kəlmə söz deyib, işini gördü...

Süfrə üstündə Allahverən kişi belə bir söz işlətdi:

- Oğul, Saleh, sən bizim bu alaçıq evinə xoş gəlmisən. Oğlum Nazimə demişəm ki, adamın dostu nə qədər çox olsa, bir heylə yaxşıdır. Allah-taala heç kəsi tək qoymasın. Təklik dibinə kölgə salmayan qolsuz-qanadsız ağac kimidir. Loru dillə desək, çayı tək keçəndə ayağın bir balaca büdrədi, qurtardı-getdi. Amma yan-yörədə yapışanın olsa, biri yıxılanda o biriləri qolundan yapışıb qaldırar. Bax, elə həyat da çay kimidir. Sözümün canı odur ki, bu halal ocaqda ki bir loxma çörək kəsmisiniz, çalışın onu itirməyin. Dostluğu axıracan vurun. Bizlərdə deyərlər, dostluq üç almadır, heç vaxt tən bölünmür. Həmişə ikisi birində olur, biri də o birində. Gərək ona tablaşasan. Yox, dözə bilmədin, heç. O, dostluq olmadı. Bir də el arasında belə bir söz var:

Çalış, dostlarınla kəsmə təmas:
Yaman olur dostun düşmən olması.

Nə fayda ki, Allahverən kişinin bu sözləri Saleh Qənizadənin qulağına girmirdi. Onun fikri-zikri başqa şeydə idi. Saleh Qənizadə birdən soruşdu:

- Allahverən əmi, gərək ki, Sizin kənddə yaxşı tut arağı çəkilir?

Qənizadənin sualı bacadan düşmə kimi oldu.

Allahverən: - "Mən ağzımda bir Quranlıq söz danışıram, bu gədə oğlu, gədə gör nə soruşur" - öz-özünə düşündü. Lakin onun qonaq olduğunu nəzərə alıb, iradını üzə vurmadı.

- Oğul, sözün yanlışı olar, yalanı olmaz, - dedi. - Elə düz eşitmisən, bizim bu Çiçəklidə araq çəkənlər var. Amma içəni tək-tükdür. Əksər çəkənlər elə isti-isti, üstündən yel addamamış yaxın kəndlərdəki xaçpərəstlərə sırıyıb, qəpik-quruş eliyirlər. Gavur milləti də elədir ki, uşaqdan-böyüyə az qalırlar arağın, çaxırın küpünə girsinlər. Allah-taala onları da elə yaradıb.

Saleh Qənizadə ortalığa gələn bozartmadan çox iştahsız yeyirdi. Nazim yaxşı bilirdi ki, qonağın qarnının dərdi yüz qramdır. Ona görə bir şüşə araq üçün əlaltdan kənd dükanına adam göndərdi. Ancaq gedən ordan əliboş qayıtdı. Xəbər gətirdi ki, dükançı qapını qıfıllayıb, mal dalınca rayona gedib. Bu sözü qonağın da qulağı çaldı və elə bil min dəfə onun atasının goruna söydülər. Saleh Qənizadə mısmırığını salladı. Onlar yeyib-içib gecəni birtəhər səhər elədilər. Xırmançılar heşan salmağa başlayanda Nazimlə Qənizadə ikiqapılı "Qaz - 69"-a əyləşib, rayon mərkəzinə qayıtdılar.

Nazim İlhamla Saleh Qənizadə, bax o vaxtdan tanış olmuşdular. Onlar xasiyyətcə başqa-başqa adamlar idilər. Yüz il bir qazanda qaynasalar da, qarışan deyildilər. Nazim İlham

Qənizadəyə dərindən bələd olandan sonra onunla yaxınlığa çox da can atmırdı. Düzdür, iş yoldaşı kimi əlaqəni də üzmürdü. Onun hörmətini gətirib, yolunu saxlayırdı. Amma yaxşı bilirdi ki, Qənizadə qolay adamdır. Bərkdə-boşda əli yoxdur. Yeri düşsə, işinin xatirinə doğma qardaşını da keçi qiymətinə satar. Nazim isə onun barəsində bildiklərini bildirmirdi. Hər dəfə də Qənizadənin Nazim İlhamın xidmət etdiyi zonaya yolu düşəndə həmişəki kimi onların evində qalırdı. Səriyyənin barəsindəki xoş sözlər də dilindən düşmürdü.

Qənizadə həmişə Bakıdan çıxanda bir gün əvvəl zəng vurardı ki, qardaş, gəlirəm. Və maşını birbaşa onlara sürdürərdi. Bu dəfə qəfil böyürdən çıxdı. Söhbətindən də məlum oldu ki, Nazimdən xəbərsiz şəhər mehmanxanasında özünə yer tutub. Nazim İlham bunları biləndə özlüyündə hesabını götürdü. Saleh Qənizadənin sifətindən oxuyurdu ki, bu külək hansı səmtdən əsir. Qabaqlar görüşəndə qucaqlaşıb öpüşən dostlar bu dəfə çox sərin salamlaşdılar. Nazimə məsələ aydın idi. Yaxşı bilirdi ki, redaktor biriynən əyilişdi, vay onun halına. İşçilərin də çoxu ondan üz döndərir. Makinaçılar belə - yorulmuşam, vaxtım yoxdur, kağız qurtarıb - deyə onun məqaləsini yazmaqdan boyun qaçırırdılar. Qənizadə sanki həmişəki deyib-gülən adam deyildi. Redaktor onun qulağına nə pıçıldamışdısa, Nazimə yad kimi baxırdı. Nazim Qənizadənin ədalarından başa düşürdü ki, bu dəfə o, başqa ab-havaynan gəlib. Ancaq bildiyini içində saxlayırdı. Qənizadə ilə beş-altı il bundan qabaq necə davranırdısa, indi də özünü o cür aparmağa çalışırdı. Nazim ona nəvazişlə:

- Saleh, yol gəlmisən, - dedi. - Gedək evə. Görək Allah verəndən nəyimiz var. Bir stəkan çay içək, söhbətimizi eləyək.

- Sağ ol, ehtiyac yoxdur. Həm də uşaqlara əziyyət vermək istəmirəm, - Qənizadə özünü ikili satdı.

- Evə getmirsənsə, yaxınlıqdakı yeməkxanaların birinə...

- Düzünü bilmək istəyirsənsə, Sizlə görüşməmişdən qabaq qonaq evinə getmişdim. General Nifaq Zamanoviç, Şirxan İsmayılzadə, ali məhkəmənin üzvi də ordaydı. Məni buraxmadılar. Onlarla bir yerdə çörək yemişəm. Məni bir az da içirtdilər. - Qənizadə bu sözü fəxrlə dedi. - Gələndə Mollazadə tapşırdı ki, əvvəlcə generalla və bir də yoldaş İsmayılzadə ilə görüş. Onlar səni başa salarlar, necə hərəkət etmək lazımdır.

- Aydındır, - Nazimin baxışları istehzalı ifadə aldı.

- Ancaq mən o fikirdə deyiləm ki, Sizə hər şey aydındır. Əksinə, deyərdim ki, qaranlıqdır! Bu məsələdə də Sizi səhv başa salıblar. - Saleh Qənizadə bu sözləri gözlənilmədən dedi.

- Sizdə təzə söz var, Saleh müəllim, bəlkə nədə səhv etdiyimi mənə izah edəsiniz, - Nazim dilləndi.

- Bəli, ola bilsin ki, etiraf etmək Sizin üçün çətindir. Lakin gəlin belə bir həqiqətlə razılaşaq ki, ehtiyac var. - Qənizadə vəzifəcə ondan böyük olduğunu büruzə verdi.

- Onda buyurun, Sizi dinləməyə hazıram. - Nazim də onun qabağında özünü endirmədi.

- Kollegiya üzvü, şöbə müdiri kimi mənnən bu tonda danışmaq Sizə xeyir verməz. Həm də unutmayın ki, mən jurnalistikanı qırmızı diplomla bitirib respublika qəzetində işləyəndə Siz hələ kənd müəllimi idiniz. - Qənizadə bu dəfə lap yuxarıdan getdi.

- Bu, doğrudur. Ancaq bütün peşə sahiblərindən fərqli olaraq, jurnalistin meyarı qurtardığı məktəbin möhürü ilə təsdiqlənən qara və ya qırmızı diplom yox, istedad və zəhmətin vəhdətindən yoğrulub cilalanan qələmdir.

- Doğrudan da insanları tanımaq olmazmış. Sizin bu dərəcədə dikbaş olduğunuzu təsəvvür etməzdim. İndi bildim ki, yoldaşlar haqqınızda çox düz deyirmişlər.

- Kimin nə dediyini bilmirəm və bilmək də istəmirəm. Lakin dost bildiyim adamın qəlbinə toxunmaq üçün özümdə cəsarət

tapa bilsəydim, heç olmasa arzu şəklində qırmızı diplomlu şöbə müdirinə məsləhət görərdim ki, başqasının sazını dınqıldatmasın. Öz tarını çalsın. Bir də ki, çörək kəsdiyim bir adamın, təkləndiyimi güman edib, kimlərdənsə təşəkkür payı umması naminə üstümə ayaq almaq niyyətinə düşməsi mənə çox miskin görünür. Belələri nifrətə layiqdir.

Allahverənin bir sözü hələ də Nazimin qulağındaydı: "Oğul, dostluğa başladığın adamdan gördün ki, ağlın bir şey kəsmir, sonradan onu pisliyə də çevirmə". Ona görə də Nazim iş yoldaşı kimi Qənizadə ilə elə-belə münasibət saxlayırdı. Neçə il ərzində ilk dəfəydi ki, aralarındakı pərdəni götürürdülər. Səbəbi də aydın idi. Saleh Qənizadə Nazim İlhamla Mollazadənin, generalın, İsmayılzadənin dili ilə danışırdı. Nazim İlham isə onun sözlərini həzm edə bilmirdi. Saleh Qənizadə Nazimin tərs üzünü görəndən sonra aralarındakı cəhlin başqa şəkil ala biləcəyini nəzərə alıb, al dilini işə saldı:

- Nazim, Sizin xətrinizi istədiyimdən bunları deyirəm. Allahverən kişinin çörəyini kəsmişəm. Heç vaxt onu tapdamaram. Bir halda ki, söhbətimiz bu cür alındı, bəzi şeyləri deməliyəm. Bilmirəm, yoldaşlar Sizə çatdırıb-çatdırmayıb, keçən letuçkada Mollazadə Sizin barənizdə çox sərt danışdı. Bura gəlməmişdən qabaq xeyli söhbət etdik. Aranızda nə olubsa, səndən bərk yanıqlıdır. Elə sözlər var ki, onu Sizə deməliyəm. Bayaq generalla Şirxan İsmayılzadə də çörək üstə Sizdən gileyləndilər. Xatirinə dəysə də, dəyməsə də deməliyəm ki, o kişilər tamamilə haqlıdır. Partiyanın, hökumətin, xalqın inanıb etibar etdiyi rəsmi adamların fikrini qoyub, onun-bunun ara sözlərinə inanmaqda səhv edirsən. Bir də ki, öz aramızdır, o boyda redaktorun qabağında, axı, sən kimsən? Kim?! Neçə aydır, generalın rəhbərliyi altında istintaq gedir. Bütün respublika bilir ki, terrorçular təkzibolunmaz sənədlərlə ifşa

olunub, bu gün-sabah məhkəmə işə baxacaq. Bəlkə çoxunu güllələdilər. O birilərini hələ bilmək olmaz, Təhmiraz Tahirov mütləq güllələnməlidir. Mən generalın ağzından çıxan sözü deyirəm. Sən isə özündən Amerika açmısan. Məni də cəncələ salmısan! Gəl bu daşı ətəyindən tök. Bir ay məhkəmədə iştirak elə. Kənardan baxanlar nə düşünər? Deməzlər ki, bu zonanın öz müxbiri ola-ola başqası niyə yazsın? Özün bil, məndən demək...

- İnciməsəydiniz, Sizdən bir şey soruşardım.

- Buyurun, - Saleh Qənizadə onu dinləməyə hazır olduğunu bildirdi.

- İstintaqa başçılıq edən şəxsin, məhkəmənin gedişinə müdaxilə etməsi, hüquqi nöqteyi-nəzərdən nə dərəcədə qanunauyğundur? Axı, elə bir məhkəmə binası yoxdur ki, onun divarı iri və qırmızı hərflərlə - "Xalq hakimləri müstəqildir" - sözləri yazılmış şüar və plakatlarla bəzənməmiş olsun. Buna nə deyirsən? Eşitmək istərdim ki, deyəsiniz, bizdə qanunlar yox, generallar şahdır. Əlbəttə, mən belə bir cavabı Sizdən gözləmirəm. - Nazim bu sözü deyəndən sonra onun qətiyyətli sərt baxışları şöbə müdirinin dolu sifətində donub qaldı.

- Yəqin Siz generalı nəzərdə tutursunuz, eləmi?!

- Bəli.

Saleh Qənizadə onu sadəlövhlükdə qınamaq mənasında başını buladı və:

- Görürsünüz, yenə də çox şeyi qarışdırırsınız. Reallıqla hesablaşmaq istəmirsiniz. Bizdə məhkəmə də, prokuror da, sən də, mən də, qəzet də, lap elə Mollazadə də, general da partiyaya tabeyik. Partiya məsləhət görəndən sonra bizim nə haqqımız var deyək ki, general məhkəmənin işinə qarışmasın.

Nazim qəlbində şahə qalxan qəzəbi güclə cilovladı. Və zinhara gəlibmiş kimi yorğun-yorğun kirpiklərini qaldırıb, onun üzünə baxdı:

- Yaxşı, Siz deyən olsun. Bütün bu cəfəngiyatlardan sonra neyləməliyəm? - sakitcə soruşdu.

- Sizin bir yolunuz var.

- Buyurun, o yolu mənə göstərin.

- Lüzumsuz inadından əl çək! Məhkəmədə özün iştirak elə, mən qayıdım gedim. Yoldaşların da sözü biryolluq kəsilsin.

Nazim İlham:

- Redaktor bu barədə fikrimi bilir, - dedi. - Sizə də deyirəm. Ziyad Kərimlinin ssenarisi ilə səhnələşdirilən komediyanı nəinki qələmə almaq, hətta onun tamaşaçısı ola biləcəyimi belə ağlınıza gətirməyin.

Saleh Qənizadə müsahibinə acıyırmış kimi gülümsündü:

- Bunun nə ilə qurtaracağını bilsəydiniz, inanıram ki, bu qədər tərslik etməzdiniz.

- Məncə, vicdan üçün vəzifəni itirmək qorxusu, şərə xidmət etmək əzabı qədər dəhşətli deyil.

- Deməli, məhkəmədə mənnən iştirak etmək istəmirsiniz?!

- Xeyr!

- Eybi yoxdur, onda Siz başqa işlərinizlə məşğul olun. Mən özüm iştirak edərəm. Axırda yazını bir yerdə hazırlayarıq. Məqaləni də ikimizin imzası ilə verərik. Buna sözün nədir?! - Saleh Qənizadə sualedici baxışlarını Nazimə zillədi.

- Bu, lap pis. - Nazim kinayə ilə: - Onda üzrü günahından betər olar ki!

- Tərsliyin tutmasın! Yersiz inadından əl çək! Bununla da söhbətimizə nöqtə qoyaq.

- Xeyr, bir-iki nəfərin xatirinə, minlərin qınaq və nifrət hədəfinə çevrilə bilmərəm. - Nazim yenə sözündən dönmədi.

Saleh Qənizadə Bakıdan ağzıyelli gəlmişdi. İndi isə onun dedikləri, məhrəm bir adamın qayğısından irəli gələn öyüd-

nəsihət təsiri bağışlayırdı. Ancaq bunun da faydası olmadı. O, ayağa qalxaraq:

- Özündən küs! Mən sözümü deyib, borcumdan çıxdım. Bundan sonra özün bilərsən, - dedi. - Qonaq evinə getməliyəm, yoldaşlar gözləyir. Məcburam Mollazadəyə zəng vurub deyəm ki, Nazim İlham yola gəlmək istəmir. Elə öz dediyini deyir.

* * *

Sübhə yaxın başlayan leysan yağış yay günəşinin çıxmasına bənd imiş kimi səngimişdi. Hava qızdıqca asfalt yolları isladan yağış suları buxarlanıb havaya kəsif rütubət yayırdı. Səki boyu cərgələnən çinarların gümüşü sırğalarından tək-tük damcılar düşürdü. Ağacların çat-çat olmuş gövdəsi nəmlənmişdi. Şəhərin çalın-çarpaz küçələrində, iti addımlarla mərkəzi meydana doğru tələsən müxtəlif yaşlı adamlar nəzərə çarpırdı. Mədəniyyət evinin ağ daş döşənmiş geniş həyətinə toplaşanlar üzücü bir intizarla həbsxana tərəfdən gələn yola baxırdılar. Ara-bərədə vurnuxan milis işçiləri iki-bir, üç-bir qulaq-qulağa verib xısınlaşanlara hiss olunmadan göz qoyurdular. Bir neçə dəqiqədən sonra müqəssir stulunda əyləşəcək müttəhimlərin qohum-əqrəbası giriş qapısına yaxın olan küncə toplaşmışdılar. Onların arasındakı qara örtüklü, qəmgin qadınlar, söz yox ki, “cinayətkarların” ana-bacıları, həyat yoldaşları idi. Onlara qısılan məktəb yaşlı oğlan və qızların bəzisi xısın-xısın ağlayırdı. Ölümünü gözünün altına alan cavan bir oğlan Ziyad Kərimlinin ünvanına hərzə-hədyan danışır, qorxub-çəkinmədən bu sitəmi törədənlərdən hayıf alacağını nümayişkaranə car çəkirdi. Rütbəcə o birilərindən böyük olan baş leytenant canfəşanlıq edən həmin gəncə yanaşıb, ağayanalıqla:

- Cavan oğlan, özünü tərbiyəli apar, - dedi. - Elə etmə ki, səni də onların yanına salaq.

- Tutun! Məni də tutun! Tutmayan əclafdır! Onsuz da yaşamaq istəmirəm! Belə yaşamaqdansa, ölüm yaxşıdır! Kişisiniz, məni də tutun! Heç olmasa, orda atamla bir yerdə olaram! Hamınız əclafsınız! Bu işi belə qoymaram! Nəyimiz var, satıb-sovub, haracan olsa, gedəcəyəm! Atamın haqsız yerə tutulduğunu sübut eləməsəm, başımdakı papaq deyil, qadın ləçəyidir! Allahdan qorxmurlar, qanun tanımırlar! Qansızlar, vicdansızlar! Bunu göydəki Allah götürməz! Allah bu hıqsızlığı yerdə qoymaz! Qanun da, hökumət də yalandır! İndi Ziyad Kərimlilərin meydanıdır! Bunu belə qoysam, anamın verdiyi süd haram olsun...

Baş leytenant iki nəfər milis işçisini kənara çəkdi:

- Qoduğun ağzından qan iyi gəlir, - dedi. - Götürün bunu. Görünür, hələ burnu ovulmayıb. Daldan qolunu burun, basın içəri. Xırda xuliqanlıq kimi on-on beş sutka oformit eləyin, qoy ağlı gəlsin başına...

Milis işçiləri cavan oğlanı o dəqiqə hop götürdülər. O, əvvəlcə-atılıb düşdü. Milis işçiləri neynədisə, oğlanın gözləri alacalandı, boynu yana əyildi... Yəqin ki, pis yerindən vurmuşdular. İki-üç nəfər qadın saçlarını yola-yola oğlana tərəf cumdular. Milis işçiləri qadınların qabağını kəsib, döşlərindən geri itələdilər və:

- Özünüzü bu cür həyasız aparsanız, sizi bu həndəvərə qoyan deyilik! Rədd olun cəhənnəmə! Qara-qışqırıq salmayın! Məhkəmə başlanmamış indidən bunların haray-həşirinə baxın!

Milis işçiləri hərzə-hədyan danışan cavan oğlanı sürüyə-sürüyə müvəqqəti təcridxanaya tərəf apardılar. Kənarda dayanıb onları nifrət və qəzəblə müşahidə edən yaşlı kişi müsahibinin qulağına əyilərək:

- Təhmiraz Tahirovun Bakıda oxuyan böyük oğludur, - dedi. - Məktəbi atıb gəlib. Bizim küçənin o tərəfində olurdular.

Əlindən xata çıxmasa yaxşıdır. Atasının tutulması ona yaman təsir eləyib. Neçə gündür qan-qan deyir. Səhərdən-axşamacan da yanıqlı-yanıqlı qarmon çalır. Eşidəndə adamın ürəyi qana dönür. Başına hava gəlməsə yaxşıdır. Atasına iş kəssələr, dözməz, bağrı çatlayar. Təhmirazın ilk övladıdır. Heç bilirsən bir-birini necə istəyirlər?! Kaş bu iş olmayaydı! O tutulandan bəri bizim də yediyimiz-içdiyimiz zəhərə dönüb. Necə olsa, qapıbir qonşuyuq.

Qartal burnu olan yekəpər milis işçisi hulqumu çıxmış boğazını onlara tərəf uzadanda, yaşlı kişi öskürüb, qəddini düzəltdi və üzünü başqa səmtə çevirdi. Elə bu anda hamı bir-birinə dəydi. Meydana toplaşanların nigaran baxışları yuxarı tərəfdən gələn dustaq maşınına yönəldi. Maşın hərlənib mədəniyyət evinin dal qapısının önündə dayandı. Avtomaşından əvvəlcə, dili bir qarış çölə çıxmış ovçarkanın uzun zəncirindən bərk-bərk tutmuş xüsusi geyimli mühafizəçi düşdü. Sonra itlə birlikdə ikinci mühafizəçi göründü. Onların ardınca xəcalətdən başlarını aşağı dikən yeddi nəfər məhbus əlləri arxasında maşından düşüb, sıraya düzüldülər. Onları on nəfərdən çox yaraqlı-yasaqlı mühafizəçi müşayət edirdi. Əlində məktəbli çantası olan qız uşağı "Baba!, baba!" deyib, tükürpədici bir səslə çağırdı və qəddi əyilmiş yetmiş yaşlı kişiyə tərəf dartındı. Mühafizəçilər cəld irəli çıxıb qızı geri itələdilər. Qız:

- Qoyun, baxım babama! Qoyun! Qoyun! Ba-ba-ma baxım! - ağlaya-ağlaya mühafizəçilərin əlində çırpınıb var gücü ilə qışqırdı. Mühafizəçilər onu birtəhər ovudub araladılar. Qızın "Baba!" deyib qucağına atılmaq istədiyi qocanın ölgün gözlərindən bir neçə damcı yaş qopub, dərin qırışlar düşmüş qansız sifətində gilələndi. Bığ yeri təzəcə tərləyən boylu-buxunlu mühafizəçi:

- Ey, ey, qoca, baxmaq olmaz! Baxmaq olmaz! - Hökmlə ahıl kişinin üstünə çəmkirdi.

- Baba! Baba! - deyib qışqıran qızı kimsə çəkib araladı və onun məşum çığırtısı buraya toplaşanların qulağında hələ də cingildəyirdi.

Bir nəfər yanındakı həmsöhbətinə pıçıldayırdı:

- Təhmiraz Tahirovun qız nəvəsidir. İkinci sinifdə oxuyur. Gözünü açandan babasının yanında qalır. Axşamlar babasız yata bilmir. Kəbutər tutulandan bəri kirimək bilmir.

Meydana toplaşanlar dabanlarını qaldırıb, boğazlarını uzadıb məhbuslara baxırdılar. Qabaqda dayanan milis işçisi irəli duranların üstünə qışqırıb onların kimliyinə əhəmiyyət vermədən var gücü ilə sinələrindən geri itələyirdilər. Adamlar bir-birinin üstünə aşırdı. Qoltuq ağacına söykənmiş yaşlı kişi büdrəyib, əl-ayaq altında qaldı. Başqa bir milis işçisi qollarını qulaclayıb:

- Geri çəkilin, geri çəkilin! Məhkəmə gəlir! Yol verin! - deyə amiranə səslə adamlara müraciət edirdi. Həmişə bu cür hadisələrlə maraqlanan Nemət Rəcəbli kənardakı çinar ağacının dibinə çəkilib, bu müdhiş mənzərəni seyr edirdi. O, demisini tüstülədə-tüstülədə özündən asılı olmayaraq gah acı istehza ilə gülümsünür, gah da başını bulayıb, hirsini soyutmaq üçün kiminsə qarasına tüpürür və bununla da nifrətini büruzə verirdi. Ona yanaşan dost-tanışların ilk sualı bu olurdu:

- Ay Mirzə, sən köhnə adamsan, ömrün boyu da qəzetdə işləmisən. Bu həngamələrdən ağlın nə kəsir?

Mirzə isə başını yana əyib, təəccüblə çiyinlərini qaldırır və:

- Ağlım dəhrə deyil, balta deyil, nə kəssin?! Atam! Mən bu işə matam! - deyib, bu basabasda demisini tüstülədirdi.

...Məhkəmə başlandığından meydana toplaşanların çoxu içəri daxil olmuşdu. Dram teatrının yerləşdiyi mədəniyyət

evinin həyət-bacasında tək-tük adam qalmışdı. Bir də ki, ara-bərədə dolaşıb qayda-qanun gözləyən milis işçiləri görünürdü. Zalda boş yer qalmamışdı. Stullar tutulmuşdu. Ən maraqlı teatr tamaşalarına və təntənəli yığıncaqlara hələ bu qədər adam gəlməmişdi. Alimlik dərəcəsi olan yaşlı məhkəmə sədrinin əyləşdiyi stul, söykənəcəyinin hündürlüyü ilə seçilirdi. Onun sağındakı və solundakı xalq iclasçılarının biri cəmi-cümlətanı dördüncü sinfi bitirmiş məşhur pambıqçı, digəri isə adlı-sanlı buruq ustası idi. Müttəhim kürsüsündə əyləşən məhbusların nə dərəcədə haqlı-haqsız olduqları və nə kimi cəza alacaqları onların vecinə deyilmiş kimi hər iki iclasçı gözlərini məchul bir nöqtəyə zilləyib yerlərindən tərpənmədən dinməz-söyləməz əyləşmişdilər. Hakim hər dəfə sözünü qurtarandan sonra xalq iclasçılarına yoxlayıcı nəzər salırdı. İclasçılar isə ədəb-ərkanla başlarını endirib-qaldırır, bununla da məhkəmə sədrinin fikrinə şərik olduqlarını bildirirdilər. Xalq iclasçıları ittihamçılarla müttəhimlərin arasında baş verən mübahisələrə qarışmamaqla sanki sadə pambıqçıya və neftçiyə xas olan nəzakətlərini nümayiş etdiridilər. Vaxtilə prokuror işləmiş və əlində tutarlı dəlil-sübutlar olan vəkil müdafiə etdiyi məhbuslara bəraət qazandıracağı ümidilə dil-dil ötürdü. O, məhkəmənin sədrindən söz alıb danışdıqca, müttəhimlərin solğun çöhrəsində güclə sezilən ümid qığılcımı işıldayırdı. Vəkilin məntiqi dəlilləri hərdən hakimi çaşdırıb çıxılmaz vəziyyətə salırdı. Həmin anda dövlət ittihamçısı olan prokuror vəkilə qarşı etiraz səsini qaldırırdı. Hakimlə prokuror dilbir olub vəkili susdurmağa çalışsalar da, müdafiəçilərin gətirdiyi əsaslı dəlil-sübutlar qarşısında çətinlik çəkirdilər.

Hakim qalın qovluğu xeyli vərəqləyib diqqətini sənədlərin birinin üzərində cəmləşdirdi. Və gözündəki eynəyi çıxarıb üzünü məhbuslara tutdu:

- Müttəhim Təhmiraz Tahirov, - dedi və yenə də eynəyini taxıb, dindirmə protokolunda yazılanları hecalaya-hecalaya - gərək ki, ilk istintaqdan boyun qaçırmısınız. Burada ifadəniz yoxdur. İndi buyurun.

Təhmiraz Tahirov ağır-ağır ayağa qalxdı, təmkinini pozmadan qəzəbli baxışları ilə hakimi süzdü və:

- Düzdür, - dedi. - İbtidai istintaqda ifadə verməkdən imtina etmişəm.

- Bunu bilirəm. Dindirmə sənədlərində var. - Hakim onun sözünü kəsdi. - Ancaq nahaq yerə. - O, qaşqabağını salladı. - İndi ədalət məhkəməsindəsiz. Sərbəst surətdə danışa bilərsiniz. İnad etməyiniz əbəsdir. Düzünü boynunuza alsanız, yaxşıdır, onda cəzanız da yüngülləşər.

- Möhtərəm hakimlər, heç şübhəsiz ki, mənə nə kimi cəza vermək barədə çoxdan, hələ bura gəlməmişdən əvvəl göstəriş almısınız. Ona görə də verəcəyim ifadənin hakim üçün heç bir əhəmiyyəti olmadığını nəzərə alıb, havayı yerə özümü incidib, Sizin də qiymətli vaxtınızı almağa lüzum yoxdur.

- Müttəhim Tahirov, Siz təhsil almış savadlı adamsınız. Az-çox da həyat təcrübəniz var və yəqin ki, ədalət məhkəməsinin nə demək olduğunu dərk etməmiş deyilsiniz. Siz fərziyyə söyləyirsiniz. Ona görə də yaxşı olar ki, sözünüzə bir balaca sərhəd qoyasınız.

Təhmiraz Tahirov:

- Möhtərəm hakimlər! Ola bilsin ki, ədalətli adamsınız və söz yox ki, qarşınızdakı iyirmi cilddən artıq cinayət işini diqqətlə oxumusunuz. Qəti əminəm ki, təcrübəli hüquqşünas kimi çıxaracağınız hökm, vicdanınız qarşısında gəldiyiniz nəticəyə əsaslansaydı, bu həbsxana divarlarının arasından xilas olardıq. Onda Ziyad Kərimlinin hördüyü hiylə torunda çabalayan bu zavallılar - o, məhbuslara işarə etdi - yuxarıdakı Allahdan da,

Sizdən də razı qalardılar. Bu, həm də qanunlarımızın müqəddəsliyinə inamın təntənəsi kimi səslənərdi. Bura toplaşanlar hökmünüzü ürəkdən alqışlayardı. Ancaq... Ancaq... Vəzifə, əyləşdiyiniz stul, təmtəraqlı kabinet, rahat avtomaşın, şan-şöhrət... bunları əldən verməmək xatirinə ən ülvi qanunları murdar əsgi kimi ayağınızın altına salıb tapdalamağa hazırsınız. Çünki qanunların yox, Sizi vəzifə köhləninə mindirib düşürmək səlahiyyətinə malik olanların diktəsinə əməl etdiyiniz təqdirdə xoşbəxt ola bilərsiniz. Ona görə də möhtərəm hakimlər, sizi qınamaq sadəlövhlük olardı. Bir də ki, bir çox xoşbəxtliklər bədbəxtliklər üzərində təşəkkül tapır. Burada oturan yeddi nəfərin, zindanlarda çəkdiyi və çəkəcəyi zillətin əvəzində, yuxarıdan umduğunuz şan-şöhrət çələnginin sizə bəxş edəcəyi xoşbəxtliyi də təsəvvür edirəm. Bəlkə də belə lazımdır. Əks təqdirdə, dünyadakı bədbəxtliklərin və xoşbəxtliklərin, bədxahlığın və xeyirxahlığın tarazlığı pozulardı.

Hakim əsəbiləşib, əlindəki qələmlə stolun üstündəki mis mürəkkəbqabını cingildətdi:

- Müttəhim Tahirov, Siz həddinizi aşırsınız. Rica edirəm mətləbdən uzaqlaşmayasınız.

- Mən ədalət məhkəməsi qarşısında ifadəmi verdim. - Təhmiraz Tahirov bunu deyib əyləşdi.

- Cinayətkarın təqsirini, özü də çox ağır təqsirini etiraf etməməsi bizdə təəccüb doğurmur. Lakin inadkarlığınız əbəsdir. Bütün bu cəfəng ibarələrinizin məhkəmə üçün heç bir əhəmiyyəti yoxdur. Ən asanı odur ki, günahlarınızı olduğu kimi boynunuza alın. - Hakim onu ifadə verməyə təkid etdi.

Təhmiraz Tahirov dillənmədi. Hakim eynəyini taxıb başqa bir qovluğu varaqladı və başını qaldırıb məhbuslara tərəf baxdı:

- Müttəhim Kəbutər Yarəliyev, buyurun.

Ovurdları batıq, saçı-saqqalı ağarmış qoca:

- İlahi, görəcəkli günlərim varmış, durduğum yerdə bu nə xətaydı düşdüm, - deyə öz-özünə mızıldandı. Əlini dizinə dirəyib güclə ayağa qalxdı və imdad diləyən yalvarıcı gözlərini hakimə zillədi. Hakim amiranə səslə:

- Müttəhim Yarəliyev, Sizin qızınız Nənəxanım Tahirova Təhmirazın həyat yoldaşıdır eləmi?

- Bəli, oğul, düz buyurursunuz. Nənəxanım mənim ortancıl qızımdı.

- Oğul yox, möhtərəm hakim! - Hakim ona müraciət qaydasına əməl etmədiyi üçün iradını bildirdi.

- Neynək, oğul, sən deyən olsun!

Zaldakılar qımışdı. Hakimlə prokurorun da dodağı bir balaca qaçdı. Lal-dinməz oturan xalq iclasçılarının təmkini pozulmadı. Hakim soruşdu:

- Deyin görüm, Siz özünüzü müqəssir hesab edirsinizmi?

- Vallah, ay məhkəmə, heç özüm də bilmirəm ki, hansı təqsirimə görə bu xarabada yatıram.

- İlk ifadənizdə hər şeyi göstərmisiniz. - Hakim cavab verdi.

- Harda göstərmişəm, oğul? Bir məni əməlli-başlı başa sal, agah elə görüm, - qocanın qırışmış sifəti qaraldı. Ölgün gözləri qıyıldı.

- Budur, - hakim qarşısındakı sənədlərə işarə etdi. - Hamısı burada yazılıb.

Kəbutər:

- Möhtərəm məhkəmə. Ömrümdə oruc-namazımdan qalmamışam. Bircə naxoş olan günlərdən başqa. Onu da bilirəm ki, yalan danışan Allahın düşmənidir. Əgər ki, bir kəlmə alt-üst desəm, qıldığım maa qənim olsun. Siftə dilimdən kağız alanda da demişəm ki, vallah-billah bu işdən xəbərsiz-ətərsizəm. Yazan da bir şirindilli göyçək oğlan idi. Ona da öz balam kimi olanı danışmışam. Genə də deyirəm! O vaxt ki, deyirsiz, bu

hadisə olub, onda bizim bu Təhmirazla gedişimiz-gəlişimiz kəsilmişdi. Aramızda bir az sərinlik yaranmışdı. Özü də neçə ay olar ki, məndən gen gəzirdi. O vaxtlar onun üzünü görmüşəmsə, mənim atama lənət. Səbəbini də elə söz ki açıldı, qoy deyim. Qızımnan aşağı-yuxarı söhbətləri olmuşdu. Axşam namazına az qalmış, elə evdə oturduğum yerdə bir də gördüm qapı açıldı. Bizim o başıbatmış Nənəxanım girdi içəri. Məni görəndə doluxsundu. Soruşdum ki, yenə nə olub?! Üstümə ağladı ki, Təhmiraz mənnən dalaşıb. Dedi ki, atan Kəbutər belə-belə olsun... Bu sözü eşidəndə cin vurdu təpəmə. Düzü, qızıma təpindim. Dedim, a qancıq, ərlə arvad arasındakı söz-söhbət gərək çölə çıxmasın. Ər arvadı söyər də, sevər də! Təhmiraz, tutaq qanmayıb, hirslənib iki kəlmə biədəb söz işlədib. Qoyaydın qalaydı dörd divarın arasında. Tay onu deyib, bu qoca vaxtımda məni niyə təbdən çıxardırsan? İndi, qızım, məni Təhmiraz yox, sən belə-belə elədin. Möhtərəm məhkəmə! Bu ailə məsələsi də belədi, dayna! Oğul evləndirən, qız köçürən kəs, belə dava-dalaş olanda, gərək özününkünü günahkar bilsin. Yoox, oğul yiyəsi dedi mənimki haqlıdı, qız yiyəsi dedi mənimkinin günahı yoxdu, o ailədən əlini üz, tez pozular.

Tık... tık... - hakim əlindəki qələmlə qarşısındakı stolu tıqqıldatdı və:

- Müttəhim Kəbutər Yarəliyev, qısa eləyin. Siz burada nağıl danışırsınız. Bura nağıl üçün yığışmamışıq. Keçin əsas mətləbə. Deyin görüm, Ziyad Kərimliyə güllə necə atılıb? Əsas kim atıb? Bax, bundan danışın!

- Vallah, möhtərəm hakim. Siz soruşursunuz, mən də elə başdan danışıram ki, aydın olsun. Atan yerində kişiyəm. Çox da təvəqqe eləyirəm, sözümü ağzımda qoyma.

- Yaxşı buyurun, davam eləyin, - hakim razılaşdı.

- Hə, dayna, buyurmağım odur ki, Nənəxanım həmin axşam

bizdə qaldı, səhər öz əlimlə qaytardım uşaqlarının yanına. O söhbətdən sonra Təhmiraz utandığından bir ayacan bizim tərəfə üzükmədi. İnsafüçünə yeznə mənimdisə, bilirəm, dayna, heylə ağızdan sən deyən pərtov adam deyil. Adamın üstündə Allah var. Hardansa qonaqlıqdan gəlirmiş, bir az o zəhrimardan dilinə dəyib. Kefi yuxarı olduğu üçün bir az başından yekə danışıb, sarsaqlayıb. Allaha şükür, özü də budu, burdadı. Əgər bircəciyini düz demirəmsə, dursun tüpürsün üzümə, maa qəbuldu. Təhmiraz özü də bilir ki, dünyasında yalan danışan deyiləm. Bax o, ki deyirsiniz guya ki, yığışıb bir yerdə Ziyad Kərimliyə güllə atmışıq, o məsələ olan vaxtı yeznəmnən aram gen olub? Düz bir ay, nə o mənim üzümü görüb, nə də ki, mən onun qapısını tanımışam. İndi də a yoldaş məhkəmə, maa üz vurursan ki, haqq-nahaq durum onun üzünə. Axı, Allah göydən baxır. A kişilər, olmayan şeyə nə təhər deyim olub?! Budey, başım gora titrəyir. O dünyada buna nə cavab verim?

Hakim dilxor oldu:

- Müttəhim Kəbutər Yarəliyev, - dedi. - Niyə başa düşmək istəmirsiniz, verdiyiniz ifadə ilə burada dediyinizin heç bir əlaqəsi yoxdur. Özün də deyirsən mömin adamam.

- A kişilər, orda nə demişəmsə, burda da onu demirəmsə, Allah maa qənim olsun. Hamısını da o cavan müstəntiq bircə-bircə yazırdı. Yazıb qurtarandan sonra da dedi ki, Kəbutər kişi, ağzından nə çıxıbsa, o cür də yazmışam. Bircə kəlmə də artırıb-əksiltməmişəm. İnanmırsan, təzədən oxuyum, qulaq as. Mən də onu sındırmaq istəmədim. Elə kağızda haranı göstərdi, oraya da barmağımı basdım. İndi, yoldaş məhkəmə, burda görürəm sən ayrı cür hava çalırsan! Mən də məəttəl qalmışam. İndiki adamlara etibar yoxdur. İnsan ki var, çiy süd əmib. Birdən o gədə məni ala qoyub ayrı cür yazar, ona da inanmıram. İnsafçinə, mənnən elə ədəb-ərkanla danışırdı ki, indiki zamanda

heç oğul ataynan o cür rəftar eləməz. Beş dəfə qabağıma çay gətirdi. Tay Allahdan gizlin deyil, bəndədən nə gizlin? Saatının xoş vaxtında arada bir ağzından çıxartdı ki, Kəbutər əmi burda sənlik bir şey yoxdur. Elə yazıram ki, bu işdən biryolluq qurtarasan...

Prokuror əl boyda kağız yazıb, altdan məhkəmə sədrinə ötürdü. Hakim həmin kağızı gözucu nəzərdən keçirib ayağa qalxdı:

- Müttəhim Kəbutər Yarəliyev, danışdıqlarının hamısı başdan-ayağa uydurma, yalandır. Özü də saqqalına yaraşmayan yalan! Əyləşin! - Hakim onun verdiyi ifadələrdən narazılığını bildirdi və bu dəfə Səxavət Mehrəliyevi dindirməyə başladı:

- Müttəhim Mehrəliyev, Siz həm də Təhmiraz Tahirovun bacısı Nənəqızın həyat yoldaşısınız, eləmi?

- Bəli.

- Onda barı Siz düzünü deyin görüm, hadisə necə olub? İşdəki sənədlərə görə mütəzərrir Ziyad Kərimli maşında olarkən ona ikinci gülləni atan Siz olmusunuz. Ancaq rica edirəm, hadisə necə olub, o cür danışın. Özünü mömin hesab edən bu qoca kimi alt-üst vurmayın. Naqqallıq eləməyin, xeyri yoxdur.

- Möhtərəm hakimlər! Vaxtilə orduda qulluq eləmişəm. - Səxavət Mehrəliyev sözə başladı. - Üç il faşistlərlə döyüşdə olmuşam, sol qolumdan yaralanmışam. Özüm əla strelokam. Nişanım da var. İstər beşaçılanla, istər tapança ilə atdığım yayınmayıb. Əsgərlikdə hamı məni barmaqla göstərirdi. Melkikalibr tüfənglə spiçka çöpünü nişan qoyub vurmuşam. O ki qaldı quş tüfənginə, o uşaq-muşaq işidir. Mən heç, Siz özünüz deyin, on altı kalibr quş tüfəngiylə atdığım boşa çıxar?! Atsaydım, Ziyad Kərimli çoxdan o dünyalıq olmuşdu. İndi belə çıxır ki, Təhmiraz Tahirovla mən hərəmiz iki güllə atmışıq.

qırmalar da Ziyad Kərimlinin cibindən çıxıb. Məgər qırma bayram qovurğasıdır ki, onun cibinə tökək?

Məhkəmə zalında əyləşənlər gülüşdülər. Hakim əlindəki qələmlə mis mürəkkəbqabını cingildətdi:

- Sakit olun, yoldaşlar! Sakit olun! Bura məhkəmədir, özünüzü yaxşı aparın!

Səs-küy azaldı. Səxavət Mehrəliyev:

- Doğrudan da gülməlidir, - sözünə davam etdi: - Möhtərəm hakimlər, ixtiyar sahibisiniz. Nəyinsə, kiminsə xatirinə mənə nə iş kəsərsən-kəsməzsən, özün bil, bir də ki, Allahın bilsin. Ancaq bunlar ağbədiyə yalandır. Bu, bir qurğudur, bu qurğuya da bizi salıblar. Deyirsən düzünü de, bu da düzü. Əgər möhtərəm hakimlərə başqa cür ifadə vermək sərf eləyirsə, bu, ayrı məsələ...

- Müttəhim Səxavət Mehrəliyev, ilk istintaqda ayrı cür ifadə vermisiniz. İstəyirsiniz, oxuyum. - Hakim qarşısındakı qovluğa işarə etdi.

- Bura ədalət məhkəməsidir. Mən də olanı deyirəm. Bizim başımıza gətirilənlər, Sizin başınıza gətirilsəydi, Siz də o cür ifadə verərdiniz. - Səxavət Mehrəliyev cavab verdi.

Məqam düşdükcə söz alıb danışan vəkil əsaslı dəlillərlə istintaq materiallarını alt-üst eləyib qoydu ora...

Prokuror işin təkmilə qayıdacağından ehtiyat edirdi. Məhkəmənin sədri yuxarıların tapşırığını, qonaq otağında əyləşib məhkəmənin gedişini izləyən generalı gözünün qabağına gətirib narahat hisslər keçirirdi. Saleh Qənizadə üçün təfavütü yox idi. O, şirin xəyallar dünyasındaydı və yalnız yazacağı məqalənin həcmi, qonorarı, Mollazadənin onun zəhmətini necə qiymətləndirəcəyi, generaldan alacağı təşəkkür barəsində fikirləşirdi. Xalq iclasçıları ağızlarını açıb bir kəlmə də olsun danışmırdılar. Mədəniyyət evinin çöl dəhlizində qoyulmuş radioötürücülər xırıltılı bir səslə içəridə gedən

məhkəmə prosesini ətrafa yayırdı. Radionun səsi yaxınlıqdakı yaşayış binalarında, dövlət idarələrində də aydın eşidilirdi. Meydanda dayanıb işin gedişatını izləyənlər, şübhə və nifrətdən irəli gələn üzücü hisslər keçirirdilər. Məhkəmə prosesinə hamıdan çox maraq göstərən general ortalığa çıxmasa da, qonaq otağındakı divanın yastığına dirsəklənib, radio vasitəsilə məhkəmə prosesinə qulaq asırdı. İstintaqın paxırı üzə çıxdıqca general yerini isitmirdi. O, tez-tez ayağa qalxır, koridor boyu sərilən ensiz fərşin üzərində asta-asta var-gəl edir, sonra da küncdəki yazı masasının arxasına keçib, əlini çənəsinə söykəyir, vəziyyətdən çıxmaq üçün cürbəcür variantlar fikirləşirdi.

Məhkəmə zalında qarışıqlıq düşmüşdü. Ordan-burdan istintaq işçilərinin, hakimlərin ünvanlarına xoşagəlməz sözlər eşidilirdi. Hakim səs-küyü sakitləşdirmək üçün tez-tez ayağa qalxıb, qayda-qanunu pozanları çölə çıxaracağı ilə hədələyirdi. Bu vaxt arxa tərəfdən, daha doğrusu, aktyorların giriş-çıxış qapısından bir nəfər səhnəyə daxil olub, pəncəsi üstə prokurora yanaşdı. Onun nə dediyini bilən olmadı. Ancaq bircə "general" sözü eşidildi. Həmin adam gedəndən sonra prokurorla məhkəmə sədri bir-birinə tərəf əyilib qulaqlaşdılar. Aydın məsələydi ki, nə barədə isə məsləhətləşirlər. Onlar him-cimlə danışıb qurtardıqdan sonra hakim saatına baxıb, zala üz tutdu:

- Müəyyən səbəblər üzündən məhkəmənin davamı sabaha qədər təxirə salınır. Görürəm, yorulmusunuz, Siz də bir balaca dincələrsiniz, - əlavə etdi. Və stolun üstündəki kağız-kuğuzu yığışdırmağa başladı.

...Generalın gözü qonaq otağının pəncərəsində qalmışdı. Prokurorla hakimin gəlişini gözləyirdi. Bir neçə dəqiqədən sonra qapının ağzında ayaq səsləri eşidildi. Əvvəlcə məhkəmənin sədri, onun arxasınca prokuror və Saleh Qənizadə içəri daxil oldular. Xalq iclasçıları qaldıqları ümumi şəhər

mehmanxanasına getmişdilər. Hakim generala yorğun-yorğun başı ilə salam verib, - yaman ilişmişik, - dedi və keçib yan tərəfdə qoyulan divanın üstünə sərələndi. Prokurorla Saleh Qənizadə hərəsi bir tərəfdə əyləşdi. General heç bir şeydən xəbəri yoxumuş kimi:

- Hə, məhkəmə necə gedir? - soruşdu.

Hakim gözlərini otağın tavanında dolandırıb, tərəddüdlə çiyinlərini çəkdi:

- Belə getsə, çətin olacaq, - dedi. - Bu gün vur-tut üçünü dindirmişik. Heç biri verdiyi ifadəsinin üstünə gəlmir. Məhkəmədə ayrı cür danışırlar. Sabah o biriləri də bu cür çərənləsə, batdıq. - Hakim generala hesabat verirmiş kimi məhkəmə prosesinin bəzi müəmmalı məqamlarını qısaca izah etdi...

- Qoca kaftar! Kəbutər Yarəliyevdi-nədi onnan Səxavət Mehrəliyev lap sarsaqladılar, - prokuror söhbətə qoşuldu.

- Aydın məsələdir ki, cinayətkar heç vaxt xoşhaxoşluqla günahını boynuna almaz. - Saleh Qənizadə onlara yarındı.

- Vot, soverşenno pravilno. Jurnalist tamamilə düz deyir. - General Saleh Qənizadənin sözünə üstünlük verdi. Saleh Qənizadə generalın sözündən xoşhal oldu. Baxışları məmnun ifadə aldı.

General əlini gözündəki qara eynəyə toxundurub, nazik dodaqlarını bir-birinə sıxdı və bir neçə dəqiqə susduqdan sonra:

- Ölünü özbaşına qoysan, kəfəni korluyar, - deyib, təşəxxüslə, bir qədər də narazı halda ayağa qalxdı. O, ev paltarını soyunub, formasını geyindi. İri bədənüma aynanın qabağında qalstukunu bağlaya-bağlaya:

- Siz istirahət edin, mən də bizim şöbəyə dəyib qayıdıram, yoldaşlar məni gözləyir. Onlara tapşırıqlar verməliyəm. Bəlkə elə iş çıxdı ki, gecikməli oldum. Onda məni gözləməyin, çay-çörəyinizi yeyin, yatın.

...İkinci gün məhbusların gəlib çıxması xeyli yubandı. Ona görə də məhkəmə prosesi günortaya yaxın başlandı. Kəbutər Yarəliyevin adı çəkiləndə, o özünə nə qədər güc verdi, ayağa qalxa bilmədi:

- Məndə kirdar qalıb?! - öz-özünə gileyləndi. İki nəfər irəli yeriyib, heydən düşmüş qocanı qaldırdı. Onun solğun sifətində qançırlar vardı. Gözlərinin altı köbələnmişdi. Sağ barmağının biri sarıqlı idi. Qoca bu gün ağır xəstəlik keçiribmiş kimi çox heysiz danışırdı. Bir neçə kəlmə deyib, dayanır, yenə ağır nəfəs ala-ala xırıltılı bir səslə sözünə davam edirdi:

- Elə o birinci dəfə nə yazıblarsa, onun üstündə dururam. Heylədir ki var. Dünən... Dünən nə danışmışamsa, heç özüm də bilməmişəm. Qocalıq belədi dəə, məndə huş-baş qalıb? Sonradan fikirləşdim ki, dünən dediklərimin hamısı səhvdir. Xahiş edirəm o danışdıqlarımı hesaba almayın. Əslində əhvalat belə olub. O vaxt bizi o Təhmiraz başdan çıxartdı. Allah ağlımı aldı, razı oldum, dedim gedək öldürək. O siftə bizi dindirən göyçək oğlan nə yazıbsa, hamısı düzdür. Ziyad Kərimlini aradan götürmək istəyirdik. Yaxşı ki, baş tutmadı. Allahı verdi, güllə boşa getdi. İndi qalanını da özünüz yazın. Nə yazsanız, razıyam. Burda dediklərimi təsdiq eləyirəm. Harada deyirsiniz, gətirin elə qabaqkı kimi barmaq basım.

Məhkəmə zalında pıçhapıç düşdü:

- Balam, bir gecənin içində bu kişiyə neylədilər?

- Dünən bu cür danışırdı, bu gün də başqa cür.

- Kişidə hey-zad qalmayıb...

Bu pıçıltılar hakimin də qulağına çatdı. O, yaranan şübhəni pərdələmək üçün:

- Müttəhim Kəbutər Yarəliyev, bu gün biraz ağır danışırsan. Bəlkə xəstələnmisən? Xəstələnmisənsə, həkim çağıraq.

Qoca xırıltılı, kal səslə:

- Yox, yox, möhtərəm məhkəmə, maa heç-zad olmayıb. Hamısı da yaxşı adamlardı. Heç kimdən gileyim yoxdur. Bir az başım ağrıyır. Orda dərman veriblər, keçib gedər. Dərman da yaxşı dərmandır. Ağlınıza ayrı şey gəlməsin. Məni döyüb-eliyən olmayıb. Heç kim, heç kim! Güldən ağır söz deyən olmuyub. Qıldığım haqqı, heç kim! məni incidib eləməyiblər. Heç iynə də vurmayıblar. Sağ olsun, hamısı ədalətli adamlardır! Hamısı! Hamısı! Elə Siz də, prokuror da, ömrünüz uzun olsun. Əvvəl-əvvəl nə yazmışamsa, hamısı o cür olub.

Məhkəmə zalında əyləşənlər bir-birinə dəydi. - "Deyəsən kişinin başına hava gəlib", "Dünənki danışıq hara, bugünkü hara?", "Allah sirr açmayıb, kim bilir, gecə onun başına nə oyunlar gətiriblər".

Prokurorun kefi duruldu. Məhkəmə sədrinin də eyni açıldı. O, səs-küyü sakitləşdirib, məhbuslara tərəf döndü:

- Müttəhim Səxavət Mehrəliyev, buyurun, - dedi. - Əvvəlcə nəzərinizə çatdırım ki, Sizin ilk ifadənizlə dünən dediklériniz ziddiyyət təşkil edir. Bura ədalət məhkəməsidir. Yaxşı-yaxşı fikirləşin. Konkret bir fikrin üzərində dayanmaq lazımdır. Nahaq nala-mıxa vurursunuz. Düzü nədir, onu deyin. Bəli, bəli, yalnız düzünü! Bura ədalət məhkəməsidir, düz danışmaq lazımdır!

Səxavət Mehrəliyevin baxışlarında müəmmalı bir ifadə vardı. Sanki gözlərindəki həyat əlamətləri sönmüşdü. O, qıc kimi olmuşdu. Don vurmuş adamlar kimi dillənə bilmirdi.

- Niyə susmusunuz, sözünüzü deyin! - Hakim ona acıqlandı.

Səxavət hakimə tərəf döndü. Lakin onun səsini eşitsə də, elə bil üzünü görmürdü. Müttəhim huşsuz kimi ayaq üstə xeyli donub qaldı və birdən səntirləyib aşdı. Onun qırxılmış başı kürsünün dəmir cağına dəydi. Zaldakı qohum-əqrəbası təşvişlə qışqırıb müttəhimə yaxınlaşmaq istədilər. Mühafizəçilər tez

araya girib onlara imkan vermədi. Hakim qabaqdakı mühafizəçiyə işarə vurdu. İki nəfər mühafizəçi Səxavət Mehrəliyevi yerindən qaldırdı. Lakin o, müvazinətini yenə itirdi. Məhbusa sakitləşdirici dərman və su verdilər. Səxavət Mehrəliyev han-dan-hana özünə gəldi. Bu dəfə o, birtəhər ayağa qalxdı. Harası sancırdısa, tez-tez əlini boş böyrünə tərəf, qabırğasının üstünə və gicgahına aparırdı. Səxavət Mehrəliyevin gözləri birdən-birə işıqlandı. O, canını birtəhər dişinə tutub, şax dayandı.

- Buyurun, buyurun, müttəhim Mehrəliyev, similyantlıq eləmək lazım deyil, - məhkəmə sədri onu ifadə verməyə təhrik etdi.

- Möhtərəm hakimlər, dünən başqa cür danışdım, özüm də boynuma alıram ki, çox səhv danışdım. Nə bilim, bəlkə başım xarab olub. Onu həkimlər yaxşı bilər. Bu gün özümü yaxşı hiss edirəm. Hamınız görürsünüz ki, çox gümraham. - Səxavət Mehrəliyev sözünə davam etdi. - Bəli, mən doğrudan da əla atıcıyam. Onu dana bilmərəm. Yenə də təkrar edirəm. Melkikaliber tüfənglə aralıdan spiçka çöpünü vuraram. Mənə bələd olanların hamısı bunu təsdiq edə bilər. İş orasındadır ki, Ziyad Kərimliyə ov tüfəngi ilə atəş açmışam. On altı kalibrli ov tüfəngi ilə. Möhtərəm hakimlər, Siz də, elə burada əyləşənlər də düşünə bilərsiniz ki, tuşladığı nöqtəni tapança ilə dəqiq vuran bir adam, içərisində bir xışma qırma olan tüfənglə niyə hədəfi düz tuşlaya bilməsin? - Səxavət Mehrəliyev uydurma sözlərlə burada əyləşənləri aldatmağa çalışdığı üçün daxilən öz-özünə nifrət edir və xəcalətindən hakimdən başqa heç kimin üzünə baxa bilmirdi. Hamı başa düşürdü ki, o, indi boğazına iti xəncər dirənmiş və əsl vəziyyəti danışacağı təqdirdə başı bədənindən üzüləcək qurbanlıq qoyun vəziyyətindədir. Mən ovçu mağazasından hazır karton patron yox, həmişə piston, barıt, qırma, boş gilaz alıram. Bir sözlə, patronları özüm doldururam.

Səbəbi də odur ki, hazır karton patron bir dəfə atılandan sonra tullanmalıdır. Çünki artıq heç nəyə yaramır. Dəmir gilizləri isə neçə dəfə istəsəm, təkrar-təkrar doldurub atıram. Külfət sahibi olduğum üçün hazır patron almaq mənə əl vermir. Ziyad Kərimliyə atdığım güllənin gilizini də özüm, öz əlimlə doldurmuşam. Nə çətin şeydi ki?! Barıt, üstündən bir az keçə və ya kağız qırıntısı, sonra da qırma! Qurtardı, getdi! Patron oldu hazır. Ancaq tələsdiyimdən, yanılıb. Ziyad Kərimliyə atdığım güllənin barıtını artıq qoymuşam. O vaxt tərs kimi ölçü qabı itmişdi. Buna görə də barıtı gözəyarı qoymuşdum. Burada oturanların arasında ovçu varsa, sözümü təsdiq edə bilərlər. Patronun barıtı artıq olanda heç vaxt düz vurmaz. Güllə açılanda tüfəngin qundağı möhkəm təpir, lüləsi yuxarı tullanır, hədəf itir. Onda atılan giliz hətta şişir də. Ziyad Kərimliyə atdığım patronların gilizləri nəinki şişmişdi, barıtı çox olduğu üçün hətta çat vermişdi. Ona görə də həmin gilizləri tulladım getdi. Ancaq təəssüf edirəm ki, hara tulladığımı unutmuşam. Ziyad Kərimliyə atdığım güllənin boşa çıxmasının səbəbi, bax budur! O ki qaldı maşına tökülən qırmalar, bu, mənimki deyil. Ola bilsin ki, Təhmiraz Tahirovun gülləsindən çıxan qırmalardır. Çünki mən patronları dovşan, canavar üçün doldurmuşam. Qırmaları çox iri idi. Maşından tapılan isə quş qırması idi.

Səxavət Sehrəliyev danışdığı yerdə qəflətən əyilib böyrünü tutdu. Xeyli hərəkətsiz qaldı və yenə də özünü düzəldib:

- Bağışlayın, məndə belə şeylər olur, - dedi. - Ağlınıza ayrı şey gəlməsin, bu sancı uşaqlıqdan məndə var, hərdənbir tutur. Eybi yoxdur, narahat olmayın, keçib gedər...

Ötən gün, məhkəmənin gedişində mübahisə doğuran hər hansı kiçik məsələyə inadkarlıqla müdaxilə edən vəkil də, bu bir gecənin içində çönüb başqa məxluq olmuşdu. İndi o da dünənki kimi müttəhimlərdən ötrü canfəşanlıq etmirdi. Müttəhimlər də,

onların müdafiəçiləri də qəfil bir selin burulğanında çabalayıb, əldən düşən və sonra da bulanıq suyun üzündə ləngərlənə-ləngərlənə axıb gedən cansız cəsədləri xatırladırdılar. Müttəhim kürsüsündə əyləşənlərin hamısı Ziyad Kərimliyə qəsdin iştirakçısı kimi ilk istintaq zamanı verdikləri ifadəni təsdiq edirdilər. Bircə qalırdı terrora başçılıq edən adam. O isə - bütün bunlar Ziyad Kərimli ilə generalın fitvasıdır, - deyib durmuşdu.

...Məhkəmə prosesi aydan artıq çəkdi. Təhmiraz Tahirov məhkəmə tərəfindən axırıncı dəfə dindirilirdi. Onun gözlərinin altında, çənəsində, boğazında qara ləkə yerləri vardı. Ancaq o, məhkəmə qarşısında yenə də özünü sındırmırdı. Başını dik tuturdu. Təkəbbürlü, cürətli görünürdü. Onun tikanlı sözləri hakimi bezdirmişdi. Hakim onu axırıncı dəfə ayağa qaldırdı və:

- Nəhayət, Siz düzünü boynunuza alacaqsınız, ya yox?! - soruşdu.

Təhmiraz Tahirov onun sözünü eşitməzliyə vurdu və dillənmədi.

Hakim təkrar etdi:

- Bir belə dəlil-sübutlardan sonra nə deyə bilərsiniz? Özcə doğma qardaşın da, qaynatan da, yeznən də, qonşun da, bütün şahidlər də, topladığımız sənədlər də Sizin Ziyad Kərimlinin qətlə yetirmək qəsdində olduğunuzu təsdiq edir.

- Möhtərəm hakimlər, bütün bu fəxrlə dediklériniz, haqqımda ifadə verənlərin ürək sözü yox, Ziyad Kərimli ilə generalın fitnəkarlığından irəli gələn çirkin etiraflardır. Bu cür etiraflara əsaslanıb, gur bir səslə bəyan edəcəyiniz hökmdən sonra, adamların qəlbində Sizə qarşı yaranan nifrət hisslərini duymaq fəhminiz olsaydı, bəlkə də başınızı qaldırıb burada əyləşənlərin üzünə baxmaq üçün özünüzdə cəsarət tapa bilməzdiniz...

Məhkəmə onun sözünü kəsdi:

- Müttəhim Təhmiraz Tahirov, - dedi. - Bizə qəzəl oxumayın, sualıma konkret cavab verin. Aydan çoxdur məhkəmə prosesi gedir. Dövlət xadiminə qəsd hazırlanmasına başçılıq etdiyiniz artıq bəllidir. Ancaq Siz günahkar olduğunuzu boynunuza almaq istəmirsiniz.

- Sözümü dedim! Yanımdakılar sayağı, məni özünüzə lazım olan tərzdə ifadə verməyə təhrik etmək cəhdiniz əbəsdir.

- Çox arxayın danışırsınız, - hakim onu ağlı özünü idarə etməyən zavallı zənn edib, təəssüflə başını buladı.

- Çünki ümid şamım sönməyib, möhtərəm hakimlər!

O tərəfdən prokuror dilləndi:

- Müttəhim Tahirov, hərəkətləriniz xəyalpərvər adam təsiri bağışlayır.

- Xəyalların bir çox hallarda həqiqətə çevrildiyinə az təsadüf etməmişəm.

- Müttəhim Tahirov, söz güləşdirməyin, əyləşin. - Hakim mübahisəyə yekun vurdu.

* * *

...Nazim İlhamın yaşadığı evin yolu mədəniyyət evinin qarşısındakı mərkəzi meydandan keçirdi və Məhkəmə iclası başlayan gündən bu iblis səhnəsində cərəyan edən hadisələri eşidib-görüb əsəbiləşməmək üçün yolunu ayrı səmtdən salmışdı. O, başını qatıb məhkəmə oyununu yadından çıxartmaqdan ötrü tez-tez vilayətin kənar şəhər və rayonlarına gedir, bəzən üç-dörd günlərlə evə qayıtmırdı. Əlacı olsaydı, məhkəmənin getdiyi günlər vilayət mərkəzinə ayaq basmazdı. Orda gedən əcaib söz-söhbətləri eşitdikcə, saatlarla özünə gələ bilmirdi. Axşamlar dərmanla yatırdı.

* * *

İki aya yaxın davam edən məhkəmə prosesi axır ki, başa çatdı. Hakimin hökmü oxundu. Təhmiraz Tahirov on beş il, onun qaynatası Kəbutər Yarəliyev və yeznəsi Səxavət Mehrəliyevə hərəsi on il, qalanları isə beş ildən yeddi ilə qədər azadlıqdan məhrum olunmaq cəzasına məhkum edildilər. Zaldakıların həqarətli baxışlarından hakimlərə qarşı amansız nifrət yağırdı. Bir neçə adam təhqiramiz sözlər deyə-deyə hakimin üstünə hücum çəkdi. Mühafizəçilər araya girməsəydi, Allah bilir, burda nələr baş vermişdi. Xalq iclasçıları, məhkəmənin sədri, prokuror bir-birinə qısılıb, tükürpədici qışqırıq, qarğış, nalə sədaları altında birtəhər aradan çıxdılar.

Onlar yemək-içmək, istirahət etmək üçün xüsusi şəraiti olan qonaq evinə daxil olanda, general məhkəmə sədri ilə prokuroru Qarsın qalasını almış fatehlər kimi gülər üzlə qarşıladı...

Saleh Qənizadə elə həmin gün Bakıya qayıtmalı idi. Onun üçün yumşaq vaqona bilet alınmışdı. Generalla hakim də həmin vaqonla getməli idilər. Ancaq kupeləri ayrı-ayrı idi. Saleh Qənizadə Nazim İlhamla xalaxətrin qalmasın mülahizəsi ilə görüşüb xudahafizləşmək üçün onun kabinetinə getdi. Şən əhval-ruhiyyə ilə içəri daxil oldu və:

- Nazim, axır ki, qurtardı, - dedi. - Amma ağır məhkəmə idi. Siftə müqəssirlər çox atılıb-düşdülər ki, boyunlarından atsınlar. Ancaq bir şey çıxmadı. Malades! Məhkəməni belə bilməzdim. Çox usta adamdır. Hamısını quzu kimi oturtdu yerinə. Qlavnılarının kürəyinə on beşcə il yapışdırdılar, qalanlarının da hərəsinə beş ildən on iləcən verib, ötürdülər içəri. Mollazadə bilirmiş də, gələndə hamısını mənə danışmışdı. Onun ağzından nə çıxmışdı, o cür də oldu. Nazim, xətrinə dəyməsin, çox dayaz adamsan. Məhkəmənin gedişinə diqqətlə qulaq asdım. Sənin dediklərinin biri də düz çıxmadı. Gərək elə əvvəldən

Mollazadəyə qulaq aseydin. Bir də ki, Mollazadə, necə olsa, redaktordur. Onun bir ayağı Sekadadır. Siyasətdə biz redaktora çata bilmərik. Sənin zəhlən getsə də, mənim o kişiyə böyük hörmətim var. Asta-usta, hər şeyi ölçüb-biçən, qəzetçiliyinə də söz yoxdur. Samı qlavnı, çox uzaqgörən adamdır. Mollazadənin ayağı biləni bizim başımız bilməz. Onu əvvəl-axır böyüdüb Sekaya-zada aparmasalar, bil ki, dünyada heç nə qanmıram. General onun haqqında mənə elə sözlər dedi ki, prosto heyran qaldım. Kişinin yuxarılarda böyük hörməti varmış. Sən nahaq yerə o cür ağır-ağayana adamla söz güləşdirirsən. Bunun axırı pis olar. Onun qabağında sən, mən nəyik? Heç nə! İxtiyar əlindədir. İstəsə, bir günün içində ikimizi də çürük diş kimi çıxardıb atar bayıra.

Nazim İlham:

- Bugünkü qəzetlərdən xəbərin var? - məzəmmətli baxışları ilə ona nəzər yetirdi.

- Yoox, necə? Desəm ki, başım bu məhkəməyə qarışandan bəri radiodan, qəzetdən xəbərim yoxdur, inanmazsan.

Nazim jurnalın altındakı təzə qəzeti şöbə müdirinə uzatdı:

- Al, oxu, - dedi. - Birinci səhifədədir, baş məqalənin altında.

Saleh Qənizadə tez qəzeti üzünə tutdu: - "Respublika qəzetinin redaktoru Miriş Mollazadə işdə yol verdiyi ciddi nöqsanlara və kollektiv arasında nüfuzunu itirdiyinə görə vəzifəsindən azad edilmişdir".

Qənizadə gözlərinə inanmadı. Həmin məlumatı təkrar-təkrar oxudu və öz-özünə:

- Sən bir işə bax ey, Mollazadə yatsa, yuxusuna da girməzdi ki, birdən-birə onun başına bu iş gələr, - deyib, tez də sözünü dəyişdi. - Bilirdim də, axırı belə olmalıydı. Mən bunu çoxdan gözləyirdim. - Saleh Qənizadə əlavə etdi və dodağını yana əydi. - Çox redaktorla işləmişəm, amma belə əfəlini görməmişəm.

Özü də çox əcaib xasiyyəti var, bir söz deyəndə, mat-mat adamın gözünün içinə baxır. Nə hə deyir, nə də ki, yox. Sifətdən sakit, yazıq, fağır görünməyinə baxma, qarnının altını bilmək olmur. Yaxşı deyiblər ki, suyun lal axanı, adamın yerə baxanı. Çox tük üzü içəri adamdır. İdarədə hamının ondan zəhləsi gedir. Biri elə mən özüm! Üzdə bəli, baş üstə deməyimə baxma, görən gözüm yox idi. İki gülləm olsaydı, birini onun başına çaxardım. Gözlərinə dönüm, amma neyniyiblər?! Ürəyimdən tikan çıxdı.

Saleh Qənizadə nəfəsini dərib, boğazını Nazim İlhama tərəf uzatdı və xüsusi maraqla:

- Mən ölüm, ucundan-qulağından danış görüm, necə oldu ki, hərifin xoruzunu qoltuğuna verdilər? - soruşdu. - Sən bilməmiş olmazsan.

Nazim laqeydcəsinə çiyinlərini çəkdi:

- Redaksiyadan bir yoldaş zəng vurmuşdu. Onun deməsinə görə, işçilər üzünə dirənib. Mollazadə səhər-səhər idarəyə gələndə qapını kəsib, kabinetə buraxmayıblar. Aranı qarışdıranların da əksəriyyəti özünə məhrəm bilib işə götürdüyü cavan-cuvan jurnalistlər olub. Bir nəfər Mollazadənin üzünə açıqca deyib ki, sizin kimi müəllimin tələbəsi olduğum üçün xəcalət çəkirəm. Məsələ də yuxarılara çatıb. Yoxlayıb redaktorluqdan xaric ediblər.

- Ondan dərs alan tələbə ayrı cür ola bilməz. - Saleh Qənizadə dilləndi. Mollazadə universitetdə müəllim işləyəndə, hamı onu sakit, nəzakətli insan kimi tanıyırdı. Vəzifə məhək daşıdır. Redaktor olandan sonra bütün eybəcərlikləri üzə çıxdı. Görəsən bu təzə gələn, necə adamdır!

- Deyə bilmərəm. Adını eşitmişəm, üzünü görməmişəm. - Nazim İlham istehza ilə gülümsündü. - Sizə nə var, - dedi. - Haqqın yolunu tapmısınız. Gələnin qılığına girib, gedənin arxasınca qılınclamaq köhnə adətindir. Narahat olma, təzə redaktora

da bir yol taparsan. Səndə ki o dil, o fel var, ilanı yuvasından çıxararsan.

Bu söz Saleh Qənizadəyə bərk toxundu. Şöbə müdirinin ətli sifətinə xəfif qızartı çökdü. O, əlini üzünə vuraraq həyəcanla:

- Bu ölsün düz danışmırsan! Mənim Mollazadədən əvvəldən zəhləm gedirdi. Niyəsini də qoy deyim. O, bizdə redaktor işləyə-işləyə atası meyvə qəbulu məntəqələrində hambal kimi tara yeşikləri daşıyıb, gündə üç manat dilənçi pulu alırdı. Sonra da məsciddə mollalıq eliyib, nəzir-niyaz yığırdı. Axırda da yığılan nəziri bölmək üstə, mollalarla dalaşanda dözmədi, ürəyi partladı. Bir də ki, atasının qədrini bilməyən, jurnalistin qədrini nə bilər?!

Nazim İlham əsəbiləşdi:

- Saleh, - dedi. - Mollazadə barədə, əvvəla, obyektiv fikir deməkdə çox gecikmisən. İkincisi də, bu sözləri gedin elə adamın yanında deyin ki, təzə redaktorun qulağına çatsın, zəhmətiniz hədər getməsin...

Saleh Qənizadə gördü ki, Nazim İlhamla sözləri düz gəlmir, o söhbətin üstündən addadı və vəcdlə:

- Amma bu məktub yaman sensasiya doğuracaq, - dedi. - Gəlsənə, Sizin də imzanızı qoyum?

- Yazacağınız məhkəmə oçerkinin təkcə sensasiya yox, həm də zərrə qədər rəğbət doğuracağına əmin olsaydım, məmnuniyyətlə Sizinlə razılaşardım.

Saleh Qənizadə Nazim İlhamın onu kəlməbaşı tikanlı sözlərlə sancmasından yaxa qurtarmaq üçün saatına baxdı və:

- Vay! Yaxşı deyiblər ki, danışıq dananı qurda verər. İndi general məni gözləyir. Qatara gecikdim. - O, ayağa qalxdı.

Nazim İlham da stulundan dikəldi və təmkinlə:

- Tələsirsinizsə, gedin. Vağzala gəlib, Sizi ordan yola salaram.

- Yox, yox! - Saleh Qənizadə ona etiraz etdi. - General-zad

da ordadır. İstəmirəm, bizi bir yerdə görsünlər. Bilirsən də, o generalın səndən xoşu gəlmir. Nə lazım, canım, elə burda! Burda görüşdük, kifayətdir! Bir də əziyyət çəkib gəlmək lazım deyil. - O, Nazimə əl uzatdı. - Xahiş edirəm, incimə! Di xudahafiz, mən getdim.

* * *

Saleh həvəslə yazdığı məhkəmə oçerkini əvvəlcə oxumaq üçün generalın yanına getdi. General məqalənin həcmini nəzərdən keçirib:

- Geniş yazmısan, - dedi. - Qəzetdə bu genişlikdə materiala yer verərlərmi? - Eybi yoxdu. Biz deyəndən sonra ağızları nədir? Tapşırarıq yazınızın hamısını ixtisarsız-zadsız dərc eləyərlər. - General bunu deyib, eynəyi gözünə taxdı. Və Saleh Qənizadənin yazısını diqqətlə oxumağa başladı. Məqalədə Ziyad Kərimlinin dövlət qarşısındakı xidmətləri göylərə qaldırılmışdı. Təhmiraz Tahirov yaramaz, əclaf bir adam kimi təsvir olunmuşdu. Ziyad Kərimliyə qəsdin üstünün açılmasında istintaq işinin peşəkarlığına xüsusi yer verilmişdi. Burada generalın fəaliyyəti ayrıca qeyd edilmişdi. Xalq hakimlərinin çıxardığı hökm haqqın-ədalətin təntənəsi kimi mənalandırılmışdı. General məhkəmə oçerkini oxuyub qurtarandan sonra başını qaldırıb Saleh Qənizadəyə məmnunluqla:

- Mejdu proçim, yaxşı yazmısınız, malades! Xoşum gəldi! Okazıvayetsya, papaq altında oğullar varmış. - General onun qoltuğuna verdi. - Redaktorunuz da ki, təzədir, - əlavə etdi. - Pis yoldaşa oxşamır. Onu təbrik edim və həm də deyim ki, məqaləni ləngitməsin, tez versin.

General bunu deyib, hökumət telefonuna əl atdı və cəmi üç rəqəm yığdı. Redaktor cavab verdi. General vəzifəsinə xas olan əda ilə:

- Şadər Şamiloviç, salamlar! Gec də olsa, Sizi təbrik edirəm, - dedi. - Ruslar demişkən, luçşe pozdno, çem nikoqda. Bu vəzifəyə gəlməyinizi eşidəndə çox şad oldum. Məlumatı ilk dəfə qəzetdə oxudum. Onda komandirovkada idim. Bir məsələyə görə Sizi narahat etdim. Şöbə müdiriniz də yanımdadır, Saleh Qənizadə. Yaxşı da yoldaşdır. Onu belə bilməzdim. Gözəl qələmi varmış. Yəqin ki, xəbəriniz olmamış deyil. Neçə aydır, Ziyad Kərimliyə qarşı törədilən cinayət işi ilə məşğuluq. Axır ki, birtəhər qurtardıq. Bizim bu yoldaş Qənizadə də məhkəmədə iştirak edirdi. Pis də yazmayıb. İndicə onu oxuyurdum, xoşum gəldi. Sizdən xahişim odur ki, bu məqaləni gecikdirməyin, mümkün qədər tez verin getsin.

Redaktor telefonda ona nə dedisə, generalın keyfinə soğan doğrandı. Ancaq özünü o yerə qoymadı. Saleh Qənizadəyə tərəf yönəldi:

- Hər halda deməyim yaxşı oldu. Qoy bilsin ki, maraqlanırıq. Siz özünüz də tələsdirin, məqalə tez getsin. - General bunu deyib, Saleh Qənizadəyə əl uzatdı. - Sizi bəri başdan təbrik edirəm. Yaxşı yazmısınız. O neqodayların lap atasını yandırmısan. - Hi... hi.. - təkəbbürlə güldü.

* * *

... Saleh Qənizadə "Ədalətli hökm" başlığı altında hazırladığı səhifə yarımlıq məqaləni elə həmin gün redaktorluğa təqdim etdi. Şadər Hacızadə məhkəmə oçerkini oxuyandan sonra müəllifi yanına çağırdı.

Əlliyə yaxın yaşı, çəlimsiz bədəni, səmimi danışığı, sadə geyimi, iti baxışları olan və ağarmış gümüşü saçlarını bir qayda olaraq həmişə yana darayan Şadər Hacızadə məşəqqətli həyat yolu keçmişdi. Ata-anasını erkən itirdiyindən ögey əmisi ona pasiban durmuşdu. Ağır həyat şəraiti, orta təhsilini başa vur-

mamış onu əmək fəaliyyətinə başlamağa vadar etmişdi. Ərizə yazıb könüllü Vətən müharibəsinə gedib, neçə-neçə ordenmedalla geri qayıtmışdı. Ağır talenin sərt rüzgarı Şadər Hacızadəni o qədər də arzusunda olmadığı mətbuat aləminə atmışdı. Mətbəədə kuryer, mürəttib, korrektor, ədəbi işçi, müxtəlif qəzetlərdə şöbə müdiri, məsul katib... İndiki vəzifəyə respublikanın nüfuzlu jurnalının redaktor müavinliyindən gəlmişdi. Mətbuat işçiləri arasında bir sözlü, bir sifətli, ötkəm jurnalist kimi tanınırdı. Arabir kiçik həcmli hekayələr də yazırdı. Vəzifə üçün də onun-bunun qabağında gündə min dəfə ölüb-dirilənlərdən deyildi. Ev-eşiyindən, arvad-uşağının üst-başından kasıbçılıq yağırdı. Var-dövlət hərisliyindən çox-çox uzağıdı. Onunku elə-belə gündəlik yemək-içmək idi. Tanış-bilişləri hərdən bu barədə onu danlayanda deyirdi ki, mənə bu da artıqdır.

Redaksiyanın başqa işçiləri kimi, Saleh Qənizadə də təzə redaktorun barəsində az-çox eşitmişdi. Ancaq onunla yoldaşlıq etmədiyi üçün, nə xasiyyətdə olduğunu bilmirdi. Şadər Hacızadə şöbə müdirini qəbul edəndə ilk sözü bu oldu:

- Saleh müəllim, məqalə çox uzundur, onu oxumağa hövsələ lazımdır.

- Əksinə, general başqa cür dedi.

- Nə dedi? - redaktorun sifəti dəyişdi.

- General məqaləni bəyəndi, həm də dedi ki, bunu genişləndirmək də olardı.

- Jurnalist qələmə aldığı yazının məmurlar, generallar yox, oxucu kütləsi tərəfindən necə qarşılanacağını düşünməlidir. - Redaktor bunu deyib, şöbə müdirinə qınayıcı nəzər saldı.

Şöbə müdirinin sifəti allandı. Və səsi bir qədər zəiflədi:

- Düzdür, Şadər Şamiloviç, - dedi. - Bundan sonra səhvimizi düzəldərik.

Şadər Hacızadə məqalənin axırıncı vərəqini açıb Saleh Qənizadənin imzasına baxdı və soruşdu:

- Bizim o zona üzrə xüsusi müxbirimiz kimdir?

- Biri var, Nazim İlham, özündən razı!

- Yaxşı, o, sizinlə birlikdə məhkəmə prosesində iştirak etməyib? Bəlkə məzuniyyətdə... xəstə-zad... Redaktor təəccüblə soruşdu.

- Nazim İlham ordaydı, Şadər Şamiloviç, gündə-günaşırı da görüşürdük. - Saleh Qənizadə cavab verdi.

Şadər Hacızadə gülümsündü:

- Mənnən o cür rəsmi danışmayın, elə Şadər, Şadər müəllim desəniz, kifayətdir. Mən rəsmiyyətçiliyi sevmirəm. Axı, yad adamlar da deyilik. Bir kollektivin üzvüyük. Aramızda böyük bir yaş fərqi də yoxdur. Redaktor, şöbə müdiri kimi açıq, səmimi danışmalıyıq. Bunları ona görə soruşuram ki, müxbir xidmət etdiyi zonanı bizdən yaxşı tanıyır. İkincisi də, redaksiyadan ora gedən işçi, zona başçısının başı üstündən məqalə yazsa, onun yerdə nə hörməti olar?

- Şadər müəllim, açığını deyim ki, onu çox dilə tutdum, hətta Sizdən əvvəlki redaktor, yoldaş Mollazadənin özü də nə qədər məcbur elədi. Nazim İlham məhkəməyə gəlmədi. Nə isə, bizdən uzaq qaçırdı. Onun bu hərəkəti generalı da şübhələndirmişdi. Özünə də demişəm. Hətta imzasını qoymağa da razılıq vermədi.

Şadər Hacızadə tutqun üfüqdəki qaraltıya baxırmış kimi gözlərini qıyıb, ani fikrə getdi və soruşdu:

- Bu necə ola bilər? Xüsusi müxbir redaktorun sözünə baxmasın, şöbə müdirini eşitməsin? Qəribədir, - redaktor başını yırğaladı.

- Bilirsiniz, Şadər müəllim, açığı, o Nazim İlham çox çətin adamdır. Bildiyini dədəsinə də verən deyil. Bir az da qələmi var,

göynən gedir, heç kəsi də saymır. - Saleh Qənizadənin dərdi açıldı. - Özünü də zonada sən deyən yaxşı aparmır. General Nifaq Behbudov da, vilayətin birinci katibi Şirxan İsmayılzadə də ondan bərk narazıdı. Elə bir hörməti-zadı da yoxdur. Yoldaş Mollazadə bir az da qalsaydı, onu əkməliydi. Bir halda ki, söhbət açıldı, şöbə müdiri, kollegiya üzvü kimi deməliyəm. Nazim İlham orda qalsa, elə bir qazan qaynada bilər ki, tək Sizin yox, hamımızın başı ağrıya bilər. Təzə gəlmisiniz, amma adamları yaxşı tanımırsınız. Nazim İlhamın yazıları həmişə lazımsız dedi-qodu yaradır. Redaksiya o cür adamlardan nə qədər tez təmizlənsə, bir o qədər yaxşıdır. Elə bilməyin ki, Nazim İlhamla mənim aramda bir narazılıq var. Və ona pislik etmək niyyətindəyəm. Qətiyyən yox! Bunları Sizə kömək üçün deyirəm.

Redaktor onun dediklərinə münasibətini bildirmədi. Qısaca:

- Yaxşı, işinizdə olun, aydınlaşdırarıq, - dedi.

Saleh Qənizadə çıxandan sonra redaktor barmağını zəngin düyməsinə basıb, katibəsini çağırdı və ona belə bir göstəriş verdi:

- Nazim İlhamı tez tapın, sabah, uzağı birisi gün burada olsun.

Universitetin jurnalistika fakültəsində qiyabi oxuyub, burada katibə işləyən çəlimsiz qız - baş üstə - deyib, qapıdan çıxmaq istəyəndə, Şadər Hacızadə onu saxladı və soruşdu:

- Neçə ildir burada işləyirsiniz?

- Beş il olar.

- Bizim bu Nazim İlhamı necə tanıyırsınız?

Redaktorun onu sayıb fikir soruşması katibəyə qəribə gəldi. O, tərəddüdlə:

- Nə deyə billəm, mənə qalsa, onun məqalələri xoşuma gəlir. Redaksiyada üç-dörd yaxşı yazan varsa, biri elə odur. Xasiyyəti-

zadı da yaxşıdır. Sadə, səmimi. Ancaq bir az... Katibə bunu deyib susdu.

- Sonra nə? - Redaktor sualedici baxışlarını ondan çəkmədən cavab gözlədi.

- Bir az... belə də... vallah, nə deyim, özünə, işinə qarşı çox tələbkardır. Orası var ki, onu yolundan döndərmək çətindir. Bilmirəm, vallah, necə deyim, ee, düz çıxsın, o xasiyyətinə görə... Eşitdiyimə görə onu burdan çıxartmaq istəyirlər.

- Bunu kimdən eşitmisiz?

Katibə sarı kəfkiri o tərəf-bu tərəfə yellənən divar saatına baxa-baxa:

- Qabaqkı redaktorun öz dilindən eşitmişəm. İşçilərin də çoxu bilir. Mollazadə Nazim İlhamı çıxartmağa hazırlaşırdı. Yəqin siz də ona görə... - katibə bu sözü deyib, Nazim İlhamın halına yanmış kimi özündən asılı olmayaraq yazıqlaşdı.

Şadər Hacızadə onun nə demək istədiyini üz-gözündən oxuyurdu. O, katibəyə xoş dillə:

- Yaxşı, gedin, dediyim kimi, onu təcili tapın, gəlsin. Düzdür, bu, Sizə dəxli olan məsələ deyil. Mən elə-belə soruşdum. Bu barədə də heç kimə, heç nə deməyin. Redaktorla əməkdaşlar arasında işlə əlaqədar hər cür söz-söhbət olar. Müəyyən məqamlarda vəzifəsindən asılı olmayaraq, bütün işçilərin rəyi mənim üçün maraqlıdır. Bir də ki, gənc jurnalist kimi bilməlisiniz ki, düzgün nəticəyə gəlmək üçün hadisələrə məkr və hiylədən uzaq olan pak qəlbli gənclərin də gözü ilə baxmaq lazımdır. Bu dediklərimiz öz aramızda qalsın, aydındır?

Katibə:

- Bəli, - deyib, pörtmüş halda kabinetdən çıxdı və qoz ağacından olan cilalanmış qapını üslubca çəkib örtdü.

* * *

Nazim İlhamın başı çox çəkmişdi. Ona görə də bu çağırışdan da ağlı bir şey kəsmirdi. Fikirləşirdi ki, Mollazadəni onun barəsində o ki var doyurub yoldan çıxaranlar, yəqin təzə redaktorun da qulağını doldurmamış olmazlar. Xüsusilə də Şirxan İsmayılzadə ilə general Nifaq Behbudov, bir də ki, nə çoxdur redaksiyada bədxahlar. Saleh Qənizadə də ki, ayrı candır. Yerin yumşaq salmaqdan ötrü ikicə dəqiqənin içində dədəsini də baqaja qoyar. Oturub-duranlar yaxşı bilirlər ki, Saleh Qənizadə tikə dostudur. Onun çatısının üstünə odun yığmaq olmaz. Nazim İlham özlüyündə bütün bunları saf-çürük eləmişdi. Evdən çıxanda Səriyyəni qırağa çəkib, uşaqlardan xəlvət hər ehtimala qarşı həyat yoldaşını başa salmışdı... Səriyyənin də ailə başçısına cavabı bu olmuşdu:

- Bilirsən, Nazim, vallah, bu çörək deyil, yeyirik. Adam nə qədər xisəki çəkər? Uşaqların da günü-güzəranı qara olub! Dünyanı düzəltmək elə bircə sənə qalıb? Get, özün öz xoşunla ərizə ver, tüpür bu vəzifəyə. Müəllimlikdən halalı yoxdur. Əl-ələ verib, uşaqları birtəhər dolandırarıq. Bir tənqid yazırsan, bir ay altını çəkirik. Nə qədər olar?! Məni də xəstə salmısan. Əsəbiləşməkdən şəkər tapmışam. Sən bu yazı-pozuya qurşanan gündən səksəkə içində yaşayırıq. Hamının gözü qabağında bir dəstə adamı çığırda-çığırda döyüb, olmayan şeyi boynuna qoyan hökumətdən nə gözləyirsən? Özləri çıxartmasa da, ərizəni yaz! Nəyin bahasına olursa-olsun, ayağını dirə, de ki, işləmirəm, vəssalam! Bayaq dediyim kimi. Müəllimlikdən yaxşısı yoxdur. Azacıq aşımız, ağrımaz başımız. Səhərdən mən də canıma cəfa basıb, iki oklad dərs götürərəm. Yarım oklad dərs deyirəm, ürəyimə yatmır. Əli aşından da oluram, vəli aşından da. Ta bəsdir! Bir-iki il ömrümüz var, qoy onu rahat yaşayaq. Ürəyinə-zadına da salıb-eləmə. Uzağı çıxartmaq deyil, qoy çıxartsınlar,

maa xoşdur. Adam öldürməmisən, dəmir yolu dağıtmamısan. Ondan artıq sənə neyləyə bilərlər?

Nazim İlham qürurla güldü və əlini Səriyyənin uzun, qara hörüklərində gəzdirə-gəzdirə:

- Rəziyyə. - Nazim çaşdı və səhvini pərdələməyə çalışaraq. - Bağışlayın, Səriyyə xanım, - dedi. - Dünən yanıma Rəziyyə adlı bir qadın gəlmişdi, yaşlı qadındı. Çoxdan həkim işləyir. İş yerinin dəyişilməsindən şikayət edirdi. Mənnən iki saatdan çox cəhl sürdü. O qədər Rəziyyə xanım demişəm, indi də dilimdən düşmür.

Səriyyənin sürməsiz qaşları düyünləndi və incə bir etirazla:

- Axı kimdir bu Rəziyyə, yuxuda da bir-iki dəfə Rəziyyə demisən, yoxsaa... - işvə ilə gülümsündü.

- Yox, yox! Olur də. Hərdən əsəbiləşəndə... Siz mənə fikir verməyin.

Nazim İlham onun diqqətini Rəziyyə məsələsindən birtəhər yayındırdı:

- Məni çaşdırma, qatara gecikirəm, - dedi. - Bayaqkı söhbətin üstünə qayıdıram. Deməyim odur ki, çox dərinə getmək lazım deyil. Bu məsələni Sizə elə-belə məlumat üçün dedim ki, Bakıya nə üçün çağırıldığımı biləsən, mənim maralım! - Nazim onu əzizlədi. - Dövr elə gətirib ki, - əlavə etdi - indiki vəzifə sahibləri başlarını girləmək üçün məqamına görə tülkülənməyi də, şirə dönməyi də bacarmalıdırlar. Özün bilirsən ki, birincisi mənə yaddır. İkincisinə gələndə, həyat mübarizə meydanıdır, onu gələcək göstərər. Bir də ki, insan uğursuzluğa da tab gətirməyi bacarmalıdır. Döyüşü başa vurmayınca, qılıncı qına salmazlar. Güc haqqındır. Yalnız onun tərəfində dayananlar udurlar. O barədə mən sarıdan xatircəm ol.

- Yaxşı, yaxşı, sən Allah! Başına bəla açan elə bu cür dik danışmağındır, - Səriyyə bunu deyib, ömür-gün yoldaşının

əyilməzliyi ilə fəxr edirmiş kimi onun mərd və qətiyyətli duruşunu şəfqətlə süzdü. Nazim Səriyyənin tərtəmiz yuyub ütülədiyi yol paltarını səliqə ilə diplomat çantasına qoyub, evdən çıxdı. Səriyyə həyət balkonuna addadı. Və nigaran baxışları ilə Nazimi gözdən itənəcən müşayiət etdi.

...Nazim İlham təzə redaktorun kabinetinə tərəddüdlə daxil oldu. Lakin Şadər Hacızadə onu səmimi qarşıladı. Redaktor Nazim İlhamla vəzifəcən ondan asılı olan səlahiyyət sahibi kimi yox, sadə bir əməkdaş kimi rəftar edirdi. Şadər Hacızadənin açıq-saçıq söhbəti və özünü bu dərəcədə aşağı tutması, onu Nazim İlhamın gözündə təsəvvürəgəlməz dərəcədə ucaldırdı. Bu bir saatlıq söhbət ərzində redaktorla müxbir arasında vəzifə və yaş səddi götürülmüşdü. İndi onlar sərbəst, ürək açıqlığı ilə danışırdılar. Redaktor yüzillik dostu ilə dərdləşirmiş kimi:

- Nazim, bu bizim ilk görüşümüz olsa da, Sizin barənizdə eşitmişəm, - dedi. - Çayqovuşan rayonunda redaktor işləyəndən bəri başınıza gələnlərdən də xəbərdaram. Ancaq bu son hərəkətiniz mənim üçün qaranlıqdır.

- Siz nəyi nəzərdə tutursunuz?

- Xidmət etdiyiniz zonada baş verən hadisəni deyirəm, - redaktor mətləbə keçdi. - Ziyad Kərimli məşhur adamdır. Respublikada uşaqdan-böyüyə onu tanımayan yoxdur. Belə bir adama güllə atılıb. Bu işlə təhlükəsizlik orqanları, respublikanın bütün inzibati təşkilatları məşğuldur. Siz isə bu məsələyə biganə yanaşırsınız. Yoldaşların deməsinə görə hadisəyə münasibətiniz də anlaşılmazdır. Redaktorun, şöbə müdirlərinin fikirləri ilə hesablaşmaq istəmirsiniz. Hətta onların göstərişini belə qulaqardına vurur, tamamilə əksinə hərəkət edirsiniz. Bunu necə başa düşək?

- Şadər Şamiloviç, bu, dərin kökləri olan elə bir əhvalatdır ki, onu bir neçə kəlmə ilə izah etmək mənim üçün çətindir.

Ancaq bu gün gizli qalan sirr yaxın və ya uzaq gələcəkdə aşkar olmalıdır. Əməkdaşı olduğum qəzeti və onun redaktorunu oxucu tənəsindən xilas etmək üçün, bəzilərinin təbirincə desək, belə bir "yanlış" mövqe seçmişəm. Bir də ki, az yaşımda çox görmüşəm. Hiylə və haram sərvətlə qazanılan şöhrətin parıltısı çox çəkmir. Həm də var-dövlətin həddi, dərrakəsinin həddindən artıq olanlar xudbinləşirlər. Xudbinlik isə səfehlikdir. Məncə, Siz özünüz də rəva bilməzdiniz ki, nəyinsə xatirinə səfehlərin məddahı olum.

Şadər Hacızadənin sifəti təbəssümləndi və:

- Həyəcanlanmayın, - sakitcə dilləndi. - Mən Sizi diqqətlə dinləyirəm. Bir az sərbəst danışın.

...Nazim İlham danışdıqca redaktorun sifəti rəngdən-rəngə düşürdü. Onun daxili hiddətini anlamaq çətin deyildi. Nazim İlham eşitdiklərini, şahidi olduqlarını, bildiklərini, xüsusilə çox məxfi saxladığı kaset məsələsini təfsilatı ilə danışıb qurtardıqdan sonra redaktor əlini alnına söykəyib xeyli fikrə getdi. Sonra Saleh Qənizadənin qəzetin növbəti nömrəsi üçün hazırlanmış məhkəmə oçerkini könülsüz-könülsüz vərəqləyərək:

- Burada tamam başqa cür yazılıb, - dedi. - Bir qədər tərəddüd keçirdikdən sonra: - Əlbəttə, hadisələrin içərisindəsiniz. Sizin dediklériniz daha inandırıcıdır, xüsusilə o kaset məsələsi məni dəhşətə gətirir, - əlavə etdi. - Mən özüm də bir vaxt müxbir işləmişəm. Onda cavan idim. Peşəmiz çox çətindi. Düz yazanda başın ağrıyır, əyri yazanda ürəyin. - Redaktor bunu deyib Qənizadənin məqaləsini axıra qədər vərəqlədi. Sonra həmin məqaləni, arasında müxtəlif kağızlar olan köhnə qovluğun birinə qoyub, əlinin arxası ilə kənara itələdi və başını qaldırıb Nazim İlhama diqqətlə baxdı. - Bu dediklərinizi neçə günə yazıb mənə çatdıra bilərsiniz? - soruşdu.

- Uzağı iki günə.

- Bu elə bir ciddi, həm də məsuliyyətli məsələdir ki, tələsikliyə yol vermək olmaz. Məncə iki gün azdır.

- Şadər Şamiloviç, Sizi başa düşürəm. Ancaq məqalə başımda hazırdır. Onu yalnız kağıza köçürmək lazımdır. Sərlövhəsini də fikirləşmişəm.

- Bir məsləhətim də odur ki, şəxsi hisslərinizi kənara qoyun. Yazınızda qərəzçilik ab-havası hiss olunmasın. Bir də hər bir cümləniz vilayət ictimaiyyətinin fikrini tamamlasın. Xüsusilə də bu işdən xəbəri olanların. Bir sözlə, məqalədə əl ilişən yer qoymayın. Məqalə qəzet səhifəsinə çıxana qədər heç kəs bilməməlidir. Bunu da nəzərə alın. Kasetləri də etibarlı yerdə saxlayın, bərk ayaqda lazımımız olar...

- Aydındır, - Nazim İlham redaktora minnətdarlığını bildirib onunla xudahafizləşdi.

* * *

...Bir neçə gündən sonra Nazim İlhamın imzası ilə respublika qəzetində geniş məqalə dərc olunmuşdu. Məqaləyə iri, qara hərflərlə belə bir başlıq qoyulmuşdu: "Günahsız müqəssirlər, ədalətsiz hökm". Qəzet əldən-ələ gəzirdi. Məqalə respublikanın hər yerində əks-səda doğurmuşdu. Redaksiyaya çoxlu telefon zəngləri olur, ayrı-ayrı vətəndaşların imzası ilə yüzlərlə məktub və teleqramlar gəlirdi. Hamı generalla Ziyad Kərimliyə, bir də ki, məhkəməyə qəzəb və nifrətini bildirirdi.

Nemət Rəcəbli redaktorun adına göndərdiyi məktuba bu sözlərlə başlamışdı:

- "Günahsız müqəssirlər, ədalətsiz hökm" məqaləsini oxudum. Respublika jurnalistlərinin yaşlı nəslinə mənsub olan qələm sahibi kimi iftixar hissi keçirtdim. Mətbuat sahəsində yarıməsrlik bir yol keçmişəm. Bir neçə ildir təqaüddəyəm. Hamı

məni qələm əhli kimi tanıyır. İndinin özündə ədalətlə yazılan cəsarətli məqalələr mənə mənəvi ucalıq gətirir. Sevinirəm, yaşayıram, başımı dik tuturam. Həmin mənhus əhvalat barədə ən ədalətli hökmü Sizin qəzet verib. Bu, tək mənim yox, bütün vilayət ictimaiyyətinin fikridir. Hörmətli Şadər müəllim! Bir redaktor kimi Sizin məğrurluğunuza, cəsarətinizə, ədalətli mövqeyinizə heyran qaldım. Elə bil mənə yeni ömür bağışladınız, xeyli cavanlaşdım. Çünki mən bu hadisələrin içindəyəm. Nazim İlham kimi müxbirləri qoruyun. Çünki hər bir müxbir, xidmət etdiyi zonada mənsub olduğu qəzetin nüfuzudur. Həmin hadisələr yalnız Sizin redaktor olduğunuz qəzetin aynasında doğru-dürüst, ləkəsiz-boyasız əks olunmuşdur. Bu, mənim üçün bir təsəllidir ki, sələflərimin arasında bütün məşəqqətlərə tab gətirib, haqqın tərəfində dayanmaq, cürəti olanlar var... Sözdə, üzdə mətbuat demokratiyasından danışıb, əməldə ipimizi vuranların riyakarlığını çox görmüşəm. Bu məqalənin Sizə asan başa gəlməyəcəyini təsəvvür edirəm. Lakin güc haqdadır...

Tələbəlik illərində bir nəfər qızın üstündə Ziyad Kərimli ilə Təhmiraz Tahirovun arasında yaranan konflikt... Onların institut yoldaşı olan nazir müavininin, Təhmiraz Tahirovun fabrikə işə təyin olunması barədəki əmrinin havadan asılı qalması... Fabrikdəki çatışmazlıq... Canbir qəlbdə olan generalla Ziyad Kərimlinin eyş-işrətləri... Generalın hazırladığı terror ssenarisi... Gözətçinin qətlə yetirilməsi... Fotoqrafın bu faktı təsadüfən lentə alması... Saxta istintaq... Məhkəmə prosesinə generalın müdaxiləsi və sair... və ilaxır... Məqalədə bütün bunlar olduğu kimi təsvir edilmişdi. Dükan-bazarlarda, çayxanalarda, avtobuslarda gedən söz-söhbətin əsas mövzusu Nazim İlhamın məqaləsiydi. Bu barədə hərə bir söz, mülahizə söyləyirdi.

Məqalənin səsi-sorağı Ziyad Kərimlinin deputat seçildiyi və həm də onun doğulub-böyüdüyü, boya-başa çatdığı Xanbulaq kəndinə də gedib çatmışdı. Məqalə kənd camaatı arasında çaxnaşma salmışdı. Ağarmış topa saqqalı, hündür boyu, enli kürəyi olan dəmirçi Salmanın səsi kəndi başına götürmüşdü. Qəzet məsələsini eşidəndən bəri Salman kişinin ağzını yummaq olmurdu. Dükanın qabağında toplaşanlara üzünü tutub dişinin dibindən qopanı deyirdi:

- Bütün bu günahlar hökumətdədir. A kişilər, mazarrat Nəsirin oğlundan deputat olar? Ə, onun dədəsi Nəsiri tövləyə qoymurdular ki, qaşov oğurlayar! Nəsirin əlindən mərdimazarlıqdan başqa nə gəlirdi?! Siçandan olan dağarcıq kəsər! Ziyad dədəsinə beş təpik vurub. Kənddə oxuyanda müəllimlərin canını boğazına yığmışdı. Sizin maa andınız yoxdur. O gözəgörünməz haqqı, bax, bu Ziyad Kərimli evlənməli oğlanıdı. Onda hələ Bakıda oxuyurdu. İnstitutu qurtarhaqurtardaydı. Yayda düz iki dəfə maa samavar durbası düzəltdirdi. Onun birinin də pulunu vermədi. Əlimlə qayırdığım durbalar elə heylə havayı getdi. Qırmızı-qırmızı üzümə dirəndi ki, durbaların pulunu vermişəm. Yalandan da dədəsi Nəsirin göruna and içdi. Mən yetmiş üçün içindəyəm. O da məndən on-on beş yaş xırda olar. Bax, o əlləm-qəlləm xasiyyəti indinin özündə də var. Özü yekəlsə də, ağlı yekəlməyib. Yüz cür fırıldağnan da getdi oldu fabrik direktoru. O cür əməl sahibinin döşünə də bir ulduz asdılar ki, əmək qəhrəmanıdır. Dədəm it olsun ki, hamısı fırıldaqdır. İndi də dörd ildən bir, beş ildən bir rayondan gəlirlər ki, mazarrat Nəsirin oğlunu deputat seçin. Ay hökumət, özün yazırsan ki, deputat xalqın elçisidir. Ə, elə götürək bizim bu kəndi. Gözümüzü açıb görmüşük ki, elçi gedən yerdə qan bağlanar. Birinin işi düşəndə, abırlı-həyalı, görmüş-götürmüş, dərin-dərrakəli, hamıya yaxşılığı keçən, sayıb-seçilən ağsaqqalı

elçi salırlar ki, gəl bu küsülüləri barışdır, ya da ki, bu müşkül məsələyə bir əncam çək, boşuyub-boşananın başına ağıl qoy! Bu qan davasını yatır! Biz elçini belə görmüşük! İndi, a kişilər, harda bir azıb-təzən, nənəsinin əmcəyini kəsən var, dal-qabağımızı kəsib deyirlər ki, gəlin onu deputat seçək. Axırı da bu! Mazarrat Nəsirin oğlu, adın deputat qoya-qoya bax, gör neçə evə şivən salıb! Mənim o bacım oğlu onun fabrikində yazı-pozu işinə baxır. İdarənin bütün haqq-hesabı onun əlindən gəlib keçir. Fabrikin bütün cikini də bilir, bikini də. Bacıoğlu o mazarrat Nəsirin gədəsindən elə şeylər danışır ki, adamın ayağının altından yer qaçır. Deyir, dayı, mən də içində fəhlələrin əlacı olsa, Ziyad Kərimlinin qanını içər. Di gəl ki, hökumət gəlib kəsib qabağı. Gündə də döşündən bir medal asırlar. Qalmışıq içimizdən qırıla-qırıla. Genə deyirəm, təqsir hökumətdədir! Qoy bu sözün üstündə məni illaf bassınlar içəri. Oğraşlığın hamısı o yuxarıda oturanlardadır. Bir hökumətin ki, inanıb etibar etdiyi mazarrat Nəsirin oğlu ola, ondan əlini üz. Tez-gec bu hökumətin bu tifaqı dağılmalıdır. A kişilər, deməyin ki, dəmirçi Salman qocaldıqca ağlını itirir. Vallah-billah yox! O qəzetdəkiləri eşidib-biləndən bəri məni od götürüb! Bir heylə nər kimi adamı danaboyun elə, dilsiz-ağızsız mal kimi doldurt dama, balalarını da gözüyaşlı qoy, onu göydəki Allah da götürməz! Ə, mənim deputatıma bax, ey! O cür generalla, məhkəmənin boynuna ip tutun! Hökumət gör vəzifəni kimlərə verir ey! Dayağı mazarrat Nəsirin oğlu olan hökumət əvvəl-axır dağılmalıdır! Düz demirəmsə, atama lənət!

O tərəfdən üzünü təzəcə qırxdırmış və ayağında öküz gönündən üçburun çarıx olan çavış Gülmalı səsini qaldırdı:

- Salman kişi, başın bədəninə ağırlıq eləməsin, - dedi. - Ə, sənin mazarrat Nəsirin oğluynan, generalnan nə işin var? Qaldı ki, o məsələyə, çox bilirsən, az danış! İndi sən nə bilirsən

içimizdə generalın adamı yoxdur. Bu dediklərini sabah aparıb onların ovcuna qoysalar, çal vaxtında əlli-ayaqlı gedərsən.

- Çavuş Gülmalı, mənim hay-hayım gedib, vay-vayım qalıb. - Dəmirçi Salman onun cavabını verdi. - Sən özündən qorx! O ki qaldı qapı-qapı düşüb deyirdin ki, Kərimlini deputat seçirik, gəlin ona səs verin ha, o günlər yadından çıxıb? İndi gəl cavab ver görüm necə verirsən? Özü oğraşdır, oğraş da iş görür! İndi bizim Xanbulaq kəndinin günahı nədir ki, başımızı yerə soxdu?! O qəzeti oxuyanlar deməyəcəklər, Xanbulaqlılar nakişidir? Eşidib-bilən cəmdəyimizə tüpürəcək! Bax, məni ağrıdan odur! Yoxsa, mazarrat Nəsirin oğlu nə qələt qırır-qırsın, özü bilər! Mənim nəyimə lazımdır?!

Bayaqdan bəri çöməltmə oturub, deyilənlərə altdan-altdan qulaq asan kankan Nağı özünü saxlaya bilmədi. Əlində məşğulat elədiyi çöpü kənara tullayıb, hikkəynən ayağa qalxdı:

- Ə, çoxunuzun kişiliyi çatmır, danışanın da ağzından vurmayın, - dedi. - Dəmirçi olanda nə olar? Salman nə deyir, hamısı düzdür! Ziyad Kərimlinin yuxarılarda yalandan adı çıxsa da, o xasiyyətinə görə bu kənddə itcən hörməti yoxdur. Elə məni də ağrıdan odur ki, bizim bu xanbulaqlıların adını batırdı. Mənim o doqquzda oxuyan gədəm qəzeti oxuyandan özümə gələ bilmirəm. Onun o məhkəməsinə də, generalına da nifrət elədim.

Kankan Nağı sözünü deyib, üzünü o tərəfə döndərdi və deyinə-deyinə dükanın qabağındakı tünlükdən aralandı.

Bura toplaşanların içində Ziyad Kərimliyə simsar olanlar da vardı. Onların heç biri dillənməyə söz tapmırdı.Qəzet ətrafında söhbət qızışdıqca, Ziyad Kərimliyə səmt olanlar xəcalətlərindən başlarını aşağı dikib, bir-bir aradan çıxdılar. Xanbulaqlılardan biri də ağzını açıb, Ziyad Kərimlinin xeyrinə danışmırdı. Çünki kənddə üz yeri qoymamışdı... Bircə adam barmağını

qatlayıb deyə bilməzdi ki, Ziyad Kərimli filan vaxt ya xeyrimə yarıyıb, ya da şərimə.

Dükançı Mahmud əlində taxta arşın içəridən çıxıb zarafatyana:

- Ay Salman əmi, düzdü ey! Ziyadı kənddə uşaqdan böyüyə hamımız yaxşı tanıyırıq. İndi sən deyənə inanaq, yoxsa bu şəklin altındakı yazılara? - O, Ziyad Kərimlinin deputat seçilən vaxt dükanın qabağına vurulmuş köhnə şəklini göstərdi. - Plakatın baş tərəfində qırmızı hərflərlə "Vətənin ən layiqli övladlarını xalq hakimiyyətinə deputat seçək" sözləri yazılmışdı. Ortasında da Ziyad Kərimlinin şəkli. - İndi qəzeti də, yazıb-yazıb, nə biləsən sonrası nə olacaq? Qəzet azı əlli dəfə Ziyadı tərifləyib. Xata olmadı ki, bir dəfə də tənqid eləyiblər? Sabah bir də gördün, yenə bu qəzetdə həmin bu Ziyadı qaldırıb qoydular göyün yeddinci qatına. Bir gün də gəlib deyəcəklər onun heykəlini qoyun. Yəni deməyim odur ki, belə-belə yazı-pozulara inanıb, ağzınıza gələni danışmayın. Sonra bunun altını çəkərsiniz.

Altı aşıq boyu olan Törə Murad barıt dağarcığı kimi açıldı:

- Ə, Mahmud, tərəzi gözü güdəndən kişi çıxmaz, - dedi. - Sən də orda yuxa qulağı sulama. Elə bilirsən, qəzetdəkilərin hamısı düz toxumdur? Onların da içində biri var, bizim bu dəmirçi Salman kimi sözü kişiyana deyənlər! Biri də var sənin kimi qab dibi yalayanlar! Sən öləsən, mənim də bu işlərdən azçox başım çıxır. O yazan kimdisə, əlinə dönüm. Baltanı elə yerdən vurub ki, indən sonra mazarrat Nəsirin oğlu yağ da yesə, dirilməz. Axırın görərsən, bu bir - bu da iki. - Törə Murad əyilib barmağı ilə yerə çarpaz cız çəkdi.

Törə Muradın bu sözündən sonra ortalığa pərtlik düşdü. Bununla da mərəkə pozuldu. Onsuz da toran çağıydı. Hərə öz evinə dağılışdı. Bu axşam kənddə bütün söz-söhbət qəzetdəki

məqalədən, Ziyad Kərimlinin Xanbulaq camaatının ad-sanına yaraşmayan mərdimazarlığından, məhkəmənin ədalətsizliyindən, Təhmiraz Tahirovun başına gətirilən müsibətlərdən, zəmanənin namərdliyindən... gedirdi.

Məqalədən sonra redaksiyada vəziyyət gərginləşmişdi. Hər tərəfdən Şadər Hacızadənin üstünə düşmüşdülər. Vilayətin birinci katibi Şirxan İsmayılzadə, general, ali məhkəmənin sədri Şadər Hacızadəyə zəng vurub ona hədə-qorxu gəlmişdilər. Redaktor da necə lazımdı, cavablarını verib oturtmuşdu yerlərində. Bu dəfə onlar Sekadakıları qızışdırıb Şadər Hacızadənin üstünə salmışdılar.

Redaktorun müavinləri, məsul katib, şöbə müdirləri hər gün olduğu kimi, səhər-səhər Şadər Hacızadənin kabinetinə yığışıb növbəti nömrənin materiallarını planlaşdırdıqları yerdə hökumət telefonu zəng çaldı. Redaktor dəstəyi qaldırdı. Danışan yastı alnı, gur saçı, ailəsində belə özünü ciddi aparan, bəlkə də ömründə bircə dəfə qaşqabağı açılmayan və bir il əvvəl Mərkəzi Komitəyə katib seçilən Əfrayıl Dadaşzadə idi. Redaktor təmkinini pozmadan:

- Əfrayıl Fərahimoviç, eşidirəm Sizi, - deyə cavab verdi.

- O Nazim İlhamdı, kimdi, bu nədi, ağzına gələni yazıb?! Siz də ağına-bozuna baxmadan qəzetdə vermisiniz! Özü də başdanayağa loj. Özünüzü də çıxılmaz vəziyyətdə qoymusunuz, Sekanı da. - İdeoloji sahəyə baxan katib narazılığını bildirdi.

- Xüsusi müxbirə etibar edirik. Onun yazdıqlarına da inanırıq. Əgər kiminsə buna şübhəsi varsa, buyursun, məsələ qaldırsın, yoxlatdıraq.

- Siz desəniz də, deməsəniz də, bu məsələ yoxlanmalıdır. Xahiş edirəm, bu barədə rəhbərliyin adına hələlik bir izahat yazın. Bilmək istəyirik görək, necə olub ki, məhkəmədə şöbə müdiri iştirak etdiyi halda, onun yazısını kənara qoyub, müxbirin

məqaləsini vermisiniz. Burada Sizin marağınız nədir?! Və müxbir bu uydurma faktları haradan götürüb. Sizə kim ixtiyar verib ki, SSRİ Ali Sovetinin deputatını, əmək qəhrəmanını bu cür rüsvay eliyib hörmətdən salasınız. Bu haqda Moskvaya cavab verməliyik. İzahatda hamısını göstərin, - katib göstəriş verdi.

Şadər Hacızadə qürurunu pozmadı və xarakterinə xas olan bir ötkəmliklə:

- Qəzetdə yazılanlar redaktorun izahatı deməkdir. Mənə elə gəlir ki, müzakirə üçün məqalədə göstərilənlər kifayətdir. Əlavə izahata da ehtiyac görmürəm.

- O müxbiri də nahaq saxlayırsınız. Azad edin getsin.

- Müxbiri azad etmək üçün əlimizdə əsas yoxdur. Əgər onun barəsində konkret fakt varsa, onda qoy Seka özü Nazim İlhamın vəzifədən azad edilməsi barədə qərar versin. Biz onun barəsində ayrı fikirdəyik.

- Nə fikirdə?

- Mükafatlandırmaq istəyirik. Bax, elə həmin məqaləyə görə.

Elə bil Dadaşzadəyə od vurdular. Bu söz katibi hövsələdən çıxartdı:

- Şadər Şamiloviç, görünür, qəzetin Mərkəzi Komitənin orqanı olduğunu unutmusunuz. Əks halda, katiblə bu cür söz güləşdirməzdiniz. Həm də Sizə məsləhət görərdim ki, kimliyinizi və kiminlə danışdığınızı yaddan çıxartmayasınız.

Redaktor ona nə cavab vermək istəyirdisə, hökumət telefonu aramsız siqnal verdi. Katib dəstəyi yerə qoymuşdu. Redaktorun sözü ağzında qaldı. O, bir balaca dilxor olsa da pərtliyini büruzə vermədi. Üzünü təşvişlə bir-birinə baxan işçilərə tutub arxayın-arxayın:

- Canım, belə şeylər çox olar, buna əhəmiyyət verməyin, - dedi və planlaşdırmaya davam etdi.

* * *

...Əfrayıl Dadaşzadənin göstərişi ilə "Günahsız müqəssirlər, ədalətsiz hökm" məqaləsini yoxlamaq üçün ayrılmış komissiya artıq öz işini tamamlamışdı. Dadaşzadə komissiyanın arayışını diqqətlə nəzərdən keçirdi. Məqalədə göstərilən faktların heç biri təsdiq olunmurdu. Xüsusi müxbir böhtançı, ağa qara deyən, yaramaz adam kimi göstərilmişdi. Arayışda vilayət rəhbərlərinin izahatına istinadən qeyd olunmuşdu ki, Ziyad Kərimli ictimaiyyət arasında böyük nüfuz sahibidir. Belə bir cümlə də vardı ki, onun direktor olduğu kollektivin fəhlələri qəzeti oxuyarkən qəzəbləndiklərini bildirib, tələb ediblər ki, ata qədər sevib hörmət bəslədikləri Ziyad Kərimli kimi namuslu, vicdanlı, alicənab, müqəddəs bir adama qara yaxan müxbir dərhal vəzifəsindən kənar edilsin və məhkəmə məsuliyyətinə cəlb olunsun...

- Yaxşı, məqalədə göstərilən kaset məsələsi necə? Onu aydınlaşdıra bildinizmi? - Dadaşzadə soruşdu.

- Xeyr. Müxbir kasetləri göstərmədi. Yalan-gerçək dedi ki, kaset olub, ancaq sonradan itib, - komissiyanın sədri cavab verdi.

- Yəqin kaset olmuyub, müxbir bunu özündən uydurub - Dadaşzadə gülümsündü.

- Biz də o fikirdəyik, - komissiyanın üzvləri Dadaşzadənin fikri ilə razılaşdılar.

Arayış Dadaşzadənin xoşuna gəldi. Onun zəhmli qaşqabağı bir balaca açıldı və komissiya üzvlərinə tərəf baxmadan təkəbbürlə başını aşağı dikib qarşısındakı kağızlarla danışırmış kimi:

- Malades - dedi. - Sekanın kursunu düz tutmusunuz. İndi davay, arayış əsasında qərar layihəsi hazırlamaq lazımdır. Biz bu məsələni növbəti büroda müzakirə etməliyik. - Belədi də, - əlavə etdi. - Qərar layihəsi təxminən bu cür olmalıdır. Müxbir partiyadan xaric edilsin, işdən götürülsün, yoxlama materialları prokurorluğa göndərilsin. Orda bir böhtançı maddəsi verərlər,

ağlı gələr başına və bilər ki, Sekayla hesablaşmamaq, xalq deputatına, əmək qəhrəmanına sataşmaq nə deməkdir! Şadər Hacızadə də, - katib təəssüflə başını bulayıb bir qədər fikirləşdi. - Düzdür, yerində kadr deyil, - sözünə davam etdi. - Onu redaktor qoymaqda böyük səhv eləmişik. Ancaq Hacızadəni bu tezliklə götürsək, Moskva yaxşı baxmaz, təzə qoymuşuq, hələ yerini əməlli-başlı isitməyib. Ona da bir vıqovordan-zaddan yazın, sonrasına baxarıq...

* * *

İş vaxtı qurtarmışdı. Generalla Ziyad Kərimli görüşmək üçün axşam saat səkkizə vədələşmişdilər. Ziyad Kərimli "İnturist" mehmanxanasının üçüncü mərtəbəsindəki lyuks nömrədə qalırdı. General telefonla ona zəng vurdu və qalib sərkərdə əhval-ruhiyyəsi ilə:

- Privet, - dedi. - Səni təbrik edirəm! Gördün də, atalarını necə yandırdıq. Ha... ha... ha... - təntənə ilə güldü, - yoxlamanın yekunundan xəbərin var dəə, - əlavə etdi. İndicə Əfrayıl Dadaşzadənin yanından gəlirəm. Malades! Kişi adamdır! Necə demişdisə, o cürə də oldu...

- Sağ olun, mən belə də gözləyirdim. Elə bil ölmüşdüm, məni yerdən qaldırdın. - Ziyad Kərimli generala minnətdarlığını bildirdi. - Bunu o dünyada da yaddan çıxartmaram. Yoxlama müddətində bircə gecə rahat yatmamışam. Anamdan əmdiyim süd burnumdan gəlib. Ancaq özün bilirsən də, bu, "İnturist" telefonlarına etibar yoxdur. Bizə qulaq asırlar. Sonrasını görüşəndə danışarıq.

- Harda görüşək? - general soruşdu.

- Elə burda, - Ziyad Kərimli cavab verdi.

- Bu məsələni də süfrə başında ağıllı-başlı qeyd etməliyik. Sonra da başqa bir planım var. O məsələ...

- Məni orda hamı tanıyır. Gəlsəm ilişərəm. - General razılaşmadı. - Həm də bu ərəfədə bizim bir yerdə görünməyimiz məsləhət deyil. Başa düşdün də, nə demək istəyirəm?!

- Ağıllı fikirdir, bəs onda özünüz deyin, harda görüşək?

- Mənim kabinetimdə, buralar seyrəklikdir. Hamı gedib. Tək-tük işçi qalıb. Onlar da nevajnı adamlardır.

- Oldu. - Ziyad Kərimli telefonun dəstəyini yerə qoyub, cəld ayağa qalxdı.

...Divarlarından zəhm yağan və iri qapısında qızılı hərflərlə "KQB" sözləri yazılmış bu əzəmətli binaya girib-çıxmaq Ziyad Kərimli üçün dəyirmana baş çəkmək kimi adi bir şeydi. Fabrik direktoru içəri daxil olanda general ayağa qalxıb onu uzunsov kabinetin ortasında qarşıladı. Hər ikisi arxa tərəfdəki istirahət otağına keçdilər. Ziyad Kərimlinin qanadı olsaydı, uçardı. O, şən əhval-ruhiyyə ilə:

- Bayaq telefonda açıq deyə bilmədim, bu iş mənə çox baha başa gəldi, - sözə başladı. - Nazim İlham bir-iki nəfər də onun kimi avara burdan gedənləri necə başdan çıxarmışdılarsa, komissiyanın sədri əvvəlcə mənnən ağzı əyri danışırdı... Gördüm söhbətimiz alınmır, Lenini paçka-paçka saldım işə. Pulu görən kimi muma döndülər.

General əlini onun çiyninə vurub:

- Fələksən ha, - deyib bərkdən güldü.

- Bəs nə bilmişdin, - Ziyad Kərimli daha da qürrələndi. - Hamısını da ayrı-ayrılıqda yumşaltdım. Müftə yemək də ki, boğazacan. Nə dedilər elədim. Ondan sonra hamısı qabağımda oldu quzu. Yoxlamanın gedişatı bizim xeyrimizə dəyişdi. Komissiyanın sədri başıma and içirdi. Təklikdə məni yanlayıb dedi ki, redaktor, müxbir, qəzet qələt eləyirlər. Onları danzıma alan deyiləm. Sən nə desən odur. Arayışı da yazıb qurtarandan sonra mənə oxudular. Dedilər ki, harası xoşuna gəlmir, de,

çıxardaq. Bir-iki cümlə məni açmırdı, dedim sağ olsunlar, o dəqiqə üstündən dik qələm çəkdilər.

- Nu oçen xoroşo, - general razı qaldı. - Mənim elədiklərimdən xəbərin yoxdur - əlavə etdi. - İndi də qulaq as, mən danışım. Vaxtilə Dadaşzadənin qanının arasına girmişəm. O vaxt onu Sekaya işə götürəndə sinfi tərkibi haqqında bizdən arayış istədilər. Dadaşzadənin də bir əngəli var. Arvadının bir nəfər uzaq qohumu Türkiyədə yaşayır. Tükdən asılıydı. Mən düzüb-qoşub qaydasına qoydum. İndinin özündə də Dadaşzadə it ağacdan qorxan kimi məndən qorxur. O məsələni qurdalasan, əlli-ayaqlı gedər. Bu qəzet əhvalatından ötrü onun yanına gedəndə dedi ki, necə ki mən burdayam, get papağını yan qoy. Bu gün də yanındaydım. Çox uverennı danışdı. Sözündən belə çıxdı ki, o müxbirin də, redaktorun da halvası çalınıb.

Ziyad Kərimli vəcdə gəldi və:

- Mejdu proçim, Şirxan İsmayılzadə də yaxşı tərpəndi - dedi. - Məqalə çıxan günü mənim öz yanımda Sekaya zəng vurub aləmi qatdı bir-birinə. Qulağım eşidə-eşidə Dadaşzadəyə dedi ki, biz Ziyad Kərimlini yaxşı tanıyırıq. O qəzetdə yazılanlar başdan-ayağa böhtandır. Göstərilən faktların heç biri Ziyad Kərimliyə yapışmır. - Fabrik direktoru bunu deyib, ayağa qalxdı. - Yemək yox, içmək yox. Boş kabinet, quru söhbət. Bundan bir şey çıxmaz, gedək!

- Hara?

- Necə yəni hara? Bunu qeyd etməliyik, ya yox?! - Ziyad Kərimli sevinclə dilləndi. - Günortadan pul vermişəm. Nə lazımdır alıb hazırlayıblar. İndi bizi gözləyirlər. Canan məsələsi də ki, öz yerində. Havayı yerə deməyiblər ki, "sənə üz versə kədər, məclisə cananı çağır". Mənimki özün bilirsən... Sizə də bir əntiqəsi tapılıb. Öz podruqasıdır. Bu əvvəlkilərindən də yaxşıdır. Üçüncü kursda oxuyur. Atası da kasıb kişidir. Aylarla

itirib-axtarmır. Görsən ağzın açıla qalar. Dünya gözəlidir. Mən özüm də çoxdan ondan kəsirəm. Ancaq mənimki qısqancdır, imkan vermir... Yaxşı, gedək, gedək, orda danışarıq.

Onlar içəridən çıxhaçıxda Ziyad Kərimli cibindən bir həb çıxarıb:

- Bunu atmağa su var? - soruşdu.

- Nə dərmanıdır?

- Cananla görüşməzdən əvvəl birini atıram. Yoxsa... bilirsən adamı necə təxərrüşə gətirir?! Hələ cavansan, mən yaşa gələndə bilərsən.

- Yəni o günə qalmısan? - general Ziyad Kərimliyə sözaltı sataşdı.

- Vid-fasonuma baxma, ağzımda bir-iki kötük qalıb. - Ziyad Kərimli ağzını açdı. Hamısı qızıldı. - Altmışı ki keçdin, heç! Şair demişkən, qurtarsa bədəndən qiymətli cövhər, qadın öz ərinə arxa çevirər. Neçə ildi arvadla bacı-qardaş kimi davranırıq, dərman atmasam, mənim o halım hardadır?

- Bu opasnı məsələdir, - generalın baxışları qayğılı ifadə aldı. - Bu cür dərmanları qəbul edəndə ehtiyatlı olun. Tem bolee ürəyin tez-tez priboyluyur. Qəfildən gedə bilərsən.

- O barədə məndən arxayın ol. Bu cür ispıtaniyalardan çox çıxmışam.

- Özün bil. - General paqonlu çiyinlərini qaldırdı və barmağı ilə pəncərənin qabağındakı su dolu qrafini göstərdi.

- Onlar işıqları söndürülmüş dəhlizin dal pilləkənləri ilə aşağı enib, yan qapıdan bayıra çıxdılar. Və idarə maşınına yox, generala yaxın olan bir nəfərin "Pobeda"sına əyləşib:

- Bir may küçəsinə tərəf sür, - dedilər.

Həmin küçə ilə bir qədər yuxarı qalxıb sola döndülər və irəlidəki tinə çatanda maşından düşdülər. General boynu qısıq, hərdən fasıq-fasıq danışan otuz-otuz beş yaşlı sürücüyə:

- Burda dayanma, get, - dedi. - Düz saat ikidə bu düşdüyümüz yerə gəlib gözləyərsən. Maşının işıqlarını da söndür. İşdir, soruşub-eləyən olsa, ağzın boza ver getsin. Denən ölümüz düşüb, molla dalınca gəlmişik.

Köhnə "Pobeda" xırıltılı bir səslə daş döşənmiş darısqal küçədə irəli-geri hərəkət edib, birtəhər sola döndü. Və arxadan qalın tüstü buraxaraq gözdən itdi.

Generalla fabrik direktoru dibi görünməyən dərin çaydan keçirmiş kimi bir-birinin qolundan yapışıb yarıaçıq taxta qapıdan həyətə daxil oldular. Kiçik həyəti olan və köhnədən tikilmiş alt-üst binanın birinci mərtəbəsində iki nəfər ahıl ər-arvad qalırdı. Təzəcə ütülmüş baş-ayaq qoxusu, girəcəkdə qoyulmuş zibil qutusunun və sol tərəfdəki ayaqyolunun üfunətinə qarışmışdı. Küncdəki dəmir barmaqcıqların arxasında özünü yeyib-tökən ev tulası Ziyad Kərimlinin hənirtisi alanda mütiləşdi və itaətkarlıqla qulaqlarını yapıxdırıb, quyruğunu buladı. General da nə isə cibindən çıxarıb ona atdı. Tula generalın tulladığını əvvəlcə şübhə ilə iylədi. Sonra marçıldatmağa başladı. Aşağı mərtəbədəki evin qoca sakinləri pəncərənin solğun pərdəsini yana çəkib, ehtiyatla onlara tərəf boylandılar. Və generalın zərli paqonlarını görən kimi tez pərdəni çəkdilər. Tula gecənin bu vaxtı ona mərhəmət göstərir, bahalı şokolad atan tanış qonaqların arxasınca vəcdlə atılıb-düşür, dəmir barmaqcıqları cırmaqlayır, onların əl-ayağına düşüb, yalamağa can atırdı.

Onlar dal-qabaq taxta pilləkənlərlə ikinci mərtəbəyə qalxanda boynundan kəhraba muncuq asılan və gödək tül paltarın altından əzaları görünən, bir qədər də açıq-saçıq danışan dul qadınla qarşılaşdılar. Qadın generalla ötəri salamlaşdı. Ziyad Kərimliyə isə naz-qəmzə ilə:

- Yenə aya-günə dönmüsən, harda itib-batmısan, - dedi. - Bayaqdan gözləməkdən gözümüzün kökü saraldı. Qızlar getmək

istəyirdi, güclə saxlamışam. Dedim ki, ağlınıza başqa şey gəlməsin. General da, Kərimli də iş adamlarıdır. Ləngiməkdə yəqin ortalığa bir əngəl-zad çıxıb.

Ziyad Kərimli əlini onun boynuna saldı:

- Tovuz xanım, sənsiz bir günümüz olmasın, bizim üçün qənimətsiniz, - deyə, cibindən çıxartdığı əl boyda qutunu onun ovcuna basdı. - Sizin adınıza almışam, qızıl sepdir. Üstündə klonu da var. Toxunması da ki, əladır. Bildim ki, xoşunuza gələcək, aldım.

Tovuz xanım əzilə-əzilə:

- Sağ olun, - dedi. - Payınız artıq olsun.

Tovuz adlı-sanlı bir kişinin yeganə qız övladıdı. Hələ ata-anası sağ ikən qoşulub qaçdığı oğlanı sonradan evinin üstünə salmışdı. Cəmi iki il yaşadıqdan sonra oğlan onu atıb getmişdi. Bu cür açıq-saçıq xasiyyətinə görə indiyəcən heç kəs ona yaxın durmayıb. Durmayıb deyəndə, onnan hərə beş-on gün kefini çəkib... İyirmi ildən çoxdur, bax, beləcə səfeh yoldadır. Evini eyş-işrət düşkünlərinin görüş yerinə döndərib. Qazancı da ki, pis deyildi. Dul qadınlığıynan özünə cah-calal düzəltmişdi. Evlərinə baxırsan, göz qamaşdırır. Ziyad Kərimlini də bura üç il bundan qağaq bir dostu dadandırmışdı. Bu evə gəlib-gedənlərin içində əliaçıqlığına görə Tovuz xanım hamıdan çox Ziyad Kərimlinin xatirini istəyirdi. Ziyad Kərimli elə ki Bakıya gəldi, neçə gün qalsa, otaqların üçü də onun ixtiyarında olardı... Bu barədə ayrı söhbət ola bilməzdi. Tovuz onu görəndə çiçəyi çırtdayırdı. Çünki indiyəcən ondan gördüyünü heç kimdən görməmişdi.

Tovuz xanım qonaqları orta otağa dəvət elədi. Onlar aynabənddə papaqlarını asıb, ayaqlarına yüngül ev çustu keçirib, qızların gözlədiyi otağa keçdilər. Ziyad Kərimli məşuqəsini görəndə ayaq saxlayıb, tanrısının dərgahına şükür eləyirmiş kimi, əllərini göyə qaldırdı:

- İlahi, mən kimi görürəm?! Soruşsalar ki, cənnətməkan haradır, fikirləşmədən deyərdim ki, bu nərmənazik Nəcibənin sərkuyi, - o, boğazdan yuxarı gələn aşiqanə monoloqunu qurtarandan sonra öz məşuqəsi ilə təntənə ilə görüşdü... Sonra bir qədər aralıda dayanan ürkək baxışlı qızın əlindən tutub, onu generala təqdim etdi:

- Bizim Aybəniz xanımla tanış olun, - dedi. - Özü də adı kimi aybənizdi. Bizim Nəcibə xanımla bir institutda oxuyur.

Qızlar ataları yerində kişilərin, öz ehtiraslarının əsirinə çevrilib, bu cür şıltaq, cansıxıcı oyunlardan çıxmasını, həssas qəlblərinin dərinliklərində nifrətlə lənətləsələr də, bu axşam əllərinə gələcək qəpik-quruşun dərdindən onların ağuşuna atılmağa hazır idilər. Ev sahibəsi müştəriləri yerbəyer edib, yemək-içmək süfrəsini qaydaya saldı. Onlara mane olmamaq üçün:

- Gecəniz xeyrə qalsın, - deyib, öz otağına keçdi. Tovuz xanım nə fikirləşdisə, aradan ikicə dəqiqə keçməmiş otağının qapısından başını çıxarıb:

- Bağışlayın, icazə versəydiniz, Ziyad Nəsiroviçə iki kəlmə sözüm var, - dedi. - İnciməyin e, siz Allah.

- Nə danışırsınız, Tovuz xanım! Buyurun! Buyurun! Lap yüz kəlmə deyin. - Ziyad Kərimli ayağa qalxdı. Tovuz qapının arxasında onunla üz-üzə dayanaraq:

- Ziyad, yadımdan çıxdı, Sizə danışmadım. Bir məsələni bilməlisiniz, - dedi. Nəcibə son vaxtlar özünü bir cür aparır. Qıza nə olubsa, yaman dəyişib. Elə bil həmin adam deyil.

- Yəqin o telefonda dediyin məsələyə görədir. Həkimə aparmısan? - Ziyad Kərimli soruşdu.

- Bəli, getmişdik.

- Nooldu! Rədd elətdirdin?!

- Yox, həkim boyun olmadı, dedi ki, sizi çox istəyirəm,

özümü sizdən çox istəyirəm. Bu, xatalı işdir, qorxuram. Üç dəfə eləmişəm. Bir dəfə də risqə getsəm, bundan sonra ondan övlad gözləməyim. Qız uşağıdır, qanaxmadan gedə də bilər. Sonra gəl cavab ver.

- Neçə aylıqdır?

- Dəqiq bilmirəm. Nəcibənin öz deməsinə görə, üç aydan keçib.

- Bəs neynəyək? - Ziyad Kərimli dilxor oldu.

- Özün bil. - Tovuz tərəddüdlə qaşlarını dartdı. - Sizdən qabaq yenə dərdi açılmışdı. Dedi ki, Tovuz bacı, biabır olmuşam. Həyatımdan bezmişəm, özümü öldürmək istəyirəm. Ona acıqlandım. Dedim ağlını başına top elə. Sənin ağzından qan iyi gəlir. O cür səfeh fikirləri də biryolluq beynindən çıxart getsin.

Ziyad Kərimli:

- Çiy iş tutmusan. Həkimə bir az artıq pul basaydın, çoxdan rədd eləmişdi. Səhər bir də apararsan. Neçə istəsə, qorxma, ver. - Kərimli cibindən üzərində Leninin şəkli olan bir qom pul çıxardıb, ev sahibinə uzatdı.

- O müxbir var ey, Nazimdi, kimdi, dilimin ucundadır, onun adı nədir? - Tovuz soruşdu.

Ziyad Kərimli sifətini turşutdu:

- Nazim İlhamı deyirsən? Onun adı gələndə qan təzyiqim qalxır, - dedi. - Əclafın biridir. Əlacım olsa, onun başını kəsib, qanını içərəm. Necə bəyəm, o sənin yadına hardan düşdü?! Başına adam qəhətdi?

Tovuz xanım xısın-xısın güldü:

- Hə, hə! Bax, onu deyirəm, Nazim İlham! O sizin adınız olan qəzetin çıxdığı günü səhəri Nəcibə bizdəydi. O məqaləni oxuyanda qız elə pis oldu ki, gözü yaşardı. Dedi ki, Tovuz bacı, atamın dostudu, bizə köməyi çox dəyib. Bir dəfə də bizdə qonaq olub. Nazim İlhamı o vaxtdan tanıyıram. Söz burda qalsın, hamı-

sını düz yazıb. O müxbirin əlinə dönüb. Birini o yan-bu yan yazmayıb. Nəcibənin bu sözündən sonra tay mən məsələni ağartmadım. Qəzeti kənara qoyub, başını tutdu. Sonra divanın üstünə sərildi. Gülə-gülə dedim, yenə nə olub, ay Nəcibə, Ziyad Kərimli yadına düşüb?! Mənə qayıtdı ki, qadam onun ürəyinə. Ziyad Kərimlinin yıxmadığı ev qalmayıb. Axırda da məni bədbəxt elədi...

Tovuz Ziyad Kərimlinin boğazındakı qalstukun qırışlarını düzəldə-düzəldə:

- Bunları deməkdə məqsədim odur ki, gör neynirsən. Birtəhər elə, onu yumşalt. Nəcibəni ki, belə görürəm, ondan nə desən çıxar. Qız elə bil canından bezib. Allah eləməmiş, özünə bir xətər yetirər, el içində rüsvay olarıq. Mən heç, buğda yeyib, cənnətdən çıxmışam, sənin adın-sanın var.

- Qospodin Kərimli, söhbətin nə uzun çəkdi? Bəlkə biz duraq gedək? - generalın şən, bir qədər də incikli səsi gəldi.

- Yaxşı, yaxşı, gəldim, - Tovuz xanım, general inciyər. Bu barədə səhər... İndi yeri deyil.

Ziyad Kərimli bunu deyib tələsik Tovuz xanımdan aralandı və üzərində hər cür ləziz xörəklər olan süfrəyə yaxınlaşdı və Nəcibənin yanında əyləşib, çiynini də onun çəlimsiz çiyninə söykədi...

...Müxtəlif sağlıqlar deyildi. Əfrayıl Fərahimoviç Dadaşzadənin adı bu məclisdə hörmətlə çəkildi və xüsusi qeyd olundu. İçkinin təsirindən Ziyad Kərimli özünü-sözünü itirmişdi. General isə o qədər də keflənməmişdi. Qızların hərəsi iki-üç qədəh şampan şərabı içmişdi, o da zorla. Nəcibənin ürəyi tez-tez bulanırdı. Aybənizin isə heç halına təvafüt eləmirdi. Ziyad Kərimli növbəti badəni qaldıranda çeçədi və əlindəki qədəhi yerə qoyub sərxoş gözlərini generala zillədi:

- Mənim generalım, dedi. - Sinəmdən asılanların hamısı sənin hesabınadır! İtirsəm, atama lənət! Bu məsələdə də... Təh-

miraz Tahirov çöldə qalsaydı, mən... içəridə olmalıydım! Onun yerində mütləq mən oturmalıydım. İkiynən iki dörd eləyən kimi bu belədi. O müxbirin yazısı... Qəzetdəkini deyirəm... Nazim İlhamın məqaləsi belimi qırdı... Bəli, bəli, mən Ziyad Kərimlini göydən yerə vurdu. Qorxuram bu işin axırı olmaya. Əgər təzədən qurdasalar, mən batdım...

General bir stəkan sərin limonad süzüb, başına çəkdi və dodağını silə-silə:

- Onda hələ məni yaxşı tanımırsan. Hi... hi... - güldü. - Elə günü sabahdan... Bizdə adamlar var ki... Kimi deyirsən, gecə yatdığı yerdə yorğanı qarışıq oğurlatdırım. Hi... hi... - Bir də gördün taksi maşını... girvələyib dayanacaqların birində Nazimin hüzurunda dayandı və onu götürdü! Sonra... hi... hi... Sonra da maşın getdiyi yerdə kəllə-mayallaq vurdu... Oldu əzik-əzik. Nazim İlham da içində! Bəli, içində! Gəbərdi... Leş bir yana, baş bir yana... Allah o müxbirə rəhmət eləsin! - General ayağa qalxdı, salavat çevirdi. - Sürücü də əlini belinə qoydu... Ekspertlər də yığışıb rəy verdilər ki, burada şoferin iynənin ucu qədər də günahı yoxdur. Maşında zavodskoy defekt olub. Deməli, Nazim İlhamın qatili şofer yox, damalı taksi maşınıdır... Siz belə şeyləri bilməzsiniz. Biz bu işlərin professoruyuq. Başımı bu yolda ağartmışam. Bəs nə bilmişdin? Ağzında - KQB... deyirsən. Fabrik direktoru çekistlərin işindən baş çıxara bilməz. Mən çox sirrləri açmaq istəmirəm. Buna ixtiyarım yoxdur. Çünki sistemə girəndə dilimizdən iltizam vermişik. Bizdə qanun belədir. Orda-burda boşboğazlıq eləməyin! Artıq-əskik danışmayın! Yoxsa murdar siçan kimi quyruğunuzdan tutub atarlar bayıra! Ondan sonra get başını saxla görüm necə saxlayırsan! Heç yerdə işə də götürmürlər! Ona görə ki, hamı bizə şübhə ilə baxır. Şpion, satqın, nə bilim, tay nə... - General bir az ayılan kimi oldu və gözlərini yumub, sonra geniş açdı. -

Deyəsən çox danışdım... Mən özüm də axmaqlamağa başladım... Aybəniz xanım gərək məni bağışlasın. - Aybənizin baxışları, bir də ki, bu zəhrimara qalmış - general araq butılkasını göstərdi, - məni başdan çıxartdı. General olsam da, çərənlədim. Hi... hi... Nə dedim?! - üzünü Ziyad Kərimliyə tutdu. - O ki qaldı Təhmiraz Tahirovun institutda oxuyan oğluna, o da bizim əlimizdə bir qurtum su içmək kimi bir şeydir... Kinoya, teatra gedəndə, evdən çıxanda, küçədə, bazarda girəvələ, cibinə beşcə qram tiryək qoy, vəssalam! Və yaxud da, köhnə, sınıq-salxaq bir tapança! Beşcə il boynuna basdılar getdi! İçəri girəndən sonra, elə ordaca başını ək! kəsik başda ki, söyləməz olar. Bununla da o işə birdəfəlik nöqtə qoyuldu getdi.

Ziyad Kərimli yerindən qalxıb generalı qucaqladı. Qalın, yağlaçov dodaqları ilə onun o üzündən, bu üzündən öpdü.

Qızlar bir-birinə baxıb güldülər. Ziyad Kərimli:

- Gülərsiniz, gülərsiniz! - dedi. - Əslinə qalsa bizim bütün işlərimiz gülməlidir.

Aybəniz altdan-altdan generala baxdı:

- Bizi bura iclasa çağırmısınız, yoxsa... - Həzin, bir qədər də incik səslə onların yersiz söhbətlərinə etirazını bildirdi.

General qədəhini qaldırıb ayağa qalxdı:

- Aybəniz xanım bizdən inciməkdə tamamilə haqlıdır, - dedi. - Bura niyə gəlmişik? Kefə, xanımlarla əylənməyə, deməyə, gülməyə! Amma Ziyad Kərimli! Hörmətli deputat, qeroy imkan vermir ki, bu gözəl, nazlı-qəmzəli xanımlara uxajivat eləyək! Klyauzni sözlərlə başımızı qatır! Boş-boş qırıldadır! Gözəl-göyçək xanımlarımızın qanını qaraldır. Ona eyib olsun!

Hamısı bir ağızdan:

- Kərimliyə eyib olsun! Kərimliyə eyib olsun! - xorla qışqırdılar.

Ziyad Kərimli key kimi olmuşdu. O, birtəhər ayağa qalxıb məclisdəkilərdən üzr istədi:

- Mənə deyirsiniz?! Tamamilə düz deyirsiniz!! Boynuma alıram, axmağam! - O, içki havasına barmağını göydə silkələyə-silkələyə - Ziyad Kərimliyə ar olsun! Onun adamlıqda haqqı yoxdur! - dedi.

- Dil dolaşar, düzünü deyər. - Nəcibə Aybənizin qulağına pıçıldadı və onun yorğun çöhrəsinə acı təbəssüm yayıldı.

...Yemək-içmək mərasimi gecənin yarısına qədər uzandı. Qızların gözündən yuxu tökülürdü. Ziyad Kərimlinin sərxoş başı əyilib sinəsinə düşmüşdü. General nisbətən ayıq idi. Onlar yatmaq qərarına gəldilər. Hərə öz otağına çəkildi...

Bütün şəhər yuxuya dalmışdı. Ətraf tam sakitlik idi. Hərdən bir şütüyüb keçən avtomaşınların səsi, gecənin lal sükutunu pozurdu. Səhərdən-axşamacan ora-bura dazıdığından yorğun düşmüş tula da artıq hürmürdü. Aşağı mərtəbədəki tak-tuk səsinin kəsilməsindən hiss olunurdu ki, qoca ər-arvad da çoxdan başlarını yastığa atıb yatıblar. Birdən Ziyad Kərimli ilə Nəcibənin yatdığı otaqdan vahiməli bağırtı səsi gəldi. Sonra tappıltı eşidildi. Kimsə çarpayıdan aşıb döşəmənin üstünə düşdü. Aşağıda domuşub yatan tula hənirtini alan kimi əvvəlcə uladı və sonra hürməyə başladı. Səsə Tovuz xanım qalxdı. Nəcibənin dəlisov çığırtısı aydınca eşidilirdi. Tovuzun onların otağına girməsi ilə çıxması bir oldu. O, generalı haraya çağırdı. Generalla Aybəniz yuxulu-yuxulu hövlnak alt paltarında aynabəndə çıxdılar. Tovuz onları görəndə tələşla:

- Aman Allah! Bu nə işdi gecənin bu vaxtı gəldi başıma? Dəhşət! Dəhşət! - əlini üzünə atıb qışqırmağa başladı.

General ayaq üstə donub qalmışdı. Aybəniz əsim-əsim əsirdi. Nəcibənin hıçqırığı otağı başına götürmüşdü. Tovuzla general ehtiyatla Ziyad Kərimlinin otağına girdilər. Aybəniz də

onların arxasınca. Döşəmə, yorğan-döşək al-qana boyanmışdı. Ziyad Kərimli çarpayının yanında, döşəmədə hərdən əl-qolunu atıb inildəyirdi. General onun çiyinlərindən yapışıb silkələdi və bir neçə dəfə:

- Ziyad! Ziyad! - həyəcanla qışqırdı. Daşdan səs çıxdı, Ziyad Kərimlidən yox. Onun nəbzi aramla vururdu, nəfəsi çətinliklə gedib-gəlirdi. Generalın gözü Ziyad Kərimlinin ürəyinin başına sancılan bıçağa sataşdı. O, sapına qədər Ziyad Kərimlini sinə-sinə sancılmış iti və uzun çörək bıçağını çəkib çıxartdı. Nəcibə ağlayıb kirimişdi. Hikkəsindən hələ də hıçqırırdı. General ondan nə soruşmaq istədisə, Nəcibə amansız bir üsyankarlıqla:

- Ağlınıza ayrı şey gəlməsin! Onu mən öldürmüşəm, cənab general! Bax, mən! - Özünü şax tutub sinəsinə döydü. - Nəcibənin sərt və qətiyyətli cavabı elə təsir bağışladı ki, sanki general alt-üst bassa, elə buradaca onun da, Ziyad Kərimli kimi işini bitirməyə hazırdı. Ona görə də general yaltaq bir yalvarışla:

- Nəcibə xanım, niyə öldürdün?! Bu necə oldu?! - soruşdu.

- Onu özüm bilərəm! Yeri gələndə deməyə, cəzamı da çəkməyə hazıram, - qürurla cavab verdi.

Tovuz minkirlənə-minkirlənə:

- İndi bəs neyniyim? Mən bədbəxt qızı, bədbəxt! Başıma haranın daşını töküm? - hönkürüb ağladı. - Axı bu bədbəxt hadisə mənim xarabamda baş verib! Yaxamdan yapışsalar nə cavab verim? - Onun nəmli baxışları, özünü itirmiş generalın həyəcanlı sifətində donub qaldı.

General karıxmış halda dilləndi:

- Biabırçı hadisədir... Gərək belə olmayaydı! Artıq gecdi! Ondan keçib, sonrakı peşmançılıq fayda verməz. İndi başqa bir şey fikirləşməliyik! Görək vəziyyətdən necə çıxırıq!

- Əlim-ayağım dəyməmiş, sürüş get burdan, general!! - Nəcibənin çılğın səsi eşidildi. O, qəzəblə ayağını yerə döyərək: - Get

bur-dan ge-ne-ral!! Sizin gözəl dünyamızda yaşamağa haqqınız yoxdur! Siz mələk qiyafəli iblissiniz! Çiyninizdə gəzdirdiyiniz paqonu itirməmək xatirinə Allahdan, peyğəmbərdən, insafdan, vicdandan biryolluq üz döndərmisiniz! Bakirəliyini əldən vermiş pozğun bir qız olduğumu etiraf edirəm! Acı, uğursuz taleyimin amansız hökmü məni bu yola salıb! Ancaq başımdakı ləçək Sizin zərli paqonunuzdan, general papağınızdan çox-çox qiymətlidir! Bir baxın! - Nəcibə barmağını Ziyad Kərimlinin döşündəki deputat nişanına tuşladı. - O bayraq, qarşınızda gəbərən məlunla, sizin kimi fitnə-fəsad düşkünlərinin tora saldığı zavallıların nahaq qanı kimi necə də qırmızıdır. Mən isə onu öz qanı ilə boyadım! Ziyad Kərimli layiq olduğu əsl mükafatı bu mənhus gecədə məndən aldı! Mən bu əllərimlə... bu əllərimlə fəxr edirəm! Heç vaxt insan ölümünə sevinməmişəm! Lakin tam əminəm ki, Ziyad Kərimlini tanıyanlar bu qətl xəbərini eşidəndə bir-birlərini sevinclə təbrik edib, ona rəhmət yox, lənət oxuyacaqlar! Mənə isə - o qatilin əlinə dönüm, - deyəcəklər! Ziyad Kərimliyə bələd olanların qəlbində heykəlləşəcəyəm! Belə bir təşəkkürdən böyük mükafat təsəvvür etmirəm! Bu, həyatımda unudulmaz bir gecədir! Ha... ha... - Nəcibə şaqqanaq çəkib, güldü. - Ancaq cənab general, Siz bu bir dəqiqə ərzində necə də büzüşmüsünüz, yazıqlaşmısınız, kiçilmisiniz! Çünki Sizi nə gözlədiyini yaxşı dərk edirsiniz! Çiyninizdəki paqonun rəngi də dəyişilib! Məkrli sifətiniz illər xəstəsi kimi necə də avazıyıb! Sizə yazığım gəlir! Yoox, nifrət edirəm! Cəmi bir neçə saat bundan qabaq əlçatmaz ucalıqdan təkəbbürlə baxan ge-ne-ral! Ha... ha... ha...! - Nəcibə başına hava gəlibmiş kimi güldü və birdən susdu. Heç kim dillənmirdi. Otağa qəbir sükutu çökmüşdü. General da, Tovuz da, Aybəniz də dəhşətli hisslər keçirirdilər. Artıq Ziyad Kərimli də qımıldanmırdı. O, biryolluq susmuşdu. General ev sahibinin qulağına pıçıldadı:

- Tovuz xanım, o biri otağa keçək, bir-iki kəlmə sözüm var.

Onlar Tovuz xanımın otağına keçdilər və içəri girən kimi də qapını örtdülər. Kənardan görünməmək üçün general özü pəncərənin güllü ipək pərdəsini aşağı saldı və Tovuza tərəf dönərək:

- Bu, xatalı bir məsələdir, - dedi. - Ancaq durub gözləmək olmaz. Vəziyyətdən çıxmaq lazımdır. Sizə zarafat gəlməsin. Burda deputat, geroy, respublikanın adlı-sanlı adamı ölüb. Moskvadan belə aləm bir-birinə qarışacaq. Bu işin yeganə bir çarəsi var. Nə desəm, o cür hərəkət edərsən.

- Baş üstə! - Tovuz tələşla dilləndi.

General sözünə davam etdi:

- Əvvəla, məni tanımırsan və burada görməmisən! Çünki məni bu məsələyə qarışdırsalar, sizə kömək etməyim çətin olar. Qızların da adını çəkmək lazım deyil. Bu, birbaşa Sizə ilişir. Hadisənin baş verməsinə səbəbkar kimi Sizə də, cinayət məcəlləsində ağır maddə düşür. Mən burdan çıxan kimi milis idarəsinə zəng vur. Telefon nömrəsi sıfır ikidir. De ki, filan adresdə hadisə baş verib. O dəqiqə tökülüb gələcəklər. Qətiyyən özünü itirmə. Soruşsalar de ki, gecəyarısı evə gəlirdim. Gördüm darvazanın ağzında bir nəfər, meyit kimi yerə sərilib. Döşündəki znaçoklardan bildim ki, deputatdır. Onun qolundan tutub qaldırdım. Harda içmişdisə, özünü-sözünü bilmirdi. Fikirləşdim ki, müsəlmançılıqdır. Allaha da xoş gedər. Gecənin bu vaxtı küçədə qalmasın, aparım evimə. Onu sürüyə-sürüyə birtəhər yuxarı mərtəbəyə qaldırdım. Danışmağa halı yox idi. Çarpayıda, yatmaq üçün ona yer saldım. Özüm də otağıma keçdim. Gecənin bir vaxtı tappıltı eşitdim. Tez yerimdən qalxdım. Bu rəhmətliyin otağına girdim. Onu görəndə gözlərimə inanmadım. Çörək bıçağını ürəyinin başına sancıb özünü öldürmüşdü. İndinin özün də bu adamın kim olduğunu bilmirəm.

Sadəcə olaraq ürəyim yanıb, ona yaxşılıq eləmək istəmişəm. Qəlbi yumşaqlığımın ucbatından başıma bu iş gəlib...

General əl-qolunu ölçə-ölçə:

- Bax, bu cür deyərsən, vəssalam, - sözünə davam etdi. - Sonrası ilə işin yoxdur. Çalışaram işin istintaqı ilə bizim idarə məşğul olsun. Buna əsas da var. Çünki Ziyad Kərimli, necə olsa, dövlət xadimidir. Bu cür müəmmalı məsələləri KQB aparır. Başa düşdün də, nə demək istəyirəm?!

- Bəli, - Tovuz xanımın ürəyi bir balaca yerinə gəldi. - Arxayın olun, - dedi. - Çətinə düşsəm, Siznən necə əlaqə saxlayım? Xahiş edirəm, adresinizi, telefon nömrənizi verin, bəlkə lazım oldu.

General:

- Yox, yox! - dedi. - Adres, telefon nömrəsi lazım deyil. Versəm, ələ keçə bilər. Onda işlər korlanar. Yaxşı, mən getdim! Qızları yola salmamış milis idarəsinə zəng vurma! Di xudahafiz!

Nəinki Aybəniz, generalın öz adı da yadından çıxmışdı. O, arxasına baxmadan, tələsik addımlarla həyətə endi. Və tulanın hürməsinə məhəl qoymadan darvaza qapısından çıxıb, küçədə onu gözləyən "Pobeda" maşınına əyləşdi. Lakin maşın yerindən tərpənmədi. General əsəbi halda:

- Niyə sürmürsən?! - onun üstünə çəmkirdi.

- Bəs o biri yoldaş? - Kərimlini gözləməyək? - sürücü mızıldandı.

General daha da hirsləndi:

- O biri yoldaş! O biri yoldaşın atabaatasına lənət! Birindən qurtarmamışdıq, bizi ikinci zibilə saldı! Özü bir köpəkoğlu deyildi, durduğum yerdə məni də rüsvay elədi. Elə ölməli oğraş idi!

Sürücü də köhnə qurddu. O dəqiqə məsələnin nə yerdə olduğunu başa düşüb, hesabı içəri verdi və gücü gəldikcə ayağını qaza basdı. Köhnə "Pobeda" açılmaqda olan səhərin təmiz

havasını qara tüstü ilə korlayıb, bir göz qırpımında aradan çıxdı.

Buğdayı sifətinə xüsusi gözəllik verən, iri, ala gözləri, incə bədəni, qeybdən yaranmış sürməyi qaşları olan Aybəniz aynabəndin bir küncünə qısılıb, xısın-xısın yumub-tökürdü. O, hərdən kiriyib xəyallanır, dərin-dərin fikirlərə dalırdı. Divardakı əl xalçasının naxışlarına baxdıqca, sanki qoca nənəsinin ilmələrə hopmuş kəlamlarını oxuyurdu: "Şah şahlığını verər, qız şərəfini verməz", "Qıza ki yad əli toxundu, oldu it dəymiş ayran", "tay ona heç kəs səmt düşməz". Aybəniz o vaxt nənəsindən eşitdiyi həmin sözləri xatırladıqca özünə nifrət edirdi. Allah-taaladan özünə ucuz bir ölüm diləyirdi. İlahi, bu nə müsibət idi mənə üz verdi? - için-için ağlayıb fəryad qoparırdı.

Aybəniz yubkasının cibindən çıxardığı pullara diqqətlə, həm də ikrahla baxırdı. Bu qəpik-quruşu ona Ziyad Kərimli vermişdi. Aybəniz həmin pulları əlində əzdi, sonra bir-bir cırıb döşəməyə səpələdi:

Tovuz ona yaxınlaşıb, kinayə ilə:

- Səhərəcən generalın qoynunda kef eləyib, indi sən bunun faqqılığına bax! Sonradan ayılıb ey! Kül sənin başına! Gərək bura gəlməmişdən ağlayaydın, indi gecdir... Artıq gönü suya veribsən, yazıq! Ata-anası da ümidlidirlər ki, qızları elm oxuyub, onları feyziyab edəcək! Tay demirlər... Nə durmusuz?! Dayanmayın, tez olun, itilin burdan! Elə gedin ki, bu həndəvərdə Sizi bir inni-cinni görməsin! Görüm başıma nə iş gəlir! Di ləngiməyin, tez burdan əkilin! İndi milis çağırmalıyam! Nəcibə, səni görüm, heç üstünə tumanbağı açılmasın! Elə gərək xatanı gətirib mənim evimə tökəydin? Məni qana saldığın bəs deyil, hələ bir durub mal kimi gözünü döyürsən?! Milis çağırmalıyam, becid olun!

Tovuz telefona yaxınlaşmaq istəyəndə, Nəcibə fikirli-fikirli başını qaldırıb, küt baxışları ilə onu təqib edərək, dəlisov qəhqəhə çəkdi:

- Ə-ziy-yət çəkməyin, Tovuz xanım! Siz gecikmisiniz! Bizi qoyub qaçan generalla məsləhət-məşvərət eləyəndə milisə yerli-yataqlı xəbər vermişəm! Arxayın olun, heç hara tərpənən deyiləm! Mən də generalam ki, bərk ayaqda yan-yörəmdəkiləri qoyub qaçım?! Yox, səhvin var! Qoy gəlsinlər! Mərdi-mərdanə deyəcəyəm! Mən öldürmüşəm, bax, mən! - Nəcibə sinəsinə döydü. - Adam öldürmüşəm, adam! - Yoox, səhv etdim, - o, tutuldu. - Adam yox, Ziyad Kərimlini öldürmüşəm! Onun adamlıqda bir zərrə qədər də payı yoxdur! Onu qətlə yetirdim, ancaq təsəllim odur ki, bu gözəl dünyamızı insanlar arasında qızdırma, titrətmə saçıb, zavallı insanların göz yaşlarına bais olan bir xəbis əclafdan xilas etdim! İlahi, mənim bu əllərim nəyə qadirmiş! - Nəcibə qanlı əllərini öpdü və başını qaldıranda başqa bir mənzərənin şahidi oldu. Onlar hər tərəfdən milis formasında olan əli silahlı adamlarla əhatə edilmişdilər...

* * *

...İstintaqın gedişinə Moskvanın xüsusi nümayəndəsi istiqamət verirdi... Şübhəli şəxslər növbə ilə dindirilirdi. Ziyad Kərimlinin qətlə yetirildiyi evin sahibəsi generalın dediklərini tutuquşu kimi təkrar etdi... Aybəniz istintaqa dəvət olundu. O, qarşısında əyləşdiyi bazburutlu müstəntiqin üzünə baxmadan, əlindəki göz yaşı ilə islanmış qırağı krujevalı ipək dəsmalını dizinin üstündə sığallaya-sığallaya:

- Nə deyim, vallah, - kədərli ah çəkdi. - Özüm də bilmirəm, necə oldu! İndinin özündə də elə bil yuxu görürəm. Birdən-ikiyə belə bir işə düşüb-çıxmamışam! Gün ki batdı, yataqxanamızdan qırağa çıxmıram. Necə oldusa ağlımı oğurladılar. Eləyən ev sahibi oldu. İfritə qadın Tovuzdu-nədi, məktəb yoldaşım Nəcibəynən hərdən onlara gedib-gəlirdim. Bu işə də məni o caladı. Öhö... öhö... - Aybəniz hönkürüb ağladı. - Generalla oldum.

Amma pulu o ölən verdi, Kərimli. Yüz manat idi. Hamısı da onluq, beşlik. Nə etdiyimi başa düşdükdən sonra hamısını cırıb tulladım. Bir bölük külfətik. Atam meşə idarəsində şofer işləyir, sol ayağının yarısı yoxdur. Müharibədə olub. Səkkiz bacı-qardaşıq. Anamız çoxdan rəhmətə gedib. O gündən-bu günə bizi xalam saxlayıb. Xalamın da əri müharibədə itkin düşüb. İki uşaq da ondan qalıb. Atamın bir sınıq-salxaq yük maşını var. Hökumət təzəsini vermir. Aldığı maaş elə benzinə, təkərə gedir. Çörək pulumuz da çatmır. Mən orta məktəbi əlaynan qurtarmışam. Atamın həmişə odun verdiyi professor məni güclə ali məktəbə düzəldib. Stipendiyama baxıram. Onu da üç ay olar kəsiblər. Bir tərs-məssəb müəllimimiz var. Qiymət yazmır. Deyir, tək olanda gəl yanıma. Mən də bilirəm nə məqsədlə deyir. Ona görə getmirəm. Yuxarı kursda oxuyan qızlar o müəllimin haqqında maa pis sözlər danışıblar. Borc almadığım adam qalmayıb. Podruqalarım həmişə yaxşı-yaxşı geyinib, mənə də yandıq verirlər. Özümə təzə paltar almaq istəyirdim. Atama sifariş göndərdim, dedi, yoxumdur. Yoxdan Allah da bezardır. Hardan verim... Sonra o Tovuz arvad saqqızımı oğurladı, o general məni bədbəxt elədi. İndi bilmirəm neyniyim? Adam içinə çıxa bilmirəm. Özümə ölüm diləyirəm. Onsuz da atam bilsə, məni öldürəcək.

Ona diqqətlə qulaq asan orta yaşlı müstəntiq əlini üzündən çəkib.

- Buyurun, dediyiniz kimi də yazın. - Dindirmə protokolunu Aybənizə uzatdı.

Aybəniz öz dəsti-xəttiylə xoşbəxtliyinin son nöqtəsini qoyub, özünə edam hökmü yazılmış kimi incə barmaqları əsə-əsə ilk ifadəsinə başladı...

Növbəti dindirməyə general dəvət olunmuşdu. Lakin o, min bir bəhanə ilə istintaqa gəlməkdən boyun qaçırırdı. General təbii

olaraq dünən qarşısında mil duran adamların bu gün onu sorğu-suala tutacağını şəxsiyyətinə sığışdırmırdı. Ancaq dəvədən böyük fil var, - deyiblər. Moskvanın xüsusi nümayəndəsi işə qarışandan sonra... general istintaqa gəlməli oldu. Müstəntiqin otağı generalınkı kimi geniş və təmtəraqlı deyildi. General içəri girəndə özünə layiq yöndəmli stol-stulu olmayan, balaca kabinet onu darıxdırdı. Və baş müstəntiqə təkəbbürlə:

- Noolub belə? - dedi. Pojar-zaddı?! Aləmə səs salmısan ki, guya istintaqa gəlmirəm! Heç gözləməzdim! Bu, sadəcə olaraq mənə qarşı hörmətsizlikdir. Əvvəla, özümü pis hiss edirəm. Başımda ağrı var. Xəstə kimiyəm. İkinci də, fikirləşdim ki, günün günorta çağı buralarda görünməyim yaxşı düşməz. Gecə gələrəm, nə lazımdır danışarıq.

Rusca təhsil almış, xasiyyətcə sərt və bir qədər də rəsmiyyətçi olan müstəntiq barmağının arasında tüstülənən siqareti külqabında söndürə-söndürə:

- Vəzifənizə də, rütbənizə də hörmətim var, - dedi. Ancaq iş elə gətirib ki, Sizi bura söhbətə yox, ifadə almağa çağırmışam.

General daxili sarsıntısını süni gülüşü ilə pərdələməyə çalışaraq:

- Yoox, o cür demirəm. Əlbəttə, dahilərin də səhvi olur. Ola bilsin, mən də hardasa səhvə yol vermişəm. Buna baxmayaraq, özümə görə ad-sanım var...

- Arzu edərdim ki, dahilərimiz də, generallarımız da çox olsun. Təəssüf ki, bura müqəssir kimi dəvət olunmusunuz. - Müstəntiq onun sözünü yarımçıq kəsdi. - Bəli, bəli, şahid kimi yox, məhz müqəssir kimi. Artıq bu sözü deməyə kifayət qədər əsasım vardır.

General bir anlığa çıxılmaz vəziyyətə düşdü. Yazıq bir məxluq oldu və paqonları sanki qurğuşun kimi ağırlaşdı. O, çiyinlərini güclə qaldıraraq:

- Mən belə şeyləri çox görmüşəm, - dedi. - Siz tələsik nəticə çıxarmayın. Sonra bu yersiz sözlərinizin əzabını çəkə bilərsiniz, - deyib susdu.

- Yaxşı, bu söhbəti qurtardıq. Vaxt dardır, keçək əsas məsələyə. - Siz Ziyad Kərimlinin qətlə yetirilməsi ilə əlaqədar nə deyə bilərsiniz? - müstəntiq sorğu-suala başladı.

- Bu barədə heç nədən xəbərim yoxdur. Mən də Sizin kimi elə-belə, kənardan-kənara eşitmişəm.

- Ziyad Kərimlini necə tanıyırsınız?

- Oçen prosto. Bilirəm ki, deputatdır, əmək qəhrəmanıdır, böyük bir fabrikin direktorudur, adlı-sanlı adamdır. Hərdən də iclas-zad olanda təsadüfdən-təsadüfə rastlaşırıq. Axırıncı dəfə, ona qəsd hazırlayan qruppanın istintaqına rəhbərlik etmişəm.

- Onun barəsində şəxsi fikriniz?

General dodağını büzüb, təəccüblə qaşlarını dartdı:

- Nə deyim, insandır dəə... Elə bir yaxınlığım olmadığı üçün Sizin bu sualınıza cavab verməkdə çətinlik çəkirəm.

- Bu ayın on ikisinə keçən gecə harda olmusunuz?

- Harda ola bilərəm? Öz evimdə!

- Verilən ifadələrdən, əlimizdə olan sənədlərdən belə məlum olur ki, Ziyad Kərimlinin qətlə yetirildiyi həmin gecə Siz də orda olmusunuz, Tovuz adlı qadının evində.

- Tamamilə boş sözdür, canım. Siz nə danışırsınız?! Bu, kiminsə uydurması ola bilər. Düzünü axtarsan, həmin axşam bərk xəstə idim, qızdırmam otuz doqquza qalxmışdı. Bu barədə həkim arayışı təqdim edə bilərəm. Siz ayın on ikisi dediniz. Mən doqquzundan indiyə qədər bülletendəyəm. İşə də candərdi çıxıram. Gündə bir-iki saat idarəyə baş çəkib qayıdıram. Bu gün də Sizin xatirinizə... evdə yatırdım. Yorğan-döşəkdən güclə durub gəlmişəm.

- Aybəniz adlı institut tələbəsini tanıyırsınızmı?

- Birinci dəfədir eşidirəm. Kimdir o?! - generalın sifəti avazıdı və başını bulayaraq: - Sən bir işə bax ey, - dedi.

- Onda o qızı Sizinlə üzləşdirsəm, necə? - Baş müstəntiq qəddini əyib, barmağını yazı masasının böyründəki elektrik düyməsinə toxundurdu. Milis nəfəri içəri daxil oldu. Müstəntiq:

- O qızı gətirin, - dedi.

- Hansını? - milis işçisi soruşdu. - Burda iki qız var.

- İndicə burdan çıxan qızı deyirəm, Aybənizi!

General bu sözü eşidəndə gözlərinə qatı qaranlıq çökdü, başı gicəllənən kimi oldu. Və müstəntiqdən bir siqaret istədi. Elə bu anda içəri daxil olan Aybəniz generalı görəndə diksinib, arxasınca gələn milis işçisinə qısıldı və geri dönmək istəyəndə - buyurun, buyurun, Aybəniz, yaxın gəlin, - müstəntiq ona generalla qabaq-qənşər əyləşmək üçün stul göstərdi.

Generalın gözü Aybənizə sataşanda, müstəntiqin uzatdığı siqaret onun əlindən düşdü. Generalın başı yana əyildi. Zəhmli gözləri ölgünləşdi. Müstəntiq vəziyyəti başa düşüb, tez təcili yardım stansiyasına zəng çaldı.

...İçəri daxil olan ağ xalatlı həkim, generalın qızıl saat olan sol qolunu qaldırıb, nəbzini yoxlayanda, onun sifəti kölgələndi:

- Vəziyyəti ağırdır, - dedi. - Obşirnı infaktdır, gecikmisiniz...

...Nəcibənin ikicanlı olması müstəntiqə bəlli idi. Canini müstəntiqin özü tibbi müayinədən keçirmişdi. Uşağı tələf edəcəyi təqdirdə onun əlavə cinayət məsuliyyətinə cəlb olunacağı Nəcibəyə izah edilmişdi. Bu barədə bir neçə aydan sonra ana olacaq qızın dilindən iltizam alınmışdı. Onun ifadəsi xeyli çəkdi. Çünki fikrini birbaşa deyə bilmirdi. Tez-tez əhvalı pozulur, başı gicəllənirdi. Hər yarım saatdan bir müstəntiq ona beş-on dəqiqə dincəlib özünə gəlməsi üçün fasilə verirdi. Nəcibə xəstəhal adamlar kimi aramla danışırdı:

- Atam uşaq vaxtı ağacdan yıxılıb. O vaxtdan beli şikəstdir. Vilayət qəzetində fotomüxbir işləyirdi. Sonra gördü ondan bir şey çıxmır, dolana bilmirik, özünə balaca butka açdı. Böyük əmim bizim Yaponiyadakı Sovet səfirliyində işləyir. Atama heç yerdə tapılmayan fotoaparatlar, cürbəcür kasetlər göndərir. Atam da lazım olanını özünə götürüb işlədir. Olmayanını onabuna ya bağışlayır, ya da ki satıb pulunu alır. Evimiz də Ziyad Kərimlinin direktor işlədiyi fabriklə yanaşıdır. Orta məktəbi qurtarıb, dokumentlərimi ali məktəbə verdim. Ancaq iş stajım çatmadığına görə məktəbə qəbul oluna bilmədim. Atam məni Ziyad Kərimlinin fabrikinə apardı ki, orda işləyib, özümə staj toplayım. Ali məktəbə girə bilim. Kərimli əvvəlcə əmrimi fəhləliyə verdi, bir aydan sonra özünə katibə götürdü. Səhərdən axşamacan mənə çay dəmlətdirirdi. Hər dəfə çay aparanda məni kabinetində saatlarla saxlayıb, bic-bic söhbətlər eləyirdi. Ona Ziyad əmi deyəndə acığı tuturdu. Deyirdi ki, məni adımla çağır, bir də məbadə əmi deyəsən. Yatsam, yuxuma da girməzdi ki, mənim haqqımda başqa fikirdə olar. Amma nişanlım şübhələnirdi. Onda üç ay olardı ki, məni fabrikdə növbə rəisi işləyən bir oğlana ad eləmişdilər. Sən demə, nişanlım bizi güdürmüş. Bir dəfə də Ziyad Kərimli maa elə pis söz dedi ki, qıpqırmızı qızardım. Bu dəmdə nişanlım qəfil içəri girdi. Mən özümü itirdim. Nişanlım üstümə acıqlandı. - Rədd ol, get, bir də səni burda görməyim, - dedi. Kərimliyə dedi ki, Ziyad əmi, bu qızın yerini dəyiş. Gedib fəhləliyini eləsin. O sözdən dördcə gün sonra nişanlımı tutdular. Ad da qoydular ki, cibindən soyuq silah çıxıb. Ata-anası nə qədər ora-bura yazdılar ki, bizim oğlumuzun heç vaxt soyuq silahı olmayıb, bu, başdan-ayağa şərdir. Oğlumuzun cibindən tapılan adicə ov bıçağıdır. Həmin bıçaqdan bütün ovçu mağazalarında var və açıq satılır. Ancaq baxmadılar. Nişanlıma beş il iş verdilər. Sonra da heç üstündən dördcə ay

keçməmiş türmədən öldü xəbəri gəldi. Sonradan-sonraya başa düşdüm ki, hamısı Ziyad Kərimlinin kələyi imiş. Yoldaş müstəntiq, nə gizlədim, nişanlımın qara xəbərindən sonra bir müddət özümə gələ bilmədim. İşə-zada getmirdim. Ziyad Kərimlinin sözüynən atam ağzıma vurub, təzədən fabrikə göndərdi. Beş-on gün sexdə işlədim. Ziyad Kərimli yenə məni başdan çıxartdı. Dedi ki, gərək öz yanımda işləyəsən. Sənin haqqında yaxşı planlarım var. Xoşbəxtliyinin açarı mənim əlimdədir. İnstitutda oxutdurub, sonra da müəllim işləyən bacım oğluna alaram. Bu sözə aldandım. Təzədən katibə işlədim. Həmişəki kimi yenə əl çəkmədi. Bir gün işin axırında məni zorla dal otağa saldı... Nəcibə bunu deyib ağladı. Məni bədbəxt elədi... Bu işi heç kimə açıb-ağartmadım. Fikirləşdim ki, bir o bilir, bir mən, bir də ki göydəki Allah. Açıb desəm, el içində rüsvay olaram. Yenə məni aldilə qoydu. Dedi ki qorxma, səni bacım oğluna sırıyarıq, qurtarıb gedər. Mən ləkələnmiş, daha heç kimə lazım olmayan qız olduğumu anlayırdım. Suda boğulan saman çöpündən yapışan kimi, Ziyad Kərimlidən əlimi üzmədim. Mənim başqa çarəm qalmamışdı. İnstituta daxil olmaq, onun bacısı oğlu ilə həyat qurmaq... Nə şirin xəyallar... - Nəcibə dəli sərsəri kimi qəşş eləyib güldü. - Həyat məni Ziyad Kərimlinin felinə uymağa vadar eləmişdi. Artıq gözlərim kor olmuşdu. Vəziyyətdən çıxmaq üçün başqa yol görmürdüm. Sonra fabrikdə bədbəxt hadisə baş verdi. Bir gün səs yayıldı ki, Ziyad Kərimliyə güllə atıblar. Görənlərdən biri gözətçi olub. Gözətçi əvvəlcə prokurora, milisə yazıb verib ki, özcə gözümlə görmüşəm. Gülləni atan Təhmiraz Tahirov idi. Aradan beş-on gün keçməmiş sözünü geri götürdü. Hər yerdə tərsinə danışdı. Bunun üstündə Ziyad Kərimli ilə onun şoferi bir gecənin içində gözətçini boğub öldürdülər. Adını da qoydular ki, özü ölüb. Həkimlər kağız verdilər ki, ürəyindəndi. Həmin gecə iş elə gətirib ki, atam

dəhlizdə durub, əmimin ona göndərdiyi, qaranlıqda şəkli götürə bilən yaponski videokamerasını yoxlayırmış. Yaxşı deyiblər ki, qan yerdə qalmaz. Təsadüf elə gətirib ki, Ziyad Kərimliyə güllə atılması, sonra gözətçinin öldürülməsi əhvalatları atamın videokamerasına düşüb. Birinci hadisənin videokameraya düşməsi tamamilə təsadüfi olub. İkinci hadisəni isə atam səs-küyə yerindən qalxıb, o tərəfə baxıb və çəkib. Atam həmin kasetdəkiləri anama göstərmişdi, anam da gizlincə mənə danışmışdı və bərk-bərk tapşırmışdı ki, ağzımdan çıxmasın. Sonra atanı ilişdirərlər. Mən başıdaşlı isə bir dəfə Ziyad Kərimli boş damarımdan tutub institutdan söhbət salanda dilim dinc durmadı. Fotokamera məsələsini ona danışdım. Ziyad Kərimli bunu eşidəndə ayaq üstə öldü. Mənə çoxlu pul verdi. Yalvardı ki, kaseti oğurlayıb gətirsən, sənə həmin kasetlər ağırlığında qızıl verərəm. Ona bu barədə söz vermişdim. Ancaq bir gecə, vaxtilə atamla birlikdə vilayət qəzetində işləyən Nemət Rəcəbli adlı qəzetçi ilə respublika qəzetinin xüsusi müxbiri Nazim İlham bizə gəldilər. Nazim İlhamın vaxtilə atama yaxşılığı keçmişdi. Yeyib-içəndən sonra o biri otağa keçib, kasetə tamaşa elədilər. Mən qapının arasından xəlvət baxırdım. Həmin kaseti elə o gecə müxbir apardı. Atam vermirdi. Nemət Rəcəbli, anamla birləşib, atamı yola gətirdilər. Beləliklə, kaset əldən çıxdı. Həmin gecə sabaha qədər yatmadım. Fikirləşirdim ki, sabah Ziyad Kərimliyə nə deyim ki, onun yanında yalançı olmayım. Axı, ona söz vermişdim. İnstitutdan əlim çıxmasın deyə, bir də ki, ailə məsələsi... Hər yola getməyə hazır idim... O gecə sabahacan ilan vuran yatdı, mən yatmadım. Axırda belə qərara gəldim ki, Kərimliyə kələk gəlim. Səhər ona dedim ki, kaseti gətirirdim, atam qabağıma çıxdı. Qorxumdan çaşıb həyətdəki su quyusuna atdım. Ziyad Kərimli inandı. Mənə dönə-dönə - sağ ol! - dedi. Bir paçka da onluq verdi. Bir-birimizin sirrini bildiyimiz üçün

əlaqəmizi üzmürdük. Artıq mən pozğun bir qadın olmuşdum. Öz-özümə nifrət edirdim. Başqa çarəm yox idi.

Nəcibə danışığına ara verdi. Bir qədər susdu. Əlini saçına aparıb başını tutdu. Yenə də hönkürtü ilə ağlamağa başladı. Müstəntiq onu sakitləşdirdi, Nəcibəyə ürək-dirək verdi. Nəcibə başını dik tutub, yenə də məğrur-məğrur görkəm aldı və:

- Bu qədər! Ta nə deyim. Pul tökdü, instituta girməyimə kömək elədi, sonra da ki, xoşbəxt oldum... Bax, beləcə gördüyün kimi! O müxbir də ki, deyirəm, Nazim İlham. Onun axırıncı məqaləsini oxumuşam. Hamısını düpbədüz yazıb. Ziyad Kərimliynən general onu da aradan götürməyi planlaşdırırdılar. - Nəcibə yorğun-yorğun sözünə davam elədi. - Danışmadığın daha nə qaldı! Tovuzun evi, general, Aybəniz... Onları da ki, təkrar eləməyin nə mənası? Sözümün əvvəlində hamısını Sizə danışmışam. Artıq başqa çarəm qalmamışdı. Camaat arasına çıxmağa üz qoymamışdım. Axırda bu incə-mincə əllərim karıma gəldi. Ziyad Kərimlinin qanından barmaqlarıma qırmızı xına qoydum. Bəlkə də pis iş görmüşəm, yoldaş prokuror! - Nəcibə baş müstəntiqə rişxəndlə nəzər saldı. Müstəntiq onun vəziyyətini başa düşdüyü üçün dillənmədi. Nəcibə yenə bərkdən güldü:

- Mən öldürmüşəm, vəssalam! Sizə də elə bu lazım deyil? Heç kəsə görünməmək üçün yeganə yolum bu idi. Belə bir vəziyyətdə həbsxana kameralarının qaranlıq küncünə qısılıb-qıvrılmaq mənə xoşdur. Azad həyat isə mənə haramdır. Bu, taleyimin hökmüdür. Sizin hökmünüzə gəldikdə, özünüz bilərsiniz. Axırı ölüm deyil?! Ona da hazıram! - Nəcibə başını şax tutub, qürurla müstəntiqə baxdı.

Baş müstəntiq başını yırğaladı:

- Məsələ aydındır, - dedi.

- Təkcə bu yox, indi hər iki qaranlıq məsələ aydındır. -

Kənarda oturub onu dinləyən Moskvanın xüsusi nümayəndəsi əlavə etdi. - Müxbirdən kasetləri alıb, onun məqaləsi ilə birlikdə istintaq materiallarına əlavə etmək lazımdır.

* * *

Sabah Nazim İlhamın məlum məsələsi ilə əlaqədar qəzetin fəaliyyəti müzakirə olunmalıydı. Lakin bu işin axarı məcrasını dəyişdiyindən məsələ gündəlikdən çıxarılmışdı... Nazim İlham xidmət etdiyi zonaya qayıtmalıydı. O, yola düşməzdən qabaq redaktorla görüşdü. Şadər Hacızadə Nazimin əlini sıxaraq:

- Get, - dedi. - Yaxşı yol, yadında saxla ki, şərin baltası nə qədər iti olsa da, xeyrin budağını kəsə bilməz...

Redaktor: **Nadir Məmmədli**
filologiya elmləri doktoru, professor

Əli İldırımoğlu.
Zorən jurnalist. I hissə.
Bakı, "Nurlan", 2007. 572 səh.

Respublikanın əməkdar jurnalisti, yazıçı Əli İldırımoğlu oxucular tərəfindən maraqla qarşılanan bir çox əsərlərin müəllifidir.

İki hissədən ibarət olan "Zorən jurnalist" epik-psixoloji romanı yazılan çağlarda xalq bir çox romantik hisslərdən, fəzilətlərdən məhrum idi. Yazıçı müasirlərində inam yaratmaq üçün həmin dövrü bütün gerçəkliyi ilə qələmə almışdır.

İ $\frac{4702000000}{N - 098 - 2007}$

© Ə.İldırımoğlu, 2007

Korrektor: ***Elmira Fərruxzadə***
Texniki redaktor: ***Günay Seyidova***
Kompüter dizaynı: ***Zahid Məmmədov***
Yığılmağa verilmiş 07.01.2007.
Çapa imzalanmış 05.06.2007.
Şərti çap vərəqi 35,7. Sifariş № 135.
Kağız formatı 84x108 1/32. Tiraj 500.

Kitab ***"Nurlan"*** *nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
Direktor: ***prof. N.B.Məmmədli***
E-mail: nurlan1959@yahoo.com
Tel: 497-16-32; 850-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.